# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ NAXÇIVAN

**Naxçıvan**
**2010**

**Baş məsləhətçi:** **Vasif Talıbov**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri***

Tərtib edəni və ön sözün müəllifi
**İsmayıl Hacıyev**
***Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü***

Redaktoru **Hacıfəxrəddin Səfərli**
***tarix elmləri doktoru***

***Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan.*** *Naxçıvan-2010, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 384 səh.*

Kitabda Azərbaycan Xalq Cümhuriyyətinin Naxçıvanla əlaqələrindən, onun ermənilər tərəfindən işğalının qarşısının alınması sahəsində həyata keçirilən tədbirlərdən bəhs olunur. Bununla bağlı arxiv materialları, sənədlər, kitab və monoqrafiyalarda çap olunmuş materiallar toplu halında oxucuya təqdim olunur.

4700000000
053-2010

© "Əcəmi" 2010.

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLƏ NAXÇIVANIN ƏLAQƏLƏRİNƏ DAİR

*Rusiyada çarizm devrildikdən sonra rus imperiyasının hər yerində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik yaranmışdı. Bir tərəfdən diyarda qəza komissiyaların və ictimai təşkilatların kənd icraiyyə komitələrinin timsalında müvəqqəti hökumətin hakimiyyəti yaranmış, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları sovetləri, Culfa şəhərində, habelə Şahtaxtı dəmir yolu stansiyasında əsgər sovetləri təşkil edilmişdi.*

*Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi və sonrakı dövrdə hadisələrin inkişafına ciddi təkan verdi. Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə mart ayının 9-da Cənubi Qafqazı idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı.*[1] *Xüsusi Zaqafqaziya Komitəsi elə həmin aydan başlayaraq, bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan qəzalarında müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqları yaratmağa başladı.*[2] *Naxçıvan və Şərur qəzalarında isə Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları 1917-ci il aprel ayının axırlarında təyin edildi. Yalnız 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları – qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlamışdılar. Sonrakı aylarda kənd ictimai təşkilatlarının icraiyyə və ərzaq komitələrinə seçkilər keçirilmiş, 1917-ci ilin yayında isə Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının yaradılması başa çatdırılmışdı.*[3]

*Rusiyada fevral inqilabının qələbəsi və mütləqiyyətin devrilməsi əsarət altına alınmış müstəmləkə xalqları arasında azadlıq əldə etmək ümidlərini artırdı və milli azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Azərbaycan xalqı fevral inqilabı xəbərini böyük sevinclə və ruh yüksəkliyi ilə qarşıladı. Fevral hadisələrindən sonra «Müsavat» partiyası açıq fəaliyyətə başladı. Gəncədə «Federalistlər» partiyası, İrəvanda «İrşad» milli partiyası təsis edildi.*

*Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə uyğun olaraq «qarışıq milli komitələr»*

---

[1] Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, «Garisma» MMC, 2009, s.20.
[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı Universiteti nəşriyyatı, 1996, s.36-37.
[3] Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958, s.14-15.

yarandı.[1] Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlandı. Milli komitələrdə təmsil olunan başlıca partiyalar – müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə təşkilatçılarını göndərdilər. Əlbəttə, ilk vaxtlar belə tədbirlər, daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Belə bir cəhəti qeyd etməliyik ki, Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi onların qarışıq milli komitələrdə də təmsil olunmasında özünü göstərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkar tədbirlərə əl atır, milli düşmənçiliyi qızışdırırdılar. Bu isə, təbii olaraq müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli Komitələrin «milli hissələr» bayrağı altında öz silahlı qüvvələrini yaratması erməni fitnəkarlarının təhlükəli mövqe tutmasına imkan verirdi. Lakin Naxçıvan milli komitəsində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynadı. Hadisələrin sonrakı inkişafı bunu bir daha təsdiqlədi.

Naxçıvanda fəaliyyət göstərən sovetlərin işi ilə bağlı qeyd etmək lazımdır ki, onlar daha çox rus ordu hissələrinə arxalanırdılar. Məsələn, 1917-ci il martın 9-da Naxçıvanda ştabs-kapitan Prokopoviçin təşəbbüsü ilə yaradılan qarnizon komitəsi fəaliyyətinin ilk günlərində qarnizon rəisi Qrippenberqi vəzifəsindən kənar etmiş, Tiflis qarnizonu Sovetinin İcraiyyə Komitəsi ilə əlaqə yaratmağa çalışmışdı. Martın ortalarında Şahtaxtı Soveti 6-cı Qafqaz fəhlə batalyonunun polkovniki Vişkonu həbs etmişdi.

İlk vaxtlar Sovetlərin fəaliyyətində yerli əhali demək olar ki, iştirak etməmişdi. Bu hal təsadüfi deyildi. Çünki rus qoşun hissələri Naxçıvandan çəkildikdən sonra Sovetlərin fəaliyyəti xeyli zəifləmiş və onlar Naxçıvan Milli Komitələri tərəfindən dağıdılmışdı.

1918-ci ilin əvvəllərində Naxçıvan ciddi təhlükəyə məruz qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar.[2] Təqribən bir il ərzində erməni cəlladları İrəvan quberniyasında 197 kəndi talan etmişdilər.[3]

1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını Zaqafqaziya Seyminin əvəz etməsi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq

[1] Musayev İ. Göstərilən əsəri, s. 37.
[2] Yenə orada, s. 39.
[3] Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy.1, iş 185, v. 7.



uğrunda fəaliyyətin güclənməsi Naxçıvan milli komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və nəticədə müsavatçılarla birgə fəaliyyət imkanları təbii olaraq aradan qalxdı.

Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi.

Bakının daşnakların və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Milli Komitəsi real köməyi yalnız türklərdən ala bilərdi. Buna görə 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına getmiş, burada Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar aparmışdı. Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Zaqafqaziya Seymi Cəfərqulu xanın belə hərəkətlərindən narazı qalmış və bunu Naxçıvan xanlarının Zaqafqaziya Seymini və Rusiyanı tanımaq istəməməsi kimi qiymətləndirmişdi.[1]

Daşnakların mənfur niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ 1918-ci ilin fevralında Naxçıvanın təhlükəsizliyi naminə bir sıra tədbirlər görmüş və öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Bu əməliyyatın vacibliyi həm də bundan irəli gəlirdi ki, o zaman Şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşaraq onun həyati mənafeyi üçün real təhlükə yaratmışdı. Türk komandanlığı Zaqafqaziya Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, eləcə də Culfa-Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsi zəruriliyini qeyd etdilər. Belə təqdirdə, Naxçıvan diyarının da daşnakların yeni basqınlarından qorunması üçün real təminat əldə olunardı. Zaqafqaziya Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandiri Mehmet Vehib paşa ilə barışıq bağlasa da, türklərin yuxarıda qeyd etdiyimiz tələblərini qəbul etmədi. Bunlarla belə, türklərin Zaqafqaziya Komissarlığı ilə müstəqil surətdə danışıqlara başlamaq təklifi qəbul olunmuşdu. Bu təklif mahiyyət etibarı ilə Zaqafqaziyanı Rusiyadan ayırmaq yolunda ciddi addım sayıla bilərdi. Danışıqlar 1918-ci ilin martın 14-də Trabzon şəhərində başlanmışdı. Həmin il aprelin 22-də Zaqafqaziya Seyminin «Zaqafqaziyanın müstəqil demokratik, federativ dövlət elan etməsi»[2] ilə Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi. May ayında Türkiyə ilə danışıqlarda heç bir irəliləyişin olmaması və mayın 19-da danışıqların kəsilməsi 1918-ci ilin mayında Cənubi Qafqazda üç müstəqil respublikanın – Azərbaycan,

[1] Sadıqov S. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995, s.15.
[2] Svyatoxovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı, Xəzər Universiteti nəşriyyatı, 2000, s.92.

*Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi.*

*1918-ci ilin mayında müsəlman şərqində ilk dəfə yaradılmış yeni suveren dövlət – Azərbaycan Xalq Cümhuriyyəti çətin və mürəkkəb şəraitdə 23 ay yaşayıb fəaliyyət göstərdi. Bu Cümhuriyyət Rusiya ilə yanaşı dünyanın böyük dövlətlərinin – ABŞ, İngiltərə və Fransanın siyasi, iqtisadi siyasətlərinin məngənəsində mübarizə aparmalı oldu, öz suverenliyini qoruyub saxlamaq üçün bütün vasitələrə əl atdı, bu yolda çox mürəkkəb problemlərlə üzləşdi. Bu dövlətlərin təzyiqi altında 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurası Azərbaycan – Ermənistan arasındakı sərhəd problemini müzakirə edərkən öz suverenliyini qoruyub saxlamaq naminə İrəvanın ermənilərə verilməsi qərarını çıxarmağa məcbur oldu və bu qərarı ürək ağrısı ilə "tarixi zərurət", "labüd bəla" hesab etdi.*[1]

*Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu ölkələr Azərbaycana qarşı bir sıra ərazi iddiaları irəli sürürdü. Bu zaman onun ərazisi 113.895, 97 kv. km idi. Onun 97.296,67 kv.km-i mübahisəsiz, 16.598,30 kv km-i mübahisəli zonaları əhatə edirdi.*[2]

*Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı.*

*Azərbaycan tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasəti, Antanta ölkələri ilə əlaqələri, qonşu ölkələrlə münasibətləri, daxili regionlarla əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər bir sıra tarixçilər tərəfindən öyrənilmişdir.*

*Bu sahədə T.Svyatoxovski, O.Alştadt, C.Həsənli, N.Nəsibzadə, İ.Musayev, A.Hacıyev, B.Nəcəfov, A.Balayev və başqalarının tədqiqatları diqqəti xüsusilə cəlb edir.*

*Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrindən tədqiqat əsərlərində bəhs edilsə də problemin bütün tərəfləri öyrənilməmişdir. Hətta bu problemlə bağlı müxtəlif fikirlər mövcuddur. Azərbaycan sovet tarixşünaslığında belə bir fikri əsaslandırmağa çalışmışlar ki, guya Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ayrı-ayrı bölgələrin ərazi toxunulmazlığını və onların əhalisinin təhlükəsizliyini nənki təmin edə bilməmiş, hətta buna cəhdlər belə göstərməmişdir. Lakin arxiv sənədləri, obyektiv araşdırmalar bu mövqeyin həqiqətə uyğun olmadığını göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin "rəhbərliyi və yerli hakimiyyət orqanları imkanları daxilində bu problemlərə diqqət yetirmiş, torpaqlarımızın bütövlüyü və suverenlik məsələlərində daxili-xarici düşmən qüvvələrə qarşı barışmaz mövqe tutmuşlar".*[3] *Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti*

---

[1] ARDA, f. 970, siy. 1, iş 1, v. 51.

[2] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı, «Elm», 2008, s. 161.

[3] Musayev İ. Göstərilən əsəri, s. 142.



*və parlamenti öz fəaliyyətində, daxili və xarici siyasətində Naxçıvanla bağlı bir sıra məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş və ona siyasi, hərbi, maddi və mənəvi köməkliyini göstərmişdir.*

*Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə əlaqədar Naxçıvan ətrafında yeni konkret tarixi şəraitdə sosial və ictimai-siyasi qüvvələrin yeni nisbəti yaranmışdı. Cümhuriyyətin fəaliyyət göstərdiyi dövrdə baş vermiş sosial və siyasi proseslər bir-biri ilə çox sıx əlaqəli inkişaf edirdi. Bu proseslər daxili və xarici amillərin mürəkkəb qarşılıqlı təsirini əks etdirən bir mənzərə yaratmışdı.*

*RSFSR çar Rusiyasından miras qalmış millətçilik ideologiyasını hər vəchlə müdafiə və inkişaf etdirərək çox mürəkkəb şəraitdə müsəlman aləmini parçalamaq, bu regionda ona arxa ola biləcək xristian dövləti – Ermənistan Respublikası yaratmaq məqsədi ilə cəhdlərini daha da genişləndirirdi. Rusiya Türkmənçay müqaviləsi əsasında Azərbaycandan qoparıb imperiyaya birləşdirilmiş ölkəmizin tarixi torpaqlarının – İrəvan quberniyasının, həmin əraziyə tabe edilmiş Naxçıvan diyarının, Şərur-Dərələyəz və Ordubad qəzalarının süni surətdə yaradılmış Ermənistana birləşdirilməsini elan etdi.*

*Həmin illərdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrildi. Bu dövr Naxçıvanda hakimiyyətin tez-tez dəyişilməsi illəri olmuşdur. Bu müddətdə Ermənistan Respublikası, Xüsusi Zaqafqaziya Komitəsi, müsavatçılardan və daşnaklardan ibarət yaradılmış Milli Komitələr, ABŞ, İngiltərə, Türkiyə arasında Naxçıvana yiyələnmək uğrunda ardı-arası kəsilməyən mübarizə getmişdir.*

*Ermənistan Respublikasının Naxçıvana hücumları, hakimiyyət çəkişmələri bu ölkəni daha çıxılmaz vəziyyətə salmışdı. Əhalinin xeyli hissəsi qaçqına çevrilmişdi, aclıq hökm sürürdü.*

*Naxçıvan diyarına 1828-30-cu illərdə köçürülmüş və orada məskunlaşmış erməni əhalisi diyarda vəziyyətin daha da mürəkkəbləşməsinə çalışırdı. Naxçıvandakı ermənilərə, xarici silahlı qüvvələrə arxalanan Ermənistan Respublikası Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətlərini daha da genişləndirirdi. ABŞ, İngiltərə, Fransa, Rusiya dövlətləri Ermənistan Respublikasına hərtərəfli yardım göstərirdilər. Naxçıvan erməniləri diyarın təkləndiyindən və daxildəki ziddiyyətlər, habelə hakimiyyətsizlik məngənəsində boğulduğundan istifadə edərək Naxçıvanın ən yaxın vaxtlarda Ermənistana birləşdiriləcəyi barədə şayiələr yayır, bu yerlərin Ermənistanın bir hissəsi olduğunu iddia edirdilər. Erməni qüvvələri vəziyyətin mürəkkəbliyindən, qarışıqlıqdan istifadə edərək "Böyük Ermənistan" yaratmaq üçün ərazi iddiaları irəli sürürdü. Ermənilər torpaq iddiaları ilə bağlı layihə hazırlamış və bunu Ənvər paşaya təqdim etmişdilər.*

*Bu layihəyə görə Naxçıvan və Ordubadla birlikdə Sürməli, Axalkələk, Eçmiədzin, İrəvan (qəzası), Borçalı, Qazax, Şərur-Dərələyəz, Qarabağ və Zəngəzur qəzaları Ermənistana verilməli idi.*[1] *Ermənilər bu tələblərini onunla əsaslandırırdılar ki, guya bu qəzaların əhalisinin 70 faizi ermənilərdir.*[2] *Əslində isə Şərur-Dərələyəz qəzasında əhalinin 72,3 faizini, Naxçıvan qəzasında 62,5 faizini, İrəvan qəzasında 60,2 faizini, Sürməlidə 70 faizini, Qarayazıda 89 faizini azərbaycanlılar təşkil edirdi.*[3]

*Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi.*

*1918-ci ilin yayında Naxçıvan ikitərəfli təhlükə ilə rastlaşdı. Bir tərəfdən Naxçıvana köçürülən və burada yaşayan erməni əhalisi bu diyarın Ermənistana birləşdiriləcəyi barədə yayılan şayiələrdən ruhlanaraq Naxçıvana Ermənistanın bir hissəsi kimi baxır və diyarın müxtəlif yerlərində hər cür fitnəkarlıq törədirdilər. Digər tərəfdən isə daşnakların ingilislərdən geniş yardım alaraq Culfanı öz əlinə keçirmiş qaniçən Andranik Ozanyan Naxçıvanın şəhər və kəndlərini talan edir, dinc əhalini kütləvi surətdə qırırdı: Yaycı, Dizə, Düylün, Süst, Çeşməbasar, Tumbul və b. kəndlər tamamilə dağıdılmışdı. Lakin bu azğınlıqlara baxmayaraq müttəfiq dövlətlər – İngiltərə və Fransa daşnakların hərbi əməliyyatlarına yardım göstərdiklərini bildirməkdə davam edirdilər.*

*Belə ağır vəziyyətdə Naxçıvan Milli Komitəsi haqlı olaraq türklərlə əlaqəni daha da genişləndirməyi lazım bildi. Həmin vaxtda türklər Şərur-Dərələyəz və İrəvan-Culfa dəmir yolunu öz əllərinə keçirərək Naxçıvana doğru irəliləyirdilər. Kazım Qarabəkir paşanın komandanlığı altında olan türk diviziyası Şərur qəzasına daxil olduqdan sonra hücumu müvəqqəti dayandırmış və beləliklə Andranikin Naxçıvanı ələ keçirməsi üçün əlverişli imkan yaranmışdı. Belə bir şəraitdə Naxçıvan Milli Komitəsi daşnakların sayca üstün qüvvələri ilə döyüşə girmədən geri çəkilməyi məqsədəuyğun sayırdı. Bununla belə bütün xalq öz torpaqlarının müdafiəsi üçün ayağa qalxdı. Nehrəm kəndində qonşu kəndlərin nümayəndələrinin fəal iştirakı ilə xalq qoşun dəstələri yaradıldı. Xalq qoşunu 1918-ci il iyunun axırlarında Nehrəm kəndi yaxınlığında Andranikin quldur dəstəsi ilə qarşılaşaraq onu əzdi. Andranik rüsvayçılıqla Qarabağ dağlarına qaçmağa məcbur oldu. Bu hadisələrdən sonra, yeni daşnak talanlarına yol verməmək məqsədilə türk qoşunları Naxçıvana, Ordubada və Culfaya daxil oldular. Türklərin daşnaklara qarşı döyüşdə kifayət qədər qətiyyətli olmaması*

---

[1] Həsənli C. Göstərilən əsəri, s. 116.
[2] ARDA, f.894, siy. 10, iş 31, v. 4.
[3] Həsənli C. Göstərilən əsəri, s. 366.



*Naxçıvan Milli Komitəsi ilə onların arasında soyuqluq yaratmışdı. Türklər Naxçıvana daxil olan vaxt ilk siyasi tədbir kimi Naxçıvan Milli Komitəsini və milli hissələri buraxmışdılar. Xəlil bəy isə Naxçıvanın general-qubernatoru təyin olunmuşdu.*[1]*Lakin vəziyyət uzun sürmədi. Tezliklə Naxçıvan Milli Komitəsinin və onun silahlı dəstələrinin fəaliyyəti bərpa edildi. 1918-ci ilin ikinci yarısında müharibə cəbhələrində Türkiyənin vəziyyəti çətinləşdikcə o, Naxçıvanda daha güclü və sabit yerli hakimiyyətin yaradılmasına meyl göstərirdi. Elə yerli hakimiyyət ki, daşnakların hücumuna davam gətirsin və diyarı heç vaxt onların tapdığı altına qoymasın. Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu.*

*1918-ci ilin noyabrında yerli əhali Qafqazda altıncı olan Araz-Türk Respublikasının müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi.*[2]

*Araz-Türk Respublikasının əhalisi 1 milyon nəfər, ərazisi 8696 kv.km olmaqla*[3] *tərkibinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və s. bölgələr daxil idi.*[4] *Respublikanın paytaxtı Naxçıvan şəhəri, hökumətin sədri isə Əmir bəy Əkbərzadə olmuşdur.*[5] *Araz-Türk Respublikasının silahlı qüvvələrinin köməyi ilə yerli əhalinin fəal müqaviməti nəticəsində Ermənistanın daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı.*

*Araz-Türk Respublikasının yaradılması ilə türklərin Naxçıvan diyarı ilə əlaqələri tamam kəsilmirdi. Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasında səlahiyyətli nümayəndəliyin başçısı təyin olunmuşdu.*[6] *Bundan başqa, türklərin Naxçıvanda 5 zabit və 300 əsgəri qalırdı. Araz-Türk Respublikası qısa müddət fəaliyyət göstərməsinə (1918 noyabr – 1919 mart) baxmayaraq «bölgənin azərbaycanlı əhalisinin qüvvələrinin düşmənlərə qarşı mübarizə üçün birləşdirilməsinə və bölgənin ermənilərə keçməsinə imkan verməməklə onun toxunulmazlığını və bununla da ADR-in ərazi bütövlüyünü təmin etdi».*[7]

*Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. Onlar 1919-cu il yanvarın*

---

[1] Atnur İ.E. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçivan (1918-1921). Doktora tezi. Erzurum, 1996, s.36.
[2] Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı, Azərnəşr, 1994, s.47.
[3] Naxçıvan tarixi atlası. Bakı, 2010, s. 33.
[4] ARDA, f. 970, siy. 1, iş 1, v. 9.
[5] Yenə orada, f. 894, siy. 10, iş 178, v.7.
[6] Naxçıvan Muxtar Respublikası. Bakı, «Elm», 2001, s. 91.
[7] Musayev İ. Göstərilən əsəri, s.76.

*4-də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyskiyə ünvanlanmış müraciətdə Naxçıvan, Şərur və Ordubad qəzalarında ermənilərin törətdikləri vəhşiliklər haqqında geniş məlumat verilirdi. Müraciətdə deyilirdi: "1917-ci ilin dekabr ayından başlayaraq 1918-ci ilin iyun ayına qədər erməni hərbi hissələri tərəfindən İrəvan quberniyasında 200-dən artıq müsəlman kəndi yandırılmış, əhalinin böyük əksəriyyəti öldürülmüş, bir hissəsi isə dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. Müsəlmanların kütləvi şəkildə yaşadıqları İrəvan quberniyasının Sürməli, Eçmiədzin, Şərur qəzaları erməni qoşunları tərəfindən tutmağa başladığı vaxt dinc müsəlman əhalisinin bir hissəsi öldürülür, bir hissəsi də öz yaşayış yerlərini tərk edərək dağlara çəkilib İran sərhədlərinə keçməyə məcbur olmuşdular ki, burada onları hər dəqiqə ölüm gözləyirdi. Məcburi təmizlənmiş yerlərə, «Türkiyə Ermənistanından» qaçmış erməniləri yerləşdirirlər».[1]*

*1918-ci il noyabrın 4-də İrəvan müsəlmanları, dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanları, yanvarın 4-də Ordubad qəzasının sakinləri, yanvarın 2-də İrəvan quberniyasının ictimai xadimləri yaranmış ağır vəziyyətlə bağlı Azərbaycan hökumətinə müraciət etmiş və tədbirlər görülməsini xahiş etmişlər.[2]*

*1918-ci il dekabrın 22-də Ordubad şəhərinin və ətraf ərazinin müsəlmanlarının Milli Komitəsinin sədri Mir Hidayət Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin hökumətinə xəbər verirdi ki, «bəzi kəndlərdə bütün Zəngəzur qəzasının Ermənistana birləşməsi barədə Ermənistan hökumətinin elanları asılmışdır. Onların məqsədi bundan ibarətdir. Əgər bunu etməyə gücləri çatmasa, Zəngəzur, Şərur-Naxçıvan və Ordubad qəzalarının bütün müsəlman əhalisini qılıncdan keçirsinlər, bu qəzaları müsəlmanlardan təmizləsinlər ki, xalqların gələcək sülh konfransında özlərinin bu yerlərə sahiblik hüquqlarını sübut etsinlər və həmin əraziləri Ermənistan elan etsinlər, çünki bütün xalqlar müsəlmanların yaşamadığı qəzaları ermənilərinki hesab edəcəklər... Nə vaxta qədər bizim hökumət öz müsəlman qardaşlarının qırılaraq məhv edilməsinə yabançı kimi soyuqqanlıqla tamaşa edəcəkdir... Əgər ermənilər bu əraziləri müsəlmanlardan təmizləsələr, sonra gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq və burada bizim xalqımızın izi də qalmayacaq...»[3]*

*1919-cu il yanvarın 7-də Azərbaycan hökuməti Ermənistan hökumətinə nota göndərməyə məcbur oldu. Notada Azərbaycan xalqına qarşı zorakılığa son qoyulması tələb olunurdu.[4]*

---

[1] ARDA, f. 894, siy. 10, iş 37, v. 9.
[2] «Azərbaycan» qəzeti, 1919, 5-31 yanvar; 4 noyabr.
[3] Yenə orada, 14 yanvar.
[4] Yenə orada, 7 yanvar.



*Yanvarın 8-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti müzakirə etdi, qəbul olunmuş qətnamədə hökumətə ciddi tədbirlər görməyi tapşırdı.*

*Yanvarın 25-də Parlament «İrəvan quberniyasındakı hadisələrə dair» məsələni yenidən müzakirə etdi. M.Ə.Rəsulzadə bəyanatla çıxış edərək bildirdi ki, Naxçıvan qəzasında ermənilər günahsız müsəlmanların qanını tökür. O, hökuməti bir daha kəskin tədbirlər görməyə çağırdı.[1]*

*Azərbaycan Xalq Cümhuriyyətihökuməti ermənilərin Naxçıvandakı vəhşiliklərinə son qoymaq üçün Müttəfiqlərin Qafqazdakı Ali Komissarına müraciət etdi.*

*Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılmasında və əhalinin problemlərinin həllində İrəvan quberniyasından olan ictimai xadimlərin, onların yaratdıqları müxtəlif təşkilatların mühüm rolu olmuşdur. 1919-cu ilin yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirilmiş, burada Araz-Türk Respublikasının yaranması, bölgədəki vəziyyət haqqında məlumat verilmiş və çıxış yolları göstərilmişdir. Yanvarın 5-də Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlı nümayəndələrin fövqəladə iclası keçirilmiş və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradılmışdı.[2] Bir gün sonra həmyerlilər cəmiyyətinin idarə heyəti seçildi: T.Makinski, H.Qasımov, R.İsmayılov, M.Ə.Sidqi, A.Makinski.*

*Həmyerlilər cəmiyyəti öz nümayəndəsi kimi Mirabbas Mirbağırovu İrəvan quberniyasına göndərdi. Burada əsas məqsəd yerlərdə vəziyyətlə tanış olmaq və müəyyən tövsiyyələr hazırlamaq idi. İrəvan quberniyasından olan qaçqınlar üçün vəsait ayrıldı. Azərbaycan hökumətinin Naxçıvan üçün ayırdığı 900 min manatı P.Bayrambəyov və Y. Qazıyevə vermişdi.[3] AXC hökumətinin razılığı ilə M.Mirbağırov Gəncəyə gəlmiş, burada ona 12 nəfər Azərbaycan zabiti qoşulmuş və onlar Ordubadda əhali ilə görüşdükdən sonra 1919-cu il fevralın 19-da Naxçıvana çatmışlar.[4]*

*M.Mirbağırov və onunla gələn heyət yerli hökumətin rəhbərləri, ingilis general-qubernatoru və xalqın nümayəndələri ilə görüşləri oldu. Fevralın 23-də keçirilən yığıncaqda xalq yekdilliklə Azərbaycana birləşmək arzusunda olduqlarını bildirdilər. Nümayəndələr Azərbaycanın təmsilçiləri kimi mövcud yerli hökuməti tanıdıqlarını bildirdilər. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə dair maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və əhalinin*

---

[1] «Azərbaycan» qəzeti, 1919, 31 yanvar.
[2] ARDA, f. 894, siy. 2, iş 94, v. 2.
[3] Musayev İ. Göstərilən əsəri, s. 92.
[4] ARDA, f. 894, siy. 2, iş 94, v. 2.

*nümayəndələri tərəfindən imzalandı.*[1] *Mirabbas Mirbağırov (Mirbağırzadə) 1919-cu ildə Naxçıvanın Azərbaycana birləşməsi haqqında akt qəbul etdirmiş «Mirbağırzadə missiyası»nın başçısı kimi xatırlanır.*[2] *M.Mirbağırov Naxçıvanda olduğu müddətdə bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış oldu, əhalinin və ictimai qüvvələrin mövqelərini öyrəndi. Bütün bunlardan sonra Azərbaycan hökumətinə aşağıdakı təkliflərini verdi: «1. Bu mahalı idarə etmək üçün müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə iradəli, cəsur, qətiyyətli, rüşvətə meyl etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır. 2. Bölgəyə Hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir. 3. Mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılar təyin edilməlidirlər. 4. Yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır. 5. Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu və digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən saxavətlə təchiz olunmalıdırlar».*[3]

*M.Mirbağırovun Naxçıvana səfəri, Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrinin artırılması sahəsindəki təkliflərinin çox böyük əhəmiyyəti oldu. Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı. Azərbaycan hökuməti Naxçıvana kömək göstərilməsində bir sıra addımlar atdı. Regional əlaqələri yaxşılaşdırmaq üçün Ağdam-Karyagin-Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqət artırıldı.*[4] *Ticarət və sənaye naziri M.Əsədullayev AXC Nazirlər Şurasına məktubla müraciət edərək Naxçıvan bölgəsinin neft məhsulları ilə təmin edilməsini əsaslandırdı. Azərbaycan hökuməti M.Mirbağırovun və Naxçıvanın Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin təklifləri əsasında 1919-cu il fevralın 28-də Naxçıvan general-qubernatorluğu yaratdı.*[5] *Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov onun köməkçiləri təyin olundular. General-qubernatorluğun nəzdində Şura yaradıldı. Yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanması üçün 500*

[1] Musayev İ. Göstərilən əsəri, s. 94.
[2] Tahirzadə Ə. Mirabbas Mirhüseyn oğlu Mirbağırzadə. «525-ci qəzet», 2005, 19 fevral.
[3] Musayev İ. Göstərilən əsəri, s. 95.
[4] Hacıyev A. Göstərilən əsəri, s. 61.
[5] ARDA, f. 894, siy. 2, iş 102, v.2.



*min manat pul ayrıldı.*[1] *Bir qədər sonra – 1919-cu il 30 mart tarixli sərəncamla bölgədə idarəçiliyin təşkilinə daha 1 milyon manat ayrıldı.*[2]

*1919-cu il martın 8-də Araz-Türk Respublikasının xüsusi missiyası Bakıya gəldi. Bu missiyaya Bəhram xan Naxçıvanski rəhbərlik edirdi. O, yolüstü Tiflisdə və Gəncədə danışıqlar aparmışdı. Bəhram xan özü ilə yerli Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi.*[3] *Məhz Bəhram xan Naxçıvanskinin Bakıya səfərindən və AXC rəhbərləri ilə danışıqlarından sonra iki respublika arasında qarşılıqlı əlaqələrin fəallaşması nəzərə çarpır. Nümayəndə heyətinin qaldırdığı məsələlər Azərbaycan Parlamentinin 1919-cu il 10 mart tarixli iclasında müzakirə olundu.*

*1919-cu ilin əvvəlində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını, Naxçıvan Milli Komitəsini ləğv etdilər. İngilislər Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək üçün hər cür üsul və vasitələrə əl atır, fəal danışıqlar aparırdılar. Hələ 1919-cu il yanvarın əvvəllərində Böyük Britaniya ordusunun mayoru Hibbon Naxçıvana gəlmişdi. Onun gəlişinin əsl məqsədi diyarın iqtisadi və siyasi vəziyyəti ilə tanış olmaq, Araz-Türk Respublikası silahlı qüvvələrinin vəziyyətini, bu dövlətin siyasətinə türklərin təsir dərəcəsini öyrənmək olmuşdu.*[4]

*1919-cu ilin fevralında digər bir ingilis komissarı kapitan Lautenin başçılıq etdiyi nümayəndə heyəti də Naxçıvana gəlmişdi.*[5] *O, Britaniya qoşun hissəsinin Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda yerləşdirilməsi, bu yerlərdə bütün məsələlərin ingilis hakimiyyət orqanları tərəfindən həll ediləcəyi barədə danışıqlar aparmışdı. Naxçıvan rəhbərləri yerli muxtariyyəti saxlamaq şərtilə ingilislərin təkliflərini qəbul etmiş və hətta bir neçə ingilispərəst yerli hakimi öz hökumətlərinin tərkibinə daxil etmişdilər.*[6] *Əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq mövqelərinin kifayət qədər aydınlaşmadığı bir şəraitdə məqbul sayılan bu güzəştlər ingilislərə münasibətdə məqsədəuyğun addımlar idi. Bu güzəştlər başqa çıxış yolunun olmamasından və növbəti daşnak təhlükəsinin yaxınlaşmasından irəli gəlirdi.*

*Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvan bölgəsinə dair suveren hüquqlarının bərqərar edilməsinə yönəldilən tədbirlərin həyata keçirilməsi ingilislər tərəfindən müdafiə olunmur və müxtəlif maneələrlə*

[1] Musayev İ. Göstərilən əsəri, s.96.
[2] ARDA, f. 894, siy. 2, iş 102, v. 3.
[3] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, «Ay-Ulduz», 1996, s. 161.
[4] Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. Баку, 1968, с.56.
[5] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 314, siy.5, iş 67, v. 24.
[6] NMRDA, f. 314, siy. 5, iş 67, v. 26.

*qarşılaşırdı.*[1] *Ümumiyyətlə, Böyük Britaniya komandanlığının Naxçıvana münasibətdə ikiüzlü, riyakar siyasəti həmişə müşahidə olunmuşdur. Məsələn, M.Mirbağırovun başçılığı ilə Naxçıvana gələn nümayəndə heyətinə ingilis valisi «Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını» bildirib, onlara eşitdirdi ki, «bu ərazi həlalik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil ki, kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur... Mən sizə qonaq kimi baxıram, necə ki, qonaq kimi gəlmisiniz, elə də qonaq kimi gedə bilərsiniz».*[2]

*Başqa bir fakt: 1919-cu il martın 10-da Ermənistanla Naxçıvan şəhərindəki daşnak hərbi hissələrindən Ermənistanın daxili işlər nazirinin adına göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı daşnakların Şərur qəzasının bir sıra kəndlərini tutmasına etiraz etmir. Elə bu siyasətin nəticəsi olaraq 1919-cu il iyulunda daşnak hərbi dəstələri ingilislərin köməyi ilə Şərur mahalını tutsalar da yerli hərbi qüvvələr daşnakların hərbi hissələrini buradan qovdu.*[3]

*Yenə başqa bir misal: 1919-cu il mayın 4-5-də ingilis generalı Devi Naxçıvana gələrək bildirmişdir ki, Naxçıvan və Şərur qəzası Ermənistan Respublikası ərazisində yerləşdiyinə görə Ermənistan hökumətinə tabe olmalıdır.*[4] *Lakin həmin təklif müsəlmanların yığıncağında müzakirə olunarkən bildirildi ki, ermənilərin tutmuş olduqları ərazilər tarixən Azərbaycan torpaqları olduğundan və müsəlmanlar yaşadıqlarına görə Devinin təklifi məqbul sayıla bilməz. Naxçıvan və Şərur qəzalarının müsəlmanları özlərinin və yaşadıqları ərazinin Azərbaycan Respublikasına tabe olduğunu təsdiq edir və erməni silahlı hissələrini deyilən qəzaların ərazisinə buraxmamağı qərara alırlar.*[5] *Lakin ingilis komandanlığı xalqın bu haqlı tələbinə də məhəl qoymadı. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək Naxçıvan ərazisindən kənara atdı.*[6] *Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər.*[7] *Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi. Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi.*[8]

*İngilislərin Naxçıvan bölgəsində olduqları müddətdə Azərbaycan*

[1] Musayev İ. Göstərilən əsəri, s.129.
[2] ARDA, f. 894, siy. 10. iş 76, v. 3.
[3] Naxçıvan Muxtar Respublikası. Bakı, «Elm», 2001, s. 91-92.
[4] NMRDA, f. 314, siy. 5, iş 71, v. 17.
[5] «Азербайджан» qəzeti, 1919, 16 may.
[6] ARDA, f. 970, siy. 1, iş 42, v. 3-4.
[7] Nəsibzadə N. Göstərilən əsəri, s. 165.
[8] Mədətov Q. Göstərilən əsəri, s.51-53.



*Xalq Cümhuriyyətinin rəhbərliyi bu əraziyə dair öz suveren hüquqlarını müdafiə etmək, oranın təhlükəsizliyinin təminatına yardım göstərmək və azərbaycanlı əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, ən başlıcası isə, mahalı Quzey Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində müəyyən tədbirləri həyata keçirmək istəyirdi. Bir sıra hallarda ingilislər bunlara mane olurdular. İrəvan quberniyası müsəlman əhalisinə 1 mln. manat vəsait çatdırılması üçün F.Xoyski 1919-cu il aprelin 3-də məktubla Tomsona müraciət etdi. Həm də hökumət komissiyasının Naxçıvan, Şərur və s. rayonlara getməsinə şərait yaradılmasını da xahiş etdi. Lakin hər iki xahişə mənfi cavab verildi.*

*İngilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər.*[1]

*Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi Naxçıvanla bağlı hərbi səciyyəli müəyyən işləri görə bilməsə də bəzi diplomatik-siyasi yollardan istifadə edirdi. Bu sahədə Azərbaycan hökumətinin İrəvan və Tiflisdəki diplomatik nümayəndələri səmərəli və işgüzar fəaliyyət göstərir, Azərbaycan rəhbərliyini və Xarici İşlər Nazirliyini obyektiv məlumatlarla təmin edir, bir sıra hallarda təkliflərini də çatdırırdılar. M.Təkinski Naxçıvanla bağlı AXC hökuməti sədrinə yazırdı ki, əgər Ermənistan Qarabağın Azərbaycana keçməsinə razılaşarsa, ingilislər Şərur-Naxçıvan rayonunu ona verəcəklər*[2]*. Onun fikrincə, əhalisinin əksəriyyəti müsəlmanlardan ibarət olan Şərur və Naxçıvanı ermənilərə vermək olmazdı. Naxçıvan bölgəsində ermənilərin özbaşınalıqlarının qarşısının alınmasında da M.Təkinskinin böyük əməyi olmuşdur.*[3] *O, bu məsələlərlə əlaqədar məlumat hazırlayaraq Xarici İşlər Nazirliyinə göndərirdi.*

*Bununla əlaqədar F.Xoyski Azərbaycan hökumətinin məlum mövqeyini Tomsona bildirmişdi. Yəni, Naxçıvan rayonunun idarəsi müvəqqəti olaraq Ermənistana verilərsə, onlar bu aktla heç vəchlə razılaşmayacaqlarını çatdırmışdı.*

*Naxçıvan bölgəsinin müsəlmanları özlərini Azərbaycanın ayrılmaz hissəsi sayır və hökumətdən silah-sursat alacaqlarına ümid edirdilər. Bu dövrdə Şərur-Naxçıvan hissəsində süvari dəstə və top, pulemyotlarla birlikdə 6 minədək qoşun hissələri olmuşdur.*[4] *Bunlar öz döyüş keyfiyyətlərinə görə ermənilərinkindən heç də geri qalmırdı. Naxçıvanlılar Baş nazirdən buraya zabit kadrları göndərməyi və 100 min manat pul buraxılmasını*

[1] Мадатов Г. Göstərilən əsəri, s.59.
[2] ARDA, f. 970, siy. 1, iş 54, v. 18.
[3] Paşayev A. Məmməd xan Təkinski kimdir? «Xalq qəzeti», 2010, 18 iyul.
[4] Musayev İ. Göstərilən əsəri, s.143.

*xahiş edirdilər.*[1] *Azərbaycan hökuməti Naxçıvan, Şərur, Ordubad rayonları üçün Naxçıvan Milli Şurasına 400 min manat göndərmişdi və daha 300 min manat göndərilməsi nəzərdə tutulmuşdu.*

*Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş F.Xoyski və N.Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir və qəhrəman naxçıvanlıların fəaliyyətlərini də yüksək qiymətləndirirdilər. F.Xoyski parlamentin iclasında Naxçıvan bölgəsinin qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün öz həyatları və ailələri ilə risq edərək mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. N.Nusifbəyli 1919-cu il avqustun 18-də parlamentdəki çıxışında bu bölgə ilə bağlı qeyd etmişdir ki, Naxçıvan öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu bildirmişdi.*[2] *1919-cu il dekabrın 22-də N.Yusifbəyli parlamentdəki çıxışında yenidən bu məsələyə qayıdaraq demişdir: «İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa-vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar...».*[3]

*Göründüyü kimi, Naxçıvan əhalisi ciddi-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün müxtəlif yol və vasitələr aramışdı. Bütün bunlar isə AXC tərəfindən razılıqla qəbul olunmuş, müəyyən tədbirlər görülmüşdü.*

*Qeyd etməliyik ki, Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanla əlaqələrin çətinliyini nəzərə alaraq Azərbaycan Respublikasının nümayəndəsi Qarabağ general-qubernatorunun Naxçıvan bölgəsinin idarəsi üzrə köməkçisi fəaliyyət göstərmişdir. Bir qədər sonra isə Qarabağ general-qubernatorluğu nəzdində Naxçıvan bölgəsinə dair xüsusi tapşırıqlar üzrə müvəkkillik vəzifəsi yaradıldı. Səməd bəy Cəmillinski Naxçıvanın general-qubernatoru təyin edildi. S.Cəmillinskinin qərargahı əvvəlcə Ordubadda yerləşmiş, sonra isə Naxçıvana köçmüşdü. Naxçıvan və Ordubadda yerli hakimiyyətin və silahlı qüvvələrin təşkili üçün 1919-cu ilin avqustunda S.Cəmillinskinin sərəncamına 1 mln manat vəsait ayrıldı.*

*1919-cu ilin ikinci yarısında Zaqafqaziya məsələləri üzrə Paris sülh konfransı adından çıxış edən ABŞ-ın rolu kəskin surətdə artdı. Hələ 1919-cu ilin əvvəllərindən Azərbaycanla ciddi maraqlanan ABŞ nümayəndələri*

[1] ARDA, f. 970, siy. 1, iş 54, v. 30.
[2] «Азербайджан» qəzeti, 1919, 10 sentyabr.
[3] ARDA, f. 894, siy. 10, iş 37, v. 4-5.



*tez-tez Bakıda görünməyə başlamışdılar. Şübhəsiz onların Azərbaycana dair planlarında mühüm strateji mövqedə yerləşən Naxçıvan diyarı da öz əksini tapmışdı. Lakin ilk vaxtlar amerikalıların siyasəti də ermənipərəstliyi ilə ingilislərdən az fərqlənirdi. 1919-cu ilin yayında Naxçıvana gəlmiş ABŞ polkovniki Rey eyni vaxtda həm müsavatçılarla, həm daşnaklarla, həm də türk zabiti Xəlil bəylə danışıqlar aparmışdı.*[1] *O, Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xanla apardığı danışıqlarda Naxçıvanda ABŞ-ın general-qubernatorluğunu yaratmaq ideyasını irəli sürmüşdü.*[2]

*1919-cu il avqustun axırlarında Amerika polkovniki Paris sülh konfransı və Antantanın ittifaq şurası adından AXC hökumətinə bildirmişdi ki, Naxçıvan və Şərur-Dərələyəz qəzaları xüsusi zona təşkil edir və həmin yerlərdə bütün idarəçilik işlərinə cavab verə biləcək Amerika general-qubernatorluğu təşkil olunacaqdır.*[3]

*1919-cu il sentyabrın 1-də Haskelin Paris sülh konfransı adından Azərbaycan və Ermənistan hökumətlərinə göndərdiyi «Naxçıvan və Şərur-Dərələyəz qəzaları haqqında əsasnamə»də həmin fikirlər bir daha nəzərə çatdırıldı.*[4] *Əsasnaməyə görə, Naxçıvan və Şərur-Dərələyəz qəzalarını əhatə edən rayonlar bitərəf zona elan edilir və burada bütün idarəçilik işləri Amerika general-qubernatorluğuna tapşırılırdı.*[5] *Bütün hərbi qüvvələr, poçt, teleqraf onun tabeliyinə verilir, yerli vəzifəli şəxsləri general-qubernator təyin edirdi. Lakin ABŞ-ın həmin mövqeyi AXC hökuməti və Naxçıvan Milli Komitəsi tərəfindən qəbul edilmədi. Çünki 20 bənddən ibarət Haskel layihəsinin məzmunundan görünürdü ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu, müttəfiqlərin Ali Komissarı Vilyam Haskelin adı ilə elan edilmiş erməni layihəsi idi. Bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də V.Haskel birincidən o qədər də fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi. Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti şərtlərin bir qisminə etiraz edir. Bununla belə hökumət Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyildir. Azərbaycan hökuməti 12 bənddən ibarət layihə hazırladı və sentyabr ayından polkovnik Haskelə göndərdi. Layihədə göstərilirdi: «Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə*

[1] NMRDA, f. 314, siy. 5, iş 71, v. 71.
[2] Quliyev C., Mədətov Q., Nadirov A. Sovet Naxçıvanı. Bakı, Azərnəşr, 1984, s.29-30.
[3] Мадатов Г. Göstərilən əsəri. s.65.
[4] NMRDA, f. 314, siy. 5, iş 73, v. 135.
[5] Азербайджанскя Республика. Документы и материалы c.300-301.

*yolu ilə seçilən yerli Şuralar tərəfindən idarə edilir; vilayətlərdə bütün hakimiyyət-inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakın toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərksilah edilməməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir».[1]*

*V.Haskel Azərbaycan tərəfindən təqdim edilən layihəni qəbul etmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və K.M.Əsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmund Delli Naxçıvana qubernator təyin edilmişdir və bir aydan sonra öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin 10 bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisinin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi.[2]*

*1919-cu il oktyabrın 23-də Müttəfiqlərin Ali Komissarlığından Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə ünvanlanmış aşağıdakı məlumat alınmışdı: «Naxçıvan və Şərur rayonlarında əminamanlıq yaratmaq məqsədilə Azərbaycan və Ermənistan hökumətləri razılığa gəldilər ki, bu iki rayon bundan sonra da ittifaq səviyyəsində idarə edilən zonada Amerika qubernatorluğunun inzibati hakimiyyəti altında qalacaqdır».[3]*

*1919-cu il oktyabrın 22-də Bakıda AXC-in rəsmi orqanı olan «Azərbaycan» qəzetində Naxçıvanda ABŞ polkovniki Edmund Delli başda olmaqla Amerika general-qubernatorluğunun təşkil olunması haqqında əsasnamə dərc edildi.[4] Bu isə çıxılmaz vəziyyətdə qalmış AXC rəhbərliyinin həmin məsələyə qeyri-rəsmi qaydada razılığı kimi qəbul edilə bilərdi. Bununla belə, Azərbaycan hökuməti ilə Naxçıvan Milli Komitəsi*

---

[1] «Азербайджан» qəzeti, 1919, 23 oktyabr.
[2] Yenə orada.
[3] «Azərbaycan» qəzeti, 1919, 23 oktyabr.
[4] «Азербайджан» qəzeti, 1919, 22 oktyabr.



*arasında qardaşlıq münasibətləri əvvəlki kimi saxlanılırdı. Əldə olunmuş razılığa əsasən, AXC hökuməti altı min nəfərlik qoşun hissələrini silahlandırmağı Naxçıvan Milli Komitəsinə vəd vermişdi.[1]*

*Oktyabr ayının 24-də Ceymis S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə V.Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi ki, Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm.[2] Ceymis Rey sərəncamla bəyanatda qeyd olunanları rəsmiləşdirdi. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə polkovnik Delli Naxçıvanda general-qubernator kimi deyil, Amerika Ali Komissarın nümayəndəsi kimi qaldı. Milli Şuradan C.Reyə məlumat verdilər ki, «xalq azərbaycanlı general-qubernatordan başqa heç kimi tanımaq istəmir». C.Rey başa düşürdü ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür.*

*Noyabr ayında C.Rey və E.Delli cəhd göstərsələr də general-qubernatorluq yarada bilmədilər, onların missiyası süquta uğradı və Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı.*

*Bunu görən ermənilər 1919-cu ilin sonlarında Naxçıvana yenidən hücum etdilər. Ermənistanın nizami qoşun hissələri ilə Naxçıvan Milli Komitəsinin hərbi dəstələri arasında qanlı toqquşmalar başlandı. Bu qanlı döyüşlər amerikalıların ümidlərini doğrultmadı. Döyüş qabiliyyətini itirmiş Ermənistan ordusu heç bir əhəmiyyətli müvəffəqiyyət qazanmadı. Amerikalıların gözlədiklərinin əksinə olaraq hərbi toqquşmalar, azərbaycanlı əhaliyə qarşı törədilən qanlı cinayətlər Naxçıvan Milli Komitəsinin, müsavatçı Kalbalı xanın hərbi, inzibati və siyasi hakimiyyətini daha da möhkəmləndirdi. O, həmçinin, xəzinəyə, dəmir yoluna, poçt-teleqrafa və vergilərin qoyulmasına nəzarəti ələ keçirdi.*

*Belə uğurlu vəziyyətə baxmayaraq amerikalılardan yardım alan daşnak Ermənistanı 1920-ci ilin yanvarında Naxçıvanı işğal etmək üçün yeni cəhd göstərdikdə, diyarın müdafiəçilərinin vəziyyəti xeyli mürəkkəbləşdi. Azərbaycan Xalq Cümhuriyyətinin özündə siyasi böhranın dərinləşməsi Naxçıvana hərbi yardım göstərilməsini çətinləşdirdi. Düşmənin üstün qüvvələri qarşısında tək və zəif qalmış Naxçıvan rəhbərliyi kömək üçün türklərə müraciət etməli oldu. Belə cəhd öz növbəsində Naxçıvanda Azərbaycanın mövqelərini xeyli zəiflətdi. Təsadüfi deyil ki, 1920-ci ilin fevralında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri Naxçıvanı tərk etməyə məcbur oldular. Naxçıvanda hərbi-siyasi vəziyyət xeyli mürəkkəbləşdi. Naxçıvan əhalisinin misilsiz qəhrəmanlığı sayəsində Şərur,*

---

[1] «Азербайджан» qəzeti, 1919, 22 oktyabr.
[2] Həsənli C. Göstərilən əsəri, 374-375.

*Ordubad, Naxçıvan torpaqları 1920-ci ilin ortalarına doğru tamamilə erməni daşnaklarından təmizləndi.*

*Kalbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvandakı general-qubernatorluq 1920-ci ilin martında faktiki olaraq ləğv edilmiş və Naxçıvan yenidən dövlət müstəqilliyi qazanmışdı. Təsadüfi deyildir ki, o günlərdə Naxçıvan, Şərur, Ordubad və Vedibasar rayonu nümayəndələrinin iclası «qəti olaraq AXC-ə birləşmək» cəhdini ifadə edirdi.*[1]

*Naxçıvan diyarının əhalisini erməni qırğınından xilas etmək üçün türklərin köməyinə ehtiyac duyulurdu. Yerli əhali nümayəndələrinin türk qoşunlarını Naxçıvana dəvət etmək barədə mətbuatda dərc olunmuş müraciətdə də həmin reallıq öz ifadəsini tapmışdı. Elə bunun nəticəsi idi ki, 1920-ci ilin martında Əli Teymur bəy başda olmaqla yeni türk qoşun hissəsinin Naxçıvana gəlməsi əhali tərəfindən böyük şadlıqla qarşılandı. Hadisələrin sonrakı gedişi bir daha təsdiq etdi ki, bu tədbir Naxçıvan əhalisinin yeni qırğınının qarşısını almış, diyarın gələcək siyasi taleyinin həllində, onun məhz Azərbaycan dövlətinin tərkibində muxtariyyət əldə etməsində əhəmiyyətli, bəlkə də müəyyənedici rol oynamışdır.*

*Beləliklə, aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın itirilməsinə və ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş və bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmış, eyni zamanda Naxçıvana hərbi və maddi köməkliklər göstərmiş, lakin bütün bunlarla yanaşı, özlərinin çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmış və nəhayət beynəlxalq Moskva və Qars müqavilələrinə uyğun olaraq 1921-ci ilin martında və oktyabrında Azərbaycanın tərkibində ona muxtariyyət statusu verilmişdir.*

**İSMAYIL HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri,***
***AMEA-nın həqiqi üzvü***

[1] Hacıyev A. Göstərilən əsəri, s.116.



## ДОКЛАДНАЯ ЗАИИСКА В ПРАВИТЕЛЬСТВО АР О ПОЛОЖЕИИИ МУСУЛЬМАИ В г. ОРДУБАДЕ И ЕГО ОКРЕСТНОСТЯХ

*22 декабря 1918 г.*

В некоторых селениях выставлены объявления армянского правнтельства о прнсоеднненин всего Зангезурского уезда к означенному правительству. При этом они задались целью, еслн хватит на это сил, вырезать все мусульманское население Зангезурского, Шарурского, Нахичеванского и Ордубадского уездов, «очнстить» эти уезды от мусульман, чтобы на будущей мирной конференцни народов доказать свои права на местиости и объявить их Арменией, т.к. свободные от мусульман уезды признают за армянами все народы.

...До каких пор наше правительство, как сторониик, хладнокровио будет смотреть на истребление и уничтоженне своих братьев мусульман... Когда же наконец... сострадательные к остальным народам американцы и европейцы возьмут в свои рукн судьбу нашего народа. Когда же наш единокровный народ Гянджи и Баку вспомиит живущих на нашей земле своих собратьев. Если после того, как армяне очистят эту террнторию от мусульман, то будет это поздно. Тогда наши земли будут заселены армянами, от нашего народа не останется тут даже следа... Наши враги не дремлют, они не пропускают ни единого случая, чтобы всеми силами стремиться к осуществленню идеи своего народа и возможно скорее присоедннить наш край к Арменни. Оии стараются, чтобы Араратское государство простиралось от граннц Турцни и доходило до Шушн и чтобы на этом пространстве не жил ни едннный мусульманин-тюрок, а для этого пользуются каждым удобным случаем.

*Председатель национального комитета* *Мир Гидаят Сеидзаде*

Азербайджан, 1919, 14 января

*Tərcüməsi:*

## ORDUBAD ŞƏHƏRİ VƏ ONUN ƏTRAFINDAKI MÜSƏLMANLARIN VƏZİYYƏTİNƏ DAİR AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNƏ MƏRUZƏ-MƏKTUB

22 dekabr 1918-ci il

Bir sıra kəndlərdə Zəngəzur qəzasının bütünlüklə Ermənistan hökumətinə birləşdirilməsi haqqında onların bildirişləri asılmışdır. Bununla onlar belə bir məqsəd güdürlər ki, əgər gücləri çatarsa, Zəngəzur, Şərur, Naxçıvan və Ordubad qəzalarının müsəlman əhalisinin hamısını qırıb töksünlər, bu qəzaları müsəlmanlardan "təmizləsinlər" ki, gələcəkdə xalqların sülh konfransında özlərinin bu yerlərə hüququ olduğunu sübut edə və onları Ermənistanınkı bəyan edə bilsinlər; çünki müsəlmanlarsız qəzaları bütün xalqlar ermənilərinki kimi tanıyacaqdır.

... Nə vaxtacan bizim hökumət öz müsəlman qardaşlarının qırılıb-çatılması və məhv edilməsinə yadlar kimi soyuqqanlıqla tamaşa edəcəkdir?...

... Digər xalqların halına acıyan amerikalı və avropalılar axı nə vaxt bizim xalqın taleyini öz əllərinə alacaqlar?... Axı bizim qam bir-canı bir olan Gəncə və Bakı camaatı bu torpaqda yaşayan qardaşlarını nə vaxt yada salacaqlar? Əgər onlar bunu ermənilər bu ərazini müsəlmanlardan təmizlədikdən sonra edəcəklərsə, onda artıq gec olacaq. Onda bizim torpaqlarda ermənilər məskunlaşacaq, xalqımızın oralarda heç izi də qalmayacaq... Bizim düşmənlərimiz yatmayıblar, heç bir fürsəti əldən vermirlər. Onlar var gücləri ilə çalışırlar ki, öz xalqının ideyasını həyata keçirə və bu diyarımızı mümkün qədər daha tez Ermənistana birləşdirə bilsinlər. Onlar çalışırlar ki, Ararat dövləti Türkiyə sərhədlərindən Şuşayacan uzanıb getsin və bu məkanda heç bir müsəlman-türk yaşamasın. Bunun üçün hər bir fürsətdən istifadə edirlər.

Milli Komitənin sədri Mir Hidayət Seyidzadə

"Azərbaycan", 1919, 14 yanvar



## ДОНЕСЕННЕ ДИПЛОМАТИЧЕСКОГО НРЕДСТАВНТЕЛЯ АЗЕРВАЙДЖАНА В НРАНЕ А.Х.ЗИАТХАНОВА В МИНИСТЕРСТВО ИНОСТРАННЫХ ДЕЛ О НРЕДНРИНЯТЫХ МЕРЫХ НО ПРЕКРАЩЕННЮ НАПАДЕННЙ АРМЯН НА НАХИЧЕВАНЬ Н ОРДУБАД

*№38, Тегеран* *10 апреля 1919 г.*

Начиная с 20 марта с.г., я получая телеграммы из Нахичевани и разных концов персии об организованном наступлении армиянских воинских цастей на Нахичеванский и Ордубадский районы.

В этих телеграммах есть упоминание о том, что и персидские армияне принимают участие в иападении. Особенные разрушения причиняются аритиллерией. Местное населеиие храбро отстаивает свою террнторую но оно умоляет о скорой помошей. Кроме этого бежеицы в этих районах голодают.

По поводу участия персидских армиян в этих делах, а также закупки не обходимго количество продовольствия а пределах Персии для этих бежемцев мною свое времение были приняяты шаги перед персидским правительством и последнее сделало соответствующее распоряжениее в благопрятиом смысле. Одиовременно о иаступлении армиян иа эти районы мною сообщеио было аиглскому, амерканскому, французкому послаинникам, перебывающем в Тегерани.

Докладывая об изложенном, в месте с сим прошу Министерство иностраниых дел сделать распоряженне оппринятн со ответствующих сроцных мер для того, чтобы ввестн местное население выше упомянутых районов из этого весьма критичиского положения.

При сем прелогаяю копии телграммы за №№, 49, 50, 52, 56, 60, 79.

Дипломатическнй представитель Зиадханов

ГААР, ф.2905, оп.1, д.23, л.55.

*Tərcüməsi:*

## AZƏRBAYCANIN İRANDAKI DİPLOMATIK NÜMAYƏNDƏSİ A.X.ZİYADXANOVUN ERMƏNİLƏRİN NAXÇIVAN VƏ ORDUBADA HÜCUMLARININ DAYANDIRILMASI ÜÇÜN GÖRÜLMÜŞ TƏDBİRLƏR HAQQINDA XARİCİ İŞLƏR NAZİRLİYİNƏ RAPORTU

№ 38, Tehran — 10 aprel 1919-cu il

Bu ilin 20 martından başlayaraq mən Naxçıvandan və İranın müxtəlif yerlərindən erməni hərbi hissələrinin Naxçıvan və Ordubad rayonlarına mütəşəkkil hücumları haqqında teleqramlar alıram.

Bu teleqramlarda belə bir xatırlatma var ki, İran erməniləri də bu hücumlarda iştirak edirlər. Əsas dağıntı artilleriya tərəfindən törədilir. Yerli əhali öz ərazisini mərdliklə qoruyur, lakin təcili yardım göstərilməsini rica edir. Bundan başqa bu rayonlardakı qaçqınlar da aclıq çəkir.

İran ermənilərinin bu işdə iştirakı, habelə qaçqınlar üçün İranın hüdüdları daxilində zəruri miqdarda ərzaq alınması ilə bağlı mənim tərəfimdən fars hökuməti qarşısında vaxtında məsələlər qaldırılmışdır ki, o da yaxşı mənada uyğun sərəncamlar vermişdir. Bu rayonlara ermənilərin hücumlarına dair məlumatlar eyni zamanda tərəfimdən Tehranda olan ingilis, amerika, fransız səfirlərinə də çatdırılmışdır.

Yuxarıdakıları məruzə etməklə Xarici İşlər Nazirliyindən adı çəkilən rayonların yerli əhalisini son dərəcə acınacaqlı vəziyyətdən çıxarmaq üçün müvafiq təcili tədbirlərin görülməsinə dair sərəncamlar verməyi xahiş edirəm.

Məlumata aşağıdakı teleqramların surətlərini əlavə edirəm: № 49, 50, 52, 56, 60, 79.

Diplomatik nümayəndə — Ziyadxanov

ARDA, f. 2905, s. 1, iş 23, v. 55



## СООБЩЕИИЕ ДНПЛОМАТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕИНИ М.Х. ТЕКИИСКОГО ПРЕДСЕДАТЕЛЮ СОВЕТА МИИИСТРОВ Н.Ю. УСУББЕКОВУ О ВРУЧЕННН НМ НОТЫ ПРАВНТЕЛЬСТВУ АРМЕННН ПО ПОВОДУ ВТОРЖЕНИЯ АРМЯНСКИХ ВОЙСК В НАХИЧЕВАНЬ

*Эривань* — *3 мая 1919 г.*

Сегодня, 3 мая, за № 77 я вручил министру иностраиных дел Республики Армении следующее: «Его Высокоиревосходительству миистру иностранных дел Республики Армеиии. По поручеиию моего правительства я протестую против высылки войск Республнки Армении в Нахичеванскнй райои, составляющий неотъемлемую часть Азербайджаиской Республики.

Я хочу иадеяться, что правительство Республики Армении ие найдет возможным разрешить вопрос о границах двух соседних республик одиовремеиio и силой оружия, и через своих представителей на Кавказской конференции, одной из главных задач коей является разрешеиие мирным путем всех спориых территориальных вопросов, тем более, что само правительство Республики Армении своей иотой от 4 апреля 1919 г. № 1075 сказало, что разрешение территориальных вопросов должно явиться предпосылкой всех вопросов, подлежащих разрешеиию Кавказской конфереицией. Прошу ие отказать поставить меня в известность о решеииях вашего правительства по этому вопросу.

Дипломатический представитель — Текинский»

ГААР, ф. 970, оп.1, д. 56, л. 23.

*Tərcüməsi:*

**AZƏRBAYCANIN ERMƏNİSTANDAKİ DİPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN ERMƏNİ QOŞUNLARININ NAXÇIVANA SOXULMASI XÜSUSUNDA NOTANIN ONUN TƏRƏFİNDƏN ERMƏNİSTAN HÖKÜMƏTİNƏ TƏQDİM EDİLMƏSİ BARƏSİNDƏ NAZİRLƏR ŞURASININ SƏDRİ N.Y.YUSİFBƏYOVA MƏLUMATI**

İrəvan 3 may 1919-cu il

Bu gün mayın 3-də aşağıdakı məzmunda 77 №-li notanı mən Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə təqdim etdim: “Ermənistan Respublikası Xarici İşlər Naziri zati-alilərinə. Hökumətimin tapşırığı ilə Ermənistan Respublikası qoşunlarının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan rayonuna göndərilməsinə qarşı öz etirazımı bildirirəm.

Ümid etmək istərdim ki, Ermənistan Respublikasının hökuməti iki qonşu respublikanın sərhədlərinə dair məsələnin eyni zamanda həm silah gücünə, həm də əsas vəzifələrindən biri bütün mübahisəli ərazi məsələlərini dinc yolla həll etmək olan Qafqaz konfransındakı nümayəndələri vasitəsilə həll etmək imkanını məqbul saymaz, xüsusən ona görə ki, Ermənistan Respublikası hökuməti özünün 4 aprel 1919-cu il tarixli 1075 №-li notası ilə bildirmişdir ki, ərazi məsələlərinin həlli Qafqaz konfransı tərəfindən həll edilməli olan bütün məsələlərin ilkin şərti olmalıdır. Xahiş edirəm ki, bu məsələ üzrə hökumətinizin qərarları barəsində məni məlumatlandırmaqdan imtina etməyəsiniz.

Diplomatik nümayəndə Təkinski”

ARDA, f. 970, s. 1. iş 56, v. 23



**ТЕЛЕГРАММА ДИПЛОМАТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕИИИ М.Х. ТЕКИИСКОГО ПРЕДСЕДАТЕЛЮ СОВЕТА МИИИСТРОВ Н.Ю. УСУБВЕКОВУ О НАМЕРЕНИИ БРИТАНСКОГО КОМАНДОВАИИЯ ПЕРЕДАТЬ АРМЕННН ШАРУРО-ИАХИЧЕВАИСКНЙ РАЙОН**

*10 мая 1919 г.*
*Шифрованная*

По слухам, англичане передают Шаруро-Нахичеванский район Армеиин, если Арменни признает Карабах за Азербайджаном. Этот слух исходит от армян; я думаю, Армении достаточен Карс и нельзя передавать Шаруро-Нахичевань со сплошным мусульманским населением, каковое население очутиться в столь же ужасиом положении, в каковом находятся мусульмаие в остальных частях Армении. Об ужасном положеиии мусульман имею доказательства. Всесторопие это надо объясиит в Тифлисе союзному командованию и с ним находиться в постоянном контакте, иначе наша дипломатия будет пропгрывать.

Дипломатический представитель Текинский

ГААР, ф. 970, оп.1, д. 54, л. 18.

*Tərcüməsi:*

**AZƏRBAYCANIN ERMƏNİSTANDAKI DIPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN BRİTANİYA KOMANDANLIĞININ ŞƏRUR-NAXÇIVAN RAYONUNU ERMƏNİSTANA VERMƏK NİYYƏTİ BARƏSİNDƏ NAZİRLƏR ŞURASININ SƏDRİ N.Y.YUSIFBƏYOVA TELEQRAMI**

10 may 1919-cu il
Şifrlənmiş

Şaiyələrə görə, ingilislər Şərur-Naxçıvan rayonunu Ermənistana o şərtlə verir ki, o, Qarabağın Azərbaycana məxsusluğunu tanısın. Bu şaiyə ermənilərdən qaynaqlanır; mən belə düşünürəm ki, Ermənistana Qars kifayət edər və əhalisi bütünlüklə müsəlman olan Şərur-Naxçıvanı ona vermək olmaz. Çünki onun əhalisi Ermənistanın digər hissələrində yerləşən müsəlmanlar kimi dəhşətli vəziyyətə düşmüş olar. Bunu Tiflisdə müttəfiq komandanlığına hərtərəfli izah etmək və onunla müntəzəm əlaqədə olmaq lazımdır, yoxsa diplomatiyamız uduzazcaqdır.

Diplomatik nümayəndə Təkinski

ARDA, f. 970, s. 1. iş 54, v.18.



**ДЕНЕША ДИПЛОМАТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕИИИ М.Х. ТЕКИИСКОГО МИИИСТРУ ИИОСТРАИНЫХ ДЕЛ М.Ю. ДЖАФАРОВУ О ВОЙКОТЕ НАСЕЛЕНИЕМ НАХИЧЕВАНИ АРМЯИСКОЙ АДМИИИСТРАЦНИИ**

*Эривань* *29 мая 1919 г.*
*Шифрованная*

В газ. «Азербайджаи» № 105 иапечатано, что иаселение Нахичевани встречало армянские войска радушно. Шаруро-Нахичеваиский район подчииился только по требоваиию аигличан. Кельбали хан Нахичеваиский на приглашеиие Хатисова ие явился, заявив, что ие зиает Армении. Лишь на приглашенне ген. Дели хаи явился, коему генерал объявил, цто район присоединяется к Армеиии. Хан ответил, что считается только с требоваиием аигличан. Мусульмаие армян бойкотируют и на приглашение занять адмииистративиые места отказываются.

Дипломатический представитель Текинский

ГААР, ф. 970, оп.1, д. 54, л. 19.

*Tərcüməsi:*

**AZƏRBAYCANIN ERMƏNISTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN NAXÇIVAN ƏHALİSİ TƏRƏFİNDƏN ERMƏNİ ADMİNİSTRASİYASININ BOYKOT EDİLMƏSİ HAQQINDA XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA DEPEŞASI**

İrəvan 29 may 1919-cu il
Şifrlənmiş

105 №-li "Azərbaycan" qəzetində çap olunmuşdur ki, Naxçıvanın əhalisi erməni qoşunlarını gülərüzlə qarşılayıbdır. Şərur-Naxçıvan rayonu yalnız ingilislərin tələbi ilə tabe olmuşdur. Kalbalı xan Naxçıvanski Xatisovun dəvətini yerə salaraq bəyan etmişdir ki, Ermənistanı tanımır. Yalnız general Delinin dəvətinə təşrif gətirən xana o, rayonun Ermənistana birləşdirilməsini elan etmişdir. Xan cavabında demişdir ki, o, yalnız ingilislərin tələbi ilə hesablaşır. Müsəlmanlar erməniləri boykot edir və inzibati yerləri tutmaq dəvətindən imtina edirlər.

Diplomatik nümayəndə Təkinski

ARDA, f. 970, s. 1. iş 54, v.19

## ТЕЛЕГРАММА ДИИЛОМАТИЧЕСКОГО ИРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕИИИ М.Х. ТЕКИНСКОГО МИИИСТРУ ИНОСТРАИНЫХ ДЕЛ М.Ю. ДЖАФАРОВУ О НЕОБХОДИМОСТН ОКАЗАНИЯ ИОМОЩИ ОВЪЕДИНЕНИОМУ НАЦИОНАЛЬИОМУ СОВЕТУ ШАРУРО-НАХИЧЕВАНИ И ОРДУБАДА ДЛЯ ПРОТИВОДЕЙСТВИЯ ВОЗМОЖИЫМ ВРАЖДЕБИЫМ АКЦИЯМ СО СТОРОИЫ АРМЕИИИ

*Эривань* *7 июня 1919 г.**
*Шифрованная*

Армяне рады движению Добрармии, надеясь на занятне ими Баку, хотя 1 июня Хатисов у меня на обеде заверил меня об общих интересах Армении с Азербайджаном в вопросе само[сох]ранения самостоятельности. На случай осложнения с Добрармией протнв нас Армения займет враждебную позицню, поэтому нз Шаруро-Нахичеванского районa нужно создать угрозу Арменнн, спешно отпустив на военную органнзацию деньгп. Благодаря мною приятым мерам уже Шаруро-Нахичевань [и] Ордубад объеднилились в лице Национального Совета, который постояиио иоддерживает со мною связь.

Дииломатический иредставитель Текинский

ГААР, ф. 970, оп.1, д. 48, л. 39.

* Дата получения.



*Tərcüməsi:*

## AZƏRBAYCANIN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN ERMƏNİSTAN TƏRƏFİNDƏN GÖZLƏNİLƏN DÜŞMƏNÇİLİK ƏMƏLLƏRİNƏ QARŞI ÇIXMAQ ÜÇÜN ŞƏRUR-NAXÇIVAN VƏ ORDUBADIN BİRLƏŞMİŞ MİLLİ ŞURASINA YARDIM GÖSTƏRİLMƏSİ ZƏRURƏTİ HAQQINDA XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA TELEQRAMI

İrəvan 7 iyun 1919-cu il
Şifrlənmiş

Ermənilər Könüllü ordunun Bakını tutacağına ümid bəslədiklərindən bu hərəkatdan məmnundurlar, halbuki iyunun 1-də Xatisov mənimlə nahar edərkən Ermənistanla Azərbaycanın öz müstəqilliklərini qoruyub saxlamaqda ümumi maraqları olduğuna inandırmağa çalışırdı. Könüllü ordu ilə vəziyyətimiz mürəkkəbləşəcəyi təqdirdə Ermənistan bizə qarşı düşmənçilik mövqeyi tutacaqdır. Buna görə də Şərur-Naxçıvan rayonunda Ermənistan üçün təhlükə yaratmaq, bunun üçün hərbi təşkilata təcili olaraq pul buraxmaq lazımdır. Tərəfimdən görülmüş tədbirlər nəticəsində artıq Şərur-Naxçıvan və Ordubad Milli Şura qismində birləşmişdir ki, o, da mənimlə müntəzəm əlaqə saxlayır.

Diplomatik nümayəndə Təkinski

ARDA, f. 970, s. 1. iş 48, v. 39

## ДЕПЕША ДИПЛОМАТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕИИИ М.Х. ТЕКИНСКОГО МИИИСТРУ ИИОСТРАИИБХ ДЕЛ М.Ю. ДЖАФАРОВУ ОБ ОККУПАЦИИ АРМЯИСКИМИ БОЙСКАМИ НАХИЧЕВАИСКОГО И ШАРУРО-ДАРАЛАГЕЗСКОГО УУ.

*№ 184, Эривань* *21 июня 1919 г.** 

*Шифрованная. Срочная*

Ответ на телеграмму Вашу № 1695.** Райоиы Нахичевань, Шарур, Ведибасар, Шахтахты заняты армяискими войсками и установлена армянская администрация. Нахичеванский Нациоиальный Совет просит меня заявить Союзному командованию, что армянские власти вопреки обещаниям английского ген. Деви и Хатисова начали производить обыскн и отбирать оружие, мебель, брусья и доски и прочие предметы и просить Союзное командование прекратнть подобные иезаконные и неправильные действия. Джульфа в руках армян. Находите ли вы возможным исполнить просьбу Нахичеванского Совета. Ордубад пока армян не впускает, о чем ордубадцы 11 дней тому назад открыто заявили армянам. Мусульманские войска распущены. Имеются только четники в количестве 300 душ.

Дипломатический представитель Текинский

ГААР, ф. 970, оп.1, д. 54, л. 8.

* Датируется по дате нолучения.



*Tərcüməsi:*

## AZƏRBAYCANIN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN NAXÇIVAN VƏ ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZALARININ ERMƏNİ QOŞUNLARI TƏRƏFİNDƏN IŞĞAL OLUNMASI ИAQQINDA XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA DEPEŞASI

№ 184, İrəvan 21 iyun 1919-cu il[1]

Şifrlənmiş. Təcili

Sizin 1695 №-li teleqramınıza cavab. Naxçıvan, Şərur, Vedibasar, Şaxtaxtı rayonları erməni qoşunları tərəfindən tutulmuş və erməni administrasiyası qurulmuşdur. Naxçıvan Milli Şurası məndən Müttəfiq komandanlığına onu bildirməyi xahiş edir ki, erməni hakimiyyəti ingilis generalı Devinin və Xatisovun vədləri ziddinə olaraq axtarışlar keçirməyə, silah, mebel, tir, taxta və digər əşyaları sahiblərinin əlindən almağa başlamışlar. Müttəfiq komandanlığından bu cür qeyri-qanuni və nadürüst hərəkətlərin dayandırılması xahiş edilir. Culfa ermənilərin əlindədir. Naxçıvan Şurasının xahişini icra etməyi Siz məqbul sayırsınızmı? Ordubad erməniləri oraya buraxmır ki, bunu da əhali 11 gün əvvəl ermənilərə açıqca bildirmişdir. Müsəlmanların qoşunları buraxılmışdır. Yalnız 300 nəfərlik çətəçilər dəstəsi qalmaqdadır.

Diplomatik nümayəndə Təkinski

ARDA, f. 970, s. 1. iş 54, v.8

[1] Çatma tarixidir.

**ТЕЛЕГРАММА ДИПЛОМАТИЧЕСКОГО ПРЕДСТАВИТЕЛЯ АЗЕРБАЙДЖАНА В АРМЕНИИ М.Х. ТЕКИНСКОГО МИНИСТРУ ИНОСТРАННЫХ ДЕЛ М.Ю. ДЖАФАРОВУ О ПРИКАЗЕ КОМАНДОВАНИЯ БРИТАНСКИМИ СИЛАМИ В ЗАКАВКАЗЬЕ ПРЕКРАТИТЬ ВОЕННЫЕ ДЕЙСТВИЯ ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ В НАХИЧЕВАНИ И БЕЮК ВЕДИ**

*№ 468, Эривань* *21 июля 1919 г.*
*Срочно*

Сегодня военный британский представитель полк. Плаутон меня письменно и словесно известил, что получен приказ ген. Кори прекратить все военные действия в районах Белюк* и Нахичевани. Сегодня полк. Плаутон выезжает в Тифлис для свидания с ген. Кори и нашим дипломатическим представителем. В виду нового обстоятельства я отменяю свой приезд в Баку.

Дипломатический представитель Текинский

ГААР, ф. 970, оп.1, д. 54, л. 81.

* Так в документе, очевидно, следует «Беюк Веди»



*Tərcüməsi:*

**AZƏRBAYCANIN ERMƏNİSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİ M.X.TƏKİNSKİNİN ZAQAFQAZİYADAKI BRİTANİYA QÜVVƏLƏRİ KOMANDANLIĞININ NAXÇIVAN VƏ BÖYÜK VEDİDƏ AZƏRBAYCANLILARA QARŞI HƏRBİ HƏRƏKƏTLƏRİN DAYANDIRILMASINA DAİR ƏMRİ HAQQINDA XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA TELEQRAMI**

№ 468, İrəvan 21 iyul 1919-cu il
Təcili

Bu gün Britaniyanın hərbi nümayəndəsi polkovnik Plauton məni yazılı və şifahi şəkildə xəbərdar etdi ki, general Korinin Belük[1] və Naxçıvan rayonlarında bütün hərbi hərəkətləri dayandırmaq haqqında əmri alınmışdır. General Kori və bizim diplomatik nümayəndəmizlə görüşmək üçün bu gün polkovnik Plauton Tiflisə yola düşür. Yaranmış vəziyyətlə əlaqədar Bakıya səfərimi təxirə salıram.

Diplomatik nümayəndə Təkinski

ARDA, f. 970, s. 1. iş 54, v.81

[1] Sənəddə belədir, görünür, "Böyük Vedi" olmalıdır.

## ПНСЬМО СОЮЗНОГО ВЕРХОВНОГО КОМИССАРА НА КАВКАЗЕ В.ГАСКЕЛЯ ИРЕДСЕДАТЕЛЮ ПРАВНТЕЛЬСТВА АР Н.УСУББЕКОВУ ОБ УСЛОВИЯХ СОЗДАНИЯ АМЕРНКАНСКОГО ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВА В НАХИЧЕВАНИ

*1 сентября 1919 г.*

I. Согласно Вашей просьбе, препровождаю вам условия, долженствующей быть установленной, нейтральной зоны Шаруро-Даралагез-Нахичевана, в мысль состоявшегося договора, на конференции в пятницу, августа 29, 1919 г. в Баку, между вамн и полковииком Гаскелем.

Следующее было договорено:

1. Нейтральная зона будет установлена, включая точно провннции Шарур-Даралагез и Нахнчевань.

2.Что управление этой нейтральной зоной будет в руках американского губернатора, назначенного полковником Гескелем.

3. Что местная власть будет татарской, за исключением тех местностей, в которых преобладает армянское население, причем характер такого округа определяет американский губернатор.

4. Правительства Азербайджана и Армении удалят немедленно все войска из нейтральной зоны, которые не будут введены обратно, разве только по просьбе американского губернатора.

5. Правнтельства Азербайджана и Армении удалят немедленно всех агентов и лиц, вызывающих возбуждение среди местного населения. В числе этих будут не только агенты соответственных иравительств, но н правительств, симпатизирующих тем и другим.

6. Азербайджан и Армения объявят всеобщую амиистию за все преступлення против лиц враждебных правительств, совершенные до 1 сентября 1919 г. Ничто в этой амнистии не будет нарушать уже произведенных действий британских воеиных властей, над которымн никакому правительству не прислуживает право контроля.

7. Местные чиновиики в нейтральной зоне будут назначаться американским губернатором, который так скоро, как только будет исполнимо, назначит день выбора таких местных чнновников. Америкаискнй губернатор будет иметь власть немедленно удалять каждого чиновника, в границах нейтральной зоны, за недопустимый подкуп и подобные причины.

8. Азербайджанское правительство использует все свое влияние для умиротворення татарского населения в нейтральной зоне и Эриванском районе.

9. Армянское правительство использует все свое влияние для умиротворения армянского населения в нейтральной зоне и Зангезурском районе.

10. Правительства Азербайджаиа и Армении будут давать взаимно защиту жизни и имущества людям азербайджанской и армянской национальности, живущих в их странах.

11. Железная дорога и телеграф между Эрнванью и персидской границей, проходящие через Шаруро-Даралагез и Нахичеванскую провинции будут подчинены н немедленно открыты для действия. Эта железная дорога будет находиться под контролем американского губернатора и действовать как часть армянской железной сети, обслуживаемая татарским и армянским личным составом, когда железная дорога решением губернатора приведется до максимального действия.

12. В принцппе железная дорога будет обслужнвать население без различия.

13. Азербайджанское правительство согласится обеспечить всеми способамн меры помощи, которые предпринимаются в Шуше и Герусах Ближневосточным комитетом помощи.

14. Азербайджанское правительство согласится помочь полезными мерами и средствами, необходимыми нри снабжении отсылаемых на родину таких армянских беженцев, которые находились бы в его стране и коих возвращение на роднну счнталось бы союзным верховным комиссаром уместным.

14.Татарское население Бивук-Веди будет переведено под наблюдением американского губернатора из этого города в другой, который будет основан для пего в черте нейтральной зоны. Ему будет дозволено взять все его имущество с собой.

15. Находящаяся теперь в постройке железная дорога Баку-Джульфа будет под исключительным контролем азербайджанского правительства и постройке этой не будет препятствовать. Граница между нейтральной зоной и Арменией вдоль железной дороги будет у места, называемого Волчьими воротами.

16. Материальные средства для управления нейтральиой зоной будут основаны на местных податях. Нпкакие добавочные нужиые средства не будут требуемы от азербайджанского правительства во время управления американским губернатором

17. Школы и храмы в нейтральной зоне под управлением американского губернатора будут продолжать свое существование по принятому доселе обычаю.

18. Во всей нейтральной зоне будет право свободного богослужения всех религий.

19. Школы будут введены согласно характера той местиости, которую будут обслуживать.

20. Помощь в нейтральной зоие будет уделяться тем, которые, по указаиию губериатора, больше всего в ией нуждаются, без разлнчия иациональной прииадлежности какой-иибудь из стран. Поскольку только это будет невозможно, дело помощи будет вестись там, где оно необходимо и, конечно, в районах Азербайджана, терпящих лншения.

II. Препровождаю две копии вышеупомянутых условий и прошу одну из них, подписанную Вами, с одобреннем вашей подписи азербайджанским правительством, вернуть мне через офицера, вручившего Вам эту бумагу.

Вторая копия предназначается для Вашего употребления.

С уверением моего высочайшего уважения и почтения.

*Преданный вам Вильям Гаскель,*
*союзный верховный комиссар*

ГААР, ф. 970, оп. 1, д. 93, л. 3-4



***Tərcüməsi:***

**QAFQAZDA MÜTTƏFİQLƏRİN ALİ KOMİSSARI V.HASKELİN NAXÇIVANDA AMERİKA GENERAL-QUBERNATORLUĞUNUN YARADILMASI ŞƏRTLƏRİ HAQQINDA AZƏRBAYCAN RESPULIKASI HÖKUMƏTİNİN SƏDRİ N.YUSIFBƏYOVA MƏKTUBU**

1 sentyabr 1919-cu il

I. Xahişinizə uyğun olaraq cümə axşamı, 29 avqust 1919-cu il tarixdə, Bakıda keçirilən konfransda Sizinlə polkovnik Haskel arasında əldə edilmiş razılaşmaya əsasən Şərur-Dərələyəz-Naxçıvanda bərqərar edilməsi zəruri olan neytral zonanın yaradılması şərtlərini Sizə göndərirəm.

Aşağıdakılar razılaşdırılmışdır ki:

1. Neytral zona Şərur-Dərələyəz və Naxçıvan əyalətləri tamamilə daxil edilməklə yaradılacaqdır.
2. Bu neytral zonanın idarəçiliyi polkovnik Haskel tərəfindən təyin edilən Amerika qubernatorunun əlində olacaqdır.
3. Erməni əhalisinin çoxluq təşkil etdiyi yerlər istisna olmaqla (Belə dairənin xarakterini isə Amerika qubernatoru müəyyənləşdirir), yerli hakimiyyət tatarlara məxsus olacaqdır.
4. Azərbaycan və Ermənistan hökumətləri neytral zonadan bütün qoşunlarını dərhal uzaqlaşdıracaqlar ki, onlar geriyə yalnız Amerika qubernatorunun xahişi ilə qaytarıla bilər.
5. Azərbaycan və Ermənistan hökumətləri bütün agentlərini və yerli əhalini qızışdıran şəxslərin hamısını dərhal uzaqlaşdıracaqlar. Onların sırasında təkcə həmin hökumətlərin deyil, həm də bu və ya digər hökumətə rəğbət bəsləyən hökumətlərin agentləri də olacaqdır.
6. Azərbaycan və Ermənistan düşmən hökumətin şəxslərinə qarşı 1 sentyabr 1919-cu il tarixə qədər törədilmiş bütün cinayətlərə görə ümumi əfv elan edəcəklər. Üzərində heç bir hökumətin nəzarət etmə hüququ olmayan Britaniya hərbi hakimiyyətinin artıq edilmiş hərəkətlərini pozacaq heç bir şey bu amnistiyada ola bilməz.

7. Neytral zonada yerli məmurlar Amerika qubernatoru tərəfindən təyin ediləcəkdir. İcrası mümkün olan kimi bu qəbildən olan yerli məmurların seçki günü Amerika qubernatoru tərəfindən tezliklə təyin ediləcəkdir. Amerika qubernatorunun neytral zona hüdudlarında hər bir məmuru yolverilməz satılma və digər səbəblərə görə dərhal uzaqlaşdırmaq səlahiyyəti olacaqdır.

8. Azərbaycan hökuməti neytral zonada və İrəvan rayonunda tatar əhalisini sakitləşdirmək üçün özünün bütün nüfuzundan istifadə edəcəkdir.

9. Ermənistan hökuməti neytral zonada və Zəngəzur rayonunda erməni əhalisini sakitləşdirmək üçün özünün bütün nüfuzundan istifadə edəcəkdir.

10. Azərbaycan və Ermənistan hökumətləri bu ölkələrdə yaşayan azərbaycan və erməni millətindən olan insanların həyat və əmlakının qorunmasını qarşılıqlı şəkildə təmin edəcəklər.

11. Şərur-Dərələyəz və Naxçıvan əyalətlərindən keçən İrəvanla İran sərhədi arasındakı dəmir yolu və teleqraf tabeçiliyə veriləcək və hərəkət üçün dərhal açılacaqdır. Bu dəmir yolu Amerika qubernatorunun qərarı ilə maksimal şəkildə işə salındıqda onun nəzarəti altında olacaqdır və Ermənistan dəmir yolu şəbəkəsinin tatar və erməni şəxsi heyəti tərəfindən xidmət edilən hissəsi kimi fəaliyyət göstərəcəkdir.

12. Prinsip etibarilə dəmir yolu əhaliyə fərq qoymadan xidmət edəcəkdir.

13. Azərbaycan hökuməti Yaxın Şərq Yardım Komitəsi tərəfindən Şuşa və Gorusda həyata keçirilən yardım tədbirlərini bütün vasitələrlə təmin edilməsinə razılaşacaqdır.

14. Böyük Vedinin tatar əhalisi Amerika qubernatorunun nəzarəti altında bu şəhərdən neytral zona hüdudlarında salınacaq başqa bir şəhərə köçürüləcəkdir. Həmin əhaliyə bütün əmlakını özü ilə götürmək icazəsi veriləcəkdir.

15. İndi tikilən Bakı-Culfa dəmir yolu yalnız Azərbaycan hökumətinin nəzarəti altında olacaqdır və tikintiyə əngəl törədilməyəcəkdir. Dəmir yolu boyunca neytral zona ilə Ermənistanın sərhədi Qurd qapısı adlanan yerdən keçir.

16. Neytral zonanın idarə edilməsi üçün maddi vəsaitlər yerli vergilərə əsaslanacaqdır. Amerika qubernatorunun idarəçiliyi dövründə Azərbaycan hökumətindən zəruri olan heç bir əlavə vəsait tələb olunmayacaqdır.



17. Neytral zonadakı məktəb və məbədlər Amerika qubernatorunun idarəsi altında öz fəaliyyətlərini indiyə kimi mövcud olmuş adətləri üzrə davam etdirəcəklər.

18. Bütün neytral zonada bütün dinlərə sərbəst ibadət edilməsi hüququ mövcud olacaqdır.

19. Məktəblər xidmət edəcəyi yerin xarakterinə uyğun fəaliyyət göstərəcəkdir.

20. Neytral zonada yardım hər hansı bir ölkənin milli mənsubiyyəti nəzərə alınmadan qubernatorun göstərişi ilə daha çox ehtiyacı olanlara göstəriləcəkdir. Əgər bu mümkün olmasa, yardım işi zəruri olan yerlərdə və əlbəttə ki, Azərbaycanın məhrumiyyətlərə məruz qalmış rayonlarında aparılacaqdır.

II. Yuxarıda göstərilən şərtləri 2 nüsxədə Sizə göndərirəm və xahiş edirəm ki, imzaladıqdan sonra hökumətiniz tərəfindən təsdiq edilmiş bir nüsxəni Sizə bu kağızı təqdim edən zabit vasitəsilə mənə qaytarasınız.

İkinci nüsxə Sizin istifadəniz üçündür.

Ən yüksək hörmət və ehtiramımdan xatircəm ola bilərsiniz.

Sizə sədaqətli Vilyam Haskel,
Müttəfiqlərinin Ali Komissarı

ARDA, f. 970, s. 1, iş 93, v. 3-4

## ТЕЛЕГРАММА НОЛКОВНИКА ГАСКЕЛЯ МИНИСТРУ ИНОСТРАННЫХ ДЕЛ М.-Ю.ДЖАФАРОВУ С ТРЕВОВАНИЕМ ПЕРЕДАЧИ АМЕРИКАНЦАМ НАХИЧЕВАИСКОГО И ШАРУРО-ДАРАЛАГЕЗСКОГО ОКРУГОВ

*26 сентября 1919 г.*

Миою не будут предприняты никакие шаги к установлению нейтральной зоны с генералом Деникиным или к разрешению других вопросов, пока нейтральная зона, включающая Нахичеванский и Шаруро-Даралагезский округа, не будет установлена. Условия образоваиия последней переданы сегодня в Тифлис азербайджанскому военному министру. Ожндаю телеграммы с принятием условий.

Гаскель

ГААР, ф. 897, оп.1, д. 57-а, л.-7.

***Tərcüməsi:***

## POLKOVNİK HASKELİİN NAXÇIVAN VƏ ŞƏRUR-DƏRƏLƏYƏZ DAİRƏLƏRİNİN AMERIKALILARA VERİLMƏSİ TƏLƏBİNƏ DAİR XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA TELEQRAMI

26 sentyabr 1919-cu il

Naxçıvan və Şərur-Dərələyəz dairələrini əhatə edən neytral zona müəyyənləşdirilmədən general Denikinlə həmin zonanın yaradılması və yaxud digər məsələlərin həlli istiqamətində tərəfimdən heç bir addım atılmayacaqdır. Neytral zonanın təşkil edilməsi şərtləri bu gün Tiflisdə Azərbaycanın hərbi nazirinə verilmişdir. Şərtlərin qəbul edilməsinə dair teleqramınızı gözləyirəm.

Haskel

ARDA, f. 897, s. 1, iş 57a, v. 7



## 2-й ПРОЕКТ ГАСКЕЛЯ

*27 сентября 1919 г.*

1. Шарурский и Нахичеванский уезды образовывают зону с союзным управлением, во главе с американским губернатором.
2. ....... назначается губернатором этой зоны.
3. Централный совет, составленный из армянского и татарского населения, пропоционально количеству населения в каждый зоне, принимает участие в управленни.
   Члены указанного совета будут утверждены после производства выборов самим губернатором.
4. Правительства Азербайджана должны немедленно отозвать отряды, которые могли быть ими до сего времени назначены на эту зону.
5. Все агенты и лица, причастные к возбуждению смуты среди населения, должны быть намедленно удалены.
6. Должна быть дарована амнистия за все проступкн (преступления) протнв одного нз правительств до дня обродования этой прокламации.
   Указанная амнистия никоим образом не распространяется на проступки (преступления), совершенные против англлийских военных властей.
7. До назначения губернатора в указанной зоне остается сушествуюшая местно власть.
   При своем назначении губернатор должен в возможно непродолжительном времени назначнть день для нзбрания местных властей.
   Губернатор нмеет право смешать местные должностные лица в случаях и бездеятелностн, подкупности и в аналогичных случаях.
8. Телеграфное и железнодарожное сообщение в указанной зоне будут исправлены и немедленно приведены в действие.
   Железная дорога будет находнться под контролем губернатора и действовать в соответствии с железнедорожной системой республики Армении. Она будет обслужнвать все население без различия.
9. Постройка той части Джульфа-Бакиискoй желэзнодорожный линии, котороя находится в нейтральной зоне, будет прозводиться под наблюдением специальной комиссии, образованной согласно договору, заключенному между Азербайджаном и Арменней непосредственно.
10. Средства, необходнмые для покрытия расходов, связанных с управленннем страны, получаются путем обложения населения налогами.
11. В пределах зоны должна быть свобода языка и богослужения.
12. Насление уездов указанной зоны не будет разоружено за исключением тех лиц, которые будет признаны губернатором недостаточно благонадежными.

*ГААР, ф. 894, оп. 10, д.99, л.13-14.*

*Tərcüməsi:*

## HASKELIN 2-Cİ LAYİHƏSİ

27 sentyabr 1919-cu il

1. Şərur və Naxçıvan qəzaları başda Amerika qubernatoru olmaqla müttəfiq idarəçiliyi zonasını təşkil edirlər.
2. ... bu zonanın qubernatoru təyin edilir.
3. Hər bir zonada yaşayan əhalinin miqdarına mütənasib şəkildə olmaqla erməni və tatar əhalisindən təşkil edilən Mərkəzi Şura idarəetmədə iştirak edir. Göstərilən şuranın üzvləri seçkilər keçirildikdən sonra qubernatorun özü tərəfindən təsdiq olunacaqdır.
4. Azərbaycan hökuməti bu zonaya indiyə kimi təyin edilən dəstələri dərhal geri çağırmalıdır.
5. Bütün agentlər və əhali arasında qarışıqlıq sala biləcək şəxslər dərhal uzaqlaşdırılmalıdır.
6. Bu bəyannamə elan edilənədək hökumətlərdən hər hansı birinə qarşı törədilmiş bütün xətalar (cinayətlər) üzrə amnistiya əta edilməlidir. Göstərilən amnistiya heç bir vəchlə ingilis hərbi hakimiyyətinə qarşı törədilmiş xətalara (cinayətlərə) şamil edilmir.
7. Qubernator təyin edilənədək göstərilən zonada mövcud yerli hakimiyyət fəaliyyətində qalır. Təyin edildəndən sonra qubernator mümkün qədər qısa müddətdə yerli hakimiyyətin seçilməsi gününü təyin etməlidir. Qubernatorun yerli vəzifəli şəxsləri fəaliyyətsizlik, satılma və digər analoji hallarda kənarlaşdırmaq hüququ vardır.
8. Göstərilən zonada teleqraf və dəmir yolu rabitəsi təmir ediləcək və dərhal işə salınacaqdır.
   Dəmir yolu qubernatorun nəzarəti altında olacaq və Ermənistan Respublikasının dəmir yolu sisteminə uyğun şəkildə fəaliyyət göstərəcəkdir. Dəmir yolu fərq qoymadan bütün əhaliyə xidmət edəcəkdir.
9. Culfa-Bakı dəmir yolu xəttinin neytral zonada yerləşən hissəsinin tikintisi Azərbaycan və Ermənistan arasında birbaşa imzalanmış müqaviləyə uyğun şəkildə təşkil edilən xüsusi komissiyanın nəzarəti altında aparılacaqdır.
10. Zonanın idarə edilməsi ilə bağlı xərclərin ödənilməsi üçün zəruri vəsaitlər əhalinin vergiyə cəlb edilməsi yolu əldə edilir.
11. Zonanın hüdudlarında dil və ibadət azadlığı olmalıdır.
12. Göstərilən zonanın qəzalarının əhalisi qubernator tərəfindən kifayət qədər etibarlı sayılmayan şəxslər istisna olmaqla tərksilah edilməyəcəkdir.

ARDA, f. 894, s.10, iş 99, v. 13-14



## ДОИЕСЕНИЕ ДИПЛОМАТИЧЕСКОГО НРЕДСТАВИТЕЛЯ АР В ГРУЗИИ МИНИСТРУ ИНОСТРАИИЫХ ДЕЛ М.-Ю. ДЖАФАРОВУ О БЕСЕДЕ С ПОЛКОВИИКОМ ГАСКЕЛЕМ ПО ВОПРОСУ СОЗДАИИЯ «НЕЙТРАЛБИОЙ» ЗОИЫ В РАЙОНЕ ШАРУРА И НАХИЧЕВАИИ

*27 сентября 1919 г.*

Вчера, 26 сентября, я вместе с военным миинистром был у Гаскеля. Мехмандаров просил его об оказании содействия в деле отправки в Италию военной комиссин для закупкн снаряження.

Во время беседы Гаскель определенно указал, что он всемерно пойдет навстречу в том лишь случае, если азербайджаиское правительство, со своей стороны, ускорит созданне нейтральной зоны в районе Шарура и Нахнчеванн.

Одновременно с этим Гаскель показал на телеграмму, полученную от Вас по поводу нейтральной зоны в Дагестане.

Разрешение этого вопроса в желательном для нас смысле, как и вопрос об оказанин содействия Военной комнссин, Гаскель ставит тоже в завнсимость от создания нейтральной зоиы в районе Шарура н Нахичевани.

В продолженнн этой беседы определенно чувствовалось, что Гаскель придает особенное значение созданию нейтральной зону между Азербайджаном и Арменней в самом непродолжительном временн. Из слов Гаскеля можио было уловнть, что у него создалось впечатление, будто азербайджанское правительство, не желая идти навстречу, всячески создает препятствне к установлению нейтральной зоны. Он счнтает неприемлемым, поставленные нашнм правнтельством, условня создання нейтральной зоны, находя, что с выполнением этих условнй азербайджанское правительство в значительиой мере распространяет свою власть на указанные районы. Я полагаю, что для ускорения решення этого вопроса было бы весьма желательным присутствие здесь одного из ответственных членов нашего правительства, дабы путем личных переговоров закончить вопрос о созданин нейтральной зоны. Телеграфные и почтовые сношения по этому вопросу вносят весьма много неясностей и значительно осложняют дело. Еще раз, обращая Ваше вниманне на очень большое значение, которое придает Гаскель и созданню нейтральной зоны в пограннчной с Арменней полосе, и на сложнвшееся у него убеждение о слишком агрессивиом настроеннн нашего правнтельства. Прнсутствие предста-

вителей-армян и отсутствие наших в значительной мере содействовало односторонней обработке мнения Гаскеля.

*Заместитель дипломатического представителя Азербайджанской Республики при правительстве Грузинской Республики Векилов*

ГААР, ф. 897, оп. 1, дел 51, л. 256



*Tərcüməsi:*

**AZƏRBAYCAN RESPUBLIKASININ GÜRCÜSTANDAKI DİPLOMATİK NÜMAYƏNDƏSİNİN ŞƏRUR RAYONUNDA VƏ NAXÇIVANDA "NEYTRAL" ZONANIN YARADILMASI MƏSƏLƏSİNƏ DAİR POLKOVNİK HASKELLƏ ETDİYİ SÖHBƏT HAQDA XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA MƏLUMATI**

27 sentyabr 1919-cu il

Dünən, sentyabrın 26-da, mən hərbi nazirlə birlikdə Haskelin yanında oldum. Mehmandarov təchizat almaq üçün İtaliyaya göndərilməkdə hərbi komissiyaya köməklik göstərməyi ondan xahiş etdi.

Söhbət zamanı Haskel açıq şəkildə bildirdi ki, o, Şərur rayonunda və Naxçıvanda neytral zonanın yaradılması işi Azərbaycan hökuməti tərəfindən sürətləndirmiş olduğu halda ona hər cəhətdən güzəştə gedə bilər.

Bununla eyni zamanda Haskel Dağıstanda neytral zona ilə bağlı Sizdən aldığı teleqramı da göstərdi.

Bu məsələnin bizim üçün arzuolan şəkildə həllini, habelə Hərbi komissiyaya köməklik göstərilməsi məsələsini Haskel Şərur rayonunda və Naxçıvanda neytral zonanın yaradılmasından asılı vəziyyətə qoyur.

Bu söhbət əsnasında açıq-aşkar hiss olunurdu ki, Haskel Azərbaycanla Ermənistan arasında neytral zonanın ən qısa müddətdə yaradılmasına xüsusi əhəmiyyət verir. Haskelin sözlərindən belə başa düşmək olurdu ki, onda yaranmış təəssürata görə, guya Azərbaycan hökuməti güzəştə getmək istəməyərək hər vasitə ilə neytral zonanın müəyyənləşdirilməsinə maneçilik törədir. O, neytral zonanın yaradılması ilə bağlı bizim hökumətin qoyduğu şərtləri qəbuledilməz sayır. Onun fikrincə, bu şərtlərin yerinə yetirilməsilə Azərbaycan hökuməti göstərilən rayonlarda öz hakimiyyətini xeyli dərəcədə genişləndirmiş olur. Mən hesab edirəm ki, bu məsələnin həllinin sürətləndirilməsi, şəxsi danışıqlar yolu ilə neytral zonanın yaradılması məsələsini bitirməkdən ötrü bizim hökumətin məsul üzvlərindən birinin burada iştirakı çox arzu olunandır. Bu məsələ üzrə teleqraf və poçt əlaqələri həddən çox anlaşılmazlıqlar yaradır və işi xeyli dərəcədə mürəkkəbləşdirir. Bir daha Sizin diqqətinizi Haskelin Ermənistanla sərhəd boyunca neytral zonanın yaradılmasına verdiyi böyük əhəmiyyətə və həm də onun bizim hökumətin həddən

artıq aqressiv əhvalı-ruhiyyəli olmasına dair formalaşmış inamına yönəldirəm. Erməni nümayəndələrinin iştirakı və bizimkilərin olmaması Haskelin fikrinin birtərəfli formalaşmasına xeyli dərəcədə təsir göstərmişdir.

Gürcüstan Respublikası hökuməti yanında Azərbaycan
Respulikasının diplomatik nümayəndəsinin müavini Vəkilov

ARDA, f. 897, siy.1, iş 51, v. 256



**ТЕЛЕГРАММА МИНИСТРА ННОСТРАННЫХ ДЕЛ М.-Ю.ДЖАФАРОВА ПОЛКОВННКУ ГАСКЕЛЮ О СОГЛАСНН ПРАВНТЕЛЬСТВА АР С ТРЕВОВАНИЕМ США СОЗДАТЬ ОСОБОЕ НАХПЧЕВАНСКОЕ ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВО**

*29 сентября 1919 г.*

Правнтельство мое не нмеет ннчего против оброзования особого генерал-губернаторства в переделах Шаруро-Даралагезского и Нахичеванского уездов Эриванской губ(ернин), но некоторые пункты предложенных условнй встречают возражения, о чем мною будет Вам сообщено дополнительно.

*Министр иностранных дел* *Джафаров*

ГААР, ф.970, оп.1, д.42, л.117

***Tərcüməsi:***

**XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVUN POLKOVNİK HASKELƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİNİN ABŞ-IN TƏLƏBI ILƏ XÜSUSİ NAXÇIVAN GENERAL-QUBERNATORLUĞUNUN YARADILMASINA DAİR RAZILIĞI HAQQINDA TELEQRAMI**

29 sentyabr 1919-cu il

Mənim hökumətim İrəvan quberniyasının Şərur-Dərələyəz və Naxçıvan qəzaları hüdudlarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyil, lakin təkilf olunan şərtlərin bəzi bəndləri etiraz doğurur ki, onlar haqqında da tərəfimdən Sizə əlavə məlumat veriləcəkdir.

Xarici işlər naziri Cəfərov

ARDA, f. 970, s.1, iş 42, v. 117

## ТЕЛЕГРАММА НОЛКОВИИКА ГАСКЕЛЯ МННИСТРУ ИНОСТРАННЫХ ДЕЛ М.-Ю. ДЖАФАРОВУ

*1 октября 1919 г.*

Ссылаясь на Вашу телеграмму от 29 сентября, Мирная конференция не признает права Азербайджана предппсывать условия для управления зоной амернканского управлення и также критика не нзменит этих поставленных условий. Эта зона будет создана и будет включать Шарурский н Нахичеванский округи. Условия былн Вамн посланы в целях уведомления Вас отиоснтельно иолитики и убедиться, будет или нет Ваше правнтельство лояльно соглашаться и помогать и поддерживать американского губернатора, в особенности в случаях (делах), касающихся установления мира и порядка. Немедленный телеграфный ответ требуется ввиду того, что я уезжаю в Париж на этих ближайших днях, где я намерен полностью представнть ваши прнтязания на полную собственность сториых уездов, с условием, что Ваше правительство поддержнт это временное соглашение.

*Гаскель*

ГААР, ф. 894, оп. 10, д. 51, л.256.



*Tərcüməsi:*

## POLKOVNİK HASKELİN XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVA TELEQRAMI

1 oktyabr 1919-cu il

Sizin 29 sentyabr tarixli teleqramınıza istinad edərək, Sülh konfransı Amerika idarəçiliyi zonası üçün Azərbaycanın idarəetmə şərtləri irəli sürmək hüququnu tanımır, habelə tənqid də bu qoyulmuş şərtləri dəyişməyəcəkdir. Bu zona yaradılacaq və o, Şərur və Naxçıvan dairələrini əhatə edəcəkdir. Şərtlər tərəfimizdən Sizin siyasət sahəsində məlumatlandırılmanız və bizim əmin olmağımız məqsədilə göndərilmişdir ki, Sizin hökumətin bununla loyallıqla razılaşacağı və Amerika qubernatoruna xüsusilə sülh və qayda-qanun yaradılması sahəsində xüsusi hallarda (işlərdə) köməklik və onu müdafiə edib-etməyəcəyi aydınlaşdırılsın. Yaxın günlərdə Parisə gedəcəyimdən teleqrafla dərhal cavab vermək tələb olunur. Hökumətiniz bu müvəqqəti razılaşmanı müdafiə edəcəyi təqdirdə orada mən Sizin mübahisəli əyalətlərə tam sahiblik iddialarınızı tamamilə təqdim etmək fikrindəyəm.

Haskel

ARDA, f.894, s.10, iş 51, v.256

## НИСЬМО МИИИСТРУ ННОСТРАННЫХ ДЕЛ М.-Ю ДЖАФАРОВА СОЮЗИОМУ ВЕРХОВНОМУ КОМНССАРУ НОЛКОВНИКУ ГАСКЕЛЮ

*4 октября 1919 г.*

29 августа сего 1919 г. Вы, совместно с Председателем совета Министров Азербайджанской Республнки и мною, выработали основные положения временного управления Нахнчеванским и Шаруро-Даралагезским уездамн Эрнванской губернин, населеннымн мусульманами в значительно преобладающем количестве и на основаннн этих выработанных положений Председатель Совета Министров Азербайджанской Республикн проспл Вас передать изложенные в письменной форме условия для подписания их азербайджанскнм правнтельством. Согласно просьбе, Вы любезно препроводилн просимые условия, датированные в г. Тифлисе 1-го сентября. Вслед за тем Вами были препровождены новые условия, датированные в городе Тифлисе 27-го сентября. Некоторые пункты препровожденных Вамн условий 1-го сентября и 27-го сентября не оказались в иолном соответствии с выработанными 29-го августа в городе Баку основными положениями временного управления, что не отняло уверенностн моего правнтельства при иовом обмене мнений в удовлетворении его притязаний, основанных на принципе самоопределения народов, провозглашеином президентом Впльсоном от имени своего и Союзных держав. В упомянутых уездах, а также в Ведибасарском районе азербайджанский народ, подвергаясь подобно мусульманам других уездов Эриванской губернии систематическому и организованному истреблению со стороны армянских властей, сам с оружием свергнул чуждую ему власть и ныне уже успел установить мир и полный порядок.

Азербайджанское правительство всегда стремилось и стремится к созданию прочного мира и порядка, и впредь будет всемерно поддерживать уже существующий мир и порядок, а также имеющегося быть для этой цели назначенным Вамн генерал-губериатора из числа американских граждан. Одновременно, имея в виду Ваше заявленне, сообщенное мне в телеграмме от 30 сентября лишь для уведомления о том, что Мирная конференция не прнзнает права Азербайджана предписывать условия для управления зоной, включающей названные уезды американского управления и также, что критнка не нзменнт этих поставленных условнй, азербайджанское правительство, оставаясь при первоначальном мнеиии, поставлено в необходнмость сообщить Вам, что оно не будет противодействовать предначертанням верховного



комиссара в Вашем лице по управлению названными уездами, составляющими неотъемлемые части Азербайджанской Республики и при этом надеется, что справедливые прнтязания азербайджанского народа Вамн будут поддержаны перед Мирной конференцией в соответствнн с провозглашенными иринципамн презндентом Вильсоном о правах народов и в соответствии [с] уже фактическн осуществленной волей азербайджанского народа названных уездов Эриванской губернии.

*Министр иностранных дел (подпись)*

ГААР, ф. 894, оп.10, д. 99, л. 8-9.

*Tərcüməsi:*

## XARİCİ İŞLƏR NAZİRİ M.Y.CƏFƏROVUN MÜTTƏFIQLƏRİN ALİ KOMİSSARI POLKOVNİK HASKELƏ MƏKTUBU

4 oktyabr 1919-cu il

29 avqust 1919-cu il tarixdə Siz Azərbaycan Respublikasımn Nazirlər Şurasının Sədri və mənimlə birlikdə müsəlman əhalisinin xeyli miqdarda üstünlük təşkil etdiyi İrəvan quberniyasının Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti idarəçiliyinin əsas müddəalarını işləyib hazırladınız və Azərbaycan Respublikasının Nazirlər Şurasınm Sədri bu hazırlanmış müddəaların əsasında yazılı şəkildə ifadə olunmuş şərtləri imzalamaq üçün onları Azərbaycan hökumətinə verməyi Sizdən xahiş etdi. Xahişə uyğun olaraq Siz həmin şərtləri 1 sentyabr tarixdə Tiflis şəhərindən lütfükarlıqla göndərdiniz. Bunun arxasınca Tiflis şəhəri, 27 sentyabr tarixli yeni şərtlər göndərdiniz. 1 sentyabr və 27 sentyabrda tərəfinizdən göndərilmiş şərtlərin ayrı-ayrı bəndləri avqustun 29-da Bakı şəhərində işlənib hazırlanmış müvəqqəti idarəetmənin əsas müddəaları ilə tam uyğun gəlmədiyindən hökumətimin prezident Vilyamın öz adından və müttəfiq dövlətlər adından səsləndirilən xalqların öz müqəddəratını müəyyən etməsi prinsipinə əsaslanan istəklərinin təmin olunmasına inamı azaltmamışdır. Xatırladılan qəzalarda, habelə Vedibasar rayonunda Azərbaycan xalqı İrəvan quberniyasının digər əyalətlərinin müsəlmanları kimi erməni hakimiyyəti tərəfindən sistematik və mütəşəkkil qırğınlara məruz qaldığından özü silah gücünə ona yad olan hakimiyyəti devirmiş və indi sülh və tam qayda-qanun yaratmağa müvəffəq olmuşdur.

Azərbaycan hökuməti həmişə möhkəm sülh və qayda-qanun olmasına çalışmış və çalışır, artıq mövcud olan sülh və əmin-amanlığı, habelə bu məqsədlər üçün tərəfinizdən Amerika vətəndaşları sırasından təyin olunmuş general-qubernatoru gələcəkdə də bütün vasitələrlə müdafiə edəcəkdir. Eyni zamanda Sizin yalnız xəbərdarlıq üçün göndərilmiş 30 sentyabr tarixli teleqramla mənə çatdırılan bəyanatınızı nəzərə alaraq, Sülh konfransı adı çəkilən qəzaları özündə birləşdirən zonanın Amerika idarəçiliyi üçün Azərbaycamn idarəetmə şərtləri irəli sürmək hüququnu tanımır, habelə tənqid də bu qoyulmuş şərtləri dəyişə bilməz fikri ilə bağlı Azərbaycan hökuməti



əvvəlki fikrində qalaraq Sizə bildirmək məcburiyyətindədir ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissələri olan adı çəkilən əyalətlərin idarə olunması üzrə Sizin timsalınızda ali komissarın nəzərdə tutulmuş göstərişlərinə qarşı çıxmayacaqdır və bu zaman ümid edir ki, Azərbaycan xalqının ədalətli iddiası prezident Vilson tərəfindən səsləndirilmiş xalqların hüquqları haqqında prinsiplərə, həm də Azərbaycan xalqının iradəsi ilə artıq faktiki olaraq həyata keçirilən İrəvan quberniyasının adı çəkilən əyalətlərinin Azərbaycana birləşdirilməsinə uyğun şəkildə Sülh konfransında tərəfinizdən müdafiə olunacaqdır.

Xarici işlər naziri (imza)

ARDA, f. 894, s. 10, iş 99, v. 8-9

## ПРОЕКТ СОГЛАШЕНИЯ ПО ВОПРОСУ УПРАВЛЕНИЯ НАХИЧЕВАИСКИМ И ШАРУРО-ДАРАЛАГЕЗСКИМ УЕЗДАМИ МЕЖДУ СОЮЗНЫМ ВЕРХОВНЫМ КОМИССАРОМ В ЗАКАВКАЗЬЕ ПОЛКОВНИКОМ ГАСКЕЛЕМ И АЗЕРБАЙДЖАНСКНМ ПРАВПТЕЛЬСТВОМ

1. Нахичеванский и Шаруро-Даралагезскнй уезды временно составляют особое генерал-губернаторство.
2. Генерал-губернатор назначается Союзным верховным комнссаром полковником Гаскелем из чнсла американских граждан.
3. Уезды эти управляются уездным местным советом, нзбранным на основании всеобщего, прямого, равного и тайного голосования.
4. Вся полнота властн в области управления на территорни Генерал-губернаторства – административной, судебной, [управления] железн [ыми] и шоссейнымн дорогамн, почтой и телеграфом, народным просвещеннем, входит нсключительно в компетенцию совета и контролируется генерал-губернатором.
5. Администрация назначается советом Генерал-губернаторства, главным образом нз той же нацнональностн, которая преобладает в данной местности.
6. Во всем Генерал-губернаторстве объявляется свобода печатн, совестн, слова и непрнкосновенности личности и жилища.
7. Бюджет Генерал-губернаторства рассматривается в азербайджанском парламенте, недостающая сумма пополняется из азербайджанской казны.
8. Официальнымн деньгамн признаются азербайджанские дензнаки.
9. Генерал-губернатор до организацнн выборов приглашает из Азербайджана двух советииков для оказания помощп последнему в деле умиротворения и установления правопорядка.
10. Из этого района выделяется особая полоса для проведения Джульфа-Бакинской дороги, где вся полнота власти остается в руках азербайджанского правительства.
11. Населенпе на территорнн Генерал-губернаторства не обезоруживается.
12. Объявляется всеобщая амнистня на территории Генерал-губернаторства за все преступлення, связаииые с разрешением территориально-политическнх вопросов.

ГААР, ф. 894, оп.10, д. 99, л. 7.



*ərcüməsi:*

## NAXÇIVAN VƏ ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZALARININ İDARƏ EDİLMƏSİ MƏSƏLƏSİ ÜZRƏ ZAQAFQAZİYADA MÜTTƏFIQLƏRİN ALİ KOMİSSARI POLKOVNİK HASKELLƏ AZƏRBAYCAN HÖKUMƏTİ ARASINDAKI SAZİŞİN LAYİHƏSİ

1. Naxçıvan və Şərur-Dərələyəz qəzaları müvəqqəti olaraq xüsusi General–qubernatorluq təşkil edirlər.
2. General-qubernator Müttəfiqlərin Ali Komissarı polkovnik Haskel tərəfindən Amerika vətəndaşları arasından təyin edilir.
3. Bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə əsasında seçilən yerli qəza şurası tərəfindən idarə olunur.
4. General-qubernatorluğun ərazisində idarəetmə sahəsində bütün hakimiyyət – inzibati və məhkəmə hakimiyyəti, dəmir və şose yolları, poçt və teleqraf, xalq təhsilinin idarə edilməsi müstəsna olaraq şuranın səlahiyyətinə daxildir və General-qubernator tərəfindən nəzarət olunur.
5. Administrasiya General-qubernatorluğun şurası tərəfindən, əsasən həmin yerdə üstünlük təşkil edən milliyətdən təyin olunur.
6. Bütün General-qubernatorluqda mətbuat, vicdan və söz azadlığı, şəxsiyyət və mənzil toxunulmazlığı bəyan edilir.
7. General-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılır, çatışmayan məbləğ Azərbaycanın xəzinəsindən ayrılır.
8. Rəsmi pul olaraq Azərbaycanın pul nişanları tanınır.
9. General-qubernator seçkilərin təşkilinə qədər Azərbaycandan iki nəfər müşavir dəvət edir ki, onlar da əhalini sakitləşdirməkdə və qayda-qanun yaratmaqda ona köməklik edirlər.
10. Bu rayondan Culfa-Bakı yolunun çəkilişi üçün xüsusi zolaq ayrılır ki, burada bütün hakimiyyət Azərbaycan hökumətinin əlində saxlanılır.
11. General-qubernatorluğun ərazisində əhali tərkisilah edilmir.
12. General-qubernatorluğun ərazisində ərazi-siyasi məsələlərin həll edilməsilə bağlı törədilmiş bütün cinayətlərə görə ümumi amnistiya elan edilir.

ARDA, f. 894, s.10, iş 99, v.7

## СООБЩЕНИЕ О ПРЕДПОЛАГАЮЩЕМСЯ ОБРАЗОБАНИН АМЕРИКАНСКОГО ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВА В НАХИЧЕВАНН

*23 октября 1919 г.*

Представнтель верховного союзного комиссара полковника Гаскеля за время его отсутствия, полковник генерального штаба, начальннк штаба Джеймс Рей, обратнлся к командующему нахичеванским отрядом и мусульманскому нацнональному совету в Нахичевани с письмом от 16 октября, нз которого приводятся следующие выдержки:

«Как представитель верховного комнссара союзников в его отсутствне, я нмею честь уведомнть вас, что в целях установления спокойствия в Нахнчеванском и Шарурском районах правнтельства Азербайджана и Арменин прншли к соглашенню, что эти два района будут оставаться и впредь в зоне союзного управления, под адмнннстративной властью американского губернатора. Полковник Элмунд Д.Делли, инженер армни Соедння енных Штатов, назначен губернатором. Вступленне его в исполненне своих обязанностей предполагается 23 октября в Нахнчевани. Одновременио предполагается опублнковать объявление, касающееся состоявшегося между союзным комиссаром соглашения, относительио управления зоиой. Группа лиц, в которую вхожу я и офицеры штаба, полковник Дэлли и его штаб и представители Азербайджана и Арменни, прнбудут в Нахнчевань 23 октября для участия в этой церемонии. Мы приглашаем представнтелей, как военных, так и гражданских, магометанского Национального Совета Нахнчеванн присутствовать также.

*Джеймс Рей, полковник главного штаба,*
*начальник штаба».*

*Азербайджан, 1919, 23 октября*



*Tərcüməsi:*

## NAXÇIVANDA AMERİKA GENERAL-QUBERNATORLUĞUNUN NƏZƏRDƏ TUTULMUŞ TƏŞKİLİ HAQQINDA MƏLUMAT

23 oktyabr 1919-cu il

Müttəfiqlərin Ali Komissarı polkovnik Haskelin nümayəndəsi, baş qərargah polkovniki, qərargah rəisi Ceymis Rey onun olmadığı zamanda Naxçıvan dəstəsinin komandirinə və Naxçıvandakı Müsəlman Milli Şurasına 16 oktyabr tarixdə məktubla müraciət etmişdir. Aşağıdakı parçalar həmin məktubdandır:

"Müttəfiqlərin Ali Komissarının nümayəndəsi kimi onun olmadığı zamanda Sizi xəbərdar etməyi özümə şərəf sayıram ki, Naxçıvan və Şərur rayonlarında sakitliyi bərqərar etmək məqsədilə Azərbaycan və Ermənistan hökumətləri razılığa gəliblər ki, bu iki rayon bundan sonra da müttəfiq idarəetmə zonasında Amerika qubernatorunun inzibati hakimiyyəti altında qalacaqlar. Birləşmiş Ştatlar ordusunun mühəndisi, polkovnik Elmund D.Delli qubernator təyin olunmuşdur. Onun öz vəzifəsinin icrasına başlaması 23 oktyabrda Naxçıvanda nəzərdə tutulur. Eyni zamanda zonanın idarə olunmasına dair müttəfiqlərin komissarı ilə Azərbaycan hökuməti arasında əldə edilmiş razılığa aid elanın dərc olunması nəzərdə tutulur. Mənim və qərargah zabitlərinin də daxil olduğu şəxslər qrupu, polkovnik Delli və onun qərargahı, Azərbaycan və Ermənistanın nümayəndələri bu mərasimdə iştirak etmək üçün 23 oktyabrda Naxçıvana gələcəklər. Biz həm hərbi, həm də mülki nümayəndələrini, Naxçıvanın Müsəlman Milli Şurasını da bu mərasimdə iştirak etməyə dəvət edirik.

Ceymis Rey, baş qərargah polkovniki, qərargah rəisi "

"Azərbaycan", 1919, 23 oktyabr

## ИЗ ОБЪЯВЛЕНИЯ СОЮЗИОГО ВЕРХОВНОГО КОМИССАРА В ЗАКАВКАЗЬЕ ОВ ОБРАЗОВАИИИ АМЕРИКАНСКОГО ГЕНЕРАЛ-ГУБЕРНАТОРСТВА В НАХНЧЕВАИИ

*23 октября 1919 г.*

Ввиду того, что мир, личная имущественная безопасность в Шарурском и Нахичеванском округах нарушены вооруженным столкновением между армянами и азербайджанцами, вызванными претензиями Армении и Азербайджана на эту территорию, и в виду того, что вопрос о правах Армении и Азербайджана на Шарурский и Нахнчеванскнй округ еще не разрешен Мирной конференцней, и в внду того, что правительства Армении Азербайджана не в состоянии прийти к полюбовному соглашению относительно владения этой территорией, и сохранить мнр на этой террнторнн.., я, Вильям Н.Гаскель, в силу, возложенной на меня Мирной конференцией власти, как верховный комиссар Северо-Амернканских Соедннненных Штатов, Франции, Великобритании и Италии, ныне повелеваю нижеследующее:

1. Шарурский и Нахичеванский округа образуют зону союзного управления под начальством американского губернатора.
2. Полковник Эдмунд Д.Дэлли ннженерных войск армни Северо-Амернканских Соединенных Штатов сам назначается губернатором этой зоны.
3. Учреждается центральный совет, который будет придан управленню и будет состоять нз армян и татар, пропорционально численности каждой народности в пределах зоны. Члены этого совета будут назначены губернатором впредь до назначения выборов.
4. Правительства Азербайджана и Армении немедленно удалят войска, которые могли бы находиться в пределах этой зоны.
5. Все агенты и лица, могущие возбуждать местиое население, будут немедленно удалены.
6. ...Губернатор во всяком случае будет иметь право отстранять от должности всякое должиостное лицо в пределах зоны за неспособность, подкупность и по другим подобным осиованиям.
7. Железные дороги и телеграф, находящпеся в пределах зоны, будут находиться под контролем губернатора...
8. Расходы по управлению этой зоны будут покрываться из местного обложения...
9. Все лица приглашаются повиноваться и сообразоваться с



требованиями этого объявления и лояльно поддерживать и помогать управлению американского губернатора, впредь до окончательного разрешения Мирной конференцией вопроса о владенин этими округами.

Дано и опублнковано в Нахичевани октября 25 дня 1919 г.

*Вильям Гаскель, полковник генерального штаба армии Соединенных Штатов, союзный верховный комиссар*

*Официально –Рей, полковник генерального штаба армии Соединенных Штатов, начальник штаба*

*Азербайджан, 1919, 14 ноября*

*Tərcüməsi:*

## NAXÇIVANDA AMERİKA GENERAL-QUBERNATORLUĞUNUN YARADILMASI HAQQINDA ZAQAFQAZİYADA MÜTTƏFİQLƏRİN ALİ KOMİSSARININ ELANINDAN

23 oktyabr 1919-cu il

Şərur və Naxçıvan dairələrində sülhün, şəxsi əmlak təhlükəsizliyinin Ermənistan və Azərbaycanın bu ərazilərə iddiaları üzündən ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmalar nəticəsində pozulmasından, Ermənistan və Azərbaycanın Şərur və Naxçıvan dairəsi ilə bağlı hüquqları haqqında məsələnin Sülh konfransı tərəfindən hələlik həll edilməməsindən, Ermənistan və Azərbaycan hökumətlərinin bu ərazilərə malik olmaq sahəsində sülh razılığına gələ bilməməsindən və bu ərazidə sülhün qorunması üçün ... mən, Vilyam H.Haskel Sülh konfransının mənim üzərimə qoyduğu hakimiyyətdən istifadə edərək Şimali Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya və İtaliyanın ali komissarı kimi indi aşağıdakıları bəyan edirəm:

1. Şərur və Naxçıvan dairələri Amerika qubernatorunun başçılığı altında müttəfiq idarəetmə zonasını təşkil edir.
2. Şimali Amerika Birləşmiş Ştatları ordusunun mühəndis qoşunlarının polkovniki Edmund D.Delli şəxsən bu zonanın qubernatoru təyin edilir.
3. İdarə tabeliyində veriləcək mərkəzi şura təsis edilir və o, zona hüdudlarında hər xalqın sayına proporsional olmaqla erməni və tatarlardan ibarət olur. Bu şuranın üzvləri seçkilər təyin olunana qədər qubernator tərəfindən təyin ediləcəkdir.
4. Azərbaycan və Ermənistan hökumətləri bu zona daxilində yerləşmiş qoşunlarını dərhal uzaqlaşdırırlar.
5. Bütün agentlər və yerli əhalini qızışdıra biləcək şəxslər dərhal uzaqlaşdırılacaqdır.
6. Qubernator zona hüdudlarında istənilən vəzifəli şəxsi qabiliyyətsizliyinə, satqınlığına və bu kimi digər əsaslara görə istənilən halda vəzifəsindən uzaqlaşdırmaq hüququna malik olacaqdır.



7. Zona hüdudlarında yerləşən dəmir yolları və teleqraf qubernatorun nəzarəti altında olacaqdır...
8. Bu zonanın idarə olunması üzrə xərclər yerli vergilər hesabına ödəniləcəkdir.
9. Bütün şəxslər bu elanın tələbi ilə itaət göstərməyə və səfərbər olmağa, Sülh konfransı tərəfindən bu dairələrin kimə mənsub olması haqqında məsələ qəti şəkildə həll edilənə qədər Amerika qubernatoru idarəsini müdafiə etməyə və ona köməklik göstərməyə dəvət olunurlar.

Naxçıvanda 25 oktyabr 1919-cu il tarixdə bəyan və dərc olunmuşdur.

Vilyam Haskel, Birləşmiş Ştatlar ordusunun baş qərargah polkovniki, Müttəfiqlərin Ali Komissarı

Rəsmən - Rey, Birləşmiş Ştatlar ordusunun baş qərargah polkovniki, qərargah rəisi

"Azərbaycan", 1919, 14 noyabr

## ОТИОШЕНИЕ ВР. И.Д. НАХИЧЕВАИСКОГО ГЕНЕРАЛ-ГУБЕРНАТОРА С.ДЖАМИЛЛИНСКОГО ПРЕДСТАВИТЕЛЮ АЗЕРБАЙДЖАИА В АРМЕНИИ А.АХВЕРДОВУ О ПОЛУЧЕНИИ ПОЛК. ДЭЛЛИ ПОЛИОМОЧИЙ ПРЕДСТАВИТЕЛЯ США В НАХИЧЕВАИИ

*Нахичевань* *26 октября 1919 г.*

Вследствие Вашего отношения полковник со своей свитой мною был принят по возможиости почетио и гостеприимно. Двухдневные долгие переговоры, в которых с нашей стороны участвовали я, Халил бей, Келбалихан и директор моей канцелярии Д.Мамедов привели к тому, что полковннк согласился оставить здесь полк. Дэлли ие в качестве генерал-губернатора, а качестве представнтеля мирной коиференции или Америкн. Понятио, что с его согласием на это уже отпадает вопрос об объявлении этого края зоной союзного управлеиия, и некоторым образом выражается их согласие на присоединение этого края к Азербайджану. Здесь мы, как представителн власти, представители населеиия, а также многостепенная толпа, едииогласно заявили им, что этот край мы уже практически присоединили к Азербайджанской Республике и, если мирная коиференция отнимет иас от нашей республики, то народ скорее согласится на уничтожение огнем культурных держав, нежели отделиться от Азербайджаиа. Подробиости переговоров передаст Вам г. Шейхов. Прошу о таком исходе дела передать моему правительству, дабы оно безотлагательно через Вас снабжало меня инструкциями о дальнейших моих отношениях к американскому представителю в Нахичевани.

Этот представитель в нашп дела не будет вмешиваться абсолютио и будет работать ь направлении создания мира между нами и армянами и оказания помощи нашим беженцам.

И.д.вр.генерал-губернатора С.Джамиллннский

ГААР, ф. 897, ои. 1, д. 57 а, л. 12.



*Tərcüməsi:*

## NAXÇIVANININ GENERAL-QUBERNATORU İŞLƏRİNİ MÜVƏQQƏTİ İCRA EDƏN S.CƏMİLLİNSKİNİN POLKOVNİK DELLİNIN ABŞ-IN NAXÇIVANDAKI NÜMAYƏNDƏSİ SƏLAИIYYƏTLƏRİNİ ALMASINA DAIR AZƏRBAYCANIN ERMƏNİSTANDAKI NÜMAYƏNDƏSİ Ə.HAQVERDİYEVƏ TƏLİQƏSİ

Naxçıvan 26 oktyabr 1919-cu il

Sizin təliqəniz nəticəsində polkovnik öz məiyyəti ilə mənim tərəfimdən imkan daxilində ehtiram və qonaqpərvərliklə qəbul edilmişdir. Bizim tərəfdən mənim, Xəlil bəyin, Kalbalı xanın və dəftərxanamın direktoru D.Məmmədovun iştirak etdiyi iki günlük uzun danışıqlar ona gətirib çıxardı ki, polkovnik burada polkovnik Dellini general-qubernator kimi deyil, Sülh konfransmın yaxud Amerikanın nümayəndəsi kimi saxlanılmasına razılıq verdi. Aydındır ki, onun bu razılığı ilə bu diyarın müttəfiq idarəçiliyi zonası elan edilməsi məsələsi artıq gündəlikdən düşür və bu diyarın Azərbaycana birləşdirilməsinə onların razılığı müəyyən mənada ifadə olunur. Burada hakimiyyət nümayəndələri kimi biz, əhalinin nümayəndələri, həmçinin müxtəlif kütlələr yekdilliklə bəyan etdik ki, bu diyarı biz artıq praktiki olaraq Azərbaycan Respublikasına birləşdirmişik və əgər Sülh konfransı bizi öz respublikamızdan ayırarsa, onda xalq mədəni dövlətlərin atəşilə məhv edilməsinə razılaşar, nəinki Azərbaycandan ayrılmağa. Danışıqların təfərrüatını Sizə cənab Şeyxov çatdıracaq. Xahiş edirəm işin belə gedişini mənim hökumətimə çatdırasınız ki, o, təxirə salmadan Sizin vasitənizlə mənim Naxçıvandakı Amerika nümayəndəliyinə bundan sonrakı münasibətimə dair təlimatlarla məni təmin etsin. Bu nümayəndə bizim işlərimizə qətiyyən qarışmayacaq və bizimlə ermənilər arasında sülhün yaradılması və bizim qaçqınlara köməklik göstərilməsi istiqamətində işləyəcəkdir.

General-qubernator işlərini
müvəqqəti icra edən C.Cəmillinski

ARDA, f.897, s.1, iş 57a, v.12

## ДОКЛАДНАЯ ЗАПНСКА УПОЛНОМОЧЕННОГО ПРЕЗИДИУМА ЗЕМЛЯЧЕСТВА МУСУЛЬМАН ЮГО-ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА А.С.КАСНМОВА ПРЕДСЕДАТЕЛЮ СОВЕТА МИННСТРОВ Н.Ю.УСУБВЕКОВУ О НЕОБХОДИМОСТИ СОДЕЙСТВИЯ В ПЕРЕГОВОРАХ С АРМЯНСКИМ НРАВНТЕЛЬСТВОМ НО ПОВОДУ ОБМЕНА НЕЗАКОННО АРЕСТОВАННЫХ ВИДНЫХ ОБЩЕСТВЕНИЫХ ДЕЯТЕЛЕЙ НАХИЧЕВАИИ

*5 ноября 1919 г.*

После введеиия англичанами бескровно и в сплу авторнтета союзников армяиских регулярных частей в Юго-Западный Азербайджан, то там армянские власти в основу своей политики первым долгом и на первый план положили изолироваиие и изъятие иителлигенции и людей популярных средп местных азербайджанских турок, которые, как они полагали, могли бы быть вредными на их имперпалистическом путн. В первую голову в г.Нахичевани арестоваиы: 1) Гусейн Ага Новрузов, 2) Мирза Али бек Бекташн и 3) жит. сел. Джагры Нахичеванского у. Джафар бек.

Лица эти в этапном порядке в ужасно тяжелых условиях были доставлеиы в Эривань, а оттуда, по иашим сведениям, были доставлены в Александрополь, а потом снова в Эривань, где теперь и продолжают оставаться в заточении. Как изволите усмотреть из мотива их ареста, опасность их для армянского правительства после занятия Нахичевани миновала, и т.к. оии до нахичеванских событий уже были арестованы, то, будучи в плену не только актнвного, но и пассивного участия в деле восстания против армян принимать не могли. Так как при таких условиях не имеется налнцо состав преступленнй, то они должиы были по сне время быть освобождены. Отношенне армян к своим узннкам было невыносимое, а после изгиания армянских частей из территорин Юго-Западного Азербайджана стало просто сказываться в побоях, истязаниях, глумленнях и прочее. Для характеристики укажу на следующее: нам достоверно довелось узнать, что тюремщики, покурив свою папиросу, тушат ее остаток на их лбах, колотят, грубо обращаются, нздеваются, в их и без того сырых помещениях поливают под ними пол и их сиденья водой и изнуряют голодом, остается только кормление без соли, как это бывало в оные времена варваров, чтобы постепенно разрушить оргаиизм и продлнть процесс мучительного конца.

С другой стороны, после изгнания армян у нас в Юго-Западиом



Азербайджане осталось в качестве пленных 5 офицеров, 120 солдат, а кроме пленных, имеется до 6 тыс. армян, продолжающих свой мирный труд. Отношение к ним самое корректное, а к пленным – предупредительное. Мирные армяне до того себя чувствуют свободно, что бывают повсюду и даже ставят свои спектакли. Это могут подтвердить пленные армянские офицеры и солдаты. Офицеры содержаться в подобающих их сану условиях. У них не отобрано даже оружие и не отстранены от прпслуживания им собственные денщнки. Они получают аккуратно пайки, и все это не могло быт армянскому правительству нензвестно.

Комаидоваиие Юго-Западного Азербайджана предложило Армении через американцев обменятся пленниками и при этом условия прнблизительио были таковы: на одного из этих трех плениых вернуть одного армянского офицера и двух солдат. Но по сие время правительство Армении так или иначе не реагировало на это предложение. Находя это явлеипе неиормальным и возвращение и тех и других в свои очаги отвечающим прииципам гуманности и справедливости, землячество иаше, всегда руководимое желанием содействовать прекращению никому не нужного кровопролития, налаживанию натянутых отношений, пагубно отразящихся на мирной и плодотворной работе обепх соседиих иаций, просит Ваше Высокопревосходительство возбудить этот вопрос перед надлежащими армяискими властями, дабы изыскать пути к достижению обеими сторонами удовлетворяющего соглашения.

О результатах принятых Вамн шагов по данному вопросу землячество просит Ваше Высокопревосходительство распорядиться поставить его в известность.

По уполномочию президиума
землячества мусульман Юго-Западиого
Азербайджана в Грузни — Али Сабри Касимов

Резолюция: Министру иностраиных дел

ГАППОДАР, ф. 277, оп 2, д. 58, л. 138.

*Tərcüməsi:*

**CƏNUB-QƏRBİ AZƏRBAYCANIN MÜSƏLMAN HƏMYERLİLƏRİ CƏMİYYƏTİ RƏYASƏT HEYƏTİNİN MÜVƏKKİLİ Ə. S. QASIMOVUN NAZİRLƏR ŞURASININ SƏDRİ N. Y. YUSİFBƏYOVA NAXÇIVANIN QEYRİ-QANUNİ HƏBS OLUNMUŞ GÖRKƏMLİ İCTİMAİ XADİMLƏRİNİN DƏYİŞDİRİLMƏSİ MƏSƏLƏSİ İLƏ BAĞLI ERMƏNİSTAN HÖKUMƏTİ İLƏ DANIŞIQLARA KÖMƏKLİK GÖSTƏRİLMƏSİ ZƏRURİLİYİ HAQQINDA MƏRUZƏ MƏKTUBU**

5 noyabr 1919-cu il

Müttəfiqlərin nüfuzundan istifadə edərək ingilislərin erməni nizami qoşunlarını Cənub-Qərbi Azərbaycana qan tökmədən yeritmələrindən sonra erməni hakimiyyəti burada öz siyasətinə ilkin olaraq onların imperialist yolu üzərində zərərli ola biləcək ziyalıların və yerli Azərbaycan türkləri arasında tanınmış insanların təcridi və müsadirə edilməsi ilə başladı. Naxçıvanda ilk həbs olunanlar: 1) Hüseyn ağa Novruzov, 2) Mirzə Əli bəy Bektaşi və 3) Naxçıvan qəzasının Cəhri kənd sakini Cəfər bəy oldu.

Bu şəxslər olduqca ağır şəraitdə yatabla İrəvana, oradan isə, bizdə olan məlumata görə, Aleksandropola, sonra yenidən İrəvana aparılmış və indiyə qədər də orada zindanda saxlanılmaqdadırlar. Onların həbsinin motivlərini araşdırıldıqda məlum olur ki, bu insanların Naxçıvan tutulduqdan sonra Ermənistan hökuməti üçün təhlükəsi sovuşubdur. Hələ Naxçıvan hadisələrindən əvvəl həbs olunduqlarını nəzərə alsaq ermənilərə qarşı üsyan işində onların istər fəal, istərsə də qeyri-fəal iştirakı qeyri – mümkündür. Belə şəraitdə ortada cinayət tərkibi olmadığından bu insanlar indi artıq azad olunmalı idi. Ermənilərin əsirlərə qarşı münasibəti onsuz da dözülməz idi, erməni hissələrinin Cənub-Qərbi Azərbaycandan qovulmasından sonra onlar döymə, işgəncə, ələ salma və başqa üsulları da tətbiq etməyə başladılar. Səciyyələndirmək üçün aşağıdakıları diqqətinizə çatdırım: etibarlı mənbələrdən aldığımız məlumata görə, dustaqxana gözətçiləri papirosu çəkib qurtarandan sonra onu məhbusların alnında söndürür, onları vəhşicəsinə döyürlər, kobud rəftar edirlər, ələ salırlar, onsuz da nəm otaqlarının döşəmələrini və oturacaqlarını sulayırlar və özlərini ac saxlayırlar. Bircə vaxtilə barbarların



dövründə olduğu kimi duzsuz yemək işgəncəsi qalır ki, orqanizm yavaş-yavaş məhv olsun və əzablı ölüm prosesi uzansın.

Digər tərəfdən ermənilər qovulduqdan sonra bizim Cənub-Qərbi Azərbaycanda əsir qismində 5 zabit, 120 əsgər, bunlardan savayı dinc əməyi ilə yaşayan 6 minə qədər erməni də qalır. Onlara qarşı münasibət yaxşı, əsirlərə qarşı isə ehtiyatlıdır. Dinc ermənilər özlərini burada o qədər sərbəst hiss edirlər ki, hətta hər yerdə olur, tamaşalarını da qoyurlar. Bunu əsir erməni zabit və əsgərləri təsdiq edə bilərlər. Zabitlər rütbələrinə uyğun şəraitdə saxlanılırlar. Onların hətta silahları belə əllərindən alınmayıb və denşikləri əvvəlki kimi onlara xidmət göstərməkdədir. Onlar ərzaq paylarını vaxtlı-vaxtında alırlar. Ola bilməz ki, erməni hakimiyyəti bütün bunlardan bixəbər olsun.

Cənub-Qərbi Azərbaycanın komandanlığı Ermənistana amerikanlıların vasitəsilə Ermənistana əsirləri dəyişməyi təklif etdi. Bu zaman şərtlər təxminən belə oldu: bu üç əsirdən hər birinin əvəzinə bir erməni zabiti və iki əsgəri qaytarılır. Lakin Ermənistan hökuməti indiyədək həmin təkliflərə cavab verməyibdir.

Daim sülh tərəfdarı olan həmyerlilər cəmiyyətimiz bunu mənfi hal sayaraq və bütün əsirlərin doğma ocaqlarına qayıtmasını insanpərvər və ədalətli hesab edərək, hər iki qonşu millətin dinc və məhsuldar əməyinə çox pis təsir edən lüzumsuz qan tökmənin dayandırılması, gərgin münasibətlərin sahmana salınmasına yardımçı olmaq arzusunu rəhbər tutaraq Zati-alilərindən, hər iki tərəfi qane edəcək razılığın əldə olunması məqsədilə bu məsələni aid erməni hakimiyyəti qarşısında qaldırmağı xahiş edir.

Həmyerlilər cəmiyyəti bu məsələ ilə bağlı Zati-alilərinizi tərəfinizdən atılan addımların nəticələri barəsində onu məlumatlandırmağı xahiş edir.

GÜRCÜSTANDAKI CƏNUB-QƏRBİ AZƏRBAYCAN MÜSƏLMAN HƏMYERLİLƏRİ BİRLİYİNİN RƏYASƏT HEYƏTİNİN VƏKALƏTİ ÜZRƏ — Əli Səbri Qasımov

Dərkənar: Xarici işlər nazirinə

SPİHARDA, f. 277, s. 2, iş 58, v. 138

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR ŞURASININ CƏNAB SƏDRİNƏ

*6-10 noyabr 1919-cu il*
*№10, Paris, VI məktub*

...Polkovnik Haskel də bir neçə günlüyə bura gəlib. Mən dünən ondan məktub aldım. O, məktubdan hörmətkaranə bir tərzdə görüşmək istədiyini bildirdi. Bu gün cənab Məhərrəmovla birlikdə onun yanında olduq. O, ilk növbədə polkovnik Reyin Tiflisdən salamını və Kanada Qırmızı Xaç Cəmiyyətinin bizə verdiyi 200 yeşik müxtəlif xəstəxana materiallarının (bu barədə Sizə daha əvvəl məlumat çatdırmışdım) Amerika gəmisində Batuma göndərilməsi ilə əlaqədar sifarişini mənə yetirdi. Sonra cənab Haskel ölkəmizdə müşahidə etdiyi qayda-qanun barəsində tərifli sözlər dedi. O, özünün Bakıda ehtiramla qəbul olunmasından çox razıdır. Bizim sadə camaat xoşuna gəlib, «xalqınız sülhsevər xalqdır və qətiyyən ermənilərin düşməni deyil». «Əgər siyasət adamları (Hommens politiciens) olmasaydı, ermənilər də sakit yaşayardılar» - deyir. Naxçıvan və Şərur dairələrində indi çox sakitlikdir. Amerikalı qubernatorun idarə etdiyi neytral zona yaradılmışdır.

Mən Naxçıvan və Şərur dairələrində Ermənistanla bizim əhali arasında qarşılıqlı münasibətlərin nizama salınmasında onun necə mühüm rol oynadığı barəsində hökumətimizin artıq Nümayəndə heyətinə xəbər verdiyini polkovnikə dedim və eyni zamanda öz adımdan da ona minnətdarlığımızı bildirdim. Sonra xatırlatdım ki, hökumətimizdən bizə çox xoş olan bir xəbər almışam. Bu da Naxçıvanda və Şərurda baş verən hadisələrdə guya müsəlmanların günahkar olması barəsində ermənilərin burada yaydıqları yanlış məlumatlarla bağlıdır. Ermənilər guya bu barədə polkovnik Haskelin Ermənistan Parlamentindəki çıxışında məlumat verdiyini iddia edirlər. Əslində isə, hökumətimizin də bildirdiyinə görə, həmin yalan xəbəri polkovnik özü təkzib edib. Polkovnik Haskel dediklərimlə razılaşdı.

Bizim suallarımıza cavab verərkən polkovnik əmin olduğunu qeyd etdi ki, Zaqafqaziya xalqları, hətta bütün Qafqaz xalqları birlikdə yaşaya bilərlər. Çünki onlar hər şeydən əvvəl iqtisadi cəhətdən bir-birləri ilə möhkəm bağlıdırlar. Lakin başlanğıc mərhələdə hər hansı qüdrətli dövlətin onlara himayədarlıq etməsi zəruridir. Həmin dövlət ilk növbədə bütün regionda maliyyə vəziyyətinin yaxşılaşdırılmasına yardım göstərməlidir. Bir neçə ildən sonra hər bir xalq mandat sahibi olan dövlətin himayədarlığından tədricən qurtararaq öz müstəqil həyatını təmin edə bilər. «Qəyyumluqdan birinci növbədə sizin Azərbaycan qurtarmalıdır!» - deyə polkovnik Haskel xəritədə Azərbaycanı göstərərək bildirdi. – Görünür, ölkəmiz onda çox yaxşı təssürat yaradıb. Əlbəttə, bütün bunları görmək bizim üçün çox xoş idi.

*Əlimərdan bəy Topçubaşov. Paris məktubları.*
*Bakı, Azərnəşr, 1998, səh.82-83.*



## QANLI GÜNLƏRİMİZ
**(1918-1920, Naxçıvan)**
**İyun 5, seşənbə, Ramazan 8**

*1918 sənəyi-miladidə iyun ayının beşində vaqe olubdur*

Xəlil bəy həzrətləri tərəfindən Milli komitə ünvanına bir məktub alındı. Məktubda Osmanlı əsgərləri əlavə olaraq təklif olunmuşdu ki, Nehrəm tərəfdə nə qədər dəmiryol məmurları vardırsa hamısına xəbər verilsin: dəmiryoluna varid olan əsgərlərə və zabitan özlərini nişan versinlər.

Milli komitədə saat 10-da iclas olub bir neçə məsələlər məhəlli-müzakirəyə qoyulduqdan sonra sədri-məclis Diyarbəkiri tərəfindən təklif olundu ki, məzbur eşalonun istiqbalı üçün və həmçinin Xəlil bəy həzrətlərinə istiqbal yapmaq, mütəllimlərə milli nəğmələr öyrətmək və şəhəri layiqincə arastə edib camaat qabağında kuşeşlərdə bulunmaqdan ötəri iki vəchdə komisyon təşkil olunsun. Əvvəlinci əmrə Böyük xan Naxçıvanski, Hacı Abdulla Şeyxov, Hacı Xəlil İmanov, Məşədi Məhəmmədəli Bayramov cənabları intixab olundular. İkinci vəzifəni layiqincə ifa etmək üçün Böyük xan Naxçıvanski, Hacı Abdulla Şeyxov, Mirzə Bağır Əliyev və Əyyub ağa Kəngərlinski əksəriyyət – ara və intixab olundular. Şəhər bazarını idarə etmək üçün Osmanlı əsgərlərindən Mustafa çavuş və Adəm Əfəndi təyin olundular. Axşam saat 8 radələrində şəhər vağzalında qatarın bağırtısı ucaldı ki, martın 31-dən şimdiyədək eşidilməmişdi. Müsəlman camaatı isə inqilab üçün ümumən vağzala tərəf yürüş etdi ki, təzə varid olan Osmanlı əsgəri və zabitanın istiqbal etsin. İş əksinə oldu. Böylə ki, müsəlmanları aldatmaq üçün ermənilərin oynanılan rolları və hiylələri nəzərə alındıqda müsəlman camaatı peşiman bir halda şəhərə övdət etdi. Həmin qatar Culfa tərəfindən gəlmiş imiş. Sonra xəbər çatdı ki, gözlənilən qatar «Bozbaşi» yarım stasyonunda yolun xarab olmasından dolay təxirə düşmüş. Həmin gün erməni tərəfdən Xarazyan və Ter-Musayanın imzaları ilə bir məktub cənab Diyarbəkiri namına alındı. Və həmin məktub ilə erməni Milli komitəsi tərəfindən 1000 manat müsəlmanların ağalarına paylamaq üçün göndərilmişdi. Müsəlman Milli komitə üzvləri ittifaqiara ilə həmin paranın dala qaytarılmasını qəttofəsl etdilər. Bir az keçmiş erməni Milli komitəsinin üzvləri İsmixanov müsəlman Milli komitəsinə gəlib xəbər verdi ki, 15 nəfər erməni süvarilər Cəhriq köyünün yanında müsəlmanlar tərəfindən yox edilmiş və bunların əcələ surətdə tapılıb erməni Milli komitələrinə verilmələrini tələb etdi. Milli komitənin binagüzarlığı mövcibincə böylə məlumat hasil oldu ki, həmin süvarilər 17 nəfərdən ibarət İrəvana tərəf getmişlər və bu əsnada müsəlmanlar ilə atışmaya başlayıb, iki nəfəri Naxçıvana qayıdıb, qabağı 15 nəfər süvarə İrəvana tərəf getmişlər.

Axşam saat 11-də Xəliliyyə caddəsinə bir güllə atıldı. Saat 1-də vağzal tərəfində iki güllə atıldı. Bu gün vəbadan 4 nəfər vəfat etdi.

**İyun 6, çaharşənbə. Ramazan 9**

*1918 sənəyi-miladidə 6 iyunda vaqe olmuşdur*

*Andronikin vüruduna dair*

Yuxarıda mündəric əhvalata görə müsəlmanlar saat 8-də şəhər vağzalına istiqbal üçün getdilər. Bunlar ilə bahəm erməni nümayəndələri bir neçə nəfər müsəlləh saldatlar ilə getmişlər. Saat 4-də kazarmaya göy yolu ilə 400-ə baliq erməni qoşunu çatdı. Təzə varid olan qoşunlardan bir neçə nəfər müsəllah və süvarə və bir neçə piyadə müsəlman tərəflərinə keçib diqqəti-nəzər edəndən sonra erməni tərəfinə qayıtdılar. Bu əhvalat müsəlmanları bərk dilgir və pərişan hal etdi. Hər kəsin üzünə baxdıqda təhəssüf və məyusluq müşahidə olunurdu. Bu pərişanlıq bir az keçmədi ki, şadlığa mübəddəl oldu. Belə ki, həmin gün saat 7 radələrində müsəlmanlar tərəfindən gözlənilən qatar türk qəhrəman zabitləri ilə şəhər stasiyonuna (vağzala) çatdı. Müsəlmanlar tazə varid olan zabitani təntənəli surətdə istiqbal etdilər. Topçubaşı Hüsnü bəy, Helmi bəy və Şükrü bəy bir erməni zabitlə faytona əyləşib şəhərə gəldikdə Bəylər ağa Kəngərlinsikinin evində əyləndilər. Müsəlmanların sabiq pərişanlıqları məhv olub bunlara böyük bir şadlıq üz verdi. Saat 9-da yuxarıda yazılan siqnal tüfəngi ilə naməlum tərəfdən (erməni tərəfdən) bir güllə atıldı. Saat 10-da digər bir güllə atıldı. Xəbər çatdı ki, vağzalda ermənilər müalicəxanaya (balnisaya) od vurmuşlar ki, yansın və müalicəxana biltamam yanmış. Ermənilər bu barədə müsəlmanları müqəssir etməyə çalışırdılarsa da bir nəticə hasil olmadı. Gecə saat 3-də Qaraxanbəyli köyünün nəzdində bulunan körpüləri ermənilər bomba ilə atmağa başladılar. İşbu əhvalat müsəlmanları yenə narahat edib xofa saldı. Çünki müsəlmanlar böylə güman etdilər ki, ermənilər şəhəri topa basırlar. Müsəlman tərəfindən bu gün vəbadan 13 nəfər adam vəfat etdi.

**İyun 7, pəncşənbə, Ramazan 10**

Sübh tezdən aşkar oldu ki, erməni qüvvəsi gecə ikən şəhərə dolmuş. Sübh yüzdən ziyad erməni qoşunu toplanmışdı. Saat 10 radələrində həmin qüvvədən bir hissə müsəlləh surətdə şəhər bazarına girib alverə başladı. Aldıqları əşyaya Qafqaz parası verirdilər. Müsəlmanlar isə işbu paranı almaqdan imtina edirdilərsə də böyük bir xof içində bulunurdular. Komissar Vəzirov tazə varid olan erməni qüvvəsinin müsəlman bazarına silahsız dolmasını Xarazyan cənabından təminat etdikdə Xarazyandan belə bir cavab aldı: «Mən onların önünü alıb onlara söz



deməyə muxtar deyiləm». Bu cavab alındıqda müsəlman əhalisi bir qədər başqa fikirlərə düşdü. Şəhər komissarları dükançılara dükanlarını qapayıb erməni qüvvəsi ilə alverə başlamağı mən etdilər. Müsəlmanlar isə bu əmrə tabe olaraq dükanları bağlayıb xəlvəti olaraq silahlanmağa başladılar. Sülhün pozulması və qanlı hadisələrin təzədən təkrar edilmələri hamıya yəqin və aşkar oldu. Sarvanlar və Xoşlu məhəllələrinin müsəlmanlarının əkinlərini həmin qüvvə biçib atlarına yedirirdilər. Saat 1-də Qaraxənbəyli köyü tərəfində bir güllə atıldı. Saat 2-dən başlayaraq həmin qoşun iki yol ilə Culfa məbədinə tərəf hərəkət etməyə başladı. Qarşılarına gələn körpüləri və dəmir yol xəttini Andronikin əmrinə görə bomba dinamitlər ilə atıb xarab edirdilər. Həmin gün Şahtaxtı nahiyəsinə əsakiri-mənsureyi-osmaniyyənin varid olmaq xəbəri çatdı. Vəbadan on nəfər övrət və kişi vəfat etdilər.

**İyun 8, cümə, Ramazan 11**

Bu gün sübhdən başlayaraq axşamadək Andronikin qoşunu bütün Naxçıvandan Culfa məbərinədək çəkilmiş dəmiryol xəttini xarab etməyə başladı. Saat 12-də Naxçıvan çayının körpüsü şunların tərəflərindən atılıb xarab oldu. Müxtəsər Culfa məbərinədək on vərasət gələn körpülər və tunellər təmamən atılıb məxrubə halına gəldilər. Andronikin fikri dəmir yol xəttini, körpüləri xarab etməklə Osmanlı qüvvəsini təxirə salıb yolunu bağlamaq idi. Həmin gün bələdiyyə idarəsində beynəlmiləl məclis guşad olub dövləti-aliyeyi-osmaniyyə əsakirin və zabitanin istiqbal etmək qətnaməsi əmələ gəldi. Vəbadan bu gün 15 nəfərə qədər adam tələf oldu.

**İyun 9, şənbə, Ramazan 12**

Bu gün saat 10 radələrində beynəlmiləl məclis dəvət olunduqda tamam mühacirlərin öz yerlərinə köçürülməsi və bunla vəbanın önünü almaq fitvası əmələ gəldi. Naxçıvan həvalisi Şərur Dərəlgiz mahalıyla bahəm dövlət-aliyeyi-Osmaniyyə ixtiyarına keçib Xəlil bəy cənablarının təhti idarəsində bulunmaq xəbəri teleqraf vasitəsilə müsəlman Milli komitəsinə çatdı. Saat 10-dan 15 dəqiqə keçmiş Qaraxanbəyli köyünün yanında 10-a qədər güllə açıldı. Nəticədə bir şey hasil olmadı. Vəbanın şiddəti və ərzağın ucuzlaşması müşahidə edildi. Buğdanın pudu 82 manata və arpanın pudu 62 manata tənəzzül etdi.

## İyun 10, yekşənbə, Ramazan 13

Şahtaxtı həvalisində iki nəfər erməni zabiti və iki nəfər Xəlilbəy həzrətlərinin adyutantları Naxçıvana varid oldular. Nəhəcir qəryəsinin əhalisini sakit etmək barəsində Milli komitənin iclası olub, tədbirlər ittixaz etmək üçün müzakirə olundu. Uyezdən komissar Məhəmməd Əli xan Naxçıvanski tək bu əhalinin qabağını almadan ötrü hazırlaşdı. Axşam saat 10 radələrində Nehrəmdə Təzəkənd köylərinin ətraflarında 15 dəqiqədən ziyad atışma oldu. Atışmanın kimlər tərəfindən Mirzə Mahmud xan Əsgərov tərəfindən Təzəkənd ermənilərinin ucuz qiymət olaraq Nehrəm əhalisinə un buraxmaq və məzbur undan bişirilən çörəklər müsəlman camaatini ishal naxoşluğuna salıb tələf etmək raportu Milli komitənin sədri Diyarbəkiri namına vüsul oldu. Axşam saat 11 radələrində Məşədi Qədim Qədimov güllə atmağına görə Osmanlı paşa tərəfindən həbsə alındı.

## İyun 11, düşənbə, Ramazan 14

Dün əhvalatda dərc olunan, Nəhəcirdə üz verən hadisələrdən ötrü təzə varid olan Osman paşa həzrətləri bir neçə müsəlman və erməni nümayəndələri Nəhəcirə azim olub, kənd əhalisini sakit edərək Qazançı ermənilərinin qoyunlarını müsəlmanlardan alıb ermənilərə qaytardı. Günahkarlardan iki nəfəri şəhərə göndərib həbsə aldı. Erməni Milli komitəsinin sədri Ağayans Osmannur bəyi, Diyarbəkiri, Əmirov cənablarını bir qaç müsəlmanları ilə evinə saat 3-də dəvət etdi. Bu gün İrəvan tərəfindən bir erməni qasidi Andronik adından bir zərf yetirdi. Zərfdə olan məktubun məzmunu Andronikin İrəvana övdət etməsi idi. Axşam saat 10 radələrində Qaraxanbəyli və Təzəkənd tərəfindən böyük atışma oldu. Atışmanın səbəbi kimlərin ortasında olmağı məlum olmadı. Bu gün ərzaq tənəzzül etdi. Bu tövür un 60 manat, buğda 40 manat, arpa 18 manata pudu satıldı. Çörəkçi dükanlarında çörəyin girvənkəsi 12 abbasıdan 8 abbasiyə tənəzzül etdi.

## İyun 12, seşənbə, Ramazan 15

Bu gün xəbər çıxdı ki, dünən atışma vaxtı Qaraxanbəyli kəndindən 10 müsəllah erməni Naxçıvan əhliləri kərbəlayi Musa Musayevin və Səlim bəy Fətəlibəylinin sürüləri üstə hücum edib çobanları güllələbaran edəndən sonra, bir bordanqa tüfəngi, bir tapança, 30 ədəd bordanqa patronu və 400 qoyun və keçi, 14 ulaq, bir inək və bir neçə rəs at basıb Qaraxanbəyli kəndinə aparmışlar. Bu barədə uyezd komissarı Məhəm-



məd Əli xan Naxçıvanski lazım olan təşəbbüsatda bulunub erməni Milli komitəsi ilə rabitədə bulundu. Camaat arasında Osman bəy həzrətlərinin müsəlmanlar tərəfindən qonaq dəvət olunmaq təməssüratı təsəvvürə gəlib böyük bir sərnikunluq və dilxorluq müşahidə olundu. Sədri-komitə Diyarbəkiri cənabın işə yaramamazlığı, millətə nafe olmamaqlılığı böyük bir dərəcədə mütəəssir olub ümumi fikrin onu sədri-komitədən kənar etmək barəsində təsəvvürə gəldi. Bu gün şayeata görə buğda və un komitənin icra etdiyi qətnamədən dolay tərəqqi etdi. Buğdanın pudu 50 manata qalxdı. Bu gün vəbadan vəfat edən və naxoş olan keçən günlərə görə az oldu. Saat 8-ə 10 dəqiqə işləmiş qərb tərəfdən bir güllə açıldı. Axşam saat 10 radələrində erməni tərəfindən müsəlmanlar adına bir ultimatum bu məzmunda alındı: «İki saatın müddətində bizim tutulan adamımızı ötürün. Əksi surətdə davaya hazır olmalısınız». Bu heyrətəngiz xəbər bütün müsəlman camaatını narahat etdi. Bütün gecə bu barədə müsəlmanlar tərəfindən tutulan erməni barəsində tədbirlər ittixaz olundu. Erməni deyilən aysoru imiş. O, Təzəkənd tərəfindən yox olmuş imiş. Müsəlmanların bilmərrə ondan xəbəri yox imiş. Nahaq bu tövr tələbatda ermənilər bulundular.

## İyun 13, çaharşənbə, Ramazan 16

Gündüz xəbər çıxdı ki, üç gün bundan qabaq Ərəzin müsəlmanlarından 3 nəfər Şeyx Mahmud kəndinə gedib işləmək üçün qayıtmayıblar. Yəqin ermənilər tutub saxlayıb və qətlə yetiriblər. Uyezd komissarı Boqdan Xalatov mahal komissarı Armenaq Ter-Qriqorova hökm göndərib məzbur adamların xilas olmaq hökmünü etdi. 1-ci mahal komissarı Mirzə Məhəmməd xan Əsgərov tərəfindən bir kürd övrətin aparılmaq raportu qəsri-fələqdə vüsul olundu. Saat 2 radələrində xəbər çıxdı ki, Qardaş yanında Andronikin dəstəsi Osmanlı əsgərləri tərəfindən əhatə olunmuş. Bu xəbər cümlə müsəlmanları məsrur və dilguşad etdi. Saat 9-un yarısında 5 güllə peydərpey atıldı. Sonra barama zavodunun tərəfindən 3 güllə, Qaraxanbəyli tərəfindən iki güllə atıldı. Müsəlmanlar fil-fövr həyacana gəlib bazar tərəfinə, öz sabiq səngərlərinə yüyürdülər. Belə ki, 15 dəqiqə müddətində cəmi tüfəngçilər ayaq üstə müntəziri-dava oldular. Şəhər komissarı Abbasqulu bəy Tahirov məhəllələrə məmurlar göndərib müsəlmanları hazır etmək təşəbbüsatında bulundu. Digər tərəfdən Tahirov cənabları ermənilərə məktub göndərib güllələrin atılma səbəbini sorduqda belə cavab sadir olundu ki, ermənilər məst olaraq şadyanalıq məqsədilə güllə atıblar, nəinki ayrı bir məqsədlə. Erməni tərəfində Eyşi-işrətə məşğul olan Müzəffər paşa Şahbaz ağa oğlu tərəfindən həmçinin bu məzmunda bir məktub alınıb. Müsəlmanları bu

az sakit etdi. Amma yenə müdafiə üçün səngərlərdə sübhədək durdular. Saat 12-dək güllə səsi qət olundu 12 radələrində Qaraxanbəyli tərəfindən iki güllə atıldı. Bu güllələr axırıncı olub sübhədək sakitliklə keçdi. Naxoşluqdan 6-ya qədər adam vəfat etdi. Erməni tərəfindən gündüz belə bir xəbər çıxdı ki, Andronik osmanlılara qalib gəldikdə onlardan iki top almış və yazmış ki, daldan gələn erməni qoşunlarını Naxçıvanda saxlayıb, onun axırıncı əmirinin intizarında bulsunlar.

### İyun 14, pəncşənbə, Ramazan 17

Yaycı hadisəsinə dair sübh vəqti xəbər çatdı ki,Andronikin qüvvəsi Araz körpüsünü dağıtmış, Yaycı kəndinə hərəkət edib həmin kəndin əhalisini qətli-qarətə düçar qılmış. Nehrəm əhli Tağı Nağdəliyevdən Milli komitə sədri namına bu məzmunda bir məktub rüsul oldu: «Xidməti-alilərinizə məlum edirəm ki, Andronikin dəstəsi İrandan övdət etdikdə Araz körpüsünü atıb Yaycı kəndinə keçmiş. Həmin kəndin əhalisinin qətlü-qarətə düçar qıldıqda kəndi tari-mar etdi. Cəmaləddin və Ərəzin kövşəni də erməni qüvvəsi ilə dolubdur. Lazımi binagüzarlıq etməkdən ötrü xəbər verirəm. Nehrəm qorxu içərisindədir. Müxlisiniz Tağı Nağdəliyev». İkinci məktub yenə ondan alındı. Məktubun məzmunu: «Xidməti-alilərinizə məlum edirəm ki, bir saat Yaycıdan Nehramçılılar qaçıb gəliblər və şəhadət ediblər ki, Osmanlı qoşunun qabağını almaq münasibətiylə İranda ermənilər Araz körpüsünün atdılar. Sonra Yaycı kəndinə hücum edib yarım saatın zərfində həmin kəndi tar-mar etdilər. Lazımi binagüzardaqdan ötrü xəbər verirəm Tağı Nağdəliyev». Bu məktubdan sonra, saat 8 radələrində Milli komitədə Xəlil bəy cənablarının bu məzmunda teleqrafi alındı: «Naxçıvan Milli komitəsinin sədrinə. Naxçıvanda bu saat Arazdan qayıdan ermənilərdən başqa 4 min erməni qüvvəsi olduğunu dəxi söylüyorsunuz. Bu 4000 mühacirdir, ya əsgərdir? Kim təxmin etmiş? Culfa geri qayıdıb? Nə qədər vardır. Pək o qədər təşviş etmisiniz. Sizi gözətliyən vardır. Yalan və doğru məlumat alıb bildirməkə qeyrət ediniz. Xəlil bəy».

Andronikin qüvvəsi Culfa tərəfindən şərq tərəfi ilə Naxçıvana tərəf yürüş edirdi. Saat 3 radələrində yenə Xəlil bəydən bu məzmunda alındı: «Arazın körpüsünün atılmağı və Yaycı kəndinin taru-mar olmağı bizə məlum oldu. Nehrəm Cəhriq qəryələrinə yazın bəndləri gəlib övdət edən Andronikin qoşunlarının şəhərə girməyinə yol verməsinlər». Saat 2 radələrində yenə Xəlil bəy cənablarından digər bir teleqraf alındı. «Osmanlı, German və Avstrya qoşunları olacaqlar. Bu qoşunlar dəmiryol xətti ilə gəlməyəcəklər. Bəlkə şose və kənd yolları ilə gələcəklər. Qoşunun varid olmadığından ehtiyat edirəm. Narahatçılığımıza səbəb olar».



Bu xəbərlər yenə iztiraba düşmüş müsəlman camaatının təşvişdən kənar etmədi. Hamı əli qoynunda kömək istidasında bulunurdu. Məxluqat bilmərə hissdən düşüb qətl və qarəti nəzərə almışdı.

Vəbadan iki nəfər vəfat etdi.

### İyun 15, cümə, Ramazan 18

Bu gün Andronikikn dəstəsinin Yaycı əhalisinə endirdiyi zərbələrə tab gətirməyib dala oturması xəbəri alındı. Osman Nuru bəy cənablarınm bir neçə nəfər zabitan ilə Qaraçuq köyünə çatmaq xəbəri dəxi alındı. Şahtaxtı rayonunda Xəlil bəy tərəfindən xəbər edilmiş buğdanın parasın tədiyyə edilməsi məsələsi məhəlli-komitə iclasında məhəlli-müzakirəyə qoyulub nəticəpəzir oldu. Bu iclasda Mirzə Nəsrullah Əmirov 1000 manat verib, digər 29 nəfər tərəfindən 29000 manat verilməsi təhtiqərara alındı.

Erməni əsakiri tərəfindən Duzluqdan qayıdan müsəlman işçilərinin gülləbaran edilməsi xəbəri çatdı. Saat 6 radələrində Qaraxanbəyli tərəfdən mütəreddüd güllələrin atılması müsəlman camaatın böyük bir təşvişə saldı. Nəticədə kövşəndən müsəlman qoyunlarının erməni əsakiri tərəfindən aparılması xəbəri bulundu. Milli komitə isə heç bir təşəbbüsata bulunmadı, məhəlli hadisədə 4 müsəlmanın qətlə yetirilməsi xəbəri alındı. Qoyun və əvvəlki sahibləri Milli komitə sədri olan Mehdiqulu xan Diyarbəkiriyə müraciət edib mütalibədə bulundular. Diyarbəkiri isə inşallah bu barədə böyük ölçülər götürrəm deyib buğun burmağa başladı.

### İyun 16, şənbə, Ramazan 19

Ertəsi günü, 16 iyun tarixində qoyun sahibləri Milli komitəyə toplaşıb şikayətlərində davam etdilər isə də yenə naümid qaldılar. Bugünkü iclasda hicz əmrilə buğdanın parasının 30 min manat toplayıb buğda sahiblərinə tədiyyə edilməsi təkrar müzakirəyə qoyuldu. Cəfərqulu xan tərəfindən Andronik qüvvəsinin 4000 qədrində Naxçıvana hərəkət etməsi xəbəri çatdı. Adilağa gölünün yanında Qaraxanbəyli erməniləri tərəfindən müsəlman əradəçilərinin tutulub cəmi varidatları ilə Qaraxanbəyli köyünə aparılmaları xəbəri alındı. Milli komitə sədri olan Mehdiqulu xan cənablarının halına təfavüt etməyib fikri zalimanəsi təqibatında davam etdi.

Andronikin qüvvəsinin Yaycı üzərinə yürüş edib zəhmətkeş kütləsinin atəşə tutulub qətlü-qarətə düçar olması xəbəri çatdı. Yaycılıların köməyinə guya İran Şücaəlamdar və Gərgərzəmindən bir qaç nəfərin

gəlməsinə mən inanmadım. Çünki bu xəbər Diyarbəkiri kimi xunrizlərin şayiəsi idi. Yaycı əhalisi ilə hesablaşdıqdan sonra Andronikin dəstəsi Naxçıvana tərəf hərəkət etməyə başladı. Bu əsnada Osmanlı qəhrəmanların Qaraçuq kəndinə çatmaq xəbəri alındı. Rabitənin kəsilməyindən dolay yəqinlik hasil olmadı. Şayiə dövran etməyə başladı. Vəbadan dörd adam vəfat etdi.

**İyun 17, yekşənbə, Ramazan 20**

Bu gün beş yüzə qədər Osmanlı əsgərinin Qaraçuq kəndinə varid olması xəbəri çatdı. Həmçinin Andronikin dəstəsinin Culfadan və Yaycıdan Naxçıvana tərəf övdət etmək xəbəri alındı. İkinci mahalın komissarı Məşədi Hüseyn Salmanov, Məşədi Abbas Zalov tərəfindən 11 iyun tarixində axşam saat 10 radələrində Cəhriq kəndinin sakini Usub Əsəd oğlunun və Yuxarı Əjpəkişi kəndinin əhli İbrahim ağa Məhəmməd oğlunun qətlə yetirilmələri xəbəri alındı. 18 ramazan tarixli yazılmış məktub ilə Məşədi Abbas Zalov tərəfindən Nurs və Qarababa erməniləri tərəfindən Nurs kəndinin əhliləri Şəkərəli Məşədi Əmir oğlu və Məhəmməd Allahverən oğlu, Şahbuz əhlilərindən Səfər Məhəmmədqulu oğlu, Hüseynəli Heydər oğlu, Bahar Əsgər qızı, Məhərrəm İmamqulu oğlunun tutulub Qarababa kəndinə aparmaları xəbəri verildi. Əlavə bundan çöldən üç at və üç ulaq tutub apardıqları zaman Kolanı, Gecəzur, Hənzər kəndlərinin adamlarından 14 nəfər tutub öldürmüşlər. Bir övrət və apardıqları vaxt müqavimətdə bulunan Mehdi Hacı Məhəmməd oğlunu ağır surətdə yaralamışlar. Badamlı erməniləri Daylaqlı kəndindən yüz rəs qaramal, yeddi rəs at, Daylaqlı kəndindən qovub apardıqları zaman bir adam dəxi qətlə yetirmişlər. Nurs erməniləri Şahbuz və Mahmudabad kəndlərinin çöldən 300 rəs qaramal, 5 at və ulaqlarm qovub aparan vaxt müqavimətdə bulunan çoban (naxırçı) Həsənqulu Ələkbər oğlunu güllələmişlər. Axşam saat 10 radələrində Qaraxanbəyli kəndindən şəhərə tərəf 312 güllə atıldı. Şəhər bulvarında ermənilər eyşü-işrətə məşğul olaraq musiqi çaldırırlar. Bu gün vəbadan şəhərdə əksər mühacirlərdən 20-yə qədər müsəlman vəfat etdi. Şəhər küçələrində üfunətin çoxluğundan keçmək olmurdu və ilə axər... Gecə saat 1-də Qaraxanbəyli tərəfindən 2 güllə açıldı.

**İyun 22, cümə, Ramazan 25**

İran Culfasına Osmanlı qüvvəsinin çatması və Andronikin dəstəsinin Ordubada tərəf hərəkət etməsi və guya Ordubad əhalisini tərksilah etməsi xəbəri çatdı. Böylə şayiə çıxdı, guya Culfa məbərində Andronikin dəstəsi tərəfindən 4 nəfər Osmanlı əsgərlərindən tutulub erməni Culfasına göndərilib, həmin əsgərləri erməni öldürüb, başlarını gülxanaya atmışlar. Bu gün bazardan məmurları tərəfindən bir naxoş adamın taçkaya qoyulub aparmasını gördüm. Əhvalatı sorduqda qəbirstana aparılıb dəfn olunmasını düşünürdüm. Filfövr taçkanı saxlayıb biçarə xəstəni bunların əlindən xilas etməyə müvəffəq oldum. Sonra bir qədər ianə toplayıb xəstəyə verdim və ona lazım olan məmulatı hazırladım. Ertəsi gün xəstə yaxşılaşıb ayağa durdu. Deməк diri-diri qəbirə göndərilən adam xəstə deyilmiş. Bəlkə ancaq bu hala düşmüş idi. Naxoşlardan iki kişi, bir övrət vəfat etdi. Andronikin dəstəsinin Əylisdə olmaq xəbəri alındı.

**İyul 1, yekşənbə, Şəvval 5**

Bu gün sübh tezdən xəbər çatdı ki, Andronikin dəstəsi Xanağa kəndinə hücum edib, əhalini qətlü-qarətə düçar qılmış. Dağlara fərar edib pənah aparan müsəlmanların təqibatından əl götürməyib bunları gülləbaran etmiş, xilas olanlardan 2 nəfər ağsaqqal adam mahal komissarı olan Məhəmməd Əli xan hüzuruna gəlib məlumat vermişlər. Bunların sözlərindən Xanağa kəndində 400 nəfərədək müsəlləh erməni qüvvəsi vardır. Yaralılar və ölənlər məhəlli hadisədə qalmışlar. Məşhur, rəşid cavanlardan həm də Kərbəlayi Hüseynin oğlu Sultanqulu və kəndin mollası Hacı molla Əli tamam külfəti ilə bir yerdə qətlə yetirilmişlər. Kənd bir parça alov içərisindədir. Sübhdən başlamış axşam gününün qürubunadək dava davam etmiş. Bu xəbər Naxçıvan müsəlmanlarını başqa bir qorxuya düçar qıldı. Belə ki, dükan sahibləri dükanlarının əşyasını evlərinə daşımağa başladılar. Polis məmurları isə müxalifətdə davam edirdilər. Bu barədə Məhəmməd Əli xan Şahtaxtına Xəlil bəyə telefon vasitəsilə məlumat yetirdi. Naxçıvan camaatı Andronikin intizarında bulunub davaya hazır idi. Gündüz saat 2 radələrində Qaraxanbəyli kəndində 2 nəfər müsəlman ermənilər tərəfindən qətlə yetirilməsi xəbəri çatdı. Həmin kəndin tərəfindən tək-tək olaraq 20-dək güllə açıldı. Müsəlman övrətləri evlərdə qorxuya düşüb əşyalarını pünhan etməyə başladılar. Erməni tərəfindən siqnal gülləri atılmağa başladılar. Davanın əvvəlindən indiyədək millət xadimi olan Mustafa Çavuş cəmiyi müsəlman məhəllələrinə yüyürüb saat 8 radələrində Şeyx Mahmud kəndi yanında ermənilər 4 nəfər müsəlman tutub aparıb və bunlardan birinin Adil ağa gölünün yanında öldürmək xəbəri çatdı. Axşam saat 9-da erməni Milli komitəsi tərəfindən Müsəlman Milli komitəsi adına bir məktub alındı. Məktubun mündəricatı belə idi: «Heydər Binanigar 1 nəfər erməni Taxtaqanın öldürmüş. Buna əvəz olaraq ermənilər də 1 müsəl-

man öldürmüşlər. Qalan müsəlmanları Heydər Binanigarını həbsə alandan sonra apara bilərsiniz». Digər xəbər çatdı ki, guya Osmanlı qoşunu Culfaya varid olduqda erməni qüvvəsi ona qarşı çıxıb müharibə etmiş Şeyx Mahmud kəndi tərəfində tutulan müsəlmanların diri olmaları haqqında xəbər alındı. Müsəlman qaravulları səngərlərdən əl götürməyib müdafiədə bulundular. Bu günün tarixi belə keçdi.

**İyul 4, çəharşənbə, Şəvval 8**

Bu gün sübh tezdən Andronikin dəstəsinin Nehrəm üstə hücum edib Nehrəm əhalisini top və pulemyota tutması xəbəri çatdı. Atışmanın səsi şəhərə gəlirdi. Şəhər camaatı böyük iztiraba düşdü. Şəhər silahçıları Milli komitəyə toplaşıb erməni üstə hücum etmək xülyasında bulundular. Milli komitə bu təklifi rədd etdi. Məşədi Məhəmməd bəy Camalbəyov başladı: «Hər kəs dəva adı çəksə isə mən onu öldürrəm». Bu sözü Hacı Mehdi Bağırov təkrar etdi. Silahlılar peşman bir surətdə Milli komitədən çıxıb səngərlərə getdilər. Qaraxanbəyli kəndindən şəhərə tərəf güllələr açılmağa başladı. Müsəlmanların tərki-silah olması haqqında Xarazyan tərəfindən üçüncü təklif olundu. Qoşadizə və Şəkərabad kəndlərindən müsəlmanlar şəhərə toplanıb dəxi qayıtmaq istəmədilər. Şəhərdə güllələr erməni tərəfindən müsəlman hissəsinə tək-tək atılmağa başladı. Nehrəm hövalisinə şəhərdən kömək göndərmək mümkün olmadı. Fəqət Hacı Heydər Dünyamalı oğlu və Məşədi Heydər Əkbərov getdilər. Nehrəm üç tərəfdən od içində bulundu. Milli komitə tərəfindən bütün müsəlman kəndlərinə məktublar göndərilib hamısının bir yerə toplanıb şəhərdən qovğa qalxan kimi yürüş etmələri təklif olundu. Xəbər çatdı ki, Şahtaxtı kəndindən Qaraçuq kəndinə Osmanlı suvari qüvvəsi varid oldu. Nehrəmə gedən adamlardan Lütfəli bəy Kərbəlayi Həsənqulu oğlu axşam saat 6 radələrində Naxçıvana qayıdıb belə məlumat verdi ki, Andronikin dəstəsi böyük qüvvə ilə Nehrəmi əhatə etmişdir. Nehrəm əhalisi müqavimətdə bulunaraq böyük bir qələbə çalmağa müvəffəq oldu. Andronikin dəstəsi tab gətirməyib böyük bir tələfat ilə geriyə oturmağa məcbur qaldı. Bunlara kənd dənkənar Nehrəm arxı yanında bulunan evlərə ermənilər od vurub yandırmağa müvəffəq olmuşlar. Buna baxmayaraq şiddətli dəva davam edir. Naxçıvandan gedən adamlar Hacı Heydər, Məşədi Heydər böyük bir cəsarətlə erməni qüvvəsini yarıb Nehrəmə daxil oldular. Şəhərdə gecə sübhədək atışma tək-tək oldu. Andronikin dəstəsinə böyük bir tələfatın vurulması və 60-a qədər silahın nehrəmlilər tərəfindən alınması xəbəri çatdıqda, şəhər müsəlmanları arasında böyük bir məsərrət gördü.



**İyul 11, çaharşənbə, Şəvval**

11 iyuldan – 18 iyuladək komissar Məhəmməd Əli xan, zabit Mahmud bəy, Əfəndi Fazil qəzaya çıxıb Nehrəm, Qaraçuq və Bulqan kəndlərindən 200-ə qədər yerli əsgər toplayıb şəhərə gətirdilər. Saat 5 radələrində Camaat nümayəndələri bələdiyyə idarəsinə toplanıb yeni təyin və varid olmuş Türkiyə XI alay komandam mütəsərrif Sürəyya bəyə təqdim olundu. Sürəyya bəy kəndisini hazirunə təqdim edib ittifaq ittihad, vətən dust və millətpərəstlik haqqında uzun-uzadı bir nitqiyyə irad etdikdə, camaat tərəfindən gurultulu alqışlara alındı. Sonra Milli komitənin ləğv edilib yerində jandarma, ədliyyə və bələdiyyə idarələrinin bərpa edilməsini söylədi. Jandarma komandanlığına Məhəmməd Əli xan, ona müavin Qəni bəy Vəzirov təyin edildi. Bələdiyyə idarəsinə rəis Cəfərqulu xan və əza Hacı Abdulla Şeyxov, Tağı Nağdalıyev təyin edildilər. Ədliyyə məhkəməsinə Şeyx Kərim Axundzadə, Cabbar Kələntərov, Vəliağa Kəndlinski, Abbasqulu bəy Tahirov və İbrahim paşa Kəngərlinski dəxi təyin olundular. Yeni təşkil tapmış idarələr kəndi vəzifələrini daşımağa başladılar. Mütəsərrüf tərəfindən müsəlmanlardan bulunan yəğmanın toplanması əmri sadir oldu. Təzəkəndə fərar edən 35 nəfər ermənilərin müştərək ərizəsi Cavad bəyə təqdim edildi. Ərizəyə verilən cavab bəlli olmadı. Bir neçə günlərdə fəqət idarə və təşkilat işlərinə səy edildi. İdarələr başında yenə ali siniflərdən olanlar olub hərə öz bildiyin bitirməyə başladı.

«Burda mənəm Bağdadda kor xəlifə» misalı yeni təşkil tapmış idarələrdə göründü.

**Yekşənbə 11 – şənbə, 18**

Məmurlardan bir neçələri təqyiri-təbdil olundular. Jandarma komandanı müavini Qəni bəy Culfa əşyai-ənbar məmurluğuna təyin oldu. Bələdiyyə rəisi Cəfərqulu xan kəndi mənsəbindən kənar olub, qardaşı Rəhim xan onun yerini tutdu. Naxçıvan qəzası nahiyələrə təqsim olub, nahiyə müdirləri intixab olundular. Sabiq komissar İbrahim bəy Qədimov Şərur nahiyyəsi müdirliyinə və sabiq şəhər pristavı Cabbar ağa Vəzirov şəhər polis məmurlarına intixab olundular. Naxçıvan qəzasının Şərur həvalisinin xəritəsi Rəşid bəy Əfəndiyev, Mirzə Bağır Əliyev və Mirzə Kazım Qulubəyov tərəflərindən çəkilməyə başladı. Şəhərdə məhəllə muxtarları təyin olub, məhəllələrə aid əmrlər bitməyə başladı. Buğdanın putuna 16 manat və çörəyin funtu 50 qəpik məzənnə qoyulmaqdan dolayı, cəmi çörəkçilərin dükanları qapalanıb çoxkülfətlilər ac qalmağa məcbur oldular. Bələdiyyə rəisinin təşəbbüsü bu barədə heç

görünmədi. Mətruk erməni evləri bələdiyyə tərəfindən müzaibəyə qoyulmağa başladısa da heç bir nəticə hasil olmadı. Müstədilər gündə bir dəfə olaraq bələdiyyə idarəsinə toplanıb naümid geri qayıtdılar. Əhalinin zərərdidə olanları böyük bir narahatlıq təsəvvürə gətirirdilər. Yerli və yeni əsgərlərin dala qayıtmaq qərardadı olub evlərinə qayıtdılar. Rus əhalisi Ordubaddan Naxçıvana variq olub Tiflisə göndərildi.

**Səfər 23, şənbə**

Bu gün saat 10 radələrində şəhər əhaliyyati məscidi- camedə toplanıb Əmirov cənabları tərəfindən ümumə böylə izahat yetirildi:

1) Müsəlman əhalisinin dövləti-aliyeyi-Osmaniyyəyə tabe və ilhaqı.
2) Naxçıvan əhalisinə dövləti-Osmani tərəfindən tüfəngin verilməsi.
3) Naxçıvan əhalisinə topların, pulemyotların və lazım olan miqdarda fişəngin verilməsi.
4) Naxçıvanda Milli şuranın təşkil olunması.
5) Şəhər varidatının təmamən Milli şuraya verilməsi.
6) 28 min manat nəğd pulun hökumət-Osmaniyyə tərəfindən iadə edilməsi.
7) Gümri şəhərində əsakir və zabitlərin Qafqaz cəbhələrində qalması barəsində. Çəkilən teleqraf barəsində.
8) Salmas tərəfindən Qarsa varid olan Sərdar şüca və Mükərrəməl Hümayun cənabları ilə mürəxxəslərin rabitə bulunmaları.
9) Qarsda məscidəs-səltənə ilə bunların görüşü. Naxçıvan camaatın halının Sultan həzrətlərinə ərz olunan ricası.
10) Əmirov cənabın Türkiyə ordusunun Naxçıvanda qalmağma dair ingilis, italyan, firəng və Amerika səfarətlərinə teleqraf göndərmələri.
11) Bu barədə Qarsın mütəsərrifi Hacı bəy cənablarının İstambula teleqraf göndərmələri.
12) Ermənilərin silahsız kəndi yerlərinə müraciət etmələri.
13) Müsəlmanların şəhərdən fərar etmələri, məmnu və müdafiəyə bulunmaları.
14) İbrahim bəyin dəstəsinin ən qərib zamanda Naxçıvana gəlməsi.
15) Qafqazda Türkiyə zabitlərinin könüllü olaraq qalmaları.
16) Qars Milli şurasına Əmirov tərəfindən 10 lirə verilməsi.
17) Türkiyə hökuməti ilə İngilis hökumətinin dostanə əlaqədar olması.
18) Andronikin dəstəsinə Qafqaz vəkilləri tərəfindən ultimatum verilməsi.
19) Ermənilərin yəhudilər kimi yaşamaları.



20) Yerli əsgərlərə əlbəsə və ərzaq verilməsi.
21) Araz-Türk hökumətinin təşkili.
22) Qarsda Milli şuranını guşadı. Bu izahatdan sonra əhali tərəfindən mütəsərrif idarəsinin heyətinə təzə mütəsərrif sabiq Əli Şəfiq bəy cənablarınm yerinə təyin edilmə ixtiyarı verildi. Sonra məclisə xitam verilib heyəti-hökuməti məhəlliyə rəisi Əli Şəfiq cənabların hüzuruna gedib, orada Mirzə Nəsrilluh Əmirov cənabları hökuməti-məhəlliyə rəisi nöqteyi-ittifaqi-ara ilə təyin olundu.

**Səfər 28, seşənbə**

Bu gün saat 12 radələrində hökuməti-məhəllə rəisi Əmirov cənabları polis müdiri Abbasqulu bəy Tahirov və bələdiyyə rəisi Hacı Mehdi Bağırov cənabları ilə... köyünə getdilər. Araz-Türk hökumətindən mühacirət edən nümayəndələr Məsuməli Binənigarı və Nehrəm əhli Kərbəlayi Muxtar Naxçıvana varid olub Mirzə Nəsrullah Əmirovun hökumət tərəfindən əzl edilib, yerinə Mehdiqulu Diyarbəkirinin təyin edilmək xəbəri bir qaç nəfərə səbani olaraq yetirildi. Əlavə olaraq bələdiyyə rəisi Hacı Mehdi Bağırov cənablarının əzl edilmək xəbərindən digər bir məlumat yetirmədilər.

**Rəbiül əvvəl 4, yekşənbə**

Bu gün Araz-Türk hökumətinin maliyyə naziri Qənbərəli Binənigari Qəmərli nahiyyəsindən Naxçıvana gəlib siyasətimizə dairə izahat verməyindən dolayı Naxçıvan əşrafi saat 4 radələrində Naxçıvan əhli Hacı Hüseynəli Qurbanovun evinə ehzar olunub məzkur Binənigari tərəfindən böylə izahat iclasa təqdim olundu. İrəvan əhli Pənah Xanzadə, Əli xan və Mirbağır ağa iki gün bundan iqdam Uluxanlı qəryəsinə gəlib camaatı məscidə yığıb müsəlmanları erməni hökumətinə dəvət etmişlər və inandırmışlar ki, etilafiyyə dövlətləri tərəfindən İrəvan quberniyası erməni ixtiyarına verilibdir. Bu barədə hətta qəsəm yad etmişlər. Uluxanlı müsəlmanları bunlara inanıb erməni hökumətinə, təbəəiyyat etməkliyi vəd etmişlər. Bunlar İrəvana müraciət edəndən sonra müsəlmanlar erməni hökuməti adına müraciət edib bunları ziri-idarələrinə alıb təslim olmaqlarını bəyan etmişlər. Bundan dolay ermənilər İrəvanda bir cəşn bərpa edəndən sonra Uluxanlaya gəlib müsəlmanları vadeyikazibələr ilə firib edib təslim olmaq imzasın alıb. Bir gün sonra 24 saat zərfində müsəlmanları silahdan çıxmağa və ərzaqdan yediyinə iki müqayisəsində altıncı erməni polku üçün toplamağa və topa etmək ultimatumu vermişlər. Bu əhvalatdan sonra bir neçə adam Qəmərli qəryə-

sinə gəlib bu xəbəri əhaliyə yetirdikdə, Qəmərli müsəlmanları xofa düşərək oradan bir qədər xanivadelər İran tərəfinə fərar etmişlər. Və mabəqisi naəlac olduqlarından erməni hökumətinə təslim olmağa razılıq göstərib, yerlərində qalmışlar. İşin böylə pərişan olduğundan dolay Araz-Türk hökuməti rəisi Əmir bəy qeyri-üzvləri ilə bahəm Qəmərli qəryəsindən Şərur nahiyəsinə keçmişlər. Bundan istifadə edərək ermənilər yürüş edib Qəmərli qəryəsini tutub müsəlmanların evlərinə və ərzaqlarına sahib olmuşlar. Şərur nahiyyəsinin camaatı isə ittifaqi-ara ilə müdafiədə bulunub erməni taifəsini içlərində qoymamaq fitvasını möhkəm edib istehkamatların möhkəmləndirmək üçün bəndərlərə əsgərlər göndərmişlər. Bu əhvalat Naxçıvan əhalisini xuni-xofa və həyacana gətirib, bəzi goftugulərdən sonra ittihad edib ermənilərin qabağın almaq və bunları şəhər və həvalisinə buraxmamaq fitvası əmələ gətirmişlər.

### Rəbiül əvvəl 13, seşənbə

Bu gün Xoy şəhərindən general sərdarşüca tərəfindən böylə bir məktub alındı

1. Ermənilərin qüvvəyi-əsləhə və topxanasının müfəssəl izahı, hansı istiqamətlərdən hərəkati – əsgəriyyə yapırlar və onların komandanı kimdir. Qaç tərəfdən təərrüz vüqubulov ricət hansı tərəfdən yapacaqlar. Əhalinin coluq-cocuqlarının ricəttən 45 saat əvvəl Makuya göndərilməyi rica olunur.
2. 2 top, 2 miralyoz laəfəl 500 süvari ilə gələcəyəm. İstiqaməti hərəkətin Maku təriqi ilə Şahtaxtına gələcəyəm.
3. Çünki bura əhalisi fəqir düşdüyünən buradaca tədarük

etmək mümkün olmamışdır. Süvari və topçuların iaşələrini təyin etmək üzrə laəfəl iki min lirə altun sürətlə irsal edir, sonra mövcud bulunan süvari və topçu sürətlə buradan hərəkət etdirə bilərəm. General sərdar şücar. Saat 10 radələrindən hökuməti-məhəlliyyə rəisi Əmirov tərəfindən əhaliyi Naxçıvan məscidi - cəmeyi ehzar olunub, məzbur paranın toplanması məhəlli müzakirəyə qoyuldu. Əhali isə para toplamağa iğdam etdi. Bu əsnada Şahtaxtı qəryəsində böylə bir telefon alındı: «Naxçıvan Kərim xan. Yengincə kəndinə Naxçıvan qoşunu və bütün zabitan geriyə qayıtdılar. Şərur dəva yapmaq istəmir. Ermənilərə təslim oldular. Xəlil bəy qoşun ilə Şahtaxtına gələcək. Hərbiyə-naziri Yavəri Davud». Bu telefon camaat arsında oxunan kimi əhali xofa düşüb para toplamaq natamam qalıb, hərə kəndi dükanına və ya evinə getməyə başladı. Hökuməti-məhəlliyyə rəisi Əmirov əşrafı ilə bahəm hökumətə gəlib telefon başında oturub əhvalatı təhqib etdi. Heyətin fitvasına bina əhali-Naxçıvan şəhəri təxliyyə etmək fikrinə düşdü. Hətta axşam qatar ilə 500 nəfərdən ziyad erkək və qadın Culfa tərəfinə hərəkət etdi.



### 1918 miladi, 30 dekabr

Bu gün Şərur nahiyəsindən Naxçıvan qəzası baş komandanı Kərim xan tərəfindən telefon vasitəsilə böylə bir məlumat hasil olmuş:

1) Naxçıvandan İrəvanə İran nümayəndələri ilə birlikdə gələn nümayəndələr Naxçıvan tərəfə Şərur nahiyəsində keçməlidirlər.

2) Əraminə qoşunun sərkərdəsi Yaponnam Dərəlgiz nahiyəsində əramini hüdudun ayırmaq təşəbbüsatında bulunur...

3) İran dövləti tərəfindən Naxçıvan əhalisindən İrana tabe olmaq və bu barədə Naxçıvana gəlib əhalidən imza alan bir nümayəndə, İrəvandan övdət edən zaman Şərur nahiyəsində baş komandan Kərim xan tərəfindən vasitəsi olmadığından dolay tutulub bir qədər təxir düşəndən sonra buraxılmış. Bu nümayəndə Maku dəmir yol təriqi ilə İrana keçmiş.

4) İran kazakları Şərur nahiyəsi tərəfindən Naxçıvan əsakirinə atəş açdıqda, Naxçıvan əsakiri sakit durub cavab verməmiş. Baş komandan Kərim xan həzrətləri bu hadisədən dilzədə olaraq, Maku Sərdarı cənabına müharibə etmək üçün ultimatum vermiş.

5) Türkiyə ordusunun 9-cu firqəsi Aralıq Baş kəndinə gəlib dolmuş və ərzaq alati-hərbiyyə ilə Xoy şəhərinə çatmış.

6) Cumartir qəryəsindən bir nəfər daşnaq Naxçıvan əsgərlərilə sözü olarkən Naxçıvan zabitlərindən Mir Cəfər Seyidov Mumil əleyhi qətlə yetirmiş.

7) Andronik tərəfindən ingilis nümayəndələrinin Naxçıvana gəlmək fikrində olmaq xəbəri.

### 1919 miladi, 1 yanvar

Erməni vəkillərinin bizlərə təklifi belə oldu: 1) İrəvandan Dəhnə boğazınadək erməni ixtiyarında, oradan Naxçıvanadək müsəlmanlar ixtiyarında olsun. 2) Erməni şamandafiri İrəvan və Tiflis tərəflərində Dəvəliyədək gəlsin, amma müsəlman şamandafiri Culfadan məzbur nöqtəyədək. Nə erməni şamandafiri müsəlman hüduduna keçsin və nə də müsəlman şamandafiri müsəlman hüduduna. Fəqət iki millət mabeynində ticarət üçün gediş və gəliş olsun. 3) Müsəlmanlar İrəvan ermənilərinə 12 min pud buğda, pudu 6 manat hesab olaraq versinlər. Müsəlmanlar (hökuməti-məhəlliyyəyi-məclis idarəsinin üzvləri) ələlxüsus hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırov bu təklifi məmnuniyyət ilə qəbul edib şərait möhkəmlədi. Sonra həzrəti-vala cənabı vəliəhd tərəfindən göndərilən nümayəndə (xəlifə) hökuməti-məhəlliyyə rəisi Hacı Mehdi Bağırov cənabı ilə şəhərə çıxıb gəldikdə bir çox suallar vermiş, məsələn:

1)Kəlisalar nə üçün məxrubə halına gəlmiş və Kalisa həyətində atlar bağlanmış?

2) Bu şəhərdə qaç nəfər erməni və müsəlman var imiş? Əraminə tayfası fərar edəndən sonra 15 min əhali azalmış, 9 minə yenmiş (6000 əraminə tayfasıdır).

3) Nə səbəbə kilsə minarəsi toplanıb, zərbələnibdir?

4) Müsəlmanların və ermənilərin istehkamatları nərədən nərəyədir?

5) Bu şəhərdə əsir olaraq qalmış bir neçə nəfər erməni tayfa fəzl zindəkanlıq edirlər? Bu sualların hamısına Bağırov cənabları lazım olan cavabı və izahatı verəndən sonra məzbur xəlifəni şəhər həbsxanasına aparıb orada yaşayan dərzi, çəkməçi, dəmirçi sənətkarları olan erməniləri ona göstərdi. Xəlifə əsirlər ilə erməni dilində göftugu edib, sonra düşərgahinə müraciət etdi. İngilis nümayəndəsinə gəldikdə hərçənd ki, əlində sənəd və vəsiqəsi yox idi və bu zatın ingilis nümayəndəsi olmağı əhalini böyük bir iştibahə gətirdi. Bağırov cənabı və Naxçıvan xəvanini ona əqlə gəlməyən ehtiram qoyub, hətta zəbani əcz ilə bu zata müsəlman halını söyləyirdilər. Məzbur ingilis nümayəndəsi təcili surətdə İrəvana övdət etmək təmənnasında bulunurdu...

**1919 miladi, 19 yanvar**

Hökuməti-məhəlliyyə rəisi Cəfərqulu xan tərəfindən Naxçıvan əhalisi məscidi-cameyə ehzar olunub axşam Kəlbəli xan tərəfindən vüsul olunan telefonoqrammanın məzmunu əhaliyə elan olundu: «Biz Dəvəli nahiyəsinə yetişdikdə müharibənin və əraminə qoşununun tərəfindən şiddətli olan hücumun qarşısına çıxdıqda, bunlar ilə müharibə yapdıq. Ertəsi gün dəmiryol xətti ilə ingilis general-qubernatoru ingilis əsgərləri ilə buraya yetişdikdə, erməni zabitinə əmr etdi ki, kəndi hüdudu olan Yuva qəryəsinə çəkilib müharibəni qət etsin. Erməni generali Primov general-qubernator Luqitovun təklifinə etriaz etdiyi təqdirdə göftuguya başlamış, sonra general-qubernator Luqitov qəzəbaludə kəndi əsakiri ilə İrəvana övdət edib, Kəlbəli xana tapşırmış ki, cəbhələrdə müsəlmanlara elan etsin ki, nəbadə müharibə üçün ataş saçalar və əlavə olaraq dəmiryol xəttini Naxçıvanadək mühafizə etsinlər». Mümileyh üç günədək Naxçıvana gəlməlidir. Məzbur Luqitov müsəlmanları idarə etmək üçün Naxçıvana gəlir.

**1919 miladi, 24 yanvar**

Bu gün müəfəttiş komisyonu Hacı Mehdi Bağırov barəsində etdiyi təftiş aktını axşım saat 7 radələrində Naxçıvan hökuməti-məhəlliyyə iclasında oxunduqdan sonra Hacı Mehdi Bağırovun sabiqdə etdiyi xəyanət mövcibincə Naxçıvan müstəntiqi məzbur təftişnamənin verilib Bağırov cənabın təhti-məsuliyyətə almaq qətnaməsi oxundu. Məzburun məsul olmağına fəqət bir telefonoqrama* olmuş. Məzbur telefonoqramanın məzmunu böylədir: «Şərur ingilis nümayəndəsinin verdiyi məlumatdan böylə anlaşılır: Naxçıvan, Şərur, Ordubad, Dəhnə, Qəmərli, Qanzak və Hakəza yerlər əraminə ixtiyarında qalmalıdırlar. Və Naxçıvan müsəlmanları da onlara tabe olmalıdırlar. Bizlər bunlara razı olmadıq. Sizlərdən xahiş olunur... Naxçıvana göndərəsiniz...» İmza edilibdir Kərim xan, Kəlbəli xan və Hacı Mehdi tərəfindən. Kərim xan və Kəlbəli xan cənablarının bu əhvalatdan qətiyyən xəbərləri yoxdur.

**1919 miladi, 25 yanvar**

Bu gün 19 yanvar tarixdə mündəric ingilis general-qubernatoru bir qaç nəfər əsgərlər və əramənə nümayəndələri ilə Naxçıvana saat 11 radələrində varid oldu*. Məzbur qübernator ilə bir nəfər ingilis konsulu İrana getmək üçün gəlmiş. Bunları şəhər stasyonunda yerli müsəlman əsgərləri və zabitlər və şəhərin əşrafı istiqbal edib təntənəli bir surətdə Naxçıvana yetirdilər. Məzbur əfradlar Bəhram xanın evində əylənib şəhərin bəy və xanlarından mütəşəkkil bir ziyafət məclisi (camaat parəsi ilə) bərpa olub, eyş və işrət olundu. Sazandar dəstəsi dəvət olunub axşam saat 8 radələrinədək kef yapıldı. Bu məclisdə nə mətləblər barəsində köftugu olunmağa bu gün məlum olmadı.

**1919 miladi, 26 yanvar**

Dünki məclisdən bir məlumat hasil olmadı. Fəqət münadi Naxçıvan əhalisinə elan etdi ki, ingilis general-qubernatorunun əmrinə görə Osmanlı lirəsi 25 manatdan əskik olunmamalıdır. Bu gün bir heyət dəmiryol xəttini təmir etmək üçün ingilis fəhləsi şəhər stasyonuna varid oldu. Nə işdən tolayıdı, cənabi-həqqə məlumdur.

---

Qeyd: Gəncə – Azərbaycan tərəfdən Ordubad vasitəsilə Naxçıvana göndərilmiş məktub oxunmadı. (?) Məzbur məktubda Naxçıvan, Şərur, Qəmərli və İqdir tərəfləri Azərbaycanın ixtiyarına keçməsi, Naxçıvana milyon pul buraxılması vəd olunmuşdur. Məktubda əhəmiyyətli sözlər çox idi. Çifayda ki, ortaya çıxmadı.

* Bu telefonoqramların eyni gələcəkdə dərc olunar. İndi fəqət müxtəsər məzmunu hüzurunuza yazılıbdır.

* General-qubernatorun varid olmaq münasibəti ilə hökumət dairələrinin içərilərində və qabaqlarında bulunan islam sanqaçı (Ay və ulduz) hökuməti-məhəlliyyə rəisi qərardadı ilə götürülüb gizləndi

### 1919 miladi, 30 yanvar

Bu gün hökuməti-məhəlliyyə rəyasətinin dün gün dərc etdiyi bəratulqol məvacibincə saat 3-də Naxçıvan əşrafından bir qaç nəfər hökumətə ehzar qılınıb Naxçıvan, Ordubad, Şərur müsəlmanlarının hansı hökumətə tabe olaraq, ziri-idarəsində yaşamaq məsələsinə gəldikdə mütəsərrüfə Cəfərqulu xan həzrətləri 5 nəfərdən mürəkkəb olan komisyon intixab edib, lazım olan hökumətlərə aid bir qaç material cəm etmək və sonra məhəlli müzakirəyə qoymaq təklifi olundu. Bu təklif 4 saat tamam müzakirə ediləndən sonra Bağır Rzayev, Cabbar Məhəmmədov, Xəlil ağa Hacılarov, Mirzə Abbas Qədimov və Hüseyn Cavid cənablarının ixtixab olmaları təhtiqərara alındısa da, mumilileyhlərdən Hacılarov maədə 4 nəfəri bu əmri bitirməkdən etiraz etdiklərinə binaən məclis natəmam olub, məsələ həll olunmadı. Məclis qapalı elan olub əhali pərakəndə oldu.

### 1919 miladi, 2 fevral

Bu gün Azərbaycana Gəncə tərəfindən göndərilən zabitlərin Ordubad şəhərinə vürud etmək telefonu hökumət dairəsində alındı. Hökumət isə zabitlərin qabağına Naxçıvandan Culfaya onları şəhərə gətirmək üçün tren göndərdi.

### 1919 miladi, 5 fevral

Bu gün balada mühərrir zabitlərinin saat 5 radələrində Naxçıvana varid olmaq xəbəri telefon vasitəsilə alındıqda, Mirzə Nəsrullah Əmirov cənabının evində mehmanlar üçün ziyafət məclisi hazırlandı. Əsgərlər isə fövc-fövc milli nəğmələr oxuya-oxuya saat 12-dən başlamış şəhəri dövr edib çalğı ilə şəhər vağzalına yürüş etdi. Əhaliyə gəldikdə dükanları bağlayıb şadyanalıq ilə stasyona tərəf getməyə başladı. Məktəb cocuqları milli bayraqlar altında milli nəğmələr oxuya-oxuya müsəlmanların müşayiəti ilə şəhərdən dişarı çıxıb möhtərəm zabitləri istiqbal etməklikdə müntəzir idilər. Bu gün şəhər eydi- Novruza bənzər bir hala çöküb hər bir fərdin üzünə diqqəti-nəzər etdikdə, sərvərlik və cəşniasari aşkar olurdu. Müxtəsər sabiqdə üz verən aləm əfza və təzyiqatlar bu gün əhali tərəfindən bilmərrə məhfi-xatir olub, fəqət şadyanalıq bərpa idi. Saat üç radələrində İrəvandan terən şəhər stasyonuna varid olduqda, Naxçıvan həvalisindən on beşə qədər ermənilərin Amerika nümayəndələrinin müşayiəti ilə gəlmələri əhalinin məzbur şadyanalığını pozub ştabda bulunmalarına bais oldu. Məzbur erməniləri şaiyata və ermənilərin



verdikləri izahata nəzərən Naxçıvana ingilis general-qubernatoru ehzar etmiş. Müxtəsər bunların Naxçıvana gəlmələri Naxçıvan əhalisini böyük bir qüssə və ələmə düçar qıldı. Gəncədən Naxçıvana azim olan zabitlərə gəldikdə bunlar vaxtı-müəyyəndə varid olmalarından əhali naümid olaraq şəhərə qayıdıb, hərə kəndi evinə getdi. Axşam saat 10 radələrində zabitlərin şərəfinə Əmirov cənabının evində şəhərin əşrafı cəm olduqda böyük bir ziyafət bərpa olub, cürbəcür nitqlər irad oldular. Ziyafət gecə 4-ün yarısınadək çəkib sonra hazirun zabitlər ilə xüdahafiz etdilər. Və zabitlər isə şəhərdə bulunan mehmanxanaya gəlib, orada rahat oldular.

### 1919 miladi, 6 fevral

Bu gün saat 10 radələrində şəhər bulvarının qabağında yerli əsgərlər parad münasibətilə hazır olduqda təzə varid olan zabitlər və bunların polkovniki (minbaşı) Qubuşov əsgərləri qarşılayıb, bunları hissləndirmək və cürətləndirmək üçün rus dilində bir nitq irad etdi. Sonra verdiyi icazə mövcibincə kəndi yerlərinə gedib əhali isə şad-xürrəm dükanlarına övdət etdilər.

### 1919 miladi, 7 fevral

1) İrəvanda ermənilərə yardım edib, milləti-islamı onların zire dəstinə verib, qətlü-qarətə bais olan xainlərdən bir nəfərə bolşeviknam, bu gün saat 12 radələrində, Hacı Əli Adıgözəlzadənin çayçı dükanında Naxçıvan cavanlarından 2 nəfərlər tərəfindən güllə vürülüb, qətlə yetirildi. Qatillərin* kimlər olduqları məlum olmadı.

2) Şəhər münadisi tərəfindən Naxçıvan əhalisinin 11 radələrində yarım saat məscidi-caməə cəm olub, təzə Azərbaycan hökuməti tərəfindən şəhərimizə varid olan minbaşının izahatına müstəmə olmaq üçün çağrıldı.

### 1919 miladi, 8 fevral

Necə ki, fövqdə zikr olunmuşdu bu gün saat 11 radələrində camaat səqirən və kəbirən məscidi-cameyə toplandı. Məscidin içərisində yer olmadığına binaən əhali məscidin balkonlarına və həyətinə toplanıb təzə varid olan nümayəndələrin intizarını çəkirdilər. Məzbur nümayəndələr müəyyən edilmiş vaxtda məscidə təşrif-fərma oldular. Bunlar Bakı Milli şurasının və sülh konfransının üzvü, Gəncə əhli idilər. Minbər

* Qatillər Naxçıvan terror dəstəsinin üzvlərindən idilər. Ad vermək lazım olmadı.

üzərinə qalxıb istiqlalımıza, məişətimizə və təşkilatımıza dair bir nitq söylədikdən sonra, Qafqaziyyədə Azərbaycan hökumətindən maəda digər bir hökumətin bulunmamasın və olmadığını bildirdi. Əhali və hazirun uca səsilə «Yaşasın Azərbaycan hökuməti» qışqırandan sonra kəndlilərin Azərbaycan hökumətinə ilhaq etmək və məzbur hökumətin zireidarəsində yaşamaq məmnuniyyətin izhar etdi.

**1919 miladi, 9 fevral**

Bu gün saat 11 radələrində Milli şuranın təşkili və güşadı üçün Şərur, Vedibasar, Cəhriq, Əlincəçay, Nehrəm və Naxçıvan nümayəndələri Naxçıvan bələdiyyə idarəsinə cəm oldular. Məclis Cəfərqulu xan Naxçıvanskinin sədarəti ilə güşad oldu. Müzakirə vaxtı Naxçıvanın baş komandanı olan Kərim xan cənabının rəsmi olaraq istefası təqdim olundu. Sonra mütəsərrüf Cəfərqulu xan cənabları kəndi mütəsərrüf vəzifəsindən istefa verib məclisdən çıxıb getdi. Məclisdə qaldılar fəqət Kəlbəli xan Naxçıvanski, polkovnik Qubuşov və digər əzalar. Bir qaç məsail müzakirəyə qoyulan zaman Kəlbəli xan cənabları qəzəbnak olub uca səs ilə qışqırıb əlini masa üzərinə çırpandan sonra məclisi tərk edib getdi. Polkovnik Qubuşov cənabları bu hərəkətdən təhqir olaraq, məclisdən çıxdıqda qalan üzvləri böyük bir təəssür ilə qalxıb pərakəndə oldular. Belə ki, şuranın fitvası əmələ gəlməyib, iş natamam qaldı. Sonra məclis genə bərpa olub, fitvanın əmələ gəlib əncampəzir olması axşam saat 5-ə təyin olunduqda üzvlər ehzar edildilər. Kəlbəli xan cənabının bu rəftarı bais oldu bölük komandanlarının rəncidə xatir olub, ondan etiraz etmələrinə, binai-əleyh Əlincəçay, Nehrəm, Cəhriq, Sələsuz, Şərur, Tabor komandanları məzkur Qubuşov cənablarının hüzuruna təqdim olduqda onun təhti-ixtiyarına keçdilər. Əlavə olaraq Naxçıvan süvari dəstəsi həmçinin keçdi. Belə ki, bu gün 7500 əsgər tabor və bölük komandaları ilə bahəm tabeyi-əmre-Qubuşov oldular. Əhaliyə gəldikdə izhari-nifrət edib Kəlbalı xan cənabından rugərdan oldu.

**1919 miladi, 6 may**

Bu gün saat 10-da dünki tarixdə yazılan məmurlar, Xaytsov Deyvi cənablarının müşayiəti ilə şəhərə varid oldular. Bunlar Milli şuranın zalına daxil olduqda hind əsgərləri cəm olub, zalın qabağında müsəlləh surətdə dayanıb durdular. Müşavirə və müzakirə zamanı Xaytsov Naxçıvanda erməni hökumətinin müvəqqəti olaraq bulunmasını və müsəlmanların ona tabe olması barəsində təklifdə bulundu. Müsəlmanlar isə «biz erməni hökumətinə tabe olmarıq və onunla yaşamaq bizə müsaidə



etməz» sözlərini ümumi bir səslə izhar etdilər. Və sabiq protestlərində davam etdikdə Xaytsov tərəfindən icbari qəbul edilməsi söyləndi. Xaytsov söylədi: «Biz erməni tayfası buraya hökumət etmək istəmirik, fəqət bizi və sizləri bu əmrə tabe olmağa ingilis dövləti məcbur qılır. Çünki məzbur dövlət bütün dünyaya sahiblik edir və hər tayifə ki, onun əmrinə etiraz edirsə, ol tayifə onun hüzurunda asiyi-ədd olunur. Əlavə olaraq bu fitva qət olunubdur. Müsəlman, erməni və gürcü nümayəndələrinin rəylərincə hər halda bu iş qəbul olmalıdır». Müsəlmanlar yenə qəbul etməyib, əvvəlki etirazlarında bulundularsa da, bunların etirazlarına və Deyvi və nəsairləri güş verməyib, Milli şuranın zalın tərk qıldılar. Bu iş əhalinin həpsinin pozub yas və təhəssürə düçar qıldı. Hər müsəlmanın üzünə baxdıqda müşkül və pərişanlıq müşahidə olunurdu. Müxtəsər ədu arzusuna nail, əmma müsəlmanlar zəbun oldular.

**21/7/35 düşənbə**

Sübhdən başlayaraq ermənilər yenə müsəlman tərəflərin topa və pulemyota tutdular. Güllələr hər iki tərəflərə yağmur kimi yağmağa başladı. Nehrəm qəryəsindən Kərbəlayi Muxtar Hacı Cəfər Əli oğlunun müşayiəti ilə 200-ə qədər süvari və piyada Naxçıvan müsəlmanlarına kömək etmək üçün kəndilərini Naxçıvana yetirdilər. Xəliliyyə caddəsi ilə keçərkən top mərmilərindən birisi caddəyə düşüb partlayıb qəlpə birdən qalxıb atın üstə Kərbəlyai Muxtarın tapançasına dəyir. Digər çarpan caddə ilə keçən Məşədi Kazım Bağbanə dəyir, o ölümcül surətdə məcruh olur. Bir qədər bombardmandan sonra atəş qət olub sübhədək tək-tək atəş davam etdi. Sübhə yaxın erməni qoşunu bütün qüvvələri ilə müsəlmanların səngərlərinə hücum edib, bir qədər tələfat verəndən sonra geri çəkildilər.

**25/7/36**

Dəhtamam əhali dükanları və evləri buraxıb, Araz kənarına və İrana tərəf fərar etdilər. Bundan istifadə edərək şəhərdə bir qaç adamlar şəhərin dükanlarını və evlərini qarət etməyə başladılar. Belə ki, qarət vaxtı şəhərdə qarətçilər tərəfindən bir qədər müsəlman qətlə yetirildi. Qaraçuq və Belqan müsəlmanları məzbur köylərin güzərgahların tutub, fərar edən müsəlmanları qətlü-qarətə düçar qıldılar. Fərar edən əhali kəndlərini düşməni təcavüzatılarından istixlas etmək üçün İranın Qırılqışlaq, Mərənd, Xoy və Urmi köylərinə köçdülər. Arazdan keçərkən biçarə müsəlmanlardan 100-ə qədəri erkək və qadın Araza düşüb boğulmuşlar. İran köyü Qızılqışlağın qabağında biçarə müsəlmanlar 2000-dən

ziyad olaraq torpaqların üzərində və günəşin altında oturub təbiətin əlamətinə davam edib, ac və yalavac qalırdılar. Yemək üçün, əkmək üçün şirin su tapmaq qeyri-mümkün idi. Müxtəsər əqləgəlməz fəlakətə uğramışdılar, bu məşəqqətə izafə olaraq gecələr bir dəstə cəryə əmələ gəlib, İran təbəələrinin iştirakı ilə biçarə mühacirlərin mallarını, əşyalarını qapıb aparmağa başlamışlar. İranın Araz kənarında düşən mühacirlər bu zülmlərə tab gətirməyib, Naxçıvana tərəf övdət etməyə məcbur oldular. Mühacirlərin nəzdlərində bulunan Qafqaz və Azərbaycan paralarını qəbul olunmadığından mühacirlər aclığa və üsrətə düçar oldular. Biçarə mühacirin nə dərəcədə üsrətdə bulunmasını qələm yazmağa acizdir.

30/7/36-da bolşeviklərdən 1200 nəfərin şəhərə daxil olmaq xəbəri çatdıqda mühacirlərdən bir qaç nəfər şəhərə övdət etdilər. 31/7/36-da Xəlil paşanın bolşevik dəstəsi ilə Şahbuza gəldiyini və Naxçıvana tərəf hərəkət etmək xəbəri alındıqda mühacirlərin və şəhər müsəlmanlarının ruhu bir az yüksəldi. Həmin gün axşam erməni qatarı ilə İrəvana mütarikə yapmaq üçün azim olan nümayəndələr, Heydərqulu bəy, İskəndər xan və Hidayət bəy şəhərə varid oldular. Məzbur qatar filfövr erməni tərəfinə övdət etdi.

*Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). Bakı, Azərnəşr, 1993, səh.50-63, 67-72, 75, 81-84, 85-89, 96-100, 102-110, 111-116, 122-123, 129, 131.*



## ARAZ-TÜRK RESPUBLİKASI

Tarixdə lənətlə damğalanmış cinayətkar Andraniki izləyən türk komandanlığı onu yoxlamaq üçün 1918-ci ilin iyul ayında Şərur – Naxçıvan qəzasına qoşun dəstəsi göndərsə də qatili ələ keçirmək mümkün olmadı. O, Naxçıvanı tərk edib Zəngəzura qaçdı (bu barədə xeyli məqalə yazıldığından təkrara ehtiyac yoxdur). 1918-ci ilin iyul-avqust aylarında* Naxçıvan ərazisində Araz-Türk Respublikası yarandı. Bu respublikanın yaranması onunla əlaqədar idi ki, 1918-ci il may ayının 26-da Zaqafqaziya Seymi öz səlahiyyətini yerə qoydu. Bu zaman Gürcüstanda menşevik, Ermənistanda daşnak, Azərbaycanda müsavat respublikaları, Naxçıvan ölkəsində isə Araz-Türk Respublikası meydana gəldi. Respublikanın ərazisi Sərdərabad, Uluxanlı, Vedibasar, Qəmərli, Şərur, Naxçıvan, Ordubad qəzalarından ibarət idi. Paytaxt Naxçıvan şəhəri müəyyən edilmişdi Respublikanın hərbi hissəsi könüllü xalq dəstələrindən ibarət idi. Eyni vaxtda respublikanın Nazirlər Şurası da yaradılmışdı. Təəssüf ki, Naxçıvan Dövlət Arxivində Şuranın tərkibi barədə məlumat qalmayıb. Ehtimal ki, sənədlər ingilislər tərəfindən aparılmışdır. Bəzi ehtimallara görə sonralar şura üzvləri Malta adasına sürgün edilmişlər. (Bu məsələlərin dəqiq cavabı tədqiqatçıların öhdəsinə düşür. – Ə.Ə.).

Naxçıvan ölkəsinin hərbi-müdafiə zəifliyini bilən daşnaklar arasıra Naxçıvan ərazisinə basqınlar etsələr də, hər dəfə böyük tələfatla geri çəkilirdilər. 1918-ci ilin axırlarında türk qoşunları Naxçıvandan getdikdən sonra ermənilər Ordubad qəzasının Gəncə, Şərur-Dərələyəz qəzasının Yaycı, Əmov, İrəvan qəzasının Qaraxan kəndlərinə basqın edib Əmov və Qaraxan azərbaycanlılarını qılıncdan keçirdilər. Dərələyəzin Çüvə və İrəvan qəzasının Vedi kəndlərini mühasirəyə alıb, Sürməli, Zəngibasar, Dərələyəz azərbaycanlılarını yurd-yuvalarından qovdular. Bu dövrdə daşnaklar Zəngibasarda 48, Vedibasarda 118, Dərələyəzdə 74, Şərurda 7 kəndi odlayıb viran qoymuş, onların sakinlərini dərbədər etmişdilər.

Daşnak təcavüzkarlığı ilə əlaqədar olaraq əhali «Özünümüdafiə təşkilatı» ətrafında sıx birləşir, əli silah tutanlar vuruşa qalxır. Bu zaman bir neçə dəstə yaranır. Nehrəm taboruna Kalba Muxtar, Cəhri taboruna Kalba Kərim, Qulubəy Dizə taboruna Məmmədrza bəy, şəhər taboruna «Hümmət»çi Hüseyn Əliyev, Şərur – Sədərək kəndindəki dəstəyə Həsən Şahverdi oğlu, yengicəlilərə Məşədi Ələsgərağa, kərgərlilərə Möhsün Camalov, Baş Noraşen – Zeyvə – Düdəngə kəndlərinə Fətulla Hüseynov və Kərbalayı Həbib bəy, Ordubad taboruna müəllim İbrahimxəlil Axundov başçılıq edirdilər. Taborçular döyüşə öz silahı, atı, geyimi, yeməyi ilə gedirdilər. Getdikləri kəndlərdə əhali də təchizat işlərində onla-

* Araz-Türk Respublikası 1918-ci ilin noyabr ayında yaranmışdı (Tərtibçidən).

ra kömək edirdi.

1919-cu ilin yanvar ayında daşnaklar polkovnik Doluxanovun komandası altında Sədərək, Dəmirçi və Şərurun başqa kəndlərinə hücuma başlayırlar. Sədərək taboru Həsən Şahverdi oğlunun komandası altında düşmənin arxasına düşür. Vedi tam mühasirədə idi. Döyüşlərin qızğın çağında Kəlbalı xanın komandası altında naxçıvanlılar Şərur dəstələrinə köməyə gəldilər. Vəlidağ yaxınlığında böyük vuruşma oldu, erməni qoşunları tələfata uğradılar. Sədərək əhalisi mühasirədən xilas olundu. Böyük döyüşdən sonra bir neçə ay Naxçıvan – Ermənistan sərhədlərində sakitlik oldu.

1919-cu ilin mart ayında düz Novruz bayramı günündə daşnak qoşunları böyük qüvvə ilə Naxçıvan torpaqlarına basqın etdilər. Bu vaxt İngilis – Amerika qoşun nümayəndələri də onlara kömək edirdilər. İngilis hərbi missiyası İrəvana daxil olub daşnak hökumətinə hərbi yardım vəd etdi. İngilislərdən üz görən daşnak liderləri aşağıdakı tələbləri qoydular: 1. Bütün İrəvan quberniyası (o cümlədən Naxçıvan və Şərur – Dərələyəz qəzaları – Ə.Ə.); 2.Bütün Qars vilayəti; 3. Tiflis quberniyasının Axalkələk qəzasının iki hissəsi və Borçalı qəzasının bir hissəsi; 4.Yelizavetpol quberniyası (yeddi qəza, o cümlədən – Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzaları – Ə.Ə.) Ermənistan dövlətinə verilməlidir. İngilis imperialistləri Naxçıvanı bitərəf zona elan edib, daşnak Ermənistanının hakimiyyətinə vermək məqsədi ilə bura gəldilər və Noraşen, Şaxtaxtı, Naxçıvan, Culfa stansiyalarında, Şərur-Dərələyəz şose yolunda öz hərbi hissələrini yerləşdirdilər.

Amerika ordusunun polkovniki Haskel 1919-cu il sentyabr ayının 9-da Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və Əsgərovu qəbul edərək bildirir ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmond Deli Naxçıvana qubernator təyin edilmişdir və oktyabrın 23-də öz vəzifəsinə başlayacaqdır.

Nümayəndələr adından Əli Səbri Qasımov Amerika polkovnikinin qarşısında 10 maddədən ibarət tələb qoyur: Naxçıvan ölkəsinə erməni qoşunu yeridilməsinə razı ola bilmərik; daşnak hökumətinə tabe olmayacağıq; lazım gələrsə Naxçıvan əhalisi öz istiqlaliyyətini silahla qorumağa qabildir və s. Deyilənlərə baxmayaraq, Ermənistan daşnak hökumətinin təlimatı əsasında Əlixan İrəvanski Naxçıvan xanları ilə saziş bağlamağa gəlir. Bu sazişə görə Naxçıvan və Şərur qəzaları Ermənistana tabe olmalı idi. Məsələdən xəbərdar olan Naxçıvanın qeyrətli oğulları Şorsu körpüsündə Əlixanın qabağını kəsib möhkəmcə döyür, məktubunu əlindən alıb yandırırlar. Sonra ingilis generalı Tomson erməni daşnak lideri Xatisov və başqa hərbi müşavirlərlə Naxçıvana gəlir. Yolüstü Şaxtaxtı dəmiryol stansiyasında mitinq keçirirlər. Daşnak nümayəndələrindən biri əhaliyə elan edir ki, indən belə Naxçıvan bitərəf zonadır və Ermənistana tabe edilir. Bu sözü eşidəndə mitinq iştirakçılarından kimsə güllə ilə natiqin ağzından vurub öldürür.



Bu hadisəyə baxmayaraq, zirehli qatar müşavirləri Naxçıvana gətirir. Şəhərdə, indi Mirzə Cəlilin heykəli qoyulmuş meydana zəhmətkeşlərin mitinqi olur. Naxçıvanın Ermənistana tabeliyi məsələsini eşitdikdə əhali ixtişaş qaldırır. Buna baxmayaraq, ingilis komandanı bildirir ki, daşnak hökumətinin əsgərləri yaxınlarda Şərur və Naxçıvana gələcəklər. Heç kəsin haqqı yoxdur ki, onların qabağına çıxsın. Əgər belə bir iş olsa çıxış edənlər ingilis hökumətinin qarşısında cavab verəcəklər.

Bu ingilis-daşnak münasibətinə qarşı kəskin etiraz edilir. Şəhərin nüfuzlu adamları qəti bildirdilər ki, naxçıvanlılar daşnak hökumətinə tabe olmayacaqlar və istiqlaliyyətlərini qanları ilə qoruyacaqlar.

Daşnak qoşunları ingilis və Amerika süngülərinə arxalanaraq Şərur-Naxçıvan torpağında yerləşdirilir. Amerika-İngilis komandanlığının əmri ilə Araz-Türk Respublikası Nazirlər Şurasının bütün üzvləri həbs edilir. Daşnak Varşamyan 1919-cu ilin oktyabr ayında Naxçıvana qubernator təyin edilir.

Naxçıvanın hər yerində ingilis daşnak təcavüzünə qarşı xalq hərəkatı başlayır. Kəndlilər Yengicə, Baş Noraşen kəndlərində Noraşen stansiyasında daşnak qarnizonları və cəbbəxanalarını dağıdırlar. Naxçıvanda da özünümüdafiə təşkilatı, Kəlbalı xan başda olmaqla, bir gecədə daşnak qubernatorluğunun iqamətgahını dağıdır. Şəhərdə daşnak qarnizonunun yerləşdiyi yer indiki 32 nömrəli texniki peşə məktəbinin yerindəki üçmərtəbəli bina idi.* Şəhər sakini Hacı Cabbarın təklifi ilə indiki Təbriz mehmanxanası olan yerdə Bəhram xanın evinin altından oraya tunel açılır. Binanın altına barıt çəlləyi qoyulur və partladılır.

70 il əvvəl baş vermiş bu hadisələr Naxçıvanın qocaman sakinlərinin çoxunun xatirindədir və mənim də gözlərim önündə baş verib. Bugünkü hadisələr eyni ilə həmin illərin təkrarına oxşayır. Daşnak ideoloqlarından Dadamyan, təsadüfi olaraq yazmır ki, bu il daşnak partiyasının 100 illiyini Dağlıq Qarabağı, Naxçıvan respublikasını Azərbaycandan qoparıb Ermənistana birləşdirməklə qeyd etməliyik.

1920-ci ilin iyul ayının əvvəllərində daşnak qoşunları Çüvə kəndinə basqın edir. Məscidə toplaşan qoca, qadın və uşaqları vəhşicəsinə tuturlar. Onlarca kənd sakini diri-diri torpaq altında qalır. Mənim xalam da əri ilə birlikdə onların arasında olub. Kənd əhalisinin sağ qalanları Çüvəni tərk edirlər.

1918-20-ci illərdə Abbasqulu bəy Şadlinskinin başçılığı altında

* İndiki türk liseyi.

qəhrəman Vedi əhalisi gərgin vuruşmalardan sonra kəndi tərk edib Şərur torpağına çəkilir. Şərur və Naxçıvan camaatının əsas hissəsi də Abbasqulu bəyin dəstəsi ilə birlikdə vuruşa-vuruşa geri çəkilib, Arazı keçir. İranın Mərənd şəhəri ətrafında məskən salır. 1920-ci il iyulun 28-də XI ordunun bir hissəsi Naxçıvana gəlir, burada inqilab komitəsi yaradılır və Bahadur Vəlibəyov Azərbaycanın Naxçıvan üzrə fövqəladə komissarı təyin edilir. Onun tapşırığı ilə Naxçıvanın hörmətli şəxsləri Seyfulla Süleymanov, Həsən Bağırov, demokrat Məmməd Mərənd qərargahına göndərilir və Abbasqulubəy öz dəstəsi ilə 1920-ci il sentyabrın 12-də Naxçıvana qayıdır...

Bu gün xalqımızın başına gələn hadisələr 70 il bundan əvvəl olmuş hadisələrin təkrarıdır. Yenə də Amerikada və Fransada yaşayan erməni lobbisi Ermənistana ərzaq adı altında müasir silahlar göndərir. İki ildir ki, Naxçıvan daşnak Ermənistanın mühasirəsindədir. İki ildir ki, onlar sərhəd kəndlərinin əhalisinə dinclik vermirlər. Kərki kəndi işğal olunub.

Bu çətin günlərdə Türkiyə ilə RSFSR arasında 16 mart 1921-ci ildə Moskva şəhərində bağlanmış müqavilənin şərtlərini xatırlatmaq istəyirəm. Həmin müqavilə ilə Naxçıvan vilayəti Azərbaycanın protektoriatı altında muxtar ərazidir. Azərbaycan bu protektoriatı üçüncü dövlətə güzəştə getməməlidir. Bundan başqa 13 oktyabr 1921-ci ildə Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan respublikaları arasında Qars müqaviləsi bağlanıb, xəritə çəkilib və orada Naxçıvan ərazisi dəqiq müəyyən edilib.

Qoca tarix zorakılığa məruz qala bilər, lakin zorakılıqla düşən ləkə gec-tez tarix üzərindən götürüləcək. Bu tarixi yaradan xalqdır!

*Ə.Əliyev. Araz-Türk Respublikası. «Şərq qapısı» qəzeti, 25 fevral 1990-cı il*



## ARAZ-TÜRK RESPUBLİKASININ YARANMASI VƏ DÖVLƏTÇİLİYİN QORUNMASI ÜÇÜN SİLAHLI MÜBARİZƏ

1918-ci il daşnak quldur dəstələrinin Naxçıvan və Dərələyəz qəzalarına qanlı hücumları ilə əlamətdar idi. İri quldur dəstələrindən biri olan Andranikin[1] dəstəsi Yaycı və Aza kəndləri ərazisində silahlı kəndli qüvvələrini darmadağın edərək Naxçıvana irəlilədi. Az müddət ərzində Andranik Ordubad dairəsinin əsas hissəsini, Culfa stansiyasını və ətraf kəndlərin bir hissəsini öz nəzarəti altına aldı.[2]

Andranikin həyasızlıq və təkəbbürü o yerə çatdı ki, iyunun ortalarında o, Naxçıvan şəhərini tutmağa cəhd göstərdi, lakin onun bu təşəbbüsü baş tutmadı. Belə olanda daşnaklar Nehrəm kəndinə hücum etdilər, lakin burda da onlar güclü müqavimətə rast gəldilər.[3] 1918-ci il ərzində Naxçıvan kəndləri dəfələrlə erməni quldurlarınm hücumlarına məruz qaldılar. Lap elə əvvəllərdən bu hücumların məqsədi Naxçıvanı zəbt edib Ermənistana birləşdirmək idi. Bu əraziyə olan iddialar, məlum olduğu kimi hələ 1917-ci ildə, «İnzibati sərhədlərin Peterburq layihəsi» deyilən layihə tərtib edilərkən ermənilər tərəfindən irəli sürülmüş, rus bürokratiyasının ermənipərəst əhval-ruhiyyəli hissəsi tərəfindən müdafiə edilmişdi. Lakin Tiflisdəki Fəhlə və Əsgər deputatlarınm Diyar Soveti tərəfindən rədd olunmuşdu. O vaxt daşnaklar həyasızcasına elan etmişdilər ki, «onlar başqa yollar taparlar». Məkrli düşmən müvəqqəti də olsa döyüşkən türk qoşunlarının yaxınlıqda olması və Zaqafqaziyada bolşeviklərin o vaxtkı möhkəm mövqeləri ilə hesablaşmalı oldu. Buna görə də daşnaklar özlərini Rusiyanın bütövlüyünün tərəfdarı kimi göstərdilər ki, bu da onların bolşevik mərkəzi tərəfindən müdafiəsini təmin edirdi. Tezliklə Naxçıvanı ələ keçirmək istəyən qaniçən Andranik 1918-ci il iyulun 14-də «Naxçıvan qəzası haqqında» 1№-li əmr verdi. Əmrdə deyilirdi: «Bu gündən mən öz dəstəmlə birlikdə Rusiya Respublikası Mərkəzi hökumətinin tam sərəncamına və tabeliyinə keçirəm. 2. Brest-Litovsk sülh müqaviləsinə əsasən Naxçıvan Rusiya Respublikasının ayrılmaz hissəsidir» [4]. Bu həyasız və başdan-başa yalanla dolu əmrilə Andranik Naxçıvan qəzasında hərbi vəziyyət elan etdi. Andranik tələb

[1] Andranik (Andranik Uzunyan, Ozanyan) – daşnak generalı, daşnak quldur dəstələrinin təşkilatçı və başçılarından biri, Azərbaycan və Türkiyə milli demokratik hərəkatının qatı düşməni.

[2] Г. Мадатов. Победа Советской власти в Нахичевани и образованне Нахичеванской АССР. Баку, 1968, с.53.

[3] Naxçıvan MR MA, f. 1, siy. 3, iş 5, v. 94.

[4] Д.Киракасян. «Западная Армения в годы первой мировой войны». Ереван, 1971, с. 226.

edirdi ki, bütün əhali dərhal tərksilah olunsun. Daşnak hökumətini tanımayanları isə «Rusiyaya xəyanətdə» təqsirləndirib qanundan kənar hesab edəcəyi ilə hədələyir, bu şəxslərin ciddi cəzalanacağı haqqında xəbərdarlıq edirdi [1].

Stepan Şaumyan Andranikə teleqramında yzırdı: «Xalq rəhbəri Andranikə... Bayrağınız altında vuruşan bütün əsgərlərə, türk silahından və milli rəhbərliyin xəyanətindən ikiqat əzab çəkən əməkçi əhaliyə salamımı yetirin... Sizə yardım etmək imkanına şad olardım, bəlkə siz əlaqə üçün yollar tapasınız»[2]. Andranikin cavabı bu oldu ki, laxlamaqda olan Şaumyan rejimini müdafiə üçün özünün dəstələrindən birini göndərdi.

Andranikin bolşeviklərə açıq-açığına oyunu və türk qoşunlarının geri çəkildiyi bölgələrdəki qəddar vəhşilikləri hətta daşnakları da ciddi narahat edirdi. 1918-ci ilin payızında daşnaklar tərəfindən Naxçıvan və Culfa erməni kəndlərindən daşnak polklarına könüllülər yığmaq üçün göndərilən Yero Xazaryan özünün hesabat məruzəsində yazırdı ki, Andranik Ermənistan Respublikası ilə türk ordusunun nümayəndəsi Xəlil bəy arasındakı qarşılıqlı münasibəti çox pozmuşdur. Deməк olar ki, türk qoşunlarının gözü qarşısında Andranik güc tətbiq etməklə Yaycı, Duqlyan (Düylün olmalıdır – İ.H.) və Qulubəy Dizə kəndlərinin əhalisini qırdı»[3].

1918-ci ilin noyabrında onunla daşnaklar arasındakı qarşılıqlı münasibət elə pozulmuşdu ki, hətta daşnaklar Andraniki hərbi-səhra məhkəməsinə vermək istəyirdilər[4]. Azərbaycan Parlamentinin 1918-ci il 20 dekabr fövqəladə iclasında A.Pepinov Andranikin qanlı hücumlarına qiymət verərək qeyd edirdi: «Türkiyədə məğlubiyyətə uğrayan Andranik ətrafına quldur dəstəsi yığaraq İrəvan quberniyasına keçmiş, yolu üstündəki müsəlman kəndlərini qılıncdan keçirib yandırmış və onun yeni qanlı əməllərinə yol verməк istəməyən dinc erməni əhalisinə divan tutmuşdur. Bu qayda ilə o, İrəvan quberniyasından, Naxçıvan qəzasından keçib getmişdir».[5]

Naxçıvana erməni hücumlarını səciyyələndirərək Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi qeyd edirdi: «1905-ci il hadisələri daha böyük miqyasda və tamamilə yeni şəraitdə təkrar olunur. Əgər çar rejimi zamanı millətlərarası ədavət bizim ucqarları Rusiyanı bürümüş inqilabi hərəkatdan uzaqlaşdırmaq istəyən bürokratiyanın əli ilə yaradılırdısa, 1918-ci ildəki toqquşmaya bizdə rus hökumətinin ləğvi və rus

[1] Д.Киракасян. «Западная Армения в годы первой мировой войны». Ереван, 1971, с. 227.
[2] «Bakinskiy raboçiy» qəzeti, 20 iyul 1918-ci il.
[3] Kirakasyan. Göstərilən əsəri, səh. 227.
[4] Ermənistan Respublikası MDTA, f. 200, s. 1, iş 619 a, v. 102-107.
[5] «Azərbaycan» qəzeti, 22 dekabr 1918-ci il.



qoşunlarının ərazimizdən getməsi səbəb olmuşdu. Ruslardan qalmış silahı və hər cür hərbi sursatı ələ keçirmiş ermənilər müsəlmanları türklərə rəğbət bəsləməkdə və silahlı qiyam hazırlamaqda ittiham edərək, var-qüvvələri ilə onların üzərinə hücuma keçdilər»[1].

Təbiidir ki, erməni millətçiləri tərəfindən xalqa qarşı apardıqları genosidə Şərur-Dərələyəz və Naxçıvan qəzalarının əhalisi biganə qala bilməzdi. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məlumatına görə yayın əvvəli üçün ermənilər «təqsirli və təqsirsizləri ayırd etmədən 400-dən çox müsəlman kəndini qılıncdan keçirib yandırmışlar. Dağıntı və qırğının mənzərəsi dəhşətə gətirirdi. Evlər yandırılır, əhalinin əmlakı əlindən alınırdı, adamlara rəhm etmirdilər, uşaqları, qadınları, qocaları doğrayırdılar... Yaxınlarda çiçəklənən kəndlər xarabazara çevrilmişdi»[2].

Bu qəzaların əhalisini tamamilə qırılmadan qurtara biləcək yeganə qüvvə, şübhəsiz, türk qoşunları idi. 1918-ci il mayın sonunda Naxçıvan və Şərur-Dərələyəz qəzalarının əhalisi Kərim xan İrəvanlının başçılığı ilə Mehmet Vahib paşanın yanına xüsusi nümayəndə heyəti göndərərək, Andranikin quldur dəstələrini dağıtmağı və Naxçıvan diyarına qoşun yeritməyi xahiş etdi. 1918-ci il iyunun əvvəlində 9 və 11-ci türk diviziyaları Uluxanlıdan Naxçıvana hərəkət etdilər. 1918-ci il iyunun 4-də türk qoşunları Naxçıvana daxil oldu[3].

Türk komandanlığı şəhər üzərində Türkiyə bayrağını qaldıraraq Naxçıvanı öz himayəsi altına götürdüyünü bildirdi, Naxçıvanı Türkiyənin bir əyaləti elan etdi. Buraya general-qubernator təyin edildi. Həmçinin milli Azərbaycan hərbi hissələri yaradılmağa başlandı, bu hissələrə hələlik türk zabitləri rəhbərlik edirdilər. Naxçıvan nizami könüllü ordusunun yaranmasına 1-ci ordu korpusunun komandiri Kazım Qarabəkir paşa böyük qüvvə və əmək sərf etmişdi[4]. Qəzalarda 19 yaşından yuxarı olan əhali arasında səfərbərlik elan edildi. Milli hərbi hissələr türk silahları ilə silahlanır və sürətlə hərbi işi öyrənirdilər.

Türk qoşunları və Naxçıvanın könüllü qoşunlarının birgə səyi ilə daşnak quldur dəstələri darmadağın edildi və qəzadan qovuldular. Naxçıvanda dinc həyat yoluna düşür, yerli inzibati hökumət bərpa edilirdi. Bu hökumətə rəhbərlikdə Rəhim xan və Kamran xan Naxçıvanskilər, Cabbarağa Vəzirov, Kəlbəli xan Naxçıvanski və digərləri görkəmli rol oynamışdılar[5]. Bununla birgə ayrı-ayrı bəy və xan nəslindən olan nümayəndələr Türkiyə hökuməti ilə əməkdaşlığın əleyhinə idilər. Onlar

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 227, s. 2, iş 58, v. 15.
[2] Yenə orada.
[3] Karabekir paşa Kazım. Birinci Kafkaz Kolordusunun, 1919, s. 11-12.
[4] Karabekir paşa Kazım. Birinci Kafkaz Kolordusunun, 1919, s. 11-12.
[5] Q. Mədətov. Göstərilən əsəri, s. 53.

Naxçıvanın tam müstəqilliyi lehinə çıxış edir, buna görə də İranla yaxınlaşmağa can atırdılar. Naxçıvan və Şərur-Dərəlyəz qəzaları cümhuriyyətinin yuxarı təbəqələrindəki siyasi iqlimin bu xüsusiyyəti erməni təcavüzünə qarşı çıxış edən qüvvələrin parçalanmasına gətirib çıxardı. Türk qoşunları Naxçıvana gəldikdən sonra Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xan Naxçıvanski, oğlu Kəlbəli xan, Mirzə Hüseyn və Heydərqulu bəylə birlikdə iranlılar və daşnaklardan siyasi mənfəət əldə etmək ümidi ilə İrana və İrəvana səfər etmişdilər. İrəvana səfərin nə dərəcə səmərəli olduğunu erməni hökuməti nümayəndələrindən birinin Cəfərqulu xana dediyi sözlərdən görmək olar: «Biz bilirik ki, naxçıvanlılar xaindirlər. Onu da nəzərə alın ki, sizin bütün quldur dəstəniz və Makin sərdarı yer üzündən silinəcəkdir. Sizin üzərinizə Zəngəzurdan Andranik gələcək, buradan isə biz özümüzün Qazax süvari dəstəmizi göndərəcəyik»[1].

Birinci dünya müharibəsində məğlubiyyətə uğrayan Türkiyə Mudros müqaviləsinin şərtlərinə uyğun olaraq qoşunlarını Naxçıvandan çıxarmağa məcbur oldu. Türkiyə qoşunlarının Naxçıvandan çıxarılmasını bütün Azərbaycan ictimaiyyəti kədərlə qarşıladı[2].

1918-ci il noyabrın sonunda yerli əhali Qafqazda altıncı olan Araz Respublikasının müvəqqəti müstəqilliyini elan etdi. Bu respublika bir tərəfdən erməni iddialarını dəf etməyə, digər tərəfdən isə respublikanın bütün əhalisinin həm din, həm də dil cəhətdən can atdığı Azərbaycanla birləşməni hazırlamağa cəhd edirdi[3].

Araz-Türk Demokratik Respublikasının elan edilməsi hələ lap keçmişlərdən regional müstəqilliyə can atan Naxçıvan diyarı üçün böyük əhəmiyyət kəsb edirdi. Respublikanın paytaxtı Naxçıvan şəhəri oldu. Onun ərazisinə Naxçıvan və Şərur-Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. bölgələr[4] daxil idi. Yaradılmış hökumətin başında demokratik inkişaf tərəfdarı və yerli feodalların düşməni Əmir bəy dururdu.[5] Əmir bəyə və onun tərəfdarlarına qarşı köhnə qaydaları saxlamağa can atan iri bəylər və xanlar, Cəfərqulu xan çıxış edirdilər. Tanınmış və qədim xan nəslinə mənsub olan Cəfərqulu xan keçmiş xan hökumətini və əzəmətini bərpa etmək istəyən əhali arasında geniş şöhrət qazanmışdı və bu əhaliyə böyük təsir göstərə bilirdi. Onun oğlu, çar ordusu leyb-qvardiyasının keçmiş rotmistri Kəlbəli xan Rusiyanın yüksək hərbi mükafatlarını almışdı. Belə hesab edilirdi ki, Cəfərqulu xan və onun ətrafındakılar monraxiyalı Rusiyanın tərəfdarları idilər[1], lakin bunu daha dəqiqliklə təsdiq edən sənədlər tapılmamışdır[2]. Diplomatik yolla Ermənistan Respublikasının daşnak rəhbərliyi ilə belə münasibətləri qaydaya salmaqla öz hakimiyyətlərini saxlamaq məqsədinə can atan Cəfərqulu xan çox ehtiyatlı və hiyləgər siyasət yeridirdi. Özü üçün təhlükə yarandıqda isə həmişə İranda gizlənirdi.

Respublikanın mərkəzi hökumət orqanı kimi hökumətxana yaradıldı, onun tərkibinə əsasən Milli Şuranın üzvləri daxil oldular. Bundan başqa Araz-Türk Respublikasının Parlamenti yaradıldı, lakin Parlament fəaliyyətini genişləndirə bilmədi[3].

Respublika ərazisində milis idarələri və onların sahə şöbələri yaradıldı. Burada əsas diqqət hərbi quruculuğa verilirdi. Bunun üçün də türk komandanlığı Xəlil bəyi respublika hökuməti yanında daimi hərbi müşavir təyin etmişdi. Bundan əlavə türklər burada 300 əsgər və 5 zabit qoyub getmişdilər.

Silahlı qüvvələrin tərkibində cəmiyyətin bütün təbəqələrindən, o cümlədən xanlar, bəylər, tacir uşaqları, kəndlilər xidmət edirdilər. 1919-cu il dekabrın əvvəlində respublikanın silahlı dəstələri bir neçə taborda[4] birləşmişdilər. Baş Noraşen, Düdəngə və Zeyvədə yerləşən taborlara Fətulla Hüseynov, Şərurda, Sədərəkdə yerləşən digər taborlara Hüseyn Şahverdi oğlu komandanlıq edirdi[5].

Genosiddən xilas olan qaçqınlar böyük bir axınla Ermənistandan Araz-Türk Respublikasına gəlirdilər. 1919-cu ilin yanvarında onların sayı 100 min nəfərə çatmışdı. «80-dan çox müsəlman kəndini darmadağın edib, onları qılıncdan keçirən, yandıran ermənilərin zorakılıq hərəkətləri»[6] adamları yurd-yuvalarını atıb getməyə məcbur etmişdi. Araz-Türk Respublikası hökumətinin məlumatına görə bütün bunların nəticəsində «burada əhalisi ancaq müsəlmanlardan ibarət olub, sayı 500 min nəfərə çatan ərazi yaranmışdı»[7]. «Müstəqil vahid kimi təşəkkül tapan və öz hökumətini yaradan göstərilən yerlərin əhalisi həmişə özünü Azərbaycanın tərkib hissəsi hesab edərək sülh konfransı tərəfindən taleyi həll edilənədək ona dinc yaşamaq imkanı verilməsini arzulayırdı»[8].

Naxçıvanda müstəqil respublikanın yaranması daşnak bölgələrini möhkəm qəzəbləndirmişdi. Erməni quldur dəstələrinin hücumları

[1] Макинское ханство. Новый Восток, книга 1, M., 1922, c. 341.
[2] «Açıq söz» qəzeti, 13 mart 1992-ci il.
[3] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy 1, iş 215, v. 9-9 arx.
[4] Yenə orada.
[5] Yenə orada, f. 894, siy 10, iş 178, v. 7.



[1] Макинское ханство..., c. 343.
[2] Q. Mədətov. Göstərilən əsəri.
[3] Yenə orada, s.55.
[4] Tabor-batalyon (türk).
[5] «Açıq səs» qəzeti, 13 mart 1992-ci il.
[6] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 15, v. 9.
[7] Yenə orada.
[8] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 15, v. 9.

güclənmişdi, bu hücumlar müdafiəsiz dinc kəndləri qırmaq məqsədi güdən fasiləsiz müharibə xarakteri almışdı. Cəfərqulu xan qeyd edirdi: «Türklər getdilər, yenə bizdə müsəlman kənd və qəsəbələrin məhv edilməsi, heç bir günahı olmayan müsəlman qadın və uşaqların döyülməsi və öldürülməsinin qanlı səhnələri təkrar olunmağa başladı. Yenə də İrəvan quberniyasında ermənilər tərəfindən qəddar ölümə məhkum edilmiş on minlərlə müsəlmanın ürək parçalayan qışqırıq və nalələri göyə yüksəldi»[1].

1918-ci ilin yazından başlayaraq xüsusilə Şərur sahəsinə bitişik olan Vedibasar rayonuna hücumlar daha da çoxalmışdı. İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin idarə heyəti 1919-cu ilin sentyabrında Azərbaycan Respublikası Nazirlər Şurasına Vedibasar əhalisinin 1918-ci ilin axır dövrü haqqında yazırdı: «Onlarla kənd yandırıldı və qılıncdan keçirildi, qadın və uşaqlara da rəhm edilmirdi. Keçən ilin (yəni 1918-ci ilin) sonunda Vedibasar rayonunun əhalisi tamamilə məhv edilməkdən xilas olmaq üçün birləşərək ermənilərə silahla cavab verməyə başladılar. Dinc əkinçilər nəinki erməni qoşun hissələrinə qalib gəldilər, həm də hücuma keçdilər və bir müddət Ermənistanın paytaxtı təhlükə qarşısında qaldı»[2].

Tarixi fakt baxımından bu hadisələr çox şeydən xəbər verir. Erməni quldur dəstələrinin Araz-Türk Respublikası hüdudlarına fasiləsiz hücumlarını daşnak paytaxtının coğrafi yaxınlığı da şərtləndirirdi, «buradan quberniyanın (ərazisi erməni işğalının ilk qurbanı olan İrəvan quberniyası nəzərdə tutulur – A.H.) hər yerinə cəza dəstələri göndərilirdi»[3]. Lakin respublika əhalisinin öz müstəqilliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqlarını müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, həm də İrəvanın özünü qorxuya salırdı. Lakin Araz-Türk Respublikasınm hökuməti öz qarşısına daşnaklardan fərqli olaraq qonşu torpaqları zəbt etmək vəzifəsini qoymamışdı.

Araz-Türk Respublikasının Azərbaycan Respublikası və 1918-ci ilin dekabrında elan edilmiş Cənubi-Qərbi Qafqaz Demokratik Respublikası ilə qarşılıqlı münasibəti də maraq doğurur. Lap əvvəldən hökumət və parlament səviyyəsində əlaqələr yaratmağa başlayan ADR ilə münasibətlər xüsusilə dostcasına idi.

Məsələn, Azərbaycan Parlamentinin 7 dekabr 1918-ci il tarixli təntənəli iclasında Araz-Türk hökumətinin sədri P.Əliyev də iştirak edir-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 2.
[2] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 64.
[3] Yenə orada.



di. O, diplomatik nümayəndələrin lojasmda polkovnik Kokkerel, Bakıdakı İran general-konsulu M. Səüdəl-Vəzara, İran maliyyə agenti Vəkil əl-Mülk, Dağlılar hökumətinin nümayəndəsi Çermoyev, Dağlılar Respublikasının diplomatik nümayəndəsi A.Qantəmirov və Gürcüstan Respublikasının diplomatik nümayəndəsi İ.N.Karsivadze ilə yanaşı oturmuşdu.

Araz-Türk Respublikasının əhalisi Azərbaycan Parlamentinin açılışı haqqında xəbəri böyük ruh yüksəkliyi ilə qarşıladı. O günlərdə özlərinin səlahiyyətli müvəkkili A.Hacıyevin imzası ilə Ordubad rayonunun əhalisi Azərbaycan Parlamentinə təbrik teleqramı göndərmiş, qarşıdakı çətin işdə ona müvəffəqiyyətlər arzulamış, onun «Qafqaz müsəlmanlarının arzularını doğruldacağına, öz fəaliyyəti ilə bizim də müstəqil yaşamağa layiq və öz taleyimizi həll etmək və hüquqlarımızı müdafiə etmək iqtidarında olduğumuzu bütün dünyaya sübut edəcəyinə» əmin olduqlarını bildirirdilər[1]. Diqqətəlayiqdir ki, ordubadlılar bu Parlamenti «öz parlamentləri» adlandırır və məlumat verirdilər ki, «onun yaradıcı işinə hər cür yardım etməyə hazırdırlar»[2].

Lakin aydındır ki, o dövrdə Araz-Türk Respublikası əhalisinin gözlədiyi köməyi ADR ona göstərə bilmirdi. Buna görə də Cənubi-Qərbi Qafqaz Demokratik Respublikasının yarandığı ilk gündən Araz-Türk Respublikasının ərazisi formal olaraq onun tərkibinə daxil edildi. Düşünmək olardı ki, Cənubi-Qərbi Qafqaz Demokratik Respublikasının yaranması ilə Araz-Türk Respublikasının mövcudluğuna son qoyulacaq, lakin bu respublika CQQDR-na qədər də, onunla paralel də, ta 1919-cu ilin iyununa qədər – CQQDR öz fəaliyyətini dayandırdıqdan sonra da mövcud idi. Tarixi sənədlərdə bu qeyri-adi vəziyyət Azərbaycan Respublikası hərbi attaşesinin Azərbaycan Ordusunun baş ştabına yazdığı raportda belə izah edilir: «Naxçıvan və Şərur qəzalarına gəldikdə isə, onların Cənubi-Qərbi Respublikanın ərazisinə daxil edilməsi bu qəzaların Azərbaycana faktiki mənsubluğunun qeyri-müəyyənliyi ilə izah olunur. Çünki bu qəzalar, məlumdur ki, Araz respublikasını təşkil edirdi və indiyə qədər müəyyən hakimiyyəti yoxdur»[3].

Cənubi-Qərbi Qafqaz Demokratik Respublikasının tərkibinə daxil olma formal xarakter daşıyırdı, çünki ancaq Qars Respublikasının elan edilməsi aktında öz əksini tapmışdı, faktiki olaraq isə Araz-Türk Respublikası müstəqil mövcud olan Respublika idi.

1918-ci ilin dekabrında Ermənistan Respublikası Araz-Türk Res-

[1] «Azərbaycan» qəzeti, 10 dekabr 1918-ci il.
[2] Yenə orada.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 34, v. 3, 21-22.

publikasma qarşı geniş miqyaslı təcavüzə başladı. Yanvarm 3-də «Azərbaycan» qəzeti yazırdı: «Daxili İşlər Nazirliyi dekabrın 28-də Cəbrayıldan belə bir teleqram almışdır: İrəvandan gələn 25 minlik erməni qoşunları Sədərək kəndindən keçərək 8 müsəlman kəndini mühasirə edərək silahları almışlar. Naxçıvan və Şərurun sakinləri İrana keçməyə hazırlaşırlar. Arazı keçərkən 200-dən çox adam həlak olmuşdur. Zəngəzur erməniləri bizə hücum etmişlər, hazırda güclü atışma gedir, hara müraciət ediriksə, kömək yoxdur».

Azərbaycan Parlamentinin 1919-cu il yanvarın 8-də çağırılan 7-ci iclasmda Həsən bəy Ağayev İrəvan quberniyası əhalisinin nümayəndələrinin ərizəsini oxudu. Bu ərizəni Araz-Türk Respublikası Parlamentinin üzvləri – Teymur bəy Makinski, R.İsmayılov, A.Makinski, A.Şeyxülislamov, M.Məhərrəmov, P.Bayrambəyov, Y.Tahirov, A.Sultanov imzalamışdılar. Həmin ərizədə deyilirdi: «Erməni qoşun hissələri bütün Sürməli qəzası və İrəvan, Eçmiədzin və Şərur qəzalarının müsəlmanlar yaşayan hissəsini tutmuşlar və Naxçıvana sarı hərəkət edirlər. Bu zaman dinc əhalinin bir hissəsi qılıncdan keçirilir, bir hissəsi isə öz kəndlərindən qovulur və dağlardan keçərək İrana qaçmaq məcburiyyətindədir, bu isə labüd ölüm deməkdir»[1]. Bu faciəli faktları kədərlə qarşılayan Azərbaycan Parlamenti hökumətə təklif etdi: «Sərəncamında olan bütün tədbirləri görsün ki, bütün bu bədbəxtliklərin qarşısı alınsın»[2].

Araz-Türk Respublikasının özündə də təcili tədbirlər görülürdü. O günlərdə könüllü xalq dəstələri – taborlar yaradılırdı. Həmin taborlara aşağıdakı şəxslər komandanlıq edirdilər: Nehrəm taboru – Kəlbə Muxtar, Cəhri – Kəlbə Kərim, Qulubəy Dizə – Məmməd Rza bəy, şəhər – Hüseyn Əliyev, Ordubad – İbrahim Xəlil Axundov. Yengicəlilərin və karkerlilərin könüllü dəstələrinin başında isə Məşədi Ələsgər ağa və Möhsün Camalov dururdular. Könüllülər öz atları, silah və ərzaqları ilə döyüşlərdə iştirak edirdilər. Diyarın bütün əhalisi onlara hər cür kömək göstərirdi[3].

Həsən Şahverdi oğlunun taboru və Kəlbalı xanın komandir olduğu Naxçıvan dəstələri təcavüzkara güclü müqavimət göstərirdilər. Polkovnik Doluxanovun komandanlığı altında erməni qoşunları Sədərək, Dəmirçi və Şərura hücuma başlayanda Sədərək taboru bu yerləri müdafiə edirdi. Döyüşün qızğın yerində Kəlbalı xanın dəstəsi şərurluların köməyinə gəldi. Vəlidağ yanındakı döyüş Araz-Türk Respublikası könüllülərinin tam qələbəsi ilə bitdi. Düşmən darmadağın edildi. Sədərəyin

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 895, siy. 1, iş 13, v. 21-22.
[2] Yenə orada, v. 23.
[3] A.Əliyev. Göstərilən əsəri, s. 7.



əhalisi erməni təcavüzkarlarından azad edildi.

1919-cu ilin yanvarın əvvəllərində daşnak hökumətinin xahişi ilə Naxçıvan ingilislər tərəfindən işğal edildi[1]. İngilislər Əmir bəy hökumətinə qarşı yaxşı münasibət bəsləmir, bu hökuməti Gürcüstanın və onun tərəfdarlarının əlaltısı hesab edirdilər. Naxçıvanın sonrakı taleyi haqqında daşnak hökuməti ilə danışıqlar aparan ingilis komandanlığı, eyni zamanda Cəfərqulu xanla yaxınlaşırdılar. Cəfərqulu xan özünüidarəyə can atmağı ilə ingilislərin rəğbətini qazanmışdı, çünki bu, regionun Böyük Britaniyanın hakimiyyəti altına keçməsini asanlaşdıra bilərdi.

Bu məqsədlə də Naxçıvana mayor Gibbonun başçılıq etdiyi Böyük Britaniya nümayəndələrinin bir qrupu gəldi. Mayor Gibbon öz gəlişinin səbəbini Əmir bəyə qaçqınlar məsələsini həll etmək kimi elan etdi[2]. Lakin həqiqətdə onun gəlişinin əsas məqsədi iqtisadi və siyasi vəziyyətlə tanış olmaq, Araz-Türk Respublikasınm hərbi hissələrinin tərkibi və silahlanmasını, həm də türklərin bu respublika hökumətinə təsirinin dərəcəsini aydınlaşdırmaq idi.

Naxçıvan ərazisində ingilis general-qubernatorluğu elan edildiyi gün respublikanın daxili vəziyyətinin sabitliyi ciddi sürətdə pozulmuşdu. Cəfərqulu xanın tərəfdarlarının törətdikləri fitnə-fəsadlar öz bəhrəsini verirdi. Naxçıvan əhalisini erməni təcavüzündən layiqincə qoruya bilməyən Əmir bəy hökumətinin zəifliyi də buna imkan yaradırdı. Cəfərqulu xan və onun ətrafındakılar daşnakların «müvəqqəti» qələbələrindən bacarıqla istifadə etdilər. Məsələn, ermənilər Qəmərli kəndinə hücum edərkən və Naxçıvan əhalisi çaxnaşmaya düşərək şəhərdən qaçmaq istərkən Kəlbalı xan çox az müddətdə 400 nəfərdən ibarət döyüşkən bir dəstə topladı və şərurluların köməyinə tələsərək, erməniləri darmadağın etdi.

Bütün bu hadisələrin nəticəsində Əmir bəy hökuməti süquta uğradı, Naxçıvanda Cəfərqulu xan, Kəlbalı xan və Kərim xan başda olmaqla yeni hökumət təşkil edildi[3]. Bu hökumət demokratik prinsipləri bir kənara ataraq iri feodal əyanlarını müdafiə edən kəskin mövqe tutdu. Kəlbalı xan respublika silahlı dəstələrinin komandanı oldu. Hakimiyyət başına gələn Cəfərqulu xan öz nümayəndələrini Təbrizə, fars olan vəliəhd şahzadənin yanına göndərərək Naxçıvanın İrana birləşdirilməsini rəsmi surətdə xahiş etdi. Şahzadə bu haqda Tehrana məlumat verdi, lakin eyni zamanda iki şahzadə və iki ermənidən ibarət nümayəndə heyətinin İrəvana səfərini təşkil etdi ki, erməni hökumətinin mövqeyini müəyyənləşdirsin.

[1] Очерки истории коммунистических организаций Закавказья. Тбилиси, 1967, ч. 1, с. 426.
[2] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 2, iş 95, v. 14.
[3] Yenə orada, v. 9-10.

Son vaxtlara qədər ta Culfayadək olan bütün ərazini özlərininki hesab edən ermənilər Gürcüstan Respublikası ilə müharibədən, Şərurdakı məğlubiyyətdən və Naxçıvanda ingilis general-qubernatorluğu elan edildikdən sonra demək olar ki, buna razı idilər. Lakin hələ ki, ingilislər Naxçıvanda idilər, onun İrana verilməsi haqda söhbət də ola bilməzdi.

Naxçıvanda demokratik qüvvələrin məğlubiyyəti ADR dövlətini ciddi surətdə narahat edirdi. 1919-cu il yanvarın axırlarında yerli əhalinin ehtiyacları ilə tanış olmaq məqsədilə o, İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırovu Araz-Türk Respublikasına göndərdi. ADR Hərbi Nazirliyinin Araz-Türk Respublikasına kömək üçün göndərilən 12 zabiti də (onların tərkibində yəqin ki, polkovnik Kuquşov da) Gəncədə Mirbağırova qoşuldular[1].

Sonralar Mirbağırov yazırdı ki, Arazı keçdikdən sonra əhalinin onları qarşılamağa gələn nümayəndələrini və hazırlanmış atları gördülər. Ordubadda ADR elçilərini əhali ruh yüksəkliyi ilə qarşıladı, onlar burada öz səfərlərinin məqsədləri və ADR-in yaranma tarixi haqqında məlumat verdilər. Mirbağırov xəbər verir ki, Ordubad Milli Şura, İcra Komitəsi və «Naxçıvandan təyin edilmiş»[2] komendant tərəfindən idarə edilir. Milli Şura Ordubad qəzasının Azərbaycana birləşmək arzusu haqqında protokolu Mirbağırova təqdim etdi. Beş gündən sonra ADR elçiləri Culfaya, oradan da qatarla Naxçıvana yola düşdülər. Bakıdan Naxçıvanadək olan yola 24 gün vaxt sərf olundu.

ADR elçiləri Naxçıvanda da təntənə ilə qarşılandılar. Bağırov respublika rəhbərliyinə məlumat verdi ki, Azərbaycan hökuməti naxçıvanlılara kömək göstərməyə hazırdır. Bu məqsədlə də Azərbaycan hökuməti buraya bir milyon manat pul göndərmişdir, pulu gətirən Paşa Bayramov və Yusif bəy Qazıyev müvəqqəti olaraq Tiflisdə ləngimişlər.

Fevralın 22-də Bağırov və zabitlər ingilis general-qubernatorunun qəbulunda oldular, Cəfərqulu xan da oğlu ilə burada idi. General-qubernator elan etdi ki, bu ərazi hələ ki, Azərbaycanın bir hissəsi deyildir və «məlum deyil kimin olacaq». Onun dediyinə görə Azərbaycan hökumətinin öz adamlarını ingilis general-qubernatorluğuna göndərmək hüququ yox idi, lakin gələnləri öz qonağı hesab edir.

O vaxt ingilis general-qubernatoru Cəfərqulu xana təklif etmişdi ki, məsələni həll etsin: birincisi, Osmanlı imperiyası ərazisindən köçürülmüş ermənilərin yenidən Naxçıvana və kəndlərinə qayıtmasına icazə verilsin. Daşnak Ermənistanı üçün Şərurdan min ton buğda buraxılsın.

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 2, iş 81, v. 8.
[2] Yenə orada, siy. 10, iş 178, v. 2.



ADR elçiləri ilə məsləhətləşdikdən sonra Cəfərqulu xan cavab verdi ki, birinci məsələ mühacirət məsələsi kimi Paris Sülh konfransında həll olunana qədər təxirə salınmalıdır; «buğdanı isə yerli əhalinin ehtiyacı olduğu şəkər və neftə dəyişmək olar»[1].

1919-cu ilin fevralın 23-də Azərbaycan nümayəndəsi və zabitləri Araz-Türk Respublikası hökumət üzvlərinin iştirakı ilə məsciddə keçirilən iclasda oldular. İclas keçirilən yerə çoxlu adam toplanmışdı və onlar ADR nümayəndələrini gur alqışlarla qarşılayıb yekdilliklə Azərbaycanın tərkibində olmaq arzularını bildirdilər. Yenidən Bakıdan Naxçıvana məmurlar göndərilməsi barədə xahiş edildi.

O gün Naxçıvanda daha bir əlamətdar hadisə baş verdi. Cəfərqulu xanın hökuməti istefa verdi. Görünür ki, bu hökumət Azərbaycana birləşməyin əleyhinə çıxış edirdi. Bağırov öz məlumatlarında dəfələrlə köhnə hökuməti – «diktatura hökuməti», onun tərəfdarlarını isə – «diktatura tərəfdarları» adlandırmışdı[2]. Onun dediyinə görə Naxçıvan əsgərlərinin ADR-ə xüsusi rəğbəti var idi. «Hansısa gizli təşkilat tərəfindən küçələrdə Azərbaycana birləşməyə çağıran bəyannamələr yapışdırılmışdı və diktatura tərəfdarlarından kimsə bunları qoparmaq istədikdə, əsgərlər mane olurlar»[3]. Müsavat partiyasının naxçıvanlı üzvləri də Azərbaycanın ağuşuna qayıtmağın ardıcıl tərəfdarları kimi çıxış edirdilər.

1919-cu ilin fevralın 25-də Naxçıvan məscidindəki iclas davam edirdi. Əmir bəy Cəfərqulu xan hökuməti əleyhinə çıxış etmək arzusunda olan nüfuzlu tərəfdarlarını ətrafına yığmağa nail olmuşdu.

Naxçıvanda hakimiyyətin sonrakı taleyi Cəfərqulu xanın iqamətgahında da həll olunurdu. İngilis general-qubernatoru öz müşayiətçiləri ilə və ADR-in nümayəndə heyəti buraya toplaşmışdı. Böyük Britaniyanın Qafqaz xalqlarının öz müqəddaratını təyin etməsinə münasibəti ilə, ingilis hökumətinin Azərbaycan hökumətini tanıması ilə bağlı məsələlərin müzakirəsi zamanı ingilis general-qubernatoru əmin edirdi ki, o buraya daxili işlərə qarışmaq üçün deyil, sakitliyi bərpa etmək və qorumaq üçün gəlmişdir. Görüşün sonunda M.Bağırov Kəlbalı xanın əlindən tutaraq dedi: «Öz qeyrət və düzlüyünə görə Kəlbalı xan xalqın sevimlisidir. Bizim səmimi və sevimli yoldaşımızdır. O bizimlə işləyəcəkdir və onu heç kim işdən uzaqlaşdıra bilməz»[4].

ADR nümayəndələri Cəfərqulu xanın tərəfdarları və əlehdarları arasında qızışan ehtirasları söndürməyə nail oldular. Onlar məclisi sakitləşdirərək elan etdilər ki, ADR nümayəndələri kimi mövcud hökumə-

[1] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 2, iş 81, v. 9.
[2] Yenə orada.
[3] Yenə orada, siy. 10, iş 178, v. 8-9.
[4] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 10, iş 178, v. 8-9.

ti tanıyırlar və onunla əlaqədə işləyəcəklər. Bəyanat sürəkli alqışlarla qarşılandı, sonra isə buradakılar ADR hökumətindən yenidən xahiş etdilər ki, öz məmurlarını göndərsin. İştirakçılardan birinin təklifi ilə rəsmi akt tərtib edildi, bu akt Naxçıvanın könüllü surətdə ADR-ə birləşməsi haqqında idi. Mətnin tam hazırlanması üçün komissiya seçildi. M.Bağırov və polkovnik Kuquşov da bu komissiyaya daxil oldular. Akt siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələlərə aid bəndlərdən ibarət idi. Akt hökumət üzvləri, Milli Şura üzvləri və əhalinin nümayəndələri tərəfindən imzalanmış, hökumət möhürü ilə təsdiq edilmişdi. Naxçıvandan iki nəfər və Şərur, Zəngibasar, Vedibasarın hər birindən bir nəfərdən ibarət nümayəndə heyətinə təqdim olunmuşdu ki, onlar bu aktı Bakıya çatdırıb F.X.Xoyskiyə və H.Ağayevə verməli idilər.

Azərbaycan ordusunun Naxçıvanda qalan zabitləri Böyük Vedidə, Şərur, Naxçıvan və Ordubadda 30 piyada rotasının, bir batareya üçün komandanın, 400 nəfərə qədər süvari dəstəsinin, pulemyotçu dəstəsinin və Naxçıvanda tədris komandasının yaranmasında iştirak etdilər. Azərbaycan nümayəndə heyətinin tərkibində gələn polkovnik respublikanın hərbi ehtiyacları haqqında ADR hərbi nazirliyinə ətraflı məruzə yazmışdır ki, bu məruzə də M.Bağırov vasitəsilə göndərilmişdi.

Araz-Türk Respublikasına səyahətdən M.Bağırov maraqlı nəticələr əldə etmiş və bu nəticələri əvvəlcə yerlilər cəmiyyətinin diqqətinə çatdırmış, sonra isə Azərbaycan Nazirlər Şurasında baxılması üçün təqdim etmişdi:

1. Bu diyarı idarə etmək üçün müttəfiqlərin, İranın, Ermənistanın təsiri ilə mübarizə aparmaq qabiliyyətinə malik və xanlara, sahibkarlara rəğbəti olmayan, başqalarının təsiri altına düşməyən, müəyyən bir siyasəti inadla yerinə yetirə bilən, mərd, qətiyyətli adam olan və rüşvətə meyl etməyən azərbaycanlı general-qubernatorun təyin olunması zəruridir.

2. Yuxarıda göstərilən keyfiyyətlərə malik bir adamı hərbi nazirin nümayəndəsi təyin etmək zəruridir.

3. Mülki və məhkəmə idarələrini idarə etmək üçün baş məmurlar mütləq azərbaycanlılar təyin olunmalıdırlar.

4. Yerli hərbi işin təşkili üçün əvvəl göndərilənlərin az olduğunu nəzərə alaraq, başçıları istedadlı polkovnik olmaqla daha bir dəstə zabit göndərmək lazımdır.

Naxçıvan və Şərur Azərbaycanın ucqarlarını təşkil edir və məhsuldar torpağa, bol məhsul, duza və digər faydalı maddələrə malik bərəkətli diyardır və daim müttəfiqlərin (Antanta ölkələri nəzərdə tutulur – A.H.), fars və erməni diplomatiyasının mahir siyasətinə məruz qalaraq Azərbaycan Respublikası tərəfindən təminata ehtiyac duyur, yarım milyondan çox adam bunu arzulayır...»[1].



Azərbaycan hökuməti və hərbi idarə M.Bağırovun gətirdiyi materialları diqqətlə öyrəndilər və onun nəticələrini nəzərə aldılar. Beləliklə, Mir Abbas Bağırovun Araz-Türk Respublikasındakı missiyası müvəffəqiyyətlə başa çatdı. ADR-in nümayəndəsi kimi o, demokratik Azərbaycanın tərkibində olmaq arzusunu səmimiliklə ifadə edən əhali tərəfindən şadlıqla qarşılandı. Bizə görə, bu missiya Araz-Türk Respublikası və ADR arasında yeni mərhələnin başlanmasını göstərirdi. Bu mərhəlinin mahiyyəti ondan ibarət idi ki, Azərbaycan hökuməti Naxçıvanın problemləri ilə sistematik məşğul olmağa başladı.

ADR-in yardımına arxalanan Naxçıvan hökuməti həm öz əhalisinin, həm də keçmiş İrəvan quberniyasında yaşayan azərbaycanlıların hüququnu fəal müdafiəyə başladı.

1919-cu ilin fevralın 26-da Naxçıvan mütəsərrafı Cəfərqulu xan və Naxçıvan Müsəlman Milli Şurasının digər üzvləri Naxçıvan-Şərur diyarının ingilis general-qubernatoruna məktub göndərdilər. Məktubda İrəvan quberniyasının, o cümlədən «yaşadığımız torpaqların», müsəlmanların razılıq və arzusunun əksinə olaraq Ararat Respublikasına verilməsinə etiraz edirdilər. Maraqlıdır ki, sənəddə Araz-Türk Respublikası əhalisinin «bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər» fikrinə gəlməsi faktı və səbəbləri öz əksini tapmışdır[2].

Belə fakt və səbəblərdən bunlar göstərilmişdi: 1. «Hazırda özünün ən yüksək zirvəsinə çatan erməni-müsəlman qan düşmənçiliyi; 2). a) ermənilərin bir millət kimi keçmiş ilə tanınması; b) bu müharibə üçün özünü öz şovinizmi və milli xüsusiyyətlərilə cəzalandırması; v) mədəni cəhətdən o qədər də inkişaf etməyən, ədalət və bərabərliyin əsas prinsipləri ilə öz millətini və digər milləti idarə etməyi bacarmayan bir element olduğunu dərk etməsi; 3) Türklər getdikdən sonra Ermənistan Respublikasının ərazisində qalan müsəlmanlara qarşı onların (ermənilərin) hərəkətləri və sübuta yetirilmiş qəddar münasibətləri; 4) məhz indiki, bütün dünyanın silahı yerə qoyduğu bir vaxtda ancaq müsəlmanlar yaşayan torpaqların onlar tərəfindən tutulması»[3].

Diyarın, demək olar ki, bütün dünyadan təcrid edilən, üç tərəfdən də ermənilərlə mühasirəyə alınan, Azərbaycan Respublikasının yar-

[1] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 2, iş 81, v. 11-12. Mütəsərraf – inzibati-ərazi vahidinin adətən sancağın hakimi (türk.).
[2] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 2.
[3] Yenə orada.

dımına ümidini itirmiş müsəlmanlar xarici aləmlə əlaqəni ancaq İran vasitəsilə saxlaya bilərdilər. Təbiidir ki, bu şəraitdə İrana birləşmək az ziyanlı iş hesab edilirdi və bu meyl getdikcə artırdı. «Hazırda erməni zorakılığına və ümumiyyətlə, qarışıqlığa son qoymuş ingilis qüvvələrinin gəlməsi ilə əlaqədar biz Azərbaycan Respublikası hökuməti ilə əlaqə saxlaya bilmişik. Bu hökumət bizi və bizim diyarı öz respublikasının ayrılmaz hissəsi hesab edir. Və biz mənəvi cəhətdən birinci qərarımızı dəyişməyə borcluyuq, çünki Zaqafqaziyanın digər quberniyaları kimi İrəvan quberniyasının da müsəlmanlarını Azərbaycan Respublikası ilə təbiət və həyat özü birləşdirir: həyat tərzi, ədəbiyyat, dil, el adətləri, mədəniyyət... bütün bunlar burada da, orada da eynidir. Hələ müharibəyə qədər də Bakı və Yelizavetpol bizim mədəniyyətimizin, təfəkkürümüzün mərkəzi hesab olunurdu və demək olar ki, Zaqafqaziyadakı müsəlman kütlələrinin başında dururdular».

Yuxarıda deyilənləri, həmçinin üstündən sükutla keçməli olduğumuz bir çox mətləbləri nəzərə alaraq Sizin general-qubernatorluğun ərizəsini idarə heyəti Sürməli və İrəvan, Eçmiədzin qəzalarının müsəlman hissələrinin nümayəndələri ilə birlikdə bu il fevralın 25-də qərara aldılar: «İndi yaşayan və gələcəkdə yaşayacaq nəsillərimizin səadəti naminə Azərbaycan Respublikasına birləşmək»[1].

Erməni nizami qoşununun hücumu ilə əlaqədar Naxçıvan, Şərur və Ordubadın əhalisinin xeyli hissəsi Tiflisdə çıxılmaz vəziyyətə düşdülər. Bunların əsas hissəsini Türkiyə ilə olan razılığa əsasən təhsil almaq üçün, o cümlədən hərbi zabit məktəblərində oxumaq üçün İstambula göndərilmiş tələbə və şagirdlər təşkil edirdi. Onlar hamısı Tiflisdə vəsaitsiz qalmışdılar, doğma yerlərə də qayıtmağa qorxurdular.

Cəfərqulu xan 1919-cu il martın 14-də Gürcüstan hökuməti yanında Azərbaycan Respublikasının nümayəndəsi Məmməd Yusif Cəfərova yazırdı: «Bizim diyarın rəsmi olaraq Azərbaycan Respublikasına birləşməsi mənə haqq verir ki, respublikamızın nümayəndəsi kimi Sizdən xahiş edim yuxarıda adları çəkilən şəxslərin vəziyyətini başa düşərək, əlbəttə, ingilislərin arasından keçən yolu təhlükəsizləşdirdikdən sonra vətənə göndərəsiniz; Sizin vəsadətinizlə ingilislər onları elə öz əsgərləri tərəfindən qorunan qatarla buraya gətirə bilərlər. İngilis zabitləri vasitəsilə mən Sizə naxçıvanlıların adına yazılmış məktublar olan zərf göndərir və xahiş edirəm ki, bu məktubların lazımi adamlara çatdırılması üçün göstəriş verəsiniz; icazə verin narahat etdiyim üçün Sizə ürəkdən

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v.3.



minnətdarlıq edim»[1].

Cəfərqulu xan M.Y.Cəfərova şikayət edirdi ki, hazırda Naxçıvan və Şərur qəzalarında toplanan İrəvan quberniya müsəlmanlarını Allah da, daha yaxşı şəraitdə yaşayan və görünür ki, bizdə burada soyuqdan, aclıqdan qorunmaq üçün heç bir köməyi olmadığından həlak olan minlərlə adamların ölümündən narahatlıq keçirməyən qardaşlar - müsəlmanlar da unutmuşlar. Sayı artıq 100 minə çatan bədbəxt qaçqınların vəziyyətinin insanı sarsıdan və ürək parçalayan səhnəsi və şəkli heç bir təsvirə gəlmir. Əgər Azərbaycan hökumətinə də olmasa, biz kimə müraciət etməliyik... Çox hörmətli Məmməd Yusif, Sizi əmin edirəm ki, əgər yaxın vaxtlarda sizin köməyiniz gəlməsə və Azərbaycan hökuməti bizim diyara xüsusi diqqət yetirməsə yaxın gələcəkdə burada bir müsəlman belə qalmayacaqdır. Bizim vəziyyətimizi başa düşməkdən imtina etməyəcəyinizi bilirəm və xahiş etməyi özümün birinci dərəcəli vəzifəsi hesab edirəm. Hökumətimizə xəbər verin ki, diyarımız üçün mənəvi və maddi yardım göstərmək zəruridir. Ehtiyaclarımız haqqında ətraflı məlumat nümayəndələr vasitəsilə hökumətə çatdırılmışdır[2].

Əlbəttə, Naxçıvan mütəsərrafının gileyləri başa düşülürdü, bu gileylər sona qədər əsaslı deyildi. Azərbaycan hökuməti xalqının ermənilərin sakitləşmək bilməyən ekspansiya və şovinizminin qurbanı olmuş hissəsinə yardım göstərmək üçün mümkün olanı edirdi. Lakin Azərbaycanın bütün cəhdləri ermənilərin və bir sıra qərb ölkələrinin simasında onların tərəfdarlarının müqavimətinə rast gəlirdi.

1919-cu ilin fevralında Naxçıvana kapitan Lautonun missiyası gəldi, bunun əsas məqsədi Araz-Türk Respublikasının ermənilərlə apardığı sülh danışıqlarına mane olmaq idi. Lauton respublika əhalisinə müraciət edərək bildirdi ki, İrəvan qəzasının cənub sərhədlərindən Culfayadək olan ərazidə Azərbaycan inzibati idarələri təşkil ediləcəkdir. Lakin artıq martın əvvəlində Lauton Cəfərqulu xana məlumat verirdi ki, «Araz vadiləri qanunçuluğu və nizam-intizamı bərqərar etmək üçün müvəqqəti olaraq Britaniya hökumətinin idarəsi altına götürülür. Britaniya qoşun dəstələri Dəvəli, Naxçıvan, Culfa və Şahtaxtıda duracaqlar. Göstərilən ərazi ilə bağlı bütün məsələlər Britaniya hökuməti tərəfindən həll ediləcəkdir və hamı sözsüz olaraq onun qərarlarına tabe olmalıdır»[3]. Belə qərarlar Britaniya işğal idarələrinin ərazinin Ermənistana verilməsinə hazırlıq görmək arzusundan irəli gəlirdi.

İngilislər dəmiryolu, telefon-teleqraf xətləri üzərinə nəzarət edir-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 2 arx.
[2] Yenə orada, v. 4.
[3] Q. Mədətov. Göstərilən əsəri, s. 57.

dilər və Araz-Türk Respublikası əhalisindən vergi toplanması hüququnu öz əllərinə keçirmişdilər. Respublika sakinləri daşnak hökumətinə buğda və digər ərzaqları satmalı idilər. Diqqəti cəlb edən faktdır ki, Mir Abbas Bağırovla söhbət zamanı Naxçıvan general-qubernatoru Şərurdan Ermənistana min pud taxıl buraxılması haqqında məsələyə iki dəfə toxunmuşdu[1].

Naxçıvandakı Amerika nümayəndələri isə bu dövrdə ancaq xeyriyyə fəaliyyəti ilə məşğul idilər. Amerika missiyası Naxçıvanda 200 uşaq üçün nəzərdə tutulan yetimlər evi, 50 yerlik xəstəxana açmışdı və «gələcəkdə Naxçıvanda zavod və fabriklər açmağa»[2] səy göstərəcəyini elan edirdi.

1919-cu ilin mart-aprelində ADR hökuməti Araz-Türk Respublikasına kömək göstərilməsində bir sıra addımlar atdı. Regional əlaqəni yaxşılaşdırmaq üçün Ağdam-Karyagin (Füzüli) – Naxçıvan poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizə edilməsinə diqqət artırıldı. Bu haqda Azərbaycan poçt-teleqraf dairəsinin müdiri Sirotkinin Gəncə general-qubernatoru İ.Vəkilova göndərdiyi məktub xəbər verir. O, məktubda xahiş edirdi ki, əlaqənin bu hissəsindəki poçt-teleqraf idarələrinə silahlı mühafizə dəstələri verilsin[3].

1919-cu il martın 3-də Azərbaycan Respublikasının ticarət və sənaye naziri M.Əsədullayev ADR nazirlər şurasına məktubla müraciət edərək Naxçıvan bölgəsinin neft məhsulları ilə təmin edilməsini əsaslandırdı. O, İrəvan quberniyasının bir hissəsinin və Naxçıvanın ADR ərazisi kimi tanınması ilə əlaqədar bunu dövlət zərurəti hesab edirdi. «Bununla bərabər nazirlik belə bir vəziyyətlə hesablaşmaya bilməz ki, Cənub-Şərqi Azərbaycana dəmiryolu Ermənistan Respublikası ərazisindən keçir. Bu respublika ilə Azərbaycan Respublikasının ticarət müqaviləsi yoxdur, buna görə də göstərilən neft məhsullarının yad ərazidə müsadirəsinə yol verməmək üçün Ticarət və Sənaye Nazirliyi öz ərazisinə, yəni Naxçıvana yük göndərməkdə çətinlik çəkir. Bununla da Cənub-Şərqi Azərbaycanın, həmçinin Azərbaycan Respublikasının dostu Qars vilayətinin əhalisi neft aclığı çəkir»[4].

M.Əsədullayev vəsadət qaldırdı ki, Azərbaycan hökuməti Naxçıvan və Ermənistan hüdudlarında azərbaycanlılar yaşayan yerlərlə mal mübadiləsi prinsipindən imtina etsin, çünki bu mal mübadiləsi respublikaya xüsusi mənfəət gətirmir, lakin həmvətənlərin mənafeyinə toxunur.

1918-ci ilin martında «Araz respublikaları» dəstələrinin rəisi Bəhram xan Naxçıvanskinin başçılığı ilə Araz-Türk Respublikasının nümayəndə heyəti Bakıya göndərilmişdi. Görkəmli Azərbaycan dramaturqu Hüseyn Cavid də nümayəndə heyətinin tərkibində idi. Araz-Türk Respublikasının nümayəndə heyəti F.X.Xoyski və Tomsonla, o cümlədən Naxçıvan məsələsinin Paris Sülh konfransında müzakirəsinin mümkünlüyü haqqında danışıqlarda iştirak etdi. Danışıqlardan sonra Azərbaycan hökuməti Araz-Türk Respublikasına polkovnik Kuquşevin başçılığı ilə daha 10 zabit göndərdi. Buraya gələn həmin zabitlər hərbi hissələrdə əsgərləri öyrədir, kəşfiyyat işində, sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak edir, kəndlərə gedərək Naxçıvanın demokratik Azərbaycan hökumətinin hakimiyyətinə verilməsi üçün təbliğat aparırdılar[1].

Bəhram xandan Araz-Türk Respublikasındakı vəziyyət haqqında qiymətli məlumatlar alan Azərbaycan hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrində Teymur bəy Makinski, R.İsmayılov və doktor Qənizadədən ibarət nümayəndə heyəti göndərmək qərarına gəldi. Hökumət nümayəndə heyəti ilə birgə bu bölgələrin müsəlman əhalisinin nümayəndələri də (Bağır Rzayev, Məhərrəm Əliyev, Əliəşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhram xan və Əziz xan Naxçıvanskilər) qayıtdılar.

Nümayəndə heyətinin məqsədi İrəvan quberniyasının erməni qoşunlarının təcavüzündən ziyan səkmiş qaçqınlar və şəxslərin ehtiyacı üçün hökumət tərəfindən ayrılmış bir milyon manat pulu oraya çatdırmaq, qaçqınların vəziyyətini ətraflı öyrənmək, «onlara yardım etmək üçün görüləcək tədbirlərin» xarakterini müəyyən etmək idi.

Erməni quldur dəstələrinin silahlı hücumlarının arası kəsilmədiyi bir vaxtda nümayəndə heyətinin səfəri təhlükəli tədbir idi. Buna görə də Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəli xan Xoyski müttəfiq qoşunlarının Tiflisdəki komandanı general Tomsona (3 aprel 1919-cu il) yardım üçün müraciət etməli oldu. Xoyski generallardan xahiş edirdi ki, nümayəndə heyəti ingilis əsgərlərindən ibarət mühafizə və yerlərdə kömək göstərilməsi üçün məktubla təmin olunsun[2].

ADR sədr-nazirinin bu və ya digər müraciətlərinə Tomson cavab verirdi: «Göstərilən rayonlar Britaniya qubernatorunun idarəsi altındadır, həm də bu nümayəndə heyətinin hər hansı xeyir gətirəcəyi gözlənilmir»[3]. Tomson məlumat verirdi ki, ADR nümayəndə heyətinə kömək göstərmək mümkün deyildir. Eyni zamanda ingilislər Araz-Türk Respublikasına münasibətdə öz niyyətləri haqqında da informasiya verirdi-

[1] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 10, iş 178, v. 1-10.
[2] Yenə orada, siy. 2, iş 81, v. 11.
[3] Yenə orada, siy. 4, iş 65, v. 6.
[4] Azərbaycan Respublikası MDƏYTA, f.894, siy. 1, iş 175, v. 2.

[1] Q. Mədətov. Göstərilən əsəri, s. 59.
[2] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 5.
[3] Yenə orada, iş 18, v. 8.

lər. İlk növbədə onlar «erməni qaçqınlarını» Naxçıvan, İrəvan, Kağızman, Olt və digər bölgələrə qaytarmaq istəyirdilər. Bundan sonra ingilislər Naxçıvan və Kağızman rayonlarının inzibati idarəsini «doktor Sultanovun Qarabağ general-qubernatoru vəzifəsini yerinə yetirdiyi şərtlərin tam eyni olan şərtlərlə» Ermənistan Respublikasına verməyi nəzərdə tuturdular. Bu əməliyyatın yerinə yetirilməsi Culfadan Olta qədər cənub sərhədinin komandanı olan briqada generalı Deviyə həvalə edilmişdi.

Lakin deyilənlərin sadəcə niyyət olaraq qaldığını yox, həyata keçirildiyini göstərən tarixi sənədlər vardır. Belə ki, Araz-Türk Respublikasının sərhədində duran daşnak quldur dəstəsinin rəisinin Ermənistan Respublikası daxili işlər nazirinə yazdığı 1919-cu il 10 mart tarixli raportunda deyilirdi: «...Aralıq və Şərur qəzasının digər kəndlərinin tutulmasına qarşı Britaniya komandanlığı etiraz etmir. Həm də bizim dəstələrə ingilis zabiti komandanlıq edəcəkdir»[1].

Araz-Türk Respublikasındakı ingilis missiyası ermənilərin respublika hüdudlarına hücum planına mane olmaq üçün heç bir addım atmırdı. Eyni zamanda ingilislər «hökm et və parçala» siyasətini yeridərək erməniləri sürətlə silahlandırırdılar. Buna görə də vaxtilə Q.Mədətovun gəldiyi nəticədə dərin bir həqiqət vardır. O yazırdı ki, ingilislər bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifini irəli sürürdülər[2].

Şərur hərbi dəstəsinin komandiri Kəlbəli xana yazdığı raportunda məlumat verirdi ki, Xanlıqların sakinlərinin öldürülməsi və Baş Noraşen kəndində yanğınlar ingilislər tərəfindən törədilmişdir. Həmin kəndlərin sakinləri də bunu təsdiq edirdilər. Buna görə də ingilislər yazırdılar: «...Naxçıvan kəndlərinin sakinləri ingilislərə inanmır və hətta kobud və sərt münasibət göstərirdilər». Azərbaycanlılar və ermənilər arasındakı münasibətin pisləşməsində Ermənistandakı ingilis komandanlığının nümayəndəsi general Asser tərəfindən yaradılmış komissiya da az rol oynamamışdı.

1919-cu ilin mayında Araz-Türk Respublikasının vəziyyəti faciəli idi. Britaniya komandanlığının yaxşı münasibəti və rəğbətindən istifadə edən daşnaklar Naxçıvanın «böyük Ermənistana» birləşdirmək planını həyata keçirməyə başladılar. Q.Xatisov Araz-Türk Respublikası hökumətinə teleqram göndərərək xəbər verirdi ki, ingilis komandanlığının razılığı ilə Ordubad və Naxçıvan Ermənistanın tərkibinə daxil edilir. Bu dövrdə ingilislər açıq-açığına daşnakları müdafiə edirdilər və Britaniya

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 18, v. 8.
[2] Q. Mədətov. Göstərilən əsəri, s. 59.



komandanlığının nümayəndələri faktiki olaraq həmişə erməni hökuməti ilə məsləhətləşirdilər, erməni nümayəndəliklərinin tərkibinə daxil olur, bu nümayəndəliklərin Araz-Türk Respublikasına səfərlərində onları müşayiət edirdilər.

1919-cu il mayın 1-də Naxçıvan Müsəlman Milli Şurası Şərur-Vedibasar və Ordubad rayonlarının Ermənistan Respublikasının «inzibati idarəsinə» verilməsi haqqında daha bir rəsmi məlumat aldı. Bu məlumatları artıq mayın 2-də Naxçıvana gələn Britaniya nümayəndələri göndərirdlər. Elə həmin gün general Devi ilə əhalinin nümayəndələri arasında danışıqlar başlandı. Danışıqlar ağır keçirdi. Naxçıvan müsəlmanları Ermənistana birləşməkdən qəti imtina etdilər, bunu açıq zorakılıq kimi səciyyələndirərək bu məsələnin həllini heç olmasa Paris Sülh konfransı qurtarana qədər təxirə salmağı xahiş edirdilər[1].

Britaniyalıların bu rayonları ermənilərə vermək fikrindən dönmədiklərini görən naxçıvanlılar bir sıra şərtlər qoydular, bu şərtlərin yerinə yetirilməsi zorla ayrılmış vilayətlərin vəziyyətini qismən yüngülləşdirdi. Həmin şərtlər bunlardır:

«1. General Devi bizə rəsmi kağız versin ki, bizim rayon yalnız müvəqqəti olaraq ermənilərə verilmişdir və bu, Sülh konfransının qərarı deyildir.

2. İnzibati idarələr üzərində güclü və ədalətli nəzarətçi işləyən ingilis komissiyasına müsəlmanların da daxil olmasına yol verilsin, bu missiyaya Milli Şura tərəfindən seçilmiş müsəlman və onun iki köməkçisi daxil edilsin.

3. Erməni general-qubernatorunun köməkçisi Müsəlman Milli Şurası tərəfindən seçilən müsəlman olmalıdır.

4. Erməni hökuməti əhalini tərk-silah etməməlidir.

5. Heç bir müsadirə keçirilməməli, alınmalı hər şey könüllü razılıqla alınmalıdır.

6. Erməni inzibati hakimiyyəti əhali ilə ədəblə rəftar etməli və keçmiş ittifaqlar zəminində hər hansı intiqamın alınmasına yol verməməlidir»[2].

Bizə elə gəlir ki, axırıncı şərt daha əlamətdardır, çünki daşnak başkəsənlərinin vəhşilikləri güya ermənilərin tarixi əzabları və verdikləri qurbanlar üçün intiqam xarakteri daşıyırdı. Dəhşətlisi o idi ki, daşnak gənclərdə digər xalqlara qarşı heyvani nifrəti tərbiyə edən – güya türklərin ermənilərə zorakılıq göstərilməsinin təsdiqi – yalan, cinayətkar təxribatdır. Yəqin ki, buna əsaslanan general Devi açıq-açığına erməniləri

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 15.
[2] Yenə orada, v.15-15 arx.

müdafiə edə bilmir və siyasi hiyləyə əl atır: o, naxçıvanlıların bütün şərtlərini qəbul edir və hətta onlara bu rayonların Ermənistan Respublikasına müvəqqəti olaraq verilməsini təsdiq edən rəsmi sənəd verir.

1919-cu il mayın 3-də ermənilər artıq Naxçıvanda olmalı idilər. Lakin onlar mayın 14-dək gecikdilər. Naxçıvan müsəlman Milli Şurası bu ləngimənin səbəblərini başa düşmürdü. Bizə elə gəlir ki, yuxarıda göstərilən şərtlərin qəbul edilib-edilməməsi haqqında İrəvanda ciddi mübahisələr gedirdi.

1919-cu il mayın 14-də səhər general Devi və Ermənistanın baş naziri Q.Xatisov Naxçıvana gəldilər. Səhəri gün Müsəlman Milli Şurasının üzvləri və əhalinin digər nümayəndələri birgə iclas çağırdılar.

İclas keçən salonda general Devini və Xatisovu Naxçıvanın Ermənistana verilməsinə qarşı etirazla qarşıladılar. İlk çıxışlardan sonra Xatisov küçəyə çıxdı, burada erməni hakimiyyətinə tabe olmaq istəmədiyini və etirazını bildirmək üçün dörd mindən çox adam toplanmışdı. Daşnakların başçısı Naxçıvanın müttəfiq dövlətlər tərəfindən verildiyinə istinad etmək istərkən birinci sıralarda duran əsgərlər dedilər: «Buradakı müsəlmanlara münasibətdə yol verilən zorakılıq haqqında bütün dünyaya çığıracaq, mətbuatda çıxış edəcəklər, dünyanın bütün müsəlmanlarına çatdıracaqlar ki, onların qardaşlarının arzu və cəhdləri, ümid və məqsədləri ilə hesablaşmadan zorakılıq edirlər. Uşaqlarına vəsiyyət edəcəklər ki, insanlıq yaşadıqca hər zaman hər yerdə onların babalarına qarşı edilən bu zorakılıq barədə danışsınlar və özünü respublika hökumətinin nümayəndəsi hesab edən Xatisov bu zorakılıqla razılaşmamalı və bizim əraziyə daxil olmamalı idi»[1]. Bu bəyanatlardan sonra binanın qarşısına yığılanlar Xatisovun sözlərini sonadək dinləmədən nümayişkaranə çıxıb getdilər.

Elə həmin gün Xatisov geriyə, İrəvana qayıtdı, Naxçıvanda isə general-qubernator kimi qatı daşnak Varşamyan qaldı.

Polkovnik Kuquşevə və digər könüllü zabitlərə bir həftə ərzində Naxçıvanı tərk etmək əmri verilmişdi. Bu barədə 1919-cu ilin mayın 16-da Azərbaycanın İrəvandakı nümayəndəsi Təkinski Azərbaycan hökumətinə xəbər verirdi: «İngilislərin əmri ilə bizim zabitlər Naxçıvanı tərk etdilər»[2].

Bununla yanaşı daşnaklar hiyləgər siyasət yeridərək azərbaycanlı və kürd qarşıdurması yaratmağa çalışırdılar, kürdlərin bir hissəsi ermənilərə bunda kömək edirdi. Məsələn, İrəvan quberniyası və Qars vilayəti kürdlərinə başçılıq edən nəslə mənsub Həsən bəy Şəmsəddini ermənilər

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 16, arx. 16.
[2] Yenə orada, v. 18.



Kağızman qəzasına rəis təyin etmişdilər.

Bununla əlaqədar Milli Şuranın sədri Azərbaycan Respublikası xarici işlər naziri M.Y.Cəfərov məlumat verirdi: «Baxmayaraq ki, hazırda Naxçıvanda erməni mülki qubernatoru və general-qubernatoru vardır, biz hamımız, Naxçıvan rayonunun sakinləri öz təşkilatlarımızı dağıtmamışıq və ingilislərin buradan getməsini və Zəngəzur qəzasının Azərbaycan qoşunları tərəfindən tutulmasını gözləyirik. Azərbaycan bu qəzanı ələ keçirən kimi biz onlarla birləşib elə həmin gün ermənilərə təklif edəcəyik ki, öz avadanlıqlarını bizim (...) yığışdırsınlar, əgər biz buna sülh ilə nail olmasaq, silaha əl atacağıq, çünki biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan da keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik»[1].

Bununla eyni vaxtda Naxçıvan şəhərinin və ona yaxın rayonların sakinləri ingilis general-qubernatoru və erməni hökumətinə etiraz göndərdilər. Bu barədə M.Y.Cəfərova məlumat verilmişdir: «Bizim ümidimiz Sizədir, acizanə xahiş edirik, bizim etirazlarımızın surətini alan kimi hər yerdə və bütün qəzetlərdə yazasınız və dünyanın bütün hökumətlərinə çatdırasınız. Siz elə fikirləşməyin ki, biz erməni hökumətinə tabe olacağıq. Biz, müsəlmanlar indiyə qədər Bakı, Tiflis,
Azərbaycana dörd nümayəndə göndərmişik. Bu etirazm surətini
bir neçə gün əvvəl İrəvandakı Azərbaycan konsuluna göndərmişik ki, Sizə çatdırsın»[2].

Etirazda deyilirdi: «Bizə qarşı anadangəlmə nifrəti və şovinizmi ucbatından son iki ildə gözlərimiz qarşısında sistematik surətdə və insafsızcasına qardaşlarımız, qadın və uşaqlarımızı döyməklə, yüzlərlə kəndi yandırmaq, atəşə tutmaqla və əmlakmı talan etməklə məşğul olan xalq bizi özünə yaxınlaşdırmağa və ədalətli hakim hüququ ilə idarə etməyə qadir deyildi.

Mədəni cəhətdən ermənilər Sizin hökumət səviyyəsindəki mədəniyyətədək inkişaf etməmişlər ki, ədalət və bərabərlik prinsipləri əsasında maneəsiz bizi idarə etsinlər və burada bizim mənafeyimiz təxminən onlarınkı ilə eyni olsun.

Öz müstəqilliklərini elan etdikləri gündən indiyədək ancaq erməni əhalisinin yaşadığı ərazilərində möhkəm və sarsılmaz hakimiyyət qura bilməmiş, Ermənistan Respublikasını bürümüş anarxiyanı dəf etməyi

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 16.
[2] Yenə orada, v. 13.

bacarmamışlar. Bəs onlar müxtəlif, amma psixoloji cəhətdən bərabər millətləri necə idarə edə bilərlər?

Razılaşın ki, məlum ermənilərə tabe olmaqla biz həm özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaldılmağa və təhqirə məruz qoyuruq və buna görə də əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızın müvəqqəti də olsa erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyllər üzərində zorakılıq faktı kimi baxırıq.

Bu barədə bəyanat verərək əlavə edirik ki, ingilis hakimiyyətinə qarşı çıxmaq fikrimiz yoxdur, çıxmayacağıq və çıxa da bilmərik, lakin bütün varlığımızla, son nəfərədək hamımız bu cür zorakılığa qarşı öz etirazımızı bildiririk»[1].

Naxçıvanlılar yazırdılar: «Əlahəzrət, özünüz idarə edin, bizim də, sizin də tanıdığımız, bizə nifrət edən ermənilərin əlinə verməyin, bizə qarşı anadangəlmə nifrətləri ucbatından onlar bizi intiqam almadan idarə edə bilməzlər»[2].

1919-cu il mayın 15-də Naxçıvan Müsəlman Milli Şurası etiraz məktubla birgə Ermənistan Respublikasının baş naziri Xatisova göndərdi. Məktubda deyilirdi: «Müttəfiq dövlətlərin yol verdiyi bu zorakılıqla siz gərək razılaşmayaydınız... və sülh konfransı qurtarana qədər bizim rayona daxil olmayaydınız...»[3]. Naxçıvanlılar xahiş edirdilər ki, rayonun inzibati idarəsini onlara tapşırsınlar, inandırırdılar ki, millətlərarası komitə yaradacaqlar və bu komitə birgə idarəetməni həyata keçirəcəkdir.

Naxçıvan əhalisinin Q.Xatisova başqa bir etirazında, bu etirazı imzalayanların yeddi səhifədən ibarət siyahısı da buraya əlavə edilmişdi, deyilirdi: «Biz Naxçıvan rayonunun müsəlmanları cənab ingilis generalı Devinin Naxçıvan, Şərur-Ordubad rayonlarının müvəqqəti olaraq Ermənistan Respublikasnın inzibati idarəsinə verilməsi haqqında 3 may 1919-cu il tarixli elanmı və ona əlavəni oxuduqda bu rayonların müsəlmanlarına edilən açıq zorakılıq faktını gördük və ədalətli etirazımızı c. general Tomsona bildirdik. Bu ədalətli etirazımızı Ermənistan Respublikasının nümayəndəsi kimi Sizə də bildiririk ki, müttəfiq dövlətlərin yol verdikləri, qarşısında müqavimət göstərə bilmədiyimiz bu zorakılıqla Siz razılaşmamalı, mübahisəli ərazilər haqqında məsələlərin həll ediləcəyi sülh konfarnsı qurtaranadək həmin rayonlara daxil olmamalı idiniz.

---

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 12.
[2] Görünür, etiraz ingilis general-qubernatoru Deviyə verilmişdi.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 14.



Bu haqda məlumat verərək acizanə xahiş edirik rayonumuzun inzibati idarəsini sülh konfransı qurtaranadək bizə tapşırasınız»[1].

Eyni zamanda naxçıvanlılar öz etirazlarını Azərbaycan Respublikasının hökumətinə də göndərdilər. Məlumat alanda ki, M.Y.Cəfərov bütün sənədləri almışdır, naxçıvanlılar çox sevindilər, lakin əlavə olaraq xəbər verdilər ki, ermənilər bütün qüvvələrini Naxçıvan yaxınlığında toplamışlar, onlar hər tərəfdən mühasirədədirlər və kömək gözləyirlər[2].

Araz-Türk Respublikasının zorla ləğv edilməsi cəhdi ADR-i hiddətləndirir və narahat edirdi. Artıq 1919-cu ilin maym 3-də Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi Təkinski Ermənistan Xarici İşlər Nazirinə bəyanat təqdim etdi ki, bu bəyanatda erməni qoşunlarının «Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana» göndərilməsinə qarşı etiraz ifadə edilirdi[3]. O vaxt Təkinski Bakıya belə məlumat verirdi: «Bu gün mayın 3-də №77 ilə mən Ermənistan respublikasının xarici işlər nazirinə bunu (yuxarıda göstərilən etirazı – A.H.) təqdim etdim. Ümid etmək istərdim ki, Ermənistan Respublikasının hökuməti iki qonşu dövlətin sərhəd məsələsini eyni vaxtda həm silah gücünə həm də əsas vəzifəsi bütün mübahisəli ərazilərin sülh yolu ilə həll edilməsi olan Qafqaz konfransınadakı nümayəndələri vasitəsilə həll edilməsini mümkün saymayacaqdır..., xüsusən də ona görə ki, özünün 4 aprel 1919-cu il tarixli, 1075 №-li notasında Ermənistan hökuməti demişdir: «Ərazi məsələlərinin həlli Qafqaz konfransının həll edəcəyi bütün məsələlərin ilkin şərti olmalıdır»[4].

Maym 3-də ADR XİN Tiflisdəki nümayəndəsinə teleqram göndərərək xahiş edirdi ki, onun adından etiraz təqdim etsin.

Mayın 4-də Təkinski məlumat verirdi: «Maym 7-dək ermənilər hələ sərhədi keçməmişdilər, müsəlmanlar isə Sədərək kəndi yaxınlığında Qurd dərəsini pulemyotlarla qoruyurlar»[5], daha sonra: «Mayın 8-də ermənilər hələ Qurd dərəsini keçməyiblər, burada hələ (yəqin ki) müsəlmanlar, əgər ingilislər ermənilər tərəfdə çıxış etməsələr, ermənilərə müqavimət göstərmək məqsədilə dayanmışlar. Ermənilər Naxçıvanda inzibati idarəni təyin etdilər, lakin vaxtında görülmüş tədbirlər nəticəsində onların avantürası baş tutmadı. 3 may tarixli «Kavkazskoe slovo»da Naxçıvan dairəsi üzrə əmr dərc edilmişdir: «Naxçıvandakı hərbi attaşedən heç bir məlumatım yoxdur, əlaqə kəsilib»[6].

---

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 103, v. 16.
[2] Yenə orada, v. 22-22 arx.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 19.
[4] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 56, v. 23.
[5] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş57, v. 11.
[6] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54, v. 8.

Beləliklə, ADR hökumətinə məlum idi ki, naxçıvanlılar nəinki erməni inzibati idarəsini qəbul etməmiş, həm də əldə silah erməni qoşunları ilə vuruşmağa hazırdılar. Bununla əlaqədar olaraq ADR tərəfdən kömək gözləyir və Azərbaycan hökumətinin mövqelərini aydınlaşdırmaq istəyirdilər. İrəvandan göndərilmiş şifrəli teleqramında Təkinski məlumat verirdi: «Naxçıvanlılar məndən soruşurlar: biz necə hərəkət edək, ermənilərə müqavimət göstərsək Azərbaycandan kömək gələcəkmi?»[1]. Həmin teleqram mayın 16-da Bakıda alınmışdı.

Daha sonra Təkinski yazırdı: «Naxçıvan hadisələri ilə bağlı yerli müttəfiq komandanlıq qarşısında etiraz qaldırmağı məqsədəuyğun olmayan və əhəmiyyətsiz hesab edirəm, belə ki, ali müttəfiq komandanlığın burada nümayəndəsi yoxdur, yalnız Tiflisdən gələn göstərişlərin icraçıları vardır, orada mühüm addımlar atmaq lazımdır»[2].

Mayın 26-da Təkinski ADR XİN-ə həyəcanlı xəbərlər göndərdi: «Şayiələrə görə əgər Ermənistan Qarabağı Azərbaycanın hissəsi kimi tanısa ingilislər Şərur-Naxçıvan rayonunu Ermənistana verirlər. Bu şayiəni ermənilər yayırlar; mən belə düşünürəm ki, Ermənistana təkcə Qars bəsdir və əhalisi ancaq müsəlmanlar olan Şərur-Naxçıvanı Ermənistana vermək olmaz, həmin əhali də Ermənistanın digər hissələrindəki müsəlmanlar kimi acınacaqlı vəziyyətə düşəcəkdir. Müsəlmanların dəhşətli vəziyyəti haqqında sübutlarım vardır. Bütün bunları Tiflisdəki müttəfiq komandanlığa hərtərəfli izah etmək və daima onunla əlaqədə olmaq lazımdır, yoxsa bizim diplomatiya uduzacaqdır[3].

Təkinskinin İrəvandan göndərdiyi son teleqramlardan (30 may 1919-cu il) birində deyilirdi: «...Şərur-Naxçıvan rayonu ancaq ingilislərə tabe olurdu. Kəlbəli xan Naxçıvanski Xatisovun dəvətinə «mən Ermənistanı tanımıram!» deyərək getmədi. General Devinin dəvəti ilə gələn xana general rayonun Ermənistana birləşdirildiyini elan etdi. Xan cavab verdi ki, yalnız ingilislərin tələbləri ilə hesablaşır. Müsəlmanlar erməniləri və inzibati vəzifələr tutmaq təkliflərini boykot edirlər»[4].

Britaniya işğal hakimiyyətinin və daşnak hökumətinin siyastəni təhlil edən ADR hökuməti 1919-cu ilin mayında razılıq dövlətlərinə bu addımı qəbul etmədiyini kəskin surətdə bildirməklə yanaşı qeyd edirdi: «Yarım milyondan artıq Azərbaycan türkünün yaşadığı bu rayonlar Azərbaycanın ayrılmaz hissəsini təşkil edir. Bu rayonların əhalisi öz müqəddəratını təyinetmə hüququna əsasən həmin rayonların Azərbaycandan zorla qoparılıb Ermənistana tabe edilməsinə haqlı olaraq etiraz

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54, v. 9.
[2] Yenə orada, v. 14.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 26.
[4] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 27.



edirlər»[1].

Naxçıvanın qoparılmasına qarşı ADR-də təkcə hökumət və diplomatlar deyil, geniş ictimaiyyət də etiraz edirdi. Belə ki, 1919-cu il mayın 16-da Bibiheybət rayonu mədən işçilərinin ümumi iclasında Araz-Türk Respublikasındakı vəziyyət haqqında məruzə ilə D.B.Məlikyeqanov çıxış etdi. Nəticədə fəhlələr qətnamə qəbul etdilər: «Naxçıvan qəzasının Ermənistana verilməsinə qarşı etiraz bildirmək»[2].

Publisist Firuz bəy «Azərbaycan» qəzetində (21 may 1919-cu il) «Ordubad məktubları» adlı esse dərc etmişdi: «Gəncə və İrəvan quberniyalarının köhnə sərhəd xətti ta Culfa sərhədinə qədər Ordubad rayonu təşkil edir. Zaqafqaziyanın yeni yaranmış respublikalara parçalanması ilə əlaqədar bir hissəsini Ordubad rayonu təşkil edən Naxçıvan qəzası Azərbaycan və Ermənistan arasındakı mübahisəli sərhəd zonasına düşmüşdür. Bu rayonun 40 min əhalisi, əhalinin 75 %-ni Azərbaycan türkləri təşkil edir, tamamilə təbiidir ki, Azərbaycanla birləşməyə can atırlar və bu məsələnin başqa bir həlli çox böyük ədalətsizlik aktı olardı... Azərbaycan respublikasının ucqarları necə yaşayırdılarsa, o cür də yaşayırlar, təxminən 2 ildir ki, faktiki olaraq öz-özlərini idarə edirlər və təəssüf ki, bu, az məlum olan məsələ kimi qalır[3].

Britaniya komandanlığı və Ermənistan hökumətinin qərarlarına tabe olmayan Araz-Türk Respublikasının əhalisi erməni işğalçılarma qarşı tədricən əsl müharibəyə çevrilən silahlı mübarizəyə başladı. Respublikada süvari, top və pulemyotları olan 6 min əsgərdən ibarət yarımnizami qoşun vardı. Döyüş qabiliyyətinə görə onların heç də ermənilərdən geri qalmadıqlarını ingilislər də təsdiq edirdilər. Hərbi əməliyyatlar zamanı naxçıvanlılar onların sayını təxminən on min əsgərə və silahlı könüllülərə çatdırdılar. Azərbaycan hökuməti özünün İrəvandakı nümayəndəsi Təkinski vasitəsilə bu dəstələrə gücü çatan maliyyə yardımı göstərirdi. Təkinski öz kuryerini əlaqə yaratmaq üçün Naxçıvana göndərmişdi.

1919-cu il iyunun 7-də Təkinski respublka XİN-ə teleqramla məlumat verirdi: «...könüllü ordu ilə münasibətlərimiz mürəkkəbləşərsə Ermənistan bizə qarşı düşmən mövqe tutacaqdır, buna görə də hərbi təşkilat üçün pul buraxıb Şərur-Naxçıvan rayonunda Ermənistan üçün təhlükə yaratmaq lazımdır. Gördüyüm tədbirlər nəticəsində artıq Şərur-Naxçıvan, Ordubad Milli Şuranın şəxsində birləşmişdir və daima mənimlə əlaqə saxlayır»[4].

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 20.
[2] «Azərbaycan» qəzeti, 21 may 1919-cu il.
[3] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 65, v. 41.
[4] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 29.

Azərbaycan parlamenti bu zaman İrəvan quberniyası, Araz respublikası və Qarabağda ermənilərin müsəlmanlara qarşı törətdikləri zorakılıqların təhqiqi məqsədilə müttəfiqlərin nümayəndələrini də cəlb etməklə fəvqəladə istintaq komissiyasının təsiri ilə bağlı məsələlərə baxırdı. Parlament bu məqsədlər üçün 10 milyon manat ayırmağı nəzərdə tutmuşdu.

İyunun 8-də ADR xarici işlər naziri M.Y.Cəfərov Bakıdan Təkinskiyə teleqram göndərərək onun Naxçıvanla əlaqə yaratmaq üçün gördüyü tədbirləri alqışladı, bu regionun hərbi xərcləri üçün vəsait verməyə razı olduğunu bildirdi və pulu «necə və kimə vermək lazım olduğunu bildirməyi xahiş etdi»[1].

Maraqlıdır ki, Azərbaycanın digər rayonları Naxçıvan hadisələrinə dərhal münasibətlərini bildirdilər. 1919-cu il iyunun 10-da Ağdam sakinləri ADR Nazirlər Şurasına teleqram göndərdilər. Teleqramda deyilirdi: «Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ və Naxçıvanı həmişə müdafiə etməyə hazırıq; Vətənimiz uğrunda ölümə hazırıq; Öz ermənilərini məhv edən bir ovuc intriqan daşnak Qarabağ və Naxçıvanı alacağına ümid etməsin»[2]. Teleqramı Mirzə Davud, Bədəlbəyov, Behbudov, Sadıqov, Naibov, Əhmədov, Mirbağırov imzalamışdı.

1919-cu il iyunun 11-də Təkinski xəbər verirdi ki, «Bakı və Batumu tərk etmək fikrində olmayan»[3] ingilis qoşunu İrəvandan getmişdir. Bunun ardınca ingilislər ermənilərin tam hökmranlığına imkan yaratmaq üçün Naxçıvanı da tərk etdilər. Elə Britaniya komandanlığı zamanı ziyan çəkənlərdən biri Ordubad sakinləri idi.

Erməni quldur dəstələrindən birinin başçısı Aşot Məlik Mosesyans bir neçə erməni zabiti ilə birlikdə iyunun 1-də Ordubada gəlib tələb etdi ki, müsəlmanlar danışıqlar üçün onun yanına üç nəfər nümayəndə göndərsinlər. Daşnak atamanının tələblərini yerinə yetirərək şəhərlilər öz nümayəndələrini onun yanına göndərdilər. Müsəlman nümayəndələrinə Mosesyans elan etdi ki, Vedibasar, Şərur, Naxçıvan, Ordubad və Zəngəzur qəzası ta Şuşa şəhərinə qədər Ermənistana birləşdirilmişdir və Aşot hazırda Ordubad rayonunun qəza rəisidir, buna görə də əmrlərinin sözsüz yerinə yetirilməsini tələb edir[4].

Ordubadlı müsəlmanların nümayəndələri Mosesyansdan onun sözlərini təsdiq edən mandatı göstərməyi xahiş etdilər. Daşnak cavab verdi ki, onun belə bir sənədi yoxdur və buna heç ehtiyac da yoxdur. Əgər o bunları deyirsə, sakinlər onun sözlərinə inanmalıdırlar. Müsəl-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 40, v. 28.
[2] Yenə orada, v. 29.
[3] Yenə orada, iş 57, v. 30.
[4] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 167, v. 1-3.



manların nümayəndələri isə öz növbələrində qətiyyətlə bildirdilər ki, o, Azərbaycan respublikasından və ya müttəfiqlər komandanlığından Ordubadın və rayonlarının qəza rəisi təyin olunması haqqında rəsmi sənəd gətirməsə ona qanuni rəis kimi baxa bilməyəcək və buna görə də onun heç bir əmrini yerinə yetirməyəcəklər. Müsəlmanladan belə qəti cavab alan Mosesyans onu müşaiyət edənlərlə birgə Əylis kəndinə getdi.

İyunun 2-də Ordubad və onun ətraflarında yaşayan müsəlmanlar daha bir ultimatum aldılar: «Siz sərəncamınızda olan bütün dövlət əmlakını, eyni zamanda müsəlman əhalinin əlində olan silahı və döyüş sursatını yığmalı və Ordubad kazarmasında mənim səlahiyyətli nümayəndəm Nikolay Alışevskiyə təhvil verməlisiniz».

Bu ultimatum bütün dairə müsəlmanlarına ağır təsir bağışladı, belə ki, Mosesyansın quldur dəstəsinin müsəlmanları qırmağa hazırlaşdığı barədə şayiələr gəzirdi. «Bütün bir il müsəlmanların mühafizəsi altında hər cür qəsddən tam təminat alan ermənilərin indi meydan oxumaları» bu təsiri daha da gücləndirdi[1].

Bütün bunlardan möhkəm narahat olan və həyəcanlanan müsəlmanlar Mosesyansa yazılı etiraz göndərdilər. O cavab verdi ki, «belə etirazların vaxtı keçmiş, öz yerini qorxulu ultimatumlara və qəti tələblərə vermişdir»[2]. Bunun ardınca o, quldur dəstəsinin başında şəhərə hücum edib dinc əhalini qırmağa və qarət etməyə başladı.

Zaqafqaziya mətbuatının ermənilərin müsəlmanlara qarşı etdikləri zorakılıqlar haqqında məlumatlarını Xatisov rəsmi şəkildə təkzib etməyə çalışırdı. Bu zaman onun Təkinskiyə istinad etməsi, güya Təkinskinin «ermənilərin müsəlmanlara loyal münasibətini təsdiq etdiyi» ilə əlaqədar iyunun 14-də F.X.Xoyski Təkinskiyə sorğu göndərmişdi: «...Bəzi anlaşılmazlıq yaranır, çünki bir tərəfdən Siz teleqramlarınızda xəbər verirsiz ki, müsəlmanlar Ermənistanda hüquqsuzdurlar... Müsəlmanlara edilən zorakılıqlar və digər qanun pozuntuları barədə erməni hökumətinə dostluq notası təqdim etməlisinizmi?»[3]. Beləliklə, öz ikiüzlülük və alçaqlıqları ilə daşnaklar Azərbaycan hökumətini çıxılmaz vəziyyətə salırdılar.

Bu zaman isə ingilislər gedəndən sonra erməni qoşunları tərəfindən tutulan bütün rayonlarda azərbaycanlıların həyəcanları getdikcə artırdı. Azərbaycan Respublikasının Ermənistandakı nümayəndəsi xəbər verirdi ki, «bu həyəcanların səbəbi Ermənistan Respublikasının hakimiyyətini tanımamaqdır». Naxçıvanda da vəziyyət gərginləşirdi. Şah-

[1] «Azərbaycan» qəzeti, 22 iyun 1919-cu il.
[2] Yenə orada.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, s. 2, iş 57, v. 35.

taxtıda müsəlmanlar erməni komissarını qovdular. Bu hadisələr Azərbaycan paytaxtı sakinlərinin ürəklərində əks-səda doğurdu. 1919-cu il iyunun 17-də xarici işlər nazirinin müavini Adil xan Ziyadxanov Təkinskiyə sorğu göndərərək Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı və Ordubad rayonlarındakı vəziyyətlə maraqlanırdı. «Culfa kimin əlindədir? Vedibasarın qaymaqları Xəlil ağa Hacılar və Abbasqulu ağa Şadlinskini azad etmək üçün yardım göstərin!»[1].

Elə həmin gün ADR Xarici İşlər Nazirliyi nazir-sədrə müraciət edirdi: «Təkcə hərəkata kömək göstərmək üçün yox, həm də Ermənistan qoşunlarına və idarələrinə qarşı müsəlman əhalinin fəal çıxışına yardım etmək üçün əlverişli vaxtdır»[2].

Azərbaycan Respublikasının diplomatik nümayəndəsi Təkinski məlumat verirdi ki, ştabı Xorasan kəndində yerləşən 36-cı türk diviziyasının Qaraurqana gəlməsi erməni hökumətini çox narahat edirdi. Bu faktdan istifadə edən ermənilər öz qoşunlarını Araz rayonu sərhədlərində cəmləşdirdilər.

Vəziyyət gərginləşirdi. Erməni hərbi hissələrinin hücumundan ehtiyat edən Araz rayonunun əhalisi döyüş dəstələri təşkil etməyə başladı; bu işdə əvvəllər onlara 1918-ci ilin sonunda oraya gəlmiş könüllü azərbaycanlı zabitlər kömək edirdilər, lakin 1919-cu ilin mayında ingilislər onları bu regionu tərk etməyə məcbur etmişdilər.

Tezliklə ən dəhşətli fərziyyələr həqiqətə çevrildi. Erməni qoşunları Naxçıvana hücum etdilər...

1919-cu il iyunun 21-də Respublika Xarici İşlər Nazirliyi İrəvandan şifrələnmiş teleqram aldı: «Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı rayonları erməni qoşunları tərəfindən tutulmuş və erməni idarələri qurulmuşdur. Naxçıvan Milli Şurası məndən xahiş edir ki, Müttəfiqlər Komandanlığına bildirim: ingilis generalı Devi və Xatisovun vədlərinin əksinə olaraq erməni hakimiyyət orqanları axtarış aparmağa, silah, mebel, taxta-şalban və digər əşyaları zorla almağa başlamışlar və Müttəfiqlər Komandanlığından xahiş edim ki, belə qeyri-qanuni, pis hərəkətlərin qarşısını alsın»[3].

Culfa şəhəri ermənilərin əlində idi, burada onlar xüsusilə vəhşiliklər törədirdilər. O günlərdə Ordubad hələ möhkəm durur, erməni quldur dəstələrinin hücumlarının qarşısını alırdı. Ordubadlılar ermənilərə xəbərdarlıq etmişdilər ki, nəyin bahasına olursa-olsun onları şəhərə buraxmayacaqlar.

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, s. 2, iş 57, v. 39.
[2] Azərbaycan Respublikası MDƏYTA, f. 970, s. 1, iş 54, v. 28.
[3] Yenə orada.



Bir neçə gün ərzində Naxçıvan özünün azsaylı qoşunlarından məhrum oldu. Təkinskinin verdiyi məlumatlara görə iyunun sonlarında burada cəmisi üç yüz cütə yaxın əsgər qalmışdı. Təbiidir ki, azsaylı və pis silahlanmış, lazımi komandanlığın olmadığı dəstələr dişlərinə qədər silahlanmış erməni quldurlarına qarşı dayana bilmədilər.

1919-cu il iyunun 28-də ADR Baş naziri Tiflisdən İrəvan quberniyası müsəlmanlarının yerli cəmiyyətinin sədri Şeyxovdan bu məzmunda teleqram almışdı: «Naxçıvan, Şərur və Ordubaddan alınmış məlumatlara görə erməni hökuməti müsəlman xadimlərini həbs etməyə başlamışdır. Hər addımda axtarışlar, qərəzçilik və müsəlmanların əmlakının müsadirəsi. Erməni hökumətinin bu hərəkətləri göstərilən rayonların əhalisi arasında çaxnaşma salmış, erməni hökumətinin nizami qoşunları Naxçıvanın altı verstliyindəki Bulqan müsəlman kəndini atəşə tutmuşlar, vahiməyə düşmüş əhali ermənilər tərəfindən darmadağın edilməyindən qorxaraq açıq havada qalmışdır»[1]. Yuxarıdakılar haqqında məlumat verərək yerlilər cəmiyyəti xahiş edirdi ki, onların etirazı erməni hökumətinə və Britaniya komandanlığına çatdırılsm. «Bir həftə gecikmək belə, müsəlman kəndlərinin məhvinə səbəb ola bilər»[2], - deyə Şeyxov xəbərdarlıq edirdi.

Ermənilər tərəfindən genosidin artması təhlükəsi haqqında Təkinski də 1919-cu il iyunun 29-da respublika XİN-ə məlumat verirdi: «Çox ciddi hadisələr baş verə bilər. Bu günlərdə aydınlaşdırmağa çalışaram»[3].

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Naxçıvandakı vəziyyət haqqında bütün məlumatları səylə toplayır, hadisələri təhlil edir, ermənilərin amansız hücumlarının qarşısını almaq üçün əlindən gələni edirdi. Naxçıvandakı vəziyyətlə Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsi də maraqlanırdı[4].

1919-cu il iyulun 3-də xarici işlər naziri Cəfərov Bakıdakı Britaniya hərbi qüvvələri baş komandanına müraciət göndərdi. Həmin müraciətdə göstərilirdi ki, azərbaycanlıların şəhər və kəndlərinə hücumlarda təkcə erməni nizami qoşunları deyil, erməni əhalisi də iştirak edir[5]. Naxçıvana hücumla bir vaxtda 700 nəfərlik erməni quldur dəstəsi Zəngəzura hücum etdi. Cəfərov ümid edirdi ki, Britaniya komandanlığı «Azərbaycan Respublikası ilə Ermənistan arasında kəskin konfliktdən qaçmağa kömək edəcəkdir. Erməni hökuməti Azərbaycana qarşı hücumlarını da-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 48.
[2] Yenə orada.
[3] Yenə orada, v. 53.
[4] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 115, v. 8.
[5] Yenə orada, iş 65, v. 52.

yandırmasa bu ixtilaf labüddür»[1].

Tutduqları rayonlarda ermənilər repressiyalar keçirirdilər. Naxçıvanda kütləvi həbslər başlandı. 1919-cu il iyulun 8-də ADR XİN Təkinskidən tələb edirdi ki, qeyri-qanuni həbs edilmiş və Aleksandropola aparılmış Mirzə Əli bəy Bektaşovun, Hüseynağa Novruzovun, Cəfər bəy İrəvanskinin, Teymur Həsən Kazımovun heç bir ittiham təqdim edilmədən tezliklə azad olunmaları üçün tədbirlər görsün. Bu həbslər haqqında məlumatı Bakıya Tiflisdən Əli Səbri çatdırdı. Adları çəkilən şəxslər Naxçıvanın hörmətli sakinləri idilər[2].

Tiflisdən göndərdiyi başqa bir teleqramda Ə.Səbri məlumat verirdi ki, Vedibasardan gələn şahidlər orada ermənilərin törətdikləri vəhşiliklərdən danışırlar. Müsəlmanların qatarlarda həbs edilməsi halları var, onlar naməlum istiqamətlərdə aparılır və taleləri naməlumdur[3].

İngilislər Naxçıvanda elan etmişdilər ki, onların xəbəri olmadan heç kim axtarış apara və əhalidən silahları ala bilməz. Lakin buna baxmayaraq ermənilər əhalini tərk-silah etmək üçün Vedibasar rayonuna cəza dəstələri göndərdilər. Bununla əlaqədar 1919-cu il iylun 9-da Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsinin müavini Vəkilov respublika XİN-ə məlumat verirdi: «Böyük Vedi kəndi üç gün ərzində atəşə tutulmuşdu. Qonşu müsəlman kəndlərinin köməyi ilə erməni qoşunları qovuldular. Kəndləri boşaltmaq üçün hökumət Dronu qoşunla göndərir»[4].

O günlərdə «Azərbaycan» qəzeti (11 iyul 1919) öz səhifələrində erməni qəzeti «Aşxatavor»dan götürdüyü məlumatları dərc edirdi: «İyulun 4-də bizim hərbi hissə tatar kəndi Böyük Vediyə tələblər təqdim etdi (kəndlilər tələbi yerinə yetirməkdən imtina etdilər – A.H.) İlk dəstə hücuma başlayanda tatarlar müqavimət göstərdilər, tüfəng və pulemyotlardan atəş açdılar. Hissənin komandiri dəstəyə öz yerinə qayıtmaq əmri verdi və hökumət nüfuzunu bərpa etmək üçün tədbirlər gördü». Sonralar, 1919-cu ilin oktyabrın 8-də Vedibasar rayonunun nümayəndələri A.Novruzxanov, D. Kərimov və S.Suleymanov ADR hökumətinin sədrinə yazdıqları maddi yardım haqqında ərizələrində bu tələblərin xarakteri haqqında məlumat verirdilər: «Ermənilər tələb edirdilər ki, bütün silahlar onlara verilsin, Nikolay pulu ilə 630 min manat ödənilsin və döyüşlərdə həlak olmuş 21 erməni zabiti əvəzinə güllələnmək üçün 24 hörmətli şəxs onlara verilsin[5]. Təbiidir ki, bu tələblər yerinə yetirilə bil-

---

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 65, v. 52.
[2] Yenə orada, v. 53.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 59.
[4] Yenə orada, iş 53, v. 93-93 arx.
[5] Yenə orada, iş 57, v. 93.



məzdi.

İyulun 10-da axşam saat 5-də Təkinski Naxçıvandan məlumat aldı ki, artilleriya ilə silahlanmış erməni qoşunları Böyük Vedi, Cinankənd, Gelevan, Hacılı və b. kəndləri mühasirəyə alaraq intensiv atəşə tutublar. Sakinlərin bir hissəsi qaçmış, digər hissəsi müqavimət göstərmişdir.

İyulun 4-də səhər Qarnaqdağ tərəfdən Böyük Vediyə daxil olan erməni Sasun polku xüsusi vəhşiliklər törətmişdi. Parlamentyorlar kimi göndərilmiş Zeynalabdin Şıxəli oğlu, Nəsrulla bəy Bəşir bəy vəhşicəsinə öldürüldülər. Bununla belə Təkinskinin məlumatına görə böyük vedililər «bu polku tamamilə darmadağın etdilər» və polk «demək olar ki, bütün heyətini itirdi».

Erməni quldur dəstələri dəmir yolunadək çəkildilər. İrəvana yaralılar gətirilməyə başlandı. Ermənilər iki yüzdən çox əsgər, ondan çox zabit, iki top, səkkiz pulemyot itirdilər. Hücumun müvəffəqiyyətsizliyini ermənilər azərbaycanlı əhalinin içərisində türk əsgərlərinin vuruşması ilə izah edirdilər. Bu isə ağ yalan idi.

Erməni əsgər və zabitlərinin əhval-ruhiyyəsinin pisləşməsinə baxmayaraq, ermənilər yeni hücumlar üçün qoşun gətirməkdə davam edirdilər. Öz müvəffəqiyyətsizliklərini türk zabitlərinin azərbaycanlılara kömək etməsi ilə izah etməyə çalışırdılar və Ermənistandakı ingilis missiyası da buna inanırdı. Əslində isə kəndlərdə türk əsgərləri yox idi, bu informasiyanı ermənilər özləri yayırdılar.

İyulun 12-də ermənilər Cinankənd, Gelevan, Qaşlı və digər müqavimət göstərən qonşu kəndləri mühasirəyə alıb artilleriya atəşinə tutdular. Elə həmin gün Cəfərov Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsinə müvafiq nota verdi. Notada deyilirdi: «Qafqaz xalqlarının öz müqəddəratını təyinetmə məsələsində Azərbaycan hökuməti bu xalqların iddialarının ədalətlə təmin edilməsi mövqeyində dururdu və ehtimal edirdi ki, ərazilərin sərhədlərinin dəqiqləşdirilməsi haqqındakı mübahisələr indi asanlıqla, başlıcası isə sülh yolu ilə, qan tökülmədən, arbitraj yolu ilə yerlərdə və sülh konfransında hər iki tərəfin razılığı ilə həll edilə bilər.

Təəssüf ki, Ermənistan hökuməti görünür, Azərbaycan hökumətinin bu mövqeyi ilə razı deyildir və heç bir səbəb olmadan müdafiəsiz müsəlman kəndlərinə cəza ekspedisiyaları göndərməklə bu əhalinin iradəsinin əksinə gedir, bunlara da heç cür bəraət qazandırmaq olmaz. Bu cür cəza dəstələrinin göndərilməsi ümumi hiddətə və arzuolunmaz nəticələrə səbəb olmaya bilməz. Bu heç bir halda erməni və müsəlmanların mehriban qonşuluq münasibətlərinə kömək etmir.

Bütün baş verənlərin, həmçinin əgər öz nöqteyi-nəzərində qalarsa

baş verəcək bütün hadisələrin məsuliyyətini Ermənistan hökumətinin üzərinə qoyaraq öz hökumətim adından erməni qoşunlarının müsəlman əhalisinə qarşı hərəkətlərinə qəti etirazımı bildirir və Sizdən xahiş edirəm ki, hökumətiniz qarşısında məsələ qaldırın ki, erməni qoşunlarının ümumiyyətlə müsəlmanalara və xüsusilə Vedibasar-Milistan rayonunun adları çəkilən kəndlərində müsəlmanlara qarşı hərəkətlərinin qarşısını almaq üçün tədbirlər görsün»[1].

Azərbaycan hökumətinin mövqelərinin başa düşülməsi üçün mühüm əhəmiyyətli bu sənədin surəti Britaniya qoşunlarının Bakıdakı Baş komandanına, həmçinin Azərbaycan Respublikasının Gürcüstan və Ermənistandakı diplomatik nümayəndələrinə göndərildi. Bizə elə gəlir ki, hücumun cəza ekspedsiyası kimi səciyyələndirilməsi daha çox maraq doğurur. Azərbaycan dövlət xadimləri aksiyaların qeyri-humanistliyini qeyd edir, bunların erməni millətçilərinin özgə ərazilərinə qanlı hücumlara olan meyllərindən irəli gəldiyini göstərirdilər.

Azərbaycan parlamentində bununla əlaqədar ifşaedici sənədlər var idi. Belə ki, hələ 1919-cu il iyulun 12-də onun ünvanına Gəncədən qaçqın naxçıvanlıların mitinqi adından telefonoqram daxil olmuşdu. Mitinqin sədri Kazımov və katibi Muğanlinski tərəfindən imzalanan telefonoqramda ermənilərin vedibasarlılar, naxçıvanlılar və xüsusilə də ictimai xadimlərə qarşı törətdikləri azğınlıqlar göstərilirdi. Qaçqınlar parlamentdən xahiş edirdilər ki, bunlar haqqında müttəfiq komandanlığına xəbər verilsin, millətlərarası qırğını dayandırmaq və Naxçıvanın ictimai xadimlərinin dərhal azad edilməsi haqqında erməni hökuməti ilə danışıqlar aparılsın.

ADR hökumətinə məlum idi ki, ancaq Naxçıvan rayonunda kiçik kalibrli topu olan 400 nəfərlik, Noraşen ətrafında isə iki topu olan 500 nəfərlik daşnak quldur dəstəsi fəaliyyət göstərir. Erməni quldur dəstələrinə üç zirehli qatar da kömək edirdi, bunlardan biri Şahtaxtıda, ikincisi Qəmərlidə duraraq Vedibasarı atəşə tutur, üçüncüsü Dəvəli stansiyasında dururdu. Dəhnə keçidində ermənilər atəş mövqelərinin qurulması və səngər qazılması ilə məşğul idilər. Yəni dinc əhaliyə qarşı hərbi əməliyyatları tam ciddiliklə və son qələbəyədək aparmaq niyyətində idilər.

Azərbaycan hökumətinin etiraz notalarına cavab olaraq Xatisov bildirir ki, bu əməliyyatlar Ermənistanın daxili işidir. Britaniya hərbi hökuməti isə daşnakları müdafiə edərək deyirdi ki, Ermənistanda yaşayan müsəlmanlar Ermənistan qanunlarına tabe olmalıdırlar, lakin istintaq təyin edəcəkləri, lazım gələrsə tədbirlər görəcəkləri haqqında yalan

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54 v. 60.



vədlər verməkdən də çəkinmirdilər. Əlbəttə, bunlar hamısı Azərbaycan hökumətinin diqqətini Naxçıvanda baş verən hadisələrdən yayındırmaq üçün deyilən boş sözlər idi.

1919-cu il iyulun 15-də respublika XİN erməni nümayəndəsindən öz notasına cavab aldı. Bekzadyan həyasızcasına bildirirdi ki, Azərbaycan hökumətinin Ermənistanın daxili işlərinə qarışmasına yol vermir, çünki «bütün bu hadisələr Ermənistan Respublikasının mübahisəsiz torpaqlarında baş verir və bu respublikanın vətəndaşlarına aiddir». Daha sonra azərbaycanlıları erməni kəndlilərini öldürməkdə təqsirləndirən yalançı ittihamlar irəli sürülürdü. Düzdür, Bekzadyan faktiki olaraq dəstələrin cəza dəstələri olduğunu etiraf etmişdi (əslində isə ermənilər tərəfdə artilleriyaya malik əsl hərbi bölmələr vuruşurdu). Bekzadyan böyük vedililəri «erməni hökumətinə («caniləri cəzalandırmaq» təkcə hüquq yox, həm də vəzifəsi olan hökumətə) qarşı qiyam qaldırmaqda ittiham edirdi. Bunlar hamısı anlaşılmazlığın nəticəsi kimi qiymətləndirilirdi. Erməni nümayəndəsi bildirirdi ki, «etiraz təkcə formal cəhətdən, Ermənistan Respublikasının daxili işlərinə qarışmaq yolverilməz olduğu, həm də etiraz etdiyiniz hadisələr haqqında kifayət qədər məlumatınız olmadığı üçün mahiyyət etibarilə qəbul edilə bilməz»[1].

Beləliklə, erməni nümayəndəsi erməni hərbi bölmələrinin müsəlmanlara qarşı göstərdikləri zorakılıqları nəinki etiraf etdi, əksinə Azərbaycana qarşı ittihamlar irəli sürdü. Bekzadyanın cavab notasının tam mətni hökumət qəzetində («Azərbaycan», 18 iyul 1919, № 149) dərc edilərək ictimaiyyətin mühakiməsinə verildi.

Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi Təkinski də öz növbəsində daşnakların hərəkətlərinə qarşı etirazla çıxış etdi. 1919-cu il 19 iyul tarixli şifrəli teleqramında o, respublika XİN-ə məlumat verirdi: «Xatisov hesab edir ki, Böyük Vedidə keçirilən əməliyyat Ermənistanın daxili işidir, əsgərləri öldürüləndə Azərbaycan özü də belə hərəkət edir, Azərbaycan heç vaxt Vedibasar rayonunun iddiasında olmamışdır, iki-üç kənd öz müqəddəratını təyin edə bilməz». Xatisov təklif edirdi ki, vedililər Azərbaycana köçürülsünlər. Bu da nəyin bahasına olursa olsun regionu azərbaycanlı əhalidən təmizləmək istəyən erməni hökumətinin antihumanist strategiyasına müvafiq idi. Cavabında Təkinski xahiş etdi ki, iki-üç günlüyə, ADR XİN-in fikrini öyrənənə qədər hərbi əməliyyatlar dayandırılsın. Xatisov birbaşa cavab verməkdən yayındı, lakin aydın oldu ki, hərbi əməliyyatları dayandırmaq Ermənistan hərbi nazirliyinin strateji məqsədlərinə zərər vurar.

Üç gündən sonra Təkinski məlumat verdi ki, Ermənistanda güclü

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54, v. 61.

səfərbərlik gedir. Təkinski davam edərək yazırdı: «Xatisovla uzun çəkən söhbətim oldu və o öz hərəkətlərini düzgün hesab edir, ingilis polkovniki Lautonun bu hərəkətləri təqdir etməsi ona haqq qazandırır. İngilislər müsəlmanlara qarşı getdiklərini heç gizlətmirlər də». Təkinski xahiş edirdi ki, erməni qoşunlrını Böyük Vedidən uzaqlaşdırmaq üçün respublika XİN-i əlindən gələni etsin, «yoxsa Böyük Vedidə müsəlmanların vəziyyəti ağır və hətta təhlükəli olacaqdır»[1].

Azərbaycanlıların özlərinin əzəli torpaqlarından qovulması və məhv edilməsini asanlaşdırmaq üçün erməni quldur dəstələri öz hərəkətləri ilə Naxçıvanı Zəngəzurdan ayırmağa çalışırdılar. Bu situasiyanı nəinki başa düşən, həm də təhlil edib çıxış yolu axtaran Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov 1919-cu il iyulun 26-da hərbi nazir S.Mehmandarova məktub yazaraq Zəngəzura hərbi hissələr göndərilməsini xahş etdi. Onun fikrincə Zəngəzur ilə Naxçıvan arasında əlaqəni ən əlverişli anda saxlamaq olardı: «Bu məsələ indiki vaxtda ən əlverişli anda, köçərilərin dağda, ermənilərin arxasında olduğu bir zamanda qan tökmədən həll edilə bilər – Qızılboğaz və Bazarçay adlanan yerlər tutularsa, Bazarçay yaxınlığındakı malakan əhali Azərbaycan hökumətini tanımağa hazırdır və hətta bu məqsədlə xalq milisinin rəisi Sultanovun yanına nümayəndələr göndərmişdir və əlaqənin kəsilməsi (Naxçıvanla əlaqə nəzərdə tutulur – A.H.) məsələsi öz-özünə həll edilir. Buna görə Zati-alilərinizdən xahiş edirəm xalq milisi ilə birlikdə Bazarçay kəndini tutmaq üçün hərbi hissə göndərəsiniz. Məndə olan məlumata görə köçəri mərcanlılar qoşun üçün bir neçə yüz baş mal-qara ayırıblar»[2].

Avqustun 1-də Təkinski respublika XİN-ə Böyük Vedi rayonunda baş verən hadisələr haqqında ətraflı məlumat verdi. O qeyd edirdi ki, erməni qoşunları iyulun 4-də kəndə yaxınlaşdılar və ilk atəş açaraq, iki nümayəndəni – Zeynalabdin Şah Əli və Nəsrulla bəy Bəşir bəyi öldürdülər. Cavabında böyük vedililər atəş açdılar və axşamadək döyüş davam etdi. Dinc kəndlilərə qarşı nizami polklar hərəkət edirdi, lakin kəndlilərin atəşləri altında pulemyot, tüfəng və sursatı döyüş meydanında ataraq geri çəkilməyə məcbur oldular. Təkinski məlumat verirdi: «Kəndin sakinləri əmin olduqda ki, onların da 300 dağıdılmış müsəlman kəndinin, on minlərlə öldürülmüş kişi, qadm və uşaqların aqibəti gözləyir, son nəfəsədək vuruşmağı qət etdilər. Ermənistanda müsəlmanlara qarşı demək olar ki, hər gün törədilən görünməmiş zorakılıq, qarət və qətllərdən sonra müsəlman kəndlərinin əksəriyyəti böyükvedililər gələn qənaətə gəlmişlər. Buna görə də bütöv rayonların müsəlmanları Ermənistana

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54, v. 74, 79.
[2] Yenə orada, iş 15, v. 13 arx.



birləşdirilmək münasibətilə bildirdikləri etrazlarda xahiş edirlər ki, onları istənilən həmsərhəd qonşu dövlətə birləşdirsinlər, ancaq Ermənistana yox və ya onlar üzərində müvəqqəti olaraq sülh konfransı qurtaranadək istənilən hakimiyyət (ancaq ermənilərin hakimiyyəti yox) qurulsun»[1].

Ermənistan Respublikasının Naxçıvan əhalisi əleyhinə apardığı mübarizə uğur qazanmadı. Araz-Türk Respublikasının hökuməti rəsmən etibarsız sayılsa da, demək olar ki, öz mövcudiyyətini dayandırmamışdı. Özlərini ADR-in bir hissəsi elan edən, regional özünüidarə əsasında Naxçıvan Milli Şurası tərəfindən birləşdirilən, erməni qoşunlarına və silahlı daşnak quldurlarına qarşı silahlı müqavimət göstərən məğrur Naxçıvan, Şərur, Ordubad və s. bölgələr Araz-Türk Respublikasının davamı idi.

Daşnaklar üçün ən əlverişli günlərdə – müvəqqəti hərbi uğur günlərində onların hakimiyyəti Naxçıvan şəhərinin və Naxçıvan-İrəvan dəmir yolu ətrafındakı yerləri əhatə edirdi. Bununla belə xalqın qəzəbindən qorxan ingilis nümayəndəsi və daşnak general-qubernatoru Varşamyan şəhərdə yox, şəhərdən üç kilometr uzaqda hərbi kazarmada yerləşmişdilər. Qəzalarda hakimiyyət yerli özünüidarələrin, Şərurda – zabit Həmzəyev, Ordubadda – Səmədbəyov, Naxçıvanın şimal hissəsində – Bəhram xan Naxçıvanskinin əlində idi»[2].

İrəvan quberniyası müsəlmanlarının yerlilər cəmiyyətinin idarə heyəti 1919-cu ilin sentyabrın 24-də N.Usubbəyova yazırdı ki, Britaniya komandanlığının Ermənistan hökumətinin hakimiyyətini tanımaq qərarı «erməni hökumətinin zəifliyi üzündən faktiki olaraq həyata keçirilmədi»[3].

Beləliklə, daşnak baş naziri Q.Xatisovun Naxçıvana gəlməsi və burada Varşamyanı daşnak general-qubernatoru təyin etməsindən (14 may) başlayaraq ta 1919-cu ilin iyun-iyul erməni işğalınadək olan dövr Araz-Türk Respublikasının zahiri süqutu dövrü idi. ADR parlamentinin Xarici İşlər Nazirliyinin, respublikanın İrəvan və Tiflisdəki diplomatik nümayəndəliklərinin, ADR hərbi nazirliyinin o dövr və bir qədər sonrakı dövr sənədlərində «Araz-türk» və ya «Araz» respublikasının adı çəkilirdi.

1919-cu il iyulun əvvəlində artıq Naxçıvanda bu tam olmayan erməni hökumətinin devrilməsinə hazırlıq gedirdi. İyulun 4-də ADR nazir-sədrinin və xarici işlər nazirinin ünvanına teleqram gəldi. Teleqramda məlumat verilirdi ki, ADR-in diplomatik nümayəndəsi Vəkilovun

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 15, v. 13 arx.
[2] Q. Mədətov. Göstərilən əsəri, s. 62.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 58, v. 64.

yanına nümayəndə – Naxçıvan Milli Şurasının üzvü Bağırov gəlmiş və Xosrov Sultanovdan məktub gətirmişdir. Bağırov xəbər verirdi ki, Naxçıvanda erməni hökumət nümayəndələrini qovmaq üçün hər şey hazırdır. O, Milli Şuranın fikrini bildirərək dedi ki, müvəqqəti olaraq Bakıda və Tiflisdə yaşayan naxçıvanlıların geri qaytarılmasının «böyük mənəvi əhəmiyyəti vardır və əhalinin ruh yüksəkliyinə səbəb olar, ona görə də onların geri qayıtmasına təkid etmək lazımdır»[1]. Milli Şura təklif edirdi ki, ermənilərlə əməkdaşlıq edən Cabbar Kələntərov və Cabbar Əmirov həbs olunub mühakimə üçün Azərbaycan hökumətinə verilsinlər.

Bizə elə gəlir ki, tariximizdə Araz-Türk Respublikasının 1919-cu ilin iyununda süqutu dəqiqlik tələb edir[2]. Çünki ADR tərkibinə daxil olmaq haqqında qərar qəbul etdikdən sonra hökumət strukturlarını və dövlət müstəqilliyini itirən region Milli Şuranın şəxsində mərkəzi idarəsini və burada ADR inzibati hakimiyyətinin olmadığı bir şəraitdə özünün milli müstəqilliyini saxlamaqda davam edirdi. Əgər nəzərə alsaq ki, bir neçə ildən sonra (1924-cü ildə) burada indiyədək mövcud olan muxtar respublika statusu bərpa olundu, demək olar ki, Araz Respublikasının davamı olan muxtar struktur formalaşmışdı.

Burada siyasi və hərbi qərarlar müstəqil qəbul edilirdi. Çox vaxt ADR hökuməti bu qərarlar haqqında dolayısı ilə xəbər tutur və onların hazırlanması və qəbulu gedişinə təsir etmək imkanı olmurdu.

1919-cu il avqustun 18-də Azərbaycan parlamentinin iclasındakı çıxışında Nəsib bəy Usubbəyov demişdi: «Naxçıvan dedikdə İrəvan quberniyasının bütün türk rayonu (yəni Araz-Türk Respublikasının əsasını təşkil edən prinsip Azərbaycan dövlət başçısının nitqində öz əksini tapmışdı –A.H.) öz qüvvələri ilə istilaçıları devirdi və özünün təbii orqanizmi – Azərbaycana birləşməyə hazır olduğunu Britaniya komandanlığı vasitəsilə bildirdi». («Azərbaycan» qəzeti, 10 sentyabr 1919).

1919-cu ilin avqustundan noyabrınadək Naxçıvan kəndliləri Azərbaycan Respublikasına birləşmək tələbi olan icma qərarlarını Bakıya göndərdilər. Azərbaycanlıların yaşadığı 34 kənddən icma qərarları göndərilmişdi. Əlamətdar hadisə idi ki, 1919-cu il avqustun 1-də Təzəkəndin 800 nəfərdən ibarət erməni əhalisi Tetevos Osipovun sədrlik etdiyi ümumi iclasda Azərbaycan hökumətini tanımaq və əhalini öz müdafiəsi altına götürməsini ondan xahiş etmək haqqında qərar qəbul etdi. Sənədə 120-dən artıq imza qoyulmuşdu. Sentyabrın 27-də X.Sultanov ADR Nazirlər Şurasına Ordubad sahəsinin beş erməni kəndinin icma

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 55-56.
[2] Q.Mədətov. Göstərilən əsəri, s. 62; Гражданская война и военная интервенция в СССР. Энциклопедия. М., 1983, с. 40.



qərarlarını göndərmişdi.

Avqustda isə ermənilər şəhər bazarı rayonunda Naxçıvan sakinlərinə hücumlarına cavab olaraq bütün sülh xarakterli tədbirlərə əl atan və bu haqda ingilisləri xəbərdar edən Kəlbəli xan (ingilislər təsdiq etdilər ki, ermənilər anlaşılmazlıqları sülh yolu ilə aradan qaldırmağa razı deyildirlər) döyüşə başlamaq əmri verdi. İki gün müddətində Naxçıvanda döyüşlər getdi. Üçüncü gün erməni kazarmaları hücumla alındı, daşnakların bütün qoşunu darmadağın edildi. Ermənilər bir neçə min adam, 2 top, 8 pulemyot və bir zirehli qatar itirdilər. Naxçıvan xalq qoşunun qələbəsi haqqında Musavat partiyasının informasiya bürosu 1919-cu il avqustun 30-da xəbər verirdi ki, Naxçıvan şəhəri erməni işğalçılarından təmizləndi. Naxçıvanlıların üsyanı və xalq qoşununun erməni nizami hərbi hissələri üzərində qələbəsi nəticəsində 800 erməni əsgəri və 8 zabiti əsir alınmışdı.

Ermənilərin Naxçıvandan qovulması regionun ADR ilə əlaqələrini möhkəmlətdi. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini buranın müvəqqəti general-qubernatoru təyin etdi. O isə dərhal Naxçıvan və Şərur-Dərələyəzdə yerli özünüidarənin əsaslarını möhkəmlətməyə başladı. Onun iqamətgahı müvəqqəti olaraq Ordubadda yerləşirdi.

1919-cu ilin avqust-oktyabrında Cəmillinskinin inzibati idarəsi çox xeyirli bir iş gördü. Üç qəzada (Ordubad, Naxçıvan və Şərurda) «diyarı idarə etmək üçün dövlət idarələri» açıldı və fəaliyyət göstərməyə başladı. Əgər əvvəllər əhali öz şikayətləri ilə şəxsən Kəlbəli xana müraciət edirdisə, Cəmillinskinin yaratdığı möhkəm qaydaya görə əhali müvafiq idarələrə müraciət etməyə başladı. Onun əmri ilə Xəlil bəy diyar qoşunlarının baş komandanı, Kəlbəli xan isə onun köməkçisi (eyni zamanda Naxçıvan qoşun dəstəsinin komandiri) təyin olundu.

İrəvan, Sürməli və Eçmiədzin qəzalarının qaçqınları fasiləsiz olaraq Naxçıvana axışırdı. Tam olmayan məlumata görə ancaq Vedibasardan Ordubadadək qaçqınların sayı 70 minə çatırdı. Bununla əlaqədar olaraq Cəmillinski B.Şahtaxtlının başçılığı ilə Qaçqınlar Komitəsi təsis etdi. Bu komitə qaçqınların qeydiyyatı və yerləşdirilməsi, həmçinin onlara torpaq ayrılması ilə məşğul olurdu. Eyni zamanda komitə Azərbaycan hökumətindən xahiş edirdi ki, qaçqınlara pul, çörək və dava-dərmanla yardım göstərsin.

Dörd ay erməni nizami qoşunlarının hücumlarının qarşısını alan böyükvedililərə Cəmillinski xüsusi qayğı göstərirdi. Böyükvedililər müvəqqəti general-qubernatora müraciətlə bu rayonun xüsusi qəza elan olunmasını xahiş etdilər. Oktyabrda Cəmillinski bu rayonu mühasirə vəziyyətində elan etdi və ora ilə daimi telefon əlaqəsi yaradaraq böyükve-

dililərin döyüş sursatı və ərzaqla təchizi məsələlərini həll etdi.

Eyni zamanda xanlar və Xəlil bəy Cəmillinskiyə möhkəm müqavimət göstərirdilər. Səməd bəy Xosrov bəy Sultanova şikayətlənirdi ki, onun xəbəri olmadan Kəlbəli xan bəylərin özbaşınalığından narazı olan Azərbaycan kəndi Keçilinin əhalisini sakitləşdirmək üçün oraya hərbi dəstə göndərmişdir. Xəlil bəy də diyarın idarə edilməsi işlərinə qarışır, Cəmillinskinin sözlərinə görə Azərbaycan hökuməti əleyhinə təbliğat aparırdı. Yəqin ki, öz idarəsini, Kəlbəli xanın tərəfdarlarını və Xəlil bəylə ətrafındakıları nəzərdə tutaraq Cəmillinski gileylənirdi ki, diyarda faktiki olaraq «üçhakimiyyətlilikdir». O şikayətlənirdi ki, «əhali general-qubernatoru Azərbaycan hökumətini müdafiə etsə də»[1] bu şəxslərə qarşı müqavimət göstərmək üçün silahlı qüvvələr yoxdur.

Naxçıvanlıların istək və əhval-ruhiyyələrini və amerikalıların burada öz general-qubernatorluğunu yaratmaq cəhdlərini nəzərə alan Azərbaycan hökuməti bu regionun statusu layihəsini işləyib hazırladı[2]. Məlumdur ki, 1919-cu ilin iyul-avqustunda Naxçıvanda olan amerikalı polkovnik Rey Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xanla və türk nümayəndəsi Xəlil bəylə gizli danışıqlar aparırdı. Bu danışıqlarda məqsəd özünün burada Amerika general-qubernatorluğu yaratmaq ideyasına tərəfdarlar tapmaq idi. O deyirdi: «Naxçıvan və Ermənistan üzərində qaldırılmış Amerika bayrağı onların düşmənlərində qorxu və hörmət yaradar»[3]. Avqustun sonunda Zaqafqaziyada Britaniya qoşunlarının Amerika qoşunları ilə əvəzlənməsi tərəfdarı amerikalı polkovnik Haskel Paris Sülh konfransı və Antanta Müttəfiqlər Şurası adından Azərbaycan hökumətinə bildirdi ki, Şərur, Naxçıvan və Dərələyəz qəzaları xüsusi zona təşkil edir və bu ərazidə Amerika general-qubernatorluğu yaradılması layihəsi Ermənistana ABŞ mandatı layihəsi ilə eyni vaxtda irəli sürülmüşdü.

Azərbaycan hökuməti indi də amerikalıların köməyi ilə daşnakların Naxçıvanı ələ keçirməyə cəhd edəcəyindən ehtiyatlanırdı. Buna görə də Azərbaycan hökuməti öz layihəsində Naxçıvanın əhalisinin mənafeyini təmin etməyə çalışmışdı.

Bu layihəyə görə Azərbaycan hökuməti burada Amerika general-qubernatorluğunun elan edilməsi ilə razılaşır, lakin qəzaların yerli Milli Şura tərəfindən idarə edilməsi şərtini irəli sürürdü. İnzibati hakimiyyət tamamilə Milli Şuranın səlahiyyətində olmalı və general-qubernatorluq tərəfindən nəzarət edilməlidir. İnzibati idarə üçtünlük təşkil edən millət-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 40, v. 144.
[2] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 92, v. 4.
[3] Q. Mədətov. Göstərilən əsəri, s. 68.



dən təşkil olunmalı idi. ADR hökuməti mətbuat, vicdan, söz azadlığını, şəxsi və əmlakın toxunulmazlığını saxlamağı tələb edirdi. General-qubernatorun büdcə məsələsinə Azərbaycan hökuməti tərəfindən baxılması, çatışmayan məbləğin Azərbaycan xəzinəsi hesabına əlavə olunması təklif edilirdi. Region ərazisində Azərbaycanın pul nişanlarından istifadə olunmalı idi. Layihədə qeyd edilirdi: «Seçkilərin təşkilinə qədər general-qubernator əmin-amanlıq və qayda-qanun yaratmaq məqsədilə sonuncuya (mətndə belədir – A.H.) kömək üçün Azərbaycandan iki müşavir dəvət edir»[1]. Culfa-Bakı dəmir yolunun çəkilməsi üçün ayrılmış zolaq Azərbaycan hökumətinin əlində olmalıdır. Bundan başqa əhalidən silahları almamaq və ərazi-siyasi məsələlər ilə bağlı cinayətlərin hamısı üçün ümumi amnistiya elan etmək təklif olunurdu.

Beləliklə, Azərbaycan hökumətinin layihəsi Naxçıvan əhalisini ola biləcək erməni hərbi, siyasi və iqtisadi ekspansiyasından müdafiə edirdi. Lakin Azərbaycan hökumətinin layihəsi amerikalıları təmin etmirdi.

Sentyabrın 1-də Zaqafqaziyada müttəfiqlərin ali komissarı Vilyam Haskelin Bürosu ADR Nazirlər Şurasının sədri N.Usubbəyova öz layihəsini təqdim etdi, layihə Naxçıvanda Şərur-Dərələyəz «neytral zona» yaradılmasından bəhs edirdi. Bu layihəyə görə zona polkovnik Haskelin təyin etdiyi amerikalı qubernatorun idarəsində olmalı idi.

Haskelin «neytral zona» yaradılması haqqında birinci layihəsi yerli hakimiyyət orqanlarının tamamilə Amerika qubernatoruna tabeliyini nəzərdə tuturdu. Ən mühüm qurğular (dəmir yolu, teleqraf) onun idarəsi altına keçməli idi.

«Neytral zona»da yerli məmurlar amerikalı qubernator tərəfindən təyin olunacaqdır, mümkün olan kimi qubernator yerli məmurların seçki gününü müəyyən edəcəkdir...

...Şərur-Dərələyəz və Naxçıvan əyalətlərindən keçən İrəvan və İran sərhədi arasındakı dəmir yolu və teleqraf tabe ediləcək və hərəkət üçün dərhal açılacaqdır. Bu dəmir yolu Amerika qubernatorunun nəzarəti altında olacaqdır.

...Böyük Vedinin tatar (azərbaycanlı – A.H.) əhalisi amerikalı general-qubernatorunun nəzarəti altında bu şəhərdən neytral zonada həmin əhali üçün yaradılmış şəhərə köçürüləcəkdir...»[2].

Haskelin layihəsinə görə Şərur və Naxçıvan qəzaları amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəsi altında olan zonanı təşkil etməli idi. Həm də yerli hakimiyyətə qarşı törədilən «cinayətlər» üçün

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 92, v. 4 arx.
[2] Yenə orada, v. 5-6.

amnistiya verilirdi, lakin «bu amnistiya heç bir vəchlə ingilis hərbi hakimiyyətinə qarşı törədilmiş cinayətlərə aid edilmir»[1]. Qeyd edilirdi ki, «qubernator tərəfindən etibarsız elan edilənlər istisna olunmaqla»[2] göstərilən zonanın qəzalarında əhali tərk-silah edilməyəcəkdir.

Beləliklə, amerikalı qubernator bu ərazidə bütün hakimiyyəti öz əlində cəmləşdirdi, bu hakimiyyət o qədər geniş idi ki, bütün bir rayonun əhalisini köçürmək hüququ vardı.

Tezliklə müttəfiqlər komissarı ştabının rəisi Ceyms Rey elan etdi ki, 1919-cu il oktyabrın 23-dən Şərur-Naxçıvan rayonunda polkovnik Edmond L.Dellinin başçılığı ilə general-qubernatorluq yaradılır.

Biləndə ki, Azərbaycan hökuməti Naxçıvanın taleyi haqqında V.Haskellə danışıqlar aparır, bu geniş regionun əhalisi öz nümayəndələrini Tiflisdə toplayıb 10 bənddən ibarət tələbnamə tərtib etdi. 1919-cu il sentyabrın 9-da Cənub-Qərbi Azərbaycan müsəlmanlarının ümumi iclasının sədri Əli Səbri Qasımov, yerlilər cəmiyyətinin sədri Z.Məmmədov və nümayəndə heyətinin üzvü A.K.Nəcəfov tərəfindən imzalanmış tələbnamə Usubbəyova təqdim edildi[3]. Bu bəndlərin əsasını Naxçıvanı ADR-in tərkibində saxlamaq tələbi təşkil edirdi. Bundan əlavə naxçıvanlılar Zəngəzurdan keçən Naxçıvan yolunun açılmasına kömək göstərməyi tələb edirdilər. Bu yolun açılmasına Kərçivan, Mehri və Asazor yolunun bağlanması üçün daşnaklar tərəfindən silahlandırılan üç erməni kəndi maneçilik törədirdi. Onlar həmçinin geri çağırılmış Azərbaycan nümayəndəsi xan Təkinskinin İrəvana qaytarılmasını, Ermənistandan qovulmuş və sıxışdırılmış müsəlmanların Azərbaycan ərazisində yerləşdirilməsini xahiş edirdilər. Təəssüf ki, naxçıvanlıların bu təklifi ermənilər üçün əlverişli idi və onlar elə bunu gözləyirdilər...

Bundan başqa 1919-du il sentyabrın 9-da özlərini Sürməli, Milistan, Vedibasar, Şərur, Naxçıvan və Ordubad rayonlarının nümayəndələri kimi təqdim edən Ə.S.Qasımov və K.M.Əsgərov polkovnik Haskelin yanında oldular, elə həmin gün 10 bənd daxil edilmiş memorandumu ona verdilər və xahiş etdilər ki, ali komissar və Azərbaycan hökumətinin başçısı arasındakı danışqlar bu tələblər əsasında aparılsın.

Söhbət zamanı Haskel Əli Səbriyə sual verdi ki, Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar? Buna cavab olaraq Əli Səbri bildirdi ki, əldə silah ləyaqətlə ölümü üstün tutaraq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər. «Xalq öz qüvvəsilə azadlığa nail olmuş və qan tökmədən rayonlarımıza

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 92, v. 5-6.
[2] Yenə orada, iş 93, v. 3.
[3] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 58, v. 6-6 arx.



daxil olan qəsbkarları qovmuşdur. Özünün azadlığını əldə etmiş xalq doğma Azərbaycan hökumətinə belə onun arzusunu rədd edərək taleyini həll etməyə imkan verməz. Bu vəziyyət nəzərə alınmalıdır... Biz heç vaxt, bir dəqiqə də olsun özümüzü Ermənistan təbəələri təsəvvür edə bilmərik. Biz ona görə azad olmamışıq ki, yenidən əsarət altına düşək»[1]. Əli Səbrinin dinc azərbaycanlı əhaliyə ermənilər tərəfdən zorakılıq edilməsi faktını inandırıcı şəkildə təsvir etməsinə baxmayaraq, Haskel Naxçıvanı daşnak respublikasına birləşdirmək cəhdini nəzərdə tutaraq amerikalıların erməni xalqının istifadə etdiyi hüquq və qanunlarla müsəlmanları da təmin edəcəkləri haqqında danışmaqda davam edirdi.

Lakin tədricən Haskelin problemə münasibəti dəyişməyə başladı. Avqustun 21-də Haskel İrəvana gəldi. Müsəlmanların nümayəndələrini onun yanına buraxmadılar və bunu belə əsaslandırdılar ki, erməni şəhər bələdiyyə rəisindən icazə alınmalı idi. Avqustun 23-də Haskel İrəvandan gedərkən onun xahişi ilə Azərbaycan missiyasının nümayəndəsi məşhur ictimai xadim Əli xan Makinski onu müşayiət edirdi. Yolboyu o, Haskelə erməni zorakılıqları haqqında danışdı və missiyanın katibi Mirbabayevin yazdığı dağıdılmış və qarət edilmiş azərbaycanlı kəndlərinin siyahısını ona verdi. Haskel Makinskini diqqətlə dinlədi, Eçmiədzin qəza komissarının həbsi barədə əmr verdi və öz adyutantını yenidən dağıdılmış kəndlərə göndərdi. Son nəticədə Mirbabayevin məlumatına görə, Haskel ermənilərin hərəkətlərindən möhkəm hiddətləndi və müvafiq tədbirlər görəcəyini vəd etdi.

Bakıya gəldikdən sonra Haskel Nəsib bəy Usubbəyov və Məmməd Yusif Cəfərovla danışıqlar apardı. Danışıqlar nəticəsində bütövlükdə diyar əhalisinin mənafeyini nəzərə aldı və buna görə də ADR rəhbərliyi tərəfindən yüksək qiymətləndirilən Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti idarə edilməsinin əsas müddəaları dəqiqləşdirildi. Danışıqların sonunda N.Usubbəyov Haskeldən xahiş etdi ki, şərtlərin rəsmi mətnini rəhbərlik tərəfindən imzalanmaq üçün Azərbaycan hökumətinə də versin. Haskel 1919-cu il sentyabrın 1-də Tiflisdə imzalanan müqavilənin dəqiqləşdirilmiş mətnini təqdim etdi[2].

Lakin 1919-cu il sentyabrın 27-də Haskel Azərbaycan hökumətini özünün «neytral zona» yaradılması haqqında layihəsi ilə tanış etdi, bu layihə əvvəlki iki layihədən bir sıra əhəmiyyətli detalları ilə fərqlənirdi. Onun təklifi ilə «hər bir zonada» indi əhalinin proporsional nümayəndəliklərindən ibarət Mərkəzi Şura yaradılmalı idi. Culfa-Bakı dəmir yolu neytral zolaq hesab edilirdi. Ən əsası o idi ki, Haskel naxçıvanlıla-

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 58, v. 1-5 arx.
[2] Yenə orada, iş 18, v. 18-18 arx.

rın tərk-silah edilməməsi ilə razılaşırdı.

İki gündən sonra, sentyabrın 29-da Haskel M.Cəfərovdan rəsmi cavab aldı ki, respublika hökuməti general-qubernatorluğun əleyhinə deyildir, «lakin təklif edilən şərtlərin bəzi bəndləri etiraza səbəb olur, bunlar haqqında mən Sizə əlavə məlumat verəcəyəm»[1].

Azərbaycan hökumətinin dönməzliyindən qəzəblənən Haskel sentyabrın 30-da kəskin bir teleqramla cavab verdi. Telqramda bildirirdi ki, Azərbaycanın Amerika zonasının idarə edilməsi şərtlərini müəyyənləşdirmək hüququnu tanımır və ADR-in tənqidləri onun təyin etdiyi şərtləri dəyişdirməyəcəkdir. «Bu zona yaradılacaq və Şərur, Naxçıvan dairələri bu zonaya daxil ediləcəkdir, - deyə Haskel elan edirdi, - şərtlər Sizi ancaq siyasətdən **xəbərdar etmək** (seçmə mənimdir – A.H.) və Sizin loyal surətdə razılaşacığınıza və Amerika qubernatoruna, xüsusilə də sülh və qayda-qanun yaradılması işlərində kömək göstərib-göstərməyəcəyinizə, müdafiə edib-etməyəcəyinizə əmin olmaq məqsədilə göndərilmişdir. Dərhal teleqraf cavabı tələb olunur, çünki yaxın günlərdə mən Parisə getməyə hazırlaşıram burada mən mübahisəli qəzalara Sizin tam mülkiyyətli iddialarınızı təqdim etmək niyyətindəyəm, ancaq bu şərtlə ki, Sizin hökumət bü müvəqqəti razılığı müdafiə etsin». Haskel hiss ediləcək dərəcədə təzyiq göstərirdi. Naxçıvanda neytral zonanın yaradılmasını ADR-i Denikinin təhlükəsindən xilas etmək imkanı ilə əlaqələndirirdi: «Hələ ki, Naxçıvan və Şərur qəzaları da daxil olmaqla neytral zona yaradılmamışdır, general Denikinə neytral zona yaradılması və ya digər məsələlərin həlli üçün mən heç bir tədbir görməyəcəyəm»[2]. Bunu o, Tiflisdə görüş zamanı ADR-in hərbi naziri S.Mehmandarova da bildirmişdi.

Haskelin bu demarşma cavab olaraq respublika XİN-i bildirdi ki, ilkin fikrində qalır, lakin Azərbaycanın ayrılmaz hissəsini təşkil edən qəzaların idarə olunması üzrə onun göstərişlərinin əksinə çıxmayacaqdır.

Daha sonralar, 1919-cu il oktyabrın 4-də ADR-in daxili işlər naziri M.Y.Cəfərov V.Haskelə rəsmi məktub göndərdi. Məktubda o, razılığın konsensus əldə edilmiş şərtlərinin dəyişdirilməsi ilə əlaqədar təəccübünü bildirir və qeyd edirdi: «Hökumətim yeni müzakirələr zamanı onun prezident Vilsonun öz adından və müttəfiq dövlətlər adından elan etdiyi xalqların öz müqəddəratını təyin etmək prinsipinə əsaslanan iddialarının təmin olunacağına ümidini itirmir»[3]. Beləliklə, ADR hökuməti

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 92, v. 2.
[2] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 70.
[3] Yenə orada, iş 18, v. 18.



ümid edirdi ki, amerikalıların mövqeyi obyektivlik tərəfə dəyişəcəkdir. Haskelin son dərəcə obyektiv olmaq və Qafqazda demokratik idarəetmə formasını saxlamaq arzusu belə ümid etməyə əsas verirdi.

Sentyabrın 30-da İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin sədri Sultanov yerli əhalini Haskelin amerikalı qubernator təyin etməklə neytral zona yaratmaq təklifi ilə tanış etmək məqsədilə Naxçıvana gəldi. Sultanov Naxçıvanın müvəqqəti general-qubernatoru S.Cəmillinski, ordu komandanı Xəlil bəy və Naxçıvan döyüş dəstəsinin komandiri Kəlbalı xan Naxçıvanski ilə görüşdü və onlar qarşısında məruzə ilə çıxış etdi.

Bu vaxt polkovnik Haskelin nümayəndəsi – general Robinson da Naxçıvanda idi, o da buraya həmin məqsədlə gəlmişdi. Sultanov və Cəmillinski 12 bənddən ibarət cavabı Robinsona təqdim etdilər. Cavabda qeyd edilirdi ki, əhalisi Azərbaycan türkləri olan Naxçıvan, Şərur-Dərələyəz rayonları, Vedibasar və Milistan Azərbaycanm ayrılmaz hissəsidir. Bu rayonların azərbaycanlıları ADR qanunlarını rəhbər tutaraq özləri özlərini idarə edirlər. Öz azadlıqlarını qanla qazanan naxçıvanlılar ABŞ-ın nümayəndəsini burada «general-qubernator kimi yox, bizim içərimizdə yaşayaraq ermənilərin bizim vəhşiliyimiz və mədəniyyətsizliyimiz, digər millətlərə qarşı dözülməzliyimiz haqqında informasiyalarının yalan olduğuna inanan bir nümayəndə kimi»[1] görməyə şad olarlar. Naxçıvanlılar qeyd edirdilər ki, onların iradəsinin əksinə olaraq onları ermənilərin hakimiyyətinə verənləri öz düşmənləri hesab edirlər və onları əldə silah qarşılayacaqlar «və düşmənlərimiz bizim evlərimizə meyidlərimiz üstündən keçib daxil olacaqlar».

Robinson Əli xan Makinskinin müşayiətilə gedəndən sonra zabit və tərcüməçisi ilə birgə Amerika generalı Mozetey Naxçıvana gəldi. Mozetey Cəmillinskiyə məlumat verdi ki, buradakı hadisələri yerindəcə öyrənib Paris Sülh konfransına məlumat vermək üçün ezam olunmuşdur.

1919-cu il oktyabrın 7-də Qarabağ general-qubernatoru X.Sutanova göndərdiyi gizli məlumatında Cəmillinski Mozeteyin dediyi sözləri təkrar edərək yazırdı ki, amerikalıların torpaq və adamları çoxdur və onlar buraya diyarı zəbt etmək məqsədlə gəlmirlər, əgər əhali arzulasa və sülh konfransı məcbur etsə burada qalarlar.

Mozetey ilə danışıqlara başlamazdan Cəmillinski müşavirə çağırdı, bu müşavirədə Xəlil bəy, Kəlbalı xan və qubernator dəftərxanasınm müdiri Məmmədov iştirak edirdilər. Məsləhətləşdikdən sonra onlar qərara gəldilər ki, Mozeteyə bir sıra mühüm faktlar haqqında məlumat

[1] Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 73.

versinlər. Bu məlumatların mahiyyəti onda idi ki, Avropa və Amerikadakı diasporuna, habelə Avropa mətbuatına arxalanan ermənilər heç bir iftiradan çəkinməyərək Naxçıvandakı hadisələr haqqında yalan təsəvvür yaradırlar; Naxçıvanda müsəlmanlar əksəriyyət təşkil edir, işi qan tökülməsinədək çatdıran buradakı qısamüddətli erməni inzibati idarəsi isə özünün zəifliyini göstərir. Cəmillinski qeyd etdi ki, erməni ərazilərində yaşayan azərbaycanlılara qarşı pis münasibət göstərildiyi haqqında xeyli faktlar vardır, hazırda ermənilər faktiki olaraq Naxçıvanla müharibə vəziyyətindədirlər (misal olaraq Böyük Vedi hadisələri göstərilmişdi). Göstərilirdi ki, Naxçıvan ADR-ə birləşmişdir, bu demokratik respublikanın adı və qanunu ilə idarə edilir, «çünki bizi dil, ədəbiyyat, din, xalq adətləri və başqa bir çox şeylər birləşdirir». Daha sonra o, Mozeteyin diqqətini buna cəlb edirdi ki, Ermənistanda anarxiyadır. Naxçıvanda isə sakitlikdir və xahiş edirdi ki, «özünüidarəyə daha çox kimin hüququ və qabiliyyəti çatdığını yəqin etsinlər».

Naxçıvanda ikən Mozetey Ermənistandan buraya yerləşdirilməyə, ərzağa, paltara, dava-dərmana ehtiyacı olan çoxsaylı qaçqınların gəlməsinin şahidi oldu.

On bir bənddə öz əksini tapmış bütün bu faktları Cəmillinski Təbrizdəki Amerika konsuluna və müttəfiq dövlətlərin nümayəndələrinə göndərdi. Oktyabrın 1-də İrəvana qayıdan Əli xan Makinski ADR-in Ermənistandakı nümayəndəsi A.Haqverdiyevə naxçıvanlıların məktubunu gətirdi, məktubda qaçqınlar üçün ərzaq, pul, dava-dərman göndərilməsi xahiş edilirdi. ADR-in diplomatik nümayəndəliyi Naxçıvanla daimi əlaqə yaratdı və respublika XİN-dən xahiş etdi ki, Naxçıvana çatdırılacaq məktub, pul, bağlama və ərzaq yükləri onun vasitəsilə göndərilsin.

Oktyabrın 20-də Robinson Naxçıvana qayıtdı və xəbər gətirdi ki, buraya Amerika general-qubernatoru təyin edilməsi barədə Azərbaycan hökuməti ilə razılıq əldə edilmişdir. Sonra polkovnik Rey Naxçıvana gələrək məlumat verdi ki, xarici işlər naziri M.Y.Cəfərovun 3 oktyabr və Xatisovun 23 oktyabr tarixli məktublarına əsasən general-qubernator təyin edilmişdir. Azərbaycan parlamentinin nümayəndələri də Naxçıvana gəlməli idilər, Reyin dediyinə görə onlar «gecikirdilər».

Rey özü ilə bəyannamə gətirmişdi və onun dərc olunmasını xahiş edirdi. Səməd bəy Cəmillinski və Kəlbalı xan Naxçıvanski buna qəti etiraz etdilər. Onların fikrincə problemin həlli üçün 12 bənddən ibarət yuxarıda adı çəkilən cavab əsas ola bilərdi.

Belə olduqda polkovnik Rey səhər xalqı yığmağı xahiş etdi, o özü onlarla danışmaq istəyirdi. Oktyabrın 23-də Milli Şura çağırıldı. Şurada Vedibasar, Şərur və Ordubadın da nümayəndələri iştirak edirdilər. Onlar yazılı şəkildə polkovnik Reyə məlumat verdilər ki, «xalq azırbaycanlı general-qubernatordan başqa heç kimi tanımaq istəmir».



Elə həmin gün Haskel erməni nazir-sədri Xatisovdan rəsmi cavab aldı. Cavabda deyilirdi ki, ingilis ali komandanlığının sərəncamı ilə Şərur-Naxçıvan rayonunun «mübahisəsiz olaraq respublikanın mülkiyyətinə və idarəsinə verilməsinə razılığını bildirir. Lakin məktubun sonunda Xatisov demaqoqcasına bu rayonun Ermənistanın ayrılmaz hissəsi olduğunu xatırladı.

Ertəsi gün polkovnik Rey mövqeyini dəyişdi, elan etdi ki, polkovnik Dellin general-qubernator kimi yox, Naxçıvan hökuməti yanında müşavir və qaçqınlara yardım üzrə nümayəndə (...) kimi qalmasına razıdır. O, Cənubi-Qərbi Qafqaz müsəlmanlarına səmimi münasibət göstəriləcəyinə inandırırdı.

Təbiidir ki, amerikalılar daşnak hərbçilərinin cinayətlərinə iltifatla yanaşırdılar. Azərbaycanın əks kəşfiyyatının agenti 1919-cu il iyulun 20-də İrəvandan xəbər verirdi: «Ermənistanda güclü səfərbərlik gedir... Xatisovla uzunmüddətli söhbətlər etmişəm və o öz hərəkətlərini düzgün hesab edir, ingilis polkovniki Plauton və Amerika missiyası bu hərəkətləri təqdir edirlər»[1].

Hətta Amerika nümayəndəsi Azərbaycanın dinc əhalisinə soyğunçu hücumlar etməyə yollanan daşnak qoşunlarının paradını qəbul etmişdi. Baş ştabın rəisinə yazdığı 12 dekabr 1919-cu il tarixli raportunda Azərbaycan zabiti məlumat verirdi: «Bu yaxınlarda (10-12 gün) Dronun əmri vardı ki, bütün mauzerçilər cəbhə – Zəngəzura göndəmək üçün toplansınlar, onları Dro özü aparmalı idi. Mauzerçilər toplandılar. Qoşunlar Zəngəzura göndərilməmişdən qabaq İrəvanda qoşunların paradı keçirildi və Xatisov, Amerikanın nümayəndəsi və könüllü ordunun nümayəndəsi Zenkeviç paradda iştirak edirdilər.[2]

Amerikalılarm işə qarışmağı belə, ermənilərin əzəli Azərbaycan torpaqlarına hücumlarını dayandırmadı. Bu hücumlar elə həmin miqyasda davam edir, bəzi hallarda isə daha da genişlənirdi. Bununla belə Respublikanın mərkəzi Bakıda ermənilər erməni dövlətinin acınacaqlı vəziyyəti haqqında fəryad qoparırdılar. «Ermənistan acından ölür, hər gün minlərlə qurban verilir. Ölkə adamsız qalmaq təhlükəsi qarşısındadır». Erməni deputatları hətta Azərbaycan parlamentində də boşboğazlıq edirdilər: «Əgər yaxın həftələrdə kömək gəlməsə, əhalinin 50 %-i bir ay ərzində məhv olacaqdır». («Azərbaycan» qəzeti, № 25, 1919).

ABŞ-ın ermənipərəst dairələrinin nöqteyi-nəzərini daha dəqiq ifa-

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 970, siy. 1, iş 54, v. 74.
[2] Yenə orada, iş 61, v. 11-12.

də edərək senator Bora çıxışlarının birində demişdi: «Birləşmiş Ştatlar bu məsələnin (Ermənistan mandatı haqqında – A.H.) müzakirəsinə başlamazdan əvvəl Fransa və İngiltərə qoparılmış əraziləri (?) Ermənistana qaytarmalıdırlar. Ölkəni belə qarət etmək, necə ki, Ermənistanı ediblər, sonra da digər dövlətin himayəsinə vermək yolverilməzdir»[1]. Hələ amerikalılara Ermənistandakı azərbaycanlıların vəziyyəti yaxşı məlumdur. Elə himayə nazirliyinin səlahiyyətli müvəkkili Makinskinin 9 sentyabr 1919-cu il tarixli müfəssəl məruzəsini xatırlamaq kifayətdir. Bu məruzə nazir Klenevskinin qərarı ilə ingilis dilinə tərcümə edilmiş və Haskelə göndərilmişdi. N.Usubbəyova yazdığı qoşma məktubda Klenevski qeyd edirdi ki, bu məruzə Ermənistandakı müsəlmanlarm bədbəxtliklərinin dəhşətli şəklini əks etdirir. Ancaq Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə ev-eşiksiz qalmış, müflisləşmiş müsəlmanların sayı 150 minə çatmışdır. Bu bədbəxtlərin bir çoxu xilas olmaq üçün Naxçıvana qaçmışdır, lakin senator Bora kimi ermənipərəstlər buranı «talan edilmiş» ermənilərə qaytarmaq arzusundadırlar.

Səməd bəy Cəmillinski ADR-in Ermənistandakı diplomatik nümayəndəsinə yazdığı gizli məlumatlarda dəfələrlə bildirmişdi ki, Naxçıvana gəlmiş qaçqınlar daşnakların təsvirəgəlməz vəhşiliklərindən danışırlar. Ermənistanın bəzi kəndlərində bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

«Azğınlıq və sıxışdırılmaqdan əziyyət çəkən azərbaycanlılar İrəvan qəzasından Aralıq – Baş Keçid rayonlarma, Şərur və Naxçıvan qəzalarına qaçırdılar, burada qaçqınların sayı 100 minə çatmışdı. Hər gün onların 300 nəfəri yaralardan, xəstəlik və aclıqdan ölürdü. Cəmillinski məlumat verirdi ki, Naxçıvan diyarının qaçqınları üçün Azərbaycan hökumətinin hələ qışda ayırdığı 2 milyon manatdan ancaq 400 mini apreldə gəlib buraya çatmışdır, qalanı isə şərəfsiz şəxslər tərəfındən mənimsənilmişdir. 1919-cu ilin oktyabrında Cəmillinski bu şəxsləri qanuni məsuliyyətə cəlb etdi.

Oktyabrın sonunda Cəmillinski Azərbaycan hökumətinə məlumat verirdi ki, Naxçıvanla sərhəddə əvvəliki kimi erməni qoşunları cəmləşir. Ordubad yaxınlığındakı Oxçu, Şabadin və Kiq rayonlarında, həmçinin Zəngibasarda ermənilər azərbaycanlılara silahı təhvil vermək haqqında ultimatum veriblər. Daşnaklar Vedibasar rayonunu da rahat buraxmırdılar, bura Qarsdan gətirilən ağır toplarla atəşə tutulurdu.

Naxçıvanın ağır vəziyyətini nəzərə alan Azərbaycan hökuməti vəd etmişdi ki, 6 min əsgəri silahlandırmaqda Cəmillinskiyə kömək göstərəckdir. Vəziyyətin kəskinliyini nəzərə alan amerikalılar bir qrup zabiti

[1] «Deyli Meym» qəzeti, 26 may 1920.



polkovnik Han Pirin başçılığı ilə Naxçıvana göndərmək qərarına gəldilər. Lakin onların Naxçıvana gəlişi əks reaksiyaya səbəb oldu, çünki əhali Britaniya nümayəndələri kimi, onların da simasında daşnak işğalçılarının tərəfdarlarını görürdü. Qubernatorluğun binası qarşısında toplaşan naxçıvanlılar Naxçıvana gələn zabitlərin dərhal geri qaytarılmalarını tələb etdilər. Amerikalı general-qubernator özündən əvvəlki qubernatorlar kimi şəhəri tərk etdi və şəhərdən üç kilometr aralıda, kazarmada yerləşdi. Kifayət qədər hərbi qüvvənin olmaması üzündən onun hakimiyyəti Naxçıvan şəhəri ilə məhdudlaşırdı. Əhalinin rəğbət və hörmət bəslədiyi S.Cəmillinski də burada idi. Qəzalara Milli Şura silahlı dəstələrinin komandirləri – Kalbalı xan, Kəblə Muxtar Nehrəmli və s. rəhbərlik edirdilər.

Noyabrın sonunda amerikalılar general-qubernatorun hakimiyyətini gücləndirmək cəhdi göstərdilər. V.Haskelin şəxsi nümayəndəsi polkovnik Rey yenidən şəhərə gəldi, o, S.Cəmillinski va Milli Şura ilə olan ziddiyyətləri aradan qaldırmalı idi. Aparılan danışıqlar zamanı Naxçıvan rəhbərləri Reyi razı saldılar ki, E.Delinin Naxçıvanda statusu yerli hökumət yanında ABŞ müşaviri kimi müəyyən edilsin. Beləliklə, Deli və Reyin missiyası süquta uğradı, amerikalıların Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı.

Elə bu zaman ermənilərin Naxçıvanda möhkəmlənmək cəhdi davam edirdi. 1919-cu ilin noyabrında erməni işğalının yeni mərhələsi başlandı, Naxçıvanla Ermənistan sərhədində yeni müharibə qızışmağa başladı.

1919-cu il noyabrın 18-də Panıs və Kürdikən erməni kəndlərinin sakinləri Oxçu müsəlmanlrına məxsus mal-qara sürüsünü apardılar. Mehri və Qafan rayonlarının erməni hərbi hissələrinin komandiri Boronyans sakinlərin şikayətinə onları aldadan bir məktubla cavab verdi. Sadəlövh sakinlər məkrli Boronyansa inanaraq noyabrın 19-da «danışmaq və mehriban qonşuluq münasibətləri üçün» öz nümayəndələrini erməni kəndi Panısa göndərdilər. Bu nümayəndələr arasmda Molla İdris, Əziz bəy, Rüstəm bəy, Şeyx Əli, Cəmil bəy, Mövlamverdi var idi. Təbiidir ki, müsəlmanların bu nümayəndələri qurulmuş tələyə düşdülər. Ermənilər onları həbs etdilər və kəndə iki məktub göndərdilər, biri cəmiyyətin, digəri – Mustafa Cəfərovun adına, məktubda təslim olmaq, onların hökumətini tanımaq və silahı təhvil vermək təklif olunurdu. Bundan başqa ermənilər məktubda bildirirdilər ki, əgər müsəlmanlar könüllü təslim olsalar onların həyatının və əmlakının təhlükəsizliyi təmin ediləcəkdi. Aydındır ki, bu təmiz yalan idi, lakin müsəlman kəndlərinin əhalisi, beş-altı adam istisna olmaqla, həm özlərini, həm də həbs edilən nümayəndələri xilas etmək üçün təslim olmaq qərarına gəldilər.

Noyabrın 19-da, yəni elə həmin gün xalqın bu qərarından sonra gündüz saat 12 üçün erməni komissarı Amazasp 40 süvari ilə kəndə gəldi, onların ardınca erməni hərbi hissələri kəndin ətrafında mövqe tutdular. Bədbəxt kəndlilər komissarı duz-çörəklə qarşıladılar, nahara qonaq etdilər, yemək vaxtı Amazasp çörəyə and içdi ki, əgər müsəlmanlar yığılıb Ermənistan hökumətinə sədaqətlə xidmət edəcəklərinə and içsələr ermənilərin onlara qarşı münasibəti «lap yaxşı olacaqdır». Nahardan sonra kəndin bütün kişi əhalisi karvansaranın həyətinə yığıldı ki, məscidə gedib ermənilərə and içsin...

Lakin elə bu zaman silahsız sakinləri vəhşicəsinə qırmağa başladılar. Atəş açıldıqdan sonra sağ qalan yaralıları süngü ilə öldürdülər. Sonra qadın və uşaqları bir yerə yığan erməni vəhşiləri onları zorlamağa, işgəncə verməyə, öldürməyə başladılar. Səməd bəy Cəmillinski özünün 5 dekabr 1919-cu il tarixli raportunda bu vəhşiliklər haqqında yazırdı: «Cəsarətlə demək olar ki, belə bir hadisə heç vəhşi xadlqların da taleyində olmamışdır. Müdafiəsiz qadınların, hətta balaca qızların başına nələr gətirilmişdi...»[1]. Bu kənddən yalnız 3 nəfər salamat qalmışdı. Onlardan ikisi əvvəlcədən kənddən çıxmışdı, birini isə ermənilər buraxıb demişdilər: «Müsəlman kəndlərinə get və de ki, erməni hökumətini tanımayanları bu aqibət gözləyir». Kəndin bütün sakinləri– qocalar və uşaqlar – min beş yüz adam məhv edilmişdi.

Bu vaxt belə vəhşi və qəddar əməliyyatlar başqa kəndlərdə də keçirilirdi. Şabadin kəndindən ancaq 8 kişi və 7 qadın xilas ola bilmişdi. Atqız kəndinin sakinləri qaçmaqla canlarını qurtardılar, lakin Ordubad və Kığıdərəsi yolunda 167 adam, əsasən qadınlar və uşaqlar donmuşdu. Dörd kəndin (Şabadin, Pirdovdan, Atqız və Oxçu) dörd min sakinindən yalnız 261-i sağ qalmışdı. Cəmillinski xəbər verirdi ki, «hazırda onlar Ordubadda çox böhranlı və acınacaqlı bir vəziyyətdədirlər».

Xəlil bəyin və Kalbalı xanın başçılıq etdikləri silahlı dəstələrin hücumları müvəffəqiyyət qazanmadı, o günlərdə Bazarçay yaxınlığındakı əməliyyat da iflasa uğradı, 1919-cu il noyabrın 25-26-da Məzrə kəndi yaxınlığındakı hərbi əməliyyat da uğurlu olmadı.

Noyabrın 30-da Cəmillinski Ordubad qəza rəisindən telefonoqram aldı ki, ermənilər dörd müsəlman kəndini yerlə yeksan edəndən sonra yolları üstündəki Dırnıs kəndini məhv etmək, Yuxarı və Aşağı Əylis, Danaqırt və Çananab kəndlərini erməni kəndləri ilə birləşdirmək, sonra isə Ordubad və Culfanı hədələmək qərarına gəliblər.

Ordubad istiqamətində ermənilərin hərəkətini dayandırmaq və onların diqqətini Kığıdərəsi və Qafan rayonundan yayındırmaq üçün

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 78, v. 11.



Xəlil bəy Əlincəçay taboruna və Ordubaddakı hərbi hissələrə əmr etdi ki, erməni quldur dəstələrinin əleyhinə çıxış etsinlər. Noyabrın 26-da taborun döyüşçüləri düşməni geri oturdub Vərməziyar və Ələkli kəndlərini tutdular, lakin onların irəliyə hərəkəti Xəlil paşanın əmri ilə dayandırıldı. Mənə elə gəlir ki, bunun əsas səbəbi hərbi sursatın kifayət qədər olmaması idi. Belə ki, müvəqqəti general-qubernatorun raportunda sonra məlumat verilirdi ki, Bəyazid və Ərzuruma «çox ehtiyac duyduğumuz» hərbi və tibbi ləvazimat gətirmək üçün karvan göndərilmişdi, lakin uzun müddət ərzində bu karvandan heç bir xəbər yox idi.

Hərbi məsələlərdə və diyarın müdafiəsinin təşkilində Xəlil bəy xeyli iş görmüşdü. O zaman Cəmillinski Xəlil bəyi belə səciyyələndirirdi: «Hazırda yeganə ümidim onadır».

Elə bu zaman Naxçıvan diyarını ADR-dən qoparmaq üçün ingilislər tədricən fəaliyyətlərini genişləndirmişdilər. 1919-cu il dekabrın 2-də Naxçıvanın müvəqqəti general-qubernatoru Naxçıvandan olan İran agentindən rəsmi məlumat aldı ki, hökumət sərhədlərə öz məmurlarını göndərib ki, İrana qaçan müsəlmanları qəbul etsinlər. Bununla yanaşı Naxçıvandan olan qaçqınlara məskən salmaq üçün torpaq sahələri və «hər cür yardım» təklif edilirdi. Müvəqqəti general-qubernator narahatlıqla qeyd edirdi: «Bizim qaçqınlara qarşı İranın bu cür gözlənilməz diqqətli və rəhmli münasibətində mən Naxçıvan diyarını respublikamızdan qoparmaq məqsədi güdən ingilislərin siyasi astarını görürəm»[1].

Naxçıvandakı işlər haqqında ADR hökumətinə daha ətraflı məlumat çatdırmaq məqsədilə 1919-cu ilin dekabrında Qarabağ general-qubernatoru X.Sultanovun yanına gizli məruzə ilə Naxçıvan general-qubernatorluğunun əməkdaşı göndərilmişdi.

Səməd bəy Cəmillinskinin fəaliyyəti üzərində ətraflı dayanmaq lazımdır. Diyarın ağır vəziyyətdə düşmən hücumlarına cavab verməsinə baxmayaraq, o öz qarşısında məqsəd qoymuşdu ki, «yerli başçıların yardımı ilə diyarda mövcud olmuş və indi də mövcud olmaqda davam edən anarxiyaya son qoysun və bununla da son illərdəki hadisələrdən əzab çəkən xalqı mənsəbpərəst, qaniçən, həris şəxslərin ağır zülmündən xilas etsin»[2]. Vəzifədə olduğu müddətdə Cəmillinski yerli məmurların vəzifələrindən sui-istifadə halları ilə rastlaşmışdı, bu şəxsləri o zalım, «şərəfsiz, mənəviyyatsız yaramazlar»[3] adlandırırdı. Hələ 1919-cu il dekabrın 5-də Qarabağ general-qubernatoru X.Sultanova göndərdiyi raportunda diyardakı mürəkkəb vəziyyət haqqında mlumat verir və anarxiyanı əsas

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 78, v. 13.
[2] Yenə orada, v. 1.
[3] Yenə orada.

təqsirkar hesab edirdi: «Deyirdim, deyirəm və gələcəkdə diyarda vəziyyət tamamilə dəyişməyincə yenə deyəcəyəm, baş verən şər işlərin hamısı Azərbaycan zabitinin şərəfini ləkələyən xan oğlu Kalbalı xanın diyarda olması ilə izah edilir»[1]. Daha sonra Səməd bəy yazırdı: «Mənim əvvəlki məlumatlarımdan sizdə yəqin ki, özünü dahi sərkərdə, ulu babasının layiqli övladı hesab edən bu zalım, kəmağıl, yarıdəli xan haqqında təsəvvür yaranmışdır. O özünü diyarın ağası, diyarın sakinlərini isə vəzifəsi bütün qiymətli və dəyərli nə varsa hamısını əlahəzrət xanın ayaqları altına tökmək olan qulları hesab edib və etməkdədir. Hər gün – intriqa və münaqişələr. Ayrılmış şüurlu elementlər xanın zülmündən qurtarmağa can atır və xilası Azərbaycan Respublikasının ağuşunda görürlər»[2].

*Beləliklə, bu sənədlər və onlardakı faktlar* Azərbaycan Respublikası demokratik dövlət strukturları nümayəndələri ilə yerli feodal əyanlar arasındakı ziddiyətlərdən xəbər verir. Bunu qeyd etmək vacibdir ki, Naxçıvan diyarının əhalisi arasında feodal əsarətindən qurtarıb demokratik qaydaların qurulmasını istəyən çox idi. Əlbəttə, diyarın bütün əhalisi xan zülmünün aradan götürülməsinin vacibliyini hələ tamamilə dərk etmirdi. Belə bir şəraitdə bütün qüvvələrini yeni, demokratik qaydaların qurulmasına sərf edən ADR-in rəsmi nümayəndələri və dövlət məmurları demokratik ideyaların yaradıcılarına çevrilirdilər. Elə həmin raportda qeyd edilirdi: «Bu, sonuncu isə avam adamların qarşısında mənim Vətənimi nüfuzdan salmağa çalışır və mədəni respublikaya layiq olan qaydaların yaradılmasına imkan vermir ki, Azərbaycanın dövlət olmadığını təsdiq etmək üçün səbəb və əsas olsun. Demişəm və yenə təkrar deyirəm: Kalbalı xan Azərbaycanı nəinki tanımır, hətta onu ələ salır, yenə təkrar edirəm, hər vəchlə onu nüfuzdan salmağa çalışır»[3].

Təbiidir ki, ADR nümayəndələrinin fəaliyyətinə maneçilik göstərən Kalbalı xan həm siyasi, həm də iqtisadi cəhətdən şah İranına daha çox meyl edirdi. Beləliklə, Azərbaycan hökumətinə məlum oldu ki, Culfada yerləşən böyük sement anbarından Kəlbalı xan çirkin əməllər üçün istifadə edir. Kalbalı xanı, bu anbarı qoruyan, özlərini əsgər adlandıran mühafizəçilər bütün sementi İrana satırdılar. Bunu bilən Naxçıvan general-qubernatoru S.Cəmillinski ADR sənayesi üçün zəruri olan bu xammalın mühafizəsindən ötrü qəti göstəriş verdi və Culfa sement anbarını qorumaq üçün yerli sakinlərdən təşkil edilmiş muzdlu qarovulçular təyin etdi. Oğurluq xeyli azaldı. Sementin İrana göndərilməsi və satılması minimuma qədər azaldıqda sementin qiyməti sürətlə qalxdı və az

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 78, v. 2.
[2] Yenə orada.
[3] Yenə orada.



müddətdə bir çəlləyin qiyməti min manat oldu. Bu vaxt Naxçıvanda Kalbalı xanın qohumu, Maku xanlığında böyük malikanələrə malik Kamilpaşa xan peyda oldu. Kalbalı xanın tərəfdarları general-qubernatora hər cür təzyiq göstərərək onu Kamilpaşa xana 750 çəllək sement verməyə məcbur etdilər. Sonra elə bu yolla sementin böyük bir hissəsi Kalbalı xanın daha üç qohumuna verildi.

Kalbalı xan general-qubernatoru saymırdı. General-qubernatorun xəbəri olmadan o, dairə gömrük inspektoruna və Culfa gömrükxanasının rəisinə əmr vermişdi ki, təcili surətdə sement vaqonlara yüklənsin və İrana göndərilsin. Məmurlar general-qubernatorun dəftərxanasında təhqir edilir, o da bütün bunlara dözməli olurdu.

Naxçıvanın erməni işğalı zamanı ermənilərin qızğın tərəfdarı şəhər rəisi Böyük xan Naxçıvanskiyə mirab və cuvarları saxlamaq üçün ermənilər tərəfindən 15 min manat pul verilmişdi. Böyük xanın bu pulun 12 minini mənimsədiyi məlum olanda Cəmillinski göstəriş verdi ki, bu sui-istifadə haqqında istintaq başlansın. Onda Kalbalı xan başqa şəxslər vasitəsilə general-qubernator dəftərxanasının müdirinə hədə-qorxu gələrək təhqiqatın dərhal dayandırılmasını tələb etdi.

Kalbalı xan öz məmurlarına saxta sənədlər verirdi ki, onlar ADR-dən xidmətləri üçün pul alsınlar. Məsələn, o keçmiş komendant Xanlar xan İrəvanski üçün qeyri-qanuni yolla 4 min manat almağa cəhd göstərmişdi, lakin tezliklə məlum oldu ki, Xanlar xan bir aydan azca artıq qulluq etmiş və haqqını da bütünlüklə almışdı.

Kalbalı xanın cinayətkar ünsürlərlə əlaqəsi də Cəmillinskini çox narahat edirdi. Bu cinayətkarlar zorakılıq və talançılığa görə həbs edildikdə Kalbalı xan onları azad etmək üçün çalışırdı. Ermənilər Naxçıvandan qaçdıqdan sonra Kalbalı xan burada hakimiyyəti tamamilə öz əlinə keçirmiş, şübhəli keçmişi olan yerli şəxslərdən hökumət təşkil etmişdi. Bunların arasında Sələsuz taborunun komandiri Fətəli xan Naxçıvanski və Naxçıvan şəhərinin polismeysteri Cabbar ağa Vəzirov da var idi. General-qubernator yazırdı: «Bu cənablar Kalbalı xana sədaqətlərini açıq-aydın göstərirlər, mənim başımın üstündən ona xidməti məruzələr edir, ondan əmr və göstərişlər alırlar. Ona qarşı bir tədbir görməkdə mən gücsüzəm...»[1].

Yuxarıda deyilənlərdən başqa Kalbalı xan Culfa, Naxçıvan və Noraşendə qalmış on üç sistern ağ neftin yeddisini mənimsəmişdi, qalanını isə əsgərlərinə paylanmasını tələb edirdi. Cəmillinskinin məlumatına görə Kalbalı xan Xəlil bəyə elan etmişdi ki, ADR-in müstəqilliyi zahiridir, ADR Zəngəzuru almaq və Naxçıvanı respublika ilə birləşdirmək

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 78, v. 5.

üçün yol açmaq iqtidarında deyildir, guya ADR «yerli naxçıvanlı müsəlmanları aldadır»[1].

Lakin ADR-ə sadiq zabit və məmurların səbir kasası dolmuşdu. Məlum olduğu kimi 1919-cu ilin noyabrında Nehrəm taborunun komandiri Kərbəlayı Muxtar Kalbalı xanın təhqirlərinə təhqir ilə cavab verdi, yalnız Xəlil bəyin vaxtında işə qarışması Kərbəlayı Muxtara sədaqətli nehrəmlilərin Kalbalı xanın tərəfdarlarına silahlı hücumunun qarşısını aldı.

Azərbaycan hökuməti Kalbalı xana yüksək vəzifə təklif edərək Bakıya çağırmağa cəhd göstərdi, lakin o imtina etdi. Bu imtinanın səbəbini Cəmillinski belə izah edirdi: «Qəlbən denikinçi və ingilis nüfuzunun tərəfdarı olan o, Azərbaycana nifrət bəsləyir, ona qarşı bir tədbir görülməsə o, Naxçıvanı tərk etməyəcəkdir. Bu vəziyyət mənim yuxarıda göstərdiyim səbəblərə görə uzun müddət davam edə bilməz. Bu yaxınlarda Zati-alilərinizin (Qarabağ general-qubernatoru X.Sultanov nəzərdə tutulur – A.H.) sərhəd postlarının təşkili üçün göndərdiyi iki zabitə qarşı etdiyi qəzəbli hərəkət özünü onda göstərdi ki, o, onlara həyasızcasına quberniyadan çıxıb getməyi və heç bir işə başlamamağı təklif etdi. Bütün bunlar mənim narazılığımın əsaslı olduğunu daha parlaq təsdiq edir».[2].

Yerli feodal əyanlarının bu cür mürtəce nümayəndələrinin Naxçıvanda nüfuzunu zəiflətmək üçün Cəmillinski təklif edirdi ki, «yuxarıda göstərilən şəxslərin hərəkətlərinin qarşısını nə yolla olursa olsun və qurbanlar tələb etsə də almaq», təcili olaraq bura nizami qoşun hissələri göndərmək lazımdır, bu qoşunlara arxalanaraq «respublikanın qanunlarını həyata keçirmək və diyarda baş verən cinayətlərin kökünü kəsmək mümkündür». Yerli xəzinə kifayət qədər pul vəsaiti ilə təmin edilməlidir ki, məmur və qulluqçulara vaxtlı-vaxtında əmək haqqı verilsin, onlara yüksək maaş təyin etmək mümkün olsun. Bundan başqa S.Cəmillinski hesab edirdi ki, ADR-in rəsmi nümayəndələrinin diyara gəlmələri və vəziyyətlə yerində tanış olmaları zəruridir.

Ermənilərlə hərbi toqquşmalar gedişində Kalbalı xan tədricən faktiki olaraq bütün hərbi siyasi və inzibati hakimiyyəti öz əlinə almışdı. O və onun ətrafındakılar xəzinəni, dəmir yolunu, poçtu, teleqrafı idarə edir, şəxsi mülahizələrinə görə vergi müəyyənləşdirirdilər.

Naxçıvan əhalisinə İranın da təsiri artırdı. 1919-cu il dekabrın 22-də respublika XİN-i İrəvandan teleqram aldı. Teleqramda qeyd edilirdi ki, İranın vəzifəli şəxsi «qaçqınları şirniklədirici vədlərlə cəlb

[1] Azərbaycan Respublikası MDƏYTA, f. 894, siy. 10, iş 78, v. 5.
[2] Yenə orada, v. 7.



edir». Azərbaycan hökuməti ehtiyat edirdi ki, minlərlə qaçqının İrana getməsi Naxçıvanın ermənilər tərfindən tutulmasını asanlaşdırar, erməni hücumu qarşısında diyar zəifləyərdi.

Ermənistan Respublikasının hərbi potensialının artması vəziyyəti daha da mürəkkəbləşdirdi. Qızıl ordu tərəfindən darmadağın edilən və Şimali Qafqazdan qaçan Denikin ordusunun zabitləri, hələ çox əvvəllər Denikinin dostluq münasibətləri yaratdığı daşnak dövlətində sığınacaq tapırdılar. Denikin ştabı yaxınlığında daşnak ordusunun nümayəndəsi – Saqatsiyan – var idi. İrəvanda Ermənistan hərbi nazirinin yanında Denikinin nümayəndəsi – 1918-ci ilin sonundan pokovnik Lesli, 1919-cu ilin sentyabrından isə polkovnik Zinkeviç var idi.

1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan və Ermənistan respublikaları arasında razılıq imzalanmışdı. Bu razılaşmaya görə tərəflər aralarındakı hərbi toqquşmanı dayandırmağı və bütün məsələləri, o cümlədən sərhəd məsələsini sülh yolu ilə həll etməyi öhdələrinə götürmüşdülər. 1919-cu ilin dekabrın 14-də isə Bakıda Azərbaycan-Ermənistan konfransı açıldı, burada ərazi məsələsi də müzakirə edildi. Lakin bütün bunlara baxmayaraq, erməni qoşunları 23 noyabr razılaşmasını kobud surətdə pozaraq Zəngəzura hücum etdi və Naxçıvana qarşı hərbi əməliyyatı genişləndirdi. Xanazak və Xaznaver tərəfdən erməni piyada qoşunları artilleriya ilə birlikdə irəliləyir, dinc azərbaycanlı kəndlərini atəşə tuturdular. Bununla əlaqədar Naxçıvanda hərbi-siyasi vəziyyət mürəkkəbləşdi.

Dekabrın 21-də hərbi əməliyyatlara başlayan erməni qoşunları Qarğabazar, dekabrın 22-də isə Uluxanlı kəndini dağıdıb qarət etdilər. Çobanqara və Qaraqışlaq kəndləri uğrunda güclü döyüşlər genişləndi. Azərbaycan kəndlərinin erməni qoşunları tərəfindən darmadağın edilməsi xəbəri polkovnik Haskeli də qəzəbləndirdi. ADR-in Tiflisdəki diplomatik nümayəndələrinin müavini Vəkilovla söhbətində o qeyd etmişdi ki, baş verən hadisələr haqqında yalan məlumat verməklə onu aldadan erməni hökumətinin hərəkətləri onu qəzəbləndirmişdir. Haskel təklif etdi ki, Ermənistana qarşı iqtisadi təsir tədbirləri görülsün, lakin, əlbəttə, Amerika hökuməti buna getmədi.

Dekabrın sonunda Naxçıvana toplanmış Zəngəzur qaçqınları Əylisin erməni sakinlərini oradan qovdular. Erməni hökuməti bu faktdan hər şeydə, həmçinin 23 noyabr razılaşmasını pozmaqla azərbaycanlıları təqsirləndirmək üçün bəhanə kimi istifadə etdi. Qaçqınların başqa kəndə – Qoxtana hərəkətindən xəbər tutan Ermənistan xarici işlər naziri Xatisov ikiüzlülüklə qan tökülməsini dayandırmağın zəruriliyini, bütün məsuliyyəti ADR hökuməti daşıdığını elan etdi. Əslində isə general-qubernator Cəmillinskinin səyləri nəticəsində erməni kəndlərində qan tö-

külmədi, erməni sakinləri sağ-salamat başqa kəndlərə köçmüşdülər (məsələn, Aşağı Əylisdən Yuxarı Əylisə), bütün bunları polkovnik Deli də təsdiq etmişdi.

Bundan başqa bütün qonşu xalqlarla dinc-yanaşı yaşamağa can atan Azərbaycan hökuməti ADR və Ararat respublikası arasındakı ziddiyyətlərin aradan qaldırılmasına çalışırdı. Dövlət Müdafiə Komitəsi Əylis rayonunda zorakılıq aktı baş verərsə, bunun qarşısını almaq üçün öz nüfuzundan istifadə etmək haqqında xüsusi qərar qəbul etmişdi. Edilmiş təshih çox şeydən xəbər verir. Bizə elə gəlir ki, bu qərarın ifadə tərzi və tez-tələsik qəbulu nəyin bahasına olursa-olsun Ararat Respublikası ilə normal münasibətlər yaratmağa can atan Azərbaycan hökumətinin həddən artıq vurnuxmasından xəbər verir. Yoxsa, bu cür qərarı yüksək səviyyədə, hətta faktları yoxlamadan qəbul etmək nəyə lazım idi? Təbiidir ki, belə mövqe Türkiyə nümayəndələrində, o cümlədən Xəlil bəydə narazılıq doğururdu.

Naxçıvanda genişlənən hadisələr beynəlxalq toqquşmaları güzgüdəki kimi əks etdirirdi. 1919-cu ilin sonunda müttəfiqlər arasındakı, xüsusilə də boğazlar məsələsindəki narazılıqlara baxmayaraq, Türkiyənin taleyi artıq həll olunmuşdu. Ekspertlər komissiyası tərəfindən işlənib hazırlanmış Türkiyə ilə sülh müqaviləsinin layihəsi ilə Anadolunun altı şərq vilayətinin daşnak Ermənistanına verilməsi nəzərdə tutulurdu. Bunlarla birlikdə ermənilər Naxçıvan diyarını da almalı idilər.

Türkiyədə işğalçılara qarşı genişlənən xalq hərəkatına qarşı 1919-cu ilin mayın 19-da 9-cu ordunun inspektoru kimi «dövlət və hərbi səciyyəli tapşırıqla» İstambuldan Anadoluya gələn Mustafa Kamal (Atatürk) başçılıq edirdi. Burada artıq müstəqillik uğrunda mübarizə aparan və Kazım Qarabəkir paşa vasitəsilə naxçıvanlılara kömək göstərən Şərqi Anadolunun hüquqlarını müdafiə cəmiyyəti fəaliyyət göstərirdi. Tezliklə Mustafa Kamal cəmiyyətin sədri olur.

1919-cu ilin iyul-avqustunda keçirilən Ərzurum konqresi qərar qəbul etdi ki, «şərq vilayətləri imperiyanın ayrılmaz hissəsidir və heç bir bəhanə ilə osmanlı imperiyasından qoparıla bilməz». Türkiyə üzərində Amerika mandatının qoyulmasına can atan İstambul mürtəce qüvvələrinin əksinə olaraq Ərzurum konqresi Şərqi Anadolu üzərində mandat ideyasını inkar edirdi. Sivas konqresində (1919-cu il 4-12 sentyabr) Amerika mandatı tərəfdarları məğlub oldular. Konqres hər cür müdaxiləyə və Türkiyə ərazisinin hər hansı hissəsinin işğalını qarşı qətiyyətlə mübarizə aparacağını elan etdi.

1919-cu ilin sonunda Mustafa Kamal paşanın başçılıq etdiyi Nümayəndələr komitəsi Anadoluda yeganə səlahiyyətli hakimiyyət əhəmiyyəti qazandı. Türkiyə və Azərbaycanın müstəqilliyinin qatı düşməni



olan daşnaklarla mübarizə milli azadlıq mübarizəsinin mühüm hissəsi oldu. Beləliklə, daşnak ekstremizmi ilə mübarizədə naxçıvanlıların türk milli azadlıq hərəkatının yardım və köməyinə arxalanmaq imkanları vardı.

Daşnaklar isə Ermənistana Amerika mandatını reallığa çevirmək üçün var qüvvələri ilə çalışır, ondan Azərbaycandan Naxçıvanı, Türkiyədən şərq vilayətlərini qoparmaq mexanizmi kimi istifadə edəcəklərinə ümid bəsləyirdilər. Bu məqsədlə də dekabrın sonu – yanvarın əvvəllərində keçmiş baş nazir Kaçaznuninin başçılığı ilə erməni nümayəndə heyəti ABŞ-a yola düşdü. Nyu-Yorkda keçirilən qonaqlıqda nümayəndə heyətinin başçısı bildirdi: «Siz Ermənistana silah verin və əmin olun ki, türklər, kürdlər və tatarlar erməni xalqının sakitliyini pozmağa cürət etməzlər» («Azərbaycan» qəzeti, 1 yanvar 1920). Amerikadakı ermənipərəst kürdlərin mövqeyini erməni müstəqilliyi üzrə Amerika komissiyasının prezidenti Cerard açıqladı. O təkid edirdi ki, Ermənistan hüdudlarında yaşayan türkləri «zərərsizləşdirmək», Qafqazda və Zaqafqaziyada yaşayan türklərdən ayırmaq, onları Şimal-Qərbi Anadolunun sərhədlərində qapalı saxlamaq «zəruridir». Cerard açıq-açığına təklif edirdi: «Ermənistan Qara dənizdən Aralıq dənizinə qədər olan ərazidə dövlət yaratmalıdır və yeddi erməni vilayətini də əhatə etməlidir ki, bu ayırmanı təmin etsin» («Azərbaycan» qəzeti, 1 yanvar 1920). Təbiidir ki, bu planın birinci qurbanı Naxçıvan olmalı idi.

Cerard Amerika hökumətinə təklif etdi ki, ABŞ-da on min daşnak könüllüsündən ibarət legion, elə həmin sayda da bir legion Avropada yaratmaq, onların təşkili və Ermənistana göndərilməsi üçün ermənilərə icazə versin.

Bütün bu hadisələrin rakursu Naxçıvandakı türk nümayəndələrinin fəallaşmasının səbəblərini başa düşməyə imkan verir. Əgər Cəmillinski daşnak dövləti ilə münasibətlərin normallaşmasına can atan ADR rəhbərliyinin mövqeyini, Kalbalı xan isə müstəqil yarımfeodal «xanlıq» yaratmaq məqsədi güdən, hətta bünün üçün ermənilərlə əlaqəyə girən, şüurlu sürətdə ADR-dən ayrılma yolu tütan qüvvələri təmsil edirdisə, Xəlil bəy türk təcrübəsinə əsaslanaraq daşnak başkəsənlərini ancaq güclü intiqam zərbəsi ilə dayandırmağın mümkün olduğunu hesab edən təcrübəli türk zabitlərini təmsil edirdi.

Nəzərə almaq lazımdır ki, İrəvan quberniyasından və Zəngəzurdan olan qaçqınların sayının artması Xəlil bəyin mövqeyini daha da möhkəmləndirdi. Bu adamlar erməni vəhşiliklərindən danışır və naxçıvanlıların qəlbində haqlı olaraq dinc müsəlman əhalisini müdafiə etmək arzusu doğururdu.

Yəqin ki, fevralın ilk günlərində Xəlil bəyin qiyam qaldırıb

Cəmillinskinin tərəfdarlarını qıraraq Naxçıvanda hakimiyyəti ələ keçirməyə çalışmasına da səbəb bu olmuşdur. ADR-in Ermənistandakı diplomatik nümayəndəsi A.Haqverdiyev 1920-ci il fevralın 4-də bu barədə Bakıya xəbər verəndə, XİN-nə məsləhət görürdü ki, Xəlil bəyin Naxçıvandan geri çağırılmasına nail olsunlar.

Digər tərəfdən daha da müstəqilləşən Kalbalı xan Azərbaycanın demokratik hökumətinə tabe olmaqdan imtina edirdi. General-qubernator Cəmillinskinin vəziyyəti ikimənalı idi. Fevralın 29-da o, A.Haqverdiyev vasitəsilə Azərbaycan hökumətindən xahiş edir ki, onu vəzifəsindən azad edib yerinə «təcrübəli şəxs» göndərsinlər. Cəmillinski ADR hökumətindən təcili tədbirlər görməyi tələb edirdi, lakin artıq gec idi. Martda Cəmillinski faktiki olaraq yenidən müstəqilləşən Naxçıvanı tərk edir.

Eyni zamanda başqa sənədlərə əsasən güman etmək olar ki, Cəmillinski və Kalbalı xanın arasındakı ixtilaflardan xalqın aşağı təbəqələrinin ya xəbəri yox idi, ya da əhali bunları Zaqafqaziya ictimaiyyətinə çatdırmamaqla yumşaltmağa çalışırdı. Bu barədə «Azərbaycan» qəzetində dərc edilən məqalədə deyilirdi: «Ordubad və Naxçıvan rayonlarındakı ixtilaflar haqqında erməni qəzetlərinin məlumatları əsassızdır. Gələnlərin dediyinə görə orada tam qayda-qanun hökm sürür. Bütün hakimiyyət Cənub-Qərbi Azərbaycan general-qubernatorunun əlindədir. Heç bir xəstəlik yoxdur. Çörək boldur, ərzaq Ermənistandakından ucuzdur». Türk hərbi dəstələri Naxçıvana gəldikdən az sonra Kəlbalı xan Türkiyənin yüksək hərbi ordenini aldı. ADR hərbi idarəsi isə daşnaklarla döyüşlərdə göstərdiyi igidliyə görə ona general-mayor rütbəsi verdi.

Lakin Naxçıvanın yenidən bərpa edilmiş müstəqilliyi möhkəm deyildi. Yaxın keçmişin təcrübəsi göstərirdi ki, Naxçıvanın müstəqilliyinin zəmanəti olmamasından istifadə edən ermənilər Naxçıvanı ələ keçirməyə çalışacaqlar. Faktiki elə belə də oldu. Bunu Bəyazid türk diviziyasının komandanı Cavid bəylə daimi əlaqə yaradan Xəlil bəy daha yaxşı başa düşürdü. Onlar birlikdə Naxçıvanın müdafiəsi planını hazırladılar və bunu Kazım Qarabəkir paşa ilə razılaşdırdılar. 1920-ci il fevralın 18-20-də Anadoluya nizami yunan qoşunu çıxarılması, fevralın 23-də ingilis eskadrasının gəlməsi Naxçıvanın güclü hərbi müdafiəyə ehtiyacını daha da artırdı.

Yeni müdaxiləyə qarşı ağır mübarizəyə başlayan Türkiyənin zəifləməsindən istifadə edən daşnaklar Naxçıvana hücum etmək üçün hərbi hazırlıqları genişləndirdilər. Antanta ölkələri də onları buna təhrik edirdilər.

Türkiyədəki milli azadlıq hərəkatı ilə üzləşən Britaniya Mustafa



Kamalın qoşunlarına qarşı daşnak Ermənistanından istifadə etmək qərarına gəldi. Antanta səfirləri və xarici işlər nazirlərinin konfransı 1920-ci il martın 12-də Millətlər Cəmiyyətinin Şurasına təklif etdi ki, «yeni yaranmış Ermənistan dövlətini» öz himayəsinə qəbul etsin. Məşhur türk hərbi tarixçisi Cövdət Kərim özünün «Müstəqillik uğrunda türk mübarizəsi haqqında mühazirələr» (İstanbul, 1927) kitabında Britaniya siyasətinin məqsədlərini müəyyənləşdirərək və 1920-ci ilin əvvəllərində Anadoludakı siyasi vəziyyəti nəzərdən keçirərək göstərir ki, türk milli azadlıq hərəkatı ilə mübarizədə Antanta imperialistləri o vaxt Anadolu hərəkatına Zaqafqaziya tərəfdən, yəni daşnak Ermənistandan və Naxçıvan vasitəsilə zərbə planını əsas hesab edirlər. Buna görə də 1920-ci ilin martında Cavid bəyin xahişi və Kazım Qarabəkir paşanın qərarı ilə Naxçıvana Əli Teymur bəyin komandanlığı altında 50 nəfərdən ibarət türk döyüş dəstəsi gəldi.»

Naxçıvanın ADR ilə əlaqələri getdikcə zəifləyirdi. Azərbaycan Respublikasının nəşr edilən Ünvan Təqvimində nə Naxçıvan general-qubernatorluğu, nə də Naxçıvan müəssisələri göstərilmişdi. 1920-ci ilin yanvar-fevral aylarında dərc edilmiş «Azərbaycan» qəzetində Naxçıvandakı vəziyyət haqqında (Akülis ətrafındakı hadisələrlə bağlı məlumatlar istisna edilməklə) demək olar ki, heç bir məlumat yoxdur (lakin biz bilirik ki, bu vaxt burada mühüm hadisələr baş verirdi). ADR-in müstəqilliyinin Paris sülh konfransında tanınması ilə əlaqədar olaraq Azərbaycan hökumətinə respublikanın bütün çoxsaylı qəzalarından, həmçinin Türkiyə, Gürcüstan, Şimali Qafqaz dağlıları və s. tərəfindən göndərilmiş təbriklər içərisində Naxçıvan hökumətinin təbriki yoxdur. Bütün bunlar sübut edir ki, Naxçıvan və ADR arasındakı münasibət çox mürəkkəb idi.

1920-ci il fevralın 11-də Naxçıvan müsəlmanları Gürcüstan hökumətinin sədri İ.Jordaniyaya teleqram göndərərək daşnak qoşunlarının yanvarın 6-dan 23-dək fasiləsiz hücumları haqqında məlumat verirdilər. Naxçıvanlılar qeyd edirdilər ki, «Bu hücumlarla bizi toqquşmaya təhrik edən ermənilər eyni zamanda mətbuatda bu təşəbbüsü bizim adımıza çıxırlar. Yuxarıda göstərilən faktlardan və bizdəki səhih məlumatlardan görünür ki, bu hücumlar təşkil olunur və əhaliyə ayrı-ayrı bandit dəstələri tərəfindən deyil, hökumətin icazəsi ilə edilir» («Azərbaycan» qəzeti, 18 fevral 1919). Teleqramı Bəktaşev, Sultanov, Məmmədzadə, Sadıqzadə, Mir Parnazyan-Taşmanbəyzadə və general-qubernator Cəmillinski imzalamışdılar.

Naxçıvanda erməni təcavüzünün geniş miqyas alması Cənub-Qərbi Qafqazın bütün sakinlərini ciddi narahat edirdi, xüsusilə də ona görə ki, daşnaklar eyni zamanda Zəngəzur, Qars vilayətlərində və Gəncə

qəzasında hücumları genişləndirirdilər. Elə buna görə də fevralın sonunda bütün regionların nümayəndələri İrəvan quberniyası müsəlmanlarının həmyerlilər Cəmiyyəti ilə birgə iclas çağırdılar. İclasda əsas rolu Əli Səbri və Həmyerlilər cəmiyyətinin sədri A.Nəcəfov oynayırdı, iclas Azərbaycan Respublikasına müraciət qəbul etdi.

Müraciətdə qeyd edilirdi ki, Naxçıvan, Şərur, Vedibasar və Ordubad rayonlarının vəziyyəti olduqca mürəkkəb və qeyri-müəyyəndir. Burada müsəlmanlar vəhşicəsinə qırılmış və deməк olar ki, bütün əhali daşnaklar tərəfindən kütləvi surətdə qırılmaq təhlükəsi altındadır. İclas iştirakçıları Azərbaycana tamamilə birləşəcəkləri və buraya Azərbaycan ordusunun nizami hissələrinin göndəriləcəyi ümidində olduqlarını bildirdilər. Müraciətdə bu regionlara təcili kömək göstərilməsi xahiş olunurdu, «yoxsa nəinki erməni hökumətinin diplomatik oyunları, doğma hökumətimizin nüfuzu da təsir göstərə bilməyəcəkdir» («Azərbaycan» qəzeti, 2 mart 1920). Beləliklə, bu regionların əhalisi açıq-aydın bildirirdi ki, (eyni zamanda kömək haqqında yalvarışlarla) ADR hökumətinin problemi sülh yolu ilə həll etmək cəhdi özünü doğrultmadı. Daşnaklarla sülh yolunun axtarılması xalqa ancaq dərd və ələm gətirirdi.

Ordubad ətrafında daşnaklarla amansız döyüşlər başladı. Ordubadlılar hələ martın 7-də ermənilərin hücuma hazırlaşdıqlarını bilir, onların Kərçivan və Meqri tərəfdən irəliləyəcəklərini güman edirdilər. Ordubadlıların dəstələri səngərlərdə otururdular. Lakin martın 8-də düşmənlər Ağanohur və Nüs-Nüs dağları tərəfdən hücuma keçdilər. Daşnakların böyük bir dəstəsi Məlik İbrahim kəndində Əsgərovların malikanəsinə hücum edib oranı viran qoydu.

Sayca atəş nöqtələrinin çox olmasından istifadə edən daşnaklar şəhərin özünə yaxınlaşırdılar, amansız döyüşlər Ordubadın lap yaxınlığında, *şəhər qəbiristanlığında gedirdi. Lakin tezliklə Kalbalı xanın göndərdiyi kömək gəlib çatdı.* Ermənilər darmadağın edildi və 300 adam, 12 qatır və 7 pulemyot itirərək geri çəkildilər.

Martın 21-də Novruz bayramı gecəsi daşnak qoşunları bütün sərhəd boyunca hücuma keçdilər: Sayca on mindən artıq olan döyüş hissələri Düşün, Vənənd, Vələver, Xanağa, Bəysar, Ağrı və Dizə kəndlərinə hücum edib tutdular və yandırdılar. Bundan sonra daşnaklar şəhəri ələ keçirmək məqsədilə Ordubada hücum etdilər. Daşnak işğalçılarının qarşısını almaq üçün könüllü naxçıvanlılarla birgə həftəlik azuqələrini götürərək türk əsgərləri də getdilər. Naxçıvan müdafiəçiləri dörd birləşmiş dəstə yaratdılar. Ordubad cəbhəsindəki dəstəyə türk zabiti Zob bəy, Kolabad hissəsində Kalbalı xan Naxçıvanski, düşmən qüvvələrinin daha çox toplandığı Şərurda Xəlil bəy, Vedibasarda Nəci bəy və Nuru bəy başçılıq edirdilər.



Ordubadlılara kömək üçün yenə Naxçıvandan Ədib bəyin komandanlığı altında 800 nəfərlik dəstə gəldi. Düşmənlə cəsarətlə vuruşan naxçıvanlılar Ordubada yaxın rayonları ermənilərdən təmizləyirdilər. Lakin inadlı döyüşlər nəticəsində hər iki tərəf böyük tələfat vermişdi, Ordubadda bəzi binalar dağıdılmışdı.

ADR-in İrandakı diplomatik nümayəndəliyindən Ordubaddakı hərbi əməliyyatlar haqqında həyəcanlı xəbərlər gəlirdi. Müharibə güclənir və getdikcə kəskin xarakter alırdı. Erməni təcavüzkarları Ordubaddakı binaları, o cümlədən yüksək minarələri və günbəzləri olan məscidləri bombardman edirdilər. Naxçıvanlılar mərdliklə müdafiə olunurdular. Bununla belə o günlərdə «Azərbaycan» qəzetinin (11 aprel 1920) verdiyi məlumata görə üç mindən artıq qaçqın bura toplanmışdı. «Çörək yoxdur və biz mühasirədəyik...» («Azərbaycan» qəzeti, 16 aprel 1920) – deyə qaçqınların nümayəndələri Azərbaycan hökumətinə müraciət edir, həmçinin Qaradağdan buğda almağı və onlara ərzaq göndərməyi xahiş edirdilər.

Erməni qüvvələrinin hücumları haqqında general-qubernator S.Cəmillinski də informasiya göndərirdi. Hələ 1920-ci il martın 23-də o xahiş edirdi: «Azərbaycan hökumətinə təcili olaraq çatdırılsın ki, bütün cəbhə boyu erməni artilleriyasının atəşləri altında amansız döyüşlər gedir, lakin daşnakların fasiləsiz hücumları yerli əhalinin mətanəti ilə darmadağın edilir».

Martın 12-dən 22-dək daşnak quldur dəstələri nizami ordu hissələrinin tərkibində Zəngibasar, Ordubad və Aralıqda qismən və qruplarla basqınlar edirdilər. Lakin əvvəldə əldə etdikləri kiçik müvəffəqiyyət böyük məğlubiyyətlə başa çatdı. Maraqlıdır ki, daşnak qoşunlarının yolu üstündə olan dinc kəndləri xilas etmək üçün naxçıvanlılar Ədib bəyin rəhbərliyi ilə çox fəndgir bir plan hazırladılar və həyata keçirdilər. Bunun üçün naxçıvanlılar və türk döyüşçüləri Ordubada gedən yolu cənubdan bağladılar. Gecə naxçıvanlıların böyük bir dəstəsi Arazı keçdi və sübh tezdən Xarxat dağı tərəfdən ermənilərə hücum etdi. Daşnaklar silah və sursatlarını ataraq qaçırdılar. Mühasirə yarıldı. Ordubad şəhərinə ermənilərin hücumlarının Əylis kəndi tərəfindən qarşısının alınmasında yerli əhaliyə digər kəndlərin, o cümlədən Camaləddin, Nehrəm, Yaycı kəndlərinin sakinləri də kömək edirdi.

Bütün istiqamətlərdə geri oturdulan ermənilər böyük itkilər verərək qaçırdılar. Ancaq Zəngibasarda 100 nəfərədək ölən və yaralanan oldu, həmçinin 200 tüfəng və 2 pulemyot itirdilər. 1920-ci il aprelin 27-də «Azərbaycan» qəzeti yazırdı: «Ararat qoşunları tamamilə ruhdan düşüblər, fərarilik çoxalıb».

Qeyd etmək lazımdır ki, aprelin 9-da Tiflisdə Zaqafqaziya res-

publikalarının konfransı keçirildi. Konfransda ADR-dən Q.Ağayev, O.Kriçinski, F.Vəkilov; Gürcüstan Respublikasından Y.Gegeçkori, Q.Lordkinanidze, Q.Maxaradze; Ermənistan Respublikasından A.Ohacanyan, T.Bekzadyan və S.Xaçaturyan iştirak edirdilər. Azərbaycan nümayəndələri təklif etdilər ki, təkcə Qarabağda deyil, Ordubad, Naxçıvan və Vedi rayonunda da hərbi toqquşmalar dayandırılsın. Lakin ermənilər etiraz etdilər. Yəqin güman etdilər ki, hərbi üçtünlük onlar tərəfindədir və yaxın günlərdə Naxçıvanı ələ keçirəcəklər. Lakin onların işğalçı niyyətləri həyata keçmədi.

Belə bir fakt işğalçının iç üzünü lap aydın göstərir: 1920-ci il martın sonu–aprelin əvvəlində Naxçıvana beynəlxalq komissiya gəldikdə Naxçıvan könüllüləri hərbi əməliyyatı dayandırdılar, ermənilər isə yox.

XI ordu tərəfindən Azərbaycan Demokratik Respublikası hökumətinin zorla devrilməsindən və Azərbaycanda sovet hakimiyyətinin elan olunmasından istifadə edən daşnak liderləri Naxçıvanı Azərbaycandan qopartmaq üçün daha bir cəhd edirlər. 1920-ci il mayın ortalarında bolşevik qoşunları tərəfindən Qarabağdan sıxışdırılan Dro və Nijdenin quldur dəstələri Zəngəzura gəlirlər. Nizami erməni qoşunlarının hücumu qarşısında Kalbalı xanın və Xəlil bəyin dəstələri Şahtaxtı stansiyasınadək geri çəkilməli olurlar.

Amansız döyüşlərdən sonra erməni quldur dəstələri Şərura daxil oldu və yerli əhalini qəddarcasına qırdılar. Tutduqları ərazidə onlar yerli əhaliyə qarşı amansız terrora başladılar. Bu hərəkətləri ilə onlar Azərbaycanın bolşevik işğalı şəraitində özlərinin sərsəm planlarını həyata keçirmək üçün maksimum üstünlük əldə etmək, vəziyyətdən istifadə edərək bu əraziləri boşaltmaq məqsədi ilə müsəlmanların əksəriyyətini qırmaq, sonradan buraya erməniləri köçürmək niyyətində idilər. Bir çox Naxçıvan kəndləri daşnakların vəhşi qırğınından canlarını qurtarmaq üçün İrana - Cənubi Azərbaycana qaçırdılar.

Elə bu vaxt XI ordu Naxçıvana yaxınlaşırdı. 1920-ci il iyunun 25-də komandir Levandovski İranla sərhədə çıxmaq üçün hazırlıq əmri verdi, hərbi hissələr Naxçıvan – Culfa – Ordubad xəttinə çıxmalı idilər.

Dilican istiqamətində daşnak hərbi hissələri üç polkun tərkibində hücuma keçib Uzuntala, Lalakənd, Tatlı və s. kəndləri tutdular. Daşnak nizami qoşunu general Baqdasarovun komandanlığı altında birləşmişdi, onun ştabı Dilicanda yerləşirdi. Zəngibasarı darmadağın etdikdən sonra Naxçıvana hərəkət etmək məqsədilə Dəvəli kəndinə irəlilədilər.

Lakin türk ordusu Naxçıvan diyarını qırğından qurtardı. İyunun sonunda türklərin Bəyazid diviziyasının 9 minlik hissələri Cavid bəyin komandanlığı altında Naxçıvan diyarının ərazisinə daxil oldular və iyulun 2-də diviziyanın ön hissəsi (3 min nəfər) Şahtaxtı – Naxçıvan rayo-



nuna gəldi. İyulun 7-də XI ordunun Gorus kəndində yerləşən səhra ştabına türk zabitləri gələrək Naxçıvana hərəkət edən daşnak qoşunlarına qarşı birgə vuruşmağı təklif etdilər.

Bu məlumatları alan Levandovski əmr verdi: «Türk hərbi hissələrinə münasibətdə, ən yaxşı qonşuluq münasibətləri və sıx əlaqələr saxlamaqla, Mərkəzdən göstəriş alana qədər Ermənistan Respublikasına qarşı onlara fəal yardımdan çəkinmək lazımdır».[1] 32-ci diviziyanın rəisi Şteyqerə Gorus rayonunu əldə saxlamaq, İrəvan və ... Naxçıvan tərəfdən bütün yolları təmin etmək əmr olunmuşdu. Yəni özünün strateji vəzifəsini yerinə yetirən bolşevik rəhbərliyi naxçıvanlılara kömək etməyə cəhd göstərmirdi, bunu türk komandanlığının öhdəsinə buraxmışdı.

İyulun sonunda Dro Gorus rayonunda avantüraya əl atdı. Bazarkən və Angelaut kəndləri ərazisində bolşevik hərbi hissələrinə hücum edən daşnaklar müəyyən vaxt Naxçıvanla Gorusun əlaqəsini kəsdilər. Lakin tezliklə gəlib çatan XI ordunun 28-ci atıcı diviziyası onları bütünlüklə darmadağın etdi. Həmin diviziyanın rəisi Nesterovski öz qoşunlarına verdiyi 11 avqust 1920-ci il tarixli əmrində qeyd edirdi: «Gorus – Enlelyayurd rayonunda məğlub edilmiş daşnak quldur dəstələrinin əsas hissələri dağıdılmışdır və yalnız Dro və Nijdenin dəstələrinin qalıqları Küşibulaq rayonunda qruplaşırdılar».[2]

1920-ci il iyulun 27-də bolşevik süvariləri Kotlyayev və Sturnovun komandanlığı altında Naxçıvana daxil oldular. Naxçıvanın bolşevik qoşunları tərəfindən tutulması onların Azərbaycandakı hərbi kampaniyasının qanunauyğun nəticəsi idi. Qeyd etmək lazımdır ki, bu şəhərin tutulmasının zəruriliyi Hərbi-İnqilab Şurasının XI orduya hələ 1920-ci ilin maymda göndərilmiş əmrində qeyd edilmişdi. Sonra, iyunda İrəvanda RSFSR nümayəndəsinin daşnak hökuməti ilə Ermənistan və Azərbaycan SSR arasındakı mübahisəli rayonlar haqqında apardığı nəticəsiz danışıqlar başa çatdı.

İyunun 19-da G.K.Orconikidze V.İ.Lenin və G.V.Çiçerinə göndərdiyi teleqramda qeyd edirdi ki, «Naxçıvan artıq bir neçə aydır ki, üsyançı müsəlmanların əlindədir. Bütövlükdə, məncə Azərbaycanın nümayəndəsini Moskvaya çağırmaq və onunla birlikdə Azərbaycan və Ermənistana aid mübahisəli məsələləri həll etmək lazımdır».[3]

Öz qoşunları qarşısına Naxçıvanı və Zəngəzuru tutmaq vəzifəsi

---

[1] Интернациональная помощь XI Армии в борьбе за победу советской власти в Азербайджане. Документы и материалы, 1920 – 1921 гг. Б., 1989, с.89-90.

[2] Интернациональная помощь XI Армии в борьбе за победу советекой власти в Азербайджане. Документы и материалы, 1920 – 1921 гг. Б., 1989, с.104-105.

[3] Дж. Кулиев. Борьба коммунистической партии за осуществление ленииской политики в Азербайджане, Баку, 1970, с.556-557.

qoyan bolşeviklər daşnakların razılığını gözləmədən «Naxçıvanın azad edilməsi» haqqında əmr verdilər. XI ordu hissələrinə əmr verilmişdi ki, sərhədi keçmək belə lazım gəlsə daşnakları amansızcasına məhv etsinlər. Daşnakların Naxçıvana yürüş planı iflasa uğradı.

Beləliklə, 1920-ci il iyulun 28-də Naxçıvana sovet hökuməti gətirildi, lakin bu hökumət yalnız Naxçıvan şəhərində və onun ətrafında fəaliyyət göstərirdi. Elə həmin gün tərkibinə M.Bəktaşov, Q.Səlimov, A.Kazımov, F.Mahmudbəyov və Q.Babayevin daxil olduğu Naxçıvan İnqilab Komitəsi sovet hökumətinin qurulmasını elan etdi. Naxçıvan Azərbaycan SSR, onun vasitəsilə də RSFSR ilə möhkəm hərbi-iqtisadi ittifaqda olan Sovet Sosialist Respublikası elan edildi.

1920-ci il avqustun 11-də XI ordunun 28-ci atıcı diviziyası Ermənistanla sərhəd xəttini bağladı. Daşnak quldur dəstələrinin qalıqları məhv edilirdi.

Bununla belə Naxçıvanda hələ də 8 minə qədər türk əsgəri qalmışdı, inqilab komitəsinin tərkibində komandanlığının nümayəndəsi Cavid bəy var idi. Naxçıvan diyarının mərkəzində möhkəmlənən bolşeviklər öz təsir dairələrini genişləndirir, eyni zamanda tədricən özlərinə məxsus cəza tədbirləri görürdülər. 1920-ci il avqustun sonunda Naxçıvan İnqilab Komitəsinin qərarı ilə Milli Komitənin keçmiş üzvləri həbs olunub Bakıya göndərildilər. O cümlədən Cəfərqulu xan və Rəhim xan Naxçıvanskilər. Rəhim xanın oğlu Təbrizdə yaşayan İsgəndər xan da Naxçıvandan sürgün edildi. Naxçıvan diyarının faktiki başçısı Kəlbalı xan Naxçıvanski də vətəni tərk etməli oldu.[1] Araz-Türk hökumətinin bir çox görkəmli xadimləri, yerli inzibati idarələrin məmurları və zabitlər bolşevik liderləri tərəfindən Naxçıvanda cəzaya məruz qaldılar, məhv edildilər.

Avqustda bolşeviklər daşnakları Şahtaxtıdan, sentyabr-oktyabrda isə bütün Ordubad qəzasından qovdular. Şərur qəzası 1920-ci ilin dekabrında bolşeviklər tərəfindən tutuldu. Avqustda İrəvanda olan polkovnik Stoks erməni hökumətinə bildirdi ki, Naxçıvanı bölşeviklərə verməklə o böyük səhv etdi.

Beləliklə, 1920-ci ilin iyul-dekabrında bütün Naxçıvan diyarı bolşeviklər tərəfindən işğal edildi və müvəqqəti olaraq sovet respublikalarına qeyri-müəyyən dövlət suverenliyi verildi. Böyük bolşevik imperiyasının bir hissəsinə çevrilən Naxçıvan yenidən özünün çoxəsirlik regional müstəqilliyini itirdi. Naxçıvan SSR-nin yaranması ilə Naxçıvanın əhəmiyyətli hadisələr və daşnak basqınlarına qarşı qəhrəman mübarizələrlə zəngin müstəqil inkişaf dövrünə son qoyuldu. Regionun siyasi, iqtisadi, coğrafi nadirliyi hakimiyyətin tez-tez dəyişən xarakterini, diyarın statusunu şərtləndirdi. Belə ki, hələ indiyə qədər əldə olunan ədəbiyyatda Araz-Türk Respublikası mövcudluğunun xronoloji çərçivəsinə və regionun ADR-in tərkibindəki statusunu müəyyənləşdirən həmin çərçivələrə heç bir münasibət bildirilməmişdir.

[1] Əldə olan məlumata görə Cəfərqulu xan və Rəhim xan güllələnməmiş. Rusiya qarşısında xidmətləri nəzərə alınmaqla ömürlük həbsə məhkum edilmiş və Şuşa həbsxanasında mehtər işləmiş, 1943-cü ildə elə burada acından ölmüşlər. Kəlbalı xan Cənubi Azərbaycana mühacirət etmiş, sonra İstanbul və Tehranda yaşamış, mühacirətdə Azərbaycan milli demokratik hərəkatının xadimləri ilə əməkdaşlıq etmişdir (Bax: K. Rəhimov, S.Sadıxov, Göstərilən əsəri, s.82).



Bizə elə gəlirdi ki, Araz-Türk Respublikası – Naxçıvan general-qubernatorluğu tarixi zəncirində iki anı dəqiqləşdirmək lazımdır. Birincisi, Naxçıvanda general-qubernatorluğun özünün xüsusi statusu var idi. General-qubernator Cəmillinskinin hakimiyyəti burada məhdud idi və heç bir vəchlə Qarabağ, Qazax və ADR-in digər general-qubernatorluqlarının səlahiyyət və hüquqları ilə müqayisə edilə bilməzdi. Yerli feodal əyanlarının general-qubernatorun hakimiyyət və səlahiyyətlərini məhdudlaşdırmaq cəhdlərinə ADR hökuməti çox zəif reaksiya verirdi. Bizə elə gəlir ki, ADR burada formal nümayəndə rolunda çıxış edirdi.

İkincisi, Kəlbalı xan və onun tərəfdarlarının səyləri nəticəsində Naxçıvandakı general-qubernatorluq 1920-ci ilin martında faktiki olaraq ləğv edilmiş və Naxçıvan yenidən dövlət müstəqilliyi qazanmışdı. Təsadüfi deyildir ki, o günlərdə Naxçıvan, Şərur, Vedibasar və Ordubad rayonu nümayəndələrinin iclası «qəti olaraq ADR-ə birləşmək» cəhdini ifadə edirdi, yəni diyarın Azərbaycan tərkibində olmasının formallığı regionun bütün əhalisi tərəfindən hiss edilirdi.

Lakin Naxçıvan SSR-in elan olunması belə hələ bir neçə ay hakimiyyətdə qalan daşnakların diyarı öz xeyirləri üçün qoparmaq kimi sərsəm ümidlərini üzməmişdi. Regionun statusunu qəti surətdə müəyyənləşdirən hadisələr yaxınlaşırdı.

*A.Hacıyev. Qars və Araz-Türk Respublikalarının tarixindən, Bakı, 1994, s. 43-116.*

## İNGİLİSLƏRİN BÖLGƏLƏRLƏ BAĞLI MÖVQEYİNDƏKİ ZİDDİYƏTLƏR

Bütövlükdə Güney Qafqazı, xüsusilə də Şimali Azərbaycanı özlərinin nüfuz dairələrinə keçirməyə, Rusiya və Türkiyəni buradan sıxışdırmağa çalışan Qərb dövlətləri, ilk növbədə isə İngiltərə və ABŞ bu dövrdə yaranmış yerli şəraitdən istifadə edərək Naxçıvan və Zəngəzur bölgələrində təsirlərini artırmağa cəhdlər göstərirdilər. Bu cəhdlər ermənilərin həmin bölgələri ələ keçirmək niyyətləri ilə üst-üstə düşdüyündən onlar bir-birlərindən qarşılıqlı surətdə faydalanmağa çalışırdılar.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra bölgələrdə möhkəmlənmək sahəsində ilk təşəbbüsü bir sıra səbəblərə görə ingilislər ələ aldılar və bu məqsədlə də müxtəlif vasitələrlə ermənilərdən istifadə etməyə başladılar. Yeri gəlmişkən bu dövrdə Ermənistanı dəstəkləyən Böyük Britaniya hökumətinin ermənilərə münasibəti birmənalı olmamışdı. Bunu öz hökumətinin 1918-ci il dekabrın 9-da keçirilən iclasında «Ermənistan Fransaya verilməlidir, çünki başqa heç kəs bu qeyri-adi dərəcədə qeyri-cazibədar insanlarla nə isə etmək istəmir»[1] söyləyən Kerzonun həm də «dünya müharibəsi başlandıqdan sonra əlahəzrət hökumətinin başlıca məqsədi ermənilərin azad edilməsidir»[2] deməsindən də görmək olar.

Böyük Britaniya hökuməti hərbi kabinəsinin L.Corcun iştirakı ilə keçirilən iclasında (12 dekabr 1918-ci il) Zaqafqaziya haqqmda məsələnin müzakirəsi zamanı Baş nazirin regiona geniş miqdarda silahlı qüvvələr göndərilməsinin zəruriliyinə və onların burada saxlanılmasına şübhə ilə yanaşdığı aşkarlandı. Lakin buna baxmayaraq 1919-cu ilin yanvarında Naxçıvan bölgəsinə çox az miqdarda ingilis hərbi qüvvələri gətirildi.

Bununla eyni vaxtda Ermənistanın qoşun hissələri keçmiş İrəvan quberniyasının bir sıra yerlərini tutaraq Naxçıvana doğru irəliləmək istəyir, həm bu bölgədə, həm də Zəngəzurda dinc müsəlman əhalisini qırır, onu qovaraq burada erməniləri yerləşdirirdilər. Ermənilər 1918-ci ilin dekabrında Zəngibasar və qismən də Vedibasar ərazilərini ələ keçirdikdən sonra (ümumiyyətlə, onların 1918-ci ilin dekabrı ilə 1919-cu ilin iyulu arasındakı müddətdə keçmiş İrəvan quberniyasının azərbaycanlılar yaşayan yerlərinə təşkil etdikləri beş böyük hücumdan birincisinin nəticəsində) polkovnik Doluxanovun başçılığı ilə Şərura soxuldular.[3]

Şərur əhalisi əvvəlcə ermənilərə qarşı çıxmadı. Lakin onları duzçörəklə qarşılayan Sədərək kəndinin nümayəndəsi güllələndikdən, 60 nəfər isə həbs edilərək İrəvana göndərildikdən, Doluxanovun dəstələrinin Şərur qəzasının içərilərinə doğru irəlilədiklərini gördükdən sonra azərbaycanlılar ciddi müqavimət göstərdilər.[4] Dəmirçi kəndi yaxınlığında ilk toqquşma oldu, o ələ keçirilərək dağıldı və qarət edildi. Kəlbalı xanın 400 nəfərlik dəstəsinin köməyə gəlməsi ilə azərbaycanlılar hücuma keçib erməniləri Dəmirçidən, «Qurd Qapıları»ndan qovaraq Arazdəyən stansiyasınadək təqib etdilər.[5] Arxiv sənədlərində öz əksini tapan və azərbaycanlıların ermənilərə qarşı qəhrəmancasına vuruşmalarına sübut ola biləcək belə bir faktı burada qeyd etmək lazım gəlir: Şərur sakini Məşədi Ələsgər yerli əhalidən xeyli silahlı qüvvə təşkil edib 15 gün ermənilərlə vuruşaraq onlara divan tutmuşdu; düşmənlər 15 gün də meyidlərin və yaralıların yığılması ilə məşğul olmuşdular.[6] Sözgəlişi qeyd edək ki, bir az sonra Cənub-Qərbi Azərbaycan qoşunlarının komandanı və həmin mahalın general-qubernatorunun köməkçisi B.Naxçıvanskinin vəsadətilə Şərur və Naxçıvanm ermənilərdən azad edilməsində fərqlənənlər ADR hərbi nazirliyi Baş qərargahının 1919-cu il 29 mart tarixli, 155 saylı əmrinə əsasən rütbələri artırılmaqla mükafatlandırıldılar.[7]

Bölgəni dinc yolla tutmağa müvəffəq olmayan və Naxçıvan, Şərur mahallarının artıq ermənilərə inanmayan azərbaycanlı əhalisinin güclü silahlı müqaviməti ilə qarşılaşan Doluxanov Arazdəyən stansiyası yaxınlığındakı qarışıq etnik tərkibə malik olan Dəvəli kəndində dayandı. O buradan Naxçıvan və Şərur üzərinə növbəti hücum hazırlasa da, uğursuzluqlarına görə komandanlıqdan kənarlaşdırıldı.

Ermənilər üzərindəki Şərur qələbəsindən sonra Naxçıvanda yeni – diktatura hökuməti yaradıldığı elan olundu.[8] Mövcud gərgin vəziyyət, ADR-lə geniş əlaqələrin qeyri-mümkünlüyü və s. səbəblərə görə bu hökumət İranla birbaşa münasibətlər yaratmağa cəhdlər göstərdi. Təbrizə – vəliəhdə bu vilayəti öz təbəəliyinə qəbul etmək xahişi ilə müraciət olundu. Vəliəhd bu barədə Tehrana məlumat verdikdən və müəyyən məsləhətləşmələr apardıqdan sonra tərkibində iki fars və iki erməni olan bir nümayəndə heyətini Ermənistan hökumətinin yanına göndərdi. Lakin Cəfərqulu xanın Naxçıvan-Şərur dairəsinin ingilis general-qubernatoruna yolladığı 1919-cu il 26 fevral tarixli məktubda da görünür ki, İranla yaxınlaşmaq cəhdləri Osmanlı qoşunlarınm getməsindən sonra bölgə üçün ermənilər tərəfindən yaradılan təhlükədən və onun ADR-dən təcrid olunmasından irəli gəlmişdi.[9] Və indi ingilis general-qubernatorundan mahalın ana torpaqla – Azərbaycanla birləşməsi üçün şərait yaradılması xahiş olunurdu.

Qeyd etmək lazımdır ki, bütün bu müddətdə erməni quldur dəstələri tərəfindən azərbaycanlılara qarşı çoxlu vəhşiliklər edildi. Bu barədə Naxçıvan və Ordubad sakinləri admdan ADR-in DİN-nə göndərilən 1918-ci il 28 dekabr tarixli teleqramda deyilirdi ki, İrəvandan 25 ininlik erməni qüvvəsi Sədərəyi keçərək 8 müsəlman kəndini mühasirə etmiş, si-

lahları almışdır.[10] Naxçıvan və Şərur əhalisi İrana qaçmağa hazırlaşır, 200 nəfərdən artıq adam Arazı keçərkən tələf olmuşdur. Zəngəzur ermənilləri bizə hücum etmişlər; əgər İrəvan quberniyasına kömək göndərməsəniz, o ermənilərin hücumundan məhv olacaqdır.[11]

«Азербайджан» qəzetinin 1919-cu il 7 yanvar tarixli sayında dərc olunan «Ermənі quldur dəstələrinin vəhşilikləri» adlı məqalədə Zəngəzur və Ordubad müsəlmanlarının nümayəndəsinin cəsarətlə Andranikin quldur dəstələrinin odlu mühasirəsindən keçib 1919-cu il yanvarın 4-də Bakıya bəzi sənədlər və məlumatlar gətirməsi qeyd olunurdu. Məqalədə ermənilərə xas keyfiyyətə və üsula sübut olan belə bir fikir söylənilirdi ki, bütün bu vəhşilikləri törədən Andranik müsəlmanlara bunları ingilislərin əmri ilə etdiyini bildirirdi.[12]

Həmin nümayəndənin gətirdiyi məktublardan birində Ordubad müsəlmanlarının faciələrindən bəhs olunur, Zəngəzurun Əldərə, Nüvədi, Oxçu, Şabadın, Qaraçimən, Tey və s. azərbaycanlı kəndlərinin ermənilər tərəfindən qarət edildiyi, onların əhalisinin müəyyən hissəsinin bir təhər qurtularaq Ordubada və İrana getdiyi, hər gün onlarla adamın soyuqdan və aclıqdan öldüyü, yerli camaatın da vəziyyətinin yaxşı olmadığı, lakin erməni hücumlarını dəf etdiyi bildirilirdi.[13] Burada son olaraq yazılırdı ki, İrəvandan Şuşayadək bir milyon müsəlman əzab çəkir, varyoxdan çıxır, həlak olur. Məktub müəllifi digər bölgələrdəki qan qardaşlarından təcili kömək göstərilməsini xahiş edir, erməni quldurlarının qarşısını ala biləcək qüvvələrin vaxtında özünü yetirməyəcəkləri təqdirdə onların Zəngəzur və Ordubad müsəlmanlarını ucdantutma qırmaqdan çəkinməyəcəklərini söyləyir, bu barədə qəzetlərdə yazmağa, qonşulara, Avropa ölkələrinə məlumat verməyə çağırırdı.

Ordubad, Şərur əhalisinin və yerli hakimiyyət nümayəndəsi Əmirzadənin Naxçıvandan Azərbaycan Respublikasının Təbrizdəki nümayəndəsi Rauf bəyə göndərdikləri teleqramda erməni silahlı qüvvələrinin Sədərək, Dəmirçi, Qəmərli və s. kəndlərin dinc sakinlərini qıraraq hər tərəfdən hücuma keçdikləri, əhalinin Araz çayının sahilləri boyu yerləşdiyi bildirilir, böyük dövlətlərin missiyalarına məlumatlar verilməsi xahiş olunurdu.[14]

«Азербайджан» qəzetinin müxbiri A.Hətimzadənin Qəmərlidən yazdığı «İrəvan quberniyasında dəhşətlər» adlı məqaləsində də ermənilərin vəhşiliklərinə dair çoxlu faktlar vardır.[15] Müxbir İrəvan quberniyasının müsəlmanlar yaşayan ərazilərinin qana batdığını, daşnakların nəinki onlar üzərində ağalıq etməyi, hətta bu mahalı bütövlükdə azərbaycanlılardan təmizləməyə çalışdıqlarını, Aram paşa, Dro, Silikov, Dəli Qazar, general Araşevin başçılığı altında olan qoşunların Sürməli, İrəvan, Naxçıvan və s. qəzalarda 350-dən artıq kəndimizi yandırdıqlarını, xeyli adamın öldürüldüyünü, Arazın soyuq sularında donduqlarını, Makuya və İranın digər bölgələrinə qaçdıqlarını qeyd edirdi. O, Azərbaycan parlamentinin bütün üzvlərini irəvanlı qardaşlarının çıxılmaz vəziyyətinə nəzər yetirməyə, kiçik xalqların hüquqlarını elan edən müttəfiq dövlətlərin nümayəndələrini isə xilaskarlıqda bulunmağa səsləyirdi.

Bölgədə ermənilərin törətdikləri dəhşətlərin miqyasının və coğrafiyasının genişləndiyi, azərbaycanlılarla onlar arasında siyasi-hərbi qarşıdurmanın kəskinləşdiyi bir şəraitdə ingilislər bu ərazilərdə müvəqqəti bitərəf zona yaratdıqlarını elan etdilər. Əvvəlcə mayor Hibbon Zəngəzur qəzasından Naxçıvana gəldi, bölgədəki vəziyyətin ingilis ali komandanlığının qərargahında aydınlaşdırılmasınadək ermənilərə və azərbaycanlılara tutduqları mövqelərdə dayanmaq haqqında əmr verdi.[16] Habelə digər bir mülahizəyə görə bu səfərdə əsas məqsədlərdən biri də Türk-Araz Respublikasının iqtisadi və siyasi şəraiti, silahlı qüvvələrinin durumu ilə tanışlıq, onun Türkiyənin hakim dairələri ilə münasibətlərinin səciyyə və səviyyəsini aydınlaşdırmaq olmuşdur.

1919-cu il yanvarın əvvəllərində iki nəfər ingilis zabiti Tiflisdən Naxçıvana gəldi. Onlardan biri – Lauten yerlərdəki vəziyyətlə tanış olduqdan sonra tərəflər arasında barışıq yaratmaq üçün yanvarın 21-də müəyyən təkliflərlə çıxış etdi: a) münaqişənin qəti həlli və sərhədlərin müəyyənləşdirilməsinədək bu ərazilərin əhalisi ingilis komissiyası tərəfindən idarə olunacaqdır; b) qoşunlar əvvəlki yerlərində – müsəlmanların silahlı qüvvələri Arazdəyən stansiyası və Sədərəkdə, erməni hərbi hissələri isə Arazboyu Yaycıda dayanacaqlar; v) İrəvan-Culfa dəmiryolu təcili açılmalı, tərəflər arasında sərbəst hərəkət və ticarət təmin olunmalıdır; q) Arazdəyən-Culfa rayonlarındakı müsəlman gözətçilər arasında ingilis əsgərləri də durmalıdırlar və s.[17]

İngilislərin bu kimi tədbir və təklifləri bölgənin azərbaycanlı əhalisində müəyyən sakitlik yaratsa da erməni hərbi dəstələrinin polkovnik Qarakeşişovun başçılığı ilə ikinci dəfə hücuma keçərək Böyük Vedi və onun ətrafındakı kəndləri bombardman etmələri xəbərinin yanvarın son günlərində Naxçıvana çatması vəziyyəti xeyli gərginləşdirdi. Naxçıvan nümayəndələri İ.Məmmədov və M.Əliyevlə birlikdə hadisə yerinə gələn Lauten ermənilərin yaratdıqları dəhşətli mənzərəni görəndən sonra ingilis ali komandanlığına xəbər verəcəyi hədəsi ilə polkovnik Qarakeşişovun hərbi əməliyyatlarının dayandırılmasına müvəffəq ola bildi.[18]

Burada çox vacib bir məsələni də nəzərdən qaçırmaq olmaz. Ermənistan hökuməti 1918-1920-ci illərdə Zəngəzur, Naxçıvan, Şərur-Dərələyəz və Qarabağ bölgələrində gedən erməni-azərbaycanlı müharibəsinin ona aid olmadığını və rəsmi İrəvanın bu müharibədə iştirak etmədiyini dəfələrlə bildirmişdi. Halbuki bunu təkzib edən çoxlu faktlar,

sənədlər və materiallar vardır. Burada yalnız Lautenlə birlikdə Böyük Vediyə gəlmiş Naxçıvan nümayəndəsi İ.Məmmədovun «ermənilər bütöv müsəlman kəndlərini yandırıb dağıtmaqla nəyə nail olmaq istəyirlər? – sualına polkovnik Qarakeşişovun «ona İrəvandan belə əmr olunmuşdur və müsəlmanlara bu cür münasibətin səbəbləri yalnız Ermənistan hökumətindədir», - cavabı kifayət edir.[19]

Lautenin bölgədəki vəziyyət barədə Tiflisə – ingilis ali hərbi komandanlığının qərargahına ünvanladığı teleqramın müqabilində 1919-cu ilin fevralın 1-də Arazdəyən stansiyasına oradan rəsmi sənəd daxil oldu. Sənəddə deyilirdi ki, bütün Naxçıvan rayonu ingilis general-qubernatorluğu elan olunur, polkovnik Lauten başçı təyin edilir və ona əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən qonşu rayonları da öz general-qubernatorluğuna birləşdirmək hüququ da verilir.[20] Bu barədə rəsmi olaraq fevralın 5-də İngiltərə və Fransanın Təbrizə gedən konsullarının iştirakı ilə hər iki tərəfin nümayəndələrinə: polkovnik Kəlbalı xan Naxçıvanskiyə, İ.Məmmədova və erməni hücumlarının iştirakçıları general Pirumova, polkovnik Qarakeşişova bildirildi.[21] Lauten bir müddət sonra Naxçıvan bölgəsinin rəhbərlərinə və Ermənistan hökumətinin başçılarına bu məzmunda bir direktiv göndərdi: «Araz vadisinin rayonları qanunçuluq və qayda yaratmaq üçün müvəqqəti olaraq Britaniya hökumətinin idarəsinə götürülür. Britaniya qoşunlarının dəstələri Dəvəlidə, Naxçıvanda, Culfada və Şahtaxtıda duracaqlar. Göstərilən ərazinin bütün məsələləri Britaniya hökuməti tərəfindən həll ediləcəkdir və hamı onun qərarlarına sözsüz tabe olmalıdır».[22]

Eyni zamanda general Pirumovdan bütün erməni hərbi hissələrini Vedibasardan çıxarmağı tələb edən Lauten əvvəlcə buna rədd cavabı aldı. Lakin sonra İrəvanda apardığı kəskin danışıqlar, hədə və tələblər sayəsində çox çətinliklə də olsa erməni qoşunlarının üç gün ərzində Vedibasardan çıxmalarına (güya iki erməni kəndini müsəlmanlardan qorumaq üçün Arazdəyən stansiyasında saxlanılan 40 əsgər istisna edilməklə) nail oldu. Son vaxtlara qədər Culfayadək olan əraziləri özlərininki hesab edən ermənilər Şərur məğlubiyyətindən və bölgədə ingilis qubernatorluğu elan edildikdən sonra sanki bu fikirlə razılaşdılar. Halbuki onlar bu vaxtadək bölgəni idarə etmək üçün məmurlar təyin etmək, erməni dövlət bankının Naxçıvanda şöbəsini açmaq, yerli başçılara iki milyon manat paylamaq niyyətində idilər.[23]

Ümumiyyətlə, ingilislərin Naxçıvan mahalında möhkəmlənmək xəttinin həyata keçirilməsi müddətini (1919-cu ilin yanvar-iyul ayları) şərti olaraq kiçik mərhələlərə ayırsaq, onda yanvar-fevralın əvvəllərini onların bölgəyə gəlişi və burada öz general-qubernatorluqlarını yaratmalarını elan etməklə nəticələnən birinci mərhələ kimi müəyyənləşdirmək olar. 1919-cu il fevralın 8-i ilə mayın 3-ü arasındakı vaxtda (bunu da ikinci mərhələ hesab etmək olar) Naxçıvan bölgəsinin əhalisi ingilis zabitləri Lauten, sonra isə Simeonun general-qubernatorluğu şəraitində yaşadı. Naxçıvan Müsəlman Milli Şurasının rəsmi hesabatından da göründüyü kimi, bu müddətdə mahalın əhalisi, demək olar ki, əslində özözünü idarə etdi, sakit və sərbəst şəkildə, Paris Sülh konfransının xeyirli sona yetəcəyi ümidi ilə fəaliyyət göstərdi, İranla, İrəvanla, Tiflislə ticarət əlaqələri genişləndi, hətta erməni qaçqınlarının qayıtmalarına razılıq bildirildi.[24]

Bütün fəaliyyət boyu olduğu kimi, ingilislərin Naxçıvan bölgəsində qaldıqları müddətdə də, ADR-in rəhbərliyi bu əraziyə dair öz suveren hüquqlarını müdafiə etmək, oranın təhlükəsizliyinin təmintına yardım göstərmək və azərbaycanlı əhalisinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almaq, ən başlıcası isə, mahalı Quzey Azərbaycanın digər torpaqları ilə birləşdirmək sahəsində müəyyən tədbirlər həyata keçirdi. ADR parlamentinin 1919-cu il yanvarın 8-də keçirilən iclasında İrəvan quberniyası əhalisinin bir qrupunun və irəvanlı deputatların sədr əvəzi H.Ağayevə ünvanladıqları bəyanatı müzakirə edildi.[25]

Bu bəyanatda 1917-ci ilin dekabrı ilə 1918-ci ilin iyunu arasında erməni hərbi hissələrinin quberniyada iki yüzdən artıq müsəlman kəndini yandıraraq əhalisini qırması və qovması, Türkiyə qoşunlarının bölgəyə gəlişindən sonra burada əmin-amanlığın bərpa olunması diqqətə yetirildi. Sənəddə həmçinin belə bir mühüm fikir vurğulanırdı ki, müstəqil vahid kimi təşkil olunmuş və hökumətini yaratmış bu yerlərin əhalisi özünü Azərbaycanın ayrılmaz hissəsi sayır və müqəddəratının Paris konfransı tərəfindən həllini gözləyir, eyni zamanda həm də ermənilərin hücumlarına məruz qaldığından özünün cismani məhvinin qarşısının alınmasını xahiş edir.

Bəyanatın müzakirəsi zamanı çıxış edən M.Vinoqradov yalnız Sülh konfransının bu və ya başqa dövlətin sərhəd dəyişikliklərini müəyyən edə bilməsini söylədi. M.Ə.Rəsulzadə İrəvan quberniyasının hüdudlarında yaşayan qardaşlarımıza yardım göstərilməli olduğunu bildirdi. S.Qəniyev isə qeyd etdi ki, Ermənistan hökumətinin İrəvanlı müsəlmanların hüquqlarına qəsd etməsini dayandırmasına özünün nüfuzlu təsirini göstərməsi xahişi ilə müttəfiq qoşunların komandanlığına müraciət olunmalıdır. Müzakirə «Musavat» partiyası fraksiyası tərəfindən təklif edilən qətnamənin qəbulu ilə başa çatdı. Qətnamədə Azərbaycan hökumətinə müzakirə edilən məsələlərlə əlaqədar Ermənistana təsir göstərmək üçün bütün tədbirlərin təcili görülməsi tapşırıldı.

Parlamentin 1919-cu il 25 yanvar tarixli iclasında M.Ə.Rəsulzadə növbədənkənar bəyanatla çıxış etdi.[26] O, Naxçıvanın türk əhalisinin və

ümumiyyətlə, İrəvan quberniyası müsəlmanlarının vəziyyəti ilə əlaqədar olaraq verilmişdi. Bəyanatda müttəfiq qoşunlarının Qafqazdakı missiyası ilə bağlı məqamlara toxunan və öz mövqeyini açıqlayan M.Ə.Rəsulzadə qeyd edirdi ki, hazırda günahsız qan axıdılan yerlərdən biri də Naxçıvan qəzasıdır. O, Ermənistan hökumətinin Naxçıvan və digər qəzaların azərbaycanlı əhalisini düşmən kimi qiymətləndirməsinə qarşı çıxaraq qəti tədbirlər görməyə çağırdı.

«Azərbaycan» qəzetinin M.Ə.Rəsulzadənin bu bəyanatı ilə əlaqədar şərhində açıqlandığı kimi, general Andranikin daşnak dəstələri öz qanlı işlərini Zəngəzur qəzasından yenidən qonşu Naxçıvan qəzasına keçirmiş, bu ərazini azərbaycanlılardan zorla təmizləmək niyyətlərindən əl çəkməmiş, hətta bunu özlərinin dövlət siyasəti səviyyəsinə qaldırmışdılar. Digər tərəfdən, Osmanlı qoşunlarının tərk etdikləri Naxçıvan, Ordubad və s. yerlərdə erməni hərbi hissələri ən qəddar vasitələrlə öz hakimiyyətlərini yaratmağa çalışırdılar. Şərhçi bunu da yazırdı ki, Cənubi Qafqazdakı müttəfiq qoşunlarının baş komandanı general Q.Milnin Qafqazda qayda-qanun yaratmaq qayğısı müsəlman əhalisinin ağır vəziyyətdə olduğu Ararat respublikasını da əhatə edəcəkdir.

Keçmiş İrəvan quberniyası (Naxçıvan mahalı və s.) müsəlman-türk əhalisinin vəziyyətinin öyrənilməsi, ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərin qarşısının qismən də olsa alınması, Naxçıvan, Zəngəzur və digər bölgələrin ərazi toxunulmazlığının təmin olunması istiqamətində müəyyən tədbirlərin görülməsində ADR-in Ermənistanda diplomatik nümayəndəliyinin açılması da çox mühüm rol oynadı. ADR XİN-in sənədlərindən[27] bəlli olur ki, hökumət səfir vəzifəsinə əvvəlcə Məmməd Rza ağa Vəkilovun namizədliyini irəli sürmüş, onun razılığını almağı Gürcüstandakı diplomatik nümayəndə M.Cəfərova həvalə etmişdi. D-r Vəkilovun uzun müddət Tiflisdə olmaması ucbatından onunla məsləhətləşmə baş tutmadığından Azərbaycan FİK üzvü Məmməd xan Təkinski həmin vəzifəyə tövsiyə olunmuşdu. Ermənistan Respublikası XİN-nin 1919-cu il 20 yanvar tarixli, 86 saylı teleqramına əsasən müəyyən razılaşma əldə edildikdən sonra 1919-cu il yanvarın 29-da ADR hökuməti onu bu vəzifəyə təsdiqləmişdi.[28] M.Təkinski tezliklə İrəvana gələrək səlahiyyətlərinin icrasına başlamış və bu vəzifədə səmərəli fəaliyyət göstərmişdi.

ADR hökuməti ilə Naxçıvan bölgəsinin əlaqələrinin yaradılması və inkişafında, buradakı yerli azərbaycanlı əhalisinin problemlərinin həllində əslən keçmiş İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların, onların yaratdıqları müxtəlif səciyyəli təşkilatların böyük əməyi, gördükləri tədbirlərin mühüm rolu olmuşdur. 1919-cu il yanvarın 2-də İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirildi.[29]



Araz-Türk Respublikasının nümayəndəsi P.Bayrambəyov[30] aldığı son xəbərlər əsasında İrəvan quberniyası müsəlmanlarının faciəli vəziyyəti ilə müşavirə iştirakçılarını tanış etdi. O, habelə Araz Respublikasının yaranmasının tarixi barədə ətraflı məlumat verdi. Müşavirədə qəbul edilən qərarda İrəvan quberniyasını tutmaq, bu alınmadıqda isə Ararat Respublikasını müsəlmanlara qarşı törədilən vəhşiliklərin qarşısını almaq üçün tədbirlər görməyə məcbur etmək qənaətinə gəlindi. Burada habelə bölgəyə qarışıq komissiya göndərmək xahişi ilə ingilis generalı Tomsona müraciət yollamaq, onunla görüşmək məqsədilə T.Makinski, P.Bayrambəyov və digərlərindən ibarət nümayəndə heyəti yaratmaq, yerli azərbaycanlı əhalisinin ağır vəziyyəti ilə bağlı ADR parlamenti və hökumətinə, başqa orqanlara memorandum vermək nəzərdə tutulurdu.[31]

Bu qərara müvafiq olaraq 1919-cu il yanvarın 5-də Bakıda parlamentin binasında keçmiş İrəvan quberniyasında, o cümlədən də Naxçıvan bölgəsində yaşayan azərbaycanlıların nümayəndələrinin fövqəladə iclası keçirildi, mahaldakı mövcud vəziyyət müzakirə olundu və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. Cəmiyyətin əsas vəzifələrinə: a) ADR hökuməti ilə İrəvan quberniyasının müsəlmanlar yaşayan hissələri arasında əlaqələr yaratmaq; b) həmin quberniyadan olan azərbaycanlı qaçqınlara maddi yardım göstərmək və s. daxil idi.

1919-cu il yanvarın 6-da həmyerlilər cəmiyyətinin birinci iclasında onun aşağıdakı tərkibdə idarə heyəti seçildi: T.Makinski (sədr), H.Qasımov (sədr müavini), R.İsmayılov (katib), M.Ə.Sidqi (katibin müavini) və A.Makinski (xəzinədar).[33] İdarə heyətinin sabahısı gün keçirilən iclasında onun üzvlüyünə namizəd Mirabbas Mirbağırovu yerlərdəki vəziyyətlə yaxından tanış olmaq və tövsiyələr hazırlamaq məqsədilə təcili keçmiş İrəvan quberniyasına göndərmək qərara alındı.[34] Burada həmçinin müsəlmanlara dəyən zərəri müəyyənləşdirmək məqsədilə İrəvan quberniyasına qarışıq komissiya göndərilməsi üçün təcili tədbirlər görülməsi və həmyerlilər birliyi üzvlərindən bir nəfərin də həmin komissiyanın tərkibinə daxil edilməsinin Azərbaycan hökumətindən xahiş olunması, Mirbağırovun xüsusi səlahiyyətlərlə İrəvan quberniyasına ezamiyyətə getməsinin ADR-in baş nazirinin nəzərinə çatdırılması razılaşdırıldı. İclasın sonunda isə Araz-Türk Respublikasının nümayəndəsi P.Bayramovun Nazirlər Şurasının sədri F.Xoyski tərəfindən qəbul edilməsi və İrəvan quberniyasındakı hadisələr haqqında məlumatı bəyənildi. İrəvan quberniyasından olan qaçqınlar üçün ayrılan bir milyon manatdan müəyyən işlər üçün müxtəlif məbləğlər ayrıldıqdan sonra qalan 900.000 manat P.Bayramov tərəfindən Naxçıvana aparıldı.[36]

Naxçıvan bölgəsinin 1919-cu ilin əvvəli üçün ictimai-siyasi duru-

munun və ingilislərin burada yeritdikləri siyasətin, ADR hökuməti ilə bölgənin əlaqələri və s. məsələlərin araşdırılmasında M.Mirbağırovun Naxçıvana səfəri və onun yekunları barədə İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinə məruzəsi[37] çox mühüm rol oynadı. Böyük əhəmiyyət kəsb edən bu səfər, bizcə, ADR hökuməti ilə Naxçıvan mahahnın azərbaycanlı əhalisinin əməli və faktiki əlaqələrinin yaradılması yolunda birinci addım hesab oluna bilər.

Hökumətin razılığı və İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin tapşırığı ilə 1919-cu il yanvarın 24-də Bakıdan yola düşən M.Mirbağırov əvvəlcə Gəncəyə gəlmiş, burada hərbi nazirlik tərəfindən ona qoşulan 12 nəfər Azərbaycan zabiti ilə birlikdə Qaryagindən (Füzuli) İrana keçərək Ordubada, nəhayət, 27 gündən sonra – fevralın 19-da Naxçıvana çatmışdı.[38]

Bu dövrdə Milli Şura, İcraiyyə Komitəsi və Naxçıvandan təyin edilən komendant tərəfindən idarə olunan Ordubad əhalisinin hərarətlə qarşıladığı nümayəndələr keçirdikləri müxtəlif görüşlərdə öz gəlişlərinin məqsədlərini açıqlamış və ADR-in yaranma tarixindən danışmış, yerli şəraiti öyrənmişdilər. Nümayəndələrin Ordubadda olduqları müddətdə baş verən ən dəyərli hadisələrdən biri Milli Şuranın, bu mahalın Azərbaycanla birləşmək arzusu və niyyətinə dair protokolun[39] onlara təqdim edilməsi sayıla bilər. Bununla əlaqədar Mirbağırov öz məruzəsində Ordubada Azərbaycan hökuməti tərəfindən bacarıqlı və nüfuzlu məmurlar təyin olunmasını təklif edirdi.

Fevralın 20-də Naxçıvanda da səmimiyyətlə qəbul edilən nümayəndələr ətraf aləmlə əlaqələri kəsilmiş bu adamlara Azərbaycanın dövlət həyatı, İrəvan quberniyası müsəlmanlarının həmyerlilər birliyinin yaradılması haqqında məlumat verdilər. Mirbağırovun Naxçıvana səfərinin mərkəzində duran vacib məsələlərdən biri də onun bölgənin yerli başçıları, habelə buradakı ingilislərlə apardığı danışıqlar olmuşdur. Həmin danışıqlarda nəzər diqqəti cəlb edən mühüm məqamlar olsa da, onların ana xəttini Naxçıvan bölgəsinin Azərbaycana mənsubiyyəti və idarəçiliyi, ingilislərin bu işdə iştirakı məsələləri təşkil edir.

Birinci belə görüş və danışıqlar fevralın 22-də M.Mirbağırovun və onunla Gəncədən gəlmiş polkovnikin, ingilis general-qubernatorunun, yerli hökumətin sədri Cəfərqulu xanın və komandan Kəlbalı xanın iştirakı ilə oldu.[40] İngilis generalının «Siz kimsiniz və nə üçün gəlmişsiniz?» sualına cavabında polkovnik izah etdi ki, biz yerli əhalinin arzusuna uyğun olaraq Azərbaycan hökuməti tərəfindən hərbi işin təşkili üçün göndərilmişik. Bunun müqabilində general bildirdi ki, bu ərazi hələlik Azərbaycanın tərkib hissəsini təşkil etmir və kimə məxsus olacağı məlum deyildir, burada ingilis qubernatorluğu mövcuddur, Sizin hökumətin buraya adamlar göndərmək hüququ yoxdur, mən Sizə qonaqlar kimi baxıram.



Belə olduqda M.Mirbağırov kiçik xalqların Avropa millətləri, xüsusilə də ingilislər tərəfindən etiraf edilən öz müqəddəratlarını təyin etmələri prinsipi, general Tomsonun və C.Milnin Azərbaycan dövlətinə münasibətini açıqlamışdı. O həm də bölgənin tamamilə müsəlmanlardan ibarət əhalisinin Azərbaycan hökumətinə xüsusi rəğbət bəslədiyini və onların adından gələn nümayəndələrin bunu təsdiqlədiyini, xeyirxah ingilis nümayəndələrindən biri kimi generalın da yerli camaatın rifahı naminə çalışacağına və erməni dəstələri tərəfindən qırılmasına imkan verməyəcəyinə əmin olduğun bildirmişdi.

Bu fakt da olduqca maraqlıdır ki, görüşün sonunda ingilis general-qubernatoru Cəfərqulu xanla təkbətək söhbətində ona: 1) ermənilərin Naxçıvana və əvvəl yaşadıqları kəndlərə qayıtmalarına; 2) Şərurdan Ermənistana min pud taxıl buraxılmasına icazə verməyi təklif etdi. Cəfərqulu xan isə Bakıdan gələn nümayəndələrlə məsləhətləşdikdən sonra bildirdi ki, birinci təklif mühacirət haqqında məsələ kimi onun Sülh konfransı tərəfindən həllinədək təxirə salınmalıdır, buğdanı isə yerli əhalinin ehtiyac duyduğu neft və şəkərə dəyişmək olar. General bunu Tiflisə çatdıracağını vəd etdi.

Fevralın 23-də Naxçıvan məscidində hökumətin üzvləri və nümayəndələrin iştirakı ilə xalqın yığıncağı keçirildi.[41] Xalq yekdilliklə Azərbaycana birləşmək arzusunda olduğunu bildirdi, bütün əhalinin və hökumətin yalnız Azərbaycana tabe olmaq mövqeyi rəsmiləşdi və bölgənin aşağıdakı şərtlər əsasında idarə olunması təklifi irəli sürüldü: 1) anarxiyanın ləğv edilməsi; 2) hökumətin hazırkı tərkibi ilə bağlı narazılıqla məsələnin mürəkkəbləşdirilməməsi; 3) hökumətin tanınması və onunla birgə işləməyə başlanılması; 4) Azərbaycan hökumətinə təqdimat üçün rəsmi sənədlərə nail olunması.

Fevralın 25-də nümayəndələrin, ingilis general-qubernatorunun və Naxçıvan hökumətinin üzvlərinin iştirakı ilə ikinci görüş oldu.[42] Bu zaman Naxçıvan hökumətinin müttəfiqlərin, o cümlədən də ingilis qoşunlarının Qafqaza gəlişinin səbəbləri sualına general-qubernator biz sizin daxili işlərinizə qarışmaq niyyətində deyilik və buraya da əmin-amanlığı bərpa edərək qoruyub saxlamaq üçün gəlmişik cavabını verdi. Görüşdən sonra zabitlər ancaq Kəlbalı xanı başçı kimi görmək istədiklərini söylədikdə M.Mirbağırov Kəlbalı xanın öz namusluluğu və zəhməti sayəsində xalqın sevimlisi olduğunu, bizimlə işləyəcəyini və heç kimin onu kənarlaşdıra bilməyəcəyini bəyan etdi.

Elə həmin gün Naxçıvan hökumətinin çox gurultulu və kəskin, qarşılıqlı hədələr şəraitində keçən iclasında Bakıdan və Gəncədən gələn

nümayəndələr qeyd etdilər ki, Azərbaycanın təmsilçiləri kimi mövcud yerli hökuməti tanıyırlar və onunla birgə işləyəcəklər. Onların bu bəyanatına əsasən Azərbaycan hökumətindən buraya öz məmurlarını göndərmək xahiş olundu. M.Mirbağırov könüllü surətdə Azərbaycana birləşmək barədə rəsmi akt tərtib etməyi və bunun üçün də komissiya seçməyi məsləhət gördü. Siyasi, iqtisadi, hərbi, mülki və mədəniyyət məsələlərinə dair maddələrdən ibarət olan akt hökumətin, Milli Şuranın və ətrafdakı əhalinin nümayəndələri tərəfindən imzalanaraq, Azərbaycan hökumətinə çatdırılmaq üçün xüsusi nümayəndə heyətinə (Naxçıvandan 2, Şərur, Zəngibasar və Vedibasarın hərəsindən 1 nəfər olmaqla) təqdim edildi.[43]

M.Mirbağırovun Naxçıvanda olduğu müddətdə yerlərdə hərbi işin vəziyyəti də öyrənildi. Bu zaman aydınlaşdırıldı ki, hazırda yerli hökumətdə vur-tut 2 ədəd ½ düyməli top, Naxçıvanda təmirə ehtiyacı olan eyni düyməli 1 top, Maxtada 1 və Ordubadda isə düzəldilməli olan 2 pulemyot qalmışdır.[44] Polkovnik hərbi ehtiyaclar barədə müvafiq nazirliyə ətraflı məruzə hazırladı ki, o da sonra M.Mirbağırov vasitəsilə Gəncəyə çatdırıldı. Qərara alındı ki, hərbi işin yenidən təşkili üçün bölgəyə çoxlu silah gətirilməli və Vedi, Şərur, Naxçıvan, Ordubadda 20 piyada rotası, bir batereya üçün artilleriya komandası, 400 nəfərlik süvari dəstəsi, pulemyot dəstəsi və təlim komandası təşkil olunmalıdır.[45]

Nümayəndələrin Naxçıvandan ayrılarkən ingilis general-qubernatoru ilə vidalaşmaları zamanı onun söylədiyi bir fikrə də diqqət yetirmək lazım gəlir. General-qubernatorun «ermənilər Naxçıvan, Şərur, Sürməli və Dərələyəz deyil, Qars və Ərdəhana iddia edirlər» mülahizəsi[46] sonralar bunun tamamilə əksinə olduğunu göstərdi. Nümayəndə heyəti texniki səbəblərə görə iki gün İrəvanda qalarkən ermənilərin ciddi maliyyə böhranlarına məruz qaldıqlarını, aclıq və bahalıq vəziyyətini, xəstəliklərdən çoxlu ölüm hallarını, əsgərlərin ağır şəraiti və s. müşahidə etmişdi. Missiya Tiflisdə M.Təkinski və İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyətinin nümayəndələri ilə də görüşdükdən sonra Azərbaycana qaytmışdı.

M.Mirbağırov bölgədəki və ətraf yerlərdəki siyasi-hərbi vəziyyətlə tanış olduqdan, azərbaycanlı əhalisinin müxtəlif təbəqələrinin, ictimai qüvvələrin mövqelərini və qarşılıqlı münasibətlərini dərindən araşdırdıqdan sonra aşağıdakı təklifləri vermişdi:

- bu mahalı idarə etmək üçün müttəfiqlərin, İran və Ermənistanın təsirinə qarşı mübarizə aparmağa qabil olan, özgə təsiri altına düşməyən və müəyyən məqsədyönlü siyasəti inadla və ardıcıllıqla həyata keçirən, habelə iradəli, cəsur, qətiyyətli, rüşvətə meyl etməyən azərbaycanlı general-qubernator təyin olunmalıdır;



- bölgəyə hərbi nazirliyin yuxarıda sadalanan keyfiyyətlərə malik olan nümayəndəsi də göndərilməlidir;
- mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar mütləq azərbaycanlılardan təyin edilməlidirlər;
- yerli hərbi işi təşkil etmək üçün göndərilən zabitlər kifayət etmədiyindən əlavə zabitlər dəstəsini bölgəyə yollamaq lazımdır;
- Azərbaycanın uzaq ucqarları, məhsuldar torpağı, çoxlu məhsulu, duzu, digər faydalı mineralları olan və müttəfiqlərin, fars-erməni diplomatiyasının məkrli siyasəti ilə üzləşən Naxçıvan və Şərur Azərbaycan Respublikası tərəfindən səxavətlə təchiz olunmalıdırlar.

Bölgədəki vəziyyətin həddən ziyadə ağırlığını, oradakı problemlərin təxirə salınmadan həllinin zəruriliyini, səfərin əhəmiyyəti və yekunlarını əsas tutaraq M.Mirbağırov ümumdövlət məsələlərinə aid olan bir məruzə kimi onun Nazirlər Şurasınm müzakirəsinə təqdim olunmasını da məsləhət görmüşdü.

ADR hökumətinin Naxçıvan bölgəsinə dair hüquqlarının, mahalın idarə olunmasında onun yaxından iştirakının təmin edilməsi, yerli müsəlman əhalisinin problemlərinin çevik həlli burada xüsusi general-qubernatorluğun təşkilini də şərtləndirir. İstər M.Mirbağırovun Naxçıvan bölgəsinə səfərinin yekunları və onlardan irəli gələn vəzifələr, istərsə də Cənub-Qərbi Azərbaycanın (Naxçıvanın) Müvəqqəti hökumətinin işlər müdiri B.Naxçıvanskinin 1919-cu il fevralın sonlarında Bakıya gəlişi zamanı qaldırdığı məsələlər də belə bir addımın atılmasını zəruri edirdi. B.Naxçıvanski «Азербайджан» qəzetinin[47] əməkdaşı ilə söhbətində və rəsmi dairələrlə apardığı danışıqlarda öz missiyasınm məqsədlərini açıqlayaraq belə bir vacib məsələyə toxunmuşdur ki, Şərur və Ordubad qəzaları Azərbaycan torpağı olduğundan Müvəqqəti hökumət həmin ərazilərin Cənub-Qərbi Azərbaycan adı altında ADR ilə birləşməsi üçün onun rəhbərliyinə və ingilis komandanlığına müraciət etməyi qərara almışdır.

B.Naxçıvanskinin məlumatlarından aydın olur ki, hazırda bölgədə yerləşən çox da böyük olmayan ingilis hərbi dəstəsindən camaat razıdır, lakin əhali müxtəlif gündəlik tələbat mallarına və ərzaq məhsullarına, maliyyə yardımına kəskin ehtiyac duyur, epidemiyalardan əziyyət çəkir, Zəngəzurdan gələn azərbaycanlı qaçqınlara da yardım göstərilməlidir. O həmçinin bölgəyə, nəzdində yerli idarə nümayəndələrindən ibarət Şuranın da fəaliyyət göstərəcəyi, general-qubernatorun təyin edilməsini ADR rəhbərliyindən xahiş etmək üçün müəyyən səlahiyyət aldığını, artıq bu məsələ üzrə hökumətlə və ingilis komandanlığı ilə prinsipial razılıq əldə olduğunu da bildirirdi. Qəzetin yazdığına görə, B.Naxçıvanski Tiflisdə ingilis komandanlığı nümayəndələri ilə görüşər-

kən onların da həmin əyalətlərin Azərbaycana birləşməsinə rəğbətlə yanaşdıqlarını və bu barədə Versal konfransına məruzə edəcəklərinə vəd verdiklərinin şahidi olmuşdu.

Bütün bu cəhalətləri nəzərə alan Azərbaycan hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğunu (arxiv sənədlərində o Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu, habelə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının müvəqqəti general-qubernatorluğu kimi də gedir) yaratdı.[48] Həmin qərara əsasən də Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski onun hərbi hissə, Hacı Mehdi Bağırov isə mülki hissə üzrə köməkçiləri təyin olunurdular, həmçinin yerli hakimiyyətin təşkili və qoşun hissələrinin saxlanılması üçün DİN-nin 20 milyon manatlıq fondundan 500 min manat pul ayrıldı.[49] General-qubernatorluğun nəzdində 7 nəfərdən ibarət Şura formalaşdırıldı.

Daha sonra respublika hökumətinin 1919-cu il 3 mart tarixli qərarına müvafiq surətdə bölgədə nə qədər silahlı qüvvənin olmasını, onun necə təşkil edilməsi və saxlanılmasını aydınlaşdırmaq məqsədilə Hərbi nazirliyə general-qubernatorluğa nümayəndə göndərməsi tapşırıldı və əlavə daha 500 min manat vəsait buraxılması razılaşdırıldı. Hökumətin 1919-cu il 28 fevral və 30 mart tarixli sərəncamları ilə bölgədə idarəçiliyin təşkili üçün daha 1 milyon manat ayrıldı.[50] Martın 16-da B.Naxçıvanski öz ərizəsinə əsasən general-qubernator vəzifəsindən azad olunaraq, xidmətdən tərxis edilən M.Bağırovun yerinə – mülki hissə üzrə köməkçi oldu; Zaqatala general-qubernatoru Haşımbəyov Naxçıvan general-qubernatoru təyin edildi.[51] Doğrudur, general-qubernatorluq müəyyən obyektiv səbəblərə görə geniş və səmərəli fəaliyyət göstərə bilməsə də hər halda onun yaradılması və bəzi tədbirləri bölgənin Azərbaycan hökuməti ilə əlaqələrinin möhkəmləndirilməsində müəyyən rol oynadı.

Bölgənin ADR-lə əlaqələrini daha da möhkəmləndirmək, mahalda onun general-qubernatorluğunun təşkilinə dair bir sıra məsələləri konkretləşdirmək və s. ilə bağlı 1919-cu il martın 8-də Araz-Türk Respublikasının xüsusi missiyası Naxçıvandan Bakıya gəldi.[52] Burada belə bir maraqlı faktı da qeyd edək ki, tanınmış şair-dramaturq H.Cavid əfəndi də bu nümayəndə heyətinin tərkibinə daxil idi. Geniş səlahiyyətlərə malik olan həmin missiyanın qaldırdığı məsələlər Azərbaycan parlamentinin 1919-cu il 10 mart tarixli iclasında müzakirə olundu və Naxçıvana xüsusi komissiya göndərilməsi ilə əlaqədar fikir mübadiləsi aparıldı.[53]

*İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s. 84-97.*



## NAXÇIVAN MAHALINDA AMERİKA GENERAL-QUBERNATORLUĞU MƏSƏLƏSİ

Bəzi xarici dövlətlərin Naxçıvan və Zəngəzur bölgələri ilə əlaqədar mövqelərinin daha da açıqlanmasında Paris Sülh konfransında Qafqazla və Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı məsələlərin kontekstində həmin mahallara dair məqamların müzakirəsi də mühüm rol oynadı. Bu müzakirələr və onlarm nəticələri ilə bağlı bir sıra məsələlər Qafqaz Azərbaycanı Sülh nümayəndəliyinin Paris konfransına Memorandumu[54], Versal konfransındakı Azərbaycan nümayəndə heyəti sədrinin ADR-in Baş nazirinə 1919-cu ilin mart-dekabrında göndərdiyi məlumatlar[55], ADR hökumətinin müxtəlif vaxtlarda ona yolladığı materiallar[56], Qafqaz respublikalarının Sülh konfransındakı nümayəndəliklərinin birgə iclaslarının protokolları[57] və s. öz əksini tapmışdır.

Sülh konfransındakı ümumi səciyyəli müzakirələrdə tədqiq etdiyimiz problemə dair məsələləri aşağıdakı şəkildə qruplaşdırmaq olar: a) bəzi xarici dövlətlər (bu dövrdə, əsasən, ABŞ, qismən də İngiltərə və Fransa) tərəfindən dəstəklənən ermənilərin Naxçıvan, Zəngəzur, Qarabağ və s. bölgələrə ərazi iddialarını Sülh konfransı vasitəsilə qanuniləşdirməyə və reallaşdırmağa çalışmaları; b) bununla əlaqədar olaraq Azərbaycan nümayəndə heyətinin bütövlükdə, xüsusilə də həmin bölgələrlə bağlı siyasi-diplomatik tədbirləri; v)İranın Sülh konfransı vasitəsilə «öz tarixi torpaqlarını» - Şimali Azərbaycanı, ilk növbədə isə Naxçıvan-Zəngəzur mahallarını «geri qaytarmaq» cəhdləri və onları dəf etmək üçün göstərilən diplomatik səylər.

Məlum olduğu kimi, daşnak hökuməti Versal Sülh konfransınadək və onun işinin davam etdiyi müddətdə Azərbaycanın Zəngəzur, Naxçıvan və s. bölgələrində sürətlə «etnik təmizləmə» siyasətini həyata keçirməklə «türksüzləşdirilmiş» mahallara öz hüquqlarını «sübuta» yetirməyə və bununla da həmin ərazilərin Ermənistana «tarixi» mənsubiyyətinin dünya xalqaları tərəfindən tanınmasına çalışırdı. Buna görə də Ermənistan özünün bu qəsbkarlıq məqsədlərinə müvafiq olaraq Paris Sülh konfransına tələblər irəli sürdü. Ermənilərin konfransa ünvanlanan Memorandumunda azərbaycanlıların birinci dünya müharibəsində Osmanlı türkləri ilə müvafiq olmaları və Bakıda ingilis-erməni qüvvələri ilə vuruşmaları, hazırda da Qafqazda yeni fəlakət törədə bilmələri kimi cəfəng «dəlillər»in ardınca Qafqaz Ermənistanının – keçmiş İrəvan quberniyasını (vaxtı ilə onun tərkibinə qatılan Naxçıvan bölgəsi və s.), habelə Gəncə quberniyasının cənub hissəsini (Zəngəzur və b. mahallar) əhatə edən – ərazisi göstərilirdi.[58]

«Daşnaksütun»un İrəvanda çıxan «Joqovurdi Dzain» qəzeti hə-

min Memorandumdakı tələbləri təkrarlayaraq Ermənistanın sərhədlərini təsvir edən yazısında ermənilərin «tarixi və demoqrafik hüquqlarına əsaslanaraq» bütün İrəvan quberniyasını və Gəncə quberniyasının Zəngəzur qəzasını da onun ərazilərinin sırasına daxil etmişdi. Bu qəzetin yazılarına əsasən «Qafqaz. Ermənilərin iddiaları» mövzusunda xüsusi material hazırlayan «Borba» qəzeti (18 aprel 1919-cu il) belə bir maraqlı faktı vurğulayırdı: İrəvandakı ingilis missiyasının üzvü polkovnik Temperleyin Ermənistan hökumətinə etdiyi «Ermənistan Rus dövlətinin 1914-cü il hüdudlarında hansı dairələri özünün ayrılmaz hissələri sayır?» sorğusuna cavabında əks tərəf digər xeyli ərazilərlə yanaşı həm də bütün İrəvan quberniyasının və cüzi istisnalarla Gəncə quberniyasının Zəngəzur qəzasının adını çəkmiş, hazırda İrəvan quberniyasında – a) şimal-qərb bölməsi (Dizam-Almalı) çıxılmaqla Naxçıvan qəzasına, b) Şərur qəzasına (Araz və Xaçik kəndlərindən cənuba) və Gəncə quberniyasının bir hissəsinə (Zəngəzur nəzərdə tutulur – İ.M.) onun hakimiyyətinin yayılmadığını bildirirdi.[59]

Doğrudur, Versaldakı erməni nümayəndə heyətinin tələbləri böyük dövlətlərin başçıları (L.Corc, F.Nitti) tərəfindən ciddi qəbul edilməsə də daşnakların və havadarlarının siyasi-diplomatik cavabları verildi. ADR-in Sülh konfransındakı nümayəndəliyinin Memorandumunun «Azərbaycan Respublikasının ərazisi» adlı IX bölümündə xalqımızın tarixi və etnoqrafik hüquqlarına, habelə Qafqaz Azərbaycanının keçmiş inzibati bölgüsünə əsasən çox haqlı olaraq Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur mahalları da ölkəmizin hüdudlarına salınmışdı.

«Böyük Ermənistan» uğrunda fitnə-fəsadların Versaldakı davamına qarşı mübarizədəki siyasi-diplomatik tədbirlər arasında Ə.Topçubaşovun Sülh konfransının sədrinə və müttəfiqlərin nümayəndələrinə ünvanladığı 1919-cu il 16/19 avqust tarixli etiraz notası[60] xüsusi yeri tutur. Ə.Topçubaşovun N.Yusifbəyova göndərdiyi 22/25 sentyabr, 9 saylı məlumatda[61] öz əksini tapan həmin etiraz notası ingilislərin himayəsi ilə Qars Respublikasının Ermənistana birləşdirilməsi, habelə Naxçıvan, Şərur-Dərələyəz, Sürməli mahallarının və İrəvan qəzasının bir hissəsinin onun idarəçiliyinə keçməsinin elan edilməsi ilə əlaqədar verilmişdi.

Mühüm əhəmiyyət kəsb edən bu diplomatik sənəddə aşağıdakı məqamlar nəzər-diqqəti cəlb edir: 1) adları çəkilən mahalların 1919-cu il aprelin sonlarında ermənilərin idarəçiliyinə verilməsinin elan olunması və bununla bağlı Azərbaycan hökumətinin müttəfiqlərin Qafqazdakı qoşunlarının komandanlığına qətiyyətlə etiraz etməsi; 2) bu qəzalarda, xüsusilə də Vedibasar rayonunda Andranikin quldur dəstələrinə bənzər «vanlılar», «sasunlular» adlı erməni hərbi hissələrinin müsəlman əhalisinin başına olmazın müsibətlər gətirmələri, görünməmiş vəhşiliklər törətmələri; 3)ADR Sülh nümayəndəliyi öz hökumətinin mövqeyini qızğın müdafiə etməklə Azərbaycanın ayrılmaz hissəsi olan bu ərazilərin idarəçiliyinin ermənilərə verilməsini onun həmin qəzalara dair şəksiz hüquqlarının açıq-aşkar pozulması kimi qiymətləndirirdi.

Bu aktla yerli müsəlman əhalisi ilə Ermənistan Respublikası arasında daimi anlaşılmazlıqlar və hətta toqquşmalar mənbəyi yaranacağını vurğulayan nümayəndə heyəti ADR hökumətinin mövqeyinin haqlı olduğuna dair bu kimi mühüm dəlilləri də gətirdi: a) göstərilən qəzaların Azərbaycanın tərkib hissəsi kimi həmişə onun tərəfindən idarə edilməsi, Ermənistan Respublikasının isə idarəçilik mənasında hazırkı vaxtadək həmin rayonlarla heç bir əlaqəsinin olmaması; b) bu rayonların müsəlman əhalisinin Ermənistan Respublikasının idarəçiliyinə əsla dözməmələri və Azərbaycana can atmaları, çoxsaylı nümayəndə heyətləri və yazılı müraciətlər göndərmələri, «ermənilərin hakimiyyətini qəbul etməkdənsə ölməyə hazır olmalarını» bildirmələri; v) ən başlıcası isə adları çəkilən rayonların – Azərbaycanın yerli əhalisi ilə eyni xalq, eyni millət təşkil edən, yalnız etiqada görə deyil, həmçinin etnik tərkibə, dilə, əxlaqa və məişətə görə də həmcins olan – azərbaycanlılarla məskunlaşmaları, elə təkcə həmin qəzalarda yaşayan müsəlmanların və ermənilərin nisbətinin bu torpaqların Azərbaycana mənsubiyyətinin həlli üçün kifayət etməsi.

Həmin diplomatik sənədin sonunda Sülh konfransından digər məsələlərlə yanaşı həmçinin Qafqazdakı müttəfiq qoşunlarının komandanlığı vasitəsilə Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının və İrəvan qəzasının bir hissəsinin idarəçiliyinin Azərbaycan hökumətinin əlində saxlanması xahiş edilirdi.

Belə bir mühüm məsələni də qeyd edək ki, Versal konfransında Transqafqaza dair problemlərin həllinə region dövlətlərinin bu mötəbər məclisdəki nümayəndəliklərinin birgə iclaslarında da müəyyən cəhdlər göstərilmişdi. Gürcüstan, Azərbaycan və Dağlı respublikaları nümayəndəliklərinin 1919-cu il iyunun 12-si və 27-də, Azərbaycan və Gürcüstan nümayəndə heyətlərinin 1919-cu il iyulun 24-də, avqustun 8-i, 14-ü, 23-də və sentyabrın 18-də keçirilən birgə iclaslarının protokollarının[62] təhlilinə əsasən deyə bilərik ki, bu müzakirələrdə: a) ərazi-sərhəd mübahisələrinin münsiflər məhkəməsi vasitəsilə həlli; b) konfransın adından Qafqaza Ali missiya göndərilməsi; v) müttəfiqlərin (ingilislərin) qoşunlarının Qafqazda saxlanması məsələləri mühüm yer tutmuşdu.

Bu birgə müzakirələr arasında erməni nümayəndələri ilə (Aqaronyan, Papacanov, Kaçaznuni) keçirilən müşavirənin materiallarından[63] belə bir cəhət də aşkarlanır: müəyyən səbəblərə görə konfransda üstün mövqelərə malik olan ermənilər mübahisəli ərazi-sərhəd məsələlərini (habelə bu siyahıya saldıqları Naxçıvan və Zəngəzurla bağlı) elə

onun gedişində həll etmək niyyətində idilər. Azərbaycan nümayəndə heyətinin üzvü M.Məhərrəmovun birgə müzakirələrdəki çıxışından[64] göründüyü kimi Gürcüstan və ADR nümayəndəlikləri isə bu problemlərin yerində (yəni Transqafqazda) – ixtilaflar olarsa münsiflər məhkəməsi vasitəsilə həlli mövqeyində dayanmışdılar: ADR-in konfransdakı nümayəndə heyətinin erməni-azərbaycanlı münaqişəsini (o cümlədən Naxçıvan və Zəngəzurla əlaqədar) araşdırmaq məqsədilə beynəlxalq istintaq komissiyası yaratmağa dair təklifi ilə əks tərəf əvvəlcə razılaşsa da sonra bu işi pozmuşdu.

Bu cəhəti də nəzərdən qaçırmaq olmaz ki, Versal konfransında yalnız öz məqsəd və mənafelərindən çıxış edən erməni nümayəndə heyətləri Qafqaza dair ümumi məsələlərin həllinə mane olmağa çalışır, müxtəlif bəhanələrə əl atırdılar. Bununla bağlı belə bir fakt diqqəti cəlb edir: onlar 1919-cu ilin yayı – payızın əvvəlində Parisdə təbliğat səciyyəli hay-küy salaraq ADR hökumətini ermənilərin hüquqlarını pozmaqda təqsirləndirdilər, X.Sultanovun başçılıq etdiyi general-qubernatorluğun hüdudlarında, xüsusilə Zəngəzur qəzasında qayda-qanun yaratmaq, o cümlədən də azərbaycanlı əhalisinin təhlükəsizliyinin təminatına dair tədbirlərinin mahiyyətini saxtalaşdırdılar.

Bakı daşnaklarının Parisə-Aqaronyana göndərdikləri 1919-cu il 23 iyul tarixli məlumat, Baş nazir Xatisyanın Versala vurduğu 1919-cu il 8 sentyabr tarixli teleqram əsasında erməni nümayəndə heyətləri tərəfindən «Ermənistan respublikası köməyə çağırır» adlı xüsusi sənəd[65] hazırlanaraq konfransın rəhbərliyinə təqdim olundu. Bu materiallarda azərbaycanlıların türkiyəli zabitlərin başçılığı ilə bölgədə böyük qüvvələr toplamaları, Naxçıvanın Ermənistana qarşı təşviqatın mərkəzinə çevrilməsi yazılırdı. Habelə ermənilərin Paris konfransından heç bir yardım almamalarının səbəblərini başa düşməmələri, tamamilə unudulmaları, ingilislərin regiondan getmələrinin və pis təchizatın onların hərbi hissələrinin fəaliyyətsizliyinə gətirib çıxardığı bildirilirdi.

Yeri gəlmişkən, ermənilərin və onların Paris Sülh konfransındakı nümayəndəliklərinin hay-küyü, «dəlilləri»nin regiondakı real vəziyyətlə qətiyyən uyuşmaması bu dövrdə Qarabağ və Zəngəzur bölgələrində olan ingilis jurnalisti S.Liddelin də diqqətindən yayınmamışdı. Onun «müsəlmanlarla müharibə. Ermənilər yenə də hücum edirlər» və digər yazıları[66] ermənilərin Zəngəzurda və s. yerlərdə törətdikləri vəhşiliklər barədə ətraflı və dürüst məlumat verməklə Ermənistanın təbliğat fəaliyyətinin mahiyyətini açıqlamağa şərait yaradır. Təbiidir ki, ADR nümayəndə heyəti erməni təbliğatını cavabsız qoya bilməzdi və o, rəsmi Bakıdan aldığı tutarlı sənədlər əsasında Ermənistanın silahlı qüvvələrinin Azərbaycan torpaqlarında, xüsusilə də Naxçıvan-Zəngəzur bölgələrində törətdikləri



zorakılıqlar və onlara qarşı etirazlar, usyanlar haqqında həm konfrans iştirakçılarına, həm də dünya xalqlarına lazımi məlumatlar çatdırmışdı.

İranın Versal konfransı vasitəsilə Quzey Azərbaycan torpaqlarına (ilk növbədə Naxçıvan, Zəngəzur, Qarabağ) yenidən yiyələnmək cəhdlərinə gəldikdə isə M.Ə.Topçubaşovun ADR-in Baş nazirinə ünvanladığı 1919-cu il 8-10 iyun tarixli (7 saylı) və 1919-cu il 8-9 iyul tarixli (8 saylı) məlumatlarda[67] İran nümayəndə heyətinin konfransa təqdim etdiyi Memorandumda bütün Şimali Azərbaycana iddia edilməsi, bu zaman onun əsaslandığı dəlilin (tarixi birlik baxımından) zəifliyindən farsların missiyasının tələblərinin təmin olunmasının mümkünlüyünə özünün də inanması bildirilirdi. İran nümayəndə heyəti ilə iki dəfə görüşdüyünü yazan Ə.Topçubaşov onun belə bir dəlilə (Qafqaz konfederasiyasının yaradılmasının mümkünsüzlüyünə görə bizim onlara birləşməyə məcbur olacağımıza) ümid bəslədiyini və bunu çox istədiklərini çatdırırdı.

Bu mühüm cəhəti də xatırlatmaq lazım gəlir ki, İran hələ Versal konfransından əvvəl də Şimali Azərbaycanı «geri qaytarmağa» diplomatik səylər göstərmişdi. M.Rəsulzadə ADR-in xarici işlər naziri A.Hacınskiyə İstambuldan yazdığı 1918-ci il 2 və 6 sentyabr tarixli diplomatik məktublarda[68] məlumat verirdi ki, İran Şimali Azərbaycanı özünün ayrılmaz tərkib hissəsi sayır və Türkiyənin ADR-lə bağlı siyasətindən narazıdır.

İranın Quzey Azərbaycanla əlaqədar Versal konfransından tələbləri, bəzi arxiv sənədlərindən də göründüyü kimi, həm də müəyyən diplomatik gediş –«qabaqlayıcı addım» səciyyəsini də daşımışdır. Yəni ki, İran ADR-in ona qarşı gözlənilə biləcək ərazi iddialarını sanki qabaqlayaraq Şimali Azərbaycana, ilk növbədə isə bəzi sərhəd bölgələrinə (Naxçıvan, Zəngəzur və s.) özünün «tarixi hüquqları»nın bərpasına çalışdığını bəyan etmişdi. Fars dövlətinin Şimali Azərbaycana ərazi iddialarına düşməsinə, şübhəsiz, Güney Azərbaycanda gedən proseslərdən qayğılanması da müəyyən təsir göstərmişdi. ADR-in İrandakı diplomatik nümayəndəsi A.Ziyadxanın öz hökumətinin xarici siyasət idarəsinə göndərdiyi 1920-ci il 6 mart, 11 və 12 aprel tarixli məktub-teleqramlarda[69] bu məqam xüsusilə vurğulanırdı: Cənubi Azərbaycanda İrandan ayrılaraq ADR-ə birləşmək istiqamətində zəif təşviqat müşahidə olunur, bundan rahatsız olan İran bizə xeyirxah münasibət bəsləmir.

Qafqazda nüfuz dairəsi qazanmaq uğrunda İngiltərə ilə rəqabətə girən və Şimali Azərbaycanın, xüsusilə də Naxçıvan bölgəsinin strateji mövqeyinə mühüm əhəmiyyət verən ABŞ ermənilərin bu mahalı indi də onun vasitəsi ilə ələ keçirmək niyyətlərindən öz məqsədləri üçün istifadə edərək müxtəlif üsullarla regionda möhkəmlənməyə çalışırdı. Buna görə

də Birləşmiş Ştatlar 1919-cu ilin ikinci yarısında – ingilislərin bölgədəki mövqelərinin zəiflədiyi zaman burada daha fəal siyasət yeritməyə başladı.

Paris Sülh konfransında Dördlər Şurasının əli ilə Qafqaz mandatına yiyələnməyə cəhd göstərən ABŞ-a bu dövrdə hələlik Ermənistan üzərində himayə təklif olunmuşdu. Amerika hökuməti bundan istifadə edərək özünün bir sıra emissarları: müttəfiqlərin Ermənistana Ali komissar təyin etdikləri polkovnik V.Haskel, onun Azərbaycan üzrə müvəkkili C.Rey, ABŞ-ın Bakıdakı vitse-konsulu C.Randolf və b. vasitəsi ilə Naxçıvan bölgəsinə nüfuz etməyə girişdi.

ABŞ Naxçıvan bölgəsi ətrafındakı erməni-azərbaycan münaqişəsindən faydalanmağa çalışmaqla, əsasən, daşnakpərəst mövqe tutsa da müəyyən mülahizələrə (regiona kifayət qədər hərbi qüvvə gətirə bilməməsi, bölgənin azərbaycanlı əhalisinin çox güclü müqaviməti, ADR hökumətinin barışmaz mövqeyi) görə ikili siyasət yürüdürdü. Ermənilərin yaydıqları xəbərlərə görə Haskel 1919-cu il avqustun 22-də Ermənistan parlamentindəki çıxışında daşnakların bu mahala dair ərazi iddialarını dəstəklədiyini bildirmiş, habelə yaranmış münaqişədə, Naxçıvan-Şərurda baş verən hadisələrdə və Britaniya hökumətinin müəyyənləşdirdiyi sərhədlərin pozulmasında Azərbaycan tərəfini suçlamışdı.[70]

Avqustun 29-da Bakıda ADR-in Baş naziri N.Usubbəyov, Xarici İşlər naziri M.Cəfərov və b. ilə görüşündə isə «mən ermənilərin vəkili deyiləm»[71] söyləyən Ali komissar Ermənistan parlamentindəki sensasiya doğuran çıxışında tutduğu mövqeyini, Azərbaycan hökumətinə ünvanladığı hədələri inkar edərək, hər iki respublikaya eyni gözlə baxdığını bildirmişdi.[72] Haskel həmin görüşdə və digər söhbətlərində iki qonşu respublika arasındakı toqquşmalara imkan verməməyi və «modus vivende» yaratmağı özünün Transqafqaz missiyasının başlıca vəzifələrində biri kimi vurğulamışdı.[73] O, həmçinin Zəngəzur və Qarabağı ADR-in tərkib hissəsi kimi tanıyaraq guya keçmiş İrəvan quberniyasının erməni və azərbaycanlı əhalisi arasında normal münasibətlər yaradılması məqsədi ilə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının müvəqqəti olaraq xüsusi bitərəf zona elan edilməsini və bu bölgədə Amerika general-qubernatorluğu təşkili təklifini irəli sürmüşdü.

Haskelin 1919-cu il avqustun 29-da Bakıda ADR hökumətinin rəhbərləri ilə görüşündə Naxçıvan və Şərur-Dərələyəz qəzalarının idarə olunması məsələsinə dair sazişin layihəsi razılaşdırıldı. 12 maddədən ibarət olan həmin layihədə[74] qeyd edilirdi ki, 1) Naxçıvan və Şərur-Dərələyəz qəzaları müvəqqəti olaraq xüsusi general-qubernatorluq təşkil edirlər; 2) general-qubernator müttəfiqlərin Ali komissarı polkovnik Haskel tərəfindən amerikalı vətəndaşlar arasından təyin edilir; 3) qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə əsasında seçilən yerli şuralar tərəfindən idarə olunurlar; 4) bütün general-qubernatorluqda söz, vicdan, şəxsiyyət toxunulmazlığı kimi azadlıqlar elan edilir; 5) Azərbaycanın pul vahidi rəsmi pul kimi tanınır və s.

Ali komissar bölgənin Azərbaycan idarəçiliyində saxlanılacağını ümumi halda elan etsə də tezliklə burada möhkəmlənmək siyasətinin həyata keçirilməsinə başladı. ABŞ-ın bölgəyə dair siyasəti və planını mahiyyəti Haskelin 1919-cu il sentyabrın 1-də N.Yusifbəyova göndəridyi məktubda, onun 1919-cu il 27 sentyabr tarixli bəyanatında açıqlandı. Həmin məktubda da öz əksini tapan 20 maddədən ibarət sənəddə (Haskelin birinci layihəsi)[75] və 12 maddədən ibarət bəyanatda (Ali komissarın ikinci layihəsi)[76] Naxçıvan və Şərur-Dərələyəz ərazilərində bitərəf zona yaradılacağı, onun Haskel tərəfindən təyin olunan Amerika qubernatoru tərəfindən idarə ediləcəyi bildirilir, bölgənin siyasi və iqtisadi həyatının müxtəlif sahələrinə aid məsələlərə toxunulurdu. Bölgədə bitərəf zona yaradılmasına dair layihələr bütün yerli hakimiyyət orqanlarının amerikalı qubernatora tabe etdirilməsini, Azərbaycan və Ermənistan hökumətlərinin öz qoşunlarını tezliklə bölgədən çıxarmalarını da nəzərdə tuturdu. Haskelin planına görə mahaldakı mühüm obyektlər, o cümlədən də dəmiryolu qubernatorun ixtiyarına keçir, ona hətta əhalini bir yerdən başqa yerə köçürmək hüququ verilirdi və s.

Baş tutacağı halda Qafqazda yeganə Amerika general-qubernatorluğu ola biləcək bu üsul-idarə ABŞ-a regionda möhkəmlənmək imkanı yaratmalı idi. Belə bir mühüm məsələni də qeyd edək ki, Haskelin layihələrində qoyulan məsələlər və irəli sürülən təkliflər, xüsusilə bölgədə bitərəf zona yaradılması ideyası tərəflərin 1919-cu il 29 avqust tarixli Bakı razılaşması ilə heç də uyğun gəlmirdi. Təsadüfi deyildir ki, Xarici İşlər naziri M.Cəfərov Ali komissara göndərdiyi 1919-cu il 4 oktyabr tarixli sənəddə[77] bildirirdi ki, Haskelin layihələrinin bəzi maddələri 1919-cu il 29 avqust tarixli razılaşmadan kənara çıxır. Nazir habelə əmin olduğunu bildirirdi ki, Haskel Azərbaycan xalqının öz tarixi torpaqları olan Naxçıvan və Şərur-Dərələyəz bölgəsinə dair hüquqlarını və ədalətli tələblərini Paris Sülh konfransı qarşısında müdafiə edəcəkdir.

Yeri gəlmişkən, ADR hökumətinin Haskelin layihələrinə və ABŞ-ın onlarda ifadə olunan planlarına münasibəti ilə əlaqədar Azərbaycan tarixşünaslığında[78] aşağıdakı fikri sübuta yetirməyə çalışmışlar: Güya ADR-in rəhbərliyi Haskelin bölgəyə dair planını qeyri-şərtsiz qəbul etmiş, oranın azərbaycanlı əhalisini bu dəfə də amerika-erməni siyasəti və qüvvələri qarşısında tək qoymuşdur. Mahaldakı siyasi qüvvələrin təmsilçiləri (S.Cəmillinski, Kəlbalı xan və Xəlil bəy) ABŞ nümayəndələri ilə öz məramlarına uyğun gizli separat danışıqlar aparmışlar. Çoxsaylı

arxiv sənədlərinə və mətbuat materillarına əsaslanaraq həmin müddəaların qeyri-obyektivliyini söyləmək olar:

1) ADR hökuməti özünün 1919-cu il 28 fevral tarixli qərarı[79] ilə xüsusi Naxçıvan general-qubernatorluğunu yaradaraq əvvəlcə B.Naxçıvanskini, sonra isə Haşımbəyovu oraya qubernator təyin etməklə; 2) ABŞ-ın Haskelin layihələrində əks olunan məqsədlərinə və ermənilərin qəsbkarlıq cəhdlərinə qarşı apardığı açıq və gizli siyasi-hərbi mübarizə ilə bölgənin ərazi toxunulmazlağının təminatına təsir edə bilmişdi; 3) S.Cəmillinski, Kəlbalı xan və Xəlil bəy ABŞ-ın bölgəyə dair planlarınm reallaşdırılmasına və bitərəf zona adı altında burada erməni idarəçiliyinin yenidən təşkilinə qarşı birgə prinsipial mövqe tutmuş, qarşılıqlı və səmərəli fəaliyyət göstərmişdilər.

Qeyd etmək lazımdır ki, Haskel Xarici İşlər naziri M.Cəfərova göndərdiyi 1919-cu il 26, 30 sentyabr tarixli diplomatik sənədlərlə – teleqramlarla[80] ADR hökumətinə təzyiq göstərməyə də çalışmışdı. Həmin sənədlərdən birincisində ADR XİN-in ona 1919-cu il 25 sentyabr tarixli teleqramında[81] ifadə olunan sorğuya (Denikin təhlükəsi ilə əlaqədar şimal sərhədlərində bitərəf zona yaradılmasına dair) alınan cavab öz əksini tapmışdı: Naxçıvan və Şərur dairələri də daxil edilməklə bitərəf zona yaradılmayana qədər general Denikinlə bitərəf zonanın təşkili və ya digər məsələlərin həlli üçün mənim tərəfimdən heç bir addım atılmayacaqdır. Haskel əlavə olaraq bildirdi ki, Naxçıvan bölgəsində bitərəf zonanın yaradılmasma dair şərtlər Tiflisdə ADR-in hərbi nazirinə çatdırılmışdır. Haskelin ikinci teleqramında isə Azərbaycanın yalnız bitərəf zonaya dair Amerika planını qəbul edəcəyi təqdirdə Versal Sülh konfransı tərəfindən tanınacağı və mübahisəli ərazilərin onun xeyrinə həll olunacağı bildirilirdi.

Nazirin Haskelə göndərdiyi 1919-cu il 29 sentyabr (3441 saylı) və 4 oktyabr tarixli (3572 saylı) cavab teleqramlarında[82] ADR hökumətinin bu məsələdəki prinsipial mövqeyi bir daha xatırlanmaqla bitərəf zona ideyasına etiraz olunur, bölgənin yalnız Azərbaycanm ayrılmaz tərkib hissəsi kimi Amerika general-qubernatorluğu vasitəsilə idarəçiliyinə razılıq verilirdi. Çünki Ali komissarın layihələrinin reallaşması əslində azərbaycanlıların tarixi torpaqlarının – bütün manea və çətinlikləri mətanətlə aradan qaldıraraq indiyədək idarə etdikləri bu ərazilərin itirilməsi demək idi.

Naxçıvan mahalını Azərbaycandan qoparmağa çalışan Ermənistanın da Haskelin planına münasibətinin araşdırılması olduqca mühüm məsələdir. Baş nazir A.Xatisyan Haskelin ona göndərdiyi məlumata cavab kimi yolladığı 1919-cu il 23 oktyabr tarixli məktubda bildirirdi ki, strateji, təsərrüfat-iqtisadi, ərazidə erməni əhalisinin mövcudluğu, tarixi şərait və s. mülahizələrə görə Şərur-Naxçıvan bölgəsinin Qafqazdakı ingilis ali komandanlığı tərəfindən Ermənistanın idarəçiliyinə verilməsinə baxmayaraq həmin rayonun müvəqqəti olaraq Amerika qubernatoru tərəfindən idarə edilməsinə razıdır.[83] Lakin ADR-in Gürcüstandakı diplomatik nümayəndəliyinin Azərbaycan Respublikasının Versal konfransındakı missiyasının sədrinə göndərdiyi sənədlərdən birində yazılırdı ki, Naxçıvan bölgəsində bitərəf zona yaradılmasını Qarabağ və Zəngəzur məsələlərinin qəti surətdə bizim xeyrimizə həll olunması kimi qiymətləndirən Ermənistan hökuməti Haskelin layihəsini qəbul etməmişdir.[84]

Bölgədə Amerika üsul-idarəsi yaradılması planı o dövrki erməni mətbuatında da geniş müzakirə edilmişdi. «Азербайджан» qəzetinin «Erməni mətbuatı Haskelin təklifləri haqqında» adlı icmalına[85] əsasən deyə bilərik ki, bu məsələyə münasibətdə erməni mətbuatı iki yerə (daşnak və antidaşnak) bölünmüşdü. «Daşnaksütun» partiyasınm orqanı «Hayastani Aşxavator» qəzeti Haskelin Azərbaycanın tələsinə düşdüyünü, onun təkliflərinin Ermənistanın «ərazi bütövlüyünə» toxunduğunu yazır, Zəngəzur və Dərələyəzin mübahisəli ərazilər elan olunmasını 200 min nəfər ermənin köləyə çevrilməsi və məhvi kimi qiymətləndirirdi. Erməni xalq partiyasmın orqanı «Joqovurd» qəzetinin 100-cü nömrəsində isə qeyd edilirdi ki, Ermənistanın və bütün ermənilərin Ali komissarı cənab Haskel var-qüvvəsi ilə onların xeyrinə çalışır və ədalətli tələblərimizi tədricən həyata keçirəcəkdir.

İstər ermənilərin, istərsə də Amerikanın bölgəyə dair məqsədlərinin reallaşmasında diyarın azərbaycanlı əhalisinin dəyanəti və mübarizliyi mühüm rol oynadı. Mahalın böyük əksəriyyət təşkil edən azərbaycanlı əhalisi qətiyyətlə Haskelin planlarına qarşı çıxdı. Ermənistan hökumətinin maneçiliyi üzündən 1919-cu il avqustun 21-də İrəvanda Haskelin qəbuluna düşə bilməyən Naxçıvan, Ordubad, Şərur, Sürməli, Millistan və Vedibasar mahallarının nümayəndələri Tiflisdə toplanıb 10 bənddən ibarət mühüm bir sənəd hazırladılar.[86] Cənub-Qərbi Azərbaycan müsəlmanları ümumi yığıncağınm adından Ə.Qasımov və digərləri tərəfindən imzalanan və 1919-cu il sentyabrın 9-da ADR hökumətinin başçısına göndərilən həmin sənəddə bir sıra əhəmiyyətli (Naxçıvan bölgəsinin Azərbaycanın tərkibində saxlanması, oraya Zəngəzurdan keçən yolun açılması, ADR XİN-in sərəncamına çağırılan M.Təkinskinin əvəzinə yeni səfir göndərilməsi) və habelə, bizcə, gələcəkdə mənfi nəticələr verə, ermənilərin xeyrinə ola biləcək (Ermənistandakı əzəli torpaqlardan qovulan müsəlman əhalisinin Azərbaycanda, ilk növbədə isə bu bölgədə yerləşdirilməsi) məsələləri qaldırılırdı.[87]

Yeri gəlmişkən, burada M.Təkinski ilə bağlı iki mühüm məqama

da toxunmaq lazım gəlir. Əvvələn, Xan Təkinskinin səmərəli diplomatik fəaliyyətindən xeyli qayğılanan rəsmi İrəvan müxtəlif əsassız bəhanələrlə (guya Ermənistan əleyhinə siyasət yeritməsi, müsəlman əhalisi arasında təşviqat aparması və s. – Bekzadyan 1919-cu il avqustun 19-da N.Yusifbəyovun qəbulunda ikən bu barədə müəyyən «məlumatları» çatdırmışdı)[88] onun geri çağırılmasına nail olmuşdu. İkincisi, Ermənistandakı diplomatik nümayəndəliyimizin ADR-ın XİN-nə, 1919-cu il 8 oktyabr (Təkinskidən sonrakı səfir Haqverdiyevin imzası ilə) və 23 dekabr (burada əvvəlcə katib, sonra məsləhətçi, 1919-cu il dekabrın 13-dən 1920-ci il yanvarın 25-dək isə səfir vəzifəsini ifa edən Mirbabayevin qolu ilə) tarixli məktublarından[89] bəlli olur ki, ermənilər Azərbaycanın xarici siyasət idarəsinə daxil olan sənədləri müxtəlif yollarla ələ keçirib şifrəsini açaraq bu sahədə marağı olan bəzi dövlətlərə çatdırırdılar. Məsələn, Haqverdiyevin məlumatlarına görə Xatisyan Təkinskinin 50-dən çox teleqramını müttəfiq dövlətlərdən birinin nümayəndəsinə vermişdi. Diplomatik nümayəndəlik bütün bunların qarşısının alınmayacağı təqdirdə onun fəaliyyətinin heçə enəcəyini bildirirdi.

Ə.Qasımov və N.Əsgərov Haskeli yerlərdəki vəziyyətlə yaxından və ətraflı tanış etmək niyyəti ilə 1919-cu il sentyabrın 9-da Tiflisdə onunla da görüşərək bölgənin azərbaycanlı camaatının istəklərinə dair 10 bənddən ibarət Memarandumu Ali komissara təqdim etdilər.[90] Onlar Memoranduma əlavə olaraq bu mahalların azərbaycanlı əhalisinin həyacanlarının səngimədiyini, əksinə, ermənilərin zorakılıq hərəkətlərinə və məqsədlərinə qarşı daha da mütəşəkkil mübarizə səciyyəsini daşımağa başladığını bildirdilər. Bunun ardınca Haskelin «Naxçıvan və onun ətrafındakı mahalların ermənilərin idarçiliyinə verilməsinə onların əhalisi necə baxar?» sualına cavabında Ə.Qasımov demişdi ki, xalq öz qüvvəsi ilə qəsbkarları qovaraq azadlıq əldə etmişdir. Ermənistanın təbəələri olmağa – yenidən əsarət altına düşməyə heç vaxt razı olmaz.

Bölgə nümayəndələrinin söylədikləri kimi, bu dövrdə Naxçıvan mahalının azərbaycanlı əhalisinin çıxışları genişlənmiş, eyni zamanda keçmiş İrəvan quberniyasının digər ərazilərinə də nüfuz etmişdi. Hələ M.Təkinskinin ADR-in XİN-nə ünvanladığı 1919-cu il 2 avqust tarixli məktubdan[91] da bəlli olur ki, Böyük Vedi üsyanı və hadisələri zamanı ermənilərlə Naxçıvan mahalı arasında yenidən müharibə vəziyyəti yaranmış, nəticədə isə daşnak ordusu darmadağın edilərək düz İrəvana qədər qovulmuşdu. Digər diplomatik sənədlər (ADR XİN-nin Ermənistan XİN-nə 1919-cu il 22 sentyabr tarixli notası, M.Cəfərovun Ə.Topçubaşova geniş məlumatı) isə Naxçıvan və onun ətrafındakı mahallarda azərbaycanlıların çıxışlarının güclənməkdə olduğunu təsdiqləyir.[92]

1919-cu il oktyabrın 1-də Rəhim xan Naxçıvnskinin mənzilində



S.Cəmillinskinin, Türkiyə hərbçisi Xəlil bəy, Kəlbalı xan və Haskelin nümayəndəsi general Robenzonun (bəzi tədqiqatlarda Robinson, Rozen kimi də getmişdir) iştirakı ilə keçirilən müşavirədə Şərur və Naxçıvan ərazisində Amerika general-qubernatorluğu yaradılması məsələsi geniş müzakirə edilmişdi; onun yekunu kimi isə 12 maddədən ibarət bir rəsmi sənəd Robenzona təqdim olunmuşdu.[93] Həmin sənəddə aşağıdakı mühüm maddələr qeyd olunurdu:

1. Naxçıvan, Şərur və Dərələyəz rayonları, Vedibasar və Millistan Azərbaycan türkləri ilə məskunlaşdıqlarına, habelə təsərrüfat-iqtisadi şəraitlərinə və strateji vəziyyətlərinə görə Azərbaycanın ayrılmaz, bölünməz hissələridirlər.

2. Bu rayonun azərbaycanlıları ADR qanunlarını rəhbər tutmaqla özləri tərəfindən idarə olunurlar. Biz Azərbaycan hökumətindən başqa heç bir hökumət tanmayacağıq...

4. Biz qanımızla azadlıq qazanmışıq və Vilsonun elan etdiyi 14 maddəyə uyğun olaraq buna hüququmuz vardır.

5. Biz mədəni Amerika xalqının nümayəndəsini öz aramızda general-qubernator kimi deyil, burada qalaraq ermənilərin vəhşiliyimiz və mədəniyyətsizliyimiz, digər millətlərə dözməməyimiz haqqında məlumatlarının yalanlığına şəxsən əmin olan bir nümayəndə kimi görməyə şadıq...

7. Əgər kimsə xalqın iradəsinə zidd olaraq bizi ermənilərin hakimiyyəti altına verərsə onu öz düşmənimiz hesab edəcək, əldə silahla qarşılayacağıq və düşmənlərimiz ancaq meyitlərimizin üstündən keçərək evlərimizə daxil ola bilərlər.

İstər bu görüşlə, istərsə də ümumiyyətlə bölgədə Amerika general-qubernatorluğu məsələsi, Haskel və Naxçıvan problemi ilə bağlı vaxtı ilə tarixi araşdırmalarda yol verilmiş bir yalnışlığa da aydınlıq gətirmək lazımdır. Belə ki, Q.Mədətovun tədqiqatlarında[94] Haskelin 1919-cu ilin oktyabrında öz nümayəndəsi general Rozenlə birlikdə Naxçıvana gəlməsi və haqqmda yazdığımız görüşdə iştirak etməsi göstərilir. Halbuki müəllifin özünün də bir mənbə kimi əsaslandığı «Азербайждан» qəzetinin «Amerika general-qubernatorluğu və Cənub-Qərbi Azərbaycan əhalisi» adlı sanballı materialında[95] həmin görüşdə ABŞ tərəfdən yalnız Robenzonun iştirak etdiyi göstərilir. Və ümumiyyətlə, Haskelin Naxçıvanda olub-olmaması faktının doğurduğu müəyyən elmi-siyasi marağı nəzərə alaraq arxivlərdə apardığımız axtarışlar, mətbuat materiallarının və tarixi ədəbiyyatın araşdırılması onun təsdiqlənməsi üçün elə bir əsas verməmişdir.

Robenzon öz rəhbərləri ilə məsləhətləşmək üçün bölgəni tərk etdikdən sonra Naxçıvan Milli Şurasının başçıları müdafiə səciyyəli

müxtəlif tədbirlər gördülər. Haskel Sülh konfransına müəyyən məlumatlar vermək üçün Parisə getdiyindən bu məsələlərlə onun nümayəndəsi C.Rey məşğul olmağa başladı. ADR-in Gürcüstandakı diplomatik nümayəndəliyinin hərbi attaşesi Azərbaycan ordusunun qərargah rəisinə vurduğu 1919-cu il 16 sentyabr tarixli teleqramda belə bir xəbəri çatdırırdı ki, Rey Naxçıvan məsələsinə dair danışıqlar aparmaq üçün Bakıya yola düşür və mübahisəni yerində təcili həll etmək üçün Azərbaycanın nümayəndələrinin də onunla birlikdə Naxçıvana getməsini istəyir.[96]

C.Rey 1919-cu il oktyabrın 16-da Naxçıvan Müsəlman Milli Şurasına və Kalbalı xana göndərdiyi məktubunda Naxçıvan və Şərur rayonlarının müttəfiqlərin idarəçiliyində saxlanıldığını, orada Amerika general-qubernatorluğunun yaradıldığını, ABŞ ordusunun mühəndisi, polkovnik Edmond L.Dellinin ona başçı təyin edildiyini və oktyabrın 23-də Naxçıvana gəlib vəzifəsinin icrasına başlayacağını çatdırırdı.[97]

Bu arada ABŞ-ın digər bir nümayəndəsi general Mozetey də bölgədəki vəziyyət və Haskelin lahiyələri ilə bağlı məsələləri araşdırıb Paris Sülh konfransına məlumatlar hazırlamaq üçün Naxçıvana gəldi. S.Cəmillinski, Xəlil bəy, Kalbalı xan ilə görüşündə ona verilən məlumatlar arasında bölgənin millət, dil, din və s. cəhətlərdən eyniyyət təşkil etdiyi ADR-ə birləşməsi, onun qanunları ilə idarə olunmasına dair fikirlər və tarixi faktlar çox mühüm əhəmiyyət kəsb edirdi.

1919-cu il oktyabrın 20-də Naxçıvana qayıdan Robenzon bildirdi ki, C.Rey oktyabrın 23-də amerikalı qubernatorla birlikdə Naxçıvana təşrif buyuracaqdır. Buna cavab olaraq Naxçıvan ictimaiyyətinin yığıncağı öz mövqeyində qaldığını və əvvəlki qərarını müdafiə etdiyini bildirdi. Oktyabrın 24-də Naxçıvana gələn C.Rey Amerika tərəfinin məlum mövqeyini təkrarlayaraq Haskelin Naxçıvanda Amerika general-qubernatorluğu yaradılması haqqında 1919-cu il 25 oktyabr tarixli bəyanatını[98] elan etdi. Bu bəyanatda deyilirdi ki, 1) Şərur və Naxçıvan dairələrində amerikalı qubernatorun başçılığı ilə müttəfiqlərin idarəçiliyində olan zona yaradılır; 2) ABŞ ordusu mühəndis qoşunlarının polkovniki Edmond L.Delli bu zonanın qubernatoru təyin olunur; 3) zonada yaşayan xalqların əhalisinin sayına müvafiq olaraq ermənilərdən və azərbaycanlılardan ibarət mərkəzi şura təsis edilir; 4) Ermənistan və Azərbaycan hökumətləri öz qoşunlarını zonanın hüdudlarından çıxarırlar; 5) zonadaxili dəmiryolları, telqraf qubernatorun nəzarəti altına keçir və s.

S.Cəmillinski və Kalbalı xan həmin bəyanatdakı təklifləri müzakirə etdikdən sonra özlərinin 12 maddədən ibarət əvvəlki cavablarına əsaslanaraq onunla qətiyyətlə razılaşmadılar. Belə olduqda 1919-cu il oktyabrın 25-də Naxçıvan Müsəlman Milli Şurasının Vedibasardan, Şərurdan və Ordubaddan gəlmiş nümayəndələrlə birlikdə C.Reyin iştirakı



ilə yığıncağı keçirildi. Burada qeyd edildi ki, Azərbaycanın general-qubernatorundan başqa heç kimi tanımır və bütün əhalinin idarəsi nəzərə alınmaqla 15 gün ərzində bu məsələ ilə bağlı qəti qərar qəbul ediləcəkdir.[99]

Amerika nümayəndələri ilə birlikdə keçirilən yığıncaqlarda iştirak etdikdən sonra Bakıya gələn bir naxçıvanlı ziyalı bölgənin azərbaycanlı əhalisinin əhval-ruhiyyəsi barədə onların öz dili ilə belə yazırdı: «Biz ermənilərin hakimiyyətinə tabe olmaq istəməyərək, heç bir kənar yardım olmadan, Ermənistanla vuruşmuşuq, Azərbaycanın hakimiyyətini könüllü qəbul etmişik ki, bizi özünün ayrılmaz hissəsi saysın və qayğı göstərsin. Əgər Azərbaycan taleyimizlə oynayaraq bizi kiməsə güzəştə gedərsə, onda belə qərara tabe olmayacağıq. Biz əvvəlki qərarımızı dəyişməkdənsə, sonuncu adamadək ölməyə hazırıq».[100]

Nəticədə, əvvəlcə siyasi şəraiti düzgün qiymətləndirə bilməyən, C.Rey bölgənin azərbaycanlı əhalisinin güclü müqaviməti sayəsində öz mövqeyini dəyişərək Dellinin burada ABŞ-ın general-qubernatoru deyil, bölgənin daxili işlərinə qarışmayan bir nümayəndə kimi qalması və hətta Haskelin bəyanatının əhaliyə elan olunmaması ilə razılaşırdı.[101] S.Cəmillinski 1919-cu il oktyabrın 26-da ADR-in XİN-nə – M.Təkinskiyə ünvanladığı 1041 saylı teleqramında bu barədə yazırdı: «Müttəfiq qoşunlar komandanlığının nümayəndələri ilə belə razılığa gəldik ki, polkovnik Delli Naxçıvanda general-qubernator sifəti ilə deyil, Paris Sülh konfransının, yaxud ABŞ-ın nümayəndəsi kimi qalır. Naxçıvanı müttəfiq idarə zonası elan etmək məsələsi onların razılığı ilə artıq ortadan götürülür və müəyyən mənada bu mahalı Azərbaycana birləşdirməyə razılıq ifadə olunur. Biz – hakimiyyət və əhali – onlarla yekdilliklə bildiririk ki, bu ölkəni əslində Azərbaycan Respublikası ilə birləşdirmişik və əgər Sülh konfransı bizi öz respublikamızdan ayırsa, xalq mədəni dövlətlərin odu ilə məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmağa yox».[102]

Azərbaycan Respublikasının Xarici İşlər naziri M.Cəfərov ADR-in Paris Sülh konfransındakı nümayəndə heyətinin başçısına göndərdiyi çox mühüm bir sənədin «Bitərəf zona» adlı bölümündə və həmin materiala əlavədə Amerikanın Naxçıvan bölgəsində bitərəf zona və xüsusi general-qubernatorluq yaratmaq planının aqibəti ilə bağlı aşağıdakıları çatdırırdı.[103] Haskel Versala getdikdən sonra Rey bitərəf zona haqqında məsələni yerində həll etmək və guya onun amerikalılar tərəfindən idarə olunmasına Azərbaycan hökumətinin də razılığını əhaliyə çatdırmaq niyyəti ilə qarışıq komissiyaya salınmaq üçün İrəvana və Naxçıvana iki nəfər nümayəndə göndərməyi bizim hökumətə təklif etdi Hökumət isə buna etirazını bildirərək göstərdi ki, o, əhalini çaşdıra bilən və özünün

bəyənmədiyi, habelə dövlətin mənafelərinə əsla uyğun gəlməyən qayda-qanunların yaradılmasında iştrak edə bilməz.[104] Eyni zamanda əgər yerli əhali Reyin şərtlərini qəbul edərsə, hökumət bu işə maneçilik törətməyəcəkdir. Rey bunlara əhəmiyyət verməyərək Naxçıvana getsə də, onun missiyası uğursuz olmuşdur; çünki əhali etiraz etdiyinə görə o burada general qubernator yox, öz müvəkkilini saxlaya bilmişdir.[105]

Həmin sənəddə nəzər diqqəti cəlb edən və mühüm əhəmiyyəti olan bəzi digər məsələləri də bu qaydada qruplaşdırmaq olar: a) Haskelin Transqafqazdakı fəaliyyətinin nəticələrinin sübutu kimi Parisə müəyyən bir sənəd aparmaq arzusu ilə çox cəhd göstərməsinə baxmayaraq bitərəf zona yaradılmasına dair heç bir sazişin imzalanmaması və bununla bağlı hər hansı bir yazılı öhdəliyin verilməməsi. Bu məsələ Haskelin nümayəndəsinin ADR-in Baş nazirinə 1919-cu il 22 oktyabr və M.Cəfərovun İrəvandakı diplomatik nümayəndə Haqverdiyevə 1919-cu il 23 oktyabr tarixli məktublarında da xüsusilə vurğulamışdı;[106] b) onun Paris Sülh konfransına yola düşməzdən əvvəl M.Cəfərovla görüşü zamanı ADR hökumətinin müvafiq tələblərinin ədalətliliyini etiraf etməsi; v) Azərbaycan rəhbərliyinin bitərəf zona ilə bağlı mövqe və qərarının general Harbordun[107] da xoşuna gəlməsi, hökumətimizin həm onu, həm də Haskeli işlərin vəziyyəti barədə ətraflı məlumatlandırması, onların respublikamızda və ordumuzda qayda-qanun haqqında özləri ilə yaxşı təəssürat aparmaqları; q) ermənilərin öz ərazi iddialarını həyata keçirmək üçün ingilis və amerikalıların yardımına bəslədikləri ümidlərin boşa çıxması ilə Ermənistanda hakim daşnak partiyasının siyasətinə qarşı etiraz səslərinin eşidilməsi. Bu cür əhval-ruhiyyənin isə müttəfiqlərin daşnak respublikasında və onun iddia irəli sürdüyü Azərbaycan ərazilərində ermənilərin say tərkibi və s. məsələlərlə tanışlıqdan sonra vahid, müstəqil Ermənistan yaradılmasına (bunun üçün, Harbordun ifadəsi ilə desək, ilk növbədə digər dövlətlərin ərazilərini «əlindən almaq» lazım idi) tələsməyə meylli olmamaları ilə bağlılığı. Bütün bunların isə bəzi erməni dairələrinin qonşularla (Türkiyə və ADR-lə) yaxınlaşmaq üçün yollar aramağa vadar etməsi.

Bunu da əlavə edək ki, Azərbaycanın XİN-yi, onun Tiflis və İrəvandakı diplomatik nümayəndəlikləri Naxçıvan bölgəsi və ətrafındakı bəzi mahalların bitərəf zona elan edilərək burada ABŞ general-qubernatorluğunun yaradılması məsələsi ilə bağlı Paris Sülh konfransındakı missiyaya da bir sıra mühüm materiallar[108] (Haskelin planları ilə bağlı bütün layihə və yazışmaların, keçmiş İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyətinin məruzələrinin, bölgənin nümayəndələrinin Ali komissara təqdim etdikləri Memorandumun və ona yazılan əlavə izahat vərəqəsinin mətnləri, mahalın erməni kəndlərinin ADR hökumətini tanımaqlarına dair icma qərarları barədə məlumatlar) göndərilmişdi.



Belə bir mühüm faktı da diqqətə yetirək ki, Haskel Parisdə Ə.Topçubaşovla görüşü zamanı (bu barədə sonuncunun N.Yusifbəyova 1919-cu il 6/10 noyabr tarixli, 10 saylı məlumatında[109] ətraflı bəhs olunur) «hazırda Naxçıvan və Şərur dairələrində sakitlikdir; Amerika qubernatoru tərəfindən idarə edilən bitərəf zona yaradılmışdır» söyləməklə yalan (çünki əslində Ali komissarın layihələri qətiyyən reallaşmamışdı) danışmışdı. Və o, Naxçıvan bölgəsinin bitərəf zona elan edilməsi və burada Amerika general-qubernatorluğunun yaradılmasına göstərilən cəhdlərin əbəs olduğunu anlayaraq Parisdəki və sonrakı müxtəlif görüş, müsahibələrində bu məsələyə bir daha qayıtmamışdı.[110]

1919-cu ilin noyabrında Amerika zabitləri qrupunun Delliyə kömək etmək məqsədilə Naxçıvana gəlişi və ermənilərin bəzi diplomatik gedişləri bölgənin azərbaycanlı əhalisinin kəskin etirazına və hiddətinə səbəb oldu. Digər tərəfdən ermənilər Haskelin layihələri vasitəsilə bölgəyə yiyələnmək niyyətlərinin baş tutması ilə razılaşa bilmirdilər. Haqverdiyev 1919-cu il noyabrın 1-də ADR-in XİN-nə yazırdı ki, Ermənistan hökumətinin tövsiyyəsi ilə bir nəfər polkovnik Delliyə köməkçi sifəti ilə Naxçıvana getmişdir və gizli olaraq Ermənistan tərəfindən təmin edilir, onun bölgədən çıxarılması üçün tədbirlər görülməsi məqsədilə S.Cəmillinskiyə xəbər göndərilmişdir.[111] Mirbabayev isə 1919-cu il dekabrın 3-də M.Cəfərova məktubunda göstərirdi ki, Ermənistan hökumətinin Haskelə yeni müraciətində Naxçıvan yolunun açılması, orada hakimiyyət qurulması, yəni bölgədə Amerika general-qubernatorluğunun təşkilinin başa çatdırılması təklif olunur, bunun iki xalq arasındakı mübahisələrə son qoyacağı bildirilir.[112]

Lakin ermənilərin bu cəhdləri də elə bir əməli nəticə vermədi. Xalqın tələbi ilə Delli bölgəyə gəlmiş amerikalı zabitləri İrəvana göndərdi və ermənilərin son təkliflərinə məhəl qoymadı. Az sonra onun özü, 1920-ci ilin yanvarında isə bütün amerikalı zabitlər Naxçıvanı birdəfəlik tərk etdilər.[113] Beləliklə, yerli azərbaycanlı əhalisinin inadlı mübarizəsi və güclü müqaviməti, ADR hökumətinin ciddi səyləri nəticəsində ABŞ-ın Naxçıvan bölgəsini bitərəf zona elan edərək öz general-qubernatorluğu yaratmaqla burada möhkəmlənmək siyasəti boşa, ermənilərin isə amerikalılar vasitəsilə onu ələ keçirmək niyyəti puça çıxdı.

1919-cu ilin sonu – 1920-ci ilin əvvəllərində Naxçıvan bölgəsindəki siyasi-hərbi vəziyyət: 1) erməni nizami silahlı qüvvələrinin yeni hərbi əməliyyatlara başlaması; 2) yaranmış şəraitdən faydalanmaq istəyən İranın bu bölgə ilə bağlı planlarını təzədən fəallaşdırması; 3) mahalın idarəçiliyində bilavasitə və bilvasitə iştirak edən şəxslər arasındakı narazılıqlar və s. amillərin ucbatından xeyli kəskinləşdi. Bütün bunlara

dair iki mühüm arxiv sənədində – S.Cəmillinskinin Qarabağ general-qubernatoruna ünvanlanan 1919-cu il 4 dekabr tarixli, 20 saylı (burada Zəngəzurda baş verən hadisələrdən də geniş bəhs edilir) və 1919-cu il 5 dekabr tarixli, 21 saylı raportlarında[114] ətraflı məlumatlar verilmişdir.

Ermənistan hökuməti 1919-cu il noyabrın sonlarında Zəngəzurda hərbi əməliyyatların yeni, daha da qüvvətli mərhələsini başlayaraq Naxçıvan bölgəsinin sərhədlərində də gərginlik yaratdı. Şübhəsiz, bu, ingilislərin ardınca amerikalıların da bölgədəki uğursuzluğu nəticəsində yaranan müvəqqəti boşluqdan istifadə etməyə çalışan ermənilərin mahala yiyələnmək niyyətləri ilə bağlı idi. Buna görə də Ermənistan hərbi hissələrinin Naxçıvan bölgəsi üzərinə yeni hücumlarının səbəblərinin Azərbaycan tarixşünaslığındakı birtərəfli izahı ilə qətiyyən razılaşmaq olmaz. Belə ki, Ermənistan arxivlərindəki bəzi sənədlərə (Ermənistan SSR MDA, f. 200, siy. 1, iş 211, v. 117) istinad edən Q.Mədətov, öz növbəsində ona əsaslanan Y.Bağırov daşnakların Naxçıvana nizami hərbi hissələr göndərmələrini noyabrın sonunda Türkiyənin müşaviri Xəlil bəyin musavatçıların nümayəndələri ilə birlikdə güya Ordubadda ermənilər əleyhinə çıxışlar törətmələri ilə əlaqələndirmişlər.[115]

Y.Bağırov ADR hökumətinin Naxçıvandakı general-qubernatorluğu məsələsi ilə bağlı da bəzi təhriflərə yol vermişdir. Əvvələn, həmin inzibati-siyasi qurumun təşkili tarixinin bu dövrə aidiyyatı düzgün deyildir. Çünki arxiv sənədlərindən onun 1919-cu ilin fevralında yaradılması və müəyyən səbəblərə görə geniş fəaliyyət göstərə bilməməsi aydınlaşır. Sadəcə 1919-cu ilin payızı ərəfəsində buraya yeni general-qubernator (S.Cəmillinski) təyin edilmişdir. (Q.Mədətovun tədqiqatlarında düzgün olaraq belə göstərilir). İkincisi, Y.Bağırov, Xəlil bəyin Naxçıvan general-qubernatorluğunun yaradılması təklifini dəstəkləməsini onun belə bir «gumanı» ilə əsaslandırmışdır: Naxçıvan mahalının Azərbaycandan ərazi cəhətdən aralı düşməsi və uzaqlığı sonuncuya burada özünün əsl inzibati hakimiyyətini yaratmaq imkanı verməyəcəkdir və bundan istifadə edən Türkiyə həmin rayonun yenidən işğalınadək onun işlərinə həmişə qarışa biləcəkdi.

Ermənilərin Naxçıvan diyarına müxtəlif istiqamətlərdən olan bu dəfəki hücumları ilə bağlı aşağıdakı məsələlərə toxunmaq lazım gəlir. Naxçıvan general-qubernatoru hələ 1919-cu il oktyabrın ortalarında ADR-in Ermənistandakı diplomatik nümayəndəsi vasitəsi ilə həyəcan boğuran bir məlumatı[116] rəsmi Bakıya çatdırmışdı: Naxçıvan mahalının Vedibasardan Ordubadadək olan bütün sərhədləri boyu, xüsusilə də Zəngəzur qəzasında ermənilər tərəfindən bizim bölgəyə hücum üçün təcili tədbir görülür. İrəvandan Zəngəzura, Gorus istiqamətindən isə Naxçıvan və Ordubad sərhədlərinə toplar və başqa hərbi sursat gətirilir,



nizami silahlı qüvvələr sərhədlərdə cəmləşdirilir. Naxçıvanla Qarabağ arasındakı Zəngəzurdan keçən yolun oktyabrın sonunadək açılmayacağı təqdirdə Naxçıvan mahalı böhranlı vəziyyətə düşəcəkdir.

Bu dövrdə erməni hücumlarını dəf etmək üçün müəyyən hərbi hazırlıq səciyyəli tədbirlər görüldü, bəzi kiçik əhəmiyyətli əməliyyatlar da aparıldı. Doğrudur, Naxçıvan hərbi dəstəsinin Xəlil bəy və Kəlbalı xanın başçılığı ilə Bazarçay – ermənilər yaşayan Məzrə kəndi yaxınlığında 1919-cu il noyabrın 25-də daşnak qoşunlarına qarşı döyüş əməliyyatı xeyli xərc və müəyyən insan itkisi (ölənlər, yaralananlar və itkin düşənlərlə birlikdə 50 nəfər) hesabına başa gəlməklə yanaşı uğursuz oldu.[117] Bu müvəffəqiyyətsizliyin səbəblərinin S.Cəmillinskinin qeyd etdiyimiz raportunda izahı əhatəli olsa da, bizcə, bir qədər ziddiyyətlidir. Onun mülahizələrinə görə bu məğlubiyyətə aşağıdakı hallar səbəb olmuşdu:

- Xəlil bəy və Kalbalı xanın həmin hərbi əməliyyata qızğın həvəs və münasibət göstərməmələri. Raportda bu hal yolların açılması və bölgənin Azərbaycanla birləşməsi ilə göstərilən şəxslərin buradakı mövqelərini və xalqın sərvəti hesabına varlanmaq imkanlarını itirmələri, mahalın əhalisi və dövlətin məqsədləri üçün məhvedici, lakin həmin adamlara görə isə əlverişli olan ADR-dən ayrıdüşmə şəraitinin mümkün qədər daha çox davam etməsinin onlara sərfəliliyi ilə əsaslandırılır;

-«əsgərlər adlandırılanların» və respublikamızın düşmənlərinin təxribatlarının təsiri altına düşən savadsız zabitlərin əksəriyyətinin belə ciddi və tarixi işə bu cür münasibətlə yoluxmaları;

-bir neçə taborların xırda məsələlərlə bağlı narazılıqları və onların bəzi komandirlərinin (məsələn, Kərbəlayı Muxtar və b.) Kalbalı xana, habelə Xəlil bəyə gizli nifrəti.

1919-cu ilin sonundan etibarən Türkiyənin, əsasən də kamalçıların Naxçıvan bölgəsinə hərbi-siyasi yardımı yenidən qüvvətlənməyə başladı. Əvvəllər Osmanlı Şərq ordu qrupunun komandanı olan və bu dövrdə isə M.Kamal paşanın xüsusi tapşırığı ilə Güney Qafqaza gələn Xəlil paşa 1919-cu ilin dekabrında Azərbaycanda olarkən həm ADR hökuməti ilə, həm də bolşeviklərlə əlaqələrə girmişdi. T.Svyatoxovskinin yazdığı kimi, «... Bilavasitə vəsifəsi Anadolu ilə Azərbaycanı birləşdirən strateji koridorun (Naxçıvan və Zəngəzur nəzərdə tutulur – İ.M.) təhlükəsizliyini təmin etmək...»[118] olan Xəlil paşa öz silahlı qüvvələrini də ermənilərin Naxçıvan üzərindəki ağalığına (burada müəlliflə razılaşmaq olmur, çünki bölgədəki erməni «idarəçiliyi»nə artıq son qoyulmuşdu. Buna görə də söhbət sadəcə bölgənin işğalına qarşı silahlı mübarizədən gedə bilər) müqavimət göstərən könüllülərə qoşmuşdu. Anadolu türklərinin Naxçıvan bölgəsində gedən döyüşlərdə iştirakı Qərb mətbua-

tında Azərbaycanla kamalçılar arasında ermənilərə qarşı birgə mübarizə haqqında gizli müqavilə bağlanması barədə şayiələrə səbəb olmuşdu (bu şayiələr Pars konfransındakı nümayəndə heyəti tərəfindən təkzib edilmişdi).

Bu məsələ ilə əlaqədar İngiltərənin Qafqazdakı Ali komissarı Uordropun yanında ADR-in Gürcüstan və Ermənistandakı səfirləri F.Vəkilov və A.Haqverdiyevin, Ermənistanın Tiflisdəki diplomatik nümayəndəsi Evanqulovun, onun parlamentinin üzvü Papazyanın, Uordropun İrəvandakı nümayəndəsi (sözgəlişi tamamilə ermənilərin təsiri altına düşən) Qressinin iştirakı ilə keçirilən şəxsi söhbətdəki müəyyən fikirlər nəzər-diqqəti cəlb edir.[119] Bu söhbətin gedişində Papazyan Naxçıvanın təcili Ermənistan hökumətinə tabe etdirilməsi, yaxud heç olmazsa da müttəfiqlərin idarəçiliyinə keçən xüsusi general-qubernatorluğa ayrılması təklifini vermişdi.

O, habelə belə məsələlərin Paris Sülh konfransı tərəfindən həll ediləcəyinə ümid bəsləyən Ermənistanın heç bir halda Naxçıvanın müvəqqəti də olsa müstəqilliyinə imkan verməyəcəyini, bu halın «bütün Ermənistanın məhvinə bərabərliyini» söyləmişdi. Papazyan həmçinin hazırda Bakıda olan türk paşalarının ADR hökuməti ilə Türkiyə və Azərbaycanın birləşməsi (sözgəlişi bu fikir M.Ə.Rəsulzadə tərəfindən dəfələrlə rədd edilmişdi) barədə danışıqlar apardıqlarını söyləməklə bunun hər iki dövlətin sərhədlərini genişləndirmək məqsədini güddüyünü, nəticədə isə Ermənistanın açıq-aşkar məhv olacağını göstərmiş, Naxçıvanın müstəqilliyini həmin planın həyata keçirilməsinin başlanqıcı kimi qiymətləndirmişdi (Bu sənəddən Uordropun da Türkiyə paşalarının Bakıda olmamalarından qayğılandığı aşkarlanır).

F.Vəkilov Azərbaycanla Türkiyə arasında hər hansı bir sazişin mövcudluğunu qətiyyətlə inkar etməklə yanaşı, ADR hökumətinin heç bir vəclə Papazyanın mülahizə və şərtləri ilə razılaşmayacağını bildirmişdi. Onun fikrincə ya Zəngəzur və Naxçıvanda mövcud status-kvonun saxlanması prinsipinin rəhbər tutulması, ya da həmin vilayətlərin müttəfiqlərin idarəçiliyinə verilməklə general-qubernatorluğa ayrılması ilə müəyyən razılığa gəlmək olardı.

Belə bir siyasi durumda Ordubad qəza rəisinin Naxçıvan general-qubernatoruna göndərdiyi 1919-cu il 30 noyabr tarixli telefonoqramma vasitəsi ilə verilən həyəcanlı məlumatlar (Ermənistan qoşunlarının Zəngəzurda– Oxçudərəsindəki dörd kəndi: Oxçu, Şabadın, Pirdavdan və Atqızı dağıtdıqdan sonra Ordubad mahalının Dırnıs kəndini aradan götürüb, ermənilərin də yaşadıqları Yuxarı Əylis, Tanakert, Çənənəb kəndləri ilə birləşərək sonra Ordubadın özü və Culfa üçün təhlükə yaratmağa dair) təcili tədbirlər görülməsini tələb edirdi.[120] Buna görə də ermənilərin Ordubad istiqamətində irəliləməsini dayandırmaq və onların diqqətini Kığıdərəsindən, Qafan ətrafından yayındırmaq məqsədilə Xəlil paşa tərəfindən Əlincə taboruna və Ordubad rayonunda yerləşən hərbi hissələrə yaxındakı erməni kəndlərinə qarşı çıxış etmək barədə əmr verildi.

Yeri gəlmişkən burada bir məsələyə də aydınlıq gətirmək lazımdır. Naxçıvan mahalında bu dövrdə aparılan hərbi əməliyyatlarda iştirak edən Xəlil paşa bir neçə il ərzində bölgənin müdafiə işlərinə yardım göstərən Türkiyə hərbi nümayəndəliyinin başçısı mayor Xəlil bəylə qarışdırılmamalıdır. Lakin bəzi tədqiqatlarda belə dolaşıqlıqlara yol verilmişdir. Məsələn, A.Hacıyev S.Cəmillinskinin qeyd etdiyimiz raportuna istinad edərkən diqqətsizlik ucbatından iki yerdə Xəlil paşa əvəzinə Xəlil bəy, bir yerdə isə əksinə yazmışdır.[121] Bölgə general-qubernatoru S.Cəmillinski məlum raportunda «Hazırki anda mənim yeganə ümidim hərbi işi ayaqüstə qoymağa və onu döyüşlərdə fəal iştirakın mümkünlüyü səviyyəsinə çatdırmağa çalışan Xəlil paşadır»[122] yazsa da A.Hacıyev bu fikri Xəlil bəyə aid etmişdir.

Bu dövrdə bölgədə baş verən hadisələr arasında Ordubad mahalının Aşağı Əylis və Yuxarı Əylis kəndləri ilə bağlı məsələlər də diqqəti cəlb edir. Həm arxiv sənədlərindən, həm də mətbuat və şifahi tarixi materiallardan[123] məlum olur ki, ADR hakimiyyətinin yerli orqanlarının və azərbaycanlı əhalinin birgə səyləri sayəsində Ordubad rayonunun Yuxarı Əylis və digər kəndlərində yaşayan ermənilərin təhlükəsizliyi bir müddət tam təmin olunmuşdu. Lakin Zəngəzurun Oxçudərəsinin yuxarıda göstərilən kəndlərinin ermənilər tərəfindən dağıdılması və onların əhalisinin böyük hissəsinin qırılması, yollarda tələf olması, bir qisminin isə qaçqınlar sifətilə Ordubadın kəndlərinə axışması burada gərginliyi xeyli artırdı. Olmazın müsibətlər çəkmiş qaçqınların qəzəb və hiddəti dekabrın sonunda Yuxarı Əylisdə çoxlu erməninin qırılması və buradan qovulması ilə nəticələndi.

Əylis hadisələri ətrafında böyük hay-küy salan və bunu mühüm təbliğat vasitəsinə çevirən ermənilər eyni zamanda diplomatik təzyiqlərə əl atdılar. «Araç» («İrəli») qəzeti özünün 1920-ci il 14 yanvar tarixli 10-cu sayında yazırdı ki, azərbaycanlılar türk zabitləri Xəlil bəyin və Ədib bəyin rəhbərliyi altında Aşağı Əylis kəndində 400, Yuxarı Əylis kəndində isə 1000 ermənini öldürmüş, 20 gözəl qızı əsgərlərə paylamışlar; varlı Panyantsın 16 yaşlı qızı isə Ədib bəyə çatmışdır.[124] Ermənistan XİN-yi ADR-in müvafiq nazirliyinə göndərdiyi 1919-cu il 30 dekabr (N 5755) və 1920-ci il 14 yanvar (N 278) tarixli teleqramlarında[125] bildirirdi ki, Naxçıvan və Ordubad azərbaycanlıları Xəlil bəyin və Ədib bəyin başçılığı ilə Aşağı Əylis və Yuxarı Əylis kəndlərinə hücum edərək

dekabrın 25-də burada qırğın törətmişlər, 1400-ə qədər erməni öldürülmüş, çoxlu qız zabitlərə paylanmışdır. Daşnak hökuməti bu hərəkətləri ADR rəhbərliyinin bölgələrdəki erməniləri qıraraq Türkiyə ilə birləşmək cəhdi kimi qiymətləndirir, Əylis hadisələri ilə əlaqədar izahat verilməsini tələb edirdi. Ermənistan rəhbərliyi eyni zamanda 1919-cu il dekabrın 29-da Haskelə, Uordropa teleqramlar göndərərək Azərbaycanı 1919-cu il 23 noyabr sazişini pozmaqda təqsirləndirir, ona qarşı qəti tədbirlər görülməsini vacib sayırdı.[126]

Ermənistan hökumətinin Əylis hadisələri ilə əlaqədar müraciəti ilə bağlı Azərbaycan dövlət müdafiə komitəsinin 1919-cu il dekabrın 31-də keçirilən iclasında ADR XİN-in məruzəsi dinlənildi.[127] Ermənistan XİN-in, Naxçıvan və Ordubad müsəlmanlarının Aşağı Əylis kəndinin erməni əhalisini qırmalarına dair teleqramlarına əsasən edilən bu məruzənin müzakirəsindən sonra: 1)söylənilən hadisələrin aydınlaşdırılması üçün ADR-in İrəvandakı diplomatik nümayəndəsinin Əylisə getməsi; 2) Azərbaycan hökumətinin qeyd edilən hadisələrə dair məlumatının olmaması və Xatisyanın teleqramı əsasında tədbirlər görülməsi barədə Ermənistan hökumətinə xəbər çatdırılması qərarına gəlindi.

Həmin qərara əsasən F.Xoyski tərəfindən 1920-ci il yanvarın 1-də Mirbabayevə və Ermənistan XİN-nə müvafiq diplomatik sənədlər (5501 və 5502 saylı) göndərildi.[128] Öz növbəsində Mirbabayev yanvarın 4-də rəsmi Bakıya ötən il dekabrın 20-də Naxçıvandan raport alması barədə məlumat verərək bunları çatdırırdı: Zəngəzurla qaçqınların Əylis kəndlərini dağıtmaq cəhdlərinin qarşısı alınmış, Aşağı Əylis erməniləri Yuxarı Əylisə köçürülmüşlər; Naxçıvandan qayıdan Delli də insan tələfatının olmadığını söyləyir; bu raport Ermənistanın Baş nazirinə çatdırılmışdır və Dellinin tapşırığı ilə oraya zabit göndərilir.

Tarixi faktların təsdiqlədiyi kimi Əylis hadisələri Zəngəzurdan buraya axışan və çox ağır şəraitdə olan qaçqınların çıxılmaz vəziyyətindən irəli gəlmişdi. Bu dövrdə ADR-in XİN-də çalışan Təkinskinin Ermənistanın xarici siyasət idarəsinə göndərdiyi teleqramın – «Азербайджан» qəzetinin «Əylis kəndindəki hadisələrə dair» adlı yazısında[129] əks olunan – mətnində deyilirdi ki, Zəngəzur qaçqınları ölümdən qurtulub Naxçıvan qəzasına qaçaraq açıq havada qaldıqlarından və ermənilərə qarşı olduqca qəzəbli olduqlarından hökumət orqanları üçün gözlənilməz bir halda Əylis kəndinə gəlib ermənilərin boşaltdıqları evləri tutmuşlar. Həmin teleqramda daha sonra göstərilirdi ki, hökumət evlərin qaçqınlar tərəfindən tutulmasının qarşısını almaq üçün tədbirlər görür və Əylis kəndində baş vermiş hadisələrə dair Sizin 278 saylı teleqramla bağlı yenidən təhqiqatlar aparılacaq, qaçqınların Əylis kəndinə hərəkətində azərbaycanlı zabitlərin iştirakı halları müəyyənləşdirilərsə



belələri cəzalandırılacaq, habelə əgər aparılan qızlar varsa qaytarılacaqdır.

ADR XİN-dən Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsinə verilən göstərişdə ya özünün, ya da nümayəndəliyin üzvünün Cənub-Qərbi Azərbaycan qubernatoru ilə birlikdə Əylis kəndində baş verən hadisələrin təhqiqatını aparmaq üçün Naxçıvana getmək, onun nəticələrini dərhal çatdırmaq tapşırıldı.[130] M.Mirbabayevin ADR-in XİN-yi üçün müxtəlif məsələlərə dair hazırladığı geniş məlumatda ermənilərin Zəngəzurda (Oxçu və Kığı dərələrində) 25-40 kəndi dağıtdıqdan sonra Ordubad üzərinə yerimək, Əylislə birləşərək Naxçıvanı tutmaq niyyətində olduqları yazılır, Əylis hadisələri barədə Naxçıvan general-qubernatorluğundan ətraflı məlumatlar alaraq Bakıya göndərildiyi bildirilirdi.[131]

Qeyd edək ki, Türkiyə tərəfindən Naxçıvan bölgəsinə göstərilən himayə 1920-ci ilin əvvəli üçün daha da qüvvətləndi. Bu bir tərəfdən, ermənilərin bölgəni ələ keçirmək cəhdlərinin qarşısını almaq, digər tərəfdən isə Anadolu milli hərəkatına Antantanın bu istiqamətdən yarada biləcəyi təhlükəni sovuşdurmaqla əlaqədar idi. Və, xüsusilə də, Ermənistan hökumətinin Naxçıvan bölgəsinə qarşı yeni işğalçılıq aktları, onun regionda maraqları olan bəzi xarici dövlətlərin diplomatik-siyasi planlarından faydalanmağa çalışması kimi amillər Türkiyənin buraya az sayda silahlı qüvvə göndərməsini şərtləndirdi. Ermənilərin bölgənin taleyi üçün yaratdıqları təhlükənin ciddiliyini və vəziyyətin həddən ziyadə ağırlığını elə mahalın azərbaycanlı əhalisinin S.Cəmillinskinin imzası ilə Gürcüstan hökumətinə göndərdiyi 1920-ci il 11 fevral tarixli teleqramda, İrəvan quberniyası müsəlmanları həmyerlilər cəmiyyəti iclasının ADR rəhbərliyinə müraciətində ifadə olunan həyəcanlı xəbər və məlumatlardan da aydın görmək olur.[132]

Türkiyə ordusu Şərq cəbhəsi komandanı general K.Qarabəkir paşa, XI Bəyazid diviziyası komandiri Cavid bəy və Xəlil bəy arasındakı məsləhətləşmələrdən sonra mart ayında Əli Teymur bəyin başçılığı ilə kiçik bir döyüş dəstəsi bölgəyə gəldi. Türkiyə hərbi nümayəndəliyi və yerli silahlı qüvvələrin başçıları birlikdə mahalın ermənilərdən müdafiəsinə dair tədbirlər hazırlayıb həyata keçirdilər. Bu dövrdə ADR qoşunlarının Zəngəzurda erməni nizami silahlı qüvvələrinə qarşı əməliyyatlar aparması ilə bağlı Naxçıvan bölgəsinə lazımi köməklik edilə bilmədiyi bir şəraitdə Türkiyənin bu mahala göstərdiyi hərbi yardımın və siyasi dəstəyin mühüm əhəmiyyəti danılmazdır. Və, bu siyasi-hərbi yardım 1920-ci ilin martında Şərurda, xüsusilə də ağır vəziyyətin yarandığı Ordubadda ermənilərlə gedən döyüşlərdə öz sanbalını bir daha təsdiqlədi.

Ermənistan hökuməti mart aymda Ordubad rayonuna qüvvətli

hücumlar təşkil etməklə Naxçıvan üçün əsas təhlükəni indi bu istiqamətdən yaratmaq istədi. Ermənilər martın 8-də Nüsnüs dağları tərəfdən hücuma keçərək Ordubad şəhərinə xeyli yaxınlaşsalar da Kəlbalı xanın Naxçıvandan göndərdiyi silahlı dəstələr yerli qüvvələrlə birlikdə onları çoxlu itkilər (300 nəfər canlı qüvvə, xeyli hərbi sursat) verərək geri çəkilməyə vadar etdilər.

Bu dövrdə ən ağır döyüşlər Novruz bayramı ərəfəsi və günlərində olmuşdu. Onlarla bağlı məsələlərin öyrənilməsi baxımından bir arxiv sənədi[133] olduqca əhəmiyyətlidir. Təbriz dəmiryolu idarəsində çalışan, əslən ordubadlı olan Salman bəy Əsgərxanovun məktubunu özündə əks etdirən bu sənəddə həmin dövrün bəzi siyasi-hərbi və diplomatik problemlərinə aid çoxlu mühüm məlumatlar vardır. Onun 1920-ci il martın 21-də – Novruz bayramının ilk günü Culfadan telefon vasitəsilə T.Yusifovdan əldə etdiyi məlumatdan aşağıdakılar aydın olur: bayram gecəsi 10000 nəfərdən çox erməni silahlı qüvvələri qəflətən hücuma keçib Ordubadın Düylün, Vənənd, Vələver, Xanağa, Disər, Ağrı, Dizə kəndlərini yandırmış və şəhər üzərinə hücuma keçmişlər, onun üçün böyük təhlükə yaranmışdır; Naxçıvandan Türkiyə zabiti Ədib bəyin başçılığı ilə köməyə gələn 500 nəfərlik hərbi hissə Aza kəndi yaxınlığında düşmənlə vuruşmağa başlamışdır. S.Əsgərxanov bütün bunlar barəsində ADR-in Tehrandakı nümayəndəliyinə və Azərbaycanın Baş nazirinə müvafiq məzmunlu teleqramlar hazırlasa da texniki səbəblərə görə onları göndərə bilmədiyindən ordubadlılara kömək göstərməsi üçün Təbriz general-qubernatoru Sərdar İntizara müraciət etmişdi. Həm bu, həm də digər arxiv sənədlərindən[134] göründüyü kimi İran tərəfi müəyyən məqsədlər güddüyündən nəinki elə bir yardım göstərməmiş, əksinə başqa tədbirlərə əl atmışdı.

Arxiv sənədləri və şifahi tarix materiallarından habelə bəlli olur ki, ordubadlıların mətanəti və Naxçıvandan gələn (tərkibində Türkiyə əsgərlərinin də olduğu) qüvvələrin köməyi nəticəsində ermənilərin Ordubad mahalını ələ keçirmək cəhdləri uğursuzluqla nəticələnmiş, onlar xeyli itki vermişdilər. Ordubadlı döyüşçülərdən də yaralananlar olmuş, xeyli kəndlər dağıdılmışdı. Ədib bəyin hazırladığı xüsusi əməliyyatın uğurla qurtarması sayəsində şəhərin mühasirəsinə son qoyulmuş, təhlükə sovuşdurulmuşdu. Kəlbalı xan və Ədib bəy ermənilərin qüvvətli məntəqələrindən biri olan Çənənəb kəndi üzərində hücum planı hazırlamışdılar.[135]

1920-ci ilin martında Naxçıvan bölgəsində, xüsusilə də Ordubad mahalındakı hadisələr barədə ADR-in diplomatik missiyasının başçısı A.Ziyadxan da çoxlu məlumatlar əldə edib rəsmi Bakıya çatdıra bilmişdi. Onun S.Cəmillinskinin Naxçıvandan vurduğu 1920-ci il 20 mart (125



saylı) və 23 mart (182 saylı) tarixli, habelə ordubadlı S.Əsgərxanovun Təbrizdən yolladığı teleqramlara əsasən ADR-in XİN-nə göndərdiyi məlumatlardan bəlli olur ki, martın 19-da üç istiqamətdə – 1) Böyük Vedi; 2) Tivi; 3) Ordubad – artilleriyanın köməyi ilə bütün cəbhə boyu hücuma keçən ermənilərin fasiləsiz həmlələri dəf olunmuş, onlar yeddi günlük ağır döyüşlərdən sonra yerli əhalinin möhkəmliyi və mətanəti sayəsində məğlub edilərək geri oturdulmuşdular.[136]

Daha sonra onun ADR XİN-ə ünvanladığı 1920-ci il 27-28 mart tarixli teleqramda və 1920-ci il 1 aprel tarixli məruzəsində erməni hərbi hissələrinin Zəngəzur və İrəvan istiqamətlərindən Naxçıvan və Ordubad rayonlarına hücumlarına dair aldığı çoxlu teleqramlardan, bu əməliyyatlarda İran ermənilərinin də iştirakından, öz torpaqlarını igidliklə qoruyan yerli əhalinin həm də təcili yardım istəməsindən bəhs olunurdu.[137] A.Ziyadxan İran ermənilərinin Naxçıvan bölgəsindəki hərbi əməliyyatlarda fəal iştirakı, Arazın o tayına keçmiş azərbaycanlı qaçqınlar üçün lazımi ərzaq alınması ilə bağlı bu ölkənin hökuməti qarşısında məsələlər qaldırdığını, ermənilərin Naxçıvan-Ordubad rayonlarına hücumları barədə İngiltərə, ABŞ və Fransanın Tehrandakı səfirliklərinə məlumatlar verdiyini bildirirdi. O habelə gözlənilən növbəti hücumların dəf olunması və ümumiyyətlə bu bölgənin əhalisinin böhranlı vəziyyətdən tamamilə çıxarılması üçün ADR-in XİN-dən tədbirlər görülməsini xahiş edirdi.

Bu dövrdə ADR rəhbərliyi Naxçıvan bölgəsinə bilavasitə hərbi-siyasi yardım göstərə bilməsə də müvafiq diplomatik səylərini davam etdirirdi. Transqafqaz respublikalarının Tiflisdə keçirilən konfransının 1920-ci il 9 aprel tarixli, 1 saylı protokolundan[138] göründüyü kimi Azərbaycan nümayəndə heyətinin digər yerlərlə yanaşı Naxçıvan və Ordubad mahallarından gedən hərbi əməliyyatların da dayandırılmasına dair təklifləri bu qəbildən idi. Yeri gəlmişkən, konfransdakı müzakirələr bir daha sübüt etdi ki, Ermənistan rəhbərliyi 1919-cu il 23 noyabr sazişi ilə aldadıcı manevr edir, onu tam hüquqi sənəd saymırdı. Yəni ki, Azərbaycan tərəfininin (H.Ağayev) həmin sazişədək olan vəziyyəti bərpa etmək təklifinə erməni tərəfi – ADR hökumətini bu sənədin şərtlərini pozmaqda suçlandırmaqla (Ohancanyan) və göstərilən aktın heç bir hüquqi normalardan bəhs etmədiyini söyləməklə (Bekzadyan) cavab vermişdi.[139]

ADR hökuməti və Naxçıvan bölgəsi rəhbərliyinin fəaliyyətində qaçqınların problemlərinin həlli də mühüm yer tuturdu. Keçmiş İrəvan quberniyasının digər hissələrindən və Zəngəzurdan olan qaçqınların böyük kütləsinin Naxçıvan bölgəsində cəmləşməsi əlavə gərginlik və çətinliklər yaratmışdı. Qaçqanlıran sayı ilə bağlı bunu qeyd etmək lazımdır ki, ayrı-ayrı arxiv sənədlərində və mətbuat materiallarında müxtəlif rə-

qəmlərə rast gəlinir. Məsələn, ADR hökumətinin «Qaçqınların yerləşdirilməsi haqqında məruzələri»ndə qeyd edilir ki, 1919-cu il oktyabrın 1-i üçün Azərbaycanın hüdudlarında keçmiş İrəvan quberniyasından qaçqın düşən 39741 nəfər (5858 tüstü) yerləşmişdi.[140] «Azərbaycan» qəzeti yazırdı ki, hal-hazırda Vedibasardan Ordubadadək olan ərazidə təxminən 70 minədək qaçqın məskunlaşmışdır.[141] Qaçqınların yerləşdirilməsini böyük milli problemlərdən biri kimi qiymətləndirən M.B.Məmmədzadənin «300 min köçkün» adlı məqaləsində öz ev-eşiklərindən qovulan azərbaycanlıların ümumi sayının üç yüz min nəfəri ötüb keçdiyi qeyd olunurdu.[142]

Cənub-Qərbi Azərbaycanda (yəni Naxçıvan bölgəsi və ətrafı) müsəlman qaçqınların vəziyyətinə dair arayışda isə İrəvan quberniyasının cənubundakı 50000 nəfər qaçqının 1919-1920-ci illərin 10 aylıq qış mövsümündə saxlanması üçün 230 mln. vəsaitin lazım gəliyi göstərilirdi. Himayəçilik nazirliyinin Cənub-Qərbi Azərbaycana ezam olunmuş müvəkkili T.Makinskinin hazırladığı məruzədən regionda 150000 nəfər qaçqının olması və onların da 30-70 mininin Böyük Vedi, Naxçıvan və s. Yerlərdə cəmləşməsi aydınlaşır.[143] Naxçıvan Qaçqın Komitəsinin sədri B.Şahtaxtinski bölgə general-qubernatoruna göndərdiyi 1919-cu il 3 dekabr tarixli məktubda bildirirdi ki, qaçqınların siyahıya alınması başa çatmışdır və tabeçiliyinizdə olan qəzalardakı qaçqınların sayı 39005 nəfərdir.[144] Bu da əlavə edilməlidir ki, ermənilərin zorakılıq hərəkətlərinin ucbatından Naxçıvan bölgəsinin azərbaycanlı əhalsinin bir qismi Cənubi Azərbaycana qaçmışdı.

Belə ağır şərait təcili və hərtərəfli tədbirlər görülməsini tələb edirdi. Buna görə də qaçqınlar problemi dəfələrlə ADR-in qanunverici və icraedici hakimiyyət orqanları, onların yerli idarələri tərəfindən müzakirə olunmuşdu. Ümumi müzakirələrlə yanaşı keçmiş İrəvan quberniyasından və Zəngəzurdan olan qaçqınların vəziyyəti, onların yerləşdirilməsi və təminatına dair konkret məsələlər ADR hökumətinin 1919-cu ilin dekabrında, Azərbaycan parlamentinin isə 1919-cu ilin iyulunda və 1920-ci ilin yanvarında keçirilən xüsusi iclaslarında əsas diqqət obyekti olmuşdu.[145]

Ermənilərin zorakılıq hərəkətləri ucbatından Zəngəzurun qərb hissəsindən onun digər məntəqələrinə və Naxçıvan-Ordubad mahallarına pənah gətirələnlərin problemlərinin bilavasitə həlli məqsədilə ADR himayəçilik nazirliyinin nəzdindəki 6 müvafiq şöbədən biri də Zəngəzur qəzasına ehtiva edirdi: Zəngəzur qaçqınlarının problemləri ilə bağlı hətta idarələrarası xüsusi komissiya da yaradılmışdı.[146] Naxçıvan qaçqın komitəsi təşkil olunmuşdu ki, ona da əvvəlcə M.Əmirov, sonra isə B.Şahtaxtinski başçılıq etmişdi.



ADR hökumətinin 1919-cu il 11 avqust qərarına müvafiq olaraq qaçqınların işləri üzrə Mərkəzi Komissiyaya onların yerləşdirilməsinə dair layihə hazırlamaq və təminatlarını yaxşılaşdırmaq tədbirlərini gücləndirmək tapşırılmışdı.[147] Müvafiq orqanların hesablamalarına görə bütün azərbaycanlı qaçqınların təkcə yerləşdirilməsi üçün 68715531 man. Vəsait tələb olunurdu.[148] Hımayəçilik nazirliyinin 1919-cu ilə aid məlumatlarından birindən göründüyü kimi Zəngəzur qəzası himayəçilik müfəttişliyinə ayrılan 18 mln. man. Kredit hələlik parlament tərəfindən təsdiqlənmədiyindən qaçqınlara yardım üçün 200 min man. Avans buraxılmışdı.[149]

«Naxçıvan qaçqın komitəsinin fəaliyyəti haqqında materiallar»dan[150] göründyü kimi, bölgədəki köçkünlərin yerləşdirilməsi və təmin olunması sahəsində bir sıra işlər görülmüşdü. Naxçıvan general-qubernatorunun bölgə qaçqın komitəsinin sədri M.Əmirova 1919-cu il 15 və 29 sentyabr tarixli məktublarından qaçqınların problemlərinin həllinə dair proqram hazırlanması, bu qurumun Şərur və Ordubadda şöbələrinin yaradılması üçün nümayəndələr göndərməsi; Şərur-Dərələyəz qəzası rəisinin 1919-cu il oktyabrın 1-də M.Əmirova göndərilən 219 saylı təliqəsindən isə köçkünlərin Arazdəyən və Dəvəli ərazilərində yerləşdirilməsi imkanları aydınlaşır.[151]

Bəzi arxiv materiallarından[152] (Naxçıvan qaçqın komitəsinin sədri B.Şahtaxtinskinin general-qubernator S.Cəmillinskiyə 1919-cu il 3 dekabr tarixli məktubu və qaçqınların vəziyyəti ilə bağlı çağırış-müraciəti; bu komitənin Ordubaddakı müvəkkilləri M.Ağalarov və Ə.Fəttahovun onun sədrinə 1919-cu il sentyabrın 27-də yazdıqları məktub; Şərur qəza rəisinin 1919-cu il sentyabrın 21-də həmin komitəyə yolladığı arayış; S.Cəmillinskinin bu qurumun başçısına 1919-cu il 18 oktyabr tarixli təliqəsi) isə bölgədəki qaçqınların fəlakətli vəziyyəti, Zəngəzur və digər yerlərdən 1500 nəfər köçkünün Ordubada gəlməsi ilə buradakı şəraitin daha da ağırlaşması, didərginlərin saxlanması ilə əlaqədar maliyyə-ərzaq imkanlarının həddən-ziyadə məhdudluğu da aşkarlanır.

Vəziyyəti ağırlaşdıran amillər arasında: a) bölgədəki qaçqınların yerləşdirilməsi və təminatı sahəsindəki qüsurlar; b) onların üçün ayrılan maliyyə vəsaitində sui-istifadə halları diqqəti cəlb edir. İşdə yol verilən nöqsanlar arasında isə əsas yeri müvafiq orqanların, konkret desək, general-qubernatorluğun idarəsi ilə qaçqın komitəsinin, sonuncunun yerlərdəki müvəkkilləri və şöbələri ilə qəza rəisliklərinin fəaliyyətinin düzgün və səmərəli əlaqələndirilə bilməməsi, bir-birilərinə edilən qarşılıqlı iradlar (məsələn, S.Cəmillinski ilə Naxçıvan qaçqın komitəsi arasındakı 1919-cu il 15 oktyabr tarixli yazışmada[153] əksini tapan) tuturdu.

Müvafiq maliyyə vəsaitinin mənimsənilməsi hallarına gəldikdə

isə Naxçıvan general-qubernatorunun 1919-cu ilin oktyabrında ADR-in Ermənistandakı diplomatik nümayəndəsinə göndərdiyi məxfi məktubda qeyd olunan fakt[154] – mahalda aclıq və xəstəlikdən gündə 300 nəfərədək qaçqının öldüyü bir şəraitdə Azərbaycan hökumətinin didərginlər üçün hələ qışda ayırdığı 2 mln. manatın gec, yəni apreldə, özü də yalnız 400 mininin buraya çatması, onun da müəyyən hissəsindən sui-istifadə olunması – yerlərdəki xoşagəlməz vəziyyətdən xəbər verirdi.

1919-cu ilin sonu- 1920-ci ilin əvvəli üçün Naxçıvan bölgəsi ətrafında fəallaşan xarici maraqlar içərisində İranın məqsədləri də xüsusi yer tuturdu. Və, əvvəlcə yazdığımız kimi bu amil də mahalda siyasi vəziyyətin növbəti dəfə və daha kəskin şəkildə gərginləşməsinə müəyyən təsir göstərdi. İran hökuməti ADR-ə qarşı ərazi iddialarını davam etdirərək, bu dövrki şəraiti əlverişli sayıb Naxçıvan bölgəsinə yiyələnməyə, heç olmazsa da, onun ermənilərin əlinə keçməsinə çalışırdı. M.Mirbabayevin ADR-in XİN-nə göndərdiyi 1919-cu il 20 dekabr tarixli məktubda belə bir mühüm fakt açıqlanırdı ki, rəsmi Tehran ingilis və ermənilərin təhriki ilə Naxçıvan və onun ətrafından 60 mindən çox yerli əhalini İrana köçürməyə, bununla da bölgəni zəiflədib, daşnakları planlarının reallaşması üçün münasib şərait yaratmağa meylli idi.[155]

Və, bu niyyət, onun həyata keçirilməsi sahəsində atılan müxtəlif məxfi və açıq addımlar Azərbaycan hökumətinin və Naxçıvan mahalı başçılarının diqqətindən yayına bilməzdi. Bunu müvafiq orqanların qaldırdığı məsələlərin məzmunu və xarakterindən də görmək olur. Naxçıvan general-qubernatorunun yuxarıda müraciət etdiyimiz məruzələrindən birində əksini tapan faktdan – 1919-cu il dekabrın 2-də Naxçıvandakı iranlı casusdan aldığı məlumatdan[156] aşkarlanır ki, İran hökuməti onun ölkəsinə gəlmək istəyən azərbaycanlı qaçqınları burada məskunlaşdırmaq məqsədilə onları qəbul etmək üçün öz sərhədlərinə xüsusi məmurlar göndərmişdi və torpaq sahələrinin ayrılması da daxil olmaqla onlara hər cür yardım göstəriləcəyini bildirmişdi. S.Cəmillinski İranın bizim qaçqınlara qəfil diqqətini və rəhmli münasibətini Naxçıvan diyarını ADR-dən ayırmaq məqsədlərini güdən ingilis siyasətinin astarı kimi qiymətləndirirdi.

M.Mirbabayevin ADR-in XİN-nə, əvvəldə qeyd etdiyimiz, məruzəsinin Naxçıvana aid bölümündə[157] yazılırdı ki, İran ingilislər və ermənilərlə əlaqəyə girərək müsəlman qaçqınlarını şirnikləndirib öz ərazisinə köçürmək, bununla da Naxçıvan rayonunu zəiflətmək və daşnaklara bu mahala soxulmaq imkanı vermək istəyir. Buna görə də o çox haqlı olaraq Naxçıvan general-qubernatorunun bölgəyə qoşun göndərmək və mahaldakı qaçqınları dolandırmaq üçün yardım göstərmək xahişinə tezliklə əməl edilməsini lazım bilirdi. Habelə S.Əsgərxanovun da öz



məktubunda fars məmurlarının Naxçıvanın və digər yerlərin İranla birləşdirilməsi üçün səylə çalışdıqlarını, bunu Azərbaycanın rəhbər şəxslərinin nəzərinə çatdırılmasını yazması da qonşu dövlətin qəsbkarlıq planlarından xəbər verirdi. Və, ADR rəhbərliyi, habelə Naxçıvan bölgəsinə siyasi-hərbi yardım göstərən və İranın buraya təsirini neytrallaşdırmağa, heç olmazsa isə azaltmağa çalışan Ankara hökuməti müvafiq diplomatik və digər səciyyəli tədbirlər də görürdülər.

1919-cu ilin sonu-1920-ci ilin əvvəli üçün Naxçıvan bölgəsindəki siyasi şəraiti səciyyələndirərkən onun idarəçiliyində iştirak edən qüvvə və tərəflər arasındakı münasibətlərin xarakterinin aydınlaşdırılması da çox vacibdir. Çünki bu münasibətlər bölgədəki siyasi-hərbi vəziyyətə, burada cərəyan edən proseslərə təsir göstərməyə bilməzdi. S.Cəmillinski «əhali general-qubernatoru və Azərbaycan hökumətini müdafiə etsə də...»[158] yazmaqla yanaşı göstərdiyimiz raportlarından birində bölgədəki mövcud siyasi şəraiti «...hakimiyyətsizliyə bərabər olan üçhakimiyyətlilik...»[159] kimi qiymətləndirmişdi. Bu qiymətlə mütləq mənada razılaşmamaq və eyni zamanda onun bəzi məqamlarını inkar etməməklə mahalın bu zaman kəsiyindəki idarəçiliyini təmin edən üç xətti (qüvvəni) şərti olaraq belə qruplaşdırmaq mümkündür: a) ADR hökumətinin bölgədəki general-qubernatorluğu (S.Cəmillinski); b) Kəlbalı xan və onun tərəfkeşləri; v) Türkiyənin bölgədəki hərbi nümayəndəliyi (Xəlil bəy).

Fikrimizcə, burada ən başlıca məsələlərdən biri həmin xətlərin (qüvvələrin) məramlarının, bölgənin ermənilərdən müdafiəsi və gələcəyinə dair mövqelərinin, taktiki hərəkətlərinin, ələxüsus da aralarındakı münasibətlərin mahiyyətinin düzgün açıqlanmasıdır. Bəzi arxiv sənədlərində diqqəti çəkən sırf obyektiv mülahizələrə və tarixi ədəbiyyatdakı[160] birtərəfli təhlillərə baxmayaraq, problemlə bağlı apardığımız tədqiqatlardan irəli gələn belə bir nəticəni qeyd etmək lazımdır: bu, əzəli Azərbaycan diyarının ermənilərin əlinə keçməməsi, onlara qarşı mübarizə məsələlərində tərəflərin şəksiz həmrəyliyi şübhə doğura bilməz.

Bununla yanaşı həm bölgənin müdafiəsinə, həm də onun daxili problemlərinin həllinə dair müəyyən fikir ayrılıqları, fərqli taktiki hərəkətlər olmuşdu. Bu halların yaratdıqları anlaşılmazlıqlar bəzən onlar arasında müəyyən ziddiyyətlərə, bir-birlərinə siyasi qibtə etmələrinə, qərəzli münasibət bəsləmələrinə gətirib çıxarmışdı. Bu baxımdan ən çox da Kəlbalı xanın mövqeyi müxtəlif tərəflərdən və səpkilərdən tənqidə məruz qalmışdır. Buna görə də S.Cəmillinskinin yuxarıda qeyd edilən raportlarından müvafiq qərəzli və ziddiyyətli məqamlara, onların isə bəzi tədqiqatlarda xüsusilə vurğulanmalarına mütləq diqqət yetirilməlidir.

Bəri başdan deyək ki, Kalbalı xanın siyasi xəttində və fəaliyyətində çoxlu anlaşılmaz və dolaşıq halların olması qətiyyən inkar edilə bilməz. Lakin eyni zamanda S.Cəmillinski tərəfindən onun ünvanına söylənilən xeyli «təşbihlər» və bir-birilə ziddiyyət təşkil edən fikirlərlə[161] (mənsəbpərəst, qaniçən, sərvətə həris şəxslərdən, zalım, şərəfsiz, mənəviyyatsız yaramazlardan biri; diyarda baş verən şər işlərin hamısının baiskarı; Azərbaycan zabitinin şərəfini ləkələyən xan oğlu; özünü dahi sərkərdə, ulu babasının layiqli övladı hesab edən zalım, kəmağıl, yarıdəli xan; özünü diyarın ağası və onun sakinlərini isə qullar sayan; Azərbaycanı nəinki tanımayan, hətta onu ələ salaraq nifrət edən, nüfuzdan salaraq mədəni respublikaya layiq olan qaydaların yaradılmasına imkan verməyən; cinayətkar ünsürlərlə əlaqə saxlayan və diyarın sərvətlərini talan edib ora-bura satan; qəlbən denikinçi və ingilis nüfuzunun tərəfdarı; ADR-in güya yerli müsəlmanları aldatdığını iddia edən; ermənilərin niyyətləri və zorakılıq hərəkətlərinə dair həyəcanlı xəbərlərə əhəmiyyət verməyən) də razılaşmaq olmur. Çünki həmin mülahizələr heç də inandırıcı səslənmir.

Bu fikirlərlə bağlı ən vacibi budur ki, Kalbalı xanı torpaqlırımızın müdafiəsinə laqeyidlikdə təqsirləndirmək qətiyyən düzgün olmazdı. Elə gətirdiyimiz faktlar və təhlil etdiyimiz hadisələrdən də görünür ki, 1919-cu ilin əvvəlində Şərurda erməni silahlı qüvvələri üzərində çalınan qələbədə, həmin ilin yayında Naxçıvandakı erməni «idarəçiliyi»nin qovulmasında, 1920-ci ilin martında daha ağır vəziyyətə düşən Ordubad mahalı əhalisinə sanballı hərbi yardım göstərilməsində və burada ermənilərə qarşı bir çox uğurlu əməliyyatların aparılmasında onun xidmətləri çox olmuşdu.

General-qubernator Türkiyənin bölgədəki hərbi nümayəndəsi Xəlil bəyin fəaliyyətinə toxunarkən müəyyən haqlı iradlar söyləməklə yanaşı onu da hərbi-müdafiə məsələlərində suçlamışdı.[162] Halbuki Xəlil bəy öz dövlətinin müəyyən siyasətini də bölgədə yeritməklə bərabər bu mahalın ərazi və əhalisinin erməni hərbi hissələrinin hücumlarından müdafiəsində, zəngəzurlu və digər qaçqınların burada yerləşdirilməsində, onlara yardım göstərilməsində mühüm rol oynamışdı.

Naxçıvanın müvəqqəti general-qubernatoru kimi bölgənin idarəçiliyinə və kəskin sosial-siyasi problemlərinin həllinə böyük əmək sərf edən S.Cəmillinski mahalda ADR hökumətinin xəttini yeritməyə, bu mahalla ana torpaq arasındakı əlaqə və münasibətlərin möhkəmləndirilməsinə çalışmışdır. Bu məqsədlə də o, bölgədəki siyasi qüvvələr arasındakı narazılıqların aradan götürülməsinə, hərbi hissələrin ərzaq və hərbi sursatla təchizatına, bölgənin idarəçiliyi üçün ayrılan pul vəsaitinin və bir sıra tikinti materiallarının dağıdılmasının qarşısının alınmasına cəhdlər göstərmişdi.



Onun fikrincə, bölgədəki siyasi-hərbi durumu bir az da ağırlaşdıran aşağıdakı məqamları[163]: Nehrəm taborunun komandiri, Azərbaycan hökumətinə sadiq olan Kərbəlayı Muxtarla Kalbalı xan arasındakı ixtilaflar (onların dəstələri arasındakı toqquşmanın qarşısının Xəlil paşanın vaxtında edilən müdaxiləsi yolu ilə alınması göstərilir); erməni «idarəçiliyi» zamanı Naxçıvan şəhərinə başçı təyin edilən və ermənipərəstlikdə təqsirləndirilən B.Naxçıvanski və habelə X.İrəvanski ilə bağlı maliyyə pozuntuları; Kalbalı xanın Azərbaycan hökuməti tərəfindən təklif edilən vəzifəni tutmaq üçün Bakıya köçmək istəməməsi (bizcə, ermənilərin bölgə üçün yaratdıqları təhlükəli bir şəraitdə Kəlbalı xanın buradan uzaqlaşdırılması düzgün olmazdı və hadisələrin sonrakı gedişi – 1920-ci il mart döyüş əməliyyatlarının bizim üçün uğurlu nəticələri də bu fikri təsdiqləyə bilər); Xəlil bəyin hərbi idarəyə dəxli olmayan işlərə qarışmaq istəyi (Xəlil paşanın gəlişindən sonra bu hala son qoyulması göstərilir); soyuqların düşməsi və ermənilərin hərbi əməliyyatları üzündən Zəngəzurdan keçən yolların bağlanması nəticəsində Azərbaycan hökumətinin bölgə ilə birləşmək imkanından yazadək məhrum olması; hərbi idarənin ərzaqla təchizatı işinin həddən ziyadə pis vəziyyətə düşməsi; lazım olan yeyinti məhsullarının alınması üçün pul və imkanların olmaması və s. Qeyd edən S.Cəmillinski həm də ADR rəhbərliyinə müəyyən təkliflər də vermişdi.

Belə ki, general-qubernator, əsasən, Kalbalı xanın və Xəlil bəyin fəaliyyəti və bununla əlaqədar olaraq da yerlərdə işin vəziyyəti haqqında məruzəsində[164] yazırdı ki, əgər Naxçıvan rayonunun mənafeyi ADR hökumətinə əzizdirsə və onun bölgəni Azərbaycanla birləşdirmək üçün kiçicik də olsa arzusu varsa, onda: 1) qeyd edilən şəxslərin hərəkətlərinin, hansı üsullarla olursa-olsun və hansı qurbanlar bahasına başa gəlsə də belə, dərhal iflic edilməsi; 2) buraya təcili nizami qoşun hissələri göndərməklə respublikanın qanunlarının həyata keçirilməsi və diyarda baş verən bəd əməllərin qarşısının alınması; 3) qulluqçulara vaxtlı-vaxtında maaş verilməsi üçün yerli xəzinənin kifayət qədər pulla təmin edilməsi; 4) loyal və sadiq adamlarm qulluğa cəlb edilməsinin mümkünlüyü üçün qulluqçulara yüksək əmək haqqı kəsilməsi; 5) vəziyyətlə yerindəcə tanışlıq məqsədilə ilk imkan düşən kimi bölgəyə nümayəndələr göndərilməsi lazım gəlir.

Bu cəhəti də qeyd edək ki, bəzi arxiv sənədlərindəki ziddiyyətli məqamların aydınlaşdırılmasına etinasızlıq və diqqətsizlik üzündən Naxçıvan bölgəsinin idarəçilyində müxtəlif səviyyələrdə iştirak edən şəxslər arasındakı münasibətlərin xarakteri də Azərbaycan tarixşünaslığında birtərəfli təhlil olunmuşdur. Görünür, bəzi əsərlərdə[165] sovet

dövrünün «elmi» sifarişinin yerinə yetirilməsi, digər tədqiqatlarda[166] isə bir sıra arxiv sənədlərindəki sırf subyektiv fikirlərin təsirindən Kalbalı xanın fəaliyyəti hərtərəfli əks olunmamış, yəni ki, yalnız mənfi səpkidən işıqlandırılmışdır.

Belə bir cəhət xüsusilə vurğulanmışdır ki, güya Kalbalı xan Türkiyənin təsiri ilə Musavat hökumətinin idarəçiliyini – general-qubernatoru 1920-ci ilin fevralında bölgədən getməyə məcbur etmiş, diyarın müstəqilliyini bildirməklə onun Türkiyənin əlinə keçməsinə çalışmışdır. Lakin arxiv sənədlərindən də aydınlaşdığı kimi, 1) S.Cəmillinski özü 1920-ci il fevralın 29-da A.Haqverdiyev[167] vasitəsilə Azərbaycan hökumətinə əvəz olunmasını çatdırmışdı, 2) O, 1920-ci il martın ikinci yarısında hələ də Naxçıvanda idi; bunu oradan Tehrana – A.Ziyadxana göndərdiyi teleqramlar da sübuta yetirir.

Daha sonra bəzi müəlliflər Kalbalı xanın, bir tərəfdən antiazərbaycan mövqe tutmasını söyləməklə, digər tərəfdən erməni kəndlərinə hücumlarda fəal iştirakına görə Türkiyənin ordenləri ilə təltif olunmasını[168] (bu sətiraltı fikir kimi də başa düşülə bilər), ən başlıcası isə erməni silahlı qüvvələri ilə döyüşlərdə göstərdiyi igidliklərə əsasən ADR hökuməti tərəfindən yüksək hərbi rütbə almasını yazmaqla öz-özlərinə zidd getmişlər. Sözgəlişi, Azərbaycan Respublikasının hərbi rütbələr haqqında 1919-cu il 9 aprel tarixli, 14 saylı əmrilə Kəlbalı xan iş stajına görə qvardiya ştabs-rotmistrindən qvardiya rotmistri, xidmətdə fərqlənməyə görə isə podpolkovnikdən polkovnikliyə yüksəldilmiş, sonralar isə onun rütbəsi daha da artırılmışdı.[169]

Azərbaycan sovet tarixşünaslığındakı belə bir mülahizə ilə də razılaşmaq olmaz ki, güya bölgənin əhalisi qeyri-mütəşəkkilliyi və siyasi geriliyi üzündən burjua-millətçi ünsürlər tərəfindən müəyyən məqsədlər üçün istifadə olunmuşdur. Əksinə, bölgədə Araz-Türk Respublikası kimi siyasi-dövlət qurumunun yaradılması, erməni «idarəçiliyi»nə imkan verilməməsi, İngiltərə, ABŞ, İranın təsirinin neytrallaşdırılması və hətta sonralar – sovet dövründə də ermənilərin mahalda əl-qol açmalarına qətiyyən yol verilməməsi kimi mühüm məqamlar onun azərbaycanlı əhalisinin siyasi yetkinliyinə, mütəşəkkilliyinə və birliyinə sübütdür.

Ümumiyyətlə isə 1920-ci ilin yazı üçün Naxçıvan bölgəsi də təkrar rus işğalı və yeni ictimai-siyasi quruluş, onların yaradacaqları problemlər ərəfəsində idi. Bölgədə cərəyan edən proses və hadisələr onun başı üzərini alan təhlükənin hələ də sovuşmamasından, yaxın gələcəkdəki ciddi siyasi qarşıdurma və mübarizədən xəbər verirdi.



## ƏDƏBİYYAT


1. R.Ullman. Anglo-Soviet Relations, 1917-1921. London, 1968, p.73.
2. R.Hovannisian. The Republic of Armenia. Berkley-Los-Angelos-London, 1971, p. 268.
3. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 80, v. 33.
4. Yenə orada, f. 970, siy. 1, iş 15, v. 22.
5. Yenə orada, f. 894, siy. 10, iş 76, v. 3.
6. Yenə orada, siy. 7, iş 5, v. 17; siy. 10, iş 193, v. 19.
7. Yenə orada, f. 2898, siy. 2, iş 10, v. 141.
8. Yenə orada, f. 894, siy. 10, iş 76, v. 3.
9. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy. 2, iş 57, v. 2-2 arx.
10. Azərbaycan Respublikası MDA, f. 894, siy. 4, iş 65, v. 129.
11. «Азербайджан» qəzeti, 3 yanvar 1919-cu il.
12. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, s. 288.
13. «Азербайджан» qəzeti, 7 yanvar 1919-cu il.
14. Yenə orada.
15. Yenə orada.
16. Yenə orada, 18 oktyabr 1919-cu il.
17. Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy. 9, iş 13, v. 7-8.
18. «Азербайджан» qəzeti, 18 oktyabr 1919-cu il.
19. Yenə orada.
20. Yenə orada.
21. Yenə orada.
22. Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy. 1, iş 13, v. 3.
23. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 76, v. 3.
24. «Азербайджан» qəzeti, 18 oktyabr 1919-cu il.
25. Yenə orada, 11 yanvar 1919-cu il.
26. Yenə orada, 28 yanvar 1919-cu il.
27. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 149, v. 13.
28. Yenə orada.
29. «Азербайджан» qəzeti, 5 yanvar 1919-cu il.
30. Azərbaycan Respublikası MDA, f. 894, siy. 2, iş 94, v. 2.
31. «Азербайджан» qəzeti, 5 yanvar 1919-cu il.
32. Azərbaycan Respublikası MDA, f. 894, siy. 2, iş 94, v. 2.
33. «Азербайджан» qəzeti, 12 yanvar 1919-cu il.
34. Azərbaycan Respublikası MDA, f. 894, siy. 2, iş 94, v. 2.
35. «Азербайджан» qəzeti, 12 yanvar 1919-cu il.
36. Azərbaycan Respublikası MDA, f. 894, siy. 2, iş 94, v. 2.
37. Yenə orada, siy. 10, iş 76, v. 2-6.

38. Yenə orada, v. 2.
39. Yenə orada.
40. Yenə orada.
41. Yenə orada, v. 3.
42. Yenə orada, v. 4.
43. Yenə orada, v. 5.
44. Yenə orada.
45. Yenə orada.
46. Yenə orada, v. 3.
47. «Азербайджан» qəzeti, 28 fevral 1919-cu il.
48. Azərbaycan Respublikası MDA, f. 894, siy. 2, iş 102, v. 2.
49. Yenə orada, siy. 3, iş 75, v. 2.
50. Yenə orada, v.3, 12.
51. Yenə orada, siy. 2, iş 75, v. 2.
52. «Азербайджан» qəzeti, 9 mart 1919-cu il.
53. Yenə orada, 18 mart 1919-cu il.
54. Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu), s. 162-190.
55. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 142-146; «Xazar» jurnalı, 1989, № 1, s. 55-89.
56. Yenə orada, f. 894, siy 7, iş 94, v. 1-28; f. 2905, siy. 1, iş 13, v. 44, arx.-45 arx.
57. Yenə orada, f. 970, siy. 1, iş 142, v. 174-176, 187, 198-201, 213-227, 234.
58. «Азербайджан» qəzeti, 11 iyun 1919-cu il.
59. К истории образования НКАО Азербайджанской ССР, 1918-1925: Документы и материалы. Баку, 1989, с. 14-16.
60. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 142, v. 56-63.
61. Yenə orada, v. 9-38.
62. Yenə orada, v. 174-176, 187, 197-199, 201, 205, 231, 217-227, 234; v. 894, siy. 10, iş 141, v. 59.
63. Yenə orada, f. 970, siy. 1, iş 142, v. 217-227.
64. Yenə orada, v. 220.
65. Yenə orada, v. 45; iş 149, v. 15.
66. Yenə orada, f. 894, siy. 10, iş 81, v. 9-10, iş 103, v. 10-19; f. 970, siy. 1, iş 171, v. 2-11, 16-17, 21-22, 25-26, 63-64.
67. Yenə orada, f. 970, siy. 1, iş 143.
68. Yenə orada, f. 894, siy. 10, iş 31, v. 15-17.
69. Yenə orada, iş 110, v. 2; f. 897, siy. 1, iş 94, v. 37, siy. 3, iş 7, v. 2.
70. Yenə orada, f. 894, siy. 10, iş 94, v. 10; f. 970, siy. 1, iş 146, v. 12.
71. «История СССР» jurnalı, 1961, № 3, s. 35.



72. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 94, v. 10; f. 970, siy. 1, iş 146, v. 12; Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun əsərləri, XII cild. Bakı, 1958, s. 353.
73. «Азербайджан» qəzeti, 25 oktyabr 1919-cu il.
74. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 92, v. 4; iş 93, v. 5; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 47.
75. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 92, v. 5-6; iş 93, v. 3-4; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 40-41.
76. Yenə orada, f. 970, siy. 1, iş 92, v. 7; iş 93, v. 6; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 42-43.
77. Yenə orada, f. 970, siy. 1, iş 92, v. 8-8 arx.; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 54.
78. Bax: Мадатов Г. Указ. Соч., с. 66-67; Багиров Ю. Указ. Соч., с. 47; A.Hacıyev. Göstərilər əsəri, s. 86 və s.
79. «Азербайджан» qəzeti, 28 fevral 1919-cu il.
80. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 93, v. 7,9, iş 54, v. 122-123; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 49-50.
81. «Azərbaycan arxivi» jurnalı, 1988, № 1-2, s. 145.
82. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 92, v. 8-8 arx., iş 93, v. 9.
83. «Азербайджан» qəzeti, 14 noyabr 1919-cu il.
84. Azərbaycan Respublikası MDA, f. 2905, siy. 1, iş 13, v. 44 arx.
85. «Азербайджан» qəzeti, 1 oktyabr 1919-cu il.
86. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 18.
87. Yenə orada, v. 6-6 arx.
88. Yenə orada, f. 276, siy. 9, iş 40, v. 31.
89. Yenə orada, f. 277, siy. 1, iş 58, v. 153; Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 145, v. 16.
90. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 1-5, 7-8.
91. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 54, v. 100-101; f. 2905, siy.1, iş 20, v. 2.
92. Yenə orada, f. 894, siy. 10, iş 94, v. 10-11.
93. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 128.
94. Мадатов Г. Указ. Соч., с. 67.
95. «Азербайджан» qəzeti, 14 noyabr 1919-cu il.
96. Azərbaycan Respublikası MDA, f. 897, siy. 2, iş 5, v. 109.
97. «Азербайджан» qəzeti, 23 oktyabr 1919-cu il; «Azərbaycan arxivi» jurnalı, 1988, № 1-2, s. 150-151.
98. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 130.
99. «Азербайджан» qəzeti, 14 noyabr 1919-cu il.

100. Yenə orada, 26 oktyabr 1919-cu il.
101. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 111 arx.,113.
102. Azərbaycan Respublikası MDA, f. 894, siy. 1, iş 57, v. 12; SPİH MDA, f. 277, siy.2, iş 58, v. 111 arx.
103. Yenə orada, f. 894, siy. 10, iş 94, v. 5-6, 10.
104. «Азербайджан» qəzeti, 25 oktyabr 1919-cu il.
105. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 94, v. 6.
106. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 89.
107. Transqafqazda vəziyyəti öyrənmək üçün regiona göndərilən Amerika missiyasının başçısı Harbord 1919-cu il oktyabrın əvvəllərində Bakıda olarkən («Азербайджан» qəzeti, 7 oktyabr 1919-cu il) buradakı erməni icması Naxçıvan, Zəngəzur və digər bölgələrlə bağlı ərazi tələblərinə aid sənədi ona təqdim etmişdi. ADR hökuməti isə öz növbəsində Harborda ermənilərin Azərbaycanın bu bölgələrinə qarşı ərazi iddialarının əsassızlığını sübuta yetirən çoxlu sənəd və materiallar vermişdi. Bunu da qeyd edək ki, Harbord İrəvana səfəri zamanı Ermənistan hökuməti tərəfindən də xeyli sənəd və materiallarla (Parisdəki erməni nümayəndə heyətinin nəşr etdirdiyi – mübahisəli ərazilərlə Ermənistanın tarixi və etniki hüquqlarına dair kitabça; Zaqafqaziya xalqlarının yerləşməsinə aid xəritə və statistika məlumatları; Naxçıvan, Zəngəzur və Qarabağın erməni əhalisinin sayına dair statistik məlumatlar; Lautenin təklif etdiyi barışıq şərtləri; Korinin 1919-cu il 31 may tarixli məktubu; ingilis qoşunlarının hələlik bölgələrdə saxlanması ilə bağlı sənədlər. – Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy.9, iş 16, v. 48) təchiz olunmuşdu.
108. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 94, v. 6, 10.
109. Yenə orada, f. 970, siy. 1, iş 146, v. 11.
110. «Азербайджан» qəzeti, 18 dekabr 1919-cu il; Bax. C.Həsənov. Göstərilən əsəri, s. 273.
111. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v. 113.
112. Yenə orada, v. 152, 156.
113. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 65, v. 6, 121.
114. Yenə orada, f. 894, siy. 7, iş 20, v. 8-12; siy. 10, iş 101, v. 18-22.
115. Мадатов Г. Указ. Соч., с. 70; Багиров Ю. Указ. Соч., с. 48.
116. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 104, v. 2, arx.3.
117. Yenə orada, f. 894,siy. 10, iş 101, v. 18.



118. T.Svyatoxovski. Rusiya Azərbaycanı 1905-1920-ci illər; «Azərbaycan» jurnalı, 1989, № 11, s. 148.
119. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 101, v. 14-17.
120. Yenə orada, v. 20-21.
121. A.Hacıyev. Göstərilən əsəri, s. 99.
122. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 101, v. 22.
123. Yenə orada, iş 80, v. 25; «Азербайджан» qəzeti, 24 yanvar 1920-ci il.
124. Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy.9, iş 1, v. 57.
125. Yenə orada, iş 41, v. 10; f. 277, siy.2, iş 58, v. 173; «Азербайджан» qəzeti, 24 yanvar 1920-ci il.
126. Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy. 9, iş 41, v. 13-14.
127. Yenə orada, f. 277, siy.2, iş 58, v. 167.
128. Yenə orada, f. 276, siy.9, iş 41, v. 168, 170, 172.
129. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 22, v. 79; «Азербайджан» qəzeti, 24 yanvar 1920-ci il.
130. «Азербайджан» qəzeti, 24 yanvar 1920-ci il.
131. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 80, v.23.
132. «Азербайджан» qəzeti, 18 fevral və 2 mart 1920-ci il.
133. Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 115, v. 36-37.
134. Yenə orada, f. 894, siy. 10, iş 80, v. 25, iş 101, v. 22; f. 970, siy. 1, iş 127, v. 11;
135. Yenə orada, f. 970, siy. 1, iş 115, v. 37;
136. Yenə orada, f. 894, siy. 10, iş 127, v. 3,4,10; SPİH MDA, f. 277, siy.2, iş 87, v. 37.
137. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 87, v. 36; Azərbaycan Respublikası MDA, f. 970, siy. 1, iş 127, v. 2,11.
138. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 80, v. 16-17.
139. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 69, v. 11-11 arx.
140. Azərbaycan Respublikası MDA, f. 896, siy. 2, iş 3, v. 6; «Азербайджан» qəzeti, 25 oktyabr 1919-cu il.
141. «Азербайджан» qəzeti, 31oktyabr 1919-cu il.
142. «Azerbaycan» dergisi, 1954, № 9.
143. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 80, v. 4; f. 897, siy. 1, iş 78, v.4.
144. Yenə orada, f. 894, siy. 7, iş 20, v. 2.
145. Yenə orada, f. 970, siy. 1, iş 57, v. 106.
146. Адрес-календарь Азербайджанской Республики на 1920 г..., s. 76-88; Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy.9, iş 40, v. 26.

147. Azərbaycan Respublikası MDA, f. 896, siy. 2, iş 3, v. 5;
148. Yenə orada, v. 11.
149. Azərbaycan Respublikası SPİH MDA, f. 276, siy.9, iş 40, v. 26.
150. Azərbaycan Respublikası MDA, f. 894, siy. 9, iş 11.
151. Yenə orada, v. 9,23, 74-76.
152. Yenə orada, siy.7, iş 20, v. 2-3; siy. 9, iş 11, v. 24, 56, 120.
153. Yenə orada, siy. 9, iş 11, v. 77-79.
154. Yenə orada, f. 970, siy. 1, iş 104, v. 2 arx.
155. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 58, v.150.
156. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 101, v. 22.
157. Yenə orada, iş 80, v. 25.
158. Azərbaycan Respublikası SPİH MDA, f. 277, siy.2, iş 40, v.144.
159. Azərbaycan Respublikası MDA, f. 894, siy. 10, iş 101, v. 22.
160. Мадатов Г. Указ. Соч., с. 53-54; A.Hacıyev. Göstərilən əsəri, s. 46. Sonuncu müəllif hətta öz-özünə zidd gedərək kitabının bu səhifəsində həm Kalbalı xanın ermənilərin Naxçıvan bölgəsindən qovulmalarındakı görkəmli rolundan, həm də onun daşnaklardan siyasi mənfəət qazanmağa çalışmasından bəhs edir.
161. Azərbaycan Respublikası MDA, f. 894, siy. 7, iş 20, v. 8-12; iş 101, v. 18-22.
162. Yenə orada, siy. 10, iş 101, v. 18, 20-21.
163. Yenə orada, siy. 7, iş 20, v. 10-12; siy. 10, iş 101, v. 18, 21-22.
164. Yenə orada, siy. 7, iş 20, v. 8-12.
165. Мадатов Г. Указ. Соч., с. 71-72; Багиров Ю. Указ. Соч., с. 48-50.
166. A.Hacıyev. Göstərilən əsəri, s. 100-108.
167. ADR Nazirlər Şurasının 1920-ci il 7 fevral tarixli qərarı ilə Azərbaycan Hərbi Məhkəməsinin sədri Teymur bəy Makinski respublikamızın Ermənistandakı diplomatik nümayəndəliyinə başçı təyin olunmuş və o, həmin il martın 16-da öz səlahiyyətlərinin icrasına başlamışdı. – Azərbaycan Respublikası MDA, f. 2898, siy. 2, iş 3, v. 148.
168. Naxçıvan Muxtar Respublikası MDA, f. 25, siy. 2, iş 2, v 47.
169. Azərbaycan Respublikası MDA, f. 2898, siy 2, iş 1, v. 209;

*İ.Musayev. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s. 165-194.*



## CƏNUB-QƏRBİ QAFQAZ RESPUBLİKASI İLƏ ƏLAQƏLƏR VƏ NAXÇIVAN MƏSƏLƏSİ

1918-ci il martın 3-də imzalanmış Brest-Litovsk müqaviləsinə görə, Rusiya, Qars, Ərdahan və Batumu («Elviyeyi-selase» - üç sancaq) Osmanlı imperiyasına güzəştə getməli idi. Bu məsələ barədə müqavilənin IV maddəsində deyilirdi: «Şərqi Anadolu əyalətlərinin dərhal boşaldılması və onların Türkiyəyə nizamlı şəkildə qaytarılması üçün Rusiya ondan asılı olan hər bir işi görəcəkdir. Ərdahan, Qars və Batum mahalları da təxirəsalınmadan rus qoşunlarından təmizlənəcək. Rusiya bu mahallarda yeni dövlət-hüquq təşkilatı və beynəlxalq-hüquq münasibətlərinə müdaxilə etməyəcək, qonşu dövlətlərin, xüsusilə Türkiyənin razılığı ilə yeni quruluşunu müəyyən etməsini bu mahalların əhalisinin ixtiyarma buraxacaq»(1, s.121; 23, s. 652).

Bu müqavilədə rus əsgərinin bu üç mahalı «dərhal boşaltması» müddəti göstərilməmişdi. Lakin rus hərbi hissələri müqavilə imzalandıqdan əvvəl cəbhəni tərk edir, onların yerini erməni və gürcü hissələri tuturdu. Bu, Brest-litovsk müqaviləsinə zidd olduğu üçün türk nümayəndə heyəti sovet heyətinə qəti etirazını bildirmişdi (20, s.17).

1918-ci ilin baharında keçirilmiş əməliyyatlar nəticəsində Osmanlı qoşunu aprelin 5-də Sarıqamışı, 14-də Batumu, 25-də isə Qarsı azad etdi (23, s.488-494). Gürcülər belə olduğu təqdirdə almanlara şikayət etməyə və sonuncuları bu məsələdə türklərə təhrik etməyə başladılar. İyun ayının 20-də və 28-də gürcü hökuməti alman diplomatik nümayəndələrinə müraciət edib, türklərin Batumda «etnik əsasda öz müqəddəratlarını müəyyən etmək istəyən acarları incitdiklərini» bildirir və bu hərəkətlərin qarşısını almaqda onlara kömək etmələrini xahiş edirdi (2, s.375-376). Bu tələblər qarşısında türklər Batumda xalq səsverməsi keçirdilər və əhalinin böyük əksəriyyəti Osmanlı imperiyası daxilində qalmaq istədiyini bildirdi (20, s. 20-22).

İyulun 28-də gürcü hökumətinin məktubuna cavab olaraq Gürcüstandakı alman qoşunlarının komandanı fon Kress yazırdı ki, Batum plebisitini qonşu dövlətlərin razılığı olmadan, beləliklə, Brest-Litovsk müqaviləsinin IV maddəsini pozaraq həyata keçirdikləri üçün, alman hökuməti bu referendumu protest edərək, gürcü demarşını qanuni hesab edir (2, s.377-378).

Almaniyanın təqdirini əldə etmiş gürcü hökuməti Osmanlı ordusunun komandanlığına Batum plebisitinin keçirilməsi qaydasına öz etirazını bildirdi. Gürcü hökumətinin notasında plebisitin keçirilməsində yol verilmiş pozuntular qeyd olunurdu: referendum şəhər mühasirə vəziyyətində olduğu şəraitdə keçirilmişdir; hazırlıq işləri pis aparılmış,

referendum gözlənilmədən keçirilmiş, yalnız iki dildə aparılmış, gürcülərin ondan xəbəri olmamışdır; referendum vaxtı Batum əhalisinin böyük hissəsi şəhərdən kənarda imiş; səsvermə gizli olmamış, vətəndaşların çoxuna səs vermək imkanı verilməmiş, türklər təzyiq göstərmiş, hətta seçiciləri qorxutmuş; müvəqqəti sakinlərə, məsələn iranlılara səs vermək ixtiyarı verilmiş, bülletenlər milliyətlər üzrə verilmiş, ona görə də seçicilərin azadlığı məhdudlaşdırılmışdır. Qeyd edilən bu səbəblərə görə, gürcü hökuməti Batum referendumunu Brest-Litovsk müqaviləsinin mahiyyətinə zidd hesab edir və onu tanımadığını bildirirdi (2, s.370-371).

Ordu komandanı Əsəd paşa gürcü hökumətinin xarici işlər nazirinə yazdığı cavab məktubunda gürcülərin iradlarının əsassız olduğunu göstərir, gürcü hökumətinin qəbul etmədiyi Brest-Litovsk müqaviləsinə əsaslanmalarını məntiqəuyğun hesab etmədiyini bildirir, deyilən bütün iradların faktlara uyğun gəlmədiyini izah edir, bununla «protesti ləğv olunmuş və etibarsız saydığını» xəbər verirdi (2, s.372-374). Bu notadan sonra Osmanlı imperiyasının nümayəndələri bu məsələni bir daha müzakirə etməkdən imtina etdilər.

Batum, eləcə də Qars və Ərdahan məsələləri Osmanlı imperiyasının müharibədə məğlub olması və oktyabrın 30-da Mudros barışığının imzalanmasından sonra yenidən aktuallaşdı. Mudros barışığının 11-ci maddəsinə görə, Osmanlı qüvvələri İranın Şimalından və Cənubi Qafqazdan 1914-cü il hüdudlarına qədər geri çəkilməli idi. 24-cü maddədə isə göstərilirdi ki, Şərqi Anadoluda ermənilərin məskun olduğu altı vilayətdə qarışıqlıq yarandığı təqdirdə Müttəfiqlər bu vilayətlərin hər hansı birini işğal edə bilərdilər (23, s.576).

Yeni yaranmış İzzət paşa hökuməti hələ Mudros barışığı imzalanmamış qoşunların tələsik Qafqazdan geri çəkilməsi haqqında əmr verdi. Noyabr ayında türk ordusunun heç olmasa qışı «Elviyeyi-selase»də (üç sancaq) keçirə bilməsi haqqında Osmanlı hökumətinin xahişini rədd edərək, Müttəfiqlər bu bölgələrin boşaldılmasını əmr etdilər. Bu əmrə uyğun olaraq IX Ordu komandanına noyabrın 23-də 1914-cü il sərhədlərinə geri çəkilmək tapşırıldı.

Mudros barışığına uyğun olaraq Osmanlı Ordusunun 1914-cü il hüdudlarına qədər geri çəkilməsi bu böyük bölgədə yaşayan türk və müsəlman əhalini öz talelərinin ixtiyarına buraxmaq demək idi. Daha öncə rus, gürcü, erməni qətli-amlarını və zülmlərini görmüş yerli əhali öz azadlıqlarını təkrar əldən verməmək üçün fəaliyyətə başladı. Axısqa, Axalkələk, Gümrü, İğdır və Naxçıvan mahallarının yerli əhalisi IX Ordu komandanı Yaqub Şövqi paşaya göndərdikləri müraciətdə xahiş edirdi:

«1. Osmanlı hökuməti ərazimizdən əsgərləri geri çəkməsin;



2. və yaxud əsgərləri geri çəkmək zərurəti varsa, islam əhalini mühafizə üçün bir miqdari-kafi mühafiz əsgər buraxsın;

3. və yaxud qəzamıza gələcək xristian əhalinin bizi məhv və ifna etməməsinin və xristian əsgərlərinin də gəlməməsini və sülhi-ümuminin nəhayətinə qədər bizi kəndi halımıza və müstəqil buraxaraq, gürcü və ya erməni hökumətlərinin də bizi şimdilik təhti-əmr və əsarətlərinə almalarının təmin edilməsi!»(19, s.238).

Yerli əhalinin müraciətini alan Yaqub Şövqi paşa dərhal hərbi nazirliklə əlaqəyə girib, «bizim əsgər çəkilincə, xristianların gəlib onları məhvi-pərişan edəcəklərindən qorxurlar və bu düşüncədə də haqlıdırlar» əlavəsi ilə əhalinin müraciətini İstanbula göndərdi və əmr gözlədiyini bildirdi. Hərbi nazirlikdən alınan əmr təskinedici deyildi: «müttəfiqlərimizlə birlikdə, təəssüf ki, məğlub çıxdığımız və odur ki, barışığa uyğun olaraq Qafqazı altı ay içərisində tamamilə tərk edəcəyimiz və bölgədə bulunan türk-islam əhalinin də bir növ başının çarəsinə baxması və hətta daha irəli gedərək, ana vətəni güc durumda buraxacaq hərəkətlərdən qaçınmaları» tələb edilirdi (19, s.238-239).

Axısqa əhalisi öz mahallarını qorumağa, buraya gürcüləri buraxmamağa qərar verdi. Öz taleyinə buraxılmış bölgə əhalisinin öz hökumətini yaratmaqdan başqa yolu yox idi. Belə bir vəziyyətdə 1918-ci ilin oktyabrın 29-da «Axısqa hökuməti-müvəqqətisi» quruldu.

Hökumətin başçısı Ömər Faiq Nemanzadə seçildi. Hökumətin qurulduğu gün Ömər Faiq Osmanlı Ordusunun burada yerləşmiş 3-cü fırka (diviziya) komandanı Xalid bəyə müraciət edərək, hökumətin yaranması məqsədlərini açıqlayıb, bir sıra xahişlər etdi: «Bölgədə bulunan 3-cü fırka mümkünsə əsgərlərini geri çəkməsin; 2. Məcburən Osmanlı hökumətindən qoparıldığımız təqdirdə, qurulan hökumətin davamlılığının təmin edilməsi və bunun üçün də Yaqub Şövqi paşanın yardımlarını əskik etməməsi üçün Xalid bəyin vasitəçi olması». Lakin 9-cu ordunun komandanının kömək xahişlərinə rədd cavabı qəti idi: «Əgər bu mümkün olsa idi, onun (Ömər Faiqin-N.N.) xahişlərinə biz meydan verməzdik. Fəqət Osmanlı hökumətinin vəziyyəti və siyasəti-hazirəsi məlum olan məntəqələri kamilən əsgərlərimizdən boşaltmağa məcburiyyət göstərməkdədir»(20, s.38-39) .

3-cü diviziyanın komandanlığı Axısqa və ətrafını boşaltınağa çox da tələsmirdi. Diviziyanın komandanlığı yerli əhaliyə lazım olan dəstəyi təmin etdikdən sonra çəkilmək niyyətində idi.

Bu arada gürcülər də öz növbəsində Osmanlı əsgərinin bu bölgələri tərk etməsini, səbirsizliklə Axısqa və Axalkələyin tutulmasını gözləyirdilər. Bu məqsədlə general Makoyevi Axısqa və Axalkələk qarnizonunun komandanı təyin etmişdilər. Makoyev ilk əvvəl xalqa xoş görün-

mək üçün müsəlman əhalidən əsgər alınmayacağını, bu vaxta qədər qüvvədə olan qanunların işləyəcəyini, gürcü əsgərinin buraya yalnız ictimai asayişi qorumaq üçün girəcəyini, özünün də «xalqa hüzur və sədaqət gətirəcəyini» vəd etdi. Bu mövzuda gürcü qəzetlərində də yazılar çıxdı (20, s.40).

3-cü diviziya komandanı gec-tez ölkəni tərk etmək lüzumu qarşısında, yerli əhalinin yardımsız və müdafiəsiz qalmaması üçün Yaqub Şövqi paşa ilə gizlincə anlaşaraq, 500-ə qədər əsgər və onlara çatacaq qədər zabit, bir milis alayının yaradılması üçün başqa tədbirlər gördü. Mühəndis Osman Sərvər Atabəyovun (Atabəyin) başçılığı ilə yaradılan bu milis alayının ixtiyarına kifayət qədər top, pulemyot və güllə-mərmi də verildi (20, s.42-43). Beləcə, Axısqa hökuməti labüd olan gürcü işğal və hücumlarına qarşı tədbirlərini gördü.

Osmanlı Ordusunun Mudros şərtlərinə uyğun olaraq Naxçıvan, Şərur, Eçmiədzin, Sürməli və ətrafını tərk etməsi zərurəti qarşısında bu bölgənin əhalisi də öz təhlükəsizliyini təmin etmək üçün hərəkət etmək məcburiyyətində qaldı. Keçmiş İrəvan quberniyasının bu mahalları İrəvandan qaçmış əhalinin nümayəndələri ilə birlikdə 1918-ci il noyabrın 3-də Qəmərli qəsəbəsində məclis qurub, mövcud vəziyyəti geniş müzakirə etdikdən sonra «Araz Türk hökuməti» adlı müvəqqəti təşkilat yaratdılar.

Araz hökumətinin yaranması haqqında bəyannamədə deyilirdi: «Biz Araz kənarı və civarında bulunan müttəhidən bir milyon qədər islam camaatı kəndi hüququmuzu müdafiə və mühafizə üçün «Araz Türk hökuməti» namında bir təşkilat yapıb və bu təşkilatın məğərri-hökuməti (hökumətin yerləşdiyi yer – N.N.) İğdır qəsəbəsi təyin olundu. Və sair nəvahidə (nahiyyələrdə – N.N.) şöbələr açıb, camaat və millətimizin hüququnu mühafizə və müdafiə etməklə bərabər, heç bir millətin və dövlətin hüququna təcavüzümüz olmayacaqdır. Lakin başqaları bizim hüququmuza təcavüz etdiyi təqdirdə ümumi səfərbərlik ilə silaha sarılıb, malımız, canımız və axirətçi bir qətrə qanımıza qədər kəndi hüququmuzu gözləmək səlahiyyəti dəxi (də – N.N.) hökuməti-məzburəyə (göstərilən, deyilən hökumətə – N.N.) verildi və bu xüsusda bacarıqlı və dəyanətli bir hökumət təşkil etdilər ki, hər nə həvf ilə, hansı əsbab (səbəblər – N.N.) ilə olursa, bu ufaq millət və camaatın hüququnu müdafiə və mühafizə eyləsin» (19, s.239).

Bəyannamədə sonra hökumətin tərkibi elan edilirdi. Hökumətin başçısı Əmir bəy Əmirzadə (Əmirov) olmaqla, İbrahim bəy Cahangiroğlu hərbi nazir, Qəmbərəli bəy Bənənyari maliyyə naziri, Bağır Rzazadə mülkiyyə naziri, Məmməd Bəyzadə ədliyyə naziri, Həsən ağa Səfazadə xarici işlər naziri təyin edilir, şeyxülislamlığa mirzə Hüseyn



Mirzə Həsənzadə, müftiliyə Xocaəkit Əfəndi gətirilir, general Əliəşrəf bəy də fəxri üzv kimi hökumətin tərkibinə daxil edilirdi. Araz hökumətinin fəaliyyətində yüzbaşı Xəlil bəy, Cəfərqulu xan, Kəlbəli xan böyük rol oynadılar (18, s.39-45).

Hökumət qurulandan sonra hərbi hissələrin yaranması işinə girişildi. Bu barədə İbrahim Cahangiroğlu xatiratında geniş məlumat verir: «Dərhal işə başladıq. Nerədə lay, tabur və bölük komandanı vardısa Qəmərliyə istədik. İyirmiyə qədər tabur təşkil etmişdik. Türk ordusu orada bulunduğu zaman bu təşkilatı yapıblarmış. Hər tabur, iki yüz əllidən beş yüzə qədər var idi. Bunlar miyanında (yanında – N.N.) çox insanlar vardı ki, isimləri dəftərdə qeyd olunmamışdı. Bu əsgərlərdən dörd taburu Naxçıvanda idi... Üç tabur da Şərurda, Dərələyəzdə idi. O biri taburlar da Vedibasar, Zəngibasar, Qəmərli, Başkəndi kariyəsində (ətrafında – N.N.) idi» (19, s.241).

Bundan başqa Araz hökuməti buranı tərk etməkdə olan IX ordu komandanlığından iki batareya top, lazım olan qədər pulemyot, onlar üçün güllə, könüllü zabit, hərbi həkim, əsgərlər üçün geyim və ərzaq istədi. Bu cür təkrar müraciətlər nəticəsində Araz hökuməti əhalini müdafiə etmək üçün lazım olan silah, sursat, zabit və vəsait təmin edə bildi. O cümlədən 5 zabit və 300 əsgər bu bölgədə qaldı (18, s.43).

Araz hökuməti bir yandan daxildə pozuculuq fəaliyyətlərinin, digər tərəfdən isə ermənilərin hücumlarının qarşısını almağa çalışırdı. Ermənilərin təzyiq, qarət və hücumları hökumətin qurulduğu vaxtdan başladı.

Noyabrın 3-ü gecəsi Naxçıvanın 40 kilometr şərqində Sultanbəy və Sis kəndlərindəki ermənilər Osmanlı hissələrinin oradan çıxarılmasından dərhal sonra qonşularının 1300 qoyununu, 11 mal-qarasını və çobanla birlikdə 2 atını oğurladılar. Sonrakı gün 3 zabitin başçılığı ilə bir erməni bölüyü Arpa kəndinə, 20 əsgər isə Həmkol kəndinə gəldi. Həmkolun müsəlman əhalisinə silahlarını təhvil verərək təslim olmalarını tələb etdilər. Qırxbulaq və Qurban kəndlərinin camaatı erməni hücumları qarşısında kəndlərini tərk edib qaçdılar, Haçik erməniləri oradakı anbarları zəbt etdilər. Üstəlik müsəlmanları kəndlərinə dönməyə qoymayacaqlarını da bildirdilər.

«Yapom» adlı erməni zabiti Dərələyəz ətrafındakı Çölmərdan, Kiçikbəy, Qeysərxarabalı, Paşalı, Gümüşxana, Qarapınar, Çapıkəndi, Dəmirçi, Çıraqlı, Qayalı, Göyərçin, Dərinaxçalar kəndlərinə ultimatum göndərərək 5 gün ərzində silahları vermədikləri təqdirdə, zorla kəndlərini zəbt edəcəyini bildirdi. Noyabrın 4-də İrəvanın 16 kilometr cənubundakı Ağbaş üstündəki hərbi posta 8 adamlıq erməni dəstəsi hücum edib, müqavimətə rast gəldikdən sonra geriyə çəkildi. Noyabrın 6-da bir

erməni təyyarəsi Böyük Vedi istiqamətində kəşfiyyat uçuşu edib geri qayıtdı. Noyabrın 7-də Ermənistanın daxilindəki müsəlman kəndlərində buğda və başqa ərzaq mallarının müsadirəsi haqda xəbərlər yayıldı. Noyabrın 16-da Böyük Vedinin 25 kilometrliyindəki müsəlman kəndinə ermənilərin hücumu qeydə alınmışdı.

Yenə bu sıralarda ermənilər Dəmirçi və Dəhnə kəndləri üzərinə hücuma başladılar. Bir neçə gün davam edən atışmada şəxsən İbrahim Cahangirzadə və Araz hökumətinin başçısı Əmir Əmirzadə də iştirak etmiş, ermənilər Dəhnəbazarından geri oturdulmuşdular. Noyabrın 28-də Uluxanlının iki kilometr yarım cənub-qərbindəki təpələri tutan 100 nəfərlik erməni dəstəsi ilə bu təpələr üzərində yeriyən xalq qoşunları arasında döyüş olmuş, ermənilər geri oturdulmuşlar. Ermənilər döyüşdə bir pulemyot itirdiklərinə baxmayaraq, səhəri günü artıq 600 nəfərlik bir qüvvə ilə yenidən hücuma keçmiş, lakin qarşıları alınmışdır. Səhərdən axşamadək seyrək top atəşi ilə xalq qoşunlarının tutduğu təpələri döymüşlər... (20, s. 56-59). IX Ordunun komandanı Yaqub Şövqi paşa vəziyyəti gündəlik izləyərək, Osmanlı hərbi nazirliyinə məlumat verir, ermənilərin artan hücum hərəkətlərinə qarşı tədbir görmək üçün icazə istəyir, Müttəfiqlər tərəfindən buraya heç olmasa istintaq komissiyası göndərilməsini təklif edirdi. Osmanlı ordusunun komandanı yazırdı: «Tərk edəcəyimiz ərazidə maddi və mənəvi hər cür himayədən məhrum qalacaqlarını və erməni bıçaqları ilə rəhmsiz kəsiləcəklərini, daxili duyğu ilə hiss edən bu məzlum müsəlmanların yanıb-yaxılma və yardım istəmə fəryadlarına və pək təzahür olan aqibətlərinin təsəvvürünə ən qatı qəlb belə təhammüldən acizdir» (20, s.60).

Axısqa və Naxçıvanda olduğu kimi Qars və ətrafında da yerli türk-müsəlman əhali milli təşkilatını qurub, Osmanlı Ordusu buranı tərk edənədək öz mühafizəsini təşkil etməyə çalışdı. Qarsda yerləşən IX Ordu komandanı Yaqub Şövqi paşa bölgəni və Qarsı da işğal edəcək ingilislərlə təmas qurmağa çalışmır və Qarsı təşkil ediləcək «milli bir hökumətə» təhvil verməyi daha uyğun görürdü. Axısqa və Araz hökumətlərində olduğu kimi Yaqub Şövqi paşanın yardımları ilə 1918-ci ilin noyabrın 5-də Qars və ətrafının yerli türk-müsəlman əhalisi Qars İslam Şurası adı ilə özünün «milli hökumətini» quraraq, idarəni Osmanlı dövlətindən rəsmən təhvil aldı.

Qars İslam Şurası Fəxrəddin bəy Piroğlunun başçılığı ilə təşkil edildi. Bu şura qurulduqdan dərhal sonra ətraf mahal və qəsəbələrə xəbər göndərərək, şuranın ilk toplantısının noyabrın 14-də olacağını bildirdi. Doqquz gün ərzində xəbər verilən Oltu, Ərdahan, Kağızman və buralara bağlı qəsəbələrdən nümayəndələr gəlməyə başladı. Noyabrın 14-də toplanmış Birinci Qars qurultayında Fəxrəddin bəy Piroğlunun



sədr olduğu 8 nəfərlik bir Müvəqqəti Heyət seçildi.

Bu heyət Kəpənəkçi Emin ağanın başçılığı altında «Milli İslam Şurası Mərkəzi-Ümumisi» adlı bir hökumət təşkil etdi. Qurulan yeni hökumət çəkilməkdə olan Osmanlı ordusundan möhkəmlənmiş yerləri, hərbi binaları təhvil almaq, ətraf qəsəbə və mahallarda Milli Şuranın şöbələrini yaratmaq üçün hazırlıq işlərinə başladı. Qars Milli İslam Şurasının sədri Kəpənəkçi Emin ağa, müavinliyə isə Fəxrəddin bəy Piroğlu seçildi (20, s.65-66).

Qurultaydan sonra Milli Şura qəbul olunmuş qərarlara uyğun olaraq fəaliyyətə başladı. Qarsdan IX Ordu çəkilən vaxt ermənilərə qarşı müqavimət göstərə bilmək, daha öncə Qars əhalisindən toplanan silahları almaq və yeni silahlar əldə etmək üçün Fəxrəddin Piroğlu ordu komandanına müraciət etdi. Yaqub Şövqi paşa yalnız ruslardan qalma min ədəd berdanka tüfəngi verə biləcəyini deməsinə baxmayaraq, edilən müraciətlərə cavab olaraq Qars Milli Şurasına və bölgədə yaranmış milli təşkilatlara mümkün olan qədər yardım etdi. Daha sonra Qars Milli İslam Şurası noyabrın 30-da Qarsda böyük bir qurultay çağırmaq qərarına gəldi. Bu məqsədlə telefon və teleqrafla Batumdan Ordubada qədər yerlərə xəbər verib, nümayəndələrini Qarsa göndərmələri təklif etdi (22, s.8).

Bu arada erməni hökuməti bölgədəki hadisələri yaxından izləməkdə və ondan narahat olmaqda idi. Bu məsələ barədə Ermənistan Xarici İşlər Nazirliyi noyabrın 21-də İrəvandakı Osmanlı siyasi və hərbi təmsilçisi marşal Məhmət Əli paşaya müracəit edib, «boşaldılacaq yerlərdə alayların təşkili və təlimlərin keçirildiyini, hərbi manevrlər və düşməncəsinə hazırlıq işlərinin görüldüyünü, bu vəziyyətin bölgəyə gedəcək qaçqınları həyəcanlandıracağını və bunların özlərini müdafiə üçün silahlanmağa məcbur olacaqlarını, bunun da bölgədə asayişi pozacağı üçün» yuxarıda göstərilən hazırlıqlara son qoyulmasını tələb etdi.

Mehmet Əli paşa «bölgədəki müsəlmanların durumunu bilmədiyi üçün» eyni gün Yaqub Şövqi paşaya müraciət edərək, məlumat verməsini xahiş etdi. Eyni zamanda Ermənistan Xarici İşlər Nazirliyində də «erməni əhalinin başdan-başa silahlandığını, bundan dolayı boşaldılacaq bölgədəki müsəlman əhalinin də baş verəcək erməni təcavüzlərinə qarşı sırf özlərini müdafiə üçün, bəlkə də məcburi olaraq silah tədarük etmiş ola biləcəkləri» cavabını verdi. Yaqub Şövqi paşa eyni gün İrəvandakı Osmanlı nümayəndəsinə cavab verdi: «Boşaldılacaq məntəqədəki müsəlman əhali tərəfindən yapıldığı Ermənistan Xariciyyə Nəzarəti tərəfindən bildirilmiş olan, təşkilat və təslihat (silahlar – N.N.) haqqında ordunun heç bir dəxli və təsiri yoxdur. Əhali nə yaparsa sərbəstdir. Sırf namus və həyatlarını mühafizə məqsədi ilə əhali tərəfindən yapılması

mühtəməl olan təşəbbüsat bizə (yəni Osmanlı dövlətinə – N.N.) aid olmayacaqdır. Gələcək mühacirlərlə (yəni erməni qaçqınları ilə – N.N.) yerli islam əhalini qaynaşdıracaq tədbirlər alınmışdır. Ermənistan hökumətinin iyi niyyətimizdən şübhə etməsinə gərək yoxdur» (20, s.66-67).

Ermənilər bu məsələdə qabaqdangəlmişlik edirdilər, çünki Araz hökuməti ərazisində yerləşmiş 9-cu diviziyanın komandanı polkovnik Rüşdü bəy 26 noyabr tarixli teleqrafında Yaqub Şövqi paşaya «25 noyabr günü İrəvan şossesi ilə 622 erməni mühacirinin gəldiyini, gecəni Ağhəmzəlidə keçirdiklərini və təsbit edilən kəndlərə yerləşdirildiklərini, yenə eyni gün Eçmiədzin şossesi ilə də 239 erməni mühacirinin gəlib, vəsiqələri mucibincə Cəfərəddin və Qurdqolu köylərinə iskan etdirilmək (yerləşdirilmək – N.N.) üzrə; məzkur köylərə sövq edildiklərini (göndərildiklərini – N.N.)» bildirmişdi. Türkiyə tarixçisi Ə.Ə.Göydəmirin fikrinə görə, bölgənin yerli əhalisi Yaqub Şövqi paşanın bölgəyə erməni qaçqınlarını yerləşdirmək qərarına sırf Osmanlı dövlətinə duyduqları sayğıdan dolayı qarşı çıxmamışdı. Çünki Osmanlı Ordusu hələ çəkilməmişdi. Paşanın qərarına qarşı edələcək hərəkət ona qarşı hörmətsizlik sayılacağı üçün lap əvvəldən süsqün qalmağa üstünlük verilmişdi. Halbuki ermənilərin məqsədləri bölgəyə gələrək, müsəlmanlarla bir arada mehriban qonşuluq şəraitində yaşamaq deyildi. Onlar bu qaçqınları (çoxu da silahlı talançı idi) bölgəyə göndərməklə sonrakı qətli-amlara zəmin hazırlayırdılar (20, s.68).

Noyabr ayının ortalarında ingilislər Batum, Qars və Ərdahanın boşaldılması məsələsində Osmanlı hökumətinə təzyiqlərini artırdı. Ümumi qərargahın rəisi IX Ordu komandanlığına «ingilislər Elviyeyi-səlasenin də tərəfimizdən boşaldılmasını tələb edirdilər» deyib, yaxın vaxtlarda bu ərazini tərk etməyə hazır olmasını əmr edirdi. Yaqub Şövqi paşa bu məsələ barədə «Müttəfiqlərin Qarsda araşdırma aparmadıqları üçün (yəni yerli əhalinin rəyini soruşmadıqları üçün – N.N.) Mudros barışığının pozulduğu» düşüncəsində idi. Paşa ərazinin boşaltmağın qarşısını almaq, heç olmasa ən azından Müttəfiqlərin araşdırma aparmasınadək təxirə salmaq məqsədi olduğunu hökumətə xəbər verdi. Onun dediyinə görə, nə gürcülər, nə də ermənilər bölgədə kontrolu ələ keçirmək hüququna malik deyildirlər. Bu baş verərsə, «vilayəti bu anarşik ünsürlərdən birinə buraxmaq, minlərcə məsum adamın yox olmasına səbəb olacaqdı» (20, s.69). Odur ki, Yaqub Şövqi paşa passiv müqavimət taktikası seçərək, bölgəni boşaltmağın müddətini gücü çatdığı qədər uzatmağa çalışdı.

1918-ci il noyabrın 30-da Qars İslam Şurasının dəvətini qəbul edərək Ordubad, Naxçıvan, Qəmərli, Sürməli (İğdır), Sərdərabad, Şərqi Şuragil, Axısqa və Axalkələk bölgələrindən 60 nümayəndə Qarsa toplandı. Eyni gün başlanmış qurultaya sonrakı gün 10 nümayəndə də əlavə olundu. Qurultayda çox əhəmiyyətli qərarlar da qəbul edildi. «Batumdan Ordubada və Ağrı dağından Azqura qədər xalqının əksəriyyəti türk və müsəlman olan yerlərdən Osmanlı Ordusu çəkildikdə idarə və yurdun müdafiəsi işlərinə səlahiyyətli mərkəzi Qars olmaq üzrə «Milli Şura hökumətinin yaranması» haqqında qərar qəbul edildi. Hökumət 12 adamdan ibarət idi: Qarslı Cahangiroğlu Həsən bəy, Piroğlu Fəxrəddin bəy, doktor Əsəd bəy, Həcı Abbasoğlu Kərbəlayi Məmməd bəy, Hacıoğlu Əhməd bəy, Molla Bilal bəy, Axundoğlu Bilal bəy, Əlibəyoğlu Məhmət bəy, Xalıcıoğlu Yusif bəy, Kəpənəkçi Emin ağa, Kağızmandan Əli Rza bəy, camdanlı tayfasının başçısı Məqsud Ağaoğlu Həsən ağa.

Hökumətin başçısı İbrahim bəy Cahangiroğlu, müavini isə Emin ağa Kəpənəkçi seçildi. Qurultay müxtəlif yollarla ələ keçirilmiş silah-sursat və yerli könüllülər əsasında «Milli Şura Ordusu» adlı xalq qoşunlarının təşkili, onun Arpaçay və Araz çayları ətrafında ermənilərə, Kür boyu və Acarıstan cəbhəsində gürcülərə qarşı yerləşdirilməsi və Milli Şura hüdudlarını qoruması haqqında qərar qəbul etdi. Başqa bir qərara görə, «qalib dövlətlərin və İngiltərənin tutumu nə olursa-olsun, Osmanlı dövləti ilə İslam xəlifəliyinə könüldən bağlı qalmaq və türk bayrağından istifadə edərək, Türkiyə qanunlarına görə ədliyyə və idari işləri yürüdülməli» idi. Bu qurultayda həmçinin Araz Türk Hökuməti və Axısqa Müvəqqəti hökumətinin Milli Şura Hökumətinə birləşməsi də qərara alındı (20, s.69-70).

Bununla Batum, Qars və Naxçıvana qədər geniş bir ərazidəki türk və müsəlman əhali arasında böyük bir birlik təmin edildi.

Milli Şura Hökuməti qurultayın qərarlarının yerinə yetirilməsi istiqamətində böyük fəaliyyətə başladı. Hökumət İbrahim bəy Cahangiroğluna Milli Şuranın şöbələrini yaratmaq səlahiyyətləri verdi. Axısqa və Naxçıvanda olan yerli hökumətlərə əlavə olaraq çox tezliklə Oltu, Sarıqamış, Çıldır, Ərdahan və başqa yerlərdə Milli Şuranın şöbələri açıldı.

Bu arada xarici dövlətlərin diqqətini cəlb etmək üçün yeni yaranan dövlət qurumunu tanıtma fəaliyyətləri də başlandı. Bu məqsədlə İstanbulda Müttəfiq dövlətlər və digər Avropa dövlətləri tərəfindən Milli Şura hökumətini tanıtmaq üçün hökumət tərəfindən iki nəfər nümayəndə seçildi. Xarici dövlətlərə Milli Şura hökumətini tanımaq barədə müraciətlər edildi. Yapon imperatoruna 1918-ci il dekabr 8-də Kəpənəkçi Emin ağanın imzası ilə göndərilən teleqrafda deyilirdi: «...Asiya asiyalılarındır davasının ələmdarı sifəti ilə Sizə Qars İslam Şurası hökumətinin mövcudiyyəti-siyasiyyəsinin tanınmasında... köməyinizə nail olmağı bir asiyalı olaraq rica edəriz» (21.s.150).

Milli Şura şöbəsi açmaq məqsədi ilə hökumətin başçısı İbrahimbəy Cahangiroğlu, onun müavini Kəpənəkçi Emin ağa və hökumətin ümumi katibi qurultaydan az sonra Naxçıvana gəldilər. Burada Araz Türk Hökumətinin başçısı ilə birlikdə həm mülki, həm də hərbi təşkilatlanma işini yenidən başladılar. Heyət Osmanlı Ordusunun bu bölgəni tərk edəcəyi perspektivi qarşısında panikaya düşmüş əhali qarşısında ilhamverici çıxışlar edib, onları müqavimətə dəvət etdi. Bu arada erməni hökumətinin maliyyələşdirdiyi və xalq arasına göndərdiyi təbliğatçılara qarşı da mübarizə aparmalı oldular.

Bu təbliğatçılar «ermənilərlə müharibə etməyək, buralar Müttəfiqlər tərəfindən ermənilərə verilmiş, müharibə başlasa, boş yerdən qırılacağıq» məntiqi ilə camaat arasında pessimist ruh yaradırdılar. Bu təbliğatçıların fəaliyyətinin nəticəsi olaraq, Uluxanlı camaatı erməniləri dəvət etmiş, onlar da 300 süvari və dörd-beş yüz piyada əsgər ilə Uluxanlını işğal etmişdilər (20, s.73).

Naxçıvan və ətrafında mənfi təbliğatın təsirini xalqın üzərindən silmək, onlara azadlıq və istiqlal ruhu aşılamaq və onları ermənilərə qarşı müqavimətə hazır vəziyyətə gətirmək üçün hökumətin başçıları inadla öz fəaliyyətlərini davam edirdilər. Bu məqsədlə Dəvəçi, Sədərək, Dəhnə və Noraşen kimi yaşayış məntəqələrini dolaşırdılar. Bu fəaliyyətlər nəticəsində Dəhnə boğazında ermənilərin növbəti hücumunun qarşısı alındı. Lakin erməni təbliğatından başqa xalqın əlində kifayət qədər silahın olmaması, hərbi baxımdan əhalinin təcrübəsiz olması onların müqavimət gücünü zəiflədirdi. Bundan istifadə edən erməni hökuməti hərbi hissələrinə cənub istiqamətində irəliləmək əmri verdi. Dekabr ayında Dərələyəz bölgəsindəki bir çox azərbaycanlı (türk) kəndlərinin əhalisi qorxudulub, buraya on beş min erməni yerləşdirildi. Daha sonra ermənilər Dəvəçi qəsəbəsinə qədər İrəvan-Culfa dəmiryolu boyu irəlilədilər.

Onlar Şərur istiqamətində hücumlara hazırlaşdıqları vaxt Borçalıda Gürcüstanla müharibə başladı. Ermənistanın hərbi naziri İrəvanın cənubundakı erməni qoşun hissələrinə hücum hazırlıqlarını dayandırıb, Ermənistanın şimalına hərəkət etmək əmri verdi. Bu, Naxçıvan bölgəsi camaatını bir müddət erməni hücumlarından xilas etmiş oldu (20, s.74).

Gürcü hökuməti də Batumu və ətrafını ələ keçirmək üçün çalışırdı. Bu məqsədlə Ozurgetdə legionlar yaradıb, əsgərlərə təlim keçir, siyasi təşəbbüslər bir nəticə verməsə, şəhər üzərinə hücuma keçməyi planlaşdırırdılar. Eyni zamanda şəhərdə gizli bir təşkilat qurub, çevriliş edərək idarəni ələ keçirmək istiqamətində də fəaliyyət göstərirdilər. Digər tərəfdən, gürcülər Osmanlı dövlətinin Tiflisdəki nümayəndəsinə



təzyiq göstərir, onun vasitəsi ilə IX Osmanlı Ordusunu fəaliyyətsizliyə məcbur etmək istəyirdilər. Bütün bu siyasi-diplomatik təzyiqlər nəticə vermədikdə, gürcü legionları dekabrın 7-də Ozurgetdən Batum üzərinə hərəkət etdilər. Lakin Osmanlı əsgərləri ilə döyüşdə ağır məğlub olub, geri çəkildilər. Bu arada ingilislər Batuma kiçik bir donanma göndərdilər, dekabrın 24-də isə yeddi minlik əsgər çıxardaraq, Batumun hərbi və mülki idarəsini öz nəzarətlərinə aldılar (20, s.77-78). Bu, gürcülərin planlarını bir müddət pozdu.

Dekabrın 4-də Osmanlı hissələri Axısqanı tərk edib, Ərdahan istiqamətinə geri çəkildilər. Eyni gün gürcülər 3 tabur piyada, 6 top və 12 pulemyotdan ibarət olan qüvvə ilə Axısqanı işğal etdilər. Gürcülər yerli əhalinin heç bir hüququnu tanımadıqlarını elan etdilər. Eyni tarixdə Axalkələyin Osmanlı hissələri tərəfindən tərk edilməsindən sonra buranı da ermənilər dərhal işğal etdilər. Milli Şura hökumətinin öz torpaqları elan etdiyi əraziləri böyük bir xaos təhdid etməyə başladı.

1919-cu ilin yanvarın 6-da ingilis generalı Forestyer Uolkerin Gümrüdə Ermənistanın xarici işlər naziri ilə görüşü oldu. Erməni naziri hökumətinin 1914-cü il sərhədlərinə qədər irəliləmək niyyətində olduğunu bildirmiş, ingilis generalı isə bu təklifi rədd etmişdi. Onun planına görə, Qarsı ingilis əsgəri öz nəzarətinə almalı, mülki idarəni isə ermənilər təhvil almalı idilər. Bu, Ermənistana verilmiş əhəmiyyətli bir güzəşt idi. Ertəsi gün general Uolker Qarsa gəlib, Yaqub Şövqi paşaya ingilis hökumətinin tələblərini çatdırdı: Qars vilayətinin hərbi və mülki idarəsi ingilislərin nəzarəti altına keçir, ingilis hərbi valisi 200 erməni əsgəri və kifayət qədər mülki məmurla yanvarın 27-də Qarsa gəlir; Osmanlı ordusunun komandanlığı əhalinin sərbəst gəliş-gedişinə mane olmamalıdır; erməni məmurları Gümrüdən Qarsa qədər bütün dəmir yolu və teleqraf xətlərini nəzarəti altına alacaq; türklər yanvarın 25-nə qədər Qarsı tərk edib, qurtarmalıdırlar; əski rus hökumətinin və mülki əhalinin mal və mülklərinə toxunulmayacaq; türk ordusu ancaq bir aylıq taxıl ehtiyatı götürə bilər və s. Bu tələblərini bildirdikdən sonra general Uolker Gümrüyə qayıtdı və Qars hərbi valiliyində ermənilərin rolu barədə bir memorandum elan etdi.

Bu sənəd əvvəlki tələblərdən daha sərt şərtlərə malik idi və Qars vilayətinin idarəsi işində ermənilərə daha böyük səlahiyyətlər tanıyırdı. General Uolker ingilis zabiti Temperleyi hərbi vali (qubernator) təyin etdi, erməni hökuməti isə Stepan Korqanyan (Korqanov) adlı birisini mülki vali kimi ingilislərə təqdim etdi (20, s.82-85).

General Uolkerin çəkdiyi plana uyğun olaraq yanvar ayının 13-də təyin olunmuş hərbi vali Temperleyin başçılığı ilə 200 nəfərlik ingilis əsgəri və ermənilərdən təşkil edilmiş hökumət heyəti Qarsa gəldi.

İngilislərin İstanbuldakı qərərgahının rəisi general Biç də onlarla idi.

İngilislərin Qarsa gələcəkləri xəbəri iki gün əvvəl şəhərə çatmışdı. Milli Şura hökuməti ətraf qəsəbələrə xəbər göndərərək 2000 adamı Qarsa yığdı. İngilis generalı Biç və hərbi vali Temperley Milli Şura hökumətinin üzvlərini çağırıb, «ingilis hökuməti adından erməni Korqanovun Qars valisi təyin edildiyini, ona itaətin vacib olduğunu» bildirdilər. Milli Şuranın üzvləri «müsəlmanlardan ibarət olan Qars vilayətinə bir erməni vali təyin etmək və bu surətlə göz görə-görə müsəlmanları ermənilərə qətl etdirmənin ingilis tarixinə yaraşmadığını və erməniləri əsla qəbul etməyərək, bu xüsusda həyatlarını qurban edəcəklərini və Qars tarixini müsəlman qanı ilə yazdıraraq namusları ilə öləcəklərini» bildirdilər.

Bundan başqa əvvəlcədən hazırladığı sənədi Milli Şura ingilislərə təqdim etmişdi. Bu sənəddə çarizmin dağılmasından sonra üç sancaqda (Elviyeyi-selase) əhalinin əksəriyyətinin iradəsinə uyğun olaraq bir hökumətin qurulduğu, bu hökumətin İngiltərə dövlətinin komandir və əsgərlərinə hörmətlə yanaşdığı, erməni düşmənlərini Arpaçaydan bu yana buraxmayacaqlarını, ermənilərin bu məmləkətdən çıxıb getdikləri vaxt bir daha geri dönməmək şərtilə türk kəndlərini yandırdıqları və kəndliləri məhv etdiklərini nəzərə alaraq erməniləri bir daha buraya buraxmamaq xahişi əks olunmuşdu.

Təqdim olunan müraciətə əlavə olaraq Milli Şura üzvlərindən biri demişdi: «Əldəki rəsmi rus statistikası ilə bütün qeydlərə və bugünkü nüfus vəziyyətinə görə əhalinin 85%-i müsəlmandır. Geridə qalan 15%-i qeyri-müsəlmandır. Odur ki, bu torpaqlarda 15 adam səksən beş adamı idarə edə bilməz. Belə bir azlıq bu qədər qahir (tam, öldürücü – N.N.) əksəriyyətə hakim ola bilməz. Bu xüsus, Müttəfiq dövlətlərin rəsmən qəbul etdiyi və bütün dünyanın mənimsədiyi Vilson prinsiplərinə, insanlıq əsaslarına da qəti olaraq ziddir» (20, s.87-88).

Milli Şura hökumətinin müqavimətini görən general Biç bir neçə gün sonra danışıqların növbəti mərhələsində heç olmasa bir neçə erməni məmurunun burada qalmasına nail olmağa çalışmış, bu da mümkün olmadıqda, erməni heyətini geriyə göndərmiş və Milli Şura hökumətini tanımadığını bildirmişdi. Bir neçə gün sonra general Biç özü də Gümrüyə geri dönmüşdü.

İngilislərin təzyiqinə tab gətirə bilmiş Milli Şura hökuməti yanvar ayının 17-də (1919) Qarsa yerlərdən gəlmiş 131 nümayəndədən ibarət yeni qurultay çağırdı. Qurultay mərkəzi Qars olmaq üzrə «Cənub-Qərbi Qafqaz Hökuməti – Müvəqqəteyi – Milliyyə»sini qurdu və on səkkiz maddədən ibarət təşkilati-əsasiyə (konstitusiya, ya konstitusiya aktı) qəbul etdi.



Cənub-Qərbi Müvəqqəti Milli hökumətinə on nəfər daxil oldu. İbrahim Cahangiroğlu yenidən hökumətin başçısı seçildi. Konstitusiya aşağıdakı müddəalardan ibarət idi: hökumət «Cənubi Qərbi Qafqaz» adını daşıyacaq; hökumətin üçrəngli (ağ, yaşıl və qara) ay-ulduzlu bayrağı qəbul edilir; Cənubi Qərbi Qafqaz hüdudları daxilində rəsmi dil türkcədir; Məclisi-məbusana (parlamentə) on min əhalidən bir millət vəkili seçiləcək; 18 yaşına çatmış hər vətəndaş seçkidə iştirak edə biləcək; hər vilayət və qəzada Milli Şuranın şöbələri açılacaq; onların fəaliyyəti üçün hər cür şərait yaradılacaq; türk millət və hökumətini narahat edən hər cür fəaliyyətdən qaçınacaq; ümumi hərbi şöbə və təşkilatlar türk dövlətinin qəbul etdiyi prinsiplər çərçivəsində tətbiq ediləcək, türk dövləti ilə əlaqələrin təmini üçün daimi bir heyət Türkiyədə olacaq; mülkiyyət təşkilatları 8-ci maddədəki prinsipə uyğun olaraq işləyəcək; qonşu hökumətlərlə daim dost və normal münasibələr qurmaq Cənub-Qərbi Qafqaz hökuməti üçün düstur olacaq, parlament seçkilərindən sonra bu xüsusda xüsusi qanun çıxarılacaq; Avropa hökumətləri üç sancağı alıb başqa dövlətə vermək qərarına gələrsə, hökumət Türkiyədən ayrılmamağı qətiyyətlə qəbul edir; azlıqların hüquqları qorunacaq; müsəlmanlar arasında olan dini ayrılıqlara hörmət ediləcək və dini ayinlərin gələcəkdə eyniləşdirilməsi istiqamətində iş aparılacaq; seçkilər demokratik qaydada, «türkün şan və şərəfinə yaraşacaq surətdə» keçiriləcək; valilər və hərbi komandanların təyini və vəzifədən alınması məclisin qərarı ilə olacaq; Milli Şura hökuməti parlament seçkilərindən sonra bəzi qanun maddələrinin dəyişməsində səlahiyyətdar olacaq; millət vəkillərinin yaşları 25-dən aşağı olmayacaq; bu qanunun icrası Milli Şuranın sədri İbrahim Cahangirzadəyə tapşırılır (21, s.157-158).

İbrahim Cahangiroğlunun (Cahangirzadə) başçılığı ilə yeni təşkil edilən hökumət dərhal yeni qurulan dövlətin problemlərini həll etməyə girişdi. Yerlərdə və mərkəzdə yeni təyinatlar oldu, Nazirlər kabinəsi (heyəti-vükəla) parlament seçkiləri haqqında qərar qəbul etdi və martın əvvəlinə qədər seçkilərin tamamlanması haqqında yerlərə tapşırıqlar verdi. Ordu quruculuğu işi sürətlə davam edirdi, ordunun şəxsi heyəti az vaxtda 8 minə çatdı. İngilis hərbi valisi Temperley yeni yaradılmış Cənub-Qərbi Qafqaz hökumətini tanıdığını elan etdi (20, s.93).

Cənub-Qərbi Qafqaz hökuməti qurulduğu vaxt məşhur Vilson prinsiplərinə istinad edilmişdi. Ona görə də prezident Vilsona, İgiltərə kralına, Fransa prezidentinə, Paris Sülh konfransına, Aralıq dənizindəki Müttəfiqlər komandanlığına, Osmanlı paytaxtındakı ABŞ, İngiltərə və Fransa komissarlarına tanınmaq haqqında müraciətlər edildi. Tiflis, Batum və Ərzruma diplomatik nümayəndələr göndərildi. Daha əvvəl İstanbula göndərilmiş heyət öz işini davam etdirməkdə idi. Onlar İstan-

buldakı Amerika, İtaliya və İngiltərə nümayəndələrinə Cənub-Qərbi Qafqaz Respublikasının hüdudları, əhalinin milli tərkibi haqqında statistik materialları və respublikanın yaranması zərurəti, təyini-müqəddərat hüququndan yerli əhalinin də yararlanmaq haqqının olması və respublika nümayəndələrinin Paris Sülh konfransında iştirakına yardım etmələri xahişləri haqqında bəyənnaməni Osmanlı hökumətinə də vermişdi. Osman Sərvər bəyin (Atabəyov) başçılığı ilə yeddi nəfərlik nümayəndə heyəti də Parisə yola düşmək üçün hazırlanmışdı (20, s.119-125).

Cənub-Qərbi Qafqaz hökumətinin yaranmasına qonşu Ermənistan və Gürcüstan dərhal mənfi münasibətlərini bildirdilər. Ermənistanın xarici işlər naziri Tiqranyan vali təyin edilmiş Korqanovun və başqa erməni məmurlarının geri qaytarılmaları haqqında general Uolkerə protestini bildirmiş, ingilislərin Qarsda müsəlmanlara göstərdikləri yumşaqlıqdan da Avropa dövlətlərinə şikayət etmişdi. Gürcü hökuməti də Qafqazda yaranan bu yeni dövlətə düşmən münasibətinə görə ermənilərlə birləşdi. Hökumət başçısı Jordaniya «gürcü torpaqları üzərində düşmənlərə yardım etdiyi və buna görə də gürcü ordusunun əski vəziyyətini düzəltmək məcburiyyətində qaldığı üçün» ingilis siyasətini tənqid etdi. Gürcü mətbuatı da Gürcüstanın Cənub-Qərbi Qafqazın şimal bölgələrinə, xüsusilə Ərdahan mahalına aid iddiaları ilə bağlı materiallar dərc edirdi (20, s.99).

Yanvar ayının 3-də Azərbaycanın Tiflisdəki diplomatik nümayəndəsi Cənub-Qərbi Qafqaz hökumətinin Bakıya nümayəndə heyəti göndərdiyi haqqında məlumat verdi. Onun fikrincə, münasib şəraitdən istifadə edərək, qonşuların işğal hərəkətlərinin qarşısını almaq üçün buraya general-qubernator göndərmək lazımdır. Eyni zamanda, o, bu məsələnin Sülh konfransında həllinədək Azərbaycanın bir hissəsi kimi müttəfiqlər komandanlığına buranı tutmaq haqqında müraciət etməyi təklif etdi (10, v.2). Yanvarın 8-də Azərbaycanın xarici işlər naziri əhalisi başdan-başa müsəlmanlardan ibarət olan və türk qoşunlarının çəkilməsindən sonra yenicə yaranmış Cənub-Qərbi Qafqaz Respublikasında Sülh konfransına qədər status-kvonun saxlanması zərurəti haqqında Bakıdakı Müttəfiq qoşunlarının komandanlığına nota verdi (13, v.1-1a).

Həmin nota aidiyyatı üzrə general Uolkerə göndərildi (10, v.8; 11, v.14). Azərbaycan hökuməti başqa bir notasında Cənub-Qərbi Qafqaz hökumətinə qarşı göstəriləcək düşmənçiliyin ona qarşı düşmənçilik olduğunu bəyan etdi, general Tomsonu öz müqəddəratını təyin etmək hüququna hörmət etməyə, bu yeni dövləti gürcü və erməni hücumlarından qorumağa çağırdı. Azərbaycan hökumətinin fikrincə, yeni dövlətin daimi mövcudiyyətinə ən uyğun təminat Batumdan Qarsa, Axısqadan Ordubada qədər olan torpaqların Azərbaycana ilhaqı idi. Bakıda



ingilis nümayəndələri Qars və ətrafında status-kvonu saxlayacaqları və Paris Sülh konfransında yeni dövlətin taleyi müəyyən oluncaya qədər onu qoruyacaqlarına söz verdilər (20, s.99-100).

Cənub-Qərbi Qafqaz Respublikası müvəqqəti hökumətin başçısı yanvar ayının 26-da Azərbaycan hökumətinə nota ilə müraciət etdi. Müvəqqəti hökumətin başçısı notada Qars, Batum, Axalsıx və Axalkələkdən ibarət Cənub-Qərbi Qafqaz Respublikasının yaranması, onun parlamentinin işə başlaması, hakimiyyətin müvəqqəti hökumətin əlində cəmləşməsi, gürcülərin Ərdahan və Axalsıxı tutmaq cəhtləri, yerli əhalinin müqaviməti, ermənilərin isə Qarsı ələ keçirmək niyyətində olmaları haqqında geniş məlumat verdi. Səhəri gün yanvar ayının 27-də Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin Batumdakı nümayəndəsi Azərbaycan hökumətindən xarici təzyiqlərə tab gətirmək üçün Qarsa lazım olan qədər mülki məmurlar və zabitlər göndərilməsini xahiş etdi (10, v.9-9a).

Azərbaycan hökuməti özünün Tiflis, İrəvan və Batumdakı nümayəndələrinə Cənub-Qərbi Qafqaz Respublikası ilə ən sıx əlaqələr yaratmaq və Bakını mütəmadi olaraq geniş məlumatla təmin etmək göstərişi verdi (11, v.15). Bu nümayəndələrdən gələn məlumatlar Cənub-Qərbi Qafqazda hadisələrin çox sürətlə inkişaf etdiyini göstərirdi.

Hələ dekabr ayının əvvəllərində Axısqa və Axalkələyi zəbt etmiş gürcü hərbi hissələri burada işğal rejimi yaratmış, yerli əhalini qarət edərək, özünə qarşı nifrət yaratmışdı. Gürcülər eyni zamanda bölgədə böyük nüfuza malik Milli Şura üzvlərini, o cümlədən Ömər Faiqi də həbs edib, Tiflisə göndərdilər. Tutulmuş şəxsləri ingilislərin vasitəsi ilə azad etmək cəhtləri də nəticəsiz qaldı. Qeyri-insani yerli idarəçiliyə qarşı yanvarın sonunda Axısqada üsyan başladı* və fevral ayının 2-də gürcülər Axısqa və Axalkələkdən tamam qovuldular, bu bölgə yenidən Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin nəzarəti altına keçdi (20, s.127).

---

* Ömər Faiq gürcü hökumətinin qeyri-insani hərəkətləri barədə yazırdı: «Hörmətli cürcü cəmiyyəti son zamanlar məni özünün milli düşməni, Gürcüstan respublikasının düşməni hesab edir və Axalsıxda hansısa üsyanı mənim adıma yazır. Bu qənaət C.Ruxadzenin hökumətə göndərdiyi teleqramdan sonra yaranıb. Cavab olaraq bildirirəm: Əgər Axalsıx qəzasında qarışıqlıq və əhali arasında həyəcan varsa – bütün bunların səbəbkarı hər şeydən əvvəl C. Ruxadzenin elə özüdür. Qayda-qanun qoruyucusu kimi bizim qəzaya gəlmiş bu adam burada ağılagəlməz işlər görməyə, hökumət adından hər cür dövlətçiliyə zidd olan, hətta demokratik respublikanın şərəf və ləyaqətinə zərbə vuran «öz» siyasətini yeritməyə başladı. «Özünün dövlət» planlarını həyata keçirərək, onun ideyalarını paylaşmayan hər bir bir kəsi buradan uzaqlaşdırmaq işinə girişdi. Toxunulmazlıq işinə girişdi. Toxunulmazlıq haqqında Makoyevin rəsmi məktubuna baxmayaraq, üç yoldaşımla bərabər məni həbs edib Tiflisə göndərdi, çoxlarını da azadlıqdan məhrum etdi».

Cənub-Qərbi Qafqaz Respublikası hökuməti Müttəfiqlərin nümayəndələrinə gürcülərin hərəkətini protest edən müraciət göndərir, eyni zamanda gürcülərə barışıq təklif etdi. Lakin gürcü hökuməti nəinki bu təklifi qəbul etdi, hətta dərhal buraya böyük qoşun həssəsi göndərdi. Yerli Milli Şura səfərbərlik elan edib, əlverişli mövqeləri tutdu. Beş gün davam edən döyüşlərdən sonra gürcü hissələri top və yüngül silahlarını buraxıb, Borjoma geri çəkildilər.

Gürcülər öncə Müttəfiqlərin dəstəyinə nail olmağa çalışdılar. Gürcü hökumətinin başçısı Jordaniya general Uolkerlə söhbətində bildirdi ki, Axalsıx və Axalkələk keçmiş Tiflis quberniyasına daxil olduqlarından Gürcüstan Respublikasının ərazisi hesab edilməlidir və «buranın əhalisi də XVII əsrdə zorla müsəlmanlaşdırılmış gürcülərdir». Jordaniyanın bu yerləri «qiyamçı əhalidən təmizləmək» planlarını general bəyəndi (24, s.98-104).

Martın sonlarında 28 minlik qoşunla hücuma keçən gürcülər yenidən bölgəni işğal edib, Posofa qədər çıxdılar. Lakin özünü toplayan Qars hökuməti yerli əhalinin köməyi ilə gürcüləri aprelin əvvəllərində yenidən Axısqa və Axalkələkdən qovmağa müvəffəq oldu (baxın: 12, v.10-14; 3, 21.02. 1919...).

Borçalı müharibəsi qurtarar-qurtarmaz erməni hökuməti yenidən üzünü cənuba tərəf çevirdi. Ermənistanın hərbi naziri Haqverdiyan Şərur üzərinə öncə başlatmış olduğu hücumu tamamlamaq üçün Dəvəlidə hərbi hissələrin toplanması və hərəkətə hazır olması haqqında əmr verdi. Erməni hissələri eyni zamanda qonşu kəndlərə tez-tez reydlər edərək, müsəlman kəndlərini dağıdır, əhalini soyur, cüzi müqavimətə rast gəldikdə kəndlərin əhalisini məhv edirdilər.

Yanvarın 18-də ingilis polkovniki Lafton hərbi nümayəndə kimi Naxçıvana gəldi. Polkovnik burada erməni hücumlarına qarşı müdafiə tədbirləri ilə məşğul olan Milli Şura üzvləri ilə görüşdü. Lafton Milli Şuranı qane edən barışıq sənədi hazırladı və yanvarın 21-də erməniləri də, istəməsələr belə, hərbi əməliyyatların dayandırılmasına razı saldı. Daha sonra Naxçıvanda ingilis hərbi valiliyi (qubernatorluğunun) təşkili və ermənilərin İrəvanın cənubundakı əsgərlərini geri çəkməsi təklifi ilə ingilis hərbi komandanlığına müraciət etdi. Laftonun təklifi müsbət qarşılandı və general Uolker onu yanvarın 26-da Naxçıvanın hərbi valisi təyin etdi.

Yeni təşkil edilən Naxçıvan hərbi valiliyi bütün Naxçıvan bölgəsindən şimal-qərbə doğru ta İrəvanın cənublarına qədər ərazini əhatə edirdi. Müsəlman-türk ünsürünün çoxluq təşkil etdiyi zonada Milli Şura yerli idarəçiliyi əlində saxlamalı, İrəvanın cənubu ilə ermənilərin əksəriyyət təşkil etdiyi ərazi isə mülki erməni məmurları tərəfindən idarə



ediləcəkdi. Erməni hökuməti bu vəziyyətlə könülsüz barışmalı oldu. Bununla belə, ermənilər Paris Sülh konfransına bir-birinin ardınca şikayət göndərməyə başladılar (10, v.31). Xarici işlər naziri Paris konfransı iştirakçılarına şikayətində göz yaşı tökürdü: «Şərur və Naxçıvan müvəqqəti* belə olsa, Qars nümunəsində əlimizdən alınaraq ingilis hərbi valiliyinə verildi, hətta hissələrimizi bu sərhədin öz tərəfimizdə qalan bölgəsinin (Vedibasar) xaricində saxlamağa məcbur edildik, türklər eyni oyunu Sürməlidə də oynamaq üçün planlı şəkildə hazırlaşırdılar. Qarabağ ingilis komandası altında bir Azərbaycan baş valiliyinə bağlanmışdır. Axısqa, Axalkələk və Batum gürcü qarnizonlarını sərhəddən kənara atan Qars turanlıların hakimiyyəti altına keçdi. Və beləcə Transqafqaz türkçülüyü ingilis komandanlığı dövründə alman-Osmanlı işğalı sırasında olduğundan daha artıq əlverişli şəraitin kefini çəkir. Bizi ağrıdan və ifrat sıxıntı çəkdirən də bu gerçəklər və həqiqətlərdir» (20, s.143-144).

Bu arada Cənub-Qərbi Qafqaz Respublikası özünün varlığını qorumaq üçün gərəkli işləri görməkdə davam edirdi. Mart ayının 27-də (bəzi sənədlərdə 25-də) Cənub-Qərbi Qafqaz Demokratik Respublikası öz istiqlalını dünyaya bildirmək ehtiyacı duydu. Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının parlamenti tərəfindən qəbul edilmiş bəyannamədə Fevral inqilabından sonra Qafqazın bu bölgəsində baş verən hadisələrə siyasi qiymət verilir, Qars, Batum, Axalsıx, Axalkələk, Şərur, Naxçıvan, Sürməli, İrəvan qəzasının cənub-qərb hissəsinin əhalisinin öz müqəddəratını təyin etmək hüququndan istifadə edib, öz dövlətlərini

---

* Milli Şura öz üzvlərindən naxçıvanlı Bəhram xanı Bakıya göndərdi. Bəhram xan özü ilə yerli hökumətin Cənub-Qərbi Azərbaycan adı altında Naxçıvanı Azərbaycan Respublikasına birləşdirmək təklifini də gətirmişdi. Bəhram xan Azərbaycan hökumətindən buraya vali (general-qubernator) təyin etmək xahişi haqqında ona verilmiş səlahiyyətlərdən də istifadə etdi. Valinin yanında yerli idarəçilərdən ibarət şura da olmalı idi. Bəhram xan Bakıdan eyni zamanda maliyyə yardımı, zabit və başqa köməklər də xahiş etdi. Onun sözlərinə görə, Naxçıvan bölgəsinin Azərbaycan Respublikasına birləşməsi mövzusunda Tiflisdə ingilislərlə də söhbətlər olmuş, sonuncular bu məsələ haqqında Sülh konfransına məlumat verəcəklərini vəd etmişlər. (28. 02. 1919). Təxminən eyni vaxtda Bakıdan da M.A.Mirbağırovun bişçılığı ilə 11 zabit və polkovnikdən, bir neçə mülki şəxsdən ibarət nümayəndə heyəti Naxçıvana göndərildi. Nümayəndə heyəti Naxçıvanın ehtiyatları üçün bir milyon manat pul gətirmişdi. Nümayəndə heyəti Cəfərqulu xanın başçılıq etdiyi hökumətlə görüşlərdə bu bölgənin problemlərini müzakirə etdi. Naxçıvanın Azərbaycan Respublikasının qalan hissələri ilə birləşməsi haqqında yeni sənəd qəbul edildi. Buradakı ingilis valisi ilə görüşdə sonuncu Bakının buraya hərbi işin təşkili üçün zabitlər göndərməyə haqqının olmadığını bildirib, nümayəndə heyətinə eşitdirdi ki, «bu ərazi hələlik Azərbaycanın tərkib hissəsi deyil və məlum deyil kimə çatacaq; indi burada ingilis general-qubernatorluğudur... Mən sizə qonaq kimi baxıram, necə ki, qonaq kimi gəlmisiniz, elə də qonaq kimi gedə bilərsiniz».

yaratdıqları bəyan edilirdi* .

Bəyannamədə Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının bütün dövlətlər, ilk növbədə yeni yaranmış Qafqaz respublikaları ilə mehriban qonşuluq münasibətləri qurmaq istəyi, onun maraqlarına toxunulmadığı təqdirdə ümumiyyətlə bitərəfliyini qoruyub saxlayacağı, bu respublikada milliyyətindən, dini əqidəsindən, sosial vəziyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqa malik olmaları və Qafqazın başqa xalqları kimi onun da nümayəndələrinin Sülh konfransına buraxılması tələbi öz əksini tapmışdı. Bəyannamədə xüsusi qeydlə erməni qaçqınlarının müvəqqəti olaraq respublika ərazisinə buraxılmasının səbəbləri izah edilir, qaçqın ermənilərin kəndlərinə (cəmi 88) Gürcüstan və Ermənistandan qaçqın düşmüş müsəlmanların (təkcə Ermənistanda 482 kənddə yaşayırdılar) yerləşdikləri göstərilirdi (10, v.14-14a).

40 min kv kilometrlik böyük əraziyə, 1,7 milyon nəfər (bunun 1,5 milyonu türk-müsəlman idi) əhaliyə malik olan Cənub-Qərbi Qafqaz Demokratik Respublikasının taleyi sanki təmin edilməkdə idi. Nümayəndələri konfransa buraxılmasa belə, respublikanın rəhbərləri ümidlərini Paris Sülh konfransına bağlamışdılar. Lakin mart ayından başlayaraq, qalib dövlətlərin, xüsusilə ingilislərin bu yeni dövlət qurumuna münasibətində kəskin dəyişiklik yaranmağa başladı.

Bakıdan Tiflisə gələrək, İngiltərənin Qafqazdakı hərbi qüvvələrinin komandanlığını öz üzərinə götürmüş general Tomson ilk əvvəl Naxçıvan və Qarsdakı ingilis hərbi valilərini dəyişdirdi. Yeni təyin edilmiş valilərin qarşısında artıq yeni vəzifələr qoyuldu. Yerli hərbi valilərin səlahiyyət dairəsinin məhdudlaşdırılması haqqında əmr ləğv edildi. İngilislər Sülh konfransının Ali Şurasına müraciət edərək, «Qars vilayətinin erməni xristian cümhuriyyətinə verilməsi lüzumunu və bu təhvil işinin gerçəkləşdirilməsini təmin etmək məqsədilə bölgəyə ingilis qüvvələrinin göndəriləcəyini» bildirdilər (20, s.150).

Mart ayının sonunda Qafqazdakı Müttəfiq qüvvələrinin baş komandanı ingilis generalı Miln Cənub-Qərbi Qafqaz Respublikasının ləğvi haqqında qərar verdi. Aprelin əvvəlində isə o, Batumda general Tomsonla bu respublikanın dağılması planını müzakirə etdi və sonuncuya lazım olan təlimatları verdi. Bu təlimatlara görə, Qars vilayəti və Naxçıvan bölgəsi ermənilərə, Borçalı hərbi valiliyi ləğv edilərək gürcülərə, ya da ermənilərə veriləcəkdi (20, s.152-153).

Çəkilən plana uyğun olaraq ingilislər Qarsa xeyli əsgər topladılar, digər tərəfdən Qars hökumətini inandırmağa çalışdılar ki, fövqəladə

* Türkiyəli tarixçi Ə.Ə.Göydəmirin verdiyi mətn həcm və məzmun baxımından bizim istifadə etdiyimiz bəyannamədən fərqlidir (20, s. 148-149).



bir hadisə baş verməyib. Az sonra ingilis komandanlığı özlərinin həqiqi simalarını və planlarını açdılar. Aprelin 12-də ingilis əsgərləri gizlicə Cənub-Qərbi Qafqaz Respublikasının parlamentini mühasirəyə aldılar və Milli Şura hökumətini həbs edib, Tiflisə, oradan İstanbula, oradan da Malta adasına sürgünə göndərdilər. Həbs edilən 12 adam arasında Cənub-Qərbi Qafqaz Respublikasının başçısı İbrahim Cahangiroğlundan başqa bir neçə nazir, parlament üzvü və başqa dövlət xadimləri də var idi (20, s.156-157).

Cənub-Qərbi Qafqaz Respublikası hökumətinin üzvlərinin tutulması və bu dövlətlərin ləğvinə münasibət, təbii ki, eyni deyildi. Ən çox məmnun qalan ermənilər idi: ingilislər Qars vilayətini ermənilərə bağışlamışdılar, xeyli əvvəl vali təyin edilmiş Korqanov aprelin sonunda iki minlik əsgərlə Qarsa daxil oldu, hərbiçilərdən sonra 50 mindən artıq erməni qaçqını Qarsa doluşdu, Qarsın yerli türk-müsəlman əhalisi üçün yenidən qara günlər başladı* .

Gürcülər də razı qalmışdılar: Axısqa və Axalkələkdə bir neçə dəfə gürcüləri ağır məğlubiyyətə uğradan və bu bölgəni öz nəzarəti altında saxlaya bilmiş Cənub-Qərbi Qafqaz Respublikası dağıdılmışdı, gürcülərə Axısqadan başlayaraq Ərdahanın şimalına qədər ərazini işğal etməyə icazə verilmişdi, gürcülər türklərə etdikləri zülmdə ermənilərdən geri qalmadılar. Azərbaycan hökuməti ingilis komandanlığının «Cənub-Qərbi Qafqaz Respublikasının ləğvi sahəsindəki hərəkətlərinə qəti etirazını bildirib, etibarı utandırıcı şəkildə pozduğu üçün İngiltərəni qınadı» (11, v.15).

Ermənilər şimalda Qars, Sarıqamış, Kağızman kimi yerləri işğal etdikdən sonra Naxçıvan tərəfə üz tutdular. İngilislər erməniləri hər vasitə ilə himayə edirdilər. General Dro və ingilis generalı Devinin birgə imzaladıqları 3 may 1919-cu il tarixli bəyannamədə müharibənin artıq bitdiyi, «Müttəfiq dövlətlərin və erməni hökumətinin qərarına görə, Dronun hissələrinin xalqın asayiş və hüzurunu təminat altına almaq üçün Naxçıvan üzərinə irəliləyəcəyi, müqavimət göstərən kəndlərin qanundan kənar elan ediləcəkləri, atəş və dəmirlə əziləcəkləri» bildirilirdi. 6 minlik erməni ordusu müqaviməti qıraraq, mayın 24-də Naxçıvana çatdı. Azərbaycan hökumətinin etirazına baxmayaraq, ingilislər Naxçıvanı da ermənilərə təslim edərək buradakı ingilis hərbi valiliyini ləğv etdilər. Ermənilər də silah toplamaq bəhanəsi ilə qətliamlara başladılar (14, s.41-42; 20, s.177-178).

* Bu vəziyyət Anadoluda Milli Mücadilə Hərəkatının başlanmasına qədər davam etdi. Kazım Qarabəkir paşanın komandanlığı altında türk ordusu 1920-ci ilin oktyabrın 30-da Qarsı azad etdi.

Ermənilərin və ingilislərin cəhdlərinə baxmayaraq, onlar Naxçıvan bölgəsini tam nəzarətləri altına ala bilmədilər. 1919-cu ilin yayında onlar yalnız Naxçıvan şəhərinə və Naxçıvan-İrəvan dəmiryol xəttinin ətraflarına hakim ola bildilər. İngilis nümayəndəsi və erməni valisi şəhərdə deyil, ondan üç kilomet aralıdakı hərbi düşərgədə yerləşmişdilər. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər. Milli Şura əlverişli vəziyyətdən istifadə edib, erməni nizami hissələrini əzdi, Naxçıvan və Şərur qəzalarının, demək olar ki, bütün ərazilərini tutaraq, burada öz şəriksiz nüfuzunu bərpa etdi (18, s.51-53).

İngilis hərbi qüvvələrinin Qafqazı tərk etməsindən sonra Qafqazda sözükeçən xarici qüvvə olan Amerika nümayəndələri Naxçıvan və bölgəsi məsələsini yenidən «həll etməyə» cəhd göstərdilər. Avqust ayında Müttəfiqlərin ali komissarı Haskel sərhəd məsələləri ilə bağlı öz təkliflərini verdi. Nazirlər Şurasının sədri N.Yusifbəyli bu təklifləri müzakirə etmək üçün Tiflisə getdi. Lakin sərhəd məsələsi ilə bağlı müzakirələr bir nəticə vermədi. Onda polkovnik Haskel ikinci layihə ilə Bakıya gəldi. Bu layihəyə görə, Qarabağ və Zəngəzur Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab edilir, keçmiş Şərur və Dərələyəzdə əlahiddə neytral zona yaranmalı idi. Bu zona Amerika qubernatoru vasitəsilə idarə edilməli idi. Erməni hökuməti lap əvvəldən bu layihəni rədd etdi. Azərbaycan hökuməti də Naxçıvandan heç cür əl çəkməyəcəyini qəti şəkildə bildirdi. Parisə yola düşməyə hazırlaşan və Sülh konfransına işinin nəticəsi haqqında nəsə bir sənəd aparmaq istəyi üzərində israr edən Haskelə Azərbaycan hökuməti uzun müzakirələrdən sonra Naxçıvanda neytral zonanın yaranmasına mane olmayacağı təəhhüdünü verdi(6, v.15, 17,18).

Paris Sülh konfransının qərarınadək Naxçıvanda müvəqqəti neytral zona yaratmaq barədə Amerika nümayəndələrinin layihəsi formal akt olaraq qaldı. Naxçıvanda Amerika general-qubernatoru və onun məhdud sayda aparatı olmasına baxmayaraq, bu bölgənin idarəsi Bakıdan göndərilən vali, xüsusən bir neçə il Naxçıvan camaatının fiziki varlığının qorunmasında böyük rolu olmuş Milli Şuranın əlində idi. Amerika nümayəndələri yerli hökumətin yanında müşavir rolu oynayırdılar(18, s.54-60).

Naxçıvanda yaranmış vəziyyət erməniləri, qismən də Amerika nümayəndələrini qane etmirdi. 1919-cu ilin sonlarında bir neçə dəfə reyd edib, geri çəkilməyə məcbur olandan sonra ermənilər ciddi şəkildə geniş hücuma hazırlaşmağa başladılar. Ermənilərin planlarından xəbərdar olan yerli Milli Şura və Azərbaycan hökuməti müdafiə tədbirlərini genişləndirdi. 1919-cu ilin mayından etibarən 15-ci ordu korpusunun ba-



şına gətirilən Kazım Qarabəkir paşa Naxçıvanın müdafiəsinin təşkili sahəsində əlindən gələni əsirgəmədi, buraya zabit və silah göndərdi. 1920-ci ilin yazında başlayan erməni ordusunun hücumu qətiyyətlə dəf edildi və ermənilər İrəvanın cənubuna qədər geri oturduldular(18, s.62-63).

İngilislərin cəhdləri ilə yox edilmiş Cənub-Qərbi Qafqaz Respublikasının digər hissəsi – Batum və ətrafında proseslər başqa istiqamətdə getdi. İngilislər bu şəhərin strateji əhəmiyyətini nəzərə alaraq, onun idarə edilməsi ilə ciddi məşğul olur, bu şəhərə iddialara əhəmiyyət vermirdilər. Azərbaycan Respublikasının Batumdakı baş konsulluğunun məlumatlarına görə, bu şəhərin idarə edilməsində ən yaxın müttəfiq olaraq denikinçi ruslar seçildilər. Yerli acar əhalisi nümayəndələrinin cəhdlərinə baxmayaraq, Batumun ingilis general-qubernatoru Kukk-Kollis onları yaxına buraxmırdı (15, v.4; 10, v.1, 4, 8, 23, 41).

Azərbaycan hökuməti Batumun Cənubi Qafqaz üçün böyük strateji və iqtisadi-ticarət əhəmiyyətini nəzərə alıb, 1920-ci ilin əvvəllərində bu şəhərin statusu məsələsini qaldırdı. Müttəfiq dövlətlərə ünvanlanmış memorandumda Azərbaycan hökuməti Batum şəhərinə beynəlxalq status verilməsini təklif etdi. «Azərbaycan» (rusca) qəzetinin müxbiri ilə söhbətində baş nazir Fətəli xan Xoyski göstərirdi ki, «bu şəhər Azərbaycanın Qərbi Avropaya açılan yeganə pəncərəsi və neft kəmərinin son məntəqəsidir», ona görə də «Zaqafqaziyanın üç respublikası arasında bağlanacaq saziş vasitəsi ilə heç bir şəraitdə bu limanın Zaqafqaziya xalqlarının üzünə bağlanmayacağı, eləcə də ondan istifadə üçün məhdudlaşdırıcı, ya sıxışdırıcı şərtlər qoyulmayacağı haqqında möhkəm təminat verilməlidir». Baş nazirin fikrincə, «Batum iqtisadi (məsələn, «gömrük müharibəsi» deyilən vaxtlarda), ya siyasi xarakterli hər hansı mübahisə baş verdikdə Gürcüstanın əlində öz qoşunlarına iqtisadi təzyiq obyekti və vasitəsi olmamalıdır»(17, v.14-15).

İlk əvvəllər erməni hökuməti Batum məsələsində Azərbaycanın mövqeyini müdafiə edir, bu məsələdə Azərbaycan-Gürcüstan münasibətlərində soyuqluğun yarandığını gördükdə, erməni diplomatiyası mövqeyini dəyişib, iki ölkə arasında münasibətləri pozmaq xətti götürdü.

Azərbaycanın Tiflisdəki attaşesinin 6 mart 1920-ci il tarixli məlumatına görə, iki ölkənin arasını vurmaq sahəsində ermənilər «böyük müvəffəqiyyətlərə nail olublar və olurlar»; Batum məsələsi kəskinləşdiyinə, Ermənistanla bizim münasibətlərimiz təhlükəli xarakter aldığına görə, biz Gürcüstanın Ermənistanla gerçək yaxınlaşmasının şahidi oluruq. Gürcü hökumətinin Batum şəhərinə beynəlxalq status verilməsi məsələsinə qəti etirazlarına və qıcıqlanmasına baxmayaraq, San Remo konfransı 1920-ci ilin aprelində Millətlər Liqasının himayəsi altında

kiçik ərazidən ibarət Porto-Franko-Batumun yaradılması haqqında qərar qəbul etdi. Batumun beynəlxalq statusuna Fransa, İtaliya və İngiltərə təminatçı dövlət olmalı və buraya hərəsi bir piyada batalyonu göndərməli idi(15, v.15; 16, v.1)* .

Beləliklə, mövcud şəraitdə Azərbaycan Respublikası öz qarşısına qoyduğu strateji məqsədə Qara dənizə çıxış yolu əldə etməyə nail ola bilmədi. Lakin bilavasitə onun təşəbbüsü ilə Batuma beynəlxalq status verilməsi, yəni Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinə cavab verə biləcək amilin gerçəkləşməsi üçün şərait yarandı. Gənub-Qərbi Qafqaz Respublikasının varlığını qorumaq, buradakı yerli türk – müsəlman əhalinin (xeyli hissəsi azərbaycanlılar idi) təhlükəsizliyini təmin etmək kəskin problem kimi qalmaqla yanaşı, Gənubi Qafqazda yaranmış yeni dövlətlər arasında qurulan münasibətlərdə mənfi amil rolu oynadı. Naxçıvan bölgəsinin erməni işğalı altında qalmamasının əsas səbəbi isə yerli əhalinin fədakarlığı və Anadolu türkünün ona yardımı oldu.

## ƏDƏBİYYAT


1. Документы внешней политики СССР, т.1, М., 1957.
2. Документы и материалы по внешней иолитнке Закавказья и Грузии. Тифлис, 1919.
3. «Азербайджан» qəzeti.
4. ARDA, f.28, siy. 1, iş 42.
5. ARDA, f.894, siy. 10, iş 76.
6. ARDA, f.894, siy. 10, iş 94.
7. ARDA, f.894, siy. 10, iş 123.
8. ARDA, f.970, siy. 1, iş 18.
9. ARDA, f.970, siy. 1, iş 20.
10. ARDA, f.970, siy. 1, iş 27.
11. ARDA, f.970, siy. 1, iş 34.
12. ARDA, f.970, siy. 1, iş 42.
13. ARDA, f.970, siy. 1, iş 56.
14. ARDA, f.970, siy. 1, iş 89.
15. ARDA, f.970, siy. 1, iş 151.
16. ARDA, f.970, siy. 1, iş 224.
17. ARDA, f.970, siy. 1, iş 227.


* 1920-ci ilin aprelindən başlayaraq, Cənubi Qafqazda beynəlxalq vəziyyətin kökündən dəyişməsi. Müttəfiqlərin hərbi qüvvələrinin Batumdan çıxması və Batumun sovetləşməsindən sonra ona beynəlxalq status vermək məsələsi gündəlikdən çıxarıldı.




18. Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. B., 1958.
19. Gökdemir A.E. Aras türk hökumeti. – Beşinci milletlerarası Türkoloji Konqresi, c.1, İst., 1985.
20. Gökdemir A.E. Cenubi-Qarbi Kafkas hökumeti. Ank., 1989.
21. Kars Milli-İslam Şurası ve Cenubi-Qarbi Kafkas hökumeti muvakkati milliyesi. Belqeler, fotoqraflar. Hazırlayan C. Arslanoğlu, Ankara, 1986.
22. Kırzıoğlu F. Milli Mücadilede Kars, c. 1, İst., 1960.
23. Kurat A.N. Türkiye ve Rusiya. Ank., 1990.
24. «Демократическое» правительство Грузии и ангилиское командование. – «Красный архнв», т. 6 (25), М., 1927.


*N. Nəsibzadə. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s. 140-168.*

## ABŞ-ın QAFQAZA MARAĞININ GÜCLƏNMƏSİ VƏ AZƏRBAYCAN

Birinci dünya müharibəsindən sonra ABŞ qüdrətli dövlət kimi tarix səhnəsinə çıxmışdı. Döyüşən tərəflərin hərbi sifarişi Birləşmiş Ştatları sözün tam mənasında dünyanın iqtisadi və maliyyə mərkəzinə çevirmişdi. 1917-ci ildə Amerikanın hərbi əməliyyatlara daxil olması onun siyasi nüfuzunu artırmış, qalib Antantanın üzvü kimi dünyanın taleyinin müəyyən edilməsində rolunu gücləndirmişdi. Birləşmiş Ştatlar müharibədən sonrakı dünya düzəninin qurulmasında həlledici dövlət statusu qazanmış, onun sülhün memarı kimi məşhurlaşan prezidenti Vudro Vilson eyni zamanda kiçik xalqların dostu kimi tanınmağa başlamışdı.

ABŞ Paris Sülh konfransına hələ 1918-ci ilin yanvar ayında elan edilən Vilsonun 14 maddəsi ilə gəlmişdi. Prezident Vilson tərəfindən sistemləşdirilmiş bu sülh prinsipləri Birləşmiş Ştatların böyük dünyaya və böyük siyasətə gəlişinin çıxış nöqtəsini təşkil edirdi. V.Vilsonun təqdim etdiyi sülh maddələri gücə deyil, prinsiplərə, qaliblər üçün də məğlublar üçün də maraqlara deyil, hüquqa əsaslanmalı idi.[1] Rusiya imperiyasının dağılması və onun hüdudlarında yaranan yeni dövlətlərin tanınması məsələsi Vilson prinsiplərində yer almasa da, Sülh konfransı başladıqdan sonra Qafqaz regionu strateji baxımdan Amerika siyasəti üçün cəlbedici görünməyə başladı. Ona görə də Avropa dövlətləri ilə yanaşı, Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq, Amerika Qara dəniz boğazları, İstanbul və bütövlükdə, Qafqaz mandatını qəbul etməkdə maraqlı idi. Əvvəllər göstərildiyi kimi, Dördlər Şurası hələ may ayında boğazlar və Ermənistan üzərində mandatı ABŞ-a təklif etmişdi. ABŞ prezidenti V.Vilsonla, Amerikanın Paris Sülh konfransındakı nümayəndələri ilə, dövlət katibinin müavini F.Polkla və uzun müddət Yaxın Şərqdə işləmiş H.Morqentau ilə danışıqlardan aydın olmuşdur ki, respublikanın daxili işlərinə müdaxilə etməyəcəyi, Vilsonun «on dörd maddəsinə» əməl edəcəyi və əvəzində ayrı bir şey ummayacağı təqdirdə, Azərbaycan nümayəndələri Amerika himayəçiliyinə razı idilər.[2] Amerikalılar belə bir söhbəti gürcü nümayəndələri ilə də etmişdilər. İyun ayının 11-də N.Çxeidze başda olmaqla, Gürcüstan nümayəndələri prezident Vilsonun müşaviri polkovnik E.Hauzla görüşmüş və Gürcüstan üzərində

[1] Геири Киссинджер. Дииломатия. Москва, 1997, с.200.

[2] Daha geniş məlumat üçün bax: Jamil Hassanov. Azerbaijani-American Relations from 1918-1920: A page in Their History. //Caspian Crossroads, vol.2, Issue 1, Spring-Sumer 1996, p.1-9.



ABŞ mandatına razılıq vermişdilər.[1] Az sonra, iyun ayının axırlarında Parisdəki Amerika nümayəndələri bu məsələni Dördlər Şurasının iclasına çıxarırdılar.

Dördlər Şurasınm 28 iyun iclasmda ABŞ nümayəndələri, sonralar Birləşmiş Ştatların prezidenti olmuş Herbert Huver və ABŞ-ın Türkiyədə keçmiş səfiri Henri Morqentau təklif etdilər ki, Amerikanın Ermənistanda geniş səlahiyyəti olan Ali komissarlığına ən yaxşı namizəd general Ceyms Harborddur.[2] Əgər C.Harbord hər hansı səbəbdən bu vəzifəni öz üzərinə götürməsə, onda polkovnik V.H.Haskelin üzərində dayanmaq lazımdır.[3] İyun ayının 28-dən iyul ayının 4-nə qədər Amerika nümayəndələri prezident Vilsonla məsləhətləşmələr keçirib, dəfələrlə bu məsələni müzakirə etdilər. İyul ayının 2-də dövlət katibi R.Lansinqin, Versaldakı ABŞ nümayəndə heyətinin üzvləri Uaytın, Blissin və Huverin iştirakı ilə keçirilən iclasda ABŞ nümayəndələri öz təkliflərini konkretləşdirdilər və Ermənistanda Ali Komissar kimi polkovnik V.N.Haskelin üzərində dayandılar. Paris Sülh konfransında Amerika nümayəndəliyinin Kiçik Asiya və Qafqaz üzrə məsləhətçisi V.Buklerə tapşırıldı ki, H.Huverin memorandumu əsasında iyul ayının 5-də keçiriləcək Onlar Şurasının iclasına təqdimat hazırlasın. İyulun 5-də Onlar Şurasının iclası Amerika təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana Ali Komissar təyin etdi. Onlar Şurasının qərarında göstərilirdi ki, polkovnik Haskel Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistana Ali Komissar təyin edilir, eyni zamanda o, Ermənistana yardım göstərilməsi ilə bağlı bütün tədbirlərə cavabdehdir. ABŞ, İngiltərə, Fransa və İtaliya hökumətlərinin Azərbaycanda, Gürcüstanda, Ermənistanda və İstanbulda bütün nümayəndələri təcili şəkildə polkovnik Haskellə əməkdaşlığa girməli və ona yardım göstərməli idilər.[4] Elə həmin iclasda qərar qəbul edildi ki, repatriasiya, ümumi hərbi və iqtisadi məsələlər üzrə hesabat hazırlamaq məqsədilə general Harbord İrəvana yola düşməlidir. Qəbul edilmiş bu qərarlar haqqında Robert Lansinq elə həmin gün teleqrafla Vaşinqtona məlumat verdi. O yazırdı ki, V.Haskel Qafqazda Dövlət departamentinin nümayəndəsi kimi hərəkət edəcəkdir, adamlar toplamaqda ona kömək etmək lazımdır, onun fəaliyyəti Yaxın Şərqə Amerika Yardım Komitəsi tərəfindən maliyyələşdiriləcəkdir. Bu komitəyə Ermənistan üzərində Amerika mandatı barədə memorandumla çıxış edən H.Huvel başçılıq edirdi. Ona

[1] З.Авалов. Независимость Грузии в междуиародиой политике, с.226.

[2] Г.Гамбашидзе. Из истории иолитики США в отиошеиии Грузии, с.36.

[3] В.И.Адамия. Из истории англиской интервеиции в Грузии, с.127.

[4] Papers Relatinq to the Foreign Relations of the United States. The Paris Peace Conference. Washington? 1947? vol. VII, p.28.

görə V.Haskel eyni zamanda «Yaxın Şərqə Amerika Yardım Komitəsinin» Qafqaz üzrə sədri təyin edildi ki, həmin komitənin Bakıda və Şuşada da bölmələri açılmalı idi. Lakin burada məqsəd erməni silahlı dəstələrinin vəhşilikləri nəticəsində öz yurdundan didərgin düşmüş azərbaycanlılara köməklik göstərmək deyil, qeyd edilən şəhərlərdə erməni əhalisini himayə etmək idi.

«Yaxın Şərqə Amerika Yardımı Komitəsi»nin baş direktoru H.Huver iyul ayının 16-da xüsusi məktubla Sülh konfransının rəhbərliyinə Gürcüstan üzərindən Ermənistana ərzaq yardımı daşınmasının çətinliyi haqqında məlumat vermişdi. O yazırdı: «Yardım komitəsi müttəfiqlərin müxtəlif hökumət orqanları ilə əməkdaşlıq şəraitində Rusiya Ermənistanını bürümüş dəhşətli aclığın qarşısını almaq üçün aylarla işləyir. Bu məqsədlə 50.000 ton ərzaq toplamışdır. Bu yükün Batum limanından Ermənistana daşınması üçün yeganə yol Gürcüstanın ərazisindən keçir. Bu dəmir yolu qismən Britaniya ordusunun nəzarəti altındadır. Müttəfiqlərin nümayəndələrinin etirazlarına baxmayaraq, yardımın bir hissəsinin onlara verilməsini tələb edən gürcülər mütəmadi olaraq ərzağın daşınmasına mane olurlar, hətta 4-5 gün dəmir yolunda hərəkət, ümumiyyətlə, dayandırılmışdı. Ermənistanda vəziyyət təsvir ediləsi deyil, artıq 60 gündür ki, adamlar ölüləri yeyirlər. Son iki ayda ərzaq daşınması vəziyyəti bir qədər yaxşılaşdırılmışdır, lakin əslində orada ərzaq ehtiyatı heç vaxt 10 gündən artıq olmayıb. Biz Gürcüstan Respublikası ilə əməkdaşlıq etməyə cəhd göstəririk, lakin Gürcüstanda ərzaq ehtiyatı yaratmağa zərurət yoxdur. Gürcüstanla bizim rəsmi nümayəndələr arasında olan danışıqlara toxunmayacağam. Yalnız bir faktı demək yetərlidir ki, onların aclıqdan can üstə olan əhaliyə münasibəti sadəcə olaraq vəhşilikdir. Sonda qeyd etməliyəm ki, bizim nəqliyyat vasitələrimiz artıq bir həftədir ki, dayanıb. Mən başa düşürəm ki, bu məsələ müttəfiqlərin silahlı qüvvələrinin səlahiyyətlərinə aid deyil, lakin Gürcüstanın Ali Şura qarşısındakı öhdəliklərindən mən məlumatlıyam. Mənə belə gəlir ki, Şura Gürcüstana müvafiq teleqraf göndərsə və Parisdə gürcü nümayəndələrinə təsir göstərilsə yaxşı olar. Mən teleqramın mətnini belə təklif edirəm: Şura məlumatlıdır ki, gürcülər acından ölən bədbəxt adamlara (ermənilərə – C.H.) ərzaq daşınmasına mane olurlar. Şura hərəkətlərə göz yuma bilməz. Bu orada yaşayan bütün insanlara, bütün bəşəriyyətə münasibətdə ədalətsizlik aktıdır. Ona görə Şura gözləyir ki, Gürcüstan nəinki yüklərin dəmir yolu ilə daşınmasını təmin edəcək, eyni zamanda bu yüklərə ən aşağı gömrük tarifləri tətbiq



edəcək. Şura Gürcüstan hökumətindən cavab gözləyir».[1]

H.Huver eyni zamanda Birləşmiş Ştatların İstanbuldakı Ali Komissarı Q.Bristolun Türkiyə və Azərbaycan əleyhinə Versala və ABŞ prezidenti V.Vilsona göndərdiyi teleqramların da əsas təşkilatçısı idi. İyul ayının 29-da göndərdiyi teleqramda Bristol, Qarabağ haqqında aydın təsəvvürü olmadığı halda yazırdı ki, türklər və tatarlar (azərbaycanlılar-C.H.) Rusiya Ermənistanının torpaqları olan Qarabağı tutublar. Əgər Britaniya, Qarabağa daxil olmaqla bütün Rusiya Ermənistanının türklərdən və tatarlardan (azərbaycanlılardan – C.H.) təmizlənməsi haqqında əmr verməzsə, biz buradan kömək göstərilməsini davam etdirə bilmərik.[2] Mətndən göründüyü kimi, bütün bu sənədlərin hazırlanmasında ermənilərin əli var idi. H.Huver Cənubi Qafqazda vəziyyəti tünd rəngdə təqdim etməklə Ermənistana Amerika Ali Komissarının təyin olunmasına nail olmaq istəyirdi. Versal Ali Şurasının sənədlərində göstərilirdi: Şura Huverdən xahiş etdi ki, Sülh konfransına və prezident Vilsona ünvanlanmış məktub təqdim etsin. Məktubda ABŞ, Böyük Britaniya, Fransa və İtaliyanın adından təklif edilməli idi ki, Ermənistana ezam olunan şəxsə müvəqqəti Ali Komissar və yuxarıda adları çəkilən dövlətlərin vahid nümayəndəsi kimi vəkalət verilsin.[3]

1919-cu ilin yayında V.Haskel Qafqaza gəldi. Onun qərargahı İrəvanda yerləşirdi. Ermənistan hökumət nümayəndələri ilə ilk görüşdə Haskel elan etdi ki, Paris Sülh konfransı ona vəkalət vermişdir ki, Ermənistanı və harada yaşamalarından (Gürcüstanda, Azərbaycanda, Türkiyədə) asılı olmayaraq, erməniləri qorusun. Ona görə də o, Paris Sülh konfransının qərarına görə, «müttəfiqlərin Ali komissarı» adlandırılır.[4] İyul ayının axırlarında Paris Sülh konfransına göndərdiyi ilk məlumatda Haskel Ermənistanın ağır vəziyyətdə olduğunu bildirdi. Haskel missiyasından istifadə edərək, ermənilər öz qonşularına qarşı ərazi iddialarını yenidən qaldırdılar. Avqustun 5-də və sonrakı məlumatlarında polkovnik Haskel Gürcüstan hökumətindən Paris Sülh konfransına şikayət edirdi. Guya, Gürcüstan hökuməti öz ərazisindən Ermənistana göndərilən yardımın daşınmasına icazə vermir. Avqust ayının 13-də Versalda olan Amerika nümayəndələri H.Huverin və V.Haskelin məlumatları əsasında Gürcüstan haqqında xüsusi məsələ müzakirə etdilər və bildirdilər ki, onlar Gürcüstan hökumətinin belə mövqeyinə sadəcə seyrici kimi yanaşmayacaqlar. Avqustun axırlarında Sülh kon-

[1] Papers Relating to the Foreign Relations of the United Stataes. The Paris Peace Conference. 1919, vol. X, p.482-483.
[2] Yenə orada, p.532.
[3] Yenə orada, vol. VI, p.741.
[4] Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.38.

fransı Haskelin məlumatı əsasında yenidən Gənubi Qafqazdakı vəziyyəti müzakirə etdi. V.Haskelin göndərdiyi məlumatı J.Kelmanso oxudu. Haskel qayda-qanun yaradılması üçün ya Amerika süvari korpusunun, ya da piyada briqadasının Ermənistana göndərilməsini xahiş edirdi.[1]

V.Haskelin Ermənistana Ali Komissar təyin edildikdən sonra göndərdiyi məlumatlar əsasında prezident V.Vilson Türkiyə sultanına hədələyici tələblər göndərdi. Avqust ayının 23-də İstanbuldakı Amerika Ali Komissarı admiral Bristol bu tələbləri Türkiyə Baş Nazirinə təqdim etdi. Tələblərin hazırlanma metodunda ermənilərin dəsti-xətti açıq-aydın hiss edilirdi. Orada deyilirdi: «Prezident Vilson Türkiyə hökumətinə xəbərdarlıq edirdi ki, əgər Qafqazda və digər yerlərdə türklər, kürdlər və digər müsəlmanlar tərəfindən ermənilərə münasibətdə təcavüz və qırğın dayandırılmasa, prezident Türkiyənin suverenliyinin saxlanılmasını özündə ehtiva edən 12-ci maddəni sülh müqaviləsindən çıxaracaqdır. Bu addım Osmanlı imperiyasının tamamilə çökməsini başa çatdıra bilər. Əgər türklər imperiyanın hansısa bir hissəsində suverenliyi saxlamaq istəyirlərsə onda gərək sübut etsinlər ki, öz əhalisinin qeyd edilən cinayətlərdə iştirakını, nəinki dayandırmaq niyyətindədir, eyni zamanda bunu etməyə qabildir. Türk tərəfinin bu hadisələrin qabağını almaq üçün öz gücsüzlüyünə istinad etməsi qəbul edilməyəcəkdir».[2] Belə tələblər və müraciətlər erməniləri Türkiyəyə, Azərbaycana və Gürcüstana qarşı daha təcavüzkar mövqedən hərəkət etməyə sövq edirdi. Getdikcə onlar özlərini ABŞ tərəfindən övladlığa götürülmüş, lakin böyük vərəsəlik iddiası olan yetim uşaq qismində təsəvvür edirdilər.

Ermənistana V.Haskelin müttəfiqlərin Ali Komissarı təyin edilməsi Türkiyə ilə yanaşı, Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Yaranmış vəziyyətdən ermənilər indi ABŞ vasitəsi ilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun ortalarında daşnak parlamentində çıxış edən V.Haskel ermənilərin ərazi iddialarını müdafiə etdiyini bildirmişdi. Ermənilər bu dəfə Qarabağ və Zəngəzur məsələlərini deyil, Naxçıvan və Şərur-Dərələyəz məsələlərini həll etmək istəyirdilər. V.Haskel öz çıxışında qeyd edirdi ki, Azərbaycan hökumətinin başçıları bu qəzalarla bağlı ermənilərin iddialarını qəbul etməzsə, onda onlar bu məsələyə «şəxsi məsuliyyət daşıyacaqlar».[3]

Polkovnik Haskelin əməkdaşlarından biri kimi polkovnik Ceyms

[1] Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.42.

[2] Papers Relating to the Foreign Relations of the United Stataes. The Paris Peace Conference. 1919, vol. VII, p.858.

[3] М.Н.Найдель, Ю.В.Согомонов. К истории интервенции США в Закавказье. История СССР, 1961, №3, с.35.



Pey Ali Komissarın Azərbaycan üzrə müvəkkili təyin edilmişdi. Eyni zamanda Tiflisdə olan Amerika konsulluğunun əməkdaşı Con Randolf da vitse-konsul kimi Bakıya göndərilmişdi.[1]

Polkovnik V.Haskel bir müddət İrəvanda qaldıqdan sonra avqust ayının 28-də Bakıya gəldi. Baş nazir N.Usubbəyov, xarici işlər naziri M.Y.Cəfərov və Nazirlər Kabinəsinin digər üzvləri ilə çoxsaylı görüşlər keçirdi. Ermənistanın maraqlarını özündə ehtiva edən ərazi məsələləri ilə bağlı V.Haskel öz planını sentyabr ayının 1-də elan etdi. Bu plana görə Amerika Ali Komissarı Qarabağı və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi hesab edirdi. Bunun müqabilində V.Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində olan Naxçıvan və Şərur-Dərələyəz zonalarında neytral zona yaradılmalıdır.[2] Həmin neytral zona Batumda olan ingilis general-qubernatorluğuna bənzər olmalı idi. Naxçıvan və Şərur-Dərələyəz torpaqlarından ibarət olacağı nəzərdə tutulan general-qubernatorluğun Amerika nümayəndəsi tərəfindən idarə olunması planlaşdırılırdı. Əlbəttə, bu planda həm amerikalıların və həm də ermənilərin öz niyyətləri var idi. Amerikalılar hələ nə qədər ki, Qafqaza istədikləri qədər ordu çıxara bilmirdilər, strateji baxımdan əlverişli olan Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğunu yaradıb, orada möhkəmlənmək niyyətində idilər. Birinci dünya müharibəsindən sonra Naxçıvan və Şərur-Dərələyəzin strateji mövqeyi təcridçilikdən geniş beynəlxalq əlaqələrə doğru ilk addımlarını atan Amerika üçün çox cəlbedici idi. Buradan gələcəkdə, nəinki Azərbaycana, Ermənistana, İran və Türkiyəyə, eləcə də bütün Yaxın və Orta Şərqə çox asanlıqla nüfuz etmək olardı. Ermənilərə gəldikdə isə, daşnak hökuməti hələ 1918-ci ilin noyabrında türk qoşunları Azərbaycandan çıxdıqdan sonra Naxçıvan və Şərur-Dərələyəz, Eçmiədzin qəzalarını, Qars vilayətini müsəlman əhalisindən təmizləyib, qeyd edilən ərazilərdə Ermənistan hökumətinin hakimiyyətini bərqərar etmək istəyirdi. Lakin bu yerlərin müsəlman əhalisinin güclü müqaviməti bu planın həyata keçməsinə mane olmuşdu. Hətta ingilis komandanlığı müvəqqəti olaraq, Naxçıvan idarəçiliyini Ermənistana versə də, qəzanın əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri olduğu üçün daşnak hökuməti bu qərarı həyata keçirə bilməmişdi.[3]

1919-cu ilin mayında keçmiş xarici işlər naziri Xan Xoyski Tiflisdə general Tomsonla görüşdükdə, müttəfiqlərin baş komandanlığı tərəfindən Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq, Ermənistan

[1] ARDA, f.2905, s.1, i.20, v.2.

[2] Yenə orada.

[3] ARDA, f.2898, s.1, i.6, v.2.

hökumətinə verilməsinə öz kəskin etirazını bildirmiş və Naxçıvan, Ordubad, Şərur-Dərələyəzin qədim Azərbaycan torpaqları olduğunu bildirmişdi.[1] İndi silah gücünə öz hakimiyyətini qura bilməyən Ermənistan hökuməti, Amerika layihəsi üzrə bu ərazilərdə neytral zona yaradılmasına çalışırdı. Şübhəsiz ki, Amerika nümayəndəsinin idarə edəcəyi Naxçıvan və Şərur-Dərələyəz general-qubernatorluğu gələcəkdə bu ərazilərin Ermənistana keçməsi üçün əlverişli şərait yaratmalı idi. Düzdür, Azərbaycan hökumət başçıları ilə söhbətində Vilyam Haskel inandırmağa çalışırdı ki, o, «ermənilərin vəkili deyildir»,[2] lakin onun Azərbaycan hökumətinə Naxçıvan və Şərur-Dərələyəzlə bağlı təqdim etdiyi layihə bu ərazilərin gələcəkdə Ermənistana verilməsini asanlaşdırmağa xidmət edirdi.[3]

Türklər Qafqazdan çıxdıqdan sonra Qars və Batum vilayətləri Tiflis quberniyasının Axalsıx və Axalkələk qəzaları ilə birlikdə mərkəzi Qars olmaqla Cənub-Qərbi Qafqaz respublikası yaratdılar. 1919-cu ilin yanvarında yaradılmış Parlamentə Çıldırlı Esad bəy, hökumətə isə Cahangiroğlu İbrahim bəy başçılıq edirdi.[4] Qısa müddətdə ingilis valisi Temperley, Azərbaycan Respublikası və Türkiyə Cənub-Qərbi Qafqaz respublikasını tanımışdılar. Qonşu dövlətlərin təcavüzünə məruz qalan Cənub-Qərbi Qafqaz respublikası özünü müdafiə etmək üçün 8 min nəfərlik ordu yaratmışdı. 40 min kvadrat kilometr ərazisi, 1.763.148 nəfər əhalisi olan müstəqil Türk Respublikası altı aya qədər ömür sürdü. Millətlərin öz hüququnu təyinetmə prinsipinə əməl edilməklə yaradılmış Cənub-Qərbi Qafqaz respublikası 1919-cu ilin aprel ayında müttəfiqlərin baş komandanı general Tomsonun dekreti ilə buraxılmışdı.[5]

V.Haskel layihəsinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, Azərbaycanın Versal Sülh konfransında olan nümayəndələri də

[1] Xarici İşlər naziri M.Y.Cəfərovun Bakıda müttəfiq ordularının komandanı V.Tomsonla danışıqların yekunları barədə Nazirlər Şurasının sədri N.Usubbəyova məlumatı. 07.05.1919// ARDA, f.970, s.1, i.60, v.3.
[2] Борьба, 1919, 28 август-2 сент.
[3] Ermənistanda Amerika Ali Komissarı V.Haskelin Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaradılması ilə bağlı layihəsi. 01.09.1919.// ARDA, f.970,s.1, i.93, v.3-4.
[4] ARDA, f.970, s.1, iş 27, v.7.
[5] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f. 970, s.1, i.142, v.58; La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.2.



Ermənistan hökumətinin qədim Azərbaycan torpaqları olan Naxçıvan və Şərur-Dərələyəzi, Qafqazda olan Cənub-Qərbi Qafqaz Türk Respublikasını özünə birləşdirmək niyyətlərinə, daşnakların bu ərazilərdə törətdiyi zorakılıq aktlarına qarşı mübarizə aparırdılar. Bu barədə Ə.M.Topçubaşov avqust ayının 19-da Sülh konfransının sədrinə xüsusi etiraz notası təqdim etmişdi.[1] Notada göstərilirdi ki, Azərbaycan nümayəndə heyəti respublikanın müstəqilliyini tanımaq barədə Sülh konfransı qarşısında çıxış edəcəyi günü səbirsizliklə gözlədiyi halda, bizim ölkəmizdə mühüm hadisələr baş verir, Sülh konfransının səlahiyyətinə aid olan məsələlərə müdaxilə edilir. Qafqaz Azərbaycanının ərazisi zor gücünə dəyişdirilir, əhalisi öz yurdlarından didərgin salınır. Azərbaycan sülh nümayəndə heyəti öz ölkəsindən rəsmi məlumat almışdır ki, Qars vilayəti, İrəvan quberniyasının bir hissəsi Ermənistan Respublikasına birləşdirilmişdir.[2] Etiraz notasında xatırladılırdı ki, bütün bu ərazilər türk ordusu tərəfindən tutulmuşdu və saziş bağlanana qədər onların əlində olmuşdur. Orada qeyd olunurdu ki, parlamentin və hökumətin başçısı 11 nazirlə birlikdə ingilislər tərəfindən həbs edilmiş və Malta adasına sürgün edilmişdilər. Halbuki ingilis komandanlığı Azərbaycan xarici işlər naziri Xan Xoyskiyə vəd vermişdi ki, Cənub-Qərbi Qafqaz Respublikasını Paris Sülh konfransında bu ərazinin taleyi həll edilənə qədər qoruyub saxlayacaqdır. İngilislərdən sonra aprel ayının 30-da guya qaçqınları yerləşdirmək adı altında Qarsa ermənilər, az sonra isə gürcülər daxil oldular. Qarsın işğal eilməsinə qarşı və orada törədilən cinayətlərə görə, Azərbaycan Respublikası Gürcüstan və Ermənistan Respublikalarına, Qafqazdakı ingilis ordusunun komandanlığına öz kəskin etirazını bildirdi.[3] Versal Sülh konfransının sədrinə təqdim edilmiş notada Azərbaycan nümayəndələri yazırdılar: «Qars vilayətinin belə acı taleyinə Azərbaycan Respublikası adicə seyrici kimi biganə yanaşa bilməz və

[1] La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.1-4.
[2] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f. 970, s.1, i.142, v.56; La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.1; Bu dövrdə Naxçıvanda cərəyan edən hadisələr haqqında ətraflı məlumat üçün bax: İ.Musayev, Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
[3] Xarici işlər naziri M.Y.Cəfərovun Zaqafqaziyadakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Koriyə notası. 30.04.1919.// ARDA, f.2898, s.1, i.6, v.2.

yanaşmamalıdır». Notada xatırladılırdı ki, Qarsın əhalisinin 60 faizi müsəlman olmaqla yanaşı, azərbaycanlılarla bir kökdən olan xalqdır. Ermənilər isə vilayət əhalisinin cəmisi 23,4 faizini təşkil edirdilər.[1] Ermənilər qaçqınları qaytarmaq adı altında Qarsda milli tərkibi öz xeyirlərinə dəyişmək istəyirdilər.

Etiraz notasının ikinci hissəsi Naxçıvan və Şərur-Dərələyəz hadisələrindən bəhs edirdi. Burada göstərilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsi ilə Azərbaycan hökuməti barışmayacaqdır. Etiraz notasında müttəfiq ölkələrin rəhbərlərinə bildirilirdi ki, Versalda olan Azərbaycan nümayəndələri Azərbaycan hökumətinin Naxçıvan qəzası ilə bağlı müttəfiqlərin komandanlığına təqdim etdiyi etiraz notasını müdafiə edir. Paris Sülh konfransına məlumat verilirdi ki, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli və İrəvan qəzasının bir hissəsinin Ermənistanın idarəçiliyinə verilməsi açıq şəkildə Azərbaycan Respublikasının hüquqlarının pozulması deməkdir. Belə bir aktın qəbul edilməsinin regionda daimi münaqişə ocağının yaradılmasına gətirib çıxaracağı böyük dövlətlərin nümayəndələrinə xəbərdarlıq edilirdi. Notada qeyd edilirdi ki, göstərilən ərazilərdə əhalinin milli tərkibi haqqında rəqəmlərin nəzərdən keçirilməsi bu əraziləri Azərbaycan torpaqları hesab etmək üçün kifayətdir. Müttəfiqlərin Versalda olan nümayəndələrinə bildirdi ki, Naxçıvan qəzasında 62,5 faiz azərbaycanlı, 36,7 faiz erməni, Şərur-Dərələyəzdə 72,3 faiz azərbaycanlı, 27,1 faiz erməni, Sürməlidə 68 faiz azərbaycanlı, 30,4 faiz erməni, İrəvan qəzasında 60,2 faiz azərbaycanlı, 37,4 faiz erməni yaşayır. Sonuncu qəza ilə bağlı qeyd etmək lazımdır ki, gətirilən rəqəmlər bütün qəza üzrə əhalinin nisbətini əks etdirir. Lakin bu qəzanın mübahisə obyekti olan Vedibasar və Millistanda əhalinin 90 faizi azərbaycanlılar idi.[2] Əslində əhalinin belə nisbəti Rusiya Qafqaza nüfuz etdikdən və qonşu dövlətlərdən erməniləri İrəvan və Naxçıvan vilayətlərinə köçürdükdən sonra yaranmışdı. Halbuki, Rusiya Qafqaza gələnə qədər İrəvan vilayətində

[1] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f. 970, s.1, i.142, v.58; La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.2.

[2] Qars vilayətinin Ermənistan Respublikasına birləşdirilməsi və Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının, İrəvan qəzasının bir hissəsinin Ermənistana verilməsinə qarşı Ə.M.Topçubaşovun müttəfiqlərin sülh konfransındakı nümayəndələrinə etiraz notası. 19.08.1919. // ARDA, f. 970, s.1, i.142, v.60-61; La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.3.



49875 nəfər müsəlman, 20073 nəfər erməni, Naxçıvan vilayətində isə 17138 nəfər müsəlman, cəmisi 2690 nəfər erməni yaşayırdı.[1] Qeyd edilən ərazilərdə müsəlman əhalisinin sayını azaltmaq üçün ermənilər rəqəmlərin saxtalaşdırılması da daxil olmaqla müxtəlif üsullardan istifadə edirdilər. Birinci dünya müharibəsinin sonunda hazırlayıb Moskvaya göndərdikləri sənədlərdə onlar türk əhalisini müxtəlif etnik adlar altında verməklə buna nail olmağa cəhd göstərirdilər. Məsələn, ermənilərin Moskvaya göndərdikləri sənəddə Sürməli qəzasında əhalinin 59 faizinin türk, 11 faizinin kürd, 30 faizinin erməni olduğu bildirilirdi. Yaxud, Şərur-Dərələyəzdə 90250 nəfər əhalinin 58496 nəfərinin (64,8 faiz) türk, 29 165 nəfərinin (32,3 faiz) erməni, 2589 nəfərinin (2,9 faiz) digər millətlərin nümayəndələri olduğu qeyd edilirdi.[2] Ermənistan hökuməti statistik məlumatları öz xeyrinə dəyişmək üçün etnik təmizləmə, deportasiya və yerli əhalinin məhv edilməsi üsullarına da tez-tez əl atırdı. Cənubi Qafqazda sovetləşmə prosesi başlananda qırmızı ordunun komandirləri olan Todorski və Sviridov sovetlərin Qafqaz canişini Q.K.Orconikidzeyə yazırdılar: «Araz çayı boyunca Uluxanlı stansiyasından Naxçıvana qədər əhalisi müsəlmanlardan ibarət olan, Arazın bol taxıl anbarı sayılan Şərur rayonu indi meyitlərin çürüdüyü ölüm vadisini xatırladır. Şərurun bütün əhalisinin bir hissəsi 1919-1920-ci illərdə Ermənistan Respublikasının hökumət ordusu tərəfindən məhv edildi, qalanı isə Türkiyəyə qovuldu, əmlakları indi Njdenin malikanəsini mühafizə edən mauzeristlər tərəfindən talan edildi. Bəşəriyyət hələ belə vəhşilikləri görməyib».[3] Qeyd edilən ərazilərin əhalisinin, əsasən, müsəlmanlardan ibarət olduğu 1918-ci ilin dekabr ayında Qafqazda olan Fransa missiyasının hazırlayıb Parisə göndərdiyi geniş hesabatda da təsdiq edilir.[4]

Bölgədə baş verən qanlı hadisələri nəzərə alaraq, Paris Sülh konfransına təqdim olunan etiraz notasının axırmda Sülh konfransından xahiş edilirdi ki, Qafqazda olan müttəfiq komandanlığı vasitəsi ilə iki mühüm məsələ həll edilsin: 1. Qars vilayətinin hüdudlarından müttəfiq qoşunlarından başqa bütün hərbi qüvvələr çıxarılsın, bu ərazinin taleyi həll edilənə qədər, onun idarəçiliyi yerli əhalinin arzusuna uyğun təşkil

[1] Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества Великого князя Михаила Николоевича. Исторические очерки. Тифлис, 1901, с.229.

[2] Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar vilayətlərinin müvəqqəti general-qubernatorunun Azərbaycan Respublikasının Ermənistanda diplomatik nümayəndəsinə məktubu. Oktyabr-dekabr, 1919. // ARDA, f.970, s.1, i. 104, v.2-95.

[3] Ermənistan sonuncu erməni-türk müharibəsinin başlanmasına qədər. 28.02.1921. // RDSSTA, f.5, s.1, i.2797, v.22.

[4] Considertions generales sur l'organisation du Caucase en cantons. Annexe N⁰ 1 au rapport N⁰ 1 du 10 dekembre 1918. // Ministere des Affaires Etrangere de France, Archives Diplomatique, vol. 832, folio 19.

edilsin. 2. Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının və İrəvan qəzasının bir hissəsinin idarəçiliyi Azərbaycan Respublikasının əlində saxlanılsın.[1] Azərbaycan nümayəndələri etiraz notasını Sülh konfransına təqdim etməklə yanaşı, Müttəfiqlərin Parisdə olan bütün nümayəndələrinə də verdilər. Bu etiraz notasından sonra Qarsda baş vermiş hadisələrlə maraqlanan və Qafqaza Ali Komissar göndərilən Oliver Uordrop vasitəsilə faktları dəqiqləşdirən lord Kerzon Qars hadisələrində Ermənistan hökumətini günahlandırmışdı. Bununla bağlı Parisdə olan erməni nümayəndə heyətinin başçısı A.Ağaronyan Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda məsləhət verirdi ki, təcili şəkildə Tiflisdə olan O.Uordropla görüşsünlər.[2] Ermənilər lord Kerzonun belə mövqe tutmasına biganə qalmadılar. Daşnak A.Saqatelyan Ermənistan Xarici İşlər Nazirliyinin «İnformasiya buletenin»də nəşr olunmuş «Antanta, bolşevizm və müsəlmançılıq» məqaləsində izah edirdi ki, guya, lord Kerzonun ermənilərə qarşı müsəlmanpərəst mövqe tutması vaxtilə onun Hindistanın vitse-kralı olması ilə bağlıdır. Hətta ermənilər Kerzonun Əfqanıstan siyasətini də onun «müsəlmanpərəstliyi» ilə əlaqələndirməyə çalışırdılar.[3] Müttəfiq komandanlığının qeyd edilən ərazilərlə bağlı ermənipərəst mövqeyinə baxmayaraq, bu qəzaların əhalisi Ermənistan hökumətinə tabe olmadılar. Daşnak hökumətinin öz hakimiyyətini silah gücünə yaymaq cəhdləri xeyli müsəlman kəndlərinin boşaldılması ilə nəticələnsə də, lakin bütövlükdə bu siyasət iflasa uğradı. Silah gücünə öz hakimiyyətini Naxçıvan, Şərur-Dərələyəz və Sürməlidə yaya bilməyən ermənilər 1919-cu ilin sentyabrından başlayaraq, buna Amerika diplomatiyası vasitəsi ilə nail olmaq istəyirdilər. Polkovnik Vilyam Haskel Sülh konfransı tərəfindən Ermənistana müvəkkil təyin edildiyindən, Ermənistan hökumətinin İrəvan quberniyasının yuxarıda adları çəkilən qəzalarını ələ keçirməsi üçün əlverişli şərait yaradırdı. İngilis komandanlığının Naxçıvan və Şəruru Ermənistan hökumətinin idarəçiliyinə vermək təcrübəsi özünü doğrultmadığı üçün bu dəfə yeni bir plan – Naxçıvan və Şərur-Dərələyəzdən ibarət Amerika general-qubernatorluğu yaratmaq planı irəli sürülmüşdü. Sentyabr ayının 1-də Azərbaycan

[1] ; La Question de Nakhitchevan. Note Presentee A Le Conferance de La Paix Par La Delegation de L'Azerbaidjan. // Bulletin d'İnformation d L'Azerbaidjan. Paris, 1919, 8 Septembre, №2, p.3-4.
[2] Ermənistan Respublikasının Paris Sülh konfransında olan nümayəndəliyinin başçısı A.Ağaronyanın xarici işlər nazirinə məktubu. Sentyabr, 1919. // ARPİİSPİHA, f.276, s.9, i.29, v,6.
[3] Ermənistan Respublikasının Azərbaycandakı nümayəndəsi A.Saqatelyanın «Antanta, bolşevizm və müsəlmançılıq» adlı məruzəsinin surəti. 1920. // ARPİİ SPİHDA, f.276, s.9, i. 38, v.2.



hökumətinə verilmiş 20 bənddən ibarət Haskel layihəsində, əslində Naxçıvan və Şərur-Dərələyəzin Azərbaycandan ayrılması öz əksini tapmışdı. Layihədə göstərilirdi: Amerikalıların yaratdığı neytral zonaya Naxçıvan və Şərur-Dərələyəz daxil edilir, neytral zonanın idarəçiliyi polkovnik Haskelin təyin etdiyi Amerika general-qubernatorunun əlində olacaqdır; ermənilərin üstünlük təşkil etdiyi (bu amerikalılar tərəfindən müəyyən edilməli idi) yerləri çıxmaq şərti ilə yerli hakimiyyət azərbaycanlıların əlində qalırdı; Azərbaycan və erməni hökumətləri neytral zonada olan öz qoşunlarını geri çağırmalı idilər; hər hansı tərəfin qoşunu bura, yalnız, Amerika qubernatorunun icazəsi ilə daxil ola bilərdi; Azərbaycan və Ermənistan hökumətləri təcili olaraq, yerli əhali arasında təbliğat aparan öz nümayəndələrini və ona rəğbət bəsləyən ölkənin nümayəndələrini neytral zonadan çıxarmalıdır; hər iki tərəf 1919-cu ilin 1 sentyabrına qədər törədilmiş hadisələrə görə həbs edilənlərə amnistiya verməlidir; yerli çinovniklər Amerika qubernatoru tərəfindən təyin edilir və qubernator neytral zonanın hüdudlarından istənilən çinovniki dəyişdirmək hüququna malikdir; Azərbaycan hökuməti neytral zonada və İrəvan rayonunda azərbaycanlı, Ermənistan hökuməti isə neytral zonada və Zəngəzur rayonunda erməni əhalisini sakitləşdirmək üçün öz nüfuzundan istifadə etməlidir; Azərbaycan və Ermənistan hökumətləri öz ərazilərində yaşayan azərbaycanlı və erməni əhalisinin həyatının və əmlakının toxunulmazlığına təminat verməlidir; neytral zonanın hüdudlarında olan dəmir yolu xətti üzərində nəzarət hüququ Amerika general-qubernatoruna keçməlidir; Azərbaycan hökuməti «Yaxın Şərqə Amerika Yardım Komitəsi»nin Şuşa və Gorusda nəzərə tutulan yardım tədbirlərinin həyata keçirilməsinə mane olmamalıdır; Azərbaycan hökuməti erməni qaçqınlarının öz yerlərinə qayıtmasına razılıq verməli və onlara yardım göstərməlidir; Böyük Vedinin azərbaycanlı əhalisi Amerika qubernatorunun müşayiəti ilə neytral zonanın hüdudlarından digər yerə köçürülməlidir və onlara şərait yaradılmalıdır ki, bütün əmlaklarını özləri ilə götürsünlər; hazırda inşa edilən Bakı-Culfa dəmir yolu Azərbaycan hökumətinin səlahiyyətlərində qalmalıdır; Amerika qubernatorunun idarəçiliyi dövründə neytral zonanı idarə etmək üçün lazım olan maddi vəsait yerli vergilər hesabına ödənilməlidir, bu məqsədlə Azərbaycan hökumətindən əlavə vəsait tələb edilməlidir və s.[1] İlk baxışda layihənin məzmunundan aydın olur ki, belə bir layihə amerikanlar tərəfindən hazırlana bilməzdi. Bu müttəfiqlərin Ali Komissarı Vilyam Has-

[1] Zaqafqaziyada Amerika Ali Komissarı V.Haskelin Naxçıvan və Şərur-Dərələyəzdə Amerika general-qubernatorluğu yaradılması ilə bağlı yeni layihəsi. 27.09.1919. // ARDA, f.970, s.1, i.93, v.3-5.

kelin adı ilə elan edilmiş erməni layihəsi idi. Lakin bu layihə Azərbaycan hökuməti tərəfindən qəbul edilmədiyi üçün sentyabrın 27-də Vilyam Haskel bir qədər yumşaldılmış, əslində isə mahiyyət etibarı ilə birincidən o qədər fərqlənməyən 12 bənddən ibarət ikinci layihəni Azərbaycan hökumətinə göndərdi.[1] Azərbaycan xarici işlər naziri sentyabr ayının 29-da Haskelə yazırdı ki, onun hökuməti Naxçıvan və Şərur-Dərələyəz qəzalarında xüsusi general-qubernatorluğun yaradılmasının əleyhinə deyildir, lakin təklif edilən şərtlərin bir qisminə etiraz edir.[2] Bu məsələ ilə bağlı Azərbaycan hökuməti general-qubernatorluq barədə özünün tərtib etdiyi layihəni sentyabr ayının axırlarında polkovnik Haskelə göndərdi. 12 bənddən ibarət layihədə göstərilirdi: Naxçıvan və Şərur-Dərələyəz qəzalarında müvəqqəti olaraq, xüsusi general-qubernatorluq yaradılır; general-qubernatoru Amerika vətəndaşları içərisindən polkovnik Haskel təyin edir; bu qəzalar ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli Şuralar tərəfindən idarə edilir; vilayətdə bütün hakimiyyət-inzibati, məhkəmə, dəmir və şose yolları, poçt-teleqraf, xalq maarifi və sair Şuranın müstəsna səlahiyyətinə daxil edilir və bu işi general-qubernator tənzim edir; Şura tərəfindən təyin edilən icra hakimiyyəti çoxluq təşkil edən millətin nümayəndəsindən olmalıdır; bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyətin və əmlakın toxunulmazlığı elan edilməlidir; general-qubernatorluğun büdcəsinə Azərbaycan parlamentində baxılmalı, çatışmayan məbləğ Azərbaycan xəzinəsindən əlavə edilməlidir; Azərbaycan pulu rəsmi pul vahidi kimi qəbul edilməlidir; seçkilər keçirilənə qədər general-qubernator Azərbaycandan iki məsləhətçi dəvət edib, onların köməyi ilə qayda-qanun yaratmalıdır; neytral zonadan Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılıb, Azərbaycan hökumətinə verilməlidir; general-qubernatorluğun əhalisi tərkisilah edilməlidir; general-qubernatorluğun bütün ərazisində amnistiya keçirilməlidir.[3] Lakin Azərbaycan hökuməti tərəfindən tərtib edilən layihə Haskel tərəfindən qəbul edilmədi. Sentyabr ayının ortalarında Haskel Naxçıvan, Şərur və Ordubad nümayəndələri Əli Səbri Qasımovu və Ələsgərovu qəbul edərək bildirdi ki, Birləşmiş Ştatların ordu mühəndisi polkovnik Edmond Deli Naxçıvana qubernator təyin edilmişdir və oktyabr ayının 23-də öz vəzifəsinə başlayacaqdır. Nümayəndələr adından Əli Səbri Qasımov Naxçıvan əhalisinin on bənddən ibarət olan tələblərini V.Haskelə təqdim etdi. Burada Naxçıvan əhalisinin bu rayona erməni qoşunu yeridilməsinə razı olmayacağı, bu qəzaların əhalisi-

[1] ARDA, f.970, s.1, i.93, v.6.
[2] Azərbaycan Respublikası Xarici işlər naziri M.Y.Cəfərovun Zaqafqaziya Amerika Ali Komissarı V.Haskelə məktubu. 29.09.1919. // ARDA, f.970, s.1, i.93, v.9.
[3] Азербайджан, 1919, 23 октября.



nin Ermənistan hökumətinə tabe olmayacağı və lazım gələrsə, azərbaycanlı əhalinin öz istiqlaliyyətini silahlı yolla qoruyacağı göstərilirdi.[1]

Ümumiyyətlə, türklər Naxçıvanı tərk etdikdən sonra bu regionun əhalisi özünü erməni talanlarından silah gücünə müdafiə edirdi. Azərbaycan hökuməti bütün vasitələrlə İrəvan quberniyasının müsəlman qəzalarının istiqlaliyyət uğrunda mübarizəsini müdafiə edirdi. Ermənilər bu regionu özlərinə tabe edə bilmədiklərini həmişə guya burada türk əsgərlərinin olması ilə əlaqələndirirdilər və buna ingilisləri və amerkanları qıcıqlandırmaq üçün bir vasitə kimi baxırdılar. İrəvan quberniyasının müsəlman qəzalarının ermənilərə uğurlu müqavimətində Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi Məmməd xan Təkinski böyük rol oynamışdı. Əgər müttəfiqlər işə qarışmasaydılar Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının əhalisi özünü erməni hücumlarından qorumaq iqtidarında idi. İyul ayının 11-də M.Təkinski Azərbaycan Xarici İşlər Nazirliyinə şifrəli məlumatlar yazırdı ki, Böyük Vedidə erməni ordusunun hücumu dəf edilmişdir. İrəvana çoxlu yaralı erməni əsgərləri gətirirlər, ölmüş erməni əsgərlərinin sayı 200-dən çoxdur. Müsəlmanlar ermənilərdən iki top və səkkiz pulemyot müsadirə etmişlər. Ermənilərin əhval-ruhiyyəsi aşağı düşüb. Onlar uğursuzluğu ingilis missiyasına inandırmaq istədikləri guya döyüşlərdə türk əsgərlərinin iştirakı ilə izah etməyə çalışırlar. Qəti şəkildə demək olar ki, bu kəndlərdə heç bir türk əsgəri yoxdur.[2]

Amerikalıların Ermənistanda hərbi qüvvəsi olmadığı, erməni ordusu isə əslində, bu işin öhdəsindən gələ bilmədiyi üçün Haskel müsəlman qəzalarında ümumxalq həyacanının qalxmasından ehtiyat edir və əhalini sakitləşdirmək üçün diplomatik vasitələrə əl atırdı. O, neytral zonanın müsəlman əhalisinə vəd edirdi ki, onların hüquqları Paris Sülh konfransında nəzərə alınacaqdır.[3] Oktyabr ayının əvvəllərində xarici işlər naziri M.Y.Cəfərova teleqramında Haskel bildirirdi ki, yaxın vaxtlarda o, Parisə gedəcək, əgər Azərbaycan hökuməti neytral zonaya daxil olan ərazilərdə əhalinin sakitləşdirilməsinə yardım edərsə və neytral zona yaradılması haqqında Amerika planını müdafiə edərsə, Haskel vəd verirdi ki, Paris Sülh konfransı qarşısında Azərbaycanın tanınması məsələsini qaldıracaqdır.[4] Hətta bu məqsədlə Amerika missiyasının üzvləri podpolkovnik J.A.Ulio və mayor Parker K.Kollok Azərbaycan hökumətindən yazılı şəkildə xahiş edirdilər

[1] Азербайджан, 1919, 23 октября.
[2] Azərbaycan Ermənistanda diplomatik nümayəndəsi M.X.Təkinskinin xarici işlər naziri M.Y.Cəfərova şifrəli teleqramı: 11.07.1919. //ARDA, f.970, s.1, i.54, v.52.
[3] ARDA, f.970, s.1, i.213, v.9.
[4] Zaqafqaziyada Amerika Ali Komissarı V.Haskelin xarici işlər naziri M.Y.Cəfərova teleqramı. Oktyabr, 1919. // ARDA, f.970, s.1, i.93, v.9.

ki, Sülh konfransı üçün məruzə hazırlandığından Azərbaycana aid statistik məlumatlar xəritələrlə birlikdə, Sülh konfransına təqdim edilmək üçün iki nüsxədən ibarət memorandum formasında Amerika Ali Komissarlığına göndərilsin. Oktyabr ayının 4-də Azərbaycan xarici işlər naziri, Haskelə göndərdiyi notada yazırdı ki, Azərbaycan hökuməti, onun təklifləri və mənafeyi nəzərə alinmaqla bu ərazinin yalnız Azərbaycanın ayrılmaz hissəsi kimi Amerika general-qubernatorluğu tərəfindən idarə edilməsinə razılıq verə bilər. M.Y.Cəfərov polkovnik Haskelə göndərdiyi notada Azərbaycan xalqının prezident Vilson tərəfindən elan olunmuş xalqların hüquqlarına dair prinsipinə uyğun olan ədalətli tələblərinin onun tərəfindən Sülh konfransında müdafiə olunacağına ümidvar olduğunu bildirirdi. Məktubda İrəvan quberniyasında Azərbaycan xalqının öz iradəsinə uyğun olaraq bərqərar etdiyi hüquqlarının da Vilyam Haskel tərəfindən Sülh konfransı qarşısında müdafiə olunması arzu edilirdi.[1]

Amerika missiyası Denikin təhlükəsindən də neytral zona yaradılması məqsədilə istifadə etmək istəyirdi. Denikin təhlükəsi ilə bağlı Şimal sərhədlərində neytral zona yaradılması haqqında Xarici İşlər Nazirliyinin sorğusuna Haskel cavab verirdi ki, Naxçıvan və Şərur-Dərələyəzdə neytral zona yaradılmayınca mənim tərəfimdən Denikinlə və digər məsələlərlə bağlı heç bir addım atılmayacaqdır.[2]

Haskel layihəsi elan edildikdən sonra təkcə Naxçıvanı deyil, İrəvan quberniyasının bütün müsəlman qəzalarını xalq həyəcanı bürümüşdü. Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndələrinə göndərdiyi məlumatda göstərilirdi ki, İrəvan quberniyasında vəziyyət üsyan həddinə çatıb, bu ərazidə Böyük Vedi üsyanı xüsusilə kəskin xarakter alıb, erməni qüvvələrinin tamamilə darmadağın edilməsi ilə nəticələndi və erməni ordusu İrəvan şəhərinin özünə qədər geri oturduldu.[3] Məlumatda qeyd edilirdi ki, Şərur-Dərələyəzdə müsəlmanların hərəkatına erməni dəstələri və hərbi hissələri tərəfindən incidilən Kağızman əhalisi və Eçmiədzin qəzasının sakinləri də qoşuldular. Hazırda İrəvan quberniyasınm bütün müsəlman əhalisi güclü şəkildə həyəcanlanmışdır. İrəvan quberniyasının dinc müsəlman əhalisinə divan tutulması Azərbaycan xalqının və siyasi dairələrinin də narazılığına səbəb olmuşdur. Şübhəsiz ki, hökumət belə zorakılıq aktlarına və incidilən müsəlman əhalisinin yardım çağırışlarına biganə qala bilməzdi.

[1] Xarici işlər naziri M.Y.Cəfərovun müttəfiqlərin Zaqafqaziyada Ali komissarı U.Haskelə notası. 04.10.1919. //ARPİİ SPİHDA, f.277, s.2, i.18, v.18.

[2] Zaqafqaziya müttəfiqlərin ali komissarı U.Haskelin xarici işlər naziri M.Y.Cəfərova teleqramı. 26.10.1919. // ARDA, f.970, s.1, i. 93, v.7.

[3] Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndəliyinə məlumatı. Oktyabr, 1919. //ARDA, f.2905, s.1, i.20, v.2.



Ona görə də Azərbaycan hökuməti avqust ayında olduğu kimi sentyabr ayında da İrəvan quberniyası müsəlmanlarına qarşı ermənilərin törətdiyi zorakılıqlara qarşı Ermənistan hökumətinə qəti etiraz notası göndərmişdi.[1]

Oktyabrın ortalarında polkovnik Haskel Parisə çağırıldıqdan sonra, onun müavini polkovnik Ceyms Rey neytral zona məsələsini müzakirə etmək üçün Bakıya gəlmişdi. Hələ bundan iki həftə əvvəl İstanbuldakı Amerika səfirliyinin nümayəndəsi mayor Doyl da Azərbaycan paytaxtına gəlmişdi.[2] Danışıqlar zamanı Ceyms Rey Azərbaycan hökumətinə təklif edirdi ki, hökumət öz nümayəndəsini onunla birlikdə neytral zona məsələsini həll etmək üçün İrəvana və Naxçıvana ezam etsin. Bununla amerikanlar yerli əhaliyə göstərmək istəyirdilər ki, Azərbaycan hökuməti neytral zona yaradılmasına tərəfdardır. Lakin hökumət buna etiraz edərək bildirdi ki, o, əhalini çaşdıra bilməz və hökumət tərəfindən bəyənilməyən prinsiplərin bərqərar edilməsində iştirak edə bilməz. Bununla belə, polkovnik Reyə bildirildi ki, əgər əhali amerikanlar tərəfindən təklif olunan şərtlərə razı olarsa, (İrəvan quberniyası müsəlman qəzalarının əhalisinin neytral zona yaradılmasına qarşı kütləvi həyəcanları Azərbaycan hökumətinə məlum idi _ C.H.), Hökumət neytral zonanın yaradılmasına müqavimət göstərməyəcəkdir. Paris Sülh konfransına göndərilən hökumət məlumatında qeyd edilirdi ki, bu etiraz polkovnik Reyi elə də təmin etmədi və o, Naxçıvana tək qayıtmalı oldu.[3]

Oktyabr ayınm 24-də Ceyms S.Rey Naxçıvana gəldi və müsəlman Milli Şurası qarşısında neytral zona yaratmaq barədə Amerika Ali Komissarı Vilyam Haskelin bəyanatını elan etdi. Bəyanatda deyilirdi: «Ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşmanın dincliyi pozduğunu, vətəndaşların həyatı və əmlakı üçün təhlükə yaratdığını, Ermənistan və Azərbaycanın bu əraziyə iddiası olduğunu, Şərur və Naxçıvana Ermənistan və Azərbaycanın hüququnun hələlik Sülh konfransı tərəfindən həll edilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazini idarə etmək üçün qarşılıqlı razılığa gələ bilmədiyini, Ermənistan və Azərbaycanın bu ərazidə sülh yaratmaq arzularını nəzərə alaraq... mən

[1] La situation de la population musulmane dans la Republique d'Armenie. // Bulletin d'İnaormation de L'Azerbaidoft. Paris, 1919, 13 Ostobre, №3, p.4-6; Xarici işlər naziri M.Y.Cəfərovun Ermənistan Respublikası Xarici İşlər Nazirliyinə notası. 22.09.1919. //ARDA, f.970, s.1, i.184, v, 16-17; Note de I'Armenie. 22 septenbre 1919. //Bulletin d'İnformation de L'Azerbaidjan. Paris, 1919, 15 Dekembre, №5, p.1-2.

[2] Азербайджан, 1919, 23 сентября.

[3] Azərbaycan Xarici İşlər Nazirliyinin Versaldakı Azərbaycan nümayəndəliyinə məlumatı. Oktyabr, 1919, //ARDA, f.2905, s.1, i.20, v.7.

Vilyam N.Haskel Sülh konfransının mənim üzərimə qoyduğu vəkalətə əsaslanaraq, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya və İtaliya Ali Komissarı kimi... Şərur və Naxçıvan dairəsində, Amerika qubernatorunun rəhbərliyi altında müttəfiq idarəçilik zonasının yaradıldığını... Şimali Amerika Birləşmiş Ştatlar ordusunun hərbi mühəndisi polkovnik Edmund L.Dellinin bu zonaya qubernator təyin edildiyini bildirirəm.[1] V.Haskeli əvəz edən Ceyms Rey bu bəyanata uyğun iki bənddən ibarət Şərur və Naxçıvanda Amerika qubernatorluğu yaradılması, polkovnik Edmund L.Dellinin qubernator təyin edilməsi haqqında sərəncam imzalandı. Lakin Naxçıvan Milli Şurasının və bütün Naxçıvan əhalisinin təkidi ilə Ceyms Rey bu qərarını dəyişməli oldu. Polkovnik Delli Naxçıvanda general qubernator kimi deyil, Amerika Ali Komissarın nümayəndəsi kimi qaldı. Ceyms Reyin Naxçıvana səfəri ilə bağlı Naxçıvan Milli Şurasının üzvü S.Cəmillinski Azərbaycan Respublikasının Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskiyə oktyabr ayının 26-da yazırdı ki, o özü, Xəlil bəy, Kalbalı xan, D.Məmmədov və digərləri polkovnik Reylə iki günlük danışıqlar apardılar. «Ceyms Rey razılıq verdi ki, polkovnik Dellini general-qubernator kimi deyil, Sülh konfransının, yaxud Amerikanın nümayəndəsi kimi burada saxlasın. Bu nümayəndə bizim idarəçilik işlərimizə qəti surətdə müdaxilə etməyəcək və ermənilərlə bizim aramızda sülh yaratmaq, bizim qaçqınlara kömək etmək istiqamətində fəaliyyət göstərəcəkdir»[2] S.Cəmillinski qeyd edirdi ki, danışıqlar zamanı məlum oldu ki, artıq burada müttəfiqlərin xüsusi idarə zonasının yaradılması məsələsi təxirə salınır və bir çox cəhətlərinə görə bu diyarın Azərbaycana birləşməsinə amerikanların razılığı hiss edilir. Naxçıvanda olduğu müddətdə Ceyms Rey və digər Amerika nümayəndələri başa düşdülər ki, neytral zona üçün nəzərdə tutulan ərazini Azərbaycandan ayırmaq qeyri-mümkündür.

Noyabr ayında Ermənistanda olan ABŞ zabitlərinin Dellinin sərəncamına gəlməsi Naxçıvan və Şərur əhalisinin bərk həyəcanına səbəb oldu. Yaranmış vəziyyətdən çıxış yolu kimi Delli zabitləri İrəvana qayıtmalı oldu.[3] 1920-ci ilin yanvarında amerikanlar tamamilə Şərur və Naxçıvanın hüdudlarından çıxdılar.

ABŞ missiyasının Qafqazda olduğu müddətdə Tiflisdə noyabr

---

[1] Azərbaycan arxivi, 1988, №1-2, s.153.

[2] Naxçıvan general-qubernatoru vəzifəsini icra edən S.Cəmillinskinin polkovnik Dellinin Naxçıvanda ABŞ nümayəndəsi vəkalətini alması haqqında Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi. Ə.Haqverdiyevə məlumatı. 26.10.1919. // ARDA, f.897, s.1, i.57, v.12.

[3] Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in yaradılması. Bakı, 1958, s.59-60.



ayının 23-də onların vasitəçiliyi ilə Ermənistanla Azərbaycan arasında saziş imzalandı. Amerikanlarla yanaşı, ingilislər də iki respublika arasında hərbi əməliyyatların dayandırılması və sülh bağlanmasına təşəbbüs etmişdilər. Nayabrın 16-da Britaniya Ali Komissarı O.Uordrop Azərbaycan və Ermənistan hökumətlərinə bu məqsədlə teleqram göndərmişdir.[1] Lakin son anda amerikanlar vasitəçilik etdilər. Sazişdə tərəflər təsbit edirdilər ki, hazırda cərəyan edən toqquşmanı dayandırmağa və yenidən silaha əl atmağa çalışacaqlar. Ermənistan və Azərbaycan hökumətləri razılığa gəldilər ki, dinc əhalinin hərəkəti üçün Zəngəzurdan keçən yolu açmalıdırlar, tərəflər öz üzərlərinə öhdəlik götürdülər ki, bütün mübahisəli məsələləri, o cümlədən sərhədlər məsələsini də dinc sazişlər vasitəsi ilə həll etməlidirlər. Bu sazişin üçüncü bəndi tərəflər arasında razılıq əldə edilməyəcəyi təqdirdə amerikanlara münsiflər məhkəməsi rolu oynamaq imkanı verirdi. Orada göstərilirdi ki, əgər tərəflər hər hansı məsələni dinc yolla həll edə bilməsələr, neytral şəxsdən ibarət münsiflər məhkəməsi seçilməli və bu məhkəmənin qərarını özləri üçün məcburi hesab etməlidirlər. Sazişə görə, belə neytral şəxs Amerika ordusunun polkovniki Ceyms S.Reydir. Sazişin dördüncü bəndinə əsasən, mübahisəli məsələləri müzakirə etmək üçün tərəflər bərabər sayda, yubanmadan Bakı və Tiflis konfransına nümayəndələr göndərməli idilər. Saziş imzalandığı andan etibarən qüvvəyə minirdi.[2] Sazişi Azərbaycan Nazirlər Şurasının sədri, N.Usubbəyov və Ermənistan nazirlər şurasının sədri A.Xatisov imzalamışdılar. Bunlardan əlavə təminatçı kimi sazişə ABŞ tərəfindən Ceyms Rey, Gürcüstan Respublikası tərəfindən xarici işlər naziri və müvəqqəti prezident E.P.Geqeçkori də imza atmışdılar.[3] Amerikalılar belə hesab edirdi ki, bu saziş Qafqaz respublikaları arasında həmrəyliyi gücləndirəcək və onların Denikin təhlükəsinə qarşı müqavimətlərini artıracaqdır. Paris Sülh konfransının rəhbərliyinə göndərdiyi teleqramda Haskel ABŞ və Gürcüstanın iştirakı ilə azərbaycanlılarla ermənilər arasında imzalanmış sazişi yüksək qiymətləndirir və Denikin təhlükəsi şəraitində bunu əhəmiyyətli hadisə hesab edirdi. Əks təqdirdə Haskel belə hesab edirdi ki, Denikinin Dağıstandan Azərbaycana hücumu Azərbaycanı Türkiyədən kömək istəməyə vadar

---

[1] Tiflisdəki Britaniya ali komissarı O.Uordropun Azərbaycan və Ermənistan hökumətinə teleqramı. 16.11.1919. //ARDA, f.970, s.1, i.144, v.50.

[2] Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında saziş. 23.11.1919. //ARPİİ SPİHDA, f.276, s.9, i.29, v.1-2.

[3] Entente conclue entrel le President Khatissov, Representant le Gouvernement de l'Armenie, et le President Qussoubekov, Representant le Gouvernement d'Azerbaidjan. // Minestere des Affaires Etrangere de France, Arshives Diplomatique, vol. 638, folio 140.

edə bilərdi.[1] Sazişin Cənubi Qafqazda sülh yaradacağı barədə Tiflisdə olan Fransa hərbi missiyası da Parisə noyabr ayının 24-də teleqram göndərmişdi.[2] Lakin bu saziş müvəqqəti sakitlik yaratsa da, tərəflər arasında ziddiyyətlər çox güclü olduğundan, az sonra amerikanlar Qafqazdan çıxdığından, dekabr ayında keçirilən konfrans uğurlu nəticə vermədiyindən uzun ömürlü olmadı.

Sazişin imzalanmasından az sonra erməni hərbi hissələri Zəngəzura hücum edib, bir neçə müsəlman kəndini dağıtdı. Dərələyəz bölgəsində 300 nəfərin ölümü ilə nəticələnən qanlı hadisələr baş verdi.[3] Azərbaycanın xarici işlər naziri M.Y.Cəfərovun noyabr ayının 29-da göndərdiyi kəskin notaya cavab olaraq, erməni tərəfi bildirdi ki, bu əməliyyatlar Dərələyəzdən Zəngəzur istiqamətinə hərəkət edən türk zabiti Xəlil bəyin başçılığı altında olan hücumun qarşısını almağa yönəlmişdir və notada göstərilən ölüm hallarından onların məlumatı yoxdur. Erməni tərəfi vurğulayırdı ki, onlar 23 noyabr tarixli sazişin bəndlərinə əməl edirlər.[4] Azərbaycan tərəfi erməni hökumətinin bu cür münasibətindən sonra baş vermiş qanlı hadisələri müttəfiqlərin Cənubi Qafqazdakı nümayəndələrinin diqqətinə çatdırırdı. Dekabr ayının 8-də Haskelə göndərdiyi teleqramda Baş nazir N.Usubbəyov yazırdı: «Noyabr ayının 23-də Tiflisdə imzalanmış sazişə uyğun olaraq, Azərbaycan hökuməti Zəngəzurda olan öz ordusunu geri çağırmışdır və indi orada bir nəfər də olsun, Azərbaycan əsgəri yoxdur. Bu şəraitdə top və pulyemyotlarla silahlanmış erməni hərbi hissələri fəallaşaraq, müsəlman əhalisini qırmağa və onların əmlakını talan etməyə başlamışdır. Təəssüf ki, bütün bunlar polkovnik Reyin iştirakı ilə keçirilən Tiflis müşavirəsində mənim ifadə etdiyim narahatlığı doğrultmuşdur. Yuxarıda deyilənlərə əsasən, sizdən xahiş edirəm beş gündən gec olmayaraq, erməni dəstələrinin əlində olan top və pulemyotları müsadirə etmək üçün Zəngəzura Amerika zabitlərindən ibarət komissiya göndərəsiniz. Bu tədbir həyata keçməsə, Azərbaycan hökuməti günahsız insanların qanının tökülməsinə və öz

[1] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conferance. 1919, vol. IX. US Govermment Printing office. Washşington, 1946, p. 606-607; Teleqramme de Constantinopole en date du 1[0] decembere 1919, adresse par le Colonel Haskell. //Ministere des Affaires Etrangere de Franse, Archives Diplomatique, vol, 638, folio 148.

[2] Le Commandant de Nononcourt, Chef P.I.de la Mission Militaire Française au Caucase, a Monsieur le Ministre de la Cuerre, Etat-Major de I'Armee – 2[eme] Bureau. // Ministere des Affaires Etrangere de France, Archives Diplomatique, vol.638, folio 142.

[3] Азербайджан, 1919, 3 декабря.

[4] Ermənistan xarici işlər nazirinin Azərbaycan xarici işlər nazirinə cavab notası. Dekabr, 1919. //ARDA, f.897, s.1, i.112, v.20.



vətəndaşlarının üzləşdiyi arası kəsilməyən vəhşiliklərə seyrici qala bilməz».[1] Dekabr ayının 11-də V.Haskel xarici işlər naziri M.Y.Cəfərova yazırdı ki, sizin 8 dekabr teleqramınızı aldım və aşağıdakı əlavə ilə birlikdə Ermənistan hökumətinə verdim. Amerika Ali Komissarı qeyd edilən əlavədə xatırladırdı ki, «əgər yoxlamalar zamanı Azərbaycan tərəfinin ittihamları təsdiqlənərsə, bu Ermənistanın gələcəyinə vurulmuş çox güclü zərbə olacaqdır».[2]

1919-cu il noyabr ayının əvvəllərində Versal Sülh konfransına Cənubi Qafqazda vəziyyət haqqında məlumat vermək üçün Parisə dəvət edilmiş V.Haskel Ə.M.Topçubaşova məktub yazıb Azərbaycan nümayəndələri ilə görüşdü. Parisdə verdiyi müsahibələrində Haskel Naxçıvan general-qubernatorluğunun yaradılmasının əhəmiyyətsiz olduğunu başa düşərək, bu məsələyə toxunmadı. İndi artıq o, belə hesab edirdi ki, Cənubi-Qafqazda yeganə çıxış yolu bu regionun bütövlükdə mandatının hər hansı bir ölkə tərəfindən götürülməsindədir. Ə.M.Topçubaşov polkovnik Haskellə Parisdəki görüşü barədə Azərbaycan hökumətinə yazırdı: «Cənab Haskel bizdə gördüyü qayda-qanun haqda tərifli sözlər dedi. Bakıdakı qəbuldan çox razıdır, bizim sadə xalq onun çox xoşuna gəlmişdir, bu xalq çox sülhsevər xalqdır və ümumiyyətlə, erməni xalqının düşməni deyil, əgər siyasətçilər olmasa, ermənilər də sülhlə yaşayarlar... Bizim suallara cavab verərək, polkovnik əmin olduğunu bildirdi ki, Cənubi Qafqaz və hətta bütün Qafqaz xalqları birlikdə yaşaya bilərlər, çünki iqtisadi cəhətdən onlar bir-birinə möhkəm bağlıdırlar. Lakin başlanğıc üçün onlara hər hansı bir güclü dövlətin köməyi vacibdir ki, hər yerdə öz maliyyə vəziyyətlərini qaydaya sala bilsinlər, amma bir neçə ildən sonra hər xalq mandatlıqdan azad olaraq, sərbəst yaşaya bilər. «Və birinci olaraq, himayəçilikdən Sizin Azərbaycan azad olmalıdır» - polkovnik Haskel xəritədə Azərbaycanı göstərərk təsdiq etdi».[3]

Qeyd etmək lazımdır ki, polkovnik Haskel Qafqaza göndərildikdə prezident Vilson başda olmaqla, ABŞ rəsmi dairələrindən göstəriş almışdı ki, ermənilərə kömək etsin. Lakin Qafqazdakı üç aya qədər müşahidələr ona çox şeyi başa saldı. Ən başlıcası isə Haskel etiraf edirdi ki, ermənilər qərb mətbuatının təbliğ etdiyi kimi, heç də «əzabkeş xalq» deyildirlər. Ə.M.Topçubaşov və M.Məhərrəmovla söhbətində o, qeyd edirdi ki, «indiyədək amerikalılar yalnız ermənilər haqqında danışırdı-

[1] Азербайджанская Демократическая Республика. Внешняя политика. с.452.

[2] Zaqafqaziyada müttəfiq ali komissar V.Haskelin xarici işlər naziri M.Y.Cəfərova məlumatı. 11.12.1919. //ARDA, f.970, s.1, i.95, v.22.

[3] Azərbaycan Respublikasının Paris Sülh konfrasmdakı nümayəndəliyinin başçısı Ə.M.Topçubaşovun Nazirlər Şurasının sədrinə məktubu. 06-10. 11.1919. //ARDA, f.970, s.1, i.146, v.11-12.

lar, çünki amerikalı ermənilər və ümumiyyətlə, hamı onları Qafqazın yeganə əzabkeş xalqı sayırdılar. Bizim missiyanın Türkiyəyə və Qafqaza göndərilməsi və oraya səyahət bir çox amerikalılar üçün çox faydalı oldu. İndi biz inanırıq ki, «heç də bütün ermənilər biz düşündüyümüz qədər yaxşı deyillər, eyni ilə necə ki, bütün türklər pis deyillər. Amerikada da bütün xalqların pisi və yaxşısı var». Sözünün sonunda Cənubi Qafqaz Respublikalarının Qərb mandatlığına qəbul edilməsi məsələsinə toxunaraq, V.Haskel bildirdi ki, «ümumi mandat altında bu ölkələri birləşdirmək olardı... lakin ba mandatı qəbul edən Amerika olmayacaq».[1] Polkovnik Haskel bunu düz hiss etmişdi. Hələ noyabr ayının 5-də gürcü nümayəndələri ilə görüşündə o bildirdi ki, «Amerika öz üzərinə mandat götürəcək, ya yox, bunu mən deyə bilmərəm, bu diplomatların işidir. Mənim vəzifəm praktiki məsələləri həll etməkdən, Qafqaz xalqlarına kömək göstərməkdən ibarətdir».[2] Noyabrın 14-də Versalda diplomatlar Haskelin məruzəsini dinləməli oldu. Ali Şuranın İclasına Haskelin gəlişi bir çoxları üçün gözlənilməz olmuşdu. Müzakirələrin gedişində aydın oldu ki, polkovnik Haskeli Ali Şura deyil, amerikanlar özləri çağırmışlar. ABŞ nümayəndəsi F.Polk bildirdi ki, Haskel sabah gedəcək, Ali Şura üçün Ermənistan haqqında onun məlumatını dinləmək maraqlı olardı. Bu məsələ gündəlikdə olmadığı üçün iclas iştirakçıları Haskelin məlumatını dinləməyə könülsüz razılıq verdilər və Haskel Cənubi Qafqazın ABŞ-a verilməsini siyasi cəhətdən əsaslandıran geniş bir nitq söylədi. İqtisadi vəziyyətlə bağlı o qeyd etdi ki, Gənubi Qafqazda iqtisadiyyat fəlakətli həddədir. Çıxış yolunu Haskel ABŞ kimi güclü dövlətin himayədarlığında görürdü. Siyasi vəziyyətin ağırlaşdığından danışaraq, Haskel qeyd edirdi ki, Ermənistan Gürcüstan və Azərbaycan ittifaqına girmək istəmir və onlarla daimi müharibə vəziyyətindədir. Hər üç respublika arasında ərazi mübahisələri vardır. O dedi: «Nə qədər ki, Azərbaycan və Gürcüstan mənim səlahiyyətimdən kənardadır və nə qədər ki, hər üç respublika ümumi bir mandatda birləşməyib, mən Ali Şuranın Ermənistanla bağlı üzərimə qoyduğu vəzifəni yerinə yetirə bilməyəcəyəm».[3] Haskelin təklifindən sonra məlum oldu ki, amerikanların onu Qafqazdan təcili çağırmaqda və Ali Şuranın xəbəri olmadan Qafqaz məsələsini gündəliyə salmağa cəhd göstərməkdə xüsusi məqsədləri vardır. Yalnız Ermənistan haqqında məlumat vermək üçün söz almış Haskelin Azərbaycan və Gürcüstan haqqında da məlumat verməsi iclasın iştirakçıları arasında anlaşılmazlıq yaratdığından F.Polk iza-

[1] ARDA, f.970, s.1, i.146, v.13.
[2] З.Авалов. Незавнсимость Грузии в международной политике, с.228.
[3] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace konferance, vol. IX, p.107.



hat verdi ki, Haskel Ermənistanla bağlı Ali Şuranın tapşırıqlarını effektli icra etmək üçün Azərbaycan və Gürcüstanda bir sıra vəzifələri yerinə yetirməli olmuşdur. F.Polk xatırladır ki, polkovnik sabah yola düşür. Lakin iclasa sədrlik edən təcrübəli Klemanso başa düşdü ki, məsələnin müzakirəsinin uzadılması yalnız amerikalılar üçün sərfəlidir. Ona görə də o, məlumat üçün Haskelə təşəkkürünü bildirib, məsələnin müzakirəsinin dayandırılması barədə ingilislərin təklifi ilə məmnuniyyətlə razılaşdı.[1]

Amerikanların bu məsələni yenidən qaldıracaqlarını bilən ingilislər, növbəti iclasa ətraflı hazırlaşdılar. Noyabr ayının 15-də F.Polk Haskel məruzəsi ilə bağlı Ermənistan məsələsini qaldıraraq və Haskelin Ermənistana Ali Komissar təyin edilməyi ilə bağlı Ali Şuranın 5 iyul tarixli iclasının qətnaməsinə «kiçik» düzəliş edib bildirdi ki, «Ermənistan» sözündən sonra «Gürcüstan və Azərbaycan» sözləri əlavə edilsin.[2] Deməli, təklif edilən dəyişikliklərdən sonra 5 iyul qətnaməsinin giriş hissəsi belə oxunmalı idi: «ABŞ polkovniki V.H.Haskel Ali Şura tərəfindən, Birləşmiş Ştatlar, İngiltərə, Fransa və İtaliya hökumətləri adından Ermənistan, Gürcüstan və Azərbaycana Ali Komissar təyin edilir». İclas iştirakçılarının təəccübləndiyini hiss edən F.Polk əlavə etdi ki, «mən, sadəcə olaraq, Şuraya təklif verməyi arzulayıram, lakin onun qəbul edilməsinə təkid göstərmirəm».[3] ABŞ nümayəndələrinin bu təklifinin arxasında Azərbaycan neftinə maraq göstərən Amerika sənayeçilərinin mənafeyi dayanırdı. İngilis tarixçisi E.Monro yazır ki, mandatlar bölüşdürülən zaman Birləşmiş Ştatlar neft psixozu dumanında idi.[4]

ABŞ nümayəndəsinin bu təklifi İngiltərə nümayəndəsi E.Krou tərəfindən kəskin etirazla qarşılandı. O, bəyanat verərək bildirdi ki, F.Polk tərəfindən qaldırılan məsələlər öyrənilmək üçün Böyük Britaniya hökumətinə verilmişdir. Böyük Britaniya hökuməti Haskelin vəkalətinin «Yaxın Şərqə Amerika Yardımı Komitəsi»nin rəhbəri kimi Gürcüstana və Azərbaycana aid edilməsinə etiraz etmir. Lakin Krou qeyd edirdi ki, Amerika nümayəndəsi F.Polkun bugünki təklifi Haskelə iyul ayının 5-də verilmiş vəkalətdə bir araya sığmır. Krou açıq şəkildə bildirdi ki, Böyük Britaniya hökuməti onun razılığı olmadan Amerika Yardımı Komitəsinin Gənubi Qafqazda fəaliyyətinə dözsə də, lakin Amerika polkovniki Haskeli Cənubi

[1] Ibid, p.168.
[2] В.И.Адамия. Из истории Англиской интервенции в Грузии, с.129.
[3] Г.Гамбашидзе. Из истории политики США в отношении Грузии, с.129.
[4] E.Monroe. Britains Moment in the Middle East 1914-1956. L., 1963, p.102.

Qafqazda Ali Komissar kimi tanımağa hazırlaşmır.[1] Beləliklə, qərara alındı ki, Haskel missiyasına daxil olan ABŞ nümayəndələri Azərbaycan və Gürcüstanda yalnız «Yaxın Şərqə Amerika Yardımı Komitəsi»nin işi ilə bağlı fəaliyyət göstərə bilərlər, hər iki respublikada siyasi, iqtisadi və digər məsələlərə müdaxilə edə bilməzlər. İngilislərin bu təklifi fransızlar və italyanlar tərəfindən də müdafiə edilir. Beləliklə, amerikanların Haskelin vəkalətinin siyasi cəhətdən Azərbaycana aid edilməsi barədə qaldırdıqları təşəbbüs ingilislərin müqaviməti nəticəsində baş tutmadı. Bu məsələyə toxunan rus alimi B.Şteyn səhv olaraq, təsdiq edir ki, 1919-cu ilin noyabrın 15-dən etibarən, Amerika polkovniki Haskel müttəfiq dövlətlərin bütün Cənubi Qafqaza rəsmən baş komissarı təyin edildi.[2] Əslində isə yuxarıda qeyd edildiyi kimi, V.Haskelin iyul ayının 5-də təsdiq edilmiş səlahiyyəti saxlanıldı. Yalnız, «Yaxın Şərqə Amerika Yardımı Komitəsi»nin Qafqaz bölməsinin rəhbəri kimi, onun Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərməsinə icazə verildi. Noyabr ayının ortalarında Amerika yardım komitəsinin 40 nəfərdən ibarət tərkibi təsdiq edildi. Onun rəhbərliyinə polkovnik V.H.Haskel, polkovnik C.K.Ri, leytenant-polkovnik Sammer Ueyt, kapitan S.Saunders, kapitan Moris Hyuzik daxil idilər.[3]

Sonralar amerikanların Qafqaz mandatında təkid göstərməmələri Kiçik Asiya və Qafqaza göndərilmiş digər bir missiyanın – Harbord missiyasının prezidentə hazırladığı məlumatla bağlı idi. General Ceyms Harbord prezident Vilsona göndərdiyi məruzədə Qafqaza Amerika mandatının əleyhinə rəy söyləmişdi. 1919-cu ildə ABŞ-ın Qafqaza marağının artdığı, Amerika siyasi dairələrində Qafqaz mandatı məsələsi müzakirə edildiyi üçün prezident Vilson belə qərara gəldi ki, Ermənistan, Azərbaycan, Gürcüstan və Kiçik Asiyada siyasi, hərbi, coğrafi, iqtisadi, idarəçilik və digər məsələləri ətraflı öyrənmək üçün ora xüsusi Amerika missiyası göndərilsin.[4] 1919-cu ilin iyun ayının 12-də Azərbaycan, gürcü və dağlı nümayəndələrinin birgə keçirdiyi iclasın protokolu ilə tanışlıq belə bir fikrə gəlməyə əsas verir ki, hələ iyun ayının əvvəllərində amerikalılar Qafqazdakı vəziyyəti öyrənmək üçün oraya xüsusi missiya göndərmək fikrində olmuşlar. Həmin iclasda çıxış edən Dağlılar İttifaqının nümayəndəsi Bammatov bildirmişdir ki, Qafqaza xüsusi komissiya göndərmək barədə Sülh konfransından xahiş etməyi Parisdə olan

[1] Papers Relating to the Foreign Relations of the United States. The Paris Peace conferance, vol, IX, p.180.

[2] Б.Штейн. «Русский вопрос» на Парижской Мирной конференции, с.346.

[3] Şimali Amerika Ştatları idarəsi altında birləşdirilən Yaxın Şərqə Yardım Komitəsinin Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik missiyasının katibinə məlumatı. 12.11.1919.// ARDA, f.897, s.1, i.111, v.154-155.

[4] Yenə orada.



Amerika nümayəndələrindən biri ona məsləhət görmüşdür. Amerikalılar Qafqaza komissiya göndərilməsi üçün istəyirdilər ki, Qafqaz respublikalarının özləri Sülh konfransına müraciət edib bildirsinlər ki, Qafqazda vəziyyət çox təhlükəlidir, guya qan tökülməsinin qarşısını almaq və qarşılıqlı münasibətləri tənzim etmək üçün təcili komissiya göndərmək lazımdır. Əgər Qafqaz respublikaları Sülh konfransına belə bir ərizə ilə müraciət edərlərsə, Amerika nümayəndələri Ali Şuranın iclasında bu təklifi müdafiə edəcəklərini bildirmişlər. Lakin nə Azərbaycan, nə də Gürcüstan nümayəndələri bu məzmunda müraciət edilməsinə tərəfdar çıxmadılar. Əslində belə addım atmaq Qafqaz respublikalarının tanınmasını çətinləşdirərdi və bu respublikalar haqqında belə rəy yaradırdı ki, guya onların hökumətləri yerlərdə qan tökülməsinin qarşısını ala bilmir. Ə.M.Topçubaşov haqlı olaraq qeyd edirdi ki, bu məzmunda müraciət bizi fakt qarşısında qoya bilər. Müzakirələrdə iştirak edən M.H.Hacınski deyirdi: «Dövlətlər arasında Qafqaz ətrafında hansısa siyasi mübarizə gedir, dünən italyanlar bizə meyl edirdi, bu gün amerikanlar, sabah da bir başqası meyl edəcək. Dost məsləhətlərinə çox ciddi ehtiyatkarlıqla yanşmaq lazımdır, əks təqdirdə biz bu və ya digər qrupun əlində oyuncağa çevrilə bilərik. Mən belə başa düşürəm ki, amerikanlar elan etmək istəyirlər ki, Qafqazda qan axır və daha çox qan axacağı gözlənilir, ona görə də ora komissiya göndərmək lazımdır... Bu, o deməkdir ki, biz özümüz Qafqazda qan axıdılmadan yaşaya bilmərik, ingilis komandanlığı da bizi barışdırmağa qadir deyildir. Bu İngiltərəyə necə təsir göstərər? ... Əslində bu ingilis komandanlığı ilə bizim münasibətlərimizi gərginləşdirər».[1] İclasda çıxış edənlər yuxarıda qeyd edilən məzmunda konfransa müraciət edilməsinin əleyhinə oldular, lakin mülki şəxslərdən ibarət bir komissiyanın Sülh konfransı tərəfindən Qafqaza göndərilməsini mümkün hesab etdilər. Bu qərar amerikalıları təmin etmədiyi üçün onlar Sülh konfransının adından deyil, öz adlarından Qafqaza xüsusi missiya göndərdilər. Avqust ayının ortalarında Birləşmiş Ştatların Versalda olan nümayəndəliyinin başçısı F.Polk Qafqaz respublikalarının Parisdə olan nümayəndələrinə xüsusi məktubla müraciət edib, Harbord missiyası barədə onlara məlumat verdi.[2] Avqust ayının 13-də Azərbaycan nümayəndəliyinə göndərilən məktubda qeyd edilirdi ki, Briqada general Ceyms Q.Harbord 12 zabitin müşayəti ilə yaxın vaxtlarda Cənubi Qafqaza yola düşür. Azərbaycan nümayəndəliyindən xahiş edilirdi ki, bu barədə öz hökumətinə məlumat versinlər

[1] Paris Sülh konfrasındakı Azərbaycan, Gürcüstan və Dağlılar Respublikası nümayəndələrinin birgə iclasının protokolu. 12.06.1919. //ARDA, f.970, s.1, i.142, v.176-177.

[2] Bulletin d'Information de L'Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.7.

və yerlərdə general Harborda öz vəzifəsini yerinə yetirməkdə Azərbaycan hökuməti tərəfindən yardım göstərilsin. Məktubun axırında xatırladılırdı ki, bu missiyanın göndərilməsi Azərbaycan Respublikası və qalan Cənubi Qafqaz respublikalarının tanınması kimi qəbul edilməlidir.[1]

Bundan sonra Versaldakı Azərbaycan nümayəndələri Harbord missiyasının Azərbaycan üzrə müvəkkili polkovnik Rey ilə görüşüb, onu lazımi materiallarla təchiz etdilər. Ə.M.Topçubaşov bu barədə yazırdı: «Polkovnik Rey ilə... bir neçə dəfə görüşdüm... Azərbaycanda olan missiyanın başçısıdır. Mən onu lazimi materiallarla təmin etdim və ətraflı məlumatlandırdım. Aydın oldu ki, konfrans və xüsusilə də Şimali Amerika Birləşmiş Ştatları bizə və bütün Qafqaza olan münasibətlərini missiya öz işini qurtarandan sonra bildirəcək, bunun üçün missiya üç ay orda olacaq. O, mən və Hacınski bütün Amerika missiyalarının şefi polkovnik Loqenin yanında olduq. Loqe kömək edəcəyinə söz verərək dedi ki, missiyanın tərkibinə bizim bir nümayəndəmizin salınması barədə göstəriş verəcək. Siz bundan istifadə etməlisiniz».[2]

General Ceyms Harbord ABŞ siyasi dairələrində tanınmış şəxslərdən biri idi. O, general Perşinqin ordusunda qərargah rəisi olmuşdu. Birinci dünya müharibəsinin sonlarında Avropada Almaniyaya qarşı vuruşmuş, dünya müharibəsi qurtardıqdan sonra Avropada olan Amerika ordusunun vətənə qayıtması işinə rəhbərlik edirdi.[3] İndi isə üç aylığa Harbordu xüsusi missiyaya rəhbər təyin etdilər. Harbord missiyası avqust ayının axırlarında Fransanın Brest şəhərindən yola düşmüş və sentyabr ayının 2-də İstanbula gəlmişdi. Qısa müddət ərzində Harbord İngiltərə, Fransa, İtaliya komissarları, habelə Yaxın Şərqdə Amerika mənafeyini müdafiə edən İsveç səfiri ilə görüşmüş və İstanbul, Kilikiya, Ərzurum, Diyarbəkir, Xarput, Sivas, Ərzincan, Qars, İrəvan, Tiflis, Bakı və Batum marşrutu üzrə yolunu davam etdirmişdi. Missiya olduğu yerlərdə keçirdiyi görüşlər və müşahidə etdiyi hadisələr barədə İstanbulda olan Amerika missiyasına məlumatlar çatdırırdı.

Sentyabr ayınm ortalarında general Harbord Sivasda Mustafa Kamal paşa ilə görüşdü. 3-4 saatlıq danışıqlar zamanı Harbordu, əsasən, kamalçıların Qafqaz siyasəti maraqlandırırdı. Görüş zamanı Mustafa Kamal paşa bildirdi: «Mərkəzi İrəvan olan Erməni Cümhuriyyətinə qarşı bizim heç bir düşmənçiliyimiz yoxdur».[4] Lakin Ermənistan

[1] ABŞ-ın Paris Sülh konfransındakı nümayəndəliyinin başçısı F.Polkun Ə.M.Topçubaşova məktubu. 13.08.1919. //ARDA, f.970, s.1, i.142, v.46.
[2] А.М.Топчибашевю. Письма из Парижа, с.69.
[3] Азербайджан, 1918, 19 сентября.
[4] H.Baykara. Azerbaycan İstiklal Mücadilesi Tarihi, s.288.



hökuməti öz ərazisində müsəlmanlara qarşı vəhşiliklər törətməkdən əlavə, digər yerlərdə də erməniləri bu işə təhrik etdiyini və hətta Türkiyənin hüdudlarına müdaxilə etdiyi Mustafa Kamal paşa Harborda bildirdi. O, bu fikirdə idi ki, Ermənistandakı bədbəxt müsəlman əhalisinin xilas edilməsi xeyli dərəcədə Qafqazda Azərbaycan hökumətinin gücləndirilməsindən asılıdır.[1] Anadoluya Amerika mandatı məsələsinə gəldikdə isə Mustafa Kamal paşa bu ideyaya ehtiyatla yanaşır və Vilsonun «14 sülh prinsipinə» ciddi əməl edəcəyi təqdirdə, yalnız iqtisadi kömək göstərilməsini məqbul hesab edirdi.[2] Görüş zamanı general Harborda təqdim edilən raportda göstərilirdi ki, ermənilər Ərzurumda yalnız 1918-ci ilin mart ayının 11-12-də üç min dinc türk əhalisini qətlə yetirmişlər.[3] Ərzurum valisi Zakir Əfəndi ermənilərin müsəlmanları kütləvi şəkildə qırdığı yerləri və toplu məzarlıqları general Harborda göstərmişdi.[4]

Harbordun avtomobil karvanı Sivasdan Ərzincana və Ərzuruma yola düşüb, köhnə rus-türk sərhədləri boyunca hərəkət edərək, Qarsa gəldi. İstanbula göndərdiyi məlumatda Harbord köhnə rus-türk sərhədi ilə gedəndə türklər tərəfindən böyük xeyirxahlıq göstərdiyini və bu yerlərdə az miqdarda erməni əhalisi olduğunu yazırdı. O qeyd edirdi ki, sərhəd boyunca tez-tez ermənilərin qovduğu müsəlman köç karvanları ilə qarşılaşır. Minlərlə müsəlman ailəsi olan bu qaçqınlar Harbordu inandırmağa çalışırdılar ki, «keçmişdə də, indi də onlar ermənilər tərəfindən öldürülmüşlər». Türkiyənin erməni talanlarına məruz qalmış Şərq vilayətində gördüyü dəhşətli vəziyyət haqqında Harbord sentyabr ayının 28-də Qarsdan müttəfiqlərin İstanbulda olan nümayəndələrinə yazırdı ki, Türkiyədən gedəndə müşahidə etdiyimiz ən dəhşətli hadisə ərazilərin əhalidən təmizlənməsi və bu yerlərin boş qalmasıdır. Missiyanın keçdiyi şəhər və kəndlərin böyük hissəsində əhali yox idi və yaşayış məntəqələri dağılmışdı. General Harbordun fikrincə, Aralıq və Qara dəniz sahillərində yerləşən məlum şəhərləri çıxmaq şərti ilə Türkiyənin bu yerlərində sanki həyat yox idi. O yazırdı: «Sanki bütün Osmanlı imperiyası taqətdən düşmüşdür».[5] Lakin nə general Harbord,

[1] H.Baykara. Azerbaycan İstiklal Mücadilesi Tarihi, s.290.
[2] Justin McCatrhy. The Report of Niles and Sutherland an American Investigation of Eastern Anatolia after world war I. XI. Türk Tarih konqresi, cilt V, Ankara, 1994, p.1820.
[3] Enver Konukçu. Ermenilerin Yeşilyayladakı Türk Soykırımı (11-12 Mart 1918). Ankara, 1990, s.36.
[4] Enver Konukçu. Erzurum tarihi. //Erzurum. Ankara, 1986, s.14.
[5] General C.Harbordun müttəfiqlərin İstanbuldakı Ali Komissarına məktubunun surəti. 28.09.1919. //ARPİİSPİHDA, f.276, s.9, i.26, v.27.

nə də missiyanın digər üzvləri Şərqi Anadoluda öz gözləri ilə gördükləri fəlakətləri səfərin yekunları ilə bağlı hazırlıqları hesabatlarına daxil etmədilər. ABŞ-ın Luisvil universitetinin professoru Castin Makkarti haqlı olaraq yazır ki, missiya həqiqəti aşkarlamaqda maraqlı deyildi. O yazır: «Missiya üzvlərinin sonrakı şərhləri göstərir ki, türklərə verilən suallar 1914-cü ildən bəri Şərqi Anadoluda baş verənləri aydınlaşdırmağa yönəlmişdi. Əksinə, bu məqsədlə suallar verilirdi ki, Şərqi Anadoluda müstəqil Ermənistan dövlətinin yaradılmasına mane olan amilləri müəyyənləşdirsinlər». Missiyanın yekun qərarına münasibətdə J.Makkarti yazırdı ki, amerikanlar öz qərarlarını çoxdan vermişdilər, «ekspertlərin rəyi» əvvəlcədən bəlli idi, türklər birmənalı olaraq, günahkar tərəf kimi tananmalı idi. Harbordun son hesabatı ermənilərin ona verdiyi materiallar əsasında hələ missiya yola düşməzdən əvvəl hazır idi. Hesabatın böyük bir hissəsi missiyanın öyrənilmədiyi məsələlərə həsr edilmişdi. Əgər hesabatda təsadüfən ölmüş türkdən söhbət gedirdisə, bu yalnız ordu həyatından alınmış faktlara aid idi. Lakin bütün hallarda ermənilərin ölümü «soyqırım siyasətinin nəticəsi» kimi qiymətləndirildi».[1] Bu niyyət sensasiya özünü kapitan Emori Naylz və Artur Saterlandın məlumatlarmın məqsədli şəkildə «itirilməsində» və həmin məlumatların Harbordun hesabatına daxil edilməsində daha qabarıq şəkildə göstərirdi. Bu iki Amerika zabitləri ermənilərin əməllərindən daha çox ziyan çəkmiş Van və Bitlis vilayətlərinin bütün kəndlərini üç ay ərzində at belində dolanmışdılar. Onların topladığı materiallar qətiyyən Harbordun konsepsiyasına uyğun gəlmirdi. Çox illər sonra «itirilmiş» bu materialları aşkarlayan J.Makkarti yazırdı: «Naylzn nəticələrinin çoxu Horbordun nəticələri ilə ziddiyyət təşkil edirdi. Kapitan Naylzn məlumatları amerikan informatorlarının məlumatları içərisindən ən neytralı idi. Birinci dünya müharibəsindən sonra Şərqi Anadolunun bütün tədqiqatçıları içərisindən yalnız Naylza və onun ortağı Artur Saterlanda həqiqətə yaxınlaşmaq nəsib olmuşdu. Onlar əhali içərisində sorğular keçirir, müşahidələr aparır, həqiqət axtarışı ilə kəndbəkənd dolanırdılar. Tənha olaraq, bu zabitlər yerli adamlardan soruşurdular ki, müharibə dövründə onlarla bağlı nə baş verib. Məlumatların bir hissəsi məsələn, «canlı tarix» olan Qafqaz qaçqınlarından alınmışdı və bu məlumatlar erməni-türk müharibələri ilə bağlı ermənilərin iddialarını şübhə altına almaq üçün yetərli idi. Naylz və Saterlandın topladığı faktlar onunla fərqlənirdi ki, Şərqə ölmüş erməniləri

[1] Justin McCatrhy. The Report of Niles and Sutherland an American Investigation of Eastern Anatolia after world war I, p.1819-1820.



axtarmağa gələnlər, hər yerdə yalnız ölmüş müsəlmanları tapmışdılar.»[1] Emori Naylz və Artur Saterlandın sonradan aşkarlanan «itirilmiş» hesabatları 1913-1916-cı illərdə İstanbulda ABŞ-ın səfiri olmuş Henri Morqentaunun uydurma «erməni soyqırı» haqqında amerikalıları heyrətə salan 1918-ci ildə Nyu Yorkda nəşr edilmiş xatirələrinin yalnız ermənilərin verdiyi məlumatlar əsasında yazıldığından nə qədər subyektiv xarakter daşıdığını ortaya qoydu.[2] İrəvan və Tiflisdən sonra Harbord başda olmaqla, Amerika missiyası oktyabr ayının 5-də üç general və 15 mütəxəssisin iştirakı ilə Bakıya gəldi. Ermənistan və Gürcüstanda olduğu kimi, Azərbaycanda da Amerika missiyası onları maraqlandıran siyasi, dövlət quruluşu, maliyyə, ticarət, sənaye, səhiyyə, əhali, təbii sərvətlər, coğrafiya, poçt-teleqraf, hərbi və mandatlığa münasibət məsələlərini öyrənməli idilər. H.Z.Tağıyevin evinə düşmüş general Harbord baş nazir N.Usubbəyov, xarici işlər naziri M.Y.Cəfərov, yollar naziri X.Məlik-Aslanov və digər rəsmi şəxslərlə danışıqlar aparmışdı.[3] Harbord, onu maraqlandıran Azərbaycan parlamenti və hökuməti, xalq maarifinin vəziyyətini, məhkəmə orqanlarmın quruluşu və fəaliyyəti, əyalətlərin idarəçiliyi, formaları, seçki sistemi haqqında ətraflı məlumat almışdı.[4] Harbord missiyasına daxil olan polkovnik Hill və digərləri Bibi-Heybətdə, Qara şəhərdə və digər sənaye rayonlarında olmuşdular. Rəsmi hökumət orqanı olan «Azərbaycan» qəzeti Amerika missiyası ilə danışıqlar barədə məlumatında qeyd edirdi ki, demokratik respublikanın siyasi və iqtisadi vəziyyətindən razı qalan Harbord tezliklə Azərbaycan istiqlaliyyətinin Sülh konfransı tərəfindən tanınacağını söyləmişdi.[5] Danışıqlar zamanı C.Harbord Ermənistanla Azərbaycan arasında olan ixtilafların tezliklə aradan qaldırılmasının zəruriliyini bildirmiş, Azərbaycanda mövcud olan qayda-qanundan, xüsusilə Azərbaycan əsgərinin intizamından məmunluğunu ifadə etmiş və bütün bunları Azərbaycanın müstəqil həyata hazır olmasının təzahürü kimi qiymətləndirmişdi. General ümid etdiyini bildirmişdi ki, Sülh konfransı Azərbaycan xalqının bütün arzu və istəklərini nəzərə alacaqdır.[6] Har-

[1] Justin McCatrhy. The Report of Niles and Sutherland an American Investigation of Eastern Anatolia after world war I, p.1821-1822.

[2] Henry Morgenthau. Ambassador Morgenthaus Story. New York, 1918. Bu əsər haqqmda əlavə məlumat üçün bax: Heath W.Lowry. The Story behinde Ambassador Morgenthaus Story. Istambul, 1990.

[3] L Azerbaidjan et la mission americane. //Bulletin d Information de L Azerbaidjan. Paris, 1920, 1 Janvier, №6, p.2-3.

[4] Азербайджанская Демократическая Республика. Внешняя политика, с.366-367.

[5] Азербайджан. 1919, 7 октября.

[6] Azərbaycan arxivi, 1988, №1-2, c.147-148.

bordun Bakıya qısa müddətli səfərindən şəhərin erməni əhalisi və onların milli təşkilatları da öz mənafelərinə uyğun bacarıqla istifadə etdilər. General Harbordun Tiflisə və Bakıya gedəcəyini nəzərə alaraq, hər iki şəhərdə olan erməni milli təşkilatlarına və erməni kilsələrinə Ermənistan hökuməti tərəfindən tapşırıq verilmişdi ki, ümumerməni tələbləri ilə bağlı general Harborda sənədlər təqdim etsinlər. Hələ İstanbulda Harbordla görüşən erməni nümayəndələri sentyabr ayının 18-də Ermənistan Xarici İşlər Nazirliyi vasitəsi ilə Bakıdakı diplomatik nümayəndə T.A.Bekzadyana çatdırmışdılar ki, general Harbord müstəqil və azad Ermənistan yaranacağı təqdirdə, digər yerlərdə yaşayan erməni sənayeçiləri, tacirləri, mühəndis-texniklərinin öz kapitanları ilə birlikdə Ermənistana gedib-getməyəcəkləri ilə maraqlanır. T.A.Bekzadyana məsləhət görülürdü ki, Harbordu inandırsalar ki, «Müstəqil və böyük Ermənistan» yaranarsa, bütün erməni sənayeçiləri, tacirləri, bütün sahədə çalışan mütəxəssislər Ermənistana toplanacaqlar.[1] Bakıda yaşayan ermənilər bu tövsiyyələrə uyğun hərəkət etdilər və Bakı erməni əhalisi adından general Harborda müraciət təqdim etdilər. Müraciətdə deyilirdi: «Amerika xalqının və dövlət xadimlərinin insanpərvər siyasəti nəticəsində Ermənistan dövləti siyasi baxımdan tanınarsa biz, Bakı erməni cəmiyyəti adından təntənəli şəkildə vəd edirik ki, öz tarixi vətənimiz olan Ermənistanın tərəqqisi naminə hər şeyi edəcəyik»[2]. Müraciət elə tərtib edilmişdi ki, guya Azərbaycanda hər şey ermənilərə məxsus olmuşdur və ən maraqlısı odur ki, müraciətdə bir dəfə də «Azərbaycan» adı çəkilmirdi. Bakı erməniləri Orta Asiya, Qroznı, Vladiqafqaz və digər yerlərdə yaşayan ermənilərin də öz sərvətləri ilə Ermənistana yardım göstərəcəyini Harborda bildirdilər. Müraciətin axırında deyilirdi: «Siz öz hökumətinizə çatdırın ki, Bakı erməniləri digər xarici dövlətlərdə yaşayan ermənilər kimi, vətənlə əlaqəni üzməmişlər, onun dərdləri və sevincləri ilə yaşayır, bütün öz gücünü vətənin çiçəklənməsi naminə sərf etməyə hazırdırlar».[3] Bundan əlavə, 1918-1919-cu illərdə cərəyan edən hadisələrin saxtalaşdırılmış təsviri də Bakı erməniləri tərəfindən Amerika missiyasına təqdim edildi. Burada ermənilərin Antantanın «müqəddəs işi» uğrunda vuruşduqlarını şərh etməklə yanaşı, guya Osmanlı ordusunun Cənubi Qafqazdan çıxarkən, türk əsgər və zabitlərinin yerli adamlar kimi müsəlmanlar yaşayan ərazilərdə qaldığı, onların Türkiyə

[1] Ermənistan Xarici İşlər Nazirliyinin Bakıdakı diplomatik nümayəndə T.Bekzadyana məktubu. 18.09.1919. //ARPİİ SPİHDA, f.276, s.9, i.26, v.26.
[2] Bakının erməni əhalisinin nümayəndələrinin general Ceyms Harborda məktubu. Oktyabr, 1919,//ARPİİ SPİHDA, f.276, s.9, i.26, v.29.
[3] Bakının erməni əhalisinin nümayəndələrinin general Ceyms Harborda məktubu. Oktyabr, 1919,//ARPİİ SPİHDA, f.276, s.9, i.26, v.38.



və Azərbaycan hökumətindən yardım alaraq, Ermənistan hökumətinə qarşı mübarizə apardığı göstərilirdi. Qarabağla bağlı ermənilər daha cəfəng bir fikirlə amerikalıları qorxudaraq yazırdılar ki, guya Azərbaycan Respublikası Araz, Cənub-Qərbi Qafqaz respublikalarını özünə birləşdirmək yolunda maneə olan Qarabağ və Zəngəzur rayonlarını tutmaqla Türkiyə ilə ittifaqda Aralıq dənizindən – Hind okeanına qədər yalnız müsəlmanlardan ibarət dövlət yaratmaq istəyir. Ermənilərin fikrincə, guya bu, ona görə baş vermişdir ki, müttəfiqlərə inanaraq, Ermənistan hökuməti mübahisəli məsələlərlə bağlı Paris Sülh konfransının qərarını gözlədiyi halda «Azərbaycan hökuməti Sülh konfransının göstərişlərinə məhəl qoymayıb, Türkiyə ilə birlikdə Ermənistan ərazisində müsəlmanların üsyanını qaldırmış» və tarixi erməni «ərazilərini» tutmuşlar. Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olması haqqında qərar qəbul etmələrini[1] isə Bakı erməniləri onların Ermənistan Respublikası ilə əlaqələrinin kəsilməsi, hərbi sursatdan məhrum olması ilə izah edirdilər.[2] Bakıdakı erməni icması Qarabağa, Zəngəzura, Naxçıvana və Şərura, Qarsa guya, Ermənistanın tarixi və etnik hüququ olduğu barədə Harborda çoxlu sənədlər təqdim etmişdilər.[3]

Oktyabr ayının 8-də Ceyms Harbordun missiyası Batumdan Fransaya yola düşəcəkdi. Ona görə o, Bakıdan birbaşa Batuma yola düşdü. Azərbaycan xarici işlər naziri M.Y.Cəfərov Batuma qədər Harbordu müşayiət edərək, respublika xarici və daxili siyasətinin bir sıra zəruri məsələlərini ona aydınlaşdırdı. Azərbaycan xarici işlər nazirinin gəlişi şərəfinə amerikalılar Batumda olan «Corc Vaşinqton» gəmisində ziyafət verdilər. Oktyabrın 8-də isə Azərbaycan konsulluğunda gürcülərlə birlikdə Ceyms Harbordun şərəfinə ziyafət məclisi təşkil edildi. Azərbaycan və Gürcüstan nümayəndələri ilə Batum danışıqlarında amerikalılar bacarıqlı və işgüzar adamlardan təşkil olunmuş Azərbaycan hökumətinin bir sıra maneçiliklərə baxmayaraq, çox iş görə bildiklərini xüsusi qeyd etdilər.[4] General Harbord xüsusi olaraq göstərdi ki, Azərbaycanın sülhsevər xarici siyasəti onda xoş təəssürat yaratmışdır.[5] Batumdan yola düşməzdən əvvəl general Harbord Azərbaycan hökumətinin başçısı N.Usubbəyova Azərbaycan Respublikasına səfəri zamanı

[1] Bax: Bulletin d Information de L Azerbaidjan. Paris, 1919, 13 Octobre, №3, p.8.
[2] 1918-1919-cu illərdə baş vermiş hadisələr barədə Bakıakı erməni təşkilatlarının general C.Harborda təqdim etdikləri arayış. Oktyabr, 1919. //ARPİİ SPİHDA, f.276, s.9, i.26, v.41.
[3] Yenə orada, v.42-48.
[4] L Azerbaidjan et la mission americane. //Bulletin d Information de L Azerbaidjan. Paris, 1920, 1 Janvier, №6, p.2-3.
[5] ARDA, f.2905, s.1, i.20, v.4.

## NAXÇIVAN. ARAZ RESPUBLİKASI

1918-ci ilin payızında türk qoşunları Zaqafqaziyanı tərk etdikdən sonra erməni ekstrimistlərinin Naxçıvan üzərinə hücumları gücləndi.

Keçmiş çar inzibati-ərazi bölgüsünə əsasən, İrəvan quberniyasına düşmüş Naxçıvan Azərbaycan Demoktratik Respublikası elan edildikdən dərhal sonra bu respublikanın tərkibinə daxil olduğunu bildirdi.

Azərbaycan Respublikası ilə birləşməyin hələlik mümkün olmadığını nəzərə alan və hər tərəfdən erməni qüvvələri ilə əhatə olunmuş Naxçıvan, Şərur-Dərələyəz qəzaları və İrəvan qəzasının azərbaycanlılar yaşayan hissəsi birləşərək, 1918-ci ilin noyabrında müstəqil Araz Respublikasının yarandığını elan etdi. Respublikanın mərkəzi Kəmərli, sonralarsa Naxçıvan şəhəri oldu.

Araz Respublikası hökuməti Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha elan edərək, Azərbaycan hökumətindən yardım istədi. Lakin bu zaman işğal rejimi şəraitində yaşayan Azərbaycan öz dövlətçiliyini çətinliklə qoruyub saxlayır, ordu isə tamam pozulmuşdu.

Araz Respublikası hökuməti İrandan yardım istəməyə məcbur oldu. Təbrizə vəliəhdin ünvanına yardım haqqında göndərilən teleqramda qeyd edilirdi ki, belə bir yardımın müqabilində İrəvan, Şərur-Dərələyəz və Naxçıvan mahallarının müsəlman əhalisi hətta İran təbəəliyini qəbul etməyə hazırdı. İran hökuməti İrəvan quberniyasına iki iranlı və iki ermənidən ibarət müşahidəçi rqupu göndərməklə kifayətləndi.

Heç yerdən yardım ala bilməyən naxçıvanlılar könüllü müqavimət dəstələrinin sayını artırdılar. Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etdilər.

1918-ci ilin dekabrında Araz respublikası yeni yaradılmış Cənub-Qərbi Qafqaz Demokratik Respublikasınm tərkibinə daxil oldu. Bu respublikaya Qars, Batum, Axalsıx, Axalkalaki və Sürməli mahalları daxil idi. Buranın yerli əhalisi əsasən azərbaycanlılardan, qismən türklərdən ibarət idi. Yeni respublikanın parlamenti seçildi, nazirlər kabineti təşkil edildi. O, Azərbaycan Demokratik Respublikası ilə sıx əlaqə saxlayırdı. Azərbaycan hökuməti Qara dənizə çıxmaq üçün, hətta, bu respublikanın ərazisindən keçərək Batuma qədər uzanan dəmir yol xətti də çəkdirmək niyyətində idi.

Yeni müsəlınan respublikasının meydana gəlməsi Ermənistan və Gürcüstan hökumətlərinin ciddi narazılığına səbəb oldu. Azərbaycanın qüvvətlənməsi ingilisləri də narahat edirdi. 1919-cu ilin aprelində ingilis komandanlığı Cənub-Qərbi Qafqaz Demokratik Respublikasını ləğv



etdi. Qanuni yolla seçilmiş parlament buraxıldı, hökumət üzvləri isə həbs edilərək Malta adasına sürgün olundu. Respublika ərazisinin çox hissəsi Ermənistan və Gürcüstan arasında bölündü.

İngilislər Zaqafqaziyanı tərk edəndən sonra, ABŞ bu yerlərdə möhkəmlənməyə çalışırdı. Zaqafqaziya, İran və Türkiyənin ayrıcında yerləşən Naxçıvan ölkəsi strateji cəhətdən ABŞ-ın diqqətini xüsusi cəlb edirdi.

Azərbaycan hökuməti Naxçıvan əhalisinin Azərbaycanla birləşmək arzusunu nəzərə alaraq, Naxçıvana müvəqqəti general-qubernator təyin etdi.

Buna cavab olaraq, Antantanın Ermənistanda ali komissarı Azərbaycanla Ermənistan arasında mübahisəli Naxçıvan və Şərur-Dərələyəz qəzalarını müstəqil bitərəf zona elan etdi. 1919-cu ilin oktyabrında bir Amerika polkovnikinin başçılığı ilə həmin ərazidə Naxçıvan general-qubernatorluğu yaradıldı.

Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək qəti surətdə bildirdi ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və bu ölkə milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır. Az sonra Azərbaycan hökumətinin təyin etdiyi general-qubernatorla müttəfiq qoşunlar komandanlığının nümayəndələri arasında belə bir razılıq əldə edildi ki, Amerika polkovniki Naxçıvanda general-qubernator kimi deyil, yalnız, Paris sülh konfransının, yaxud ABŞ-ın nümayəndəsi kimi qalır.

Beləliklə, Naxçıvan torpağını zorla Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

*T.Əzizov. Azərbaycan XX əsrin əvvəllərində. Bakı, «Zaman», 1997, s.194-195.*

## МЕРЫ ПО УСТАИОВЛЕИИЮ ВЛАСТИ В ИЕКОТОРЫХ ОБЛАСТЯХ РЕСПУБЛИКИ

Установлеине власти АДР и восстановление государствеиного суверенитета в иекоторых областях республики было осуществлено с рядом трудностей.

Следует отметить, что в «Меморандуме делегации Азербайджанской Республики иа Парижской мириой конференцнн» бывшее админнстративно-территорнальное деление Кавказского Азербайджаиа излагалось в следующем порядке:

1. Бакинская губерния. Сюда входили город Баку и Джавадский, Геокчайский, Шемахинский, Кубинский, Ленкораньскин уезды.
2. Елизаветпольская (Гяиджннская) губерния. Включала Джеваиширский, Нухннский, Арешский, Шушииский, Джебраильский, Заигезурский и Казахский уезды.
3. Иреванская губерния. Сюда входили Нахичеванский, Шаруро-Даралагезский, Сурмалиискнй уезды и части Ново-Баязидского, Ечмнадзинского и Александропольского уездов.
4. Основные части Борчалинского, Тифлисского и Сыгнагского уездов Тифлисской губерии также явились территорией Азербайджаиа.
5. Закатальскнй уезд.
6. Часть территории, охватывающей ветви рек Кура и Самур, Дагестанского региона, а также часть Гайтаг-Табасаранского уезда, включая Дербеит и его окраины[1].

Имеино на указанных в докумеите исконих азербайджанских территориях устаиовлению нацнональиой государственной власти было придано очень большое значение и в этой области осуществлены важиые мероириятия.

В уездах Гяиджинской губернин (Карабахский регион) армянское население, составляющее там по численности меньшинство, враждебно относилось к власти и выдвигало под давлением Армеини необосиоваиные территориальиые притязания. Аиархия на почве межнациональиых разиогласий перешла все границы и восстановление стабильного порядка посредством обычных средств и методов было очеиь трудным. 13 ииваря 1919 года по постаиовлеиию Совета Министров на указаиной территории создается отдельное, времениое Карабахское генерал-губернаторство, состоящее из Шушинкого, Джаваншнрского, Джебраильского и Зангезурского уездов[1]; постановлением от 29 яиваря Х.Султаиов назначается генерал-губернатором. Целью создания генерал-губернаторства в этом региоие было предотвращеине сепаратистского движения проживающих в Карабахе армян, и, в пределах возможиости установление в власти республикн в этом региоие решительными мирнымн мероприятиями[2]. В скором времеии, в результате принятых мер, положение в этом регионе иормализовалось, и 22 июля 1919 года была достигнута договоренность с представителями армянского населения. Таким образом, над этой территорией был установлен суверенитет АДР. Спустя три дня был также ликвидироваи буит, оргаиизованиый против национальиого государствениого строя в Ленкораии и Мугани. В информации А.М.Топчубашева, осиованной на телеграмме миинстра иностраииых дел в связи с этими событиями, говорилось: «Город Ленкораиь и Ленкораньский уезд очищены от большевиков, на указанной территории восстаиовлена власть Азербайджаиского Правительства и представители армянского иаселеиия Карабаха приняли решеиие о подчинеиии этого населения Азербайджаискому Правительству»[3].

В Казахском уезде Гянджинской губериии нациоиальные столкновения также принялн большой размах. Здесь для воссоздания порядка, с 17 февраля 1919 года была учреждена должность особого уполиомочениого Министерства Внутреиних Дел с правами генерал-губериатора[4].

Правительством АДР для устаиовления власти республикн также в части Эриваиской губернии, входившей в пределы Азербайджаиа (Нахичеванский, Шаруро-Даралагезский, Сурмалинский уезды, часть Баязидского, Ечмиадзинского, Эриваиского и Александропольского уездов) были прнняты соответствующие меры. Еще постановлеиием от 14 августа 1918 года министру внутреиних дел поручалось в кратчайшие сроки оргаиизовать административную власть в части Эриванской губернии, входившей в пределы Азербайджаиа[5].

Армянское дашиацкое правительство после ухода турецких войск из Азербайджаиа хотело очистить Нахичеваиский, Шаруро-

[1] Меморандум делегации Кавказекой Азербайджанской республики на Парижской мириой коиференции// Азербайджанская Демократическая Республика (Сборник статей). – Баку, 1992. – с. 176-177 (на азерб языке).

[1] Газ. «Азербайджан». – 1919, 19 января.
[2] ГААР, ф. 970, ои. 1, д. 247, л. 10.
[3] ГААР, ф. 970, оп. 1, д. 142, л. 77.
[4] Там же, ф. 894, оп. 1, д. 22, л. 46.
[5] Газ. «Азербайджан». – 1918, 7 октября.

Даралагезский, Сурмалинскнй, Эриванский, Ечмиадзиискнй уезды и Карсскую область от мусульманского населеиия и установить иа этой территории власть Армяиского правительства. Местное мусульманское население сопротивлялось претвореиию в жизиь этого плана. В конце иоября 1918 года создается Аразская Республика (в правительственных документах того времеии также именуется как Аразско-Турецкая Республика), центром которой был Нахичевань. В её территорию входили Нахичеванский и Шаруро-Даралагезский уезды, Сардарабад, Улуханлы, Ведибасар, Кемерли, Мегри и другие регионы[1]. Формируются органы власти республики (правительство, парламеит). Одиако Парламент ие смог расширить свою деятельиость в силу тяжелого политического положения и других причии[2]. Республика, с одной стороиы, пытается отразить претеизии армяи, с другой стороиы, подготовить воссоедииенпе с Азербайджаном, к чему стремилось все иаселение республики, как с религиозиой, так и с языковой стороиы[3]. К сожалеиию, в сложившейся ситуации АДР ие смогла оказывать необходимую помощь этой республнке, что стало, как отмечает И.Мусаев, еще одной причииой, повлиявшей на судьбу Аразской Республики[4].

1 декабря 1918 года провозглашается образование Юго-Западной Кавказской Республики (по названию своего политнческого и административного центра также изывалась Карсской Республикой). В Акте «Об образовании Юго-Западной Кавказской Республики» территория Аразской Республики была иазвана в составе первой[5]. А.Гаджиев в этой связи справедлнво отмечает, что вхождение в состав Юго-Западиой Кавказской Республики носило формальный характер, потому что это было отражеио только в акте о провозглашении Карсской Республики, а фактически Аразско-Турецкая Республика была самостоятельио существующей республикой. Кроме этого, оиа существовала и до создаиия Карсской Республики, а также параллельно с ией, и после окоичаиия ее деятельиости[6].

В декабре 1918 года вооружениые формироваиия Армении совершают агресспю против Аразской Республики. В начале января

[1] ГААР, ф. 970, оп. 1, д. 215, л. 9-9.
[2] Мадатов Г. Победа Советской власти в Нахичевани и образоваиие Нахичеванской АССР. – Баку, 1968, с. 55.
[3] ГААР, ф. 970, оп. 1, д. 215, л. 9-9 обр.
[4] Мусаев И. Политическое положеиие в Нахичеванском и Заигезурском регионах Азербайджана и иолитика иностранных государств (1917-1921 гг.) – Баку, 1996, с. 73.
[5] ГААР, ф. 970, оп. 1, д. 27, л. 15.
[6] Гаджиев А. Из истории Карсской и Аразско-Турецкой республик. – Баку, 1994, с. 50-51.



1919 года захватывают Шарурский и Сурмалиский уезды и часть Эриванского и Ечмиадзинского уездов, заселенную мусульманами, и двнгаются в сторону Нахичевани[1]. Прошеине иаселеиия Эриванской губерии, подписаином члеиамн парламеита Аразской Республики от 7 января 1919 года обсуждается на заседании Азербайджаиского Парламеита и Правительству иредлагается «принять все меры, имеющнеся в распоряжении, чтобы предотвратить эти бедствия»[2].

Изгиаиие из Иахичеваии армянских вооружеииых формироваиий, в результате предпринятых мер, укрепило связи этого региона с АДР. Воспользовавшись этим, Правительство АДР иазиачило сюда геиерал-губериатору. Азербайджанское Правительство, учитывающее желаиия и стремлеиия местного иаселения региоиа о присоединении к АДР и попытки америкаицев создать здесь свое геиерал-губернаторство, разработало проект статуса региона. Согласио проекту, Азербайджаиское Правительство соглашалось с времеиным создаиием здесь особого генерал-губернаторства и назначением геиерал-губериатора из числа америкаиских граждан. Вместе с тем, выдвигалось требоваиие управления уездами со стороны местиых национальиых советов, избираемых путем общего, прямого, равиоправного и тайиого голосоваиия. Вся власть на местах (адмниистративиая и судебная), железная и шоссейиая дороги, почта-телеграф, народиое просвещение и т. д. входили в исключительную компетенцию совета. Административное управление должно было оргаизовываться из представителей иаций, составляющих большинство. Во всем геиерал-губериаторстве должны быть объявлены свобода печати, совести, слова, неприкосновеииость личности и имущества, бюджет геиерал-губернаторства должен быть рассмотреи в Азербайджаиском Парламенте, иедостающая сумма должиа финаисироваться из Азербайджаиской казны. Азербайджанская валюта должиа быть принята в качестве денежной едииицы. Из иейтральиой зоны специальная полоса прохождеиия железиой дороги Баку-Джульфа должиа быть отделеиа и передаиа Азербайджаискому Правительству. Население геиерал-губериаторства должно быть разоружеио. На всей территорни геиерал-губернаторства должиа быть объявлена амиистия. До проведения выборов геиерал-губериатор должен пригласить из Азербайджаиа двух советников и с их помощью создать порядок[3].

Как видно, проект Азербайджаиского Правительства вместе с

[1] ГААР, ф. 970, оп. 1, д. 27, л. 15.
[2] Там же, л. 23.
[3] ГААР, ф. 970, оп. 1, д. 92, л. 4-4 обр.

защитой Нахичеваии от ожидаемой армянской агрессии, также преследовал цель иодготовки почвы для присоединения этой территории к Азербайджанской Демократической Республике. Но американцев, желающих помочь армяиам, не устраивал проект Азербайджанского Правительства и по этой причиие он не был принят. После близкого ознакомления американской стороны с состояиием дел в регионе их отиошеиие к вопросу стало меняться к лучшему. Было выдвинуто предложеиие о создании иейтральиой зоны. В ответе на предложеиие, отражаюіцем волю местиого населения, отмечалось, что Нахичеванский, Шарурский, Даралагезский районы, Ведибасар и Милистан, население которых состоит из азербайджанских тюрок, являются неотделимой частью Азербайджана. Азербайджаицы этих регионов, руководствуясь законами АДР, сами управляют собой[1]. Несмотря на полный уход американцев в январе 1920 года из территорий Нахичевани и Шарура, армяне не прекратили атак против исконно Азербайджанских земель.

*М.А.Дамиров. Организация государственной власти в Азербайджане (1918-1920), Одесса, Астропринт, 1998, с. 109-114.*

[1] ЦГА ППОД, ф. 277, оп. 2, д. 57, л. 73 об.



***Tərcüməsi:***

## RESPUBLİKANIN BƏZİ VİLAYƏTLƏRİNDƏ HAKİMİYYƏTİN BƏRQƏRAR EDİLMƏSİ ÜZRƏ TƏDBİRLƏR

Azərbaycan Demokratik Respublikasında hakimiyyətin bərqərar edilməsi və respublikanın bəzi vilayətlərində dövlət suverenliyinin bərpa edilməsi bir sıra çətinliklərlə müşaiyət olunurdu.

Qeyd etmək lazımdır ki, «Paris sülh konfransındakı Azərbaycan Respublikası nümayəndə heyətinin memorandumu»na əsasən Qafqaz Azərbaycanının keçmiş inzibati–ərazi bölgüsü aşağıdakı qaydada müəyyənləşdirilirdi:

1. Bakı quberniyası. Buraya Bakı şəhəri və Cavad, Göyçay, Şamaxı, Quba, Lənkəran qəzaları daxil olurdu.
2. Yelizavetpol (Gəncə) quberniyası. O, Cavanşir, Nuxa, Ərəş, Şuşa, Cəbrayıl, Zəngəzur və Qazax qəzalarını əhatə edirdi.
3. İrəvan quberniyası. Buraya Naxçıvan, Şərur– Dərələyəz, Sürməli qəzaları, eləcə də Yeni Bəyazid, Eçmiədzin və Aleksandropol qəzalarının bəzi hissələri daxil idi.
4. Tiflis quberniyasının Borçalı, Tiflis və Sığnaq qəzalarının əsas hissələri də Azərbaycan ərazisi hesab edilirdi.
5. Zaqatala qəzası.
6. Kür və Samur çaylarının qollarını əhatə edən ərazinin, Dağıstan regionunun bəzi hissələri, habelə Dərbənd və onun ətrafı daxil olmaqla Qaytaq-Tabasaran qəzasının bir hissəsi.[1]

Məhz sənəddə göstərilən tarixi Azərbaycan torpaqlarında milli düvlət hakimiyyətinin bərqərar edilməsinə xüsusi əhəmiyyət verilmiş və bu sahədə mühüm tədbirlər həyata keçirilmişdir.

Gəncə quberniyasının qəzalarında (Qarabağ regionu) azlıq təşkil edən erməni əhalisi hakimiyyətə düşməncəsinə münasibət bəsləyir və Ermənistanın təzyiqi altında əsassız ərazi iddiaları irəli sürürdü. Millətlərarası münaqişələr zəmnində yaranan anarxiya baş alıb gedirdi və əmin-amanlığı adi vasitə və üsullarla bərpa etmək olduqca çətin idi. 1919–cu ilin yanvarın 13-də Nazirlər Şurasının qərarı ilə göstərilən ərа-

[1] Paris sülh konfransındakı Qafqaz Azərbaycan nümayəndə heyətinin memorandumu (Məqalələr toplusu). – Bakı, 1992, s.176-177

zidə tərkibində Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları olmaqla ayrıca, müvəqqəti Qarabağ general-qubernatorluğu yaradılır;[1] 29 yanvar tarixli qərarla H.Sultanov general-qubernator təyin edilir. Bu regionda general-qubernatorluğun yaradılmasında məqsəd Qarabağ ermənilərinin separatçı hərəkatının qarşısını almaqdan və imkan daxilində qətiyyətli dinc tədbirlər yolu ilə regionda respublika hakimiyyətini qurmaqdan ibarət idi.[2] Qısa zamanda görülmüş tədbirlərin nəticəsində regiondakı vəziyyət normallaşdı və 1919-cu ilin iyulun 22-də erməni əhalisinin nümayəndələri ilə razılaşma əldə edildi. Beləliklə, bu ərazidə Azərbaycan Demokratik Respublikasının suverenliyi bərqərar edildi. Üç gündən sonra Lənkəran və Muğanda milli dövlət quruluşuna qarşı təşkil olunmuş qiyamların qarşısı alındı. A. M. Topçubaşovun xarici işlər nazirinin bu hadisələrlə bağlı teleqramına istinadən verdiyi məlumatında deyilirdi: «Lənkəran şəhəri və Lənkəran qəzası bolşeviklərdən təmizlənmiş, həmin ərazidə Azərbaycan hökümətinin hakimiyyəti bərpa olunmuş və Qarabağın erməni əhalisinin nümayəndələri bu əhalinin Azərbaycan hökümətinə tabe olması barəsində qərar qəbul etmişdir».[3]

Gəncə quberniyasının Qazax qəzasında da milli zəmində toqquşmalar geniş vüsət aldı. Burada qayda-qanunu bərpa etmək üçün 1919-cu ilin fevral ayının 17-də general-qubernator səlahiyyətləri ilə Daxili İşlər Nazirliyinin xüsusi müvəkkili vəzifəsi təsis olundu.[4]

Azərbaycanın tərkibində olan İrəvan quberniyasının bir hissəsində də (Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, Bəyazid, Eçmiədzin, İrəvan və Aleksandropol qəzalarının bir hissəsi) respublika hakimiyyətini bərqərar etmək məqsədilə Azərbaycan Demokratik Respublikası hökuməti tərəfindən müvafiq tədbirlər görüldü. Hələ 1918-ci ilin 14 avqust tarixli qərarı ilə daxili işlər nazirinə qısa müddətdə Azərbaycanın tərkibinə daxil olan İrəvan quberniyasının bir hissəsində inzibati hakimiyyəti təşkil etmək həvalə olunmuşdu.[5]

Türk ordusu Azərbaycandan çıxandan sonra erməni daşnak hökuməti Naxçıvan, Şərur-Dərələyəz, Sürməli, İrəvan, Eçmiədzin qəzala-

[1] "Azərbaycan" qəzeti – 1919, 19 yanvar
[2] ARDA, f.970, s.1, iş 247, v.10
[3] ARDA, f.970, s.1, iş 142, v.77
[4] ARDA, f.894, s.1, iş 22, v.46
[5] "Azərbaycan" qəzeti – 1918, 7 oktyabr



rını və Qars vilayətini müsəlman əhalisindən təmizləmək və bu ərazilərdə erməni hakimiyyətini qurmaq istəyirdilər. Yerli müsəlman əhalisi bu planın həyata keçməsinə qarşı müqavimət güstərdi. 1918-ci ilin noyabr ayının sonlarında mərkəzi Naxçıvan olan Araz Respublikası (o dövrün hökümət sənədlərində həmçinin Araz–Türk Respublikası da adlanırdı) yaradılır. Onun ərazisinə Naxçıvan, Şərur–Dərələyəz qəzaları, Sərdarabad, Uluxanlı, Vedibasar, Kəmərli, Mehri və digər regionlar daxil olur.[1] Respublikanın hakimiyyət orqanları (hökümət, parlament) formalaşdırılır. Lakin parlament ağır siyasi vəziyyət və başqa səbəblər üzündən fəaliyyətini genişləndirə bilmədi.[2] Respublika bir tərəfdən ermənilərin iddialarını dəf edir, digər tərəfdən isə həm din, həm də dilə görə bütün respublika əhalisinin arzusunda olduğu Azərbaycanla birləşməni reallaşdırmağa çalışır. Əfsuslar olsun ki, yaranmış vəziyyətdə Azərbaycan Demokratik Respublikası həmin respublikaya lazımi köməyi göstərə bilmədi, bu isə, İ.Musayevin qeyd etdiyi kimi, Araz Respublikasının sonrakı taleyinə təsir göstərən daha bir səbəb oldu.[3]

1918-ci ilin dekabr ayının 1-də Cənub-Qərbi Qafqaz Respublikası elan olundu (Siyasi və inzibati mərkəzinin adına görə ona həm də Qars Respublikası deyilirdi). «Cənub-Qərbi Qafqaz Respublikasının yaranması haqqmda» Aktda Araz Respublikasının ərazisi onun tərkibində göstərilirdi.[4] Bununla bağlı A.Hacıyev haqqlı olaraq qeyd edir ki, Cənub-Qərbi Qafqaz Respublikasının tərkibinə daxil olma formal xarakter daşıyırdı, çünki bu yalnız Qars Respublikasının elan edilməsi haqqında aktda öz əksini tapmışdı. Faktiki olaraq isə Araz-Türk Respublikası müstəqil fəaliyyət güstərən respublika idi. Bundan başqa o, Qars Respublikasının yaranmasından əvvəl, həmçinin onunla parallel və onun fəaliyyəti bitəndən sonra da mövcud olmuşdur.[5]

1918-ci ilin dekabrında Ermənistanın silahlı birləşmələri Araz Respublikasına qarşı təcavüz etdilər. 1919-cu ilin yanvarın əvvəlində Şərur və Sürməli qəzalarını, eləcə də İrəvan və Eçmiədzin qəzalarının mü-

[1] ARDA, f.970, s.1, iş 215, v.9-8
[2] Мадатов Г. Победа Советской власти в Нахичевани и образование Нахичеванской АССР. – Баку, 1968, с.55
[3] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) – Bakı, 1996, s.73
[4] ARDA, f.970, iş 27, v.15
[5] Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən – Bakı, 1994, s.50-51

səlmanlar yaşayan bölgələrinin bir hissəsini işğal edərək Naxçıvana doğru irəliləməyə başladılar.[1] İrəvan quberniyası əhalisinin Araz Respublikası parlamentinin üzvləri tərəfindən 1919-cu il 7 yanvar tarixində imzalanmış xahiş ərizəsi Azərbaycan Parlamentinin iclasmda müzakirə olunur və hökümətə "fəlakətlərin qarşısını almaq məqsədilə lazımi tədbirlər görmək" tapşırığı verilir.[2]

Görülən tədbirlərin nəticəsində erməni silahlı birləşmələrinin Naxçıvandan qovulması bu regionun Azərbaycan Demokratik Respublikası ilə əlaqələrini daha da möhkəmləndirir. Bundan istifadə edərək Azərbaycan Demokratik Respublikasının höküməti buraya general-qubernator təyin edir. Azərbaycan hükuməti yerli əhalinin AXC-yə birləşmək istəyi və səyini, habelə amerikalıların burada üz general-qubernatorluğunu yaratmaq cəhdini nəzərə alaraq regionun statusu layihəsini işləyib hazırladı. Layihəyə əsasən Azərbaycan höküməti burada müvəqqəti olaraq xüsusi general- qubernatorluğun təsis edilməsi ilə və general-qubernatorun Amerika vətəndaşları sırasından təyin edilməsi ilə razılaşırdı. Bununla belə qəzaların ümumi, birbaşa, bərabər və gizli səsvermə yolu ilə seçilən yerli milli şuralar tərəfindən idarə edilməsi tələbi irəli sürülürdü. Yerlərdə bütün hakimiyyət (inzibati və məhkəmə), dəmir və şose yolları, poçt–teleqraf, xalq maarifi və sairə şuranın müstəsna səlahiyyətlərinə daxil edilirdi. İnzibati idarəçilik əksəriyyət təşkil edən millətlərin nümayəndələrindən təşkil olunmalı idi. Bütün general-qubernatorluqda mətbuat, vicdan, söz azadlığı, şəxsiyyət və mülkiyyətin toxunulmazlığı elan edilməli, general-qubernatorluğun büdcəsinə Azərbaycan Parlamentində baxılmalı, çatışmayan məbləğ isə Azərbaycan xəzinəsindən maliyyələşdirilməli idi. Azərbaycan valyutası pul vahidi kimi qəbul olunmalıdır. Neytral zonada Bakı-Culfa dəmir yolunun keçdiyi xüsusi zolaq ayrılmalı və Azərbaycan hökumətinə verilməlidir. General-qubernatorluğun əhalisi tamamilə silahsızlaşdırılmalıdır. General-qubernatorluğun bütün ərazisində amnistiya elan olunmalıdır. Seçkilərin keçirilməsinə qədər general-qubernator Azərbaycandan iki müşavir dəvət edib, onların köməyi ilə nizam-intizam yaratmalıdır.[3]

[1] ARDA, f.970, iş 27, v.15
[2] Yenə orada, v.23
[3] Yenə orada, iş 92, v.4-4 arx.



Göründüyü kimi, Azərbaycan hökumətinin bu layihəsi Naxçıvanı gözlənilən erməni təcavüzündən qorumaqla bərabər, bu ərazinin Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi üçün zəmin hazırlamaq məqsədi güdürdü. Lakin ermənilərə kömək etmək istəyində olan amerikanlıları Azərbaycan hökümətinin bu layihəsi qane etmirdi və bu səbəbdən də o, qəbul olunmadı. Regiondakı vəziyyətlə yaxın tanışlıqdan sonra Amerika tərəfinin bu məsələyə münasibəti müsbət istiqamətdə dəyişməyə başladı. Neytral zonanın yaradılması haqqında təklif irəli sürüldü. Yerli əhalinin iradəsini əks etdirən təklifə cavabda qeyd olunurdu ki, əhalisi Azərbaycan türklərindən ibarət olan Naxçıvan, Şərur, Dərələyəz rayonları, Vedibasar və Milistan Azərbaycanın ayrılmaz hissəsidir. Bu regionların azərbaycanlıları, Azərbaycan Demokratik Respublikasının qanunlarını rəhbər tutaraq, özlərini özləri idarə edirlər.[1] Amerikalıların 1920-ci ilin yanvarında Naxçıvan və Şərur ərazisini tamamilə tərk etməsinə baxmayaraq ermənilər əzəli Azərbaycan torpaqlarına hücumlarını dayandırmadılar.

*Dəmirov M.A. Azərbaycanda dövlət hakimiyyətinin təşkili (1918-1920). –Odessa, Astroprintn, 1998, s. 109-114.*

[1] SPİHARDA, f.277, s.2, iş 57, v.73 arx.

## BATUMİ KONFRANSINDA NAXÇIVAN MƏSƏLƏSİ

Trabzon konfransı dağıldıqdan sonra Türk irəli hərəkatının təzyiqi ilə Zaqafqaziyada bir sıra siyasi dəyişikliklər baş verdi. Dəyişikliklərin ən mühümü, şübhəsiz ki, 22 aprel 1918-ci ildə Zaqafqaziya hökumətinin özünü müstəqil respublika elan etməsi oldu. Bu hökumətə başçı türk tərəfdarı sayılan Çxenkeli seçildi.[1] Zaqafqaziya respublikasının müstəqilliyi, türk ordu komandanlığı tərəfindən tanındı və Tiflisin istəyi ilə sülh damşıqlarının keçiriləcəyi yer kimi Batumi müəyyənləşdi (28 may 1918-ci il).[2]

Türk tərəfinin sülh danışıqlarına razılıq verməsinin ən mühüm səbəbi, şübhəsiz, Yeni Zaqafqaziya hökumətinin Brest-Litovsk müqaviləsini tanıması idi.[3]

Batumidə türk heyətinin sədri Xəlil bəy idi (ədliyyə naziri, xarici işlər nazirinin vəkili), Xəlil bəyin hərbi müşaviri isə III Ordu komandiri Fariq Vəhib paşa idi. 45 nəfər üzvlə Batumiyə gələn Zaqfaqaziya hökumətinə isə, baş nazir və xarici işlər naziri Çxenkeli başçılıq edirdi. Batumi konfransının ilk və son iclası 11 may 1918-ci ildə keçirildi. Xəlil bəy (türk tərcüməçisi Orxon bəy tərəfindən fransız dilinə tərcümə olunurdu) açıq nitq söylədi. Müstəqilliyi təzəcə elan edilmiş Şimali Qafqaz Respublikasının nümayəndəsi Heydər Bammatın konfransa qəbul edilməsini türk heyəti təklif etdi. Heç kim etiraz etmədi[4]. Ancaq türklərin şərtləri oxunanda Zaqafqaziya heyəti rəngdən-rəngə düşdü. Bu məsələ ilə əlaqədar Məmməd Əmin Rəsulzadənin əsərinə müraciət edə bilərik: Batumidə danışıqlar başladı. Çxenkeli Trabzondakı türklərin tələblərinin artmayacağına ümid edirdi, həqiqətdə isə təsəvvür etdiyi kimi olmadı. *Batumi və Qarsda tökülən türk qanına görə İstanbul* hökuməti qan bahası olaraq, bir neçə yeni ərazini tələb edirdi.[5] Axıska, Axılkələk, Aleksandropol, Sürməli və Naxçıvan qəzaları bu şərtləri təşkil edirdi.[6] Zaqafqaziya cumhuriyyəti sülh istəyirsə bu ancaq yeni şərtlər

[1] История северо-восточных вилайетов Турции. 1947, Тифлис, с. 54.
[2] Независимость Грузии в международной политикс. Париж, 1924, с. 33.
[3] Tofiq Bıyıqoğlu. Osmanlı və türk. Şərq hüdud siyasəti. İst., 1958, s. 17.
[4] Kazımzadə Firuz. Transkafkaziya 1917-21-ci illərdə. Nyu-York, 1951, s. 109.
[5] Ənvər Paşa. Zaqafqaziya heyətindən tələb edilən rayon və sərhəd xətti 4-5 mayda Vəhib paşaya bildirilmişdir. Vəhib paşa da Xəlil bəyə bildirmişdi (ATASE A. 4 .3671. Kls 29.12.D.61.409).
[6] M.Ə.Rəsulzadə Az. Res. təşəkkülü və indiki vəziyyəti İst., 1339-1341, s. 13.
Qeyd: Statistikanın bir səhvi var. Türkiyə Eçmiədzin bölgəsini tələb etməmişdir.



əsasında ola bilərdi.[1]

Türk heyətinin bu tələblərinin hüquqi əsası var idi. Belə ki, əsas etibarilə müsəlman gürcülərdən (acarlar) və türklərdən ibarət olan əhali 26 fevral 1918-ci ildə qəbul etdikləri ümumi bir qərarla Türkiyəyə birləşmək istədiklərini bildirmişdilər.[2] Türk şərtlərində göstərilən İrəvan vilayətinin müsəlman rayonlarınm əhalisi isə İrəvan-Müsəlman Milli Komitəsi yaratmışdılar. Bu komitənin nüfuzlu şəxsləri türk Ordusundan yardım istəyirdilər. Erməni zülmündən bezmiş bu yerlərin əhalisi Türkiyə himayəsini tələb edərək bu Batumi danışıqlarında öz məsələlərinin müzakirəyə salınmasını xahiş edirdilər.[3]

Zaqafqaziya heyəti iki hissəyə bölünmüşdü: türklərin tələblərini qəbul etmək, bu tələbləri rədd etmək. Müzakirələr davam edərkən türk ordusu Gümriyə doğru irəliləyirdi.[4] Heyətlər arası danışıqlar uzanır, heç bir nəticə əldə edilmirdi. Türk heyəti nüfuzunu göstərdi.[5] İlk əvvəl Qafqaz heyətindən sülhün davamlı və əsaslı olması üçün konfederasyon təşkil edən hər üç millətin bir-bir müstəqil dövlətə çevrilmələri tələb edildi.[6] İkinci, 26 may 1918-ci ildə Xəlil bəy Qafqaz heyətinə 22 saat müddətinə bir ultimatum verdi. Ultimatumda 11 mayda tələb edilən şərtlər ifadə olunurdu: Naxçıvan, Şərur, Gümrü, Sürməli, Axıska, Axılkələk Türkiyəyə verilməli və Zaqafqaziya dəmiryollarından türk ordusunun heç bir şərt olmadan istifadə etməsi.[7]

Konfransda heyətlər arasında danışıqlar davam etdiyi bir vaxtda bir sıra siyasi hadisələr baş verdi. Almaniyadan dəstək alan gürcülər

[1] Pomianovski. Osmanlı imperatorluğunun süqutu. s.321.
[2] Документи и материалы. с.№ 160, с.310-312. А.И.Ставоровски. 1925, s. 84-85.
[3] ATASE A. 1/4 . Kls 536.D. 163-26, F.3. A.Hacıyev Qars və Araz-türk Respublikalarının tarixindən. B.,1994, s.45-46.
[4] Kazımzadə Firuz. Transkafkaziya. s. 110.
[5] Bu iclasda Vəhib paşa Türkiyənin tələbini ermənilərə belə açıqlamışdı: Tale Türkiyəni şərqə aparır. Balkanları, Afrikanı tərk etdik, Şərqə doğru getməliyik. Qardaşlarımız Bakıda, Dağıstanda, Türküstanda və Azərbaycandadır. Bu bölgələrə yolumuz olmalıdır. Siz, ermənilər, yolumuzda durursunuz. Vanı tələb etməklə İrana olan yolumuzu, Naxçıvam və Zəngəzuru istəməklə Kür vadisinə olan yolumuzu bağlayırsınız. Qars, Axılkələk, Qazax və Gəncəyə olan yolu bağlayırsınız. Kənara çəkilib bizə yol verməlisiniz. Ordumuzun irəliləməsi və özümüzü müdafiə etmək üçün iki ana yola ehtiyacımız var. Bunlardan biri Gəncəyə gedən Qars-Axılkələk-Borçalı-Qazax, digəri isə Kür vadisinə gedən Şərur-Naxçıvan-Zəngəzur. Siz Eçmiədzin və Yeni Bəyazid arasında qalmalısınız.
[6] Kurat. Türkiyə və Rusiya.
[7] В.Е.Штейн. Русский вопрос иа Парижской Мирной коиференции (1919-1920). М., 1949, с. 336. Д.Й.Крикосян. Армеиия в годы первой Мировой войны. Ереван,1971, c.447; Z.İbrahimov. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917-1918). B., 1957, s. 445-446.

## NAXÇIVANDA TÜRK (AZƏRBAYCAN) İDARƏSİNİN YARADILMASI. NAXÇIVAN TÜRK ORDUSUNUN GƏLİŞİNƏ QƏDƏR

Rusiyada fevral inqilabı nəticəsində Kerenskinin sədrliyi ilə müvəqqəti bir hökumət yaradılmışdı. Müvəqqəti hökumət çar hakimiyyəti yerində möhkəmlənmək üçün Petroqraddakı deputatlardan xüsusi bir Zaqafqaziya komitəsi (OZAKOM-Ə ÇçƏ iş) təşkil etdi və Tiflisə göndərdi. Xüsusi Zaqafqaziya komitəsi Tiflisə gələr-gəlməz rayonlara öz nümayəndələrini göndərir, bir sıra inzibati tədbirlər görməyə başlayır. Naxçıvana və Şərur qəzalarına da nümayəndələr göndərildi. Komitənin Naxçıvandakı nümayəndəsi Burhan bəy Maqsudbəyov, Ordubad nümayəndəsi isə Bendukidze idi.

1917-ci ilin may ayında Naxçıvanda müvəqqəti hökumətin prinsiplərinə uyğun bir sıra inzibati qaydalar qoyulmağa başlandı və bu iş demək olar ki, 2-3 aya qədər davam etdi. Komitənin səlahiyyətli şəxsləri işləri yenə xan, bəy və s. nüfuzlu şəxslərlə bərabər icra edirdilər. Xalq bundan narazı idi. Xalqa hələ də Çar dövründəki kimi yanaşılır, ən kiçik hadisələrə böyük cəzalar verilirdi. Bir qisim əhali onlara qarşı edilən haqsızlıqları Xüsusi Zaqafqaziya Komitəsinə və onun İrəvandakı komissarına bildirirsə də vəziyyətdə dəyişiklik olmurdu. Bu səbəblə də anarxiya yaranmağa başladı. Bir qisim adamlar inzibati və nüfuzlu şəxslərə qarşı çıxır, onlara hücum edirdilər. Rəhbərlər komitədən bu hadisələrin qarşısını almaq üçün qüvvə istəyir, əhalinin bir qismi isə təcili bu rəhbərlərin dəyişdirilməsini tələb edirdilər.[1]

Bölgədə bu narazılıqların yaranmasının bir səbəbi də ideoloji cərəyanlar idi. Hələ rus əsgər və məmurları getmədiyindən bolşevik fikirlər insanlar arasında yayılmağa başlamışdı. Belə ki, insanların çox olduğu stansiya yerlərində, bolşevik cərəyanlar möhkəmlənmiş və Şahtaxtı dəmiryolu stansiyasında Əsgər sovetləri təşkil edilmişdi.[2]

Ancaq Hümmət qrupu sosialist ideyalarının xalqa çatdırılmasında xüsusi fəaliyyət göstərirdi.[3] Təşkilat əvvəllər təqibə məruz qalırdısa, fevral inqilabından sonra rahat bir şərait tapmışdı.[4] Naxçıvanda

[1] Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Nax. MSSR-in təşkili. B., 1958, s. 14-18.

[2] Yenə orada. s. 12; Nax. MSSR. B., 1973, s.13.

[3] Rus Sosialist İşçi partiyasından ayrılan azərbaycanlı sosialistlər 1904-cü ildə öz təşkilatları Hümməti yaratdılar. Rus Azərbaycanı. s.55, 80-85. Bu təşkilat Azərbaycanda getdikcə gücləndi.

[4] Əli Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması və gücləndirilməsi uğrunda mübarizə. B.,1960, s.6-8.



türk millətçilərin Musavat, erməni millətçilərin daşnak partiyaları və Molla Mahmud Çakərin yaratdığı Məzlumların Müdafiə Komitəsi bu rayonda fəaliyyət göstərirdi.[1]

Naxçıvanda bu cür siyasi hadisələrlə bərabər bir sıra inzibati təşkilatlar da yaradılmışdı. Ordubad, Culfa və Naxçıvanda milli komitələr təşkil olunmuşdu. Bu komitələrdəki həqiqi güc rayonun türk və erməni nüfuzlu şəxslərinin əlində idi. Sosialist qruplar çox təsirli deyildilər. Naxçıvanda, Culfa və Ordubadda Milli Komitələr yanında Şəhər Məclisləri təşkil edilmişdi.[2]

25 oktyabr (7 noyabr) 1917-ci il tarixdə bolşeviklərin iqtidara gəlməsi ölkədə sakitliyi, nizam-intizamı alt-üst etmişdi. Əsgərlər cəbhələri tərk edir, idarə mexanizmi pozulurdu.

Naxçıvanda da vəziyyət belə idi. Naxçıvanın tabe olduğu Xüsusi Zaqafqaziya Komitəsi ləğv olunmuş,[3] yerinə 28 noyabr 1918-ci ildə, Zaqafqaziya Komissarlığı yaradılmışdı.[4] Rus əsgərləri getdikdən sonra Naxçıvan əhalisi müstəqil hərəkət edəcəkdi. Naxçıvan rayonunun bundan sonrakı dövrlərdə mərkəzi hökumətlə əlaqəsi olmayacaqdı.[5] Türk və erməni xalqları arasında yaxşı və ya pis bir münasibət ortaya çıxacaq. Ancaq onlar bir müddət öz taleləri ilə bərabər qalmışdılar. Öz idarəetmələrini əllərinə almaq üçün bu iki millət arasında yaranan əlaqələr bölgənin taleyinə öz təsirini göstərəcək. Ancaq türk və erməni millətləri arasında yaxşı əlaqələrin yaradılması çox çətin idi. Çünki 1905-ci il hadisələrinin gərginliyindən hələ azad ola bilməmişdilər. Ermənilər bütün Qafqazda olduğu kimi, Naxçıvanda da bir çox əməllər dalınca qaçır, vəziyyəti sakitləşdirməyə meyl göstərmirdilər. 1917-ci il dekabr ayından etibarən, az da olsa qorxulu hərəkətlərə başlayır, Culfa və başqa yerlərdən gətirdikləri silahları Naxçıvanın kəndlərinə paylayırdılar. Eyni zamanda bölgədə rus kazaklarını müsəlman əleyhinə qaldırırdılar.

Gələcəyi mübarizələrlə dolu olan müstəqillik şəraitindən istifadə edən Naxçıvanda və ətraf yerlərdə türklər və ermənilər öz milli

[1] Lətif Hüseynzadə 1993-cü ildə «Şərq qapısı» qəzetində dərc etdiyi xatirələrində 1917-1921-ci illərdə Naxçıvanda gördüklərini yazmışdır. Ancaq bəzi hadisələri qarışdırmışdır, qarışdırma ancaq tarixlərdə olmuşdur. Məs. türk ordusu Naxçıvana gəlmədən amerikan valiliyi qurulmuşdur (Hüseynzadə. İbrət dərsləri. «Şərq qapısı», 27-31 mart, 3 aprel 1993). Biz xatirələrdən tarix sırasını nəzərə alaraq lazımi məlumatlardan istifadə etdik.

[2] Qaraş Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.25,26.

[3] Əsəd Uras. Tarixdə ermənilər və erməni məsələsi. İst., 1987, s. 639.

[4] Документи и материалы. с.№ 6, с.7.

[5] Sərbəstlikdən istifadə edən Naxçıvan qabaqcılları Qafqaz Komissarlığını tanımaq istəmirdi (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi).

komitələrini yaratdılar.[1] Mərkəzi Naxçıvanda olan komitələr vasitəsilə rayonda bir yerli özünüidarəetmə mexanizmi yaratmağa çalışırdılar.[2] Ancaq ayrı-ayrı rəhbərlərlə bu bölgənin idarə edilməsinin çox çətin olduğu aydın olsa da çoxluğu təşkil[3] edən türklər və azlığı təşkil edən ermənilər Naxçıvanda bir hökumət (Komitə) qurdular.

Naxçıvan şəhəri və kəndlərin idarə edilməsi bu yerli hökumətə verilmişdi. Bu sistem Culfada da tətbiq edildi və ortaq bir komitə yaradıldı. Dərələyəzdən ayrı olaraq Şərur qəzasında yüzə yaxın müsəlman kəndi və bir erməni kəndi olduğundan müştərək hökumətə ehtiyac yox idi. Bununla bərabər hərbi təşkilatlanma mövcud idi. Naxçıvanda da, Culfada da həm müsəlmanlar, həm də ermənilər tərəfindən hərbi təşkilatlar yaradılırdı.[4] Hərbi təşkilatlanma baxımından Culfa çox əlverişli idi. Bura İranda fəaliyyət göstərən rus əsgərləri üçün ehtiyac mənbəyi idi. Buna görə də bir çox hərbi müəssisələr mövcud olduğu kimi burada anbarlarda böyük bir ordunu təchiz etməyə imkan verən və dəyəri təxminən yüz milyon manat olan hərbi ləvazimat var idi.

Rus əsgərləri bölgəni tamamilə tərk etmədən iki yüz nəfərlik süvari dəstə Culfada yaradıldı. Türk və erməni nüfuzlu şəxslərinin imza etdikləri qərara görə xalq arasında qonşuluq münasibətlərini pozan şəxslər yaradılan ortaq qüvvələr vasitəsilə cəzalandırılmalı idi. Hətta lazım gələrsə edam etmə səlahiyyəti də verilirdi.

Bir müddət sonra bəzi mühüm məsələləri həll etmək üçün Culfadakı türk-müsəlman əsgərlərinin komandiri və onun ardınca müavini Tiflisə getdilər. Əhali nə qədər qayıtmaları üçün teleqram və ərizələr

[1] Naxçıvanda bu cür yerli təşkilatlar yaradılarkən İqdırda da belə fəaliyyətlər olmuşdur. Fevral inqilabından sonra 1917-ci ilin mart ayında İqdırda 5 türk və 5 ermənidən ibarət İqdır İcra Komitəsi yaradılmışdır. Sədr Berçet bəy idi. 1918-ci il Novruz bayramından sonra Mələkli kəndi mərkəz olmaqla İqdır Milli Komitəsi yaradıldı. Sədr Rza bəy idi. Komitə xalqı silahlandıraraq erməni təhlükəsinə qarşı hazırlıq görürdü. Nizaməddin Onk. Türk ordusu Azərbaycanda (1918). Türk Dünyası Tarix Dərgisi. 84 sayı, dekabr 1993, s. 53. N. Onk. Quruluşun 50-ci ildönümü. İqdır, 1970, s. 20.

[2] Mirzə Bağır Əliyev. Qanlı günlərimiz (1918-1920, Naxçıvan). B., 1993, s. 7-12. Naxçıvan Milli Komitəsinin katibi olan M.B.Əliyev gördüyü hadisələri gündəlik kimi qələmə almışdır. Ərəb hərfləri ilə yazan Əliyev hadisələrin gününü və tarixini vermişdir. Hicri və miladi təqvimlərdən istifadə etmişdir. Miladi tarixlərdə keçmiş rus təqviminə görə hərəkət edən müəllif bəzən də hicri ilə yazmışdır. Müəllifin yazdığı tarix və günləri digər mənbələrlə müqayisə etsək, çox maraqlı vəziyyətlə rastlaşırıq. 31 mart şənbə (Rəcəbl) deyə yazdığı tarixdə 13 gün əlavə etsək hicri tarixlə 2 Rəcəbə uyğun gələcəkdir. Bəzən 13 gün əlavə etmədən doğru tarixi yazmışdır.

[3] Azərb. Resp. Mərkəzi Dövlət Arxivi, f. 970, siy. 1, iş. 232, s. 17.

[4] Bu dövrdə ermənilərin Qafqazda hərbi təşkilat yaratdığı rayonlar bunlardır: İrəvan qüberniyasında Naxçıvan və İqdır, Tiflis quberniyasında Axıska, Axılkələk, Sulaver, Gəncə vilayətində Şuşa və Nuxa.



göndərsə də, cavab gəlmədi. Aydındır ki, zabitlər getdikdən sonra türklərin hərbi təşkilatları dağıldı. Yalnız erməni əsgərləri qaldı və qeyd etdiyimiz ləvazimata sahib oldular.[1] Bu da ermənilərə öz əməllərini icra etmək fürsəti verdi.

Onlar türk hərbi təşkilatının dağılmasından 3 gün sonra fevral ayının axırlarında Əznəbürt kəndinə hücum edib 29 qadın və uşağı qətlə yetirdilər.[2] Xəbər Naxçıvana çatan kimi komitə toplandı, günahkarların edam edilməsi qərara alında. Canilərin ermənilər tərəfindən cəzalandırılmaması Naxçıvanda anarxiyanın yaranmasına səbəb oldu.

Artıq hökumət olmadığı bəlli idi.[3] Hər iki tərəf arasında əlaqələr getdikcə gərginləşməyə başladı. Naxçıvan şəhər mərkəzindəki azərbaycanlı məhəllələrində yaşayan ermənilər öz tərəflərinə köçdülər. Şəhərin bazar tərəfindəki ermənilər də mağazalarını öz məhəllələrinə köçürməyə çalışırdılar. Ermənilərin bu fəaliyyəti azərbaycanlıları şübhələndirir və onlar ermənilərin müharibəyə hazırlaşdıqlarını fikirləşirdilər. Bu məqsədlə Naxçıvandakı türklər (azərbaycanlılar) silahlanmağa başladılar. 15 mart 1918-ci ildə Naxçıvanda Türk (Azərb.) Milli Komitəsinə seçkilər keçirildi, sədrliyə Mehdiqulu xan Diyarbəkirinin yerinə Mirzə Əmirulla Nəsirovun seçilməsi qərara alında. Elə bu vaxt müharibə başlamaq üzrə idi. Həmin gün Naxçıvan bölgəsində türk-islam-erməni davası başladı.[4]

Naxçıvan şəhərindəki vuruşmalarda türklər (azərb.) üstünlük qazanırdılar. Ermənilər sülh təklif etdilər. Məqsədləri silah gələnə qədər

[1] Ermənilər əsas hərbi ləvazimata İrəvanda sahib oldular. Tiflisdən göndərilən Aram Manukyan İrəvanda rus hərbi hissələrindən qalan hərbi ləvazimata sahib çıxmış və yüzlərlə insanı əsgərliyə çağırmışdı. Buna həmin bölgədə yaşayan müsəlmanlar etiraz etmişlər (Hovanisyan. Armeniya, 1918. s. 147).

[2] Əliyev. Qanlı günlərimiz. Əznəbürd hadisələri fevralın əvvəlində baş vermişdi və 22 nəfər öldürülmüşdü. s.10.

[3] Tağı Nəbizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi. İstiqlal, 5 aprel 1919, № 9.

[4] Bu əsnada müsəlman-erməni davası yaxın rayonlarda davam edirdi. Əli Azəri bu məsələ ilə əlaqədar yazırdı: Cənubda başlayan yanğın şərqdən şimali-qərbə qədər olan məsafəni bürüdü. Urmiya, Səlmas və Xoydan sonra Culfa və Naxçıvanı təsiri altına aldı. Ermənilər ilə Cənubi Azərbaycan türkləri arasındakı davanın alovları gündəngünə daha böyüyürdü. Bu qatma-qarışıqlıq Bakıya gedib çıxdı. Orada da ermənilərlə türkləri bir-birinin üstünə saldırdılar. Böyük bir qətliama səbəb oldular. Tiflisdən İrana gedən sərnişin qatarına Naxçıvan stansiyasında hücum edildi. Bir qrup erməni türkləri inandırıb vuruşmadan qurtarmaq bəhanəsi ilə bir otağa yığdılar. Nələri vardısa, oğurladılar. Səhərisi gün sərnişinlər çırıl-çılpaq qatara minib Culfaya gəldilər. Culfa ətrafında yaşayanlar düşdülər, 40 sərnişin jandarma komandiri polkovnik Mirzə Əkbər xanın (iranlı) köməyi nəticəsində yol xərci ödəmədən Təbrizə göndərildi (Əli Azəri. Azadstan dövləti və Şeyx Məhəmməd Xiyabani (1918-1920); Hovanisyan. Armeniya 1918. s. 143-144).

vaxt qazanmaq idi. Bu məqsədlərinə də nail olan ermənilər toplar gəldikdən sonra var gücləri ilə hücuma keçdilər. İndi də Müsəlman Milli Komitəsi sülh təklif etdi. Ermənilər onlardan bütün topları tələb etdilər. Bir qisim bu təklifi qəbul etmək istədi, ancaq Məşədi Məhəmməd Rəfiyalov onları bu fikirdən daşındırdı. Maku sərdarı (baş komandiri) Murtuzaqulu xan müsəlman və erməni komitələrinə sülh bağlamaqla əlaqədar məktub göndərdi. Ancaq ermənilər bu təklifi qəbul etmədilər. Dava şiddətlə davam edirdi. Naxçıvan müsəlmanlarına kənardan yardım gəldisə də müsbət nəticə əldə edilmədi. Bunun üçün Maku baş komandirindən kömək istəndi. Makudan gələn nümayəndələr, iki xalqı barışdırmağa çalışırdılar və ermənilərin təklifini – topların təhvil verilməsini türk-müsəlman tərəfinə bildirdilər. Cəfərqulu xan bu təklifi qəbul etdisə də, xalq razılaşmadı. Səhəri gün – 8 aprel 1918-ci ildə Müsəlman Milli Komitəsi toplandı. Rəhim xan Naxçıvanski – türk (azərb.) dəstəsinə komandir, Hacı Mehdi Bağırov müavin təyin edildi. Yığıncağın sonunda Rəhim xana tapşırıldı ki, ya axıra qədər davam aparmalı, ya da ermənilərlə sülh bağlasa, silahları təhvil verməlidir. Rəhim xan bir müddət sonra ermənilərə sülh bağlamağı təklif etdi. Ermənilər 7 maddədən ibarət şərtlər irəli sürdülər. Erməni qarnizon komandiri Harazyanın dəvəti ilə görüş keçirilsə də bir nəticə əldə edilmədi.[1] Dava yenə başladı.[2]

Naxçıvan şəhərindəki vuruşmalarda azərbaycanlılar özlərini müdafiə etsələr də bölgənin digər tərəflərində vəziyyət başqa idi. Əlbəttə, Culfadan bütün ordunu təmin edə bilən hərbi ləvazimata sahib olan ermənilərlə, bir tək gülləni 3 manata almaq məcburiyyətində qalan nizamsız türklər müharibə edə bilməzdilər. Osmanlı türkləri gələnə qədər davam edən bu müharibədə ermənilərin nizami əsgərləri Naxçıvan bölgəsindəki müsəlman kəndlərin çoxunu yandırmış, əhalisini öldürmüşdülər. 1916-cı il bölgüsünə görə 4 nahiyəyə ayrılmış Naxçıvan qəzasında birinci, üçüncü və dördüncü nahiyələrin müsəlman kənd və qəsəbələri (Cəhri, Qaraqala və Ordubaddan başqa) hamısı tamamilə yandırılmış, əhali öldürülmüşdür. Erməni zülmündən canlarını qurtarıb, evlərini tərk edən adamlar ac, çılpaq yaşamalı olurdular. Bir müddət sonra bu insanlarda aclıq və müxtəlif narahatçılıqlar və vəba xəstəliyi yarandı. Erməni

[1] Əliyev. Qanlı günlərimiz. s. 925.

[2] Hüseynzadə bunları yazırdı: daşnaklar Naxçıvandakı rus əsgərlərin köməyi ilə türkləri öldürür, evlərini talan edirdilər. 1918-ci ilin mart ayında ermənilər Naxçıvanın Sarvanlar, Xoşunu və Dizə məhəllələrini mühasirə edib topa tutdular. 3 gün sonra məhəllə sakinləri evlərini tərk edib, Qaraçuq kəndinə qaçdılar. Şəhərdəki məscidin minarəsi topdan deşildi. Kəlbalı xan ayağından yaralandı. Naxçıvanın qabaqcılları Türkiyəyə və Maku sərdarına müraciət edərək kömək istədilər (Hüseynzadə. İbrət dərsləri).



süngüsündən qurtaranlar da belə öldülər. Ermənilər bu qədər müsəlman kəndini dağıtmalarına baxmayaraq, müsəlmanları təslim etməyə və müqavimətlərini qırmağa nail ola bilmədilər. Çünki türklər gec olsa da təşkilat yaratmış və silahlanmağa başlamışdılar.[1] Qüvvələrin nisbətən bərabərləşməsi[2] və Əkbər xan Naxçıvanskinin Makudan silahlı adamla Naxçıvanın mərkəzinə gəlməsi vəziyyəti dəyişdirdi.

Nəticədə Rəhim xan, Mirzə Nəsrullah Əmirov və Abbasqulu bəy Tahirov ilə erməni nümayəndələri bir qərara gələrək sülh müqaviləsi bağladılar.[3] Ertəsi gün hər iki tərəf sevincini dilə gətirib, müxtəlif söhbətlər etdilər. Sülhün ətrafa yayılması lazım idi. Hər iki xalqın nümayəndələri kəndlərə gedib sülhün bərpası üçün çalışmağa başladılar. Bu əsnada müsəlman və ermənilər arasındakı əlaqələri düzəltmək üçün Əli xan Makinski, Hacı Rza, Məşədi Abbasqulu, Levon ağa və Böyükxan İrəvanski İrəvandan Naxçıvana gəldi. Sülh bağlanması ilə hər iki xalq arasındakı əlaqələr düzəlməyə başladı. Bunun nəticəsi olaraq ilk müştərək bir məclis yaradıldı. Mirzə Nəsrullah bəy, Abbasqulu bəy Tahirov, Məşədi Heydər Əkbərov, Hacı Ələsgər Hüseynov, Bəylər ağa Kəngərlinski, Məşədi Məhəmmədəli Bayramov, Cəfərqulu xan və Böyük xan Naxçıvanski müştərək məclis üzvləri idilər. Bu məclis keçirdiyi yığıncaq nəticəsində belə qərara gəlmişdi ki, hər bir şəhər və rayon üçün bir erməni, bir müsəlman komissar təyin etsinlər. Şəhər rəisliyinə isə müsəlman tərəfdən Ruben Babaxanov təyin olundu. Ayrıca könüllü qüvvələrə də iki şəxsin təyin edilməsi qərara alındı.[4]

Bu qarşılıqlı razılaşmanın nəticəsi olaraq, müsəlman əhali dağıdılmış kəndlərinə qayıtmağa başladılar.[5]

Beləcə, Andranikin Naxçıvana gəlməsinə qədər nisbətən sülh dövrü başladı. Arabir vuruşmalar, fərdi adam öldürmə halları olurdu. Ancaq Milli Komitələr bu işə qarışır, məsələni həll edirdilər. Bu dövrdə diqqət çəkən məsələlərdən biri də komitələrdə olan şəxslərin bir-birinə dəstək olmalardır. Məsələn: Naxçıvan Türk Milli Komitəsi sədri Mirzə Nəsrullah bəy ilə qoşun komandiri Rəhim xanın arası dəyib, Rəhim xan

[1] L. Hüseynzadə yazırdı: Vaxtı ilə İrana getmiş rus əsgərləri Qafqaza evlərinə gələrkən həmin orduda olan türk əsilli bir gənc zabit Culfa körpüsünü keçən bütün əsgərlərin silahını alıb, Naxçıvan xanına vermişdir. 12 top və bir çox mərmi (Hüseynzadə. İbrət dərsləri).

[2] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.

[3] Əliyev sülhün 12-25 apreldə imzalandığını qeyd edir (Əliyev. Qanlı günlərimiz. s.26). Nağdəlizadə 18 aprel-1 may 1918-ci il olaraq verir. Nağdəlizadənin tarixini doğru olaraq qəbul edirik. Bu, Nuri paşa tərəfindən Naxçıvana təyin edilən Xəlil bəyin ifadələrinə uyğundur.

[4] Əliyev. Qanlı günlərimiz. s. 25-30.

[5] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.

istefa edən kimi, erməni komitəsi üzvləri işə qarışdı, anlaşılmazlıqları həll etdilər. Yenə erməni qarnizon komandiri Harazyanın istefasında Mirzə Nəsrullah bəy və yoldaşları araya girərək məsələni həll etmişdilər. 17 mart 1918-ci ildə Xəlil bəy və iki yoldaşı Naxçıvana gəldilər.[1] Xəlil bəy bölgədə asayişi təmin etməyə başlayan kimi erməni və müsəlmanlardan silahlarını tələb etdi.[2] Beləcə, bölgədə bir güc ünsürü Xəlil bəy oldu.

[1] ATASE A.1/2, kls.366, d.739-1461, f.5. ATASE A.5. 5649, kls. 3941, d.A_159, f.46.
[2] Əliyev. Qanlı günlərimiz. s. 32-40.



## ANDRANİKİN FƏALİYYƏTİ VƏ MÜSƏLMAN ƏHALİYƏ EDİLƏN ZÜLMLƏR

4 iyun 1918-ci ildə imzalanan Batumi müqaviləsi Erməni ordusunda narahatçılıq yaratdı. Andranikin rəhbərlik etdiyi və sayı minlərlə olan dəstələr qrupu[1] bu müqaviləni rədd edir, şərəfsiz bir sülh adlandırırdı.[2] Müqaviləni tanımayan və buna görə də əmrlərə itaət etməyən Andranik və onun dəstəsi Nazarbəyovun komandirliyi altında olan erməni artilleriyasından qovuldular (5 iyun 1918).[3] Ordubada qovulan Andranikin məqsədi cənuba – Naxçıvana və Şimali İrana gedib ingilis qoşunları ilə birləşib türklərə qarşı vuruşmaq idi.[4]

8 iyunda bu məqsədlə Göyçə gölü ətrafında yerləşən Yelenovka kəndindən Naxçıvana yola düşdülər.[5] Andranik Şərur və Şahtaxtıdan keçib Naxçıvana gəlmək istəyirdi. Ancaq bu region mayor Xəlil bəyin nəzarəti altında idi. Buna görə də Andranik və Yapun adlı quldur dəstəsi başçısı bölgədən keçmək üçün Xəlil bəyə müraciət etdilər. Xəlil bəy bu istəyi rədd etdi. Keçmə icazəsi verilməyən Yapun 1500-ə qədər adamla o tərəfdə qaldı. Andranik isə Qarabağ-Qızılbulaq-Cəhri yolu ilə Naxçıvana gəldi. Andranik yol üstdəki müsəlman kəndlərindən ağ bayraqla keçmiş, 18-19 iyunda Naxçıvana gəlməsi barədə Xəlil bəyə məlumat vermişdi. Xəlil bəy zəif bir qüvvə ilə Andranikə qarşı çıxa bilməyəcəkdi. Vəziyyət IV artilleriyaya bildirildi.[6]

20 iyunda Naxçıvana gələn Andranikin başçılığı altında olan erməni dəstəsi[7] türk ordusunun dəmiryolu ilə Culfaya gəlməsinə mane

[1] Andranikin fikrincə say 3500-dür.
[2] Кавказское слово. 12 dekabr 1918.
[3] Müsəlman əhalisinin düçar olduğu zülm. S. 67. Kazım Qarabəkir. Şərqin azadlığı. s. 471, dos. 79. Andranikin erməni ordusundan qovulması əvvəlcədən hazırlanmış, planlı bir ssenari idi. Batuminin türk qoşunları tərəfindən hələ zəbt edilməmiş torpaqlarını ermənilər əldə etmək arzusunda idilər. Bunun ən asan yolu, əmrində minlərcə adam olan Andranikin ordudan qovulmasıdır. Ordudan qovulan Andranik Naxçıvandan keçib İrana gedəcək, orada ingilislərlə görüşəcək və onların köməyi ilə Naxçıvanı və şimali İranı regionuna çevirəcək. Ancaq erməni hökuməti Andraniki tanımayacaq. Bütün işğal olunmuş Azərbaycan torpaqlarında apardıqları siyasət kimi Andranikin Naxçıvana gəlməsinin bir səbəbi də Qafqaz və Osmanlı ermənilərinin birləşməsinə çalışmaq və bu məqsədlə İrəvandan qovulması kimi qeyd olunur (ATASE A.5.5649, kls.3941, d.A-159. f.12).
[4] Azərbaycan Qanuni-əvvəl, dekabr 1918, №6. Кавказское слово, 12 dekabr 1918.
[5] Кавказское слово, 12 dekabr 1918.
[6] ATASE A.1/2, kls.366. D.739-1461. F. 5-1.
[7] Naxçıvan müsəlman Komitəsinin verdiyi məlumata görə Andranikin dəstəsi 4000 piyada və 1000 süvaridən ibarət idi. 3 pulemyotu, 6 topu var idi (ATASE A.5.5649, kls. 3941, d.A-159, f.12). Dəstənin bir hissəsi səhər şəhərə girmiş, bazara getmişdilər.

olmaq üçün tunelləri, körpüləri dağıtdılar.[1] 21 iyunda Culfaya gələn Andranik və dəstəsi bir kələk işlədərək Araz körpüsündən keçdilər[2] və körpünü mühafizə edən 2 türk zabitini və 20 əsgəri əsir aldılar.[3] Culfadan cənuba yola düşən Andranik ordusu 3000 piyada, 700 süvari ilə 22 iyun 1918-ci il axşamı Xoydan 30 km aralı şimalda yerləşən Evoğluya gəldilər. IV artilleriyaya aid 12-ci piyada diviziyası 24 iyun 1918-ci il tarixində Xoyun 3 km-ə qədər cənubunda ermənilərlə vuruşa girdilər.[4] Vuruşma türk ordusunun qələbəsi ilə nəticələndi. Xoy azad edildi. Cənuba gedib ingilislərlə birləşmək istəyən on minə qədər silahlı erməni Culfa körpüsündən şimalda qaldı.[5] Andranikin tabeliyində olan erməni qüvvələri İrandan Naxçıvana doğru çəkildilər. Bununla da Culfa, Naxçıvan və Ordubad bölgələrində qara günlər başlandı. Türk ordusundan ağır zərbə alan Andranik Naxçıvanın günahsız əhalisindən öz acığını çıxmaq istəyirdi.

Bu məqsədlə Culfaya çəkilən erməni qüvvələri sərhəddə yerləşən Naxçıvan qəzasının böyük kəndlərindən biri olan Yaycı kəndinə hücum etdilər.[6] Heç bir şeydən xəbəri olmayan Yaycı kənd əhalisi Andranikin dəstəsi tərəfindən mühasirəyə alındı. Andranikin qaniçən dəstəsi ilə qonşu erməni kənd əhalisi Araz sahilində 4000-ə yaxın qadın, uşaq və yaşlıya hücum edərək, çoxusunu qətlə yetirdilər. Ölənlər o qədər çox,

Alış-veriş elədilər. Pul köhnə pul olduğu üçün narazıçılıq yarandı. Silahlı ermənilər müsəlmanları hədələyirdilər. Müsəlman komissarı Vəzirov Andranik dəstəsinin bazarda silahsız gəzməsini Hazaryandan xahiş etdi, nəticə olmadı. Bunun üçün erməni dəstələri ilə alış-veriş edilməsi qadağan olunur. Müsəlmanlar vuruşa hazırlaşmağa başladılar. Əliyev. Qanlı günlərimiz. s. 52.

[1] Əliyev. Qanlı günlərimiz. s. 52, 53.

[2] Andranikin əmri altında olan Van ermənilərindən **400** piyada və bir qədər də süvari 22 iyunda (1918) əllərində ağ bayraq Culfa körpüsünə yaxınlaşdılar, artıq sülhdür, biz Vana, kəndlərimizə qayıdırıq, - deyirdilər. Culfa hərbi hissəsi onlara inandılar və körpüdən keçmələrinə icazə verdilər. Sonra isə ermənilərin gözlənilməz hücumlarından geri çəkilməli oldular (Qafqaz cəbhəsi. II c., s. 553). IV artilleriya onların qarşısını almaq istəmişdi, ancaq mümkün olmamışdı. E. Aysan. Böyük müharibədə İran cəbhəsi. III c., İst., 1938, s. 27, 28. Sabis. I Dünya müharibəsi. IV c., s. 253).

[3] İSA № A.

[4] ATASE A.5.5649, kls.3941, d. A-159, f. 8.

[5] Qafqaz cəbhəsi, II c., s. 534. Hərbi ümumidə Osmanlı cəbhələri vəkayin. İstambul., 1338, s. 16. Yerasimov. Millətlər və sərhədlər. s. 308. I Dünya müharibəsi. V c., s. 165. Asyan. İran cəbhəsi. III c., s. 29, 30. Xəlil bəy Naxçıvan Milli Müsəlman Komitəsi sədrinə göndərdiyi bir teleqramda Naxçıvanda, Araz çayının şimalında qalanlardan başqa **4000** nəfərlik bir dəstə olduğunu eşitdiyini və bunların mühacir və ya əsgər olmaları haqqında məlumat verilməsini istəyirdi (Əliyev. Qanlı günlərimiz. s. 56).

[6] Andranikin dəstəsində olan bir kapitan və bir çavuşun ifadəsinə görə, Yaycıda erməni dəstəsinə 2 topdan atəş açılmışdı, buna görə də hücum edilmiş, kənd alınmışdı. Evlərə, qocalara, qadınlara toxunulmamışdır (Кавказское слово. 1918).



qalanlar o qədər az idi ki, ölənləri dəfn etməyə adam yox idi.[1] Yaycı soyqırımından sonra bölgənin erməniləri Andranikin dəstəsi ilə bərabər müsəlman kəndlərinə hücumlarını davam edirdilər. Nağdəlizadə «İstiqlal» qəzetində bu hadisə ilə əlaqədar yazırdı: Yüzlərlə müsəlman qadınlar, uşaqlar vəhşi heyvanlar kimi dağlarda səfil-sərgərdan yaşayır, ot yeyirdilər. Bir nəfər müsəlmanın bir gecə 400-ə yaxın arvad və uşağa heyvan gətirib çatdırması heç yadımdan çıxmır. Andranikin dəstəsi tərəfindən əhaliyə edilən zülmlər orta əsrlərdə Endülüsdəki zülmlərdən betərdir.[2]

Naxçıvanda türk-müsəlman əhalisinə edilən zülm erməni artilleriyası komandiri Nəzərbəyovu da hərəkətə gətirdi. Nəzərbəyov Gümrüdə olan erməni komissiyası sədrinə[3] göndərdiyi bir teleqrafda yazırdı: Andranikin Naxçıvan ətrafında bir çox zülm və faciə törətdiyini türk komandanlığına bildirmənizi xahiş edirəm.[4] Türk ordusu Naxçıvandakı vəziyyətdən xəbərdar idi. Andranikin türk-müsəlman əhalisinə zülm edə-edə Naxçıvana yaxınlaşması ilə əlaqədar mayor Xəlil bəy Şərur və Şahtaxtı əhalisini cahada çağırdı. Xeyli qüvvə toplandı.[5] Təbii ki, bunlar yalnız öz bölgələrini müdafiə edə bilərdilər. Naxçıvanın o biri rayonlarına kömək imkansız idi. IX Ordu komandanlığına da, Şərq Orduları qrup komandanlığına Naxçıvandakı Andranikin dəstəsinin sayı, erməni əhalisinin silahlanması, müsəlmanların qətlə yetirilməsi haqqında məlumat verdi və çarə olaraq II Qafqaz diviziyasını bölgəyə göndərməyi münasib saydı (28 iyun 1918).[6]

[1] ATASE A.1/2. kls.366, d.739-1461, f. 5.

[2] Əlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi. «İstiqlal», 5 aprel 1919, № 9.

[3] Batumi müqaviləsinə görə erməni və türk tərəfləri arasında bir sıra məsələlərin həll edilməsi lazım idi. Bu məsələlərdən ən mühüm yeni sərhədin əsaslı surətdə müəyyən edilməsi idi. Türk və erməni heyətləri 19 iyul 1918-ci ildə Gümrüdə toplandılar. Müzakirə komissiyasına sədrliyi polkovnik Kazım Qarabəkir paşa edirdi. Müzakirələrdən sonra türk-erməni sərhədi Hanvalıdan Arpağa qədər ətraflı müəyyənləşdirilmişdi (Suleyman İzzət. Böyük hərbdə (1334-1918). 15-ci piyada diviziyasının Azərbaycan və Şimali Qafqazda hərəkat və müharibələri. İst., 1936, s.18,19. Qarabəkir. Şərqin qurtuluşu. s.408-428. Andranik dəstəsinin Yaycı kəndinə elədiyi soyqırımı nehrəmli Tağı Nağdəliyev həmin dəqiqə Naxçıvan Müsəlman Milli Komitəsi bildirdi (Əliyev. Qanlı günlərimiz. s. 56). İstiqlal qəzetində Naxçıvan fəlakətlərinin tarixçəsi adlı yazının müəllifi Tağı Nağdəliyevin Əliyevin bəhs etdiyi Tağı Nağdəliyev olması çox böyük bir ehtimaldır. Hadisələri yaxından izləyən Nağdəlizadə Əliyevin əsərindən məlum olduğu kimi, Naxçıvan bölgəsinin mühüm şəxslərindəndir. «İstiqlal» qəzetində verilən yazıda hadisələrin bütün təfərrüatı haqqında məlumat əldə etmək mümkündür.

[4] Dos. № 79. Müsəlman əhalisinin düçar olduğu zülm. s. 67. Qarabəkir. Şərqin qurtuluşu. S. 471.

[5] ATASE A.1/2, kls.366, d.739-1461, f. 5-1.

[6] ATASE A.4. 6520, kls.3188, d.46, f. 3-4.

Bölgədə müsəlmanları qətlə yetirən Andranik arada Ordubada gələrək Ordubad əhalisindən çoxlu ərzaq və Xudafərin körpüsündən keçmək icazəsi istədi.

Ordubadlılar bunu qəbul etmədilər. Buna görə də Andranik Naxçıvana qayıtdı. O Naxçıvana yaxmlaşanda top səsləri eşidilirdi.[1] Top səsləri xeyirli bir əlamət deyildi. Regiondakı erməni kəndləri Andranikə qoşulub müsəlman kəndlərini yandırır, əhalini öldürürdülər.[2]

Elə bu vaxtlarda (iyunun axırlarında) 500-ə qədər Osmanlı əsgərinin Qaraçuğa gəlməsi xəbəri Naxçıvana çatdı. Səhərisi gün Qaraçuğdakı türk dəstəsindən Osman Nuri bəy yanında 4 süvari ilə Naxçıvana gəldi və Mirzə Nəsrullah bəyin qonağı oldu. Nuri bəy Naxçıvana gəldiyi gün bir sıra qayda-qanunlar yaratdı. Ermənilərə qarşı güllə atanların işlərinə belə son qoyuldu. Asayiş bərpa olundu, jandarmalar çıxarıldı, səngərlərin möhkəm müdafiəsi üçün tədbirlər görüldü. Bu tədbirlərdə Nuri bəyə kömək edənlər arasında Naxçıvanda yaşayan türk çavuşu Mustafa da vardı. Nuri bəyin Naxçıvandakı fəaliyyəti uzun çəkmədi. O, gəldiyi günün səhərisi yanındakı süvarilərlə Qaraçuğ kəndinə geri döndü. Onun gəlişi qısa müddətli olsa da ermənilər bundan xəbər tutdular. Buna görə də Harazyan müsəlman Milli Komitəsinə şikayət etdi.[3] Əslində isə ermənilərin şikayət etməyə haqları yox idi. Onlar Andranikin gəlməsi ilə intizamsızlığa başlayaraq, müsəlmanları fasiləsiz surətdə narahat edirdilər. Müsəlman Milli Komitəsi də Xəlil bəydən aldığı əmrə əsasən ermənilərin atəşlərinə cavab vermir və müdafiə hazırlıqları görürdülər.[4] Bu vaxt Naxçıvana yaxınlaşan Andranikin bir çox əməllər arxasınca qaçdığı göz qabağında idi. Türk qüvvələri gəlmədən Naxçıvan qəzası ilə bağı 1№-li əmr verdi. Əmrdə deyilirdi:

1. Bu gündən etibarən mən öz qüvvələrimlə Rusiya Respublikası Mərkəzi hökumətinin tabeliyinə və əmrinə keçirəm.

2. Naxçıvan qəzası Brest-Litovsk sülh müqaviləsinə əsasən Rusiya Respublikasının ayrılmaz parçası sayılır.

3. Qəzada müharibə vəziyyəti elan edirəm.

4.Milliyyətindən asılı olmayaraq əhalidən silahlar təcili şəkildə alınacaqdır.

5. Respublika hakimiyyətini qəbul etməyən və ya onun düşmənlərinə yardım edən hər kəs Rusiyaya xəyanət edən şəxs sayılacaq, qeyri-qanuni hərəkətə görə cəzalandırılacaq.[5] Bundan başqa, bunların 3 gün

[1] ATASE A.4. 6520, kls.3188, d.46, F. 7-28, 7-7.
[2] Yenə orada. F. 7-21, 7-7, 7-28. Əliyev. Qanlı günlərimiz. s. 58, 59, 65.
[3] Əliyev. Qanlı günlərimiz. s. 58-60.
[4] Yenə orada, s. 61-65.
[5] Əliyev. Qanlı günlərimiz.



ərzində yerinə yetirilməsi şərt qoyulmuşdu.[1]

Naxçıvanı Sovet Rusiyasının hakimiyyəti altına salmaqla regionu öz nəzarəti altında saxlamaq istəyən Andranik bu məqsədlə Qafqaz komissarı Şaumyana müraciət etdi. O, bu müraciətdə yuxarıdakı fəaliyyətini nəzərə çarpdırır və vəziyyətin səlahiyyətli dairələrə çatdırılmasını xahiş edirdi. Şaumyan da 17 iyul 1918-ci ildə Lenin və Stalinə göndərdiyi bir teleqrafla vəziyyəti bildirirdi.[2] Ayrıca Andranikə də cavab yazdı. Bu cavabda Andranikə salamlarını göndərir, əlaqə yaratmağı və ona yardım etməyi özünə şərəf saydığını qeyd edirdi.[3]

Andranikin məqsədi bir tərəfdən Şaumyanla əlaqə saxlamaq, digər tərəfdən istəklərini müsəlman Milli Komitəsinə bildirmək idi. Bu məqsədlə o, 15 iyulda Müsəlman Milli Komitəsinə bir məktub yazaraq nümayəndələrini Əbrəqunus kəndinə göndərmələrini xahiş etdi. Andranikin yanına gedəcək müsəlman nümayəndələri seçildi, ancaq kimsə cəsarət edib getmədi. Buna görə də Naxçıvandakı erməni qüvvələri komandiri Harazyan Andranikin adından müsəlmanlara silahlarını təhvil vermələrinə dair bir nota verdi.[4] Bu nota ilə bərabər Müsəlman Milli Komitəsinə bildirildi ki, erməni komandanlığının 14 iyul tarixli əmrləri nəzərə alınmış və Andraniklə bərabər hərəkət etmək qərarına gəlinmişdir. Müsəlmanlar bir qədər möhlət istədilər[5] və güclü erməni hücumuna qarşı hazırlığa başladılar.

16 iyulda ermənilər yenə müsəlmanlara silahlarını təhvil verməə təklifini irəli sürdülər. Onlar bu təklifə məhəl qoymayıb hazırlıqlarını davam etdirdilər. Səhərə qədər səngərdə keşik çəkirdilər. [6]

Müsəlmanlar təslim ol təklifinə əhəmiyyət vermir, hazırlıqlarını davam etdirirdilər. Andranik də özündən çox razı halda Nehrəm kəndinə doğru irəlilədi və 17 iyul səhərisi hücuma keçdi.[7] Ancaq gözləmədiyi bir müqavimətlə qarşılaşdı. Öz kəndlərinə hücum ediləcəyini bilən nehrəmlilər qonşu müsəlman kəndlərinin köməyilə müdafiə hazırlıqları

[1] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.
[2] Бакинский рабочий. 20 iyul 1918. № 41.
[3] Hacıyev. Qars və Araz-Türk Respublikaları. S. 44; Adil xan Ziyadxanlı. Azərbaycan (çevirəni Asif Rüstəmov). Bakı, 1990, s.19.
[4] Əliyev. Qanlı günlərimiz. s. 66; Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 10; Əliyev. Qırmızı tabor. s.17.
[5] Nağdəlizadə. Naxçıvan fəlakətinin tarixçəsi; Əliyev. Qanlı günlərimiz. s. 67, 68; Fazil Rəhmanzadə. Əsrə bərabər gecə. B., 1991, s. 81.
[6] Əliyev. Qanlı günlərimiz. s. 66, 67.
[7]Andranikin Nehrəmə hücumu Naxçıvan şəhər müsəlmanlarını həyəcanlandırdı. Top səsləri şəhərə qədər gəlirdi. Şəhərdəki silahlılar ermənilərə hücum etmək istədilər. Ancaq Milli Komitə büna imkan vermədi. Nehrəmə yardıma Hacı Heydər Dünyamalı oğlu və Məşədi Heydər Əkbərov getdilər (Əliyev. Qanlı günlərimiz. s. 56).

görmüşdülər.[1] Buna görə də Andranikin şiddətli hücumlarını müvəffəqiyyətlə dəf etdilər. Nəticədə Nehrəmdə yaxşıca dağılan Andranik dəstələri geri çəkilməyə məcbur oldular.[2] Naxçıvan çayı sahilində və şəhərin ətrafında, yamaclarda mövqe tutdular.[3] Artıq Naxçıvan şəhəri tarixdə saysız-hesabsız yaşamış qanlı günlərdən birinə də səhnə olmağa hazırlaşırdı.

Andranikin dəstələri Nehrəmdə tab gətirməyib Naxçıvana doğru çəkilirdi. Harazyan isə bu vaxt müsəlmanlara üçüncü dəfə silahlarını təhvil verməк təklifi etdi. Ancaq müsəlmanlar silahlarını verib təslim olmaq niyyətində olmayıb, özlərindən qat-qat üstün olan düşmənlə vuruşmağa hazır idilər. Həm də onlar Andranikin əlinə keçməyin ölümdən betər olduğunu bilirdilər və digər tərəfdən, bu vaxtlarda ikinci Qafqaz artilleriyasının Şahtaxtı, Qaraçuğ və Naxçıvana çox yaxınlaşdığını eşitmişdilər, eləcə də Nehrəmdə Andranikin müvəffəqiyyətsizliklərindən xəbərləri var idi. Bütün bunlar onları mənəvi cəhətdən gücləndirir, hazırlıqlarını davam etdirməyə ruhlandırırdı.[4]

Naxçıvan ətrafında yerləşən erməni qüvvələrinin gözləməyə vaxtları yox idi. Türk qüvvələri Naxçıvan ətrafına gəlmiş, ermənilərə hücum etmişdi.[5] Osmanlılar Naxçıvan şəhərinə çatmadan şəhərin tamamilə nəzarətə alınması lazım idi. Şəhər müsəlmanları da Andranikin üç gün ərzində silahları təhvil vermə təklifini qəbul etməmişdilər.[6] Bunun üçün də erməni hücumu başladı. Müsəlmanlar özlərindən on qat artıq olan düşmənlə vuruşdular.[7] Xüsusilə Mustafa Çavuşun başçılığındakı

[1] Xəlil bəy Andranikin Yaycıda törətdiyi soyqırımdan sonra Müsəlman Milli Komitəsinə bir teleqraf göndərmiş və teleqrafda Nehrəm və Cəhri kəndlərinə məktub yazaraq erməni dəstələrinin qarşısının alınmasını bildirmişdir (Əliyev. Qanlı günlərimiz. s. 56).
[2] Əliyev. Qanlı günlərimiz. s. 67, 68; Fazil Rəhmanzadə. Əsrə bərabər gecə. B., 1991, s. 81. Əliyev. Qırmızı tabor. s.17; Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 10; Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.39. Nehrəmdəki müvəffəqiyyətdə payı olanlara daha sonralar XI Qafqaz diviziyasının komandiri Cavid bəy tərəfindən nişan verilmişdi (Əliyev. Qanlı günlərimiz. s. 72,73).
[3] ATASE A. 4. 6520, kls.3188, d.46, f. 7-28. Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 11.
[4] Əliyev. Qanlı günlərimiz. s. 67, 68.
[5] Yenə orada.
[6] Xəlil bəyə görə Andranik yerli türk əhalinin möhlət istəyini qəbul etmiş və bu müddəti 48 saata çatdırmışdı. Möhlətin tam qurtardığı anda türk qüvvələrinin topu Naxçıvanda partlamışdı. Xəlil bəyin Andranikin əmrləri ilə əlaqədar verdiyi tarix 17 iyuldur və buna görə də bir zaman müəyyənləşdirmişdi (ATASE A.1/2, kls.366, d.739-1461, f. 5-1. Əmr tarixi 14 iyuldur.
[7] Nağdəlizadə. Naxçıvan fəlakətinin tarixçəsi. (Əliyev, 18 iyulda ermənilərin Andranikin adından müsəlmanlara bir ultimatum verərək, silahları 24 saat ərzində təhvil



Naxçıvan türkləri vuruşmada böyük qəhrəmanlıq göstərirdi. Şəhər tam bir döyüş meydanına çevrilmişdi. Vuruşmanın ən qızğın vaxtında XI Qafqaz diviziyası naxçıvanlıların imdadına yetişdi və 20 iyulda ermənilər məğlubiyyətə uğradılıb geri çəkilməyə məcbur edildi və türklər Naxçıvana girdilər.[1] Türk qüvvələrinə tab gətirməyən Andranik dəstəsi əvvəlcə Gorus, sonra isə Sisiyana getdilər.[2] Beləcə, türk hissələri dəmir yolundan tamamilə istifadə etmə və bütün qüvvələri ilə Naxçıvan-Təbriz xəttinə qüvvə göndərmə imkanı qazandılar.

Naxçıvana gedən Andranikdən minlərcə ölü, yandırılmış kəndlər və dağıdılmış evlər qalmışdı. Cəllad Andranik Şərqi Anadoluda törətdiklərini bu dəfə də türk dünyasının bir başqa küncündə təkrarlamışdı. 300-dən artıq müsəlman kəndi dağıdılmış, minlərcə insan öldürülmüşdü.[3] «Azərbaycan» qəzeti tərəfindən Andranikin zülmləri yazılmağa başlayınca, Andranikin dəstəsində olan iki rus əsgər bu vəziyyəti 12 dekabr 1918-ci il tarixli «Kavkazskoe slovo» qəzetində təkzib etmişdir. Onlara görə Andranik Naxçıvanda heç bir pislik etməmişdir. Hətta Andranikin əmri ilə müsəlman malına toxunmaq qadağan olunmuş və əmrə tabe olmayanlar güllələnmişdir.[4] Buna inanmaq mümkün deyildir. 1918-ci ilin sentyabr ayının əvvəllərində Naxçıvan və Culfa ermənilərinin təşkilatını yaratmaq vəzifəsi tapşırılan Ero Parazyan da vəziyyəti etiraf etmişdir. Ero Parazyan 7 sentyabr 1918-ci il tarixində hökumətə təqdim etdiyi bir hesabatda yazırdı: Daşnak nümayəndəsi Məlik Musayan və türk ordusu nümayəndəsi Xalil bəy arasında yaxşı münasibət yaranmışdı. Ancaq Andranikin qüvvələrinin buraya gəlməsi işlərə mane oldu.[5] Xəlil bəyin Naxçıvan bölgəsinə gəlməsi və türklərin təşkilatını yaratması nəticəsində ermənilər onunla sülh razılığına gəlmişdilər.

vermələrini təklif etmiş və aradan bir saat keçməmiş hücuma keçdiklərini bildirmişdir (Əliyev. Qanlı günlərimiz. s. 68).
[1] ATASE A.1/2, kls.366, d.739-1461, f. 5-1. Əliyev. Qanlı günlərimiz. s. 68-70. Qafqaz cəbhəsi. II c., s. 541. Aysan. İran cəbhəsi. III c., s. 35.
[2] Кавказское слово, 12 dekabr 1918. Hovanisyan 2 dekabr 1918-ci ildə göndərdiyi bir məktubda Naxçıvanda türk qüvvələri ilə olan vuruşmadan sonra dəstənin özünə gəlməsi üçün Qarabağa getdiyi yazılmışdır.
[3] M.B. Naxçıvan-Şərur məsələsi, «Azərbaycan» qəzeti, 17 iyul 1919, №227. Azərbaycan qəzetində bu məqaləni Məmmədzadə Mirzə Bala adını qısaca M.B. yazmışdı. O, Milli Azərbaycan hərəkatı adlı əsərində də bundan istifadə etmiş, izahlarda M.B. olaraq yazmışdır. (Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Milli Az. Müsavat firqəsi tarixi. Berlin, 1938). Hacıyev. Qars və Araz-Türk Respublikaları. s. 45.
[4] Кавказское слово. 12 dekabr 1918.
[5] Киракасян. Западная Армения. s. 227. Kirakasyan əsərində Ero Harazyanın bu hesabatını yazdıqdan sonra ifadələrini yumşaltmış, Andraniki gördüyü işlərdə nisbətən haqlı saymışdır.

## YERLİ VƏ İNZİBATİ TƏŞKİLATLARIN YARADILMASI

Türk orduları Naxçıvana gəlməmişdən əvvəl bu şəhərdə müsəlman və erməni milli komitələri mövcud idi.[1] Ancaq bölgə türk üsuli-idarəsinə keçəndən sonra bu cür müəssisələr aradan qaldırılır, yerini Osmanlı sistemi tuturdu. Türk hərbi dairələri vəziyyəti nəzarəti altına almış, Şərq Orduları komandanlığı 20 iyul 1918-ci il tarixli teleqrafı ilə Osmanlı üsuli-idarəsinə keçən bölgələrdə idarəetmə təşkilatlarının yaradılması və bununla əlaqədar gərəkli şəxslərin göndərilməsini tələb edirdi.[2]

Tələbin təcili yerinə yetirilməsi mümkün deyildi. Müharibə şəraiti, İstambulun uzaqlığı, nəqliyyat çətinliyi və sistem dəyişikliyi[3] kimi səbəblər bu sahədə əsas faktorlar sayılırdı. Digər tərəfdən, osmanlı üsuli-idarəsinə keçən bölgələrdə tez bir zamanda təşkilati işlərə baxmaq lazım idi. Belə çətinliklər və sıxıntılar üzündən bölgəyə idarəetmə məmurları göndərilmədi, hərbi dairələr işə qarışdı. Yeni ələ keçirilən bölgələrin əhalisinin iştirakı ilə təşkilati işlər başlanıldı.

İlk olaraq 11-ci alay komandiri Süreyya bəy Naxçıvana Hökumət-i məhəlləyə-rəisi (qəza rəisi) təyin edildi.[4] Naxçıvana gələn Süreyya bəy əhalinin nümayəndələri ilə bir yığıncaq keçirdi. Yığıncaqdakı çıxışında Süreyya bəy milli komitənin ləğv edildiyini, yerində jandarma, ədliyyə və bələdiyyə idarələrinin yaradıldığını dedi. Jandarma rəisliyinə Məmmədəli xan, müavini Cani bəy Vəzirov, bələdiyyə rəisliyinə[5] Cəfərqulu xan, üzvlüyə isə Hacı Abdulla Şeyxov, Tağı Nağdəliyev, mülki

[1] ATASE A 1/2. 366, kls. 366, d. 739-1461, f. 5-1. Əliyev. Qanlı günlərimiz. s. 69-72.
[2] ATASE A 4. 6520, kls. 3188, d. 46, f. 6-45.
[3] Osmanlı dövlətinə yeni daxil olan bölgələr uzun müddət Rusiyaya bağlı qalmışdır. Rus sistemi bu bölgələrdə möhkəmlənmişdir. Bir anda rus sistemindən Osmanlı sisteminə keçmək çox çətin idi. Osmanlı dövləti bunu bildiyindən Qafqazda ilhaq edilən bölgələrdə rusların vaxtındakı vergilərin və keçmiş bələdiyyə sisteminin davam etdirilməsini məqsədəuyğun hesab etdi (BOA, MVM. 22 may 1334.1918, 212.32; BOA, MVM 4 sentyabr 1334. 1918, 212.169).
[4] Osmanlı hərbi yazılarında Hökuməti-məhəlliyə-rəisliyi şəklindədir. Əliyev isə öz xatirələrində bu vəzifəni ümumiyyətlə mütəsarif (qəza rəisi) adlandırsa da, bəzən hökuməti-məhəlliyə adlandırmışdır. Xalis Turqut bəy özünün 1918-ci ilin oktyabrında Naxçıvan yerli hökuməti rəisi vəkili təyin edildiyini qeyd etmişdir (ATASE A 4. 8314, kls. 251, d. 1-4, f. 14.3-1), Naxçıvanda da yerli hökumət rəisi (Hökuməti-məhəlliyə-rəisliyi) mövcud olmuşdur (ATASE A 4. 8314, kls. 251, d. 1-4, f. 2-2.17). Xalis Turqut bəy də Naxçıvan hökumətinin mülki məmuru olduğunu söyləməsi bu səbəbdəndir(TBMM Arxivi).
[5] Eyni dövrdə Şərur, Qəmərli və Culfada bələdiyyələr təyin edilmişdir (ATASE A 4. 8314, kls. 251, d. 1-4, f. 43-1).



məhkəməyə Şeyx-Kərim Axundzadə, Cabbar Kələntərov, Vəli ağa Kəndlinski təyin olundular.[1] Onlar dərhal vəzifələrinin icrasına başladılar. 11-ci Qafqaz diviziyasının Təbrizə hərəkəti qərara alınınca, Süreyya bəyin yerinə Naxçıvan Yerli hökumət rəisliyinə mayor Əli Şəfəq bəy təyin olundu.[2]

Əli Şəfəq bəy Naxçıvan bölgəsində bir sıra dəyişikliklər apardı və qaydalar qoydu. İlk olaraq jandarma komandirliyinə Cavad bəy adlı bir türk zabiti təyin etdi. Keçmiş komandiri və müavini isə onun müavinləri oldular. Ancaq bir müddətdən sonra jandarma komandirləri müavinlərindən Cani bəy Culfa Anbar məmurluğuna təyin edildi. Həmin günlərdə (11-12 avqust) Cəfərqulu xan Naxçıvan bələdiyyə rəisliyi vəzifəsindən çıxdı. Yerinə qardaşı Rəhim xan gəldi. Naxçıvan qəzası nahiyələrə bölündü, nahiyələrə müdirlər müəyyənləşdirildi. Bu zaman İbrahim bəy Qədimov Şərur nahiyəsi müdiri vəzifəsinə, Naxçıvanın keçmiş şeflərindən Cabbar ağa Vəzirov isə şəhər polis idarəsi müdirliyinə təyin edildi. Eləcə də şəhərdə məhəllə muxtarları təyin olundu[3] və yerli işlər çox asan bir şəkildə getməyə başladı.

Naxçıvan bölgəsində türk hərbi dairələri ilə yerli əhali imkanları daxilində yerli və inzibati idarələr yaradılması sahəsində müəyyən işlər görürdülər. Osmanlı hökuməti də boş durmurdu. 1918-ci ildəki şərq əməliyyatları nəticəsində əldə edilən Elviyə-i-Selase və Batumi müqaviləsinə əsasən ələ keçirilən bölgələrdə inzibati idarənin qurulması üçün fəaliyyət başlamışdı.

Brest-Litovsk müqaviləsinə görə Türkiyəyə verilən «Elviyə-i-Selasedə» Türkiyə ilə birləşməyi istəmələri üçün plebist (rəy sorğusu) keçirmək lazım idi. Plebist keçirildi və xalqın xeyli hissəsi türk üsuli-idarəsini üstün tutdu. Buna görə də 15 avqust 1918-ci ildə padşah Mə-

[1] Mədətov. Naxçıvan türk üsul-idarəsinə keçdikdən sonra Milli Komitə öz fəaliyyətini davam etdirdiyini və bu komitə ilə türk hərbi dairələri arasında Rəhim xan, Kamran xan və Cabbar ağa Vəzirovun əlaqə saxladıqlarını yazırdı (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 41). Hacıyev də bu fikirləri qeyd edir. (Hacıyev. Qars və Araz-Türk Respublikaları. s. 46). Buna görə də türklər Naxçıvanın Türkiyəyə verildiyini elan etdikdən sonra 17 iyulda Naxçıvan Milli Şurasını ləğv edib, əvəzində Türkiyə bələdiyyəsi yaratdılar. Naxçıvan vilayətinə Türkiyə kaymakamı, Naxçıvan, Şərur, Ordubad bölgələrinə isə türk komandirləri təyin edildi (İbrahimov. Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. s. 492).
[2] Əliyev. Qanlı günlərimiz. s.72-75.
[3] Bu dövrdən sonra idari dairələrdə bir sıra dəyişikliklər oldu. Məsələn Naxçıvan yerli hökumətinə bağlı olan Qəmərli nahiyyə müdirliyinə Mirzə Tağı Nağdəliyev təyin olundu, o, bunu qəbul etmədi. Bu vəzifə Cəmil bəyə verildi (11 sentyabr 1918). Bundan iki gün əvvəl Əli Şəfiq bəy Rəhim xanı bələdiyyə rəisliyindən azad edib yerinə Mirzə Bağır Əliyevi təyin etmişdi (Əliyev. Qanlı günlərimiz. s.75-79).

həmməd Vəhidəddin tərəfindən Elviye-i-Selase əhalisinə bir bəyannamə verildi və rəsmən bu torpaqlar Türkiyəyə ilhaq edildi.[1] Bu ilhaq qərarından sonra bölgədə Batumi müqaviləsi əsasında alınan yerlər də daxil olmaqla idarəetmə, hərbi və maliyyə işlərinin qaydaya salınması sahəsində fəaliyyət başlandı.

Daxili işlər nazirliyinin səlahiyyətli şaxslərindən toplanan bir heyəti Elviyə-i-Selase, Gümrü, Axıska, Axılkələk və Sürməli bölgələrinin inzibati, hərbi və maliyyə işləri ilə əlaqədar bir sıra qərarlar qəbul etdi. Qərarlarda Elviyə-i-Selasedə bir sıra qaydaların qoyulması ön plana çəkilirdisə, Gümrü, Axıska, Axılkələk və Sürməli üçün fərqli şərtlər - məsələlər meydana çıxmışdı. Buna görə də bu bölgələr «Elviye-i-Selase» kimi hələ Osmanlı dövlətinə ilhaq edilmədiyindən kadrların tənzimlənməsi üçün məmur göndərilməsinə imkan yox idi. Daxili işlər nazirliyinin məsləhətçisi tərəfindən göndərilən məlumata görə, adı göstərilən rayonlar iki qəsəbəyə ayrılaraq xüsusi şəkildə idarə olunacaqdı. Ancaq qarışıqlığa yol verilməməsi üçün Elviye-i-Selasedə qanunlar və vergilər necə tətbiq olunurdusa, Axılkələk, Gümrü və Sürməli[2] də eyni cür olması məqsədəuyğun sayılmışdı.

Hazırlanan bu layihələr vəkillər məclisinə təqdim olunmuş və bu məclisin 4 sentyabr 1918-ci ildə keçirilən yığıncağında qeyd olunan bölgələrin idarə edilməsi və əlaqədar təşkilatın, ümumi idarə edilməsinin qanuni layihələrinin hazırlanması yuxarıda adı çəkilən heyətə tapşırılmışdı. İşlər sürətlə davam etdirilirdi. 7 sentyabr 1918-ci il tarixdə Daxili İşlər Nazirliyi Batumi və Qars qəsəbələrindən ibarət 1 vilayət, inzibati cəhətdən bu vilayətə bağlı 23 qəza və 100 nahiyənin təşkilinin vacib olması həqqında Əsbabi-Mucibə layihəsi (Lazımi səbəblər layihəsi) nəşr etdirdi.[3] 11 sentyabrda qərarnamə hazırlanması üçün layihə məclisi-ümumiyyəyə göndərildi.[4] Batumi vilayətinin təşkili haqqında hazırlanan qərarnamə 14 sentyabrda qəbul edildi və qüvvəyə mindi. Qərarnamənin surəti belə idi.

Birinci maddə – Qars, Ərdahan və Mərkəzə bağlı Batumi və Qars qəsəbələrindən ibarət Batumi vilayəti təşkil olunmuşdur. Batumi qəsəbəsi – Orta Batumi, Çürüksu, Borska, Maradit, Aşağı Acara, Yuxarı Acara, Artvin, Ardanuç, Şavşat qəzaları ilə 35 nahiyədən, Qars qəsəbəsi – Ərdahan, Gölə, Çıldır, Nəfsi Qars, Şürəkəl, Ağbaba, Zaraşad, Sarıqamış, Xorasan, Kağızman, Naxçıvan, Oltu, Tavuşkerd və Panof qəzaları ilə 65 nahiyədən ibarətdir.

---

[1]BOA. DUİT, 1-1.

[2] Burada Naxçıvanın adının çəkilməsi anlaşılmazdı. Bu bölgələrlə birlikdə Naxçıvan da Türkiyənin bir hissəsi olmuşdur. Ola bilsin ki, adı unudulmuş və ya Sürməli bölgəsi nəzərdə tutulmuşdur.

[3] ATASE A 4. 6520, kls. 3188, d. 46, f. 6-39.

[4]BOA. DUİT, 1-1.



İkinci maddə – Qeyd edilən vilayətlərin özəl vəziyyətlərinə görə və ümumi idarə olunma qanunlarına əsasən ilhaq olunmamış bu yerlər vilayətə bağlanacaqdır.

Üçüncü maddə – Vilayət, qəsəbə, qəza və nahiyələr vilayətə aiddir.

Dördüncü maddə – Bu qərarnamə nəşr olunduğu gündən etibarlıdır.

Beşinci maddə – Bu qərarın icrasına vəkillər heyəti məsuldur.

14 sentyabr 34-cü il.[1]

Göründüyü kimi türk inzibati sisteminə uyğun təşkil edilən Batumi vilayətinə Naxçıvan bir qəza olaraq daxil edilmişdir. Beləcə, Şərq Orduları qrup komandanlığının baş komandanlığa verdiyi Batumi müqaviləsinə əsasən Türkiyənin əlinə keçən bölgədə inzibati təşkilatın yaradılması haqqındakı təklifi[2] bir ay sonra ancaq həyata keçirilə bilmişdir. Xalis Turqut bəy 1918-ci ilin oktyabr ayında Naxçıvan vilayətinə qəza rəisi[3] təyin olunmuşdur.[4] Xalis Turqut bəy Naxçıvana təyin olunması ilə əlaqədar bu məlumatı vermişdir: 1333 və 1334-cü illərdə batalyon yavəri idim. Həmin ildə Naxçıvan inzibati hökumətinin təşkilinə qatıldım və rəis vəkili (mütəşərrif vəkili) oldum. Bu vəzifəni icra edərkən ehtiyatda olan zabit deyildim, əsgər idim.[5] Xalis Türqut bəy bu vəzifədə qısa müddət çalışdı. Bölgənin boşaldılması haqqında qərar verildi. 1918-ci ilin noyabr ayında bölgədən getmək məcburiyyətində qaldı. Tərxis edildi və Sivasa qayıtdı.[6] Xalis Turqut bəyin bölgədən nə vaxt ayrıldığını bilmirik. Ancaq bildiyimiz budur ki, türk ordusu bölgədən çıxana qədər Naxçıvan Yerli hökümət rəisi Əli Şəfiq bəy burada qalmış, yerli əhalini öz idarəetmə və hərbi təşkilatlarını yaratmasında böyük rol oynamışdır.[7]

---

[1] BOA. DN-İVM, E/40-30; DUİT 1-1. Ankara, 1956, s. 105-106.

[2] ATASE A 4. 6520, kls. 3188, d. 46, f. 6-45.

[3] O dövrdə əsgərlikdə olan Xalis Turqut bəy Naxçıvan inzibati hökumətinin yaradılmasına təyin edilmişdir. belə başa düşmək olar ki, Xalis Turqut bəy Yerli hökumət rəisi Əli Şəfiq bəyə idarəetmə işlərində köməkçi olaraq təyin edilmişdir. Bəlkə də mütəsərriflik-yerli Hökumət mənasındadır. Əslində Naxçıvanda mütəsərriflikdən söz açmaq mümkün deyildi. 14 sentyabr tarixli qərarnaməyə əsasən Naxçıvan sancaqdır, qəza deyildir.

[4] Çankaya. Mülkiyyətlər. IV c., s. 1522.

[5] QBMM Arxivi. QBMM üzvünün tərcümeyi-hal sənədi nümunəsi. № 619.

[6] Evliqaya. Mülkiyyətlər. IV c., s. 1522.

[7] ATASE A 4. 8314, kls. 251,d . 1-4, f. 17, 35-3, 35-4.

## ARAZ-TÜRK HÖKUMƏTİNİN QURULMASINA GEDƏN YOL

Batumi müqaviləsinə əsasən hüquqi cəhətdən Türkiyə torpaqlarına birləşmiş Naxçıvan, Şərur, Qəmərli, Uluxanlı, Sərdarabad və Vedinin türk-müsəlman əhalisi ordunun çıxarılmasını eşidən kimi böyük bir qorxuya, həyəcana düşdü. Çünki onları qara günlər gözləyirdi. 1918-ci ilin yaz və yay aylarında onları erməni zülmündən qurtaran türk ordusu regiondan çıxmağa hazırlaşırdı. Deməli, yenidən tarixən düşmənləri olan ermənilərlə üz-üzə gələcəkdilər. Son illərdə mükəmməl şəkildə silahlanan, nizamlı hissələr yaradan və ən mühümü bir dövlətə sahib olan, Rusiya və Antanta dövlətlərindən dəstək alan ermənilərin hücumlarından müsəlmanları müdafiə edən yeganə bir qüvvə türk ordusu idi. Türklər getdiyinə görə müsəlmanlar sahibsiz qalacaqdılar. Buna görə çox narahat idilər. Tez-tez türk səlahiyyətli şaxslərindən nə edəcəklərini soruşur, xahişlər edirdilər. Ən mühüm ricaları isə əgər türk ordusu onları qorumayacaqsa, onda onların müraciət etmələrinə kömək etmələri idi.

Ancaq türk hərbi dairələri əhalini köçmək fikrindən uzaqlaşdırır, onları Milli Müdafiə və daha mühümü Milli təşkilat yaratmağa sövq edirdilər. IX Ordu komandiri Yaqub Şövqü paşanın səlahiyyətli dairələrə, xalqın nüfuzlu şəxslərinə çatdırmaq üçün göndərdiyi 2 noyabr 1918-ci il tarixli teleqram Araz vadisi tarixinin dönüş nöqtəsini təşkil etdi.[1] Bu teleqramda gələcəkdə erməni hücumundan qorunmaq üçün əhaliyə silah paylanacağı və s. bildirildi, ən mühüm o idi ki, qəzanın əhalisi öz bölgələrində bir yerli hökumət qurub,[2] bütün işləri öz əllərinə almalı[3] və beləcə idarə etməlidirlər.[4] Y.Şövqü paşa milli təşkilat yaratmaq üçün xalqa

[1] Brest-Litovsk müqaviləsinə daxil olmayan regionları boşaltma əmrini alan kimi türk ordusunun səlahiyyətli dairələri xalqın gələcəyi üçün narahat olurdular. Bununla əlaqədar hökumət orqanları arasında müəyyən fikirlər gəzdi. Bunlardan biri, şübhəsiz ən əhəmiyyətlisi, erməni təhlükəsinə qarşı sərhədboyu və o tərəfdəki xalqın təşkilatını yaratmaq, xalqa silah paylamaq və bölgədə zabit saxlamaqdır (BOA, BEO, Daxili İşlər Nazirliyi dəftəri, № 475, 173/5/2).

[2] Əvvəlcə qeyd etdiymiz kimi Yerli (məhəlli) hökumətlər türk hərbi dairələrinin əlində idi. Bu səbəbdən xalqdan özlərinə yeni hökumət qurmaları tələb olunurdu. Y.Şövqü paşa bölgənin sahibsizliyini nəzərə alaraq belə bir hökumət qurmağa çalışırdı.

[3] Əslində bu bölgə hüquqi cəhətdən heç bir dövlətin torpağı deyildir. Vilsonun fikrinə görə bölgədə əksəriyyəti təşkil edən türklər hakimiyyətdə olmalı idilər.

[4] ATASE A 4/8314, kls. 251, d. 1-4, f. 2. Y.Şövqü paşa milli təşkilatlarla əlaqədar əhaliyə məsləhətlər verirdi. Bəzi komandirlər də öz fikirlərini bildirirdilər. Şərq orduları qrupunun Təbriz nümayəndəsinin IX ordu komandanlığına göndərdiyi 2 noyabr 1918-ci il tarixli teleqrafda yazılmışdır: 1) İrandan çıxdıqdan sonra Təbriz və ətrafını erməni quldurlarının hücumundan qorumaq üçün təşkilata ehtiyac vardır. 2) Culfadan başlayaraq Qafqazdan çıxdığımız yerlərdə əhalini qorumaq və müdafiə etmək üçün təşkilat yaradılmalıdır. 3) Buralardan çıxdıqdan sonra bacarıqlı və etibarlı siyasi məmurlar təyin edilərək, Təbriz ilə əlaqənin saxlanılması lazımdır (ATASE A 4, kls. 251, d. 1-4, f. 6).



əmr və dəstək verir, həm də onları sakitləşdirmək üçün dairələrinin onların can, mal və namuslarını qorumaq üçün hər cür tədbir görəcəyini bildirir.[1]

Türk ordusunun imkan daxilində əhalini mühafizə etmək üçün fikirləşdiyi ən böyük iş onların təşkilatını yaratmaq, onların idarəetmələrini öz ixtiyarlarına vermək idi. Bu məqsədlə Y.Şövqü paşanın 2 noyabr tarixli əmrinə oxşar 3 noyabr 1918-ci ildə IX Ordu komandanlığına bu məlumatı vermişdir: 3.11.1918-ci ilə tarixli əmrinə əsasən Naxçıvan, Şahtaxtı, Yengicə, Noraşen, Qəmərli və Sərdarabad bölgələrində bir baş müdirlik, bu bölgələr arasında təşkil edilmiş baş müvəkkilliklər təşkil edilməsi qərara alındı. Onlarm hamısının İqdırda yerləşən yerli hökumətlə əlaqə saxlamaqla fəaliyyətə başlamaları münasib şəxslərə bildirildi. Baş müdirliklər əhalinin təhlükəsizliyini təmin etməli, hörmət və ehtiramını qazanmalı, yerli hökümət-idarəetmə işlərinə alışmalıdır.

Ancaq bu bölgənin əhalisinin hər bacarıqlı, nüfuzlu rəhbərə ehtiyacları olmuşdur. Bu qənaətdəyik ki, İqdırda olan yerli hökumət rəisi və milis təşkilat mərkəzləri zamanı və şəraiti müvafiq bölgə əhalisi tərəfindən hər cür qeydiyyat və sirrlər mühafizə edilməklə tərxis edilən və ehtiyat zabitlərdən münasib miqdarda saxlayarlarsa çox əhəmiyyətli olar. Qalmaq istəyənlər də var.[2] Müvafiq hərəkət haqqında əmr və məlumat verilməlidir.[3]

Göründüyü kimi Araz-Türk hökumətinin təməli qoyulmuş və ordu komandirindən bir sıra məsləhətlər alınmışdır. Mühümü o idi ki, yaranacaq təşkilatlarda təcrübəli şəxslərə ehtiyac olduğundan tərxis olunan ehtiyat zabitlərindən müəyyən miqdarda hökumətin tərkibinə daxil edilməsi məqsədəuyğun hesab edilirdi. Regionda təşkilat yaratmaqla böyük əməyi olan IX Ordu komandiri Y.Şövqü paşa Rüşdü bəyin təklifinə səhərisi gün dərhal cavab verdi. Cavaba görə: Tərxis olunan ehtiyat zabitlərindən İqdır, Naxçıvan və ətrafından təşkilata daxil olmaq istəyənlərdən istifadə etmək müvafiqdir.[4] Ancaq onların Osmanlı informasiya olmaması və onların ordu və ya hökumət tərəfindən göndərildiyi

[1] ATASE A 4/8314, kls. 251, d. 1-4, f.5.

[2] İbrahim bəy xatirələrində göstərirdi ki, türk zabitləri bölgəni tərk etdikləri zaman çox məyus idilər. (Cahangiroğlu. İ. Xatirələr. s. 5).

[3] ATASE A 4/8314, kls. 251, d. 1-4, f.22-1.

[4] Bölgədə təşkil edilən Araz-Türk hökumətinin tərkibində işləyənlərdən biri TBMM 2-ci dövr Ərzurum deputatı Hüseyn Avni (İlaqi) bəydir. Fəxrəddin Kırzıoğlu. Ədəbiyyatımızda Qars. II. İst., 1958, s. 148.

deyilməməlidir.[1] Artıq bölgədə milli təşkilatın yaradılması üçün böyük bir fəaliyyət başlamışdı. Fəaliyyətin 2 əsas nöqtəsi var idi: Naxçıvan, İqdır. Burada işi icra edənlər türk ordusuna mənsub, yerli hökumətə rəhbərlik edən Əli Şəfiq və Məhəmməd Mühiddin bəylər idi. Naxçıvan yerli hökuməti rəisi mayor Əli Şəfiq bəy, Y.Şövqü paşanın 2 noyabr tarixli əmrinə əsasən fəaliyyətini davam etdirirdi.[2] İlk əvvəl keçmiş Qəmərli, Şərur, Naxçıvan, Yengicə və Ordubad nahiyələri yenidən təşkil edilmiş və daha əvvəllər Əli Şəfiq bəyin müavinləri olan Məşədi Əli Əsgər ağa[3] məmləkəti olan Yengicə nahiyəsinə müdir təyin olunmuşdu.[4] IX Qafqaz diviziyası komandanlığı Naxçıvandakı təşkilat yaratmaq cəhdlərini yaxından izləyirdi. Bu məqsədlə Naxçıvan yerli hökumət rəisliyinə görüləcək işlərlə əlaqədar təkliflərini irəli sürdü. Rüşdü bəyin təklifləri bunlardı: 1) Naxçıvan tacirlərindən Mirzə Nəsrullah bəyin[5] yerli hökumət rəisi müavinliyinə təyini. 2)Naxçıvan bölgəsindəki fəaliyyətlərinin sürətlə davam etdirilməsi və lazım olan məhəllələrin baş müvəkkillik və müvəkkilliklərə ayrılması. 3) Baş müvəkkillikdən bir şəxs kimi üzv idarə işlərinə daxil edilməsi üçün lazımi tədbirlərin görülməsi. 4) Polis müdiri Abbasqulu bəylə, nahiyə müdiri Mirzə Məmmədxanın üzvlər şürasına daxil edilməsi və bu heyətin hökumət işlərinə alışdırılması, hökumət işlərinə başlaması. 5) Eyni vaxtda milis və jandarma təşkilatının genişləndirilməsi.

Əli Şəfiq bəy 9-cu diviziyasından aldığı şifrəli teleqramın surətini 13-14 noyabr 1918-ci il tarixdə Y.Şövqü paşaya göndərir və buna görülən işlər haqqında məlumatı və təklifləri əlavə edir. Lazımi göstəriş verilməsini xahiş edirdi.[6]

1) Naxçıvan qəzasının idarəetmə təşkilatı yerli əhalidən təşkil olunmalı, işlər onlar vasitəsilə həyata keçirilməlidir.

---

[1] Bölgədə qalmaq istəyənlərin adları, rütbələri orduya bildirilməli idi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f.22).

[2] Əli Şəfiq bəy və Naxçıvandakı digər nüfuzlu şəxslər Naxçıvanda təşkilat yaratmaq fəaliyyətlərini xoş bir niyyətlə davam etdirdiyi halda, bəzi adamla xalq arasında narazıçılıq yaradır, işləri pozmağa çalışırdılar. Tiflisdə erməni və gürcü pulu ilə yaradılan Hümmət cəmiyyətinin nümayəndələiri Əli Şəfiq tərəfindən təyin edildi. Vəziyyət 4 noyabrda Y.Şövqü paşaya bildirildi. Paşa bu cəmiyyəti idarə edənlərin həbs olunmasını tələb etdi (Gökdəmir. Qafqaz hökuməti. s. 55).

[3] Cahangiroğlu İbrahim bəy Məşədi Əli Əsgər ağa deyə bəhs edərkən (Cahangiroğlu. Xatirələr. s. 22-25) Əliyev Məşədi Əsgər ağa Həmzəyev olaraq ifadə edir (Əliyev. Qanlı günlərimiz. s. 94).

[4] Əli Şəfiq bəy görülən işlər haqqında 9 noyabr 1918-ci ildə Ordu komandanlığına məlumat verdi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f.17).

[5] Adı çəkilən Naxçıvan Müsəlman Milli Komitəsi sədri Mirzə Nəsrullah Əmirovdur. Ancaq türk hərbi yazışmalarında Əmirov yerinə Əmir kimi qeyd olunmuşdur.

[6] ATASE A 4. 8314, kls. 251, d.1-4, f.35-3, 35-4.



2) Hər bir nahiyədəki kəndlərdə bir baş müvəkkillik idarəsi olması və onların nahiyə müdirliyinə tabe olması vacibdir. Buna görə də baş müvəkkillikdən üzv lazım deyil.

3)Jandarma təşkilatının genişləndirilməsi tapşırıldığından jandarmaların sayı müəyyən miqdarda artırılmalıdır.

4) 2 noyabr tarixli əmrinizə uyğun olaraq Sərdarabaddan Ordubada qədər Araz vadisindən bölgədən təşkilat yaradılmasına çalışdığından sizinlə görüşmək üçün Qarsda nümayəndə olan, idarəetmə məclisi üzvlərindən Mirzə Nəsrullah əmir bəyin baş müdir kimi təşkilata daxil edilib-edilməməsi və Ordubada qədər yaradılan təşkilatın əsas kimi qəbul edilməsi haqqında məlumat verilməsi.

Əli Şəfiq bəyin verdiyi məlumatlardan aydın olur ki, regionda təşkilat yaratmaq işi sürətlə gedir və idarəetmə təşkilatlarının yaradılmasına çalışırlar.

İqdırda bu fəaliyyət davam edir. İqdır yerli hökumət rəisi Məhəmməd Mühiddin bəyin bildirdiyinə görə burada müsəlman əhali İdtihadi millət firqəsi adlı hərbi təşkilat yaratmışdı. 11 noyabrda təşkilatın yığıncağı keçirilmiş, ordudan silah və döyüş sursatı istəmişdilər.[1] Beləliklə, qurulacaq hökumət üçün bütün lazımi işlər yerinə yetirilirdi.

Daha əvvəl qeyd etdiyimiz kimi, türk ordusunun qabaqcıl nümayəndəsi kimi Naxçıvana gələn Xəlil bəy regionda kiçik bir müsəlman ordusu yaratmaq fikrində idi. Şahtaxtı, Şərur və Naxçıvanda təşkil edilən hissələrə piyada və topçu təlimi keçirilmiş, Ordubadda yerli adamlardan ibarət nizamlı bir hissə yaradılmışdı. Bölgədə əvvəl yaradılmış könüllülər dəstəsi türk ordusu gəldikdən sonra da fəaliyyətini davam etdirirdi. Sərhədlərdə erməni təhlükəsinə qarşı könüllü süvarilər kəşviyyatlar aparırdılar.[2] 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəyin fəaliyyəti ilə əlaqədar könüllü təşkilatlar genişləndi.[3] Cahangiroğlu İbrahim bəyin qeyd etdiyinə görə, 20-ə qədər könüllü batalyon yaradılmışdı.[4] 250-500 nəfərdən ibarət bu birliklərdən 4 batalyon Naxçıvanda, 3 batalyon Şərur-Dərələyəzdə və digər batalyonlar Vedibasar, Zəngibasar, Qəmərli, Başkənd (Aralıq) kəndində idi. İqdırda belə bir təşkilat yox idi.[5]

İbrahim bəyin İqdır üçün bu ifadəni işlətməsinə baxmayaraq,

---

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 24; Ender Kökdemir, Cənubi-qərbi Qafqaz hökuməti. Ankara, 1989, s. 51.

[2] ATASE A 6. 5649, kls. 4844, d. 293, f. 21; Əliyev. Qanlı günlərimiz. s. 71, 73, 76-77.

[3] ATASE A 6. 5649, kls. 4844, d. 293, f. 20-2.

[4] Kökdəmirin əsərindən aldığımız hissədən: 20-yə qədər batalyon təşkil etmişdik. Bəziləri isə türk ordusu orda ikən bu təşkilatı yaratmışdılar, - deyə yazır (Kökdemir, Cənubi-qərbi Qafqaz hökuməti. s. 51).

[5] Cahangiroğlu. Xatirələr, s. 9-10

deyilməməlidir.[1] Artıq bölgədə milli təşkilatın yaradılması üçün böyük bir fəaliyyət başlamışdı. Fəaliyyətin 2 əsas nöqtəsi var idi: Naxçıvan, İqdır. Burada işi icra edənlər türk ordusuna mənsub, yerli hökumətə rəhbərlik edən Əli Şəfiq və Məhəmməd Mühiddin bəylər idi. Naxçıvan yerli hökuməti rəisi mayor Əli Şəfiq bəy, Y.Şövqü paşanın 2 noyabr tarixli əmrinə əsasən fəaliyyətini davam etdirirdi.[2] İlk əvvəl keçmiş Qəmərli, Şərur, Naxçıvan, Yengicə və Ordubad nahiyələri yenidən təşkil edilmiş və daha əvvəllər Əli Şəfiq bəyin müavinləri olan Məşədi Əli Əsgər ağa[3] məmləkəti olan Yengicə nahiyəsinə müdir təyin olunmuşdu.[4] IX Qafqaz diviziyası komandanlığı Naxçıvandakı təşkilat yaratmaq cəhdlərini yaxından izləyirdi. Bu məqsədlə Naxçıvan yerli hökumət rəisliyinə görüləcək işlərlə əlaqədar təkliflərini irəli sürdü. Rüşdü bəyin təklifləri bunlardı: 1) Naxçıvan tacirlərindən Mirzə Nəsrullah bəyin[5] yerli hökumət rəisi müavinliyinə təyini. 2)Naxçıvan bölgəsindəki fəaliyyətlərinin sürətlə davam etdirilməsi və lazım olan məhəllələrin baş müvəkkillik və müvəkkilliklərə ayrılması. 3) Baş müvəkkillikdən bir şəxs kimi üzv idarə işlərinə daxil edilməsi üçün lazımi tədbirlərin görülməsi. 4) Polis müdiri Abbasqulu bəylə, nahiyə müdiri Mirzə Məmmədxanın üzvlər sürasına daxil edilməsi və bu heyətin hökumət işlərinə alışdırılması, hökumət işlərinə başlaması. 5) Eyni vaxtda milis və jandarma təşkilatının genişləndirilməsi.

Əli Şəfiq bəy 9-cu diviziyasından aldığı şifrəli teleqramın surətini 13-14 noyabr 1918-ci il tarixdə Y.Şövqü paşaya göndərir və buna görülən işlər haqqında məlumatı və təklifləri əlavə edir. Lazımi göstəriş verilməsini xahiş edirdi.[6]

1) Naxçıvan qəzasının idarəetmə təşkilatı yerli əhalidən təşkil olunmalı, işlər onlar vasitəsilə həyata keçirilməlidir.

[1] Bölgədə qalmaq istəyənlərin adları, rütbələri orduya bildirilməli idi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f.22).

[2] Əli Şəfiq bəy və Naxçıvandakı digər nüfuzlu şəxslər Naxçıvanda təşkilat yaratmaq fəaliyyətlərini xoş bir niyyətlə davam etdirdiyi halda, bəzi adamla xalq arasında narazıçılıq yaradır, işləri pozmağa çalışırdılar. Tiflisdə erməni və gürcü pulu ilə yaradılan Hümmət cəmiyyətinin nümayəndələiri Əli Şəfiq tərəfindən təyin edildi. Vəziyyət 4 noyabrda Y.Şövqü paşaya bildirildi. Paşa bu cəmiyyəti idarə edənlərin həbs olunmasını tələb etdi (Gökdəmir. Qafqaz hökuməti. s. 55).

[3] Cahangiroğlu İbrahim bəy Məşədi Əli Əsgər ağa deyə bəhs edərkən (Cahangiroğlu. Xatirələr. s. 22-25) Əliyev Məşədi Əsgər ağa Həmzəyev olaraq ifadə edir (Əliyev. Qanlı günlərimiz. s. 94).

[4] Əli Şəfiq bəy görülən işlər haqqında 9 noyabr 1918-ci ildə Ordu komandanlığına məlumat verdi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f.17).

[5] Adı çəkilən Naxçıvan Müsəlman Milli Komitəsi sədri Mirzə Nəsrullah Əmirovdur. Ancaq türk hərbi yazışmalarında Əmirov yerinə Əmir kimi qeyd olunmuşdur.

[6] ATASE A 4. 8314, kls. 251, d.1-4, f.35-3, 35-4.



2) Hər bir nahiyədəki kəndlərdə bir baş müvəkkillik idarəsi olması və onların nahiyə müdirliyinə tabe olması vacibdir. Buna görə də baş müvəkkillikdən üzv lazım deyil.

3)Jandarma təşkilatının genişləndirilməsi tapşırıldığından jandarmaların sayı müəyyən miqdarda artırılmalıdır.

4) 2 noyabr tarixli əmrinizə uyğun olaraq Sərdarabaddan Ordubada qədər Araz vadisindən bölgədən təşkilat yaradılmasına çalışdığından sizinlə görüşmək üçün Qarsda nümayəndə olan, idarəetmə məclisi üzvlərindən Mirzə Nəsrullah əmir bəyin baş müdir kimi təşkilata daxil edilib-edilməməsi və Ordubada qədər yaradılan təşkilatın əsas kimi qəbul edilməsi haqqında məlumat verilməsi.

Əli Şəfiq bəyin verdiyi məlumatlardan aydın olur ki, regionda təşkilat yaratmaq işi sürətlə gedir və idarəetmə təşkilatlarının yaradılmasına çalışırlar.

İqdırda bu fəaliyyət davam edir. İqdır yerli hökumət rəisi Məhəmməd Mühiddin bəyin bildirdiyinə görə burada müsəlman əhali İdtihadi millət firqəsi adlı hərbi təşkilat yaratmışdı. 11 noyabrda təşkilatın yığıncağı keçirilmiş, ordudan silah və döyüş sursatı istəmişdilər.[1] Beləliklə, qurulacaq hökumət üçün bütün lazımi işlər yerinə yetirilirdi.

Daha əvvəl qeyd etdiyimiz kimi, türk ordusunun qabaqcıl nümayəndəsi kimi Naxçıvana gələn Xəlil bəy regionda kiçik bir müsəlman ordusu yaratmaq fikrində idi. Şahtaxtı, Şərur və Naxçıvanda təşkil edilən hissələrə piyada və topçu təlimi keçirilmiş, Ordubadda yerli adamlardan ibarət nizamlı bir hissə yaradılmışdı. Bölgədə əvvəl yaradılmış könüllülər dəstəsi türk ordusu gəldikdən sonra da fəaliyyətini davam etdirirdi. Sərhədlərdə erməni təhlükəsinə qarşı könüllü süvarilər kəşviyyatlar aparırdılar.[2] 9-cu Qafqaz diviziyası komandiri Rüşdü bəyin fəaliyyəti ilə əlaqədar könüllü təşkilatlar genişləndi.[3] Cahangiroğlu İbrahim bəyin qeyd etdiyinə görə, 20-ə qədər könüllü batalyon yaradılmışdı.[4] 250-500 nəfərdən ibarət bu birliklərdən 4 batalyon Naxçıvanda, 3 batalyon Şərur-Dərələyəzdə və digər batalyonlar Vedibasar, Zəngibasar, Qəmərli, Başkənd (Aralıq) kəndində idi. İqdırda belə bir təşkilat yox idi.[5]

İbrahim bəyin İqdır üçün bu ifadəni işlətməsinə baxmayaraq,

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 24; Ender Kökdemir, Cənubi-qərbi Qafqaz hökuməti. Ankara, 1989, s. 51.

[2] ATASE A 6. 5649, kls. 4844, d. 293, f. 21; Əliyev. Qanlı günlərimiz. s. 71, 73, 76-77.

[3] ATASE A 6. 5649, kls. 4844, d. 293, f. 20-2.

[4] Kökdəmirin əsərindən aldığımız hissədən: 20-yə qədər batalyon təşkil etmişdik. Bəziləri isə türk ordusu orda ikən bu təşkilatı yaratmışdılar, - deyə yazır (Kökdemir, Cənubi-qərbi Qafqaz hökuməti. s. 51).

[5] Cahangiroğlu. Xatirələr, s. 9-10

bölgədə oktyabr ayının axırlarından etibarən hərbi təşkilatların yaradılmasına başlanılmışdı. 12-ci diviziya komandiri Əli Rüfət bəy yerli hökumətdən kürdləri icma halına salmağı, əsgərliyə yazmağı, silahlı olanları əmrə hazır vəziyyətə gətirməyi tələb edir, silahlı olmayanlara silah verəcəyini əmr edirdi.[1] Gələcəkdən narahat olan xalqa Rüfət bəyin fəaliyyəti təsir etdi. Əhalinin qabaqcılları hərbi dairələrin köməyi ilə fəaliyyətə başladılar. İqdır yerli hökumət rəisi Məhəmməd Mühiddin əhalinin fəaliyyəti haqqında 11 noyabr 1918-ci ildə IX Ordu komandanlığına bu məlumatları vermişdir.

Buradakı müsəlman əhali İttihadi-millət firqəsi adında 4 alaydan, hər alay 4 batalyondan, hər batalyon 400 piyada, 25 süvaridən ibarət olmaqla bir firqə yaratmışdı. Bu firqə on min mauzerlə bir sandıq döyüş sursatı verilməsini xahiş edir.[2] Göründüyü kimi qurulan hökumətdə iş başına gələn, idarəetmə bacarığı olan şəxslər hərbi sahədə də əhəmiyyətli işlər görə bilmişdilər. Naxçıvanda da bəzi işlərin könüllülər (milis) və jandarma təşkilatının genişləndirilməsi nəzərdə tutulmuşdu.[3] Türk hərbi dairələri idarəetmə təşkilatı kimi hərbi təşkilatların mərkəzinin İqdırda yerləşməsinə dair bir qərar vermişdilər.[4] Deməli, nəzərdə tutulan hökumət rahat şəkildə fəaliyyətə başlayacaqdı.

Hərbi hissələrin təşkili zamanı yaradılmış və yaradılacaq könüllülər və jandarma üçün silah, cəbbəxana, hərbi ləvazimat lazım idi. Bundan əlavə, türk ordusu çıxdıqdan sonra ermənilərin gələcəyini,[5] bundan sonra nələr baş verəcəyini bilən xalq da silahlanmaq istəyirdi.

Bununla əlaqədar türk hərbi dairələrinə tez-tez müraciət edirdilər. Nəticədə IX Ordu komandiri Y.Şövqü paşa 2 noyabr 1918-ci ildə

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f.3-1.

[2] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 24. Kökdəmir əsərində İqdırdakı hərbi təşkilatların Canagiroğlu İbrahim bəy vasitəsi ilə yaradıldığını, İqdır hökumət rəisi Məhəmməd Muhiddin bəyi isə Araz-Türk Respublikasının İqdır nümayəndəsi kimi qeyd edir (Kökdəmir. Qafqaz hökuməti. s. 51). Cahangiroğlunun mətninin qeyd edilən Məhəmməd Mühiddin bəyin 11 noyabr tarixli teleqramla heç bir əlaqəsi ola bilməz. Çünki İbrahim bəy 30 noyabrda başlayan, 2 gün davam edən Qars Müsəlman Şurasına sədr seçilmiş (Kökdəmir. Qafqaz hökuməti. s. 70; Fəxrəddin Kırzıoğlu. Milli mübarizədə Qars. I kitab, sənədlər İst., 1960, s.8-9) Regiona qayıtdıqdan sonra Araz-Türk hökuməti sədri Əmir bəy tərəfindən Qars Müsəlman Şurası sədri kimi təqdim olunmuşdur.

[3] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 35-3.

[4] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 22-1.

[5] Y.Şövqü paşa bölgəyə 20.000 erməni mühacirinin gəlməsinə icazə vermişdi (Cahangiroğlu. Xatirələr, s. 9) Ancaq əhali silahlı gələn erməniləri qəbul etməməyi qərara almışdı. Çünki illərdən bəri iki millət arasında olan kin-küdrətin Osmanlı hökumətinin verdiyi tövsiyyələrlə yox olmayacağını bilirdi. Sonrakı hadisələr bunu isbatladı (ATASE A.1/2, kls. 65, d. 254-101, f. 21-2; Əliyev. Qanlı günlərimiz. s. 84).



bölgədəki müvafiq təşkilatlara, silah və hərbi ləvazimat istəyən əhaliyə bunları verə biləcəyini, ancaq əvvəlcə nə qədər silahın olması haqqında orduya təcili məlumat verilməsini və bundan sonra məsələni həll edəcəyini bildirdi.[1]

19 oktyabr 1918-ci ildə IX Ordu komandanlığı ona tabe olan dairələrdən regiona əhalinin əlində olan silah və hərbi ləvazimat haqqında məlumat istədi.[2]

Çıxma əmri verilən kimi xalq silah istəməyə başladı, buna görə də 19 oktyabr tarixli əmri təcili yerinə yetirmək lazım idi. Bununla əlaqədar hərbi dairələri tələsdirdilər. Birinci olaraq Əli Şəfiq bəy 6-7 noyabrda Naxçıvandakı adamların və silahların sayı haqqında orduya məlumat verdi. Məlumatda göstərilirdi ki, Naxçıvanda 8040 əsgər ola bilər və onların müxtəlif silah və hərbi ləvazimatları var.[3] Bu məlumat ordunu əsəbiləşdirdi və Naxçıvan hökümət rəisi Əli Şəfiq bəyə 8 noyabrda sərt bir xəbərdarlıq edildi. Naxçıvanda yalnız əsgər ola bilənlərin deyil, bütün əhali və silah, tüfəng və s. haqqında məlumat verilməsi də tələb edildi.[4] Həmin gün qəzada olan 25-35 yaşlar arasında olan şəxslərin bölgü jürnalı, silah və hərbi ləvazimatlarm növü, miqdarı haqqında cədvəllər orduya göndərildi. Bu jurnallara əsasən Naxçıvan şəhər mərkəzində 348 piyada, 43 atlı, Şahtaxtı nahiyəsinə bağlı 86 kənddə 2843 piyada, 243 atlı, Naxçıvan qəzasına bağlı 4 nahiyədə 1517 piyada, 241 atlı, Qəmərli və onun kəndlərində 2639 piyada, 241 atlı var idi.[5] Əli Şəfiq bəy 10 noyabr 1918-ci ildə əhali və silahlar haqqında ayrıca bir cədvəl də göndərdi.[6]

Əhali əlindəki silahlar haqqında ətraflı məlumat yalnız 9 noyabr 1918-ci il tarixdə 9-cu Qafqaz diviziyası tərəfindən IX Orduya bildirildi. Məlumat belə idi: Naxçıvan qəzasında 1205 rus beşatılanı, 17.584 patronu, 245 – Berdanka, 567 patronu, 57 rus üçatılanı – 3108 patronu, 7 ingilis tüfəngi, 14 patronu, 43 fransız tüfəngi, 2487 patronu, 10 İran tüfəngi, 206 patronu, 6 alman tüfəngi, 85 patronu, 4 Avstriya tüfəngi, 137 patronu, Şahtaxtı-Noraşen-Yengicə_Yağmacı-Sədərək bölgələrində 298 düz mauzer, 14 açarlı, 13 kassalı 80 düz martin, 13 böyük kalibrli Osmanlı tüfəngi var. 8923 kiçik və 162 böyük kalibrli patron vardır. 259 rus beşatılanı, 606 Berdanka, 83 rus doqquzlusu var. 16732 kiçik kalibrli

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 2.

[2] Yenə orada, f. 28-2,28-3.

[3] Yenə orada, f. 15-1.

[4] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 15.

[5] Bu soylar göstərilərək şəxsin adı bir-bir qeyd olunmuşdur. ATASE A 4. 8314, kls 251, d.1-4, f. 16.

[6] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 20.

21:296 rus üçatılanı, 1915 rus doqquzlusuna uyğun patron var.

Böyük Vedi-Mallıdərə-Qəmərli-Uluxanlı-Eçmiədzin-Sərdarabad məntəqələrində:

738 kiçik kalibrli Osmanlı mauzeri, 93 düz martin, 32 doqquzlu, 11 aynalı və 6608 rus patronu var. 648 rus beşatılanı, 1344 berdanka, 6 rus üçatılanı və 11511 rus patronu, 14 alman, 24 Avstriya, 25 ingilis, 29 üçatılan, 4 fransız, 2 bolqar tüfəngi mövcuddur, onların tüfəng başına (minimum) 25 patronu var.[1]

İqdır Yerli hökumət rəisi və mövqe komandiri Məhəmməd Mühiddin bəy IX Orduya 7-8 noyabr 1918-ci il də bölgəsi ilə əlaqədar bu məlumatı vermişdir: 1.İqdır qəsəbəsi və ətraf rayonlardakı müsəlman əhalinin əlində 776 böyük kalibrli, 229 kiçik kalibrli Osmanlı mauzer tüfəngi, 136 düz martin və 28 ədəd Osmanlı qapaqlı tüfəng və 450 iki kiçikkalibrli rus beşatılanı, 2 rus üçatılanı, 686 tək atəşli rus tüfəngi, 3 ədəd qara tüfəngi, 29263 ədəd rus kiçik kalibrli patronu, 20174 ədəd rus yerli patronu var.

2. Bundan başqa Ekradlardan Zilan tayfasmda 1800 beşli Osmanlı kiçik kalibrli və 200 ədəd beşli rus kiçik kalibrli tüfəng və hər biri üçün 50 patron, berunki tayfasında 300 ədəd kiçik kalibrli Osmanlı beşatılanı və 200 ədəd kiçik kalibrli rus beşatılanı və hər tüfəngin 50-60 patronu var.[2] IX Orduya verilən bu məlumat ümumiləşdirilərək bir tək siyahı şəklinə salında. Siyahıda silah, hərbi ləvazimat və əsgər ola bilən şəxslərin sayı haqqında məlumat toplanmışdı. Beləliklə, Naxçıvan bölgəsində[3] 7636 piyada, 606 süvari, İqdırda is 4305 piyada, 8 süvari var idi.[4]

Yuxarıda qeyd etdiyimiz silah, ləvazimat gələcəkdə baş verə biləcək təhlükənin qarşısını almaq üçün kifayət qədər deyildi. Bundan əlavə əli silah tuta bilən əhali və təşkil edilmiş könüllü jandarma təşkilatları üçün çoxlu silah və hərbi ləvazimat lazım idi. Lakin bu kifayət qədər deyildi.[5] Silah və hərbi ləvazimat paylanmaqla əlaqədar IX Orduya müxtəlif təkliflər təqdim olundu. 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy 9 noyabrda teleqramla müraciət edərək ordudan Naxçıvan regionunda yaradılmış könüllülər batalyonu üçün 350, Cəhri batalyonu üçün 300 tüfəng və kifayət qədər hərbi ləvazimat istədi, həmçinin bölgədə hələ

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 28-2; Kökdəmir. Qafqaz hökuməti. s. 50, 51.
[2] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 28-3.
[3] Naxçıvan bölgəsindən verilmiş məlumata Qəmərlidəki döyüşçülər də daxildir.
[4] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 45.
[5] Naxçıvan mövqe komandanlığı I Qafqaz artilleriyasından aldığı minə qədər rus tüfəngini əhaliyə paylamış və vəziyyəti 7 noyabrda Orduya bildirmişdir (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 14).



təşkilat şəklinə salınmamış xalq üçün də silah, hərbi ləvazimat göndərilməsini tələb etdi.[1]

Səhərisi gün yenidən xahiş edən Rüşdü bəyin 9 noyabr tarixli teleqramına bunlar əlavə olunmuşdu: 1. Ağbaş, Uluxanl, Eçmiədzin və Sərdarabad bölgələrindəki əhali üçün 5563 tüfəng, lazımi qədər patron lazımdır. Qəmərli, Vedi, Sədərək, Noraşen, Yengicə bölgələri üçün də bu qədər ehtiyac olduğu nəzərdə tutulur. 2. Hər ehtimala qarşı firqəyə ehtiyat ləvazimat azaldığından müraciət edən əhaliyə paylamaq üçün Osmanlı mauzer patronu və nəzərdə tutulan miqdarda rus tüfənginin birbaşa Qəmərli stansiyasına çatdırılmasına sərəncam vermənizi xahiş edirik.

Y.Şövqü paşa Rüşdü bəyin bu xahişini müsbət qarşıladı, əlaqədar təşkilatlara bir sıra göstərişlər verdi. Silah, patron çox gizli göndəriləcək. Hərbi ləvazimat 9-cu diviziya və İqdır Mövqe komandanlığına paylanacaqdır. 2000 rus tüfəngi ilə 500 qutu patron, 500 qutu qısa mauzer patronu, müəyyən qədər Osmanlı mauzer patronu göndəriləcəkdi.[2] Şövqü paşanın göstərişinə əsasən görülən işlər haqqında 11 noyabrda hərbi ləvazimatın göndəriləcəyi Gümrü Mövqe komandanlığma[3] və bu materialları alan 9-cu Qafqaz diviziyasına məlumat verildi.[4]

12 noyabrda Gümrüdən ləvazimat göndərilməsinə başlanıldı.[5] IX Ordu komandanlığı, İqdır mövqe komandanlığına Naxçıvan və İqdır əhalisinə paylamaq üçün IX Qafqaz diviziyasına 2000 ədəd silah göndərdiyini bildirdi və bunların kimə veriləcəyi haqqmda məlumat istədi.[6] Ancaq aradan 2 gün keçməsinə baxmayaraq, silahlar 9-cu Qafqaz diviziyasına çatmadı. Rüşdü bəy də vəziyyəti Orduya bildirdi, yenə bir sıra xahişlər etdi. İqdırda əhali narahat olduğundan, hərbi ləvazimat istəyirdi. Diviziyanın yerləşdiyi məntəqədə əhali qismən silahsız idi, göndərilən silah da kifayət qədər deyildi. Buna görə də İqdırdakı diviziya bölgəsindəki əhaliyə paylamaq üçün 3500 rus beşatılan tüfənginə və kifayət qədər döyüş sursatına ehtiyac var idi.[7] IX Ordunun bu təkliflərə cavabı haqqında heç bir sənəd əldə edə bilmədik. Ancaq bizim fikrimizcə, müsbət həll olunmuşdur. 15 noyabrda Ordudan 12-ci diviziyaya

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 28-2.
[2] Osmanlı mauzer patronlarına Naxçıvandan nəzərdə tutulmuşdur (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 21-1).
[3] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 23.
[4] ATASE A 4. 8314, kls 251, d.1-4, f. 23-1. Tüfənglər bir məmur nəzarəti altında Qarsdan bağlı vaqonlarla göndəriləcək, bir hissə də Naxçıvandakı anbardan götürüləcək (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 21).
[5] Yenə orada, f. 26-1.
[6] Yenə orada, f. 27.
[7] Yenə orada, f. 29.

əmr verilmişdir ki, Sərdarabad stansiyasında olan silah və patronlar əhaliyə paylanılsın,[1] hərbi ləvazimat köməyi sonralar da davam etdirilmişdi.[2]

Beləliklə, türk hərbi dairələrinin köməyi nəticəsində[3] xalq gələcəyindən qorxmamağa, özünə güvənməyə başlamış, hərbi və idarəetmə təşkilatlarının yaranması sayəsində xeyli əhəmiyyətli işlər görülmüşdür. Bu iki təşkilatın yaradılması Araz-Türk hökumətinin qurulmasına zəmin yaratmış oldu.

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 32.

[2] Gümrüdə olan rus əl bombalarından 100 qutu Araz vadisi əhalisinə paylanmaq üçün 9-cu Qafqaz diviziyasına göndərilmişdi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 42-1, 42).

[3] Osmanlı hərbi dairəsi Araz vadisi türk əhalisinə hərbi ləvazimat paylamışdır. 24 yanvar 1918-ci ildə Bakıdakı İrəvan vilayəti Həmşəri Yardımlaşma Cəmiyyəti tərəfindən Naxçıvana göndərilən və 20 fevralda gələn Mirabbas Bağırov türk ordusu çıxdığı zaman bütün silahları, top və pulemyotları apardığın qeyd edirdi. (Azərb. Resp. MDEYTP, f. 894, siy. 10, d. 70, 14). Top və pulemyotları bilmirik, ancaq silahları xalqa paylamışdılar.



## HÖKUMƏTİN QURULMASI VƏ FƏALİYYƏTİ

Türk hərbi dairələrinin köməyi və əhalinin iştirakı ilə yaradılan milli təşkilatlar nəticəsində 18 noyabr 1918-ci ildə Qəmərli qəsəbəsində bir yığıncaq[1] keçirildi və Araz-Türk hökumətinin yaradıldığı elan edildi.[2] Quruluş bəyannaməsində yazılmışdır:

18 Təşrini-sani (noyabr) 1334-cü ildə Rəvan vilayətində Araz vadisində olan bir milyona qədər əhali Osmanlı Ordusu getdikdən sonra, özlərinin təhlükə altında qalmaması naminə, çarə tapmaq üçün Rəvan mühacirləri, Naxçıvan, Şərur, Eçmiədzin, Sürməli bölgələrinin nümayəndələri yuxarıda qeyd etdiyimiz tarixdə Qəmərli qəsəbəsində bir yığıncaq keçirdilər və bir sıra təklif və müzakirələrdən sonra bir təşkilat yaratmağı qərara aldılar. Biz, Araz kənarında yaşayan bir milyona qədər müsəlman camaatı hüququmuzu müdafiə və mühafizə üçün Araz-Türk hökuməti adında təşkilat yaratdıq. Onun mərkəzi İqdır qəsəbəsi müəyyən edildi. Və sair yerlərdə şöbələr açacaq, millətimizin hüququnu müdafiə və mühafizə edəcək, heç bir dövlətin hüququna toxunmayacağıq. Ancaq başqaları bizə hücum edərlərsə, ümumi səfərbərlik elan ediləcək. Silaha sarılıb, malımızı, canımızı, bir damla qanımıza qədər hüququmuzu qorumaq səlahiyyəti yuxarıda qeyd edilən hökumətə veriləcək.

Bacarıqlı, ağıllı şəxslərdən bir hökumət təşkil etdilər ki, millətin, camaatın hüququnu müdafiə və mühafizə etsin. Bunun üçün məclis lazım bildi ki, hərbi, mülki, ədliyyə, maliyyə, xarici və digər işlər üzrə məmurlar təyin etsinlər.

Hökumət rəisi:[3] Əmir bəy Zamanbəyzadə[4]
Hərbi nazir: Cahangiroğlu İbrahim bəy
Maliyyə naziri: Qənbər Əlibəy Bənəniyarlı

[1] Qəmərlidə keçirilən və Araz-Türk hökumətinin yaradılması elan olunan yığıncağa 9-cu diviziya komandiri Rüşdü bəy sədrlik edirdi (Əliyev. Qanlı günlərimiz. s. 82).

[2] Araz-Türk hökumətinin yaradılma tarixi 18 noyabr 1918-ci il göstərilir. Buna əlavə etmək lazımdır. 16 noyabr 1918-ci ildə IX Ordu komandanlığına göndərilən bir teleqrafın altında müvəqqəti Araz-Türk hökuməti və hökumətin Qəmərli, Naxçıvan, Şərur, Zəngibasar, Vedibasar və Gəncəbasarlı üzvlərini imzaları vardır (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 33).

[3] Araz-Türk hökumətinin quruluş bəyannaməsində Əmir bəyin titulu əvvəlki diktatordur (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 43). Əliyev isə hərbi diktator deyə ifadə etmişdir (Əliyev. Qanlı günlərimiz. s. 82).

[4] Cahangiroğlu İbrahim bəy xatirələrində Araz-Türk hökumətinin sədrinin adını Əmir bəy Vəzirov olaraq ifadə edir (Cahangiroğlu. Xatirələr. s. 4). Əliyev Əmir bəy Nərimanbəyov olaraq yazır (Əliyev. Qanlı günlərimiz. s. 82). Kökdəmir isə Əmir bəy Əkbərzadə adı ilə verir. Kökdəmir Cahangiroğlu İbrahim bəyin xatirələrində eyni nəql etdiyi hissədə: Əmir bəy Əkbərzadə adını xatırlayıram deyir və bunu hökumət rəisi olaraq qəbul edi.

İnzibati nazir: Bağır bəy Rzazadə[1]
Ədliyyə naziri: Məhəmməd Bəyzadə
Xarici işlər naziri: Həsənağa Səfizadə
Şeyxülislam: Mirzəhüseyn Mirzə Həsənzadə və Lütfi Xoca Ekid Əfəndi
Fəxri üzv və aşirətlər rəisi: General Əli Əşrəfbəy[2]

Y.Şövqü paşanın əmri yerinə yetirilmiş, əhalinin gələcəyini qoruyan təşkilat qurulmuşdur. Mərkəzi İqdır[3] olan bu hökumət, heç şübhəsiz, yerli xalqın mövcudluğu baxımından həm də müqaviləyə əsasən geri çəkilən Türkiyənin region ilə əlaqəsini davam etdirməsi baxımından əhəmiyyətli idi. Buna görə də 9-cu Qafqaz diviziya komandiri Rüşdü bəy, Araz-Türk hökuməti qurulan gün IX Orduya məlumat verdi. Orduya göndərilən şifrəli teleqramda yazılmışdır:

3.II. 34 tarixli şifrəli əmrin 5-ci maddəsinə əsasən:

I. Bu məntəqədəki müsəlman əhalinin qabaqcıl-nüfuzlu şəxsləri yığışaraq mərkəzi İqdır olan müvəqqəti Araz-Türk hökumətini - altı üzv və rəisdən ibarət bir hökumət təşkil etmişdilər. Bir tərəfdən də könüllülər təşkilatını genişləndirirdilər.

Rüşdü bəy hökumətin quruluşunu və xüsusiyyətlərini qeyd etdikdən sonra onların ordudan bir sıra xahişlər etdiyini qeyd edir. Bu xahişlərdən biri silah, hərbi ləvazimat, zabit və ərzaqdır. İkincisi isə, Araz-Türk hökumətinin hərbi naziri seçilən qarslı Cahangiroğlu İbrahim bəyin Qəmərliyə göndərilməsinə icazə verilməsidir.[4] Y.Şövqü paşanın

[1] Bağır bəy İbrahim bəyin xatirələrində maliyyə naziri kimi göstərilir (Cahangiroğlu. Xatirələr. s. 15).
[2] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 43, 43-1; Kökdəmir. Qafqaz hökuməti. s. 46, 47; Kökdəmir. Araz-Türk hökuməti. 3 noyabr 1918. 5-ci millətlərarası türkoloji konfrans. İst., 23-28 sentyabr 1985; II türk tarixi. 1 c,. İst., 1985, s. 238-240. Əliyev Araz-Türk hökumətinin üzvlərini belə sıralayır: 1. İbrahim ağa Qarslı – vəziri cəng. 2. Əmir bəy Nərimanbəyov - Hərbi diktator. 3. Bağır bəy Rzayev-inzibati nazir. 4. Qənbər Əli bəy Binankari –maliyyə naziri. 5. Məhəmməd bəy Məhəmmədbəyov – ədliyyə naziri. 6. Həsən bəy Səfiyev-xarici işlər naziri. 7. Mirzə Hüseyn İrəvan-şeyxülislam. 8. Əli Əşrəf bəy (kürd)-kürdlərin lüftisi (Əliyev. Qanlı günlərimiz. s. 82, 83).
[3] Araz-Türk hökumətinin mərkəzi ilə əlaqədar müxtəlif fikirlər vardır. Bir fikrə görə mərkəz Naxçıvandadır. (Kazım Qarabəkir paşa. İstiqlal hərbimiz. İst., 1988. s. 288; Aydın Hacıyev. Qars və Araz-türk respublikalarının tarixindən. Bakı, 1994, s. 47; Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. 1990, s.50; Ə. Əliyev. Araz-Türk Respublikası. Yaddaşdan xatirələr. «Azərbaycan», 1 may, 1991, № 18 (81). T.Abbasov. Araz-Türk respublikası. «Açıq söz», 13 mart 1992, № 9. Başqa bir fikrə görə mərkəz Qəmərlidədir. M.B.Naxçıvan-Şərur məsələsi; Nizaməddin Önk. Türk ordusu Azərbaycanda, 1918; «Türk dünyası tarixi» dərgisi. Dekabr 1993, № 84, s. 53.
[4] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 35-2,34,34-1,34-2; Kökdəmir. Qafqaz hökuməti s. 48.



icazəsi ilə İbrahim bəy Qarsdan Qəmərliyə getmək üçün yola düşmüşdür. İbrahim bəy Araz-Türk hökumətinin quruluşu və səfərinin məqsədini belə izah edir.

Biz Qarsda Milli Şura seçməklə məşğul olduğumuz zaman türk ordusu Naxçıvan, Şərur, Dərələyəz, Qəmərli, İqdır, Gümrü və Zəngibasardan çıxmazdan bir həftə əvvəl Qəmərlidə toplanmış, orada Araz-Türk hökuməti adında bir hökumət təşkil etmişlər və mən hərbi nazir seçilmişəm. Milli Şuranın 14 maddəlik qanunun bir maddəsində hər tərəfdə şöbə açmaq nəzərdə tutulur.

Milli Şura Məclisin bu maddələrini oxumağı və bəzi yerlərdə şöbə açmağa icazə verdi. Bundan 5 gün sonra türk ordusu Naxçıvanı tərk edəcək. Şövqü paşa həzrətlərinə müraciət etdim. Xüsusi bir qatarla Naxçıvana və oradan da geri qayıtmağımızla əlaqədar lazımi əmrlər versinlər. Bizə verilən vaqona bizdən başqa hər kəs komandanlıq edirdi.

O gecə Cümrüdə qaldıq. Ertəsi gün tezdən hazır olduq. Dəmiryol mərkəzinə gəldik. Mərkəzdə Araz-Türk hökuməti adından gəlmiş tanımadığımız iki şəxsi gördüm. Görüşdük. Mənə bir məktub verdilər. Açdım, oxudum. Osmanlı ordusu bu günlərdə çıxacaqdır. Bu səbəbə görə təşkil olunmuş Araz-Türk hökumətinə Sizi hərbi nazir seçdilər və buradakı heyət Sizə məlumat vermək şərəfini mənə həvalə etdi. Bu xəbəri verməklə bərabər, burada olmasını gözləyir, Sizə sadiq qalacağımızı təkrar söyləməmizlə fəxr edirik, əfəndim.

İmza
Müvəqqəti Araz-Türk hökuməti[1] rəisi
Əmir bəy Vəzirov

Günorta Gümrüdən qatarla yola düşdük və o biri gün Qəmərliyə gəldik. Hökumət rəisi ilə lazım olan məsələlər barəsində uzun-uzadı danışdım. Əmir bəyə söz verdim. Naxçıvandan qayıdanda Qəmrəlidə qalacağam. Qəmərlidə İrəvan gənclərinin bir neçəsi ilə görüşdüm. Bu arada Əkbər bəy Əkbərovu xatırlayıram. Əvvəlcə Təbrizdə mənimlə bərabər İran inqilabında iştirak etmişdi. Yaxşı bir adam idi. Vətən və millət yolunda canını verən adamdır. Onlar ilə görüşdüm, sonrada Naxçıvana gəldik.[2] Mərkəzi İqdır olan Müvəqqəti Araz-Türk hökumətinin[1] sərhəd-

[1] Xəlil bəy Naxçıvandan Osmanlı ordusu çıxdıqdan sonra Qarsdan gələn 2 şəxsin az bir tərəfdarla Araz-türk hökumətini qurduğunu göstərir (ATASE A 4. 814, kls. 251, d.1-4, f. 21-2). Xəlil bəy səhv etmişdir. Hökumət 18 noyabrda qurulmuşdur. İbrahim bəy və yoldaşı dekabrın əvvəllərində Naxçıvana gəlmişdilər. Araz-Türk hökumətinin rəhbərləri ilə Xəlil bəyin arası yaxşı deyildi. Buna görə də düzgün məlumat verməmişdir.
[2] Cahangiroğlu. Xatirələr. s. 3-4.

ləri daxilində Eçmiədzin (üç kilsə), Sərdarabad, Uluxanlı (Zəngibasar), Qəmərli (Gərnibasar), Vedi (Vedibasar), Şərur, Naxçıvan, Ordubad[2] və Sürməli bölgəsi yerləşirdi.[3] Araz vadisinin əhalisinin çox hissəsini əhatə edən türk-müsəlman sakinlər tərəfindən qurulan bu hökumət haqqında müxtəlif fikirlər mövcud idi. Erməni müəllif Hovanesyan onu sözdə hökumət[4], Azərbaycan müəllifi Mədətov Oyuncaq hökumət,[5] Yalançı Respublika[6] adlandırmışlar.

Araz-Türk hökumətinin bu günkü mənada təşkilata sahib

[1] Bu hökumət müvəqqəti olaraq qurulmuşdur. Bölgə əhalisi sülh konfransının verəcəyi qərara qədər ermənilərdən qorunmaq üçün belə bir hökumət yaratmışdır (ATASE A 4. 814, kls 251, d.1-4, f. 33). Türkiyə ilə ayrılığın qısa müddətli olacağına inanırdılar. Türkiyədən ümidlərini kəsən əhali ümid işığını Azərbacan Cümhuriyyətində tapacaqlar (Azər. Cümh. MDEYTA, f. 894, siy 10, d. 70. 1. 1-6. 24 dekabr 1918; № 72; M.B. Naxçıvan-Şərur məsələsi; F. Rəhınanzadə. Əsrə bərabər gecə. Bakı, 1991, s. 132; T. Köçərli. Azərbaycan Demokratik Respublikası və Azərbaycanın ərazi bütövlüyü məsələsi; «Kommunist», 30 sentyabr 1990, № 226 (21294).

[2] Bəzi Azərbaycan müəllifləri Ordubadı Araz-türk hökumətinin tərkibinə daxil etmirdilər. Ordubad isə Azərbaycanın sərhədləri daxilindədir (M.B. Naxçıvan-Şərur məsələsi). Batumi müqaviləsinə əsasən bu doğrudur. Bu dövrdə Azərbaycan heç bir vaxt Ordubadı öz sərhədləri daxilinə sala bilməmişdir. Arada Zəngəzur yerləşirdi. O da ermənilərin əlində idi. Buna görə də Azərbaycanın bölgədə hakimiyyətdə olması mümkün deyildi. Ordubadın Araz-Türk respublikasının tərkibində yer almasına dair heç bir sənəd əldə edə bilmədik. 15 noyabrda Qarsda Müsəlman Şurasına Ordubaddan da nümayəndə dəvət etmişdilər (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 13; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. s. 92).

[3] ATASE A 4. 8314, kls 251, d.1-4, f. 43; M.B. Naxçıvan-Şərur məsələsi; İ. Veysəl. Univar. İstiqlal hərbində bolşeviklərlə 8 ay. İst., 48, s. 9; C.Quliyev, Q. Mədətov, A.Nadirov. Sovet Naxçıvanı. 1984, s. 27. Hacıyev. Araz-türk respublikası. s. 47; Qarabəkir. İstiqlal hərbimiz. s. 289. Əliyev. Araz-Türk respublikası; Eynulla Mədətli 1918-1920-ci illərdə Naxçıvanda azadlıq mübarizəsi; «Şərq qapısı», 28 may 1993, № 40, (16.260). Bəzi müəlliflər Araz-türk hökumətinin sərhədlərini qeyd edirlər. Bu fikirlərə görə hökumətin tərkibinə Eliviyeyi-Selasenin böyük bir hissəsi daxildir. Başqa bir fikrə görə Araz-türk hökumətinə Naxçıvan, Şərur-Dərələyəz qəzaları daxildir (Q. Mədətov. Naxçıvanda sovet hakimiyyətinin qələbəst və Nax. MSSR-in təşkili. Bakı, 1958, s. 42)

[4] Riçhard G. Hovanisian. The Republis of Armeni. Vol. 1, the first year. 1918-1919. Los Angeles, 1971, s. 229.

[5] C.Quliyev, Q. Mədətov, A.Nadirov. Sovet Naxçıvanı. 1984, s. 26.

[6] Mədətov. Araz-Türk Respublikası haqqında bunları yazır: türklər Naxçıvandan getməmişdən əvvəl yardımçıları-musavatçıların köməyi ilə yalançı Araz respublikasını qurdular. Türklər yalançı Respublika qurmaqla bölgənin Azərbaycanın və Ermənistanın tərkibinə daxil olmasına mane olmaq istəyirdilər. Beləliklə, onlar Naxçıvanı yenidən işğal etmək üçün əllərində bir imkan olmasına çalışırdılar. Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 46; Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, 1-4.



olmaması da bu sözlərlə ifadə edilmişdir: Ömrü qısa olsa da hökumət bölgə sakinlərinin xilas edilməsində böyük rol oynamışdır.

18 noyabrda rəsmi elan edilən Araz-Türk hökumətinin fəaliyyət göstərməsi və region əhalisinin təhlükəsizliyini təmin etməsi üçün hərbi təşkilatların yaradılması vacib idi. Bütün bunlar nəzərə alınmış, yığıncaq keçirilmiş, Araz-Türk hökumətinin elan edilməsindən iki gün əvvəl, 16 noyabr 1918-ci ildə hökumətin quruluşunu hazırlayan heyət tərəfindən IX Ordu komandanlığına bir teleqraf göndərilmişdi. Teleqrafda türk ordusunun getməsindən narahat olduqlarından, başlarına gələ bilən hadisələrdən və bir sıra təkliflərdən bəhs etmişdir.

Əsrlərdən bəri türk arzusu ilə yaşayan Qafqazın yüz minlərcə müsəlman əhalisinin dini və qanıbir qardaşlarına qovuşduğu bu məsud günləri tərif etməkdə acizik. Bununla bərabər, siyasətlə bağlı müvəqqəti ayrılığımızı eşitdiyimiz gündən kədərliyik. Ancaq allahın taleyimizə bəxş etdiyi bu qüdrətə inanırıq, lakin qısa bir vaxtdan sonra məqsədimizə çatacağımıza, bu yolda hər şeyi nəzərə alaraq yenə qovuşacağımıza ümid edirik, təsəlli tapırıq. Nəyin bahasına olursa-olsun biz buna nail olacağımıza and içmişik. Yeganə ümid və pənahımız olan Osmanlı dövlətinin bizi unutmayacağını bilirik.

Türk ordusu burdan çıxmağa məcbur edilib, türk müsəlman torpağında qalan biz, Qafqaz müsəlmanları, günü-gündən kin-küdurəti artan, daim bizim qanımızı içməyə hazır olan, buna fürsət axtaran qaniçən, canavar, hər cür alçaqlıqdan, fəlakətlərdən zövq alan erməni əsgərlərinin, erməni əhalisinin hücumuna məruz qalmağımızdan, çoxlarımızın qanı hədər gedəcəyindən, oğul-uşağımızın süngülər altında məhv olacağından qorxuruq.

Bizlər bu vəziyyət qarşısındaköməksiz, rəhbərsiz, ləvazimatsız necə hərəkət edəcəyimizi, necə müqavimət göstərəcəyimizi bilmirik. Allah islam millətinin və xüsusilə türklüyün banisi və hamisi olan padişahımızı, millətimizi hər zaman saxlasın.

Namus və həyatımızın müdafiəsi üçün İqdır Araz əhalisi adından bunları verməniz xahiş edirik.

1. Araz-Türk hökumətinin milisləri (könüllü) üçün iki top, kifayət qədər pulemyot, bunlar üçün döyüş sursatı və ləvazimat daşımaq üçün heyvan. Osmanlı hökumətini nəzərə alaraq mühafizəsini təmin edəcəyimiz zabit, əsgər, 2 həkim və müəyyən qədər dava-dərman, tibbi ləvazimat.
2. Yeni geyim alan Osmanlı hərbi hissələrinin köhnə geyimlərinin milislərə verilməsi.
3. Eçmiədzin, İqdır, Naxçıvan məntəqələrindəki ərzağın indidən verilməsini xahiş edirik.

16 noyabr 334

| Naxçıvan | Şərur | Zəngibasar | Vedibasar | Gərnibasar |
|---|---|---|---|---|
| üzv | üzv | üzv | üzv | üzv |
| imza | imza | imza | imza | imza |

Müvəqqəti Araz hökuməti

Qəmərli imza[1]

Kədər və həyəcan içində yazılan bu teleqramdan məlumdur ki, hərbi hissələrin yaradılmasındakı nöqsanları tamamlamaq istəyir. 18 noyabrda yaradılan Araz-Türk hökuməti türk ordusundan bəzi xahişlər etdi.

1. İki top, heyvan.
2. Osmanlı hissəsi yerdən götürən 12 top.[2]
3. Pulemyot – 50 ədəd.
4. Bunlara lazım olan mərmi və güllə.
5. Kifayət qədər zabit və əsgər.
6. Əsgərlərə təlim üçün 40 nəfər zabit və 40 nəfər çavuş, yefreytor.
7. On min bomba, 50 min beşaçılan tüfəng.
8. Əsgər üçün mümkün qədər paltar.
9. Səhiyyə arabaları, ləvazimat, yük arabaları və maşın, lazımi qədər əşya.
10. Mövcud ərzaqdan 400 ton bizə ayırsınlar. 100 ton Naxçıvanda, 100 ton Şərurda, 100 ton Qəmərlidə, 100 ton İqdırda. Naxçıvan yerli hökumət rəisi qalan ərzağı yığır. Mane olunmazsa bizə heç nə qalmayacaq.
11. Məhəmməd Əli paşanın öhdəsində mühafizə olunan 250 min manat[3] mühacir pulu.
12. Naxçıvan Yerli hökuməti nəzdində Qəmərli, Şərur və Naxçıvan bələdiyyələrinin pulu.
13. İqdır komandanlığının bələdiyyə idarəsinin 200.000 manatlıq artıq pulu.
14. İrəvan şahbəndəri (ticarət işlərinə baxan məmur t.i.) Nuri bəydə əmanət qoyulmuş Rəvan mühacirlərinin tüfəngləri – 1000-dən çox.
15. Telefon hər yerdə var, əvvəlki kimi qalmalı.
16. Mümkün olsa, təşkilatımız doğru yolu tutunca və ya əmniyət hasil olunca bu firqə əsgərlərin burada qalması.
17. Bir komissiya, xarici nümayəndələr daxil olmaqla sülh və sərhəd məsələsinə qərar vermək üçün.
18. Sülh və sərhəd məsələsi həll olunmayınca ermənilər bu tərəfə buraxmamalı.

Hökumət rəisi Əmir bəy

möhür[1]

Araz vadisində hökumət yaradılmasında mühüm rol oynayan Rüşdü bəy Araz-Türk hökumətinin istəklərinə diqqətlə yanaşırdı. IX Ordu komandanlığına göndərdiyi 18 noyabr tarixli şifrəli teleqramda istəkləri ifadə etdi.

2. Çıxdıqdan sonra ermənilərin hücumu olarsa, müdafiə üçün ayrılan milis dəstələrinin ərzaqla təmini üçün Naxçıvan, Noraşen, Sərdarabad və ya Eçmiədzin məntəqələrində müəyyən qədər ərzaq və silahsız əsgərlər üçün bir neçə min tüfəng və hərbi ləvazimat tələbindədirlər. Göndərilən təhlükəli rus tüfəngləri yararsızdır, qırıqdır. Beşaçılan tüfəng verilməməsini xahiş edir. Zabit, pulemyot, hətta top istəyirlər. Bunun üçün bir heyət göndərilməsini xahiş etmiş və ilk qatarla Qarsa gələcəkləri və bunun siyasətə müvafiq və müsaid olduğu məlum deyilsə.[2]

Hökumət təşkilati işləri davam etdirdi. Araz-Türk hökumətinin fəaliyyətinə nəzər salsaq görərik hökumət ona lazım olan pul mənbəyi axtarırdı. Türk hərbi dairələri nəzarət etdikləri Naxçıvan və İqdır[3] yerli hökumətlərinin əlində olan və bölgə bələdiyyələrinə mənsub pulları tələb edirdilər.[4] Bundan əlavə, İrəvandakı Osmanlı nümayəndəsində olan Müsəlman Şurasına mənsub 250.000 manatın qaytarılması lazım idi. Vəziyyəti öyrənən Y.Şövqü paşa 25 noyabr 1918-ci ildə Məhəmməd Əli paşaya bu teleqrafı göndərdi:

İrəvan mühacirlərindən Hacı Zeynalabdin oğlu Mirzə Əli bəydə,[5]

---

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 33. Əsl mətndə türk sözü yoxdur.

[2] İfadədəki anlaşılmazlıq mənbədən irəli gəlir.

[3] Sənədin əslində 250.000 milyon manat yazılmışdır. Sonra milyon sözü pozulmuşdur. Ona görə də 250.000 nəzərdə tuturuq. (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 40-1).

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 43-1; Kökdəmir. Qafqaz hökuməti. s. 52.

[2] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 35-2.

[3] İqdır və yerli hökumət rəisi Məhəmməd Mühiddin bəy eyni zamanda mövqe komandiridir.

[4] Əliyevin fikrinə görə, hökumətin istəyi tamamilə yerinə yetirilməmişdir. Naxçıvandan çıxmağa çalışan Əli Şəfiq bəy hökumət kassasında olan 1 milyona yaxın pulu və 8 vaqon arpa və buğdanı aparmaq istəyirdi. Naxçıvanın nüfuzlu şəxsləri bir heyət göndərərək pul və ərzağı istədilər, lakin verilmədi (Əliyev. Qanlı günlərimiz. s. 85).

[5] ATASE-də işlədiyimiz zaman vizit kartoçkasına rast gəldim: Hacı Zeynalabdin oğlu Mirzə Əli, Ünvan: siyasi və tarix, Burhani-həqiqət məcmuəsinin müdiri və naşiri, İrəvan şəhər məktəbinin türk dili və coğrafiya müəllimi, xeyriyyə cəmiyyətinin idarə heyətinin üzvü və katibi, İrəvan vilayət türk müəllimlər İttifaqının sədr müavini, müsəlman klubu idarəsi heyət üzvü və müdiri, Müsəlman Milli Şursanın katibi və

İrəvan Müsəlman Şurasına aid təxminən 250.000 manat vardır, İqdır və Naxçıvan əhalisi adından pulun geri qaytarılmasını xahiş edirik.

Yuxarıda qeyd edilənlər ailələrinə göndərildi. İcrası dövlət rəyinə bağlıdır, əfəndim.[1]

Araz-Türk hökuməti təşkilati işlərini tamamlamaq üçün bir sıra hazırlıqlar görür, xahişlər edir, yerli səlahiyyətlilər bir sıra işlər görərək müəyyən qərarlar qəbul edirdilər. Yerli hökümət rəisi Əli Şəfiq bəyin sədrliyi ilə keçirilən yığıncaqda Naxçıvanın nüfuzlu şəxsləri bu qərarları qəbul etmişdir: 1) məcburi əsgər yığmaq. 2) əsgərləri batalyonlara bölmək və kazarmalarda saxlamaq. 3) gedən ermənilərin əmlakının hökumətə[2] verilməsi. 4) hökumət anbarında olan buğdadan əsgərlərin qidalanması üçün 14 min pud[3] verilməsi. 5) təzə əsgərlərə hökumət tərəfindən geyim və s. əşyaların verilməsi. 6) əsgərliyə getməyən əhalidən silahları yığaraq, silahı olmayan əsgərlərə paylamaq. 7) 20-35 yaşlar arasında kişilərin hamısını əsgərliyə çağırmaq.[4]

Naxçıvandakı təşkilati fəaliyyətlər bu yığıncaq ilə qurtarmadı. Araz-Türk hökumətinin qurulması ilə əlaqədar Qəmərliyə gedən nümayəndələrin Qarsa Şövqü paşanın yanına gedən Mirzə Nəsrullah bəy və Bağır bəy Naxçıvana qayıtdıqdan sonra gördükləri işlərlə əlaqədar qabaqcıl, nüfuzlu şəxslərə məlumat vermək üçün məsciddə ümumi bir yığıncaq keçirildi.[5] Yığıncaqda Nəsrullah bəy verdiyi izahatdan sonra nümayəndələr Əli Şəfiq bəyin yanına getdilər və orada Mirzə Nəsrullah

möhtac mühacirlərə yardım edən komitənin üzvü və baş katibi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 40).

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 40-1.

[2] Burada qeyd edilən Naxçıvandakı yerli hökumətdir.

[3] 16, 4 kq rus ağırlıq ölçüsüdür.

[4] Əliyev. Qanlı günlərimiz. s. 82.

[5] Naxçıvan heyəti Qarsda bu işləri görmüşdür: 1. Müsəlman əhalisinin Osmanlı dövlətinə tabe olub ona birləşmək. 2. Naxçıvan əhalisinə Osmanlı dövləti tərəfindən silah verilməsi. 3. Naxçıvan əhalisinə top, tüfəng, patron verilməsi. 4. Naxçıvanda Milli Şuranın təşkili. 5. Şəhər gəlirinin hamısının Milli Şuraya verilməsi. 28.000 min manat pulun Osmanlı hökuməti tərəfindən qaytarılması. 7. Osmanlı əsgər və zabitlərdən bir hissəsinin bölgədə qalması. 8. Səlmas tərəfindən Qarsa gedən Sərdar Şuca və Mükərrəmil Humayun ilə görüşməsi. 9. Qarsda Y.Şövqü paşa ilə görüşür və padşaha Naxçıvan əhalisinin vəziyyəti haqqında məlumat çatdırılması. 10. Türk ordusunun Naxçıvanda qalması ilə əlaqədar İngilis, Fransız, İtalyan və Amerika səfirlərinə məlumat göndərilməsi. 11. Erməni mühacirlərinin silahsız olmaqla, əvvəlki yerlərinə qaytarılması. 12. Müsəlmanların şəhərdən çıxmalarının qadağan edilməsi və müdafiələrinin təmin olunması. 13. İbrahim bəyin dəstəsinin yaxın zamanda Naxçıvana gəlməsi. 14. Qafqazda türk zabitlərinin könüllü qalması. 15. Qars Milli Şurasına Əliyev tərəfindən 10 lirə verilməsi. 16 Andranik dəstəsinə Qafqaz nümayəndələri tərəfindən ultimatum verilməsi. 17 Yerli əsgərlərə geyim və ərzaq verilməsi. 18. Araz-türk hökumətinin təşkili. 19. Qarsda Milli Şuranın açılışı (Əliyev. Qanlı günlərimiz. s. 83, 84).



bəy qəbul olunmuş qərara görə Yerli hökumət rəisi təyin olundu.[1] Ancaq bu vəziyyət Araz-Türk hökumətinin xoşuna gəlmədi. Əslində təşkilati işlərin qızğın dövründə onların bilikli mütəxəssislərə böyük ehtiyacı vardı. Ehtiyacları təmin etməyin tək bir yolu türk hərbi dairələri idi. Buna görə də hökumət daim hərbi dairələrdən bu sahədə xahişlər edirdi. Türk hərbi dairələri də onlara müsbət cavab verirdi. Y.Şövqünün əmri ilə bölgədə yalnız tərxis olunmuş ehtiyat zabitlər qala bilərdi. Rütbəli və rütbəsiz əsgərlərdən də bölgədə qalmaq istəyən var idi.[2] Hüquqçu Hüseyn Avni bəyin (ulaq) Araz-Türk hökumətində qaldığını gördük.[3] Mədətov, Hacıyev, Kökdəmir Naxçıvandakı Xəlil bəyin Araz-Türk hökumətində işlədiyini qeyd edirlər.[4] Həqiqətdə isə belə deyildir. Xəlil bəy II diviziya komandiri Havid bəyə təqdim etdiyi yanvar 1919-cu il tarixli məlumatında yazırdı: Araz-Türk hökuməti bizə heç bir vəzifə vermək istəmədiyi kimi, biz də getmədik.[5] İbrahim bəy də bunu təsdiq etməkdə idi. O da Araz-Türk hökumətinin Xəlil bəyə vəzifə vermədiyindən bəhs edir.[6] Mədətov Xəlil bəydən başqa türk Ordusunun Naxçıvanda 5 zabit və 300 əsgər saxladığını yazırdı.[7] Bu məlumatı təsdiq edəcək başqa bir sənəd əlimizdə yoxdur. 1919-cu ilin əvvəllərinə aid Antanta dövlətlərinin nümayəndələrinin məlumatlarından[8] məlum olur ki, regionda türk əsgərləri qalmışdır. Beləliklə, deyə bilərik ki, Araz-Türk hökumətində Hüseyn Avni bəy kimi daha bir çox tərxis edilmiş şəxslər var idi.[9]

Tərxis edilmiş, bölgədə qalan şəxslərlə hərbi təşkilatların yaradılması işləri tamamlana bilməzdi. Bu tədbirdə əhalinin kütləvi iştirakı

[1] Bu vaxt Naxçıvanda Bələdiyyə sədri Hacı Mehdi Bağırov, polis müdiri Abbasqulu bəy Tahirov və hərbi komandir Kəlbalı xan idi (Əliyev. Qanlı günlərimiz. s. 84, 85, 88).

[2] Cahangiroğlu. Xatirələr. s. 5.

[3] Qırzıoğlu. Ədəbiyyatımızda Qars. II, s. 148; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. S. 121.

[4] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 43; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 48; Kökdəmir. Qafqaz hökuməti. s. 62.

[5] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 12-2.

[6] İbrahim bəy xatirələrində Xəlil bəyin Naxçıvan xanları ilə əlaqəsini belə ifadə edir: Ancaq arada bir şey var idi, o da partizanlıq. Buna birinci səbəb təkirdağlı kapitan Xəlil bəyin bura gəlməsi idi.

İbrahim bəy Xəlil bəyi çox ittiham etmişdir. Naxçıvan xanları da öz mənfəətləri üçün dünyanı qurban edən deyildirlər. Xəlil bəy Anadoluya qayıtdıqdan sonra öz rahatçılığını ataraq Naxçıvana qayıtmış və iki ilə yaxın ermənilərlə, ingilislərlə, amerikalılarla mübarizə aparmış, dostla dost, düşmənlə düşmən olmuşdur.

[7] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s. 43; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 48.

[8] Yenə orada, s. 39.

[9] Cahangiroğlu. Xatirələr. s. 10-23.

vacib sayılırdı. Əhalidən təşkil olunmuş qüvvələrə silah və hərbi ləvazimat lazım idi. Vəziyyəti başa düşən Araz-Türk hökuməti Osmanlı hərbi dairələrindən daim kömək istəyir. Yuxarıda ətraflı olaraq bəhs etdiyimiz xahişlərin bir hissəsinə IX Ordu komandiri 21 noyabr 1918-ci ildə 9-cu Qafqaz diviziyasına, Naxçıvan yerli hökumət rəyasətinə və İqdır komandanlığına göndərdiyi, əhalinin silahlanması başlıqlı teleqramda yazırdı:

1. Ordumuz on günə qədər Arpaçayın şərqindəki torpaqları tərk edəcəkdir. Əhali öz asayişi üçün istənilən təşkilatı yaratmaqda sərbəstdir. Ancaq Osmanlı əsgərlərinin bu işə qarışması məqsədəuyğun deyildir. Bu işlərdə məsləhət və kömək mümkündür.

2. Əhali yaratmaq istədiyi təşkilatı indidən yaratsınlar.

3. Boşaltma zamanı bütün əsgər və jandarma gedəcəyindən müəyyən tədbir görülməlidir.

4. Əhaliyə silah və s. vermək mümkün deyildir.

5. Araz vadisi çox zəngin olduğundan və bu günlərdə yığılacaq nə məhsul varsa orada qalacağından, artıq başqa ərzaqa ehtiyac olmayacaq.

6. Mühacirət məsələsinə gəldikdə, mühacirəti hökumət məqsədəuyğun hesab etmir. Köçmək istəyənlərə mane olmayacağam. Ancaq qatarlardan istifadə edə bilməzlər. Çünki qatarlar məşğul olacaqdır.

7. Bütün bunları əhalinin qabaqcıl nümayəndələrinə bildirmək lazımdır.[1]

Y.Şövqü paşa yuxarıdakı teleqrafda artıq silah, hərbi ləvazimat və s. verilməyəcəyini qeyd etmişsə də, bir müddət sonra fikrini 9 və 12-ci diviziyalara verdiyi əmrdə deyirdi:

12-ci firqə komandanlığı tərəfindən Gümrüdə mövcud rus əl bombalarından 100 qutu ayrılan və 27.11.34-də gedəcək yük qatarları ilə Uluxanlı stansiyasına gətiriləcəkdi. 9-cu Qafqaz diviziyası bu bombaları Uluxanlı stansiyasından götürərək, Araz vadisinin müsəlman əhalisinin qabaqcıl nümayəndələrinə veriləcəkdi. Bu, gizli saxlanılmalıdır.[2] Y.Şövqü paşanın əmri səhərisi gün yerinə yetirildi və əl bombası olan 100 qutu Uluxanlıya göndərildi.[3] Yenə bu vaxt Axıska və Axalkələk əhalisinə silah, hərbi sursat paylanıldı.[4] Boşaldılacaq bölgə əhalisi özünü müdafiə üçün hazırlamaqda idi.

Araz-Türk hökumətinin təşkilat yaratmaq təşəbbüsləri erməni hökumətini narahat edirdi. Bu məqsədlə erməni xarici işlər nazirliyi 21

[1] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 35, 35-1.
[2] Yenə orada, f. 42-1.
[3] Yenə orada, f. 42.
[4] Yenə orada, f. 39.



noyabr 1918-ci ildə İrəvandakı Osmanlı nümayəndəsi Məhəmmədəli paşaya müraciət edərək narahatçılıqlarını bildirdi. Erməni dairələri Araz vadisində müsəlman əhalinin alaylar təşkil etməsi, hərbi hazırlıqlar görməsi ilə əlaqədar erməni mühacirlərinin də narahat olub silahlanmasını bildirir, bu fəaliyyətlərə son verilməsini tələb edirdi.[1] Həmin gün Məhəmmədəli paşa ilə Şövqü paşa arasında yazışmalar aparıldı. Məhəmmədəli paşa Y.Şövqü paşanın teleqramım almamışdan əvvəl, erməni xarici işlər nazirliyinə tutarlı cavab verdi və mətnin bir nüsxəsini də IX Ordu komandanlığına göndərdi. Erməni xarici işlər nazirliyinə göndərilmiş cavabda bildirilirdi. Ermənistanın bütün əhalisi silahlandığından boşaldılan Araz vadisindəki müsəlman əhali ancaq özlərini müdafiə etmək üçün silahlanmağa məcbur olmuşdur. Belə adamlardan alay təşkil edilməsinə ehtimal yoxdur. Osmanlı hökumətinin məqsədi qonşu Ermənistan hökuməti ilə yaxşı münasibət saxlamaqdır. Sərhədlərin ciddi mühafizəsi hər iki dövlətin əlindədir.[2] Y.Şövqü paşa da teleqramda göstərirdi ki, Araz vadisində yaradılan təşkilata Osmanlı Ordusunun heç bir təsiri yoxdur, əhali öz namus və həyatlarını qorumaq sahəsində sərbəstdirlər, gələcək mühacirlərlə yerli əhalinin qaynayıb qarışması üçün tədbirlər görülür.[3]

Osmanlı hərbi dairələri, Araz vadisindəki müsəlman əhaliyə hərbi təşkilatların yaradılmasına kömək etmədiklərini nə qədər desələr də bu, həqiqətə uyğun deyildi. Əslində siyasətə görə belə deyilirdi. Osmanlı hərbi və idarəetmə dairələri, boşaldılacaq bölgədə olan türk-müsəlman əhalisinin gələcəyini nəzərə alaraq əllərindən gələni əsirgəmirdilər. Daim İstambul ilə əlaqə saxlanılır, rəhbər dairələrin fikirlərini soruşurdular.[4] Region əhalisinin təzyiqi və xahişləri Osmanlı dairələrinə də öz təsirini göstərirdi.[5] Əhalinin bir hissəsi təşkilat yaratsa da yenə qorxu

[1] Kökdəmir. Qafqaz hökuməti. S. 66-67.
[2] ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 36.
[3] Y.Şövqü paşanın erməni mühacirlərinin məskunlaşması haqqındakı fikirləri həqiqət idi. İcazə verilmiş, erməni mühacirləri gəlməyə başlamış, məskunlaşmaları təmin edilmişdir. 25 noyabr 1918-ci ildə İrəvan yolu ilə gələn 622 və səhəri gün Eçmiədzin tərəfdən gələn 239 erməni mühacirləri kəndlərinə göndərilmişlər. Mühacirlərin üstləri axtarılır, silah və patronları alınırdı. Gələcək təhlükələrin qarşısını almaq istəyirdilər (Kökdəmir. Qafqaz hökuməti. s. 67-68). Araz-Türk hökuməti qurulduqdan sonra erməni hökumətinə bir nota vermiş və sərhədləri daxilinə gələn erməni mühacirlərinin silahsız gəlmələrinə şərt qoymuşdur (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 21-1). Naxçıvanlılar dağ bölgələrinə gələcək erməni mühacirlərinin silahsız olmasını istəyirdilər (Əliyev. Qanlı günlərimiz. s. 84).
[4] BOA, BEO. Daxili İşlər Naz. dəftəri № 1127.15668. 85.31.34; ATASE A 1.1. kls. 37, d. 144-130, f. 16.
[5] Qars inzibati müfəttişi Hilmi bəy 20 noyabr 1918-ci ildə Daxili İşlər Nazirliyinə, oradan da sədrəzəm Sadrayan Tofiq paşaya bir məlumat göndərmişdi. Dünən

və həyəcan içərisində idi.

Bu cür narahatçılıqlara baxmayaraq, Araz-Türk hökuməti təşkilatlanma sahəsindəki fəaliyyətlərini davam etdirir, türk ordusu da müştərək bölgədən ağır-ağır çıxırdı. Elə bu vaxt, Araz-Türk hökumətinin hərbi naziri seçilmiş Qars Müsəlman Şurası rəisi Cahangiroğlu İbrahim bəy,[1] müavini Emin bəy və katibi Sami bəy Naxçıvana gəldilər. Məqsədi Qars Müsəlman Şurasının qəbul etdiyi qərarları oxumaq və Araz vadisində şöbələr açmaqdır. Ancaq Araz vadisinə gələn İbrahim bəy Qars Müsəlman Şurasının şöbələrini açmaq əvəzinə, regionda hərbi təşkilatların yaradılması ilə məşğul oldu. Əmir bəy, Bağır bəy və İbrahim bəy Naxçıvana gələrək, məscidə toplaşan əhalıyə hərbi təşkilatlar haqqında məlumat verdilər. Sonra Cəhri kəndinə yola düşdülər. Məqsəd burada yerləşən Cəhri batalyonunu ziyarət etmək idi. İbrahim bəy Cəhriyə gəldikdən sonra sərhəddə olan istehkamları yoxladı, bir sıra məlumatlar əldə etdi və təkrar Naxçıvana qayıtdı. Ancaq Naxçıvanda kədərli dəqiqələr yaşanırdı. Türk əsgərləri bölgədən çıxmaq hazırlıqları görür, əhali isə həyəcan və qorxu içərisində gözləyirdi.[2] Belə bir şəraitdə İbrahim bəy əhali ilə bərabər türk əsgəri çıxdıqdan sonra nə edəcəklərini müzakirə etdi.[3] Bir müddətdən sonra türk əsgəri ilə Naxçıvandan çıxan İbrahim bəy Qəmərliyə gəldi.

Qəmərliyə gələn İbrahim bəy buradakı hərbi təşkilat yaratmaq işini sürətləndirdi. Bütün batalyon və rota komandirlərini Qəmərliyə çağırdı. Əvvəldə qeyd olunduğu kimi, türk ordusu çıxmamışdan əvvəl 20-yə qədər batalyon yaradılmışdı. 250-500 nəfərdən ibarət olan batalyonun dördü Naxçıvanda, üçü Şərur-Dərələyəzdə, digərləri də Vedibasar, Zəngibasar, Qəmərli və Başkənddə (Aralıq) idi. İqdır tərəfindən hələ kifayət qədər təşkilat yox idi.[4] İbrahim bəy xatirələrində bundan sonra gördüyü işləri belə ifadə edir.

Aralıq-Başkəndin qabaqcıllarından bir neçəsini çağırdım. Onlara lazımi məsləhətlər verdim. O böyük adamlar bir gecə icazə istədilər, erkəndən gəldilər. Bir alay 1500 nəfər olmaq şərti ilə 5 süvari rotası, iki kənddəki əsgərlərin adları olan dəftərləri özləri ilə gətirdilər. O saat oraya bir zabit, bir çavuş, on türk əsgəri göndərdim. Zabitə pul, lazımi şeylər, əmr verildi. Aralıq-Başkəndə zabit göndərdikdən sonra Araz-Türk hökuməti yığıncaq keçirdi. Hər tərəfdən oraya nümayəndələr çağırıldı, müzakirələr başladı. Ermənilərin türk və müsəlmanlara elədikləri zülmləri bir-bir saydılar. Çox uzun müzakirələrdən sonra çıxış edənlərdən biri dedi ki, indi ermənilərə qarşı nə etmək lazımdırsa, onu demək lazımdır. Bundan sonra türk yoxdur. Türkiyə də uzaq. Sabah, o biri gün ermənilər sərhədimizə gələcəklər. Təkrar edirəm, ona qarşı nə etməliyik. Yerdən ümumi cavab verildi. Erməniləri buraxmırıq, birimiz qalsaq da belə. Əksəriyyət isə müharibə etməyi təklif etdi, yığıncaq dağıldı, bölgü keçirildi. Hərbi komandirlər əmrlər alib, geri qayıtdılar. Biz də hazırlıq gördük. Bir heyətlə bərabər sərhədləri gəzdik, lazım olan yerləri gördük. Qəmərlidən çıxdığımız zaman erməni kəndlərində yaşayan mühacirlər köçməyə başlamışlar. Əmr verdik, mənim əmrin olmasa heç kəs kənddən çıxa bilməz. Biz o gün Akçaban kəndinə gəldik və orada işə başladıq. Sərhəd boyu lazım olan əsgərləri yerləşdirdik. O gün 8 saat sərhədboyu gəzdik, axşamüstü yenə Qəmrəliyə gəldik.[1] İbrahim bəy və Araz-Türk hökumətinin qabaqcılları yaxınlaşan erməni təhlükəsini görürdülər, ölkənin təhlükəsizlıyini təmin etmək üçün daim çalışırdılar. Sərhədlər yoxlanılır, müvafiq əmrlər verirdilər.[2] İbrahim bəy və yoldaşları böyük strateji əhəmiyyəti olan Uluxanlını qorumaq üçün bir sıra tədbirlər görməyi nəzərdə tuturdular. Bu məqsədlə Uluxanlıya gələn heyət böyük çətinliklərlə qarşılaşdı. Əhalının bir hissəsi erməni təbliğatına uyaraq Araz-Türk hökumətinə əhəmiyyət vermirdilər.[3] Buna görə də türk hərbi dairələrinin Uluxanlı stansiyasında Araz-Türk hökumətinə verdikləri 40 arabaya qədər bombanın daşınması üçün lazım olan daşıma vasitəsini vermək istəmirdilər.

Bir qisim müsəlman əhalisinin bu cür davranışlarına baxmayaraq, İbrahim bəy və yoldaşları Uluxanlı ətrafında olan könüllülər rotasını sərhədə yerləşdirmək üçün mübarizə edirdilər.[4]

Artıq, ermənilər hər an gələ bilərdilər.

---

Naxçıvan ilə İqdır əhalisi adından bir neçə şəxs müraciət edərək bildirmişlər ki, ordu çıxdıqdan sonra kimsəsiz və köməksiz qalacaqlar, vaxtı ilə ermənilərlə pis-yaxşı bir idarə altında yaşayırdılar. Osmanlı ordusu oraya gəldikdən sonra, bu imkansızdır, orada yaşayan müsəlmanlar soyqırımına məruz qalacaqlar. Bir neçə günə ordu çıxacaq, bunun ardınca anarxiya yaranacaq, yenidən iki tərəf arasında arzuedilməz münaqişə yaranacaq.

[1] Cahangiroğlu İbrahim bəy 30 noyabr 1918-ci ildə toplanıb, iki gün davam edən Qars Müsəlman Milli Şurasının yığıncağında Milli Müsəlman Şurasının rəisi seçilmişdi (Erdoğan. Türk ellərində xatirələrim. s. 169; Elviyeyi-Selasedə milli təşkilatlar. s. 69-71).

[2] Siyasi mühitdə qatma-qarışıqlıqlara baxmayaraq iqtisadi həyatda qaydalar davam edirdi. Naxçıvanlı tacirlər xüsusilə İran ilə alış-veriş edirdilər.

[3] Cahangiroğlu. Xatirələr. s. 5-6; Əliyev. Qanlı günlərimiz. s. 84-85.

[4] İqdırda hərbi təşkilati fəaliyyətləri tam şəkildə olmadığından İbrahim bəy belə ifadə etmişdi.

[1] Cahangiroğlu. Xatirələr. s. 8-10.

[2] Naxçıvanda yerli səlahiyyətlilər hərbi təşkilatlar sahəsində boş durmurdular. Naxçıvan qəzasında yığılan əsgərlərin and içmə mərasimi keçirilmişdir. Əvvəlcədən bölgədə olan Xəlil bəylə bərabər topçu kapitan Hüsnü bəy, Şahtaxtıda topçu əsgər hazırlayırdılar (Əliyev. Qanlı günlərimiz. s. 87).

[3] Cahangiroğlu. Xatirələr. s. 6-7.

[4] Əliyev. Qanlı günlərimiz. s. 88.

## ERMƏNİLƏRƏ QARŞI APARILAN MÜBARİZƏLƏR

Erməni təhlükəsinin qarşısını almaq üçün təşkilat yaradan Araz-Türk hökumətini buna sürükləyən səbəblər var idi. Bunlardan ən mühümü ermənilərin siyasəti, ruhlarında qaynayan vəhşilikləri türklərə tətbiq etmələri idi. Erməni tarixçisi Hovanisyana görə İrəvan vilayətindəki ermənilərin sayının müsəlmanlardan artıq olmasına baxmayaraq, Sürməlinin cənubunda, Şərur-Dərələyəz və Naxçıvanda əksəriyyəti təşkil edən türklər ölkənin ətrafını, nəqliyyat və rabitə yollarını nəzarətləri altında saxlayırdı. İrəvanın yaxınlığında yerləşən Zəngibasarda əksəriyyəti təşkil edən türklər erməniləri istəmirdilər.[1] Belə bir vəziyyətdə erməni hökuməti cümhuriyyətin İran sərhədinə qədər uzanan zəngin bölgələrinə nəzarəti ələ keçirməyi vacib bilirdi.[2]

Ermənilərin bölgəyə olan marağı türk ordusu çıxmadan bəlli idi. Osmanlı hökuməti nə qədər onlarla yaxşı davransa da, kömək etsə də, ermənilər rahat durmurdular. Y.Şövqü paşanın hərbi nazirə göndərdiyi 25 noyabr tarixli teleqramda bu maraqlı ifadələr diqqəti cəlb edir:

Siyasətə əsasən biz ermənilərlə xoş keçinir, onlarla səbirli davranırıq. Ərzaq ehtiyacları təmin etmək üçün hökumət adından çox taxıl verdik.[3] Müsəlman əhalisini sakitliyə dəvət etdik. Bu ay ərzində erməni mühacirlərini qəbul etdik, məskunlaşmasına, ərzaq ehtiyaclarına kömək etdik. Müsəlman əhalisi də erməni mühacirlərinə hüsnü-rəğbət bəslədilər. Bunun qarşılığında erməni mühacirləri kiçik, əhəmiyyətsiz bir-iki hadisə törədərək erməni hökumətinin diqqətini cəlb etdilər, özlərinin haqlı olduqlarını göstərməyə çalışdılar. Bununla da onlar gələcəkdə edəcəkləri fitnə-fəsadlara, ədavətə zəmin hazırlayırdılar. Bu əsassız şaiyə Ermənistanın Xarici İşlər Nazirliyi tərəfindən xarici hökumətlərə çatdırılır və bu da Ermənistan hökumətinin müsəlman əhaliyə hüsnü-rəğbəti olmadığını göstərirdi.[4] Bəli, Y.Şövqü paşanın dediyi kimi, ermənilər müsəlmanlara xoş münasibət bəsləmirdilər. Antanta dövlətlərinin

---

[1] Hovanisyanın yaddan çıxardığı bir şey var idi. O da budur ki, erməniləri istəməyən yalnız Zəngəzur türkləri deyil, Qəmərli və Vedi bölgələrinə də aiddir. Bu gün Ermənistan torpaqlarına daxil olan iki bölgə sərhəddən baxanda İrəvan şəhərinin xarici məhəllələri kimi görünür. 1970-ci ildə Qəmərlidən İrəvana məsafə 29 km. Zəngibasardan (Uluxanlı) İrəvana 20 km-dir (Əziz Ələkbəri. Qədim türk-oğuz yurdu Ermənistan. B., 1994, s. 89, 90, 117).

[2] Hovanisyan.

[3] Ermənistandakı Osmanlı nümayəndəsi Məhəmməd Əli paşanın ifadəsinə görə verilən buğda 450 tondur. Ordu erməni mühacirlərinə buğda vermişdir («Təsviri-Əfkar», 30 dekabr 1918, №. 2606).

[4] BOA, BEO, 340775.



dəstəyi ilə ərköyünləşən ermənilər türk ordusunun gözü qabağında, öz sərhədləri daxilində olan müsəlmanlara zülm edirdilər. Noyabr ayının axırlarına yaxın Naxçıvan və Göyçə gölü arasında qalan müsəlman əhaliyə ermənilər top və pulemyotla hücuma keçərək kəndləri dağıdır, əşyaları zəbt edir, digər tərəfdən, İran tərəfində boş durmayan ermənilər üç yüz, dörd yüz nəfər müsəlman əhalini Naxçıvana doğru çəkilməyə məcbur etdilər.[1]

Həmin dövrdə ermənilər Naxçıvan qəzasının şimalında Zəngəzur ilə Naxçıvan arasında olan türk-müsəlman kəndlərinə hücum edərək, əhalini incitmişdilər.[2] Soyqırımından canlarını qurtara bilənlər Naxçıvan və Gəncəyə qaçmışdılar. Zəngəzurda mindən artıq müsəlman şəhid olmuş, 133 kənd boşaldılmışdı.[3] Qarabağda və Zəngəzurda zülmlər edən Andranik Naxçıvana xəbərlər göndərir, müsəlmanları hədələyirdi.[4] Andranik boş yerə hədələmədiyini sübut etmək üçün Zəngəzur və Ordubad arasındakı türk-müsəlman kəndlərini mühasirəyə almağa və əhalini öldürməyə başladı. İrana qaçmaq istəyənlər Araz çayında boğulurdu.[5] Elə bil ki, Andranik 1918-ci ildə Naxçıvanda etdiyi vəhşilikləri təkrarlayırdı.

Təbii ki, sərhədlərə yaxın rayonlarda baş verən vəhşiliklər Araz-türk hökumətini və xalqı narahat edir, bir gün də növbənin onlara çatacağını bilirdilər. Bundan sonra Araz-türk hökuməti Ermənistana verdiyi bir notada, Osmanlı dövlətinin qoyduğu sərhədin silahlı ermənilər tərəfindən keçilməməsini tələb edir, əks təqdirdə qan töküləcəyini bildirdi.[6] Ancaq əvvəlcə sərhədi silahlı ermənilər deyil, onların bir çox mülki adamları keçirdilər. Bir sıra xalqın müsəlmanlardan, ermənilərdən təşkil olunmuş heyətlərinin hiylə və şirnikləndirmə ilə regionun qabaqcıl-nüfuzlu şəxslərini öz tərəflərinə çəkmək istəyirdilər. Türk-müsəlman əhaliyə Ermənistanın yaxşı niyyəti olması, sülh sevməsi haqqında təbliğat aparır, Antanta dövlətlərinin regionu Ermənistana verdiklərini bildirirdilər.[7] Bu məqsədlə İrəvandan Qəmərliyə iki müsəlman (Mir Cəfər ağa

---

[1] Yenə orada. ATASE A 1/2. kls. 82, d. 304-210, f. 7-1, 7-2.

[2] Ermənilərin vəhşilikləri haqqında xəbərləri eşidən Naxçıvan əhalisi çox narahat idi (Əliyev. Qanlı günlərimiz. s. 85).

[3] ATASE A 1/2. kls. 82, d. 304-210, f. 6-5.

[4] Yenə orada, f. 8.

[5] Müsəlmanların bu acınacaqlı vəziyyəti Ordubaddan Azərbaycan qəzetinə göndərilən bir məktubda gözlər önünə gətirildi. Məktubda imza edən Hacıyev bölgəyə azərbaycanlı və gürcüstanlı nümayəndələr göndərilməsini və buradakı dəyişiklikləri görməyini tələb edirdi («Azərbaycan», 2 dekabr 1918, № 62).

[6] ATASE A 1/2. kls. 82, d. 304-210, f. 6-5.

[7] Bu təbliğatlar qısa bir zamanda təsirini göstərdi. Naxçıvanın Ermənistana verildiyi və ermənilərin hücum edərək rayonu ələ keçirəcəkləri xəbəri əhalidə böyük bir qorxu və

və Mir Babayev) və iki ermənidən ibarət bir heyət göndərildi. Araz-Türk hökumətinin binasında səlahiyyətli şəxslərlə yığıncaq keçirildi. İbrahim bəyə görə, onun müavinlərinin yığıncaq salonuna gəldikləri zaman heyət əsl məqsədlərini gizlətdi, hökumətlərinin onları Qəmərliyə, türklərlə ermənilərin necə münasibət saxladıqlarını öyrənmək üçün göndərdiklərini bildirdilər. Buna görə də, erməni heyətindəki müsəlmanlara ağır sözlər dedilər və nəticədə heyət İrəvana qayıtmağa məcbur oldu.

Erməni heyəti getdikdən sonra Araz-Türk hökuməti tərəfindən böyük bir yığıncaq keçirildi. Hər tərəfdən nümayəndələr çağırıldı. Uzun müzakirələrdən sonra belə qərara gəldilər ki, ermənilər hücum edərlərsə, tək bir nəfər qalana qədər mübarizəni davam etdirəcəklər. Hökumət vətəni müdafiə etmək üçün mühüm qərarlar qəbul edir, bir sıra işlər görürdü, ermənilər də boş durmurdular. İbrahim bəyə görə onlar pulla ələ etdikləri mollalar, irəvanlı xanlar və tacirlər vasitəsilə müsəlman xalqının ağlını almağa (fikirlərini yayındırmağa) çalışırdılar. Bu cür təbliğatlar xüsusilə Uluxanlıda çox təsirli olmuşdu. Belə ki, sərhədlərdə lazımi tədbirlər görən Araz-Türk hökuməti heyəti həm Uluxanlıda qarşılanmamış, həm də istədikləri yerinə yetirilməmişdi. Ancaq, İbrahim bəyin sədrliyi ilə olan heyət Uluxanlıya bağlı Neçim kəndində qalmışdı. Gecə heyətin yanına ətraf kəndlərdən adamlar və komandirlər gəldi. Bunların hamısı müharibə tərəfdarı deyildi. Uluxanlı nahiyə müdiri: bu alçaqlar ermənilərə söz vermişlər deyirdi. Nahiyə müdiri haqsız deyildi. Səhərisi axşam yenə həmin kənddə keçirilən ümumi yığıncaqda ətrafdan gələn bütün nümayəndələr, sərhəddən erməni əsgərlərin keçməsinin müharibəyə səbəb olacağını bilirdilər. Uluxanlılı nümayəndələr bu fikirdə deyildilər.

Yığıncaq zamanı gələn Allahyar adlı birisi, nümayəndələrin müharibə tərəfdarı olduğunu görüncə icazə istəyərək çıxış etdi. Məqsədi onların fikirlərini yayındırmaq idi. Bir neçə gün əvvəl İrəvanda dəli Qazan adlı bir daşnağın evində qonaq olan Allahyar bəy sözlərinin inandırıcı olması üçün türk zabiti, kapitan, milliyətçə ərəb olan Əbdülqədir bəyə istinad edirdi. Əbdülqədirin fikrincə ermənilərlə boş yerə müharibə aparmaq lazım deyil. Çünki, Antanta dövlətləri bölgəni Ermənistana vermişdir. Nümayəndələr bunu çox sərt qarşıladılar, inanmadılar. Ancaq bu səfər də Pənah xanın oğlu Əli xan meydana çıxdı. Əmir bəy və İbrahim bəy bir qarşılaşma zamanı Əli xanı təsirsiz hala gətirmək

---

kədər yaratdı. Bir çox adamlar İrana müraciət etdilər. Naxçıvanın nüfuzlu şəxsləri məscidə yığışdılar ki, məsələni müzakirə etsinlər. Nəticədə şeyx Kərim Axundzadə, Mehdiqulu xan Diyarbəkiri və Abbas ağa Kəngərlinski İrandakı Antanta dövlətləri nümayəndələrindən vəziyyəti soruşmaq üçün getdilər. Digər tərəfdən yerli hökumət pis təbliğatın nəticələrini aradan qaldırmağa çalışırdı (Əliyev. Qanlı günlərimiz. s. 86, 88).



istədilər, ancaq onun Maku xanının qohumu olduğunu bilərək niyyətlərindən əl çəkdilər. Ancaq Əli xanın xalq arasında mənfi təbliğatlarını eşidincə hərəkətə keçdilər.[1] Əli xanı Uluxanlıdan tutub gətirmək işi Əkbər bəy Əkbərova və Rəşid bəy Şəmsəddinova tapşırıldı. Onlar özləri ilə kifayət qədər süvari götürdülər, bir gün sonra Uluxanlıya getdilər. Onların Uluxanlıya çatmalarına bir saat qalmış İrəvan və Eçmiədzin tərəflərdən gələn 300 süvari və 400-500 piyada erməni əsgəri bölgəni öz nəzarətləri altına aldılar.[2]

Ermənilər Araz-Türk hökumətinə qarşı bir neçə tərəfdən hücum etmişdilər. [3]

Böyük strateji əhəmiyyəti olan Uluxanlı-Qəmərli xəttindən Şərura 10 dekabrda başlayan hücumu albay Doluxanov idarə edirdi.[4] Digər tərəfdən də Osmanlı ərazisindəki ermənilərdən ibarət bir erməni qüvvəsi Dərələyəz tərəfdən müsəlman əhaliyə hücum edərək bir kəndi boşaltmış[5] və onların yerinə erməniləri yerləşdirmişdilər. Eyni vaxtda ermənilərin liderlərindən Yapun ilə əməkdaşlığa girən Andranik də Xudafərin

---

[1] İbrahim bəyin xatirələrində Əli bəyin fəaliyyəti belə göstərilir. Kənd əhalisinə cibindəki pulu çıxarıb göstərmiş və demişdir. Əgər ermənilər buralara gələrlərsə, siz də mənim kimi pul ilə oynayacaqsınız. Əgər müharibə etsəniz, ermənilər sizi qırar. Oğul-uşağınız ayaq altında qalar. Türklər axirətə getdilər, onların üzünü görməyəcəksiniz (Cahangiroğlu. Xatirələr. s. 14). Əliyev göstərirdi ki, Uluxanlıya gələn irəvanlı Pənah oğlu Əli xan və Mirbağır ağa camaatı məscidə yığıb, onlara erməni hökumətinin yaxınlaşdığından bəhs etmiş, Antanda dövlətlərinin Naxçıvanı Ermənistana verdiklərini demişdi (Əliyev. Qanlı günlərimiz. s. 88).

[2] Cahangiroğlu. Xatirələr. s. 8-9; Əliyev. Qanlı günlərimiz. s. 88. İbrahim bəyə görə erməni əsgərlərini Uluxanlıya mollalar, tacirlər, xan və bəylər dəvət etmişdilər. Bu haqda Azərbaycan qəzetində də məlumata rast gəlirik (17 iyul 1919). Yazıda yazılmışdır: erməni cümhuriyyəti özlərinə yaxın olan müsəlman yerlərini xain və təcrübəsiz müsəlmanların köməyi ilə öz hökmranlığı altına alırdı. Məs, İrəvan uezdinin Zəngibasar bölgəsini İrəvan xanzadələrindən Əli xan Makinski vasitəsilə öz taxt-tacı altına keçirdi (M.B.Naxçıvan-Şərur məsələsi I). Əli xan Makinski İbrahim bəyin qeyd etdiyi Əli xandır.

[3] Araz-Türk hökumətinin sərhədləri daxilində türklərin əksəriyyət təşkil etməsinə ermənilər əhəmiyyət vermirdilər. Məhsuldar torpaqların əllərindən çıxması ölkə iqtisadiyyatına zərər verərdi. Kaçaznuniyə görə Ermənistan Şərur və Naxçıvansız yaşaya bilməzdi.

[4] ATASE A 1/2. kls. 65, d. 254-101, f.21-2; Tarix, fəlsəfə, hüquq. Xəbərlər. Azərb. SSR. EA № 4, B., 1984, s. 114; Ə. Əliyev Naxçıvanda Sovet hakimiyyətinin qurulması uğrunda mübarizə 1920-1921-ci illər. B., 1960, s. 114. İbrahim bəy Naxçıvandan qarsa qayıdarkən Bəyazidə gəlmiş və burada aldığı məlumata görə hücum edən ermənilərin lideri Papu adlı bir nəfərdir və dəstəsində 1200 nəfər var (BOA. D. 4.1.UM. 20-18. 12-3; BOA, BEO, 341-351).

[5] Hovanisyan qeyd edir ki, ermənilər üçün bu əməliyyat çox əhəmiyyətli idi. Çünki İrəvandan Zəngəzura uzanan təhlükəli dağlıq yolu türklərin Naxçıvan və Şərur yolunu tutduqları bir zamanda ermənilərin nəzarəti altına almışdır.

körpüsünə doğru hərəkətə başladı. Təbii ki, Andranik bu hərəkəti zamanı xarakterinə yaraşan hadisələr törədəcəkdi və törədirdi.[1]

Onun zülmündən Naxçıvana qaçanlar vəhşiliklərini danışıb qurtara bilmirdilər.[2]

Uluxanlının ermənilərin əlinə keçməsi Qəmərlidə şok yaratdı. Təcili bir yığıncaq keçirildi. İrəvana iki nəfərlik heyət göndərilməsini qərara aldılar. Yaxınlaşan təhlükənin ciddiliyini başa düşən İbrahim bəy Qəmərlidəki mühüm materialları arabalarla Araz çayının qarşı tərəfinə daşıtdırdı. İrəvana gedən heyət o gecə geri döndü. Bundan sonra baş verən hadisələri İbrahim bəy xatirələrində belə təsvir etmişdir: Hökümət rəisi Əmir bəy və maliyyə naziri Bağır bəydən başqa bir kimsə qalmadı. Kimə müraciət etdik bir nəticəsi olmadı. İki gün sonra müavinim Emin bəy icazə istədi, Qarsa qaçdı. Ümumi katib Sami bəyə icazə verdim, məni qoyub getmədi. Mən səni buraxmam dedi. Biz Qəmərlidən çıxdıq. Araz-Türk hökumətinin üzvləri çıxdıqdan bir saat sonra Əli xan erməniləri Qəmərliyə gətirdi.[3]

Beləliklə, hökumətin qeyri-rəsmi mərkəzi olan Qəmərli ermənilərin əlinə keçdi və hökumət üzvləri ilə müsəlman əhalisi də Naxçıvana doğru çəkilməyə başladılar.

Uluxanlını və Qəmərlini ələ keçirən ermənilər[4] Dəvəliyə doğru irəliləyirdilər. Hovanisyana görə, məqsədləri Dəvəli ətrafındakı müsəlmanların nəzarəti altında olan erməniləri qurtarmaq və ermənilərin cənuba getməsinə mane olan Böyük Vedi bölgəsini də təsirsiz hala gətirmək idi.[5] Ancaq ermənilər Vedidə gözləmədikləri müqavimətlə qarşılaşdılar. Abbasqulu Şadlinskinin komandanlığındakı türk müdafiəsi ermənilərə keçid vermirdi.[6] Digər tərəfdən, Naxçıvana çəkilən Araz-Türk hökumətinin səlahiyyətli nümayəndələri Dəvəli kəndində böyük bir qarma-qarışıqlıqla qarşılaşdılar. Kənd əhalisindən kürdlər yaxınlaşan erməni təhlükəsindən qurtulmaq üçün Dəvəlidən çıxmışdılar.[7] Qalan türklər

---

[1] ATASE A 1/2. kls. 82, d. 304-210, f. 7-1, 6-5.

[2] ATASE A 1/2. kls. 65, d. 254-101, f.21-3. Əliyevə görə Zəngəzurda Nejde adlı bir erməni lideri müsəlman əhaliyə zülm edirdi (Əliyev. Naxçıvanda Sovet hakimiyyətinin qurulması. s. 11).

[3] Cahangiroğlu. Xatirələr. s. 15. Əliyev qeyd edirdi ki, Qəmərliyə gələn erməni qüvvələri əhalini soyurdular (Əliyev. Qanlı günlərimiz. s. 89).

[4] ATASE A 1/2. kls. 65, d. 254-101, f.21-2; Cahangiroğlu. Xatirələr. s. 15. Əliyev qeyd edirdi ki, müsəlman qüvvələrinin Qəmərliyə gedib, erməniləri məğlub etməsi Naxçıvana telefonla bildirilmişdir (Əliyev. Qanlı günlərimiz. s. 89).

[5] Hovanisyan.

[6] M.B.Naxçıvan-Şərur məsələsi I; «İzvestiya», 1989, № 4, s. 118-120; Ə.Əliyev. Qırmızı tabor. B., 1990, s. 13.

[7] ATASE A 1/2. kls. 82, d. 304-210, f. 6-5.



isə yaxınlıqdakı digər kəndlərlə birləşərək müdafiə olunmağı qərara almışdılar. Əmir bəy və İbrahim bəy əhalini sakitləşdirərək kənddən çıxmışdılar. Yolların vəziyyəti dəhşətli idi. Erməni təhlükəsindən qaçan xalq yağış və palçıq içində Şərura doğru çəkilirdilər. Hökumət üzvlərinin ətrafına toplaşan adamlar nə edəcəklərini soruşurdular. Əhalinin belə narahat, həyəcanlı vəziyyətləri qarşısında çarəsiz qalan hökumət üzvləri Sədərəyə gəldilər. Səhərisi gün 40 araba bomba ilə yola çıxıb gecə Baş Noraşenə çatdılar. Hökumət üzvləri Noraşenə gəldikləri günün səhərisi yaxınlıqdakı Yengicəyə getdilər. Yengicə kəndinin sakinləri Məşədi Əli, Əsgər Ağa Həmzəzadə,[1] Kərbəlayı Məhəmməd bəy, Hacı Cabbar ağa ilə görüşdülər. Həmin gün ətrafa əmrlər göndərildi, Şərur-Dərələyəz bölgəsinə bağlı kəndlərin nümayəndələri Yengicəyə dəvət edildilər. Səhərisi gün nümayəndələrin gəlməsi ilə Yengicə stansiyasında bir yığıncaq keçirildi. Hökümət rəisi Əmir bəyin çıxışından sonra bir neçə nüfuzlu şəxslər də çıxış etdi. Nümayəndələr qəti qərara gəldilər ki, vətən müdafiə olunmalıdır, çünki düşmən artıq Dəvəlini ələ keçirmişdi. Sədərəyə yaxınlaşırdılar.[2]

Təhlükə çox yaxınlaşdığından, Araz-Türk hökuməti silahlı qüvvələrin nizamlanmasına diqqəti artırdı. Artıq ermənilərin qabağından çəkiləcək yer yox idi. Döyüşmək lazım idi. Bu fikirdə olan Əmir bəy, İbrahim bəy və digər hökumət üzvləri artıq fəaliyyətə başladılar. İbrahim bəy 500 nəfərlik süvari alayı yaratmağa başladı. İlk mərhələdə 120 nəfərin adını qeyd etdirdi. Noraşendə də bu fəaliyyətlər davam etdirilirdi. İbrahim bəy Noraşen bəylərindən birini cəbhəyə mövqe komandiri təyin etdi və eyni vaxtda Naxçıvandan könüllü əsgər istədi. Kərim xan intriqaya başladı. Buna görə də həm telefona cavab vermədilər, həm də əsgər göndərmədilər. Naxçıvandan kömək gəlməsə də[3] ətrafdakı bölgələrdən axın-axın könüllü qüvvələr gəlirdi və bunlardan rota, batalyon yaratmaq da mümkün idi.[4] Bu qüvvələrin yaradılması zamanı bizim qarşılaşdığımız milli qüvvələrdən[5] Nehrəm batalyonuna – Kəblə Muxtar, Cəhri batalyonuna Kəblə Kərim, Dizə batalyonuna Qulubəy, Məhəmməd Rza bəy, Şərur batalyonuna Hüseyn Əliyev, Şərur-Sədərək

---

[1] Məşədi Əli Əsgər ağa Araz-Türk hökuməti qurulmağa hazırlıqlar görüldüyü zaman Əli Şəfiq bəy tərəfindən Yengicə nahiyəsinə müdir təyin edilmişdi (ATASE A 4. 8314, kls. 251, d.1-4, f. 17).

[2] Cahangiroğlu. Xatirələr. s. 16-19. Şərurdakı həyəcan və qorxu Naxçıvanı da bürüdü və onlar şəhərlərini müdafiə etməyi qərara aldılar (Əliyev. Qanlı günlərimiz. s. 88-89).

[3] Naxçıvandan istənilən köməyə həmin gün müsbət cavab verilməmiş, səhərisi gün yardım edilməsi qərara alınmışdır (Əliyev. Qanlı günlərimiz. s. 90).

[4] Cahangiroğlu. Xatirələr. s. 19.

[5] Milli qüvvələr – təşkilat yaratmaq bölməsində qeyd etdiyimiz kimi daha əvvəllər yaradılmışdı.

kəndlərindəki birliklərə Həsən Şahverdi oğlu, Yengicə qüvvələrinə Məşədi Ələsgər ağa, Kərkər qüvvələrinə Möhsün Camalov, Baş Noraşen-Zeyvə-Düdəngə kənd qüvvələrinə Fətullah Hüseynov və Kərbəlayi Həbib bəy, Ordubad batalyonuna müəllim İbrahim Xəlil Axundov komandirlik edirdilər.[1] Göründüyü kimi, milli qüvvələr yerləşdiyi bölgələr, Ordubad istisna olmaqla, hamısı Naxçıvanın qərbində, yəni erməni hücumu qarşısında idilər.

Araz-Türk hökuməti erməni hücumunun qarşısını almaq üçün bir sıra hərbi hissələr yaradarkən, sözsüz ki, böyük maddi sıxıntı içində idi. Köməyə ehtiyacı var idi. Türkiyədən yardım alınmasına imkan yox idi. İdarəçilik boşluğu olan İrandan da dəstək almaq mümkün deyildi. Yeganə, bəlkə də ən yaxşı köməyi alacağı region qanı bir, dili bir, insanları bir Azərbaycan idi. Hökumət də bunu təqdir etdiyindən bölgənin fəal gənclərindən Paşa Bayramov Azərbaycana kömək üçün göndərildi.[2] Paşa Bayramov Bakıya çatar-çatmaz fəaliyyətə başladı. İlk əvvəl Azərbaycan hökumətinin səlahiyyətli şəxsləri ilə görüşdü, Araz-Türk hökumətinin istəklərini bildirdi. 24 dekabr 1918-ci ildə Azərbaycan qəzetində bir xəbər nəşr olundu. Bu xəbərdə Paşa Bayramovun Azərbaycan hökumətinə Araz vadisində ermənilərin etdikləri zülm və vəhşiliklərdən məlumat verməsi göstərilir və müsəlmanlara dəyən zərərin yerindəcə müəyyən edilməsi üçün Antanta dövlətlərinin və Azərbaycan nümayəndələrinin regiona gəlməsini istədiyi bildirilirdi.[3]

Paşa Bayramov da çox qeyrətli bir adam idi. Onun fəaliyyəti nəticəsində Bakıda yaşayan İrəvan vilayəti müsəlmanları İrəvan vilayəti həmyerlilərin Yardımlaşma Cəmiyyəti yaratdılar. Cəmiyyətə üzv seçkisi keçirildi. Fəaliyyətlər nəticəsində cəmiyyət Araz vadisindəki mühacirlərə pul yardım etdi.[4] Azərbaycan hökuməti də Araz-Türk hökumətinə qüvvələrin təşkili üçün 1.000.000 rubl göndərdi.[5] Ancaq Paşa Bayramov və

[1] Milli qüvvələr döyüşə öz silahları, atı, geyimləri və ərzağı ilə gedir, olduqları kəndlərdən kömək alacaqlar (Əliyev Araz).

[2] M.B. Naxçıvan-Şərur məsələsi I; Naxçıvan-Şərur məsələsi III; «Azərbaycan», 22 iyul 1919,№ 231. Bəzi bölgə nümayəndələrinin də Azərbaycanla əlaqə saxladıqları məlumdur. 7 dekabr 1918-ci ildə ilk yığıncağını keçirən Azərbaycan parlamenti (Eraq Kürçüoğlu, 1918-1920 Türkiyə-Azərbaycan münasibətləri (dok. dissertasiyası nəşr olunmayıb, Ərzurum, 1994), Ordubad əhalisi adından A.Hacıyev bir təbrik teleqramı göndərmiş və bütün Qafqaz müsəlmanlarının ümidgahı olduğunu bildirmişdir (Hacıyev. Qars və Araz-Türk respublikaları. s.50).

[3] «Azərbaycan», 24 dekabr 1918, № 72.

[4] Azərb. Cüm. MDEYTA f. 894,op.10, d. 7, № 2.

[5] Yardım pullarını Bakıdan alıb Tiflisə gələn Paşa Bayramovu və Yusif bəy Qadıyevi burada bir sürpriz gözləyirdi. Bu dövrdə (yanvar 1918) Araz-Türk hökuməti devrilmiş, yerinə Şura hökuməti qurulmuşdu. O zaman Tiflisdə olan Naxçıvan Şura hökumətinin xarici işlər komissarı Bəhram xan Paşa Bayramovun pul gətirdiyini bilərək ondan pulu istədi. Bəhram xan deyirdi: Araz-Türk hökuməti dağılmış, yerinə Naxçıvan şura hökuməti qurulmuşdur. Özü də hökumətin üzvü olduğuna görə pul ona çatmalı idi və o, bu pulu Naxçıvana aparacaqdı. Bəhram xanın və Azərbaycan parlamentinin üzvü Camalbəyovun intriqası nəticəsində pul Naxçıvana çatmadı, Bakıya geri qaytarıldı (M.B.Naxçıvan-Şərur məsələsi III). Bakıdakı Yardımlaşma Cəmiyyəti boş durmadı və Naxçıvan, Şərur, Ordubad və Sürməlidəki vəziyyəti müəyyənləşdirmək üçün Mir Abbas Bağırovu regiona göndərdi. 20 fevralda Naxçıvana gələn Mir Abbas Bağırov Sürməli işğal olunduğundan bölgəyə girə bilmədi (Azər. Cüm. MDEYTA, f. 894, siy. 10, iş 70; M.B.Naxçıvan-Şərur məsələsi III).



Yusif bəy Hadıyev tərəfindən Tiflis yolu ilə gətirilən pul nə Araz-Türk hökumətinin əlinə keçdi, nə də Naxçıvana çatdı. Yardım pullarının regiona gətirilməməsi regiondakı mövcud sıxıntıların artmasına səbəb oldu.

Araz-Türk hökuməti bir tərəfdən hərbi hissələrin təşkilini tamamlamağa çalışır, bir tərəfdən maddi kömək axtarır, erməni təhlükəsi də getdikcə yaxınlaşırdı. Onlar Arazdəyənə qədər gəlmişdilər.[1] Dəhnə boğazına çatmamış ermənilər, müsəlmanlardan ibarət bir heyəti Araz-Türk hökumətinə göndərdilər və təslim olmalarını təklif etdilər. Hökumətin qüruruna toxunan bu təklif rədd edildi.[2] Ermənilərin Sədərək yaxınlığındakı Arazdəyənə gəldiyini öyrənən Tağı bəy fəal nümayəndə kimi bölgəyə göndərildi. 2 gün sonra Tağı bəydən gələn məlumat ürəkaçıcı deyildi. Yanındakı qüvvələrlə Arazdəyənin yaxınlığına gələn Tağı bəy, sayca üstün olan erməni birlikləri ilə döyüşmüş və məğlub olmuşdu.[3]

Məğlub olan Tağı bəy Dəhnəyə doğru çəkilərək burada müdafiə hazırlıqlarına başladı.[4] Məğlubiyyət xəbərini hökumətə bildirən Tağı bəy təcili qüvvə və hərbi ləvazimat istəyirdi. İbrahim bəy Tağı bəyin istəklərini həmin dəqiqə yerinə yetirmiş və ona görəcəyi işlər haqqında

[1] Cahangiroğlu. Xatirələr. s. 19.

[2] Tağı Nağdəlizadə. Naxçıvan ətrafında. «İstiqlal», 14 fevral 1919, № 2.

[3] Tağı bəyin qüvvələrinin məğlubiyyəti nəticəsində erməni qüvvələri Sədərəyə gəlmişdi. Əhali erməniləri duz-çörəklə qarşılamışlarsa da, ermənilər duz-çörək gətirənləri həbs etmişdi.

[4] 13 dekabr 1918-ci ildə Şərurdakı hökumət qüvvələrinə yardım göstərilməsi qərara alındığı kimi, İranın Xoy və Təbriz şəhərlərindəki səlahiyyətli dairələrindən də kömək istənildi və vəziyyət Antanda dövlətlərinin nümayəndələrinə bildirildi, onlardan bölgəyə nümayəndə göndərilməsi tələb olundu (Əliyev. Qanlı günlərimiz. s. 90). İrandan kömək istəməyin 2 cəhəti var idi: 1. Xəlil bəyin iştirakı ilə İrandan yardım istənilməsi (ATASE A ½, kls. 65, d. 254-101, f.21-2), digəri İran tabeliyinə keçmək təklifi idi (Azərb. Cüm. MDEYTA, f. 970, op.1, d. 42, 1, 3, 4; Tağıyeva, Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri. s. 66; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 53.

siyahı da vermişdi. Bu siyahıya görə, Dəhnə boğazında[1] müdafiə hazırlıqlarına başlanılacaq, istehkamlar tikiləcəkdi. Bundan başqa, əsgərin yemək, geymək, qalma və istilik ehtiyacları təmin edilir və sonra onlar cəbhəyə göndərilirdi. Ancaq Tağı bəy Dəhnədə qalmır. Dəmirçiyə gəlir. Qüvvələri burada qoyub Noraşenə gedir.[2]

Qarşılarında ciddi bir maneə görməyən erməni qüvvələri Şəruru (Şurur) ələ keçirmək üçün 14 dekabr 1918-ci ildə ümumi bir hücuma başladı.[3] Sərhəddəki dağ kəndlərindən Noraşenə hücum edildi. Əvvəlcə erməni hücumu müvəffəqiyyət qazandı, sonra dəf edildi və ermənilərə xeyli zərər verdilər. Ancaq yeni hücumun Dəhnə boğazmdan olacağını bilən İbrahim bəy, təcili olaraq Tağı bəyi oraya göndərdi. Tağı bəy boğaza gələndə döyüş başlamışdı. Ondan əvvəl bölgədə olan Məşədi Əli Əsgər ağa[4] kəşfiyyata gələn erməni süvariləri ilə vuruşurdu. Ermənilərə gələn köməyin hesabına döyüş gücləndi. Məşədi Əli Əsgər ağa onları geri çəkilməyə məcbur etdi. Sonra ardına düşdülər. Bir hissə qənimət əldə edən türk qüvvələri xeyli irəli gedərək, erməni toplarının atəş mənzilinə girdilər. Sonra nə oldusa, meydana gəldilər. Üç tərəfdən erməni hücumuna məruz qalan Araz-Türk hökuməti qüvvələri 20-yə qədər şəhid verərək geri çəkilməyə başladılar.[5]

Bu vaxt 18 türk əsgərlə Dəhnə boğazına gələn Araz-Türk hökuməti hərbi naziri İbrahim bəy qorxulu bir mənzərə ilə qarşılarşdı. Yerli türk qüvvələri dəstə-dəstə düşmənin qarşısından geri çəkilirdi. İbrahim bəy onların dayanması üçün xəbərdarlıq etsə də, nəticəsi olmadı. Bununla əlaqədar yanındakı əsgərlərə cəbhədən qaçanları vurmağı əmr edərək irəliyə getdi. Ancaq cəbhədə vəziyyət pis idi. Yerli qüvvələr dəstədəstə cəbhəni tərk edir, Məşədi Əli Əsgər ağa Həmzəyev və Tağı bəy çarəsizlik içində qüvvələrini nizamlı bir şəkildə geri apara bilmirdilər. İbrahim bəyin dediyinə görə, bir müddət sonra cəbhədə özü və 2

[1] Dəhnə boğazı Nax. MR ilə Türkiyə arasında sərhədin kəsişdiyi və hər iki tərəfdən gediş-gəlişi təmin edən Dilucu bölgəsinin 7-8 km şərqində yerləşir.

[2] Cahangiroğlu. Xatirələr. s. 19, 20-22.

[3]ATASE A ½, kls. 65, d. 254-101, f.21-3; Əliyev. Qanlı günlərimiz. s. 90.

[4] Məşədi Əli Əsgər ağanın ermənilərə qarşı döyüşü Y.Şövqü paşa tərəfindən hərbi nazirliyə bildirilmiş, türk dairələrinin hadisələrdən xəbəri olmuşdu (ATASE A ½, kls 65, d. 254-101, f.13; ATBD, № 85).

[5] Əliyevə görə Dəhnə döyüşü zamanı Naxçıvanda Arslan Həsən bəyin rəhbərliyi ilə 1 top və 500 əsgər göndərilmişdi. Bu döyüşlər türklər üçün məğlubiyyətlə nəticələndiyi vaxtda Şahtaxtıya həmin qüvvələr yeni çatınışdılar və bir müddətdən sonra geri qayıtdılar (Əliyev. Qanlı günlərimiz. s. 90, 91-93). İbrahim bəy bununla əlaqədar Xəlil bəyi və Kərim xanı günahlandırır: intriqalardan əl çəkib vaxtında qüvvə göndərsəydiniz, yerli qüvvələr Dəhnəni tərk etməzdilər,- deyirdi (Cahangiroğlu. Xatirələr. s. 19).



komandirdən başqa heç kim qalmamışdı[1] və türklərin geri çəkildiyini görən erməni qüvvələri silahları çiyinlərində Dəhnə boğazına girdilər.[2]

Dəhnə boğazını rahatlıqla keçən erməni qüvvələrinin qarşısında çətin keçidlər deyil, işğal edilməsi çox asan olan düz bir ovalıq dururdu. Onlar ilk həmlədə Dəmirçi Quşçu kəndini işğal etdilər.[3] Kəndə mühacirətə getməyib qalan xalqla yaxşı rəftar edirdilər.[4] Ancaq silahları yığmaqla kifayətləndilər. Səhərisi gün yaxınlıqdakı Maxta kəndi də işğal edildi. Bu kənd əhalisi ilə də ermənilər çox yaxşı davrandılar. Xəlil bəyə görə, ermənilərin bu davranışı bir inandırma idi, (özlərini ədalətli göstərirdilər)[5] və Şərur, Şahtaxtı və Naxçıvana girməyi planlaşdırırdılar.[6] Bunun üçün bir sıra təbliğatlar aparırdılar. Dəmirçi Quşçuya gedən müsəlman heyəti tərəfindən bir doktor erməni komandiri tərəfindən inandırılmışdı. Erməni komandiri tərəfindən aldığı pullara aldanan xain doktor[7] qısa bir müddətdə ətraf kəndlərin əhalisini vuruşmamağa inandırmağa başladı.[8] Nisbətən müvəffəqiyyət əldə etdi. Bir sıra kəndlərdən əsgər toplanmadı. Ermənilər Şərur düzündə xalqı inandırmaq üçün fəaliyyətə başlayıb, ədalətli idarəetmə nümunələri göstərməyə çalışırdı.

[1] Naxçıvan şura hökumətinin hərbi naziri Bəhram xan həmin hadisələr haqqında Tiflisə bu məlumatları vermişdi: Dəhnə və Vəlidağ təpələri arasında erməniləri dayandırmaq üçün başda Həmzəyev olmaqla min nəfərlik qüvvə göndərildi. Ermənilər mühasirəyə alındı, ancaq erməni komandiri hiylə işlədərək geri çəkildi, Naxçıvan qüvvələrini düzənliyə çıxartdı. Həmzəyev bu hiyləni başa düşmədi, ermənilərin qaçdığını zənn etdi, Ermənilər birdən hücuma keçdilər. Naxçıvanlı əsgərlər döyüşə bilməyərək qaçdılar (Azərb. Cüm. MDEYTA, f. 870, op.1, d., l. 3-4).

[2] İbrahim bəy Dəhnə məğlubiyyətini vaxtında qüvvə göndərilməməsi ilə əlaqələndirirdi. Əliyev isə sayca üstün olan müsəlmanların nizamsız, ciddi döyüşməmələri ilə əlaqələndirirdi (Əliyev. Qanlı günlərimiz. s. 90, 91).

[3] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-3. İbrahim bəy və Məşədi Əli əsgər ağa Yengicəyə, Tağı bəy isə Noraşenə getmişdi. İbrahim bəyə görə, yollar kəndlərini tərk etmiş adamlarla, onların heyvanları ilə dolmuşdu. Və o burada çox dayana bilməmiş, Şahtaxtıya getmişdi (Cahangiroğlu. Xatirələr. s. 24).

[4] Əliyevə görə ermənilər Dəmirçi Quşçuya hücum etdikləri vaxt əhalini soymuşdular, geri döndükləri vaxt kürdlər onları soymuşdular (Əliyev. Qanlı günlərimiz. s. 91). Bu sözlər Xəlil bəyin sözlərinə uymur. Xəlil bəy hadisələri çox yaxından izlədiyindən biz birinci fikrin doğruluğuna inanırıq.

[5] Cahangiroğlu. Xatirələr. s. 21.

[6] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-3.

[7] Doktorun adı Hüseynqulu bəy Səfiyevdir. Onun erməni komandiri Doluxanov ilə arası çox yaxşı idi. O, erməni qüvvələri Naxçıvanı tutduqdan sonra məktublar göndərərək müsəlmanları inandırmaq üçün fəaliyyətə başlamışdı (Əliyev. Qanlı günlərimiz. s. 96, 97).

[8] Bir müddət sonra əhali belə adamlara nifrət etdi. Onlardan İrəvanlı Abış bəy Mirzabağır Şükuf Naxçıvanda müsəlmanlar tərəfindən faciəli surətdə öldürüldü (M.B. Naxçıvan-Şərur məsələsi I).

Ancaq Uluxanlı, Qəmərli, İqdır və Sədərək bölgələrinin, Vedinin bir sıra müsəlmanları çox ağır vəziyyətdə idilər. Ermənilər Uluxanlıdan hərəkətə başlayaraq rast gəldikləri türk əhaliyə zülm edirdilər. Müqavimət görmədən Qəmərliyə girən erməni qüvvələri qəsəbə əhalisinə işgəncələr verirdilər[1] və Sədərək əhalisinə də bunu təkrarladılar. Sədərək gənclərini naməlum tərəflərə göndərdikləri kimi, yaxınlıqdakı üç türk kəndini də tamamilə yandırdılar.[2] Ermənilərin vəhşi hərəkətləri böyük bir mühacirlik dalğası yaratdı. Ağır vəziyyətdə olan əhali İrana və Naxçıvana çəkilirdilər.[3]

Osmanlı rəsmi dairələri tərəfindən Araz-Türk hökuməti torpaqlarında ermənilərin törətdikləri cinayətlər öyrənildi. Bəyazid yolu ilə Qarsa qayıdan İbrahim bəyin verdiyi məlumata görə: Naxçıvan tərəfə hücum edən ermənilər mühacir olan 1204 nəfəri öldürmüşlər. Vedibasarda da gənc qadınları ayırıb, 2000 nəfər xırmanda öldürmüşlər, 40 qadın və uşağı bir yerə yığaraq yandırmışlar, bundan başqa nüfuzlu şəxslərdən Seyid Həsənin ailəsinə təcavüz etmişdilər. Bu vəziyyəti görən əhali evlərini tərk edərək, soyuğa, aclığa düçar oldular.[4] İbrahim bəyin bu məlumatını Qarsdan hərbi nazirə göndərilmiş teleqram da təsdiqləyir. 27 dekabr tarixli bir teleqramda göstərilirdi ki, Vedi və Sədərək ətrafında ermənilərin törətdikləri zülm və vəhşiliklər nəticəsində nüfuzlu şəxslərdən Əlizadə Dəmir bəy və Fəthi Bəyzadə Bədri bəy şəhid olmuşlar.

Bu vəziyyətlə əlaqədar 500-600 narahat müsəlman Araz çayının sağ tərəfindəki Bəyazidə doğru çəkilirdi. İrəvan yaxınlığındakı müsəlmanlar da çətin vəziyyətdə idilər və dəhşətli zülmə məruz qalmışdılar. İbrahim bəyin məlumatına əsasən yuxarıda qeyd etdiyimiz və Yapun adlı erməni qulduru tərəfindən edilən soyqırımı bu teleqramda öz əksini tapmışdır. Y.Şövqü paşa soyqırımı ilə əlaqədar erməni hökuməti ilə əlaqəyə girdiyini göstərir, vəziyyətin İstambulda olan Antanta nümayəndələrinə bildirilməsini və bu qış günündə davam edən vəhşiliklərə son qoyulmasını tələb edirdi.[5] Ancaq Antanta dövlətlərindən dəstək alan

[1] Qəmərliyə mühacir kimi gələn ermənilər əvvəlcə naxçıvanlılardan dəstək gördülər. Ancaq ermənilər Qəmərlini işğal etdikdən sonra müsəlmanlarla pis davrandılar «(Известия». 1989, № 4, s. 118).

[2] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-2. Sədərəkdə iki müsəlman nümayəndə həmin dəqiqə edam edilmiş, 60-a yaxın adam həbs olunaraq, İrəvana göndərilmişdi. «Известия», 1989, № 4.

[3] Cahangiroğlu. Xatirələr. s. 16, 17. Univar. Bolşeviklərlə 8 ay. s. 15.

[4] BOA Dn. (I-UM 20-18, 12-3. BOA, VEO, 341351).

[5] ATASE A ½, kls. 82, d. 304-210, f. 12-1; ATASE A ½, kls. 63, d. 244-17, f. 17; BOA, BEO, 341149; Dokument (Ankara, 1986) s. № 2038; ATBD, № 85, (oktyabr 1985), s. № 2038.



ermənilərin fəaliyyətlərinin dayandırılması mümkün deyildi.[1] Müdafiəsiz türkü tutmuşdular, əks-müqavimət görmədən buraxmaları mümkün deyildi.

Erməni hücumu nəticəsində Araz çayının sol sahilindəki Araz-Türk hökumətinin torpaqları bir-bir əldən çıxır, əhali zülmə məruz qalırdı. Araz çayının sağ tərəfində yerləşən, hökumətin rəsmi mərkəzi sayılan İqdırda həyəcanlı günlər yaşanırdı. Erməni qüvvələri Uluxanlı-Qəmərli xətti üzrə Naxçıvana doğru irəliləyərkən, min nəfərlik 8-ci erməni piyadaları da Sürməliyə hücum etdi.[2] Digər rayonlarda olduğu kimi burada da bir müsəlman ermənilərin qabağında gedirdi. Məşədi Rəşa bəy Topçubaşev adlı xainin əməlləri nəticəsində, ermənilər Sürməlini işğal etdilər.[3] Araz-Türk hökumətinin mərkəzi İqdırın və Sürməli ovlağının qərbində yerləşən Qulp (Duzluca) ermənilərin əlinə keçdi.[4]

Bu dəqiqələrdən etibarən İqdırda və ətrafında qanlı günlər başlandı. İqdırdan Bəyazidə qaçan Əli Əkbər bəy və üç yoldaşı erməni zülmkarlığını Ərzuruma bildirdilər. Ərzurum valisi vəziyyəti Daxili İşlər Nazirliyinə və IX Ordu komandanlığına bildirdi.[5]

26 dekabrda Y.Şövqü paşa İqdırdakı zülmləri teleqramla bildirmişdi: Osmanlı əsgərləri tərəfindən İqdır boşaldıldıqdan sonra geri dönən ermənilər zülmə başladılar. İqdır qəsəbəsində müsəlman gənclərini yığır, məchul yerlərə göndərir, müsəlman əhaliyə mənsub ərzağı zorla alırdılar. Oğul-uşağı qarlar üzərinə qoyurdular. Osmanlı sərhədləri daxilinə qaçan müsəlmanlar Osmanlı hökumətindən kömək istəyirdilər.[6] Müsəlman əhalisi çıxılmaz bir vəziyyətdə idi. Osmanlı hökuməti Antanta dövlətləri nümayəndələri ilə danışıqlar apararaq zülmə son qoymaq istəyirdilər.[7] Belə bir təşəbbüsün nəticə verməyəcəyi məlum idi və doğrudan da, nəticə vermədi. Sonra görəcəyik ki, Antanta dövlətləri ancaq

[1] Türk dairələri tərəfindən müəyyən edilmişdir ki, ermənilər həmin vaxtda Xınalı Qaraxaçdakı qərargahlarına yığdıqları 7.600 müsəlmanı yandırmış, 360 gənc qadını özləri ilə aparmışlar.

[2] Hovanisyan.

[3] Bölgənin türk əhalisi bu adamın xəyanətini başa düşmüş və onu öldürmüşlər (M.B. Naxçıvan-Şərur məsələsi I).

[4] Hovanisyana görə İqdır və Qulp bölgəsindəki strateji yerlərə qarnizon yerləşdirilmişdir. Milli müdafiə naziri Haqverdiyan bölgəni qorumaq üçün artıq hissə verə bilmirdi.

[5] BOA DN. I-İM. 20-17, 12-47.

[6] ATASE A ½, kls 82, d. 304-210, f. 10. Y.Şövqü paşanın bu teleqramı hərbi nazir tərəfindən Xarici İşlər Nazirliyinə təqdim olundu. Antanta dövlətləri qarşısında məsələ qaldırılması və zülmə son qoyulması xahiş edildi (Dokument, № 01, Ş.Ankara, 1986) s. 2039; ATBD № 85 (oktyabr, 1985) s. 2039.

[7] BOA, BEO, 341149.

türklər qələbə qazananda müdaxilə edəcəklər.

Ermənilərin Dəhnə boğazına və Şərura hücumları davam edərkən, müsəlman əhali axın-axın İrana qaçmaqdaydı.[1] İrana getmək üçün Araz çayı üzərindən keçməyə məcbur olan mühacirlərin bir hissəsi çayın azğın sularında yox olmuşdular.[2] Beləcə, erməni zülmündən qurtaranların bir hissəsi də Arazın sularına qarışdı. Erməni hücumu türk-müsəlman əhali üçün çox ağır oldu. Belə ki, bu dövrdə İqdır, Qəmərli, Dərələyəz, Uluxanlıda yaşayan adamların bir hissəsi yurdlarından qovulmuş, Qəmərlidə 48, Vedibasarda 18, Dərələyəzdə 74, Şərurda 7 kənd yandırılmış, əhaliyə işgəncə verilmişdi.[3]

Araz-Türk hökumətinin sərhədləri daxilində qara günlər yaşanırdı. Azərbaycan hökuməti hadisələr haqqında Paşa Bayramovun verdiyi məlumatlardan başqa bir şey bilmirdi. Ancaq Naxçıvana nisbətən yaxın olan Cəbrayıl əhalisi soydaşlarının başına gələnləri 28 dekabrda Azərbaycan Daxili İşlər Nazirliyinə bir teleqramla bildirdilər. 10 yanvarda bu teleqramın mətni Azərbaycan qəzetində dərc olundu. Bu mətndə göstərilmişdir: Erməni qüvvələri Sədərəyə girmiş, 8 müsəlman kəndini mühasirəyə almış, əhali də İrana qaçmışdır. Araz-Türk hökumətinin sərhədləri içərisində baş verən hadisələrin müzakirəsi 8 yanvar 1919-cu ildə Azərbaycan Parlamentinin gündəliyinə daxil edildi. Bölgə nümayəndələri Azərbaycan Parlamentinə erməni zülmlərinə aid ərizə ilə mürciət etmişdilər.[4] İclasın sonunda bu zülmlərə son qoymaq üçün tədbir görülməsi təklif edildi. Ermənilər yavaş-yavaş Şərurun kəndlərini işğal edir, müsəlman əhali arasında əks-təbliğat aparırdı. Araz-Türk hökumətinin səlahiyyətli şəxsləri də böyük sarsıntıya baxmayaraq, regionun müdafiəsi üçün bir sıra təşəbbüslərə əl atdılar. Bu məqsədlə hökumət rəisi Əmir bəy, hərbi nazir İbrahim bəy, komandirlərdən Bağır bəy Şahtaxtıya yığışdılar. İbrahim bəy Naxçıvana zəng edib kömək istədi. 2 gün sonra Naxçıvandan Kəlbalı xanın[5] komandanlığı ilə 400 nəfərlik bir qüvvə gəldi. Naxçıvana yenidən zəng edildi, ancaq cavab alınmadı.[6] Buna görə Şərurda işlərin necə getdiyini yaxından görmək üçün İbrahim

[1] Univar. Bolşeviklərlə 8 ay. s. 15. İrana qaçanlar içərisində naxçıvanlı varlı ailələr də var idi (Əliyev. Qanlı günlərimiz. s. 94).

[2] Nağdəlizadə. Naxçıvan ətrafında; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 51.

[3] Əliyev. Araz-Türk respublikası.

[4] Hacıyev Azərbaycan parlamentində müzakrə edilən bu məsələni Araz-Türk hökumətinin parlament üzvlərinin təqdim etdiklərini yazırdı (Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 51).

[5] Kəlbalı xan Naxçıvanın nüfuzlu şəxslərindən Cəfərqulu xanın oğlu idi. Xalq tərəfindən sevilən bu şəxs rus ordusunda xidmət etmişdir (Cahangiroğlu. Xatirələr. s 8).

[6] Bu vaxt Naxçıvan ilə Şahtaxtı arasında telefon əlaqəsi kəsilmişdir (Əliyev. Qanlı günlərimiz. s. 93).



bəy, Kəlbalı xan və Məşhədi Əli Əsgər ağa bölgənin mərkəzi olan Noraşenə getdilər. Ancaq buradakı vəziyyət ürəkaçan deyildi. Yuxarıda qeyd etdiyimiz kimi, erməni təbliğatı xalqa çox təsir etmişdi və bir çox kəndlər əsgər verməkdən çəkinirdilər. İbrahim bəyin cəhdləri bir nəticə vermədi. Yenidən Şahtaxtıya getmək qərara alındı. Burada Naxçıvandan qüvvə almağı fikirləşirdilər. İbrahim bəyə görə, artıq bərabər hərəkət edəcək bir kimsə qalmamışdı. Məşhədi Əli Əsgər ağa bəylərdən çəkinirdi. Şahtaxtıya gələn İbrahim bəy, Naxçıvan ilə teleqraf və telefon əlaqəsi yaratmağa çalışsa da nəticəsi olmadı.[1] Nəticədə Qarsa qayıtmaq üçün Şahtaxtıdan ayrıldı.[2] Maku-Bəyazid,[3] Qarakösə, Kağızman yolu ilə Qarsa qayıtdı.[4]

İbrahim bəy Şahtaxtıdan çıxdı. Qarsa gedərkən Şərur yaxınlığındakı erməni hücumları dayanmışdı.[5] Elə o vaxtlar Loridə erməni-gürcü münaqişəsi başlamışdı.[6] Erməni komandanlığının Şərur türkləri ilə döyüşü nəzərdə tutulurdu.[7] Ermənilər üçün iki cəbhədə birdən vuruşmaq çətin idi.

[1] İbrahim bəyin Naxçıvanla əlaqə yaratmağa çalışdığı bir vaxtda şəhərdə həyəcanlı anlar yaşanırdı. Xoydakı İran komandiri göndərdiyi məktubda bir sıra suallar soruşduqdan sonra yaxınlarda 2 top, 2 pulemyot və silahlanmış 500 əsgər ilə Maku yolu ilə Şahtaxtıya gələcəyinə, ancaq hərbi xərc üçün 2.000 qızıl lirənin hazır edilməsini tapşırdı. Bununla əlaqədar Mirzə Nəsrullah bəy camaatı məscidə yığıb, istənilən pulu toplamaq üçün fikirlərini öyrənmək istədi. Elə bu vaxt Şahtaxtıdan hərbi nazir yavəri Davudun zəngi ortalığı qarışdırdı. Davud Kərim xana bildirdi ki, Naxçıvan qüvvələri geri qayıtdılar, çünki şərurlular döyüşmək istəməyiblər, ermənilərə təslim olublar. Xəbərin xalq arasında yayılması qorxuya səbəb oldu, əhalinin müəyyən hissəsi Naxçıvan şəhərindən qaçmağa başladı. Mirzə Nəsrullah bəy yerli hökumət rəisi vəzifəsindən ayrıldı (Əliyev. Qanlı günlərimiz. s. 93 -94).

[2] Cahangiroğlu. Xatirələr. s. 24-25. İbrahim bəyin Qarsa qayıtmasına bu təsirlərin böyük rolu olmuşdur. 1)Araz-Türk hökumətinin dağılmaq üzrə olması və İbrahim bəyin bölgədə tək qalması. 2) Qars müsəlman Şurası sədri İbrahim bəyin Qarsda çox işlər görəcəyini fikirləşməsi. 3) Qarsa İbrahim bəyin geri çağırılması.

[3] İbrahim bəyin Bəyazidə gəldiyini 23 dekabr 1918-ci ildə Ərzurum valiliyinə, 25 dekabrda Daxili İşlər Nazirliyinə bildirdilər (BOA. DN. 1-UM, 20-18, 12-13; BOA, BEO, 341351).

[4] İbrahim bəy xatirələrində Şahtaxtıdan çıxdıqdan sonra 18 gündə Qarsa çağırıldığını yazırdı (Cahangiroğlu. Xatirələr. s. 26-31). Qarsa qayıdan İbrahim bəy bölgədə türklərin qalması üçün mühüm işlər görməyə başladı.

[5] Xəlil bəy erməni hücumunun dayandırılmasına çox əhəmmiyyət verməmişdir ATASE A ½, kls. 65, d. 254-101, f. 21-3.

[6] В.Гурко. Армянский вопрос. Б., 1950, с.27.

[7] ATASE A ½,. kls. 82, d. 304-210, f. 6-5.

## ARAZ-TÜRK HÖKUMƏTİNİN SÜQUTU

Erməni qüvvələri Dəhnə boğazını keçib Şərurun mərkəzində yerləşən Noraşenə yaxınlaşdığı vaxtlarda Araz-Türk hökuməti də son günlərini yaşayırdı. Erməni hücumları nəticəsində Qəmərlidən Naxçıvana gələn[1] Araz-Türk hökumətinin bir sıra üzvləri çıxıb getmiş[2] və əhali arasında nüfuzdan düşmüşdülər.[3]

İbrahim bəyin dediyinə görə, hələ Qəmərliyə erməni hücumu olmamışdan əvvəl, orada özündən, Əmir bəy və Bağır bəydən başqa bir kimsə qalmamışdı.[4] Naxçıvana gəldikdən sonra da vəziyyət dəyişmədi. Şərur bölgəsinin iki mühüm şəxsini – Tağı bəyi və Məşhədi Əli Əsgər ağanı yanlarma alan Əmir bəy və İbrahim bəy mübarizəni davam etdirirdilər. Mənbələrdən göründüyü kimi, digər hökumət üzvləri ortada yox idi. Belə görünür ki, hökumət zəifləmiş, yalnız Əmir bəylə İbrahim bəyin şəxsi nüfuz və təşəbbüsləri sayəsində ayaq üstə durmuşdu. Hökumətin zəifləməsi, Naxçıvandakı yerli hökumətin və bilavasitə hərbi gücü əllərinə alan xanların qüvvətlənməsinə, nüfuzlarının armasına səbəb oldu. Hacıyevin fikrinə görə, Araz-Türk hökumətində yerli olmayan və olmaları istənilməyən bu şəxslər indi erməni qələbələrini bir fürsət sayır və bundan istifadə edirdilər.[5] Təbii ki, məqsədləri iqtidara gəlməkdi.

Sədərək məğlubiyyətindən sonra (Naxçıvan yerli hökuməti) bilavasitə xanlar niyyətlərini biruzə verdilər. Araz-Türk hökumətinin xəbəri olmadan onlar İrandan yardım istədikləri kimi, Naxçıvana gələn erməni nümayəndələri ilə görüşmək üçün də özlərini səlahiyyətli hesab edirdilər.[6] Dəhnə döyüşlərində hərbi nazir İbrahim bəyin istədiyi qüvvələri vaxtında göndərməmələri və telefonlara cavab verməmələri[7] də Naxçıvanın nüfuzlu şəxslərinin hökumətə etibar etmədiklərini göstərirdi. Dəhnə məğlubiyyəti və nəticədə ermənilərin Şərur bölgəsinə gəlməsi, əhalinin erməni təbliğatına inanaraq əsgər verməkistəməməsi hökumətin nüfuzunu aşağı salmış, Naxçıvan xan və bəyləri isə xeyli güclənmişdi. Bu güclənmə elə bir güclənmə idi ki, artıq Yengicə nahiyəsi müdiri Araz-Türk hökumətinin səlahiyyətli şəxsləri ilə ermənilərə qarşı can-başla

[1] Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3,4, çş. 1990 №2. 63; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri.
[2] M.B.Naxçıvan-Şərur məsələsi II. «Azərbaycan», 20 iyun 1919, № 228.
[3] M.B.Naxçıvan-Şərur məsələsi I.
[4] Cahangiroğlu. Xatirələr. s. 15.
[5] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 53.
[6] Əliyev. Qanlı günlərimiz. s. 89,90.
[7] Cahangiroğlu. Xatirələr. s. 19, 23-25; Əliyev. Qanlı günlərimiz. s. 90, 93.



mübarizə edən Əli Əsgər ağa bəylərdən çəkinməyə, qorxmağa başladı.[1] Belə görünür ki, o dövrdə hökumət simvolik bir məna daşıyırdı. Təşkilatı tamam dağılmışdı. Cahangiroğlu İbrahim bəy də bu vəziyyəti yaxşı başa düşmüşdü, buna görə də bölgədə çox qalmadı və Qarsa getmək üçün Şahtaxtıdan çıxdı. İbrahim bəyin Naxçıvandan çıxması nəticəsində Araz-Türk hökuməti ən böyük dayağını, təşkilatçısını itirmiş oldu. Artıq orada rəis Əmir bəydən başqa bir kimsə qalmadığından Araz-Türk hökuməti felən süqut etdi.[2] Beləliklə, adına bir türk kəlməsi birləşdirən və bu cəhətdən böyük əhəmiyyət daşıyan Araz-Türk hökuməti mühüm hadisələrlə tarixdə öz yerini tutdu. Artıq Naxçıvan bölgəsində yeni qüvvələr, başqa-başqa siyasi quruluşlar meydana çıxacaqdı.

[1] Cahangiroğlu. Xatirələr. s. 19.
[2] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 3; Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3,4; M.B.Naxçıvan-Şərur məsələsi II, çş, 1990, № 63; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66. Bəzi Azərbaycan müəllifləri Araz-Türk hökumətinin dağılmasını, sadəcə hökumət dəyişikliyi kimi göstərir, bəziləri də heç bir şey olmamış kimi hökumətin fəaliyyətini davam etdirdiyini qeyd edirlər (Nağdəlizadə. Naxçıvan ətrafında; Fazil Rəhmanzadə. Əsrə bərabər gecə. Bakı, 1991, s. 132; T. Köçərli. Azərbaycan Respublikası və Azərbaycanın ərazi bütövlüyü məsələsi. «Kommunist», 30 sentyabr 1990, №226 (21294); Hüseynzadə. İbrət dərsləri. «Şərq qapısı», 3 aprel 1993). Yuxarda göstərdiyimiz kimi, hökumət yıxılmışdı.

## ARAZ-TÜRK HÖKUMƏTİNİN QARS MÜSƏLMAN ŞURASI HÖKUMƏTİNƏ BİRLƏŞMƏSİ MƏSƏLƏSİ

21 oktyabr 1918-ci il tarixli əmri ilə türk ordusu Batumi müqaviləsi ilə alınan yerləri boşalmağa hazırlaşırdı. Çıxan birliklərin özləri ilə lazımi materialları Elviyeyi-Selaseyə aparmaq nəzərdə tutuldu. Ancaq Mudros sazişi imzalandıqdan sonra vəziyyət dəyişməyə başladı. Antanta dövlətləri Elviyeyi-Selasenin də boşaldılmasını istəyirdilər.[1] Araz vadisində başlayan həyəcan Elviyeyi-Selaseni də bürüdü. Əhali çox yaxşı bilirdi ki, türk ordusu çıxdıqdan sonra erməni və gürcülərlə baş-başa qalacaqlar. Bu məqsədlə, IX Ordu komandiri Y.Şövqü paşadan və Qars valisi Hilmi bəydən dəstək alan Piroğu Fəxrəddin bəy və yoldaşları Qarsda bir Müsəlman Şurası yaratdılar.[2] 15 noyabr 1918-ci ildə Qars Müsəlman Şurası Qarsda ümumi bir konfrans keçirmək məqsədilə fəaliyyətə başladı. Batumidən Ordubada qədər olan bölgələrdən Araz-Türk hökumətindən[3] bu şəxslər çağırılmışdı: Ordubaddan bələdiyyə rəisi Rza bəy, Məşhədi Abbas Ramazanov, Naxçıvandan Məşhədi Abbas Bayramzadə, Hacı Əbdülabbas Şexzadə, Şərurun Yengicə nahiyəsindən[4] Əli Əsgər ağa Həmzəzadə, Tağı bəy Şəfizadə, İqdırdan Rəşid bəy Şəmsəddinov, Şamil bəy Parnavudlu, Qəmərlidən Kərbəlayi Xudayar, Uluxanlının Neçili kəndindən Hacı Məhəmməd oğlu Məhəmmədzadə, Mirzə Cabbar, Hacı Rəcəb.[5]

15 noyabrda digər bölgələrdən gələn nümayəndələrin də iştirakı ilə I Qars konfransı keçirildi.[6] Nəticədə Piroğlu Məhəmməd bəyin sədrliyi ilə 8 nəfərlik müvəqqəti heyət, Kəpənəkçi Emin ağanın sədrliyi ilə Qars Müsəlman Şurası Ümumi Mərkəzi yaradılmışdı. 30 noyabrda keçiriləcək II Qars konfransı üçün bu təşkilatlar ətrafa məlumatlar

---

[1] Mudros müqaviləsi və tətbiqi. S. 229. Kökdəmir. Qafqaz hökuməti. s. 63.

[2] Fəxrəddin Erdoğan. Türk ellərində xatirələrim. İst., 1954, s. 166; Fəxrəddin. Qars tarixi. İst., 1953, s. 556; Qothayd Jeask. Qurtuluş müharibəsi ilə əlaqədar ingilis sənədləri. Ankara, 1991, s. 43; Kökdəmir. Qafqaz hökuməti. s. 63.

[3] 15 noyabrda Qarsda keçirilən konfransa nümayəndələr 1918-ci ildən dəvət olunurdu. Bu vaxt Araz-Turk hökuməti qurulmamışdı. Ancaq biz sənəd bilinsin deyə bu ifadəni işlətmişik.

[4] Sənəddə Yengicə kəndi göstərilirdi. O dövrdə isə Yengicə nahiyə idi. Məşədi Əli Əsgər ağa oraya nahiyə müdiri təyin olunmuşdu (ATASE A 4. 8314, kls. 251, d. 1-4, f. 35-3, 35-4).

[5] 15 noyabrda cümə günü dəvət olunanlar Qars Müsəlman Milli Şurasında olmalı idilər (ATASE A 4. 8314, kls. 251, d. 1-4, f. 13; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. s. 92).

[6] I Qars konfransının 14 noyabrda keçirildiyini deyənlər də var (Fəxrəddin Qırzıoğlu. Milli mübarizədə Qars, I kitab, sənədlər. İst., 1960, s. 8; Kökdəmir. Qafqaz hökuməti. s. 65). Ancaq bütün dəvətnamələrdə 15 noyabrda keçirildiyi qeyd olunmuşdur.



göndərməyə başladı. Bu çağırışlara əsasən Ordubad, Naxçıvan, Qəmərli, Surməli, Sərdarabad, Şərqi Şürakəl, Axılkələk, Axıska, Qars, Ərdahan, Batumi bölgə və qəsəbələrindən gələn nümayəndələrin iştirakı ilə II Qars Konfransı 30 noyabr 1918-ci ildə açıldı. Cahangiroğlu İbrahim bəy sədr seçildi. Konfrans öz işini qurtardı. Nəticədə Qars Müsəlman Şurası hökuməti quruldu və rəis İbrahim bəy Cahangiroğlu seçildi. Sərhədləri Naxçıvandan Batumiyə qədər uzanırdı.[1] Bu məlumata əsasən bəzi müəlliflər konfransda Araz-Türk hökuməti ilə Axıska müvəqqəti hökumətinin Qars Müsəlman Şurası ilə birləşdiyini göstərirlər.[2] Azərbaycan qəzetinin 22 aprel 1919-cu il tarixli sayında Qars Müsəlman Şurasının sədrliyindən bəhs edilərək, Araz-Türk hökumətinin qurulduğu eyni ilə verilmişdir.[3] Ancaq Atabəyə görə Qafqaz Müsəlman Şurası sərhədlərinə Batumi, Qars, Artvin, Oltu, Axıska, Sürməli (Tuzluca-İqdır-Aralıq) Axılkələk ilə Eçmiədzinin qərb bölgələri daxildir.[4] Naxçıvan və Şərur onun sərhədlərinə daxil edilməmişdir.

17-18 yanvar 1919-cu ildə II Qafqaz konfransı keçirildi. Həmin gecə qəbul edilən qərara əsasən sədr Cahangiroğlu İbrahim bəy olmaqla Müvəqqəti Milli Cənubi-Qərbi Qafqaz hökuməti təşkil edildi.[5] Axıska, Axalkələk, Ərdahan, Oltu, Kağızman, İqdır, Şavşat, Qəmərli, Naxçıvan, Ordubad, Qars, Batumi bu hökumətin tərkibinə daxildir.[6] Yəni Milli

---

[1] Erdoğan. Türk ellərində xatirələrim. s. 169; Qırzıoğlu. Milli mübarizədə Qars. s. 89; Qırzıoğlu. Qars tarixi. I, s. 556-557; Sami Onal. Milli mübarizədə oldu. 1968, s. 41; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 16; Qırzıoğlu. Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti (Qars Milli Şura hökuməti); Türk kültürü, № 72, oktyabr, 1968, s. 957-958.

[2] Kökdəmir. Qafqaz hökuməti. s. 70; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. S. 94; Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. B., 1990, s. 50; Nilgün Erdaş. Milli mübarizə dövründə Qafqaz Cümhuriyyəti ilə münasibətlər (1917-1921), Ankara, 1994, s. 59.

[3] «Azərbaycan», 22 aprel 1919, № 163.

[4] Sərvər Atabəy. 1919, s. 5.

[5] Kökdəmir. Qafqaz hökuməti. s. 90; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma; Qırzıoğlu. Milli mübarizədə Qars. s. 10-11; Erdaş. Milli mübarizə dövründə Qafqaz Cümhuriyyəti ilə münasibətlər. s. 62; Qırzıoğlu. Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti. s. 961-964; ATASE A 1/1, kls. 23, d. 151, f. 38; Erdoğan. Türk ellərində xatirələrim. s. 194, 195, 202, 258-260.

[6] ATASE A 1/1, kls. 23, d. 151, f. 38; Erdoğan. Türk ellərində xatirələrim. s. 194, 195, 202, 258-260; Qırzıoğlu. Milli mübarizədə Qars, s. 26,27; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. s. 105-106; Kökdəmir. Qafqaz hökuməti. s. 401; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 29,30. Osmanlı qüvvələrindən dəstək alan Cənubi-Qərbi Qafqaz hökuməti təşkilatlanma işlərini bitirib, bir tərəfdən erməni və gürcülərə qarşı mübarizə aparır, digər tərəfdən isə ingilislərin təzyiqinə sinə gərirdi. Regionu ermənilərə vermək üçün plan hazırlayan ingilislər Cənubi Qafqaz hökumətini zəiflətmək üçün Qarsa

Şuranın sərhədləri eyni ilə mühafizə edildi.

Yuxarıda qeyd etdiyimiz məlumatdan aydın olur ki, Osmanlı ordusu 1914-cü il sərhədlərinə çəkilmək üçün hazırlıqlar gördüyü zaman regiondakı müsəlmanların müştərək narahatçılıqları onları yaxınlaşdırmağa başlamışdı. Ancaq bu yaxınlaşma hansı dərəcədə idi? Bunu yaxşı öyrənmək lazımdır. Keçmiş İrəvan quberniyasında yaşayan müsəlmanlarla Elviyeyi-Selasedə yaşayan müsəlmanlar bir tam birliyi yarada bilmişdilərmi? Naxçıvan, Sürməli, Qəmərli, Uluxanlı bölgələrindən gəlib, Qarsdakı konfranslarda iştirak edənlər öz xalqlarını necə təmsil edirdilər? Araz-Türk hökuməti və Qars müsəlman hökuməti Qars Müsəlman Şurası ilə birləşmişdirmi? Qars Müsəlman Şurası və daha sonra Cənubi-Qərbi Qafqaz hökumətinin Araz vadisindəki hökmranlığı təsis edilmişdirmi? Yoxsa müəyyənləşdirilən sərhədlər ancaq kağız üzərində qalmışdı?

Araz vadisindən nümayəndələrin I və II Qars konfranslarında iştirakı dəqiqdir. Hətta Erdoğan xatirələrində, II Qafqaz konfransında yaradılan Milli Şuranın Naxçıvanda 5 nəfərlik bir şöbəsinin də açılmasını qərara aldığını və bu işin Həmzəlioğlu Əli Əkbərin sədrliyi ilə Hacı Cabbar, Allahyar və Həsən bəyə tapşırıldığını, bu şəxslərin fəaliyyətə başladığını, İqdırda isə Məhəmməd bəy Əlizadənin ümumi vali təyin olduğunu göstərir.[1]

Fəxrəddin bəyin ifadələri bir sıra ziddiyyətlər yaratdı. Bunlardan birincisi, Naxçıvanda Qars Müsəlman Şurasının şöbəsinin açılması məsələsi və bununla əlaqədar bir çox adamların fəaliyyətə başlamısıdır. Ancaq Qars Müsəlman Şurasının qəbul etdiyi qərarları oxumaq və şöbə açmaq üçün Cahangiroğlu İbrahim bəyin Araz vadisinə getdiyini bilirik.[2] Maraqlı budur ki, nə İbrahim bəy, nə də başqa mənbələr Fəxrəddin bəyin ifadələrini təsdiqləməmişdir. Araz-Türk hökumətinin hərbi naziri kimi bölgəyə gələn İbrahim bəyin fəaliyyəti əsnasında Naxçıvanda Qars Müsəlman Milli Şurasının bir mərkəzi şöbəsini açmaq istədiyini bilirik. Ancaq şöbənin açılmasına dair heç bir məlumat yoxdur. İbrahim bəy bölgədə Araz-Türk hökumətinin üzvü kimi fəaliyyətə başlamış və xüsusilə hərbi təşkilatların-hissələrin yaradılmasına fikir vermişdir. Əslində, Xəlil bəyə də demişdir ki, Naxçıvandan Osmanlı Ordusu çıxdıqdan sonra əvvəlcə milli komitənin təşkili məqsədilə Qarsdan gələn bir-iki şəxslə müvəqqəti Araz-Türk hökuməti adında bir hökumət elan etdilər.[3]

gəlişində bir planla gəlirdi (ATASE A ½, kls. 65, d. 254-101, f. 20-2; «Azərbaycan», 11 aprel 1919, № 155).

[1] Erdoğan. Türk ellərində xatirələrim. s. 169-171.

[2] Cahangiroğlu. Xatirələr. s. 3,4.

[3] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-2.



Xəlil bəy Araz-Türk hökumətinin quruluşu haqqında səhv ifadə işlətsə də, Qarsdan gələn şəxslərin Araz-Türk hökuməti ilə əlaqə saxladığını bildirmişdir. Göründüyü kimi gündəlik eşitdiyi hadisələri qeyd edən, bizə çatdıran Əliyev də İbrahim bəyin yanında hökumət rəisi Əmir bəy və daxili işlər naziri Bağır bəy olmaqla Naxçıvana gəldiyini və bunların siyasəti ilə bağlı söhbətlər apardığını göstərir.[1] Qars İslam Şurası hökumətinin şöbə açmaq kimi fəaliyyətindən isə bəhs etmirlər.

I və II Qars konfranslarına dəvət olunan və iştirak edən şəxslərin də öz bölgələrini nə dərəcədə təmsil etdikləri şübhəlidir. Araz vadisində türk ordusu vasitəsilə bir təşkilat yaradılmasına çalışdığı halda, Qarsda başqa bir təşkilata daxil olmanın elə bir əhəmiyyəti yox idi. Qarsdakı Şuranın səlahiyyətli şəxsləri də bunu fikirləşirdilər. Ancaq türk hərbi dairələrinin belə bir birlik haqqında heç bir fikir və niyyətləri yox idi. Onlar buna görə də bir-birilərinə uzaq olmayan iki bölgədə ayrı-ayrı təşkilatlar, hökumətlər yaradılmasına kömək etmişdilər. Əgər istəsəydilər qısa bir zamanda yaradılan hökumətlərin birləşməsinə çalışardılar. Biz Osmanlı hərbi dairələrinin belə bir fəaliyyətinə rast gəlmədik. Türk hərbi dairələrinin dəstəyini almayan və ya onların regionda yaratdıqları təşkilata baxmayaraq başqa bir təşkilata daxil olmaq istəyən şəxslərin nə dərəcədə xalqlarını təmsil etdikləri şübhəlidir. Araz-Türk hökumətinin təşkili dövründə də göstərildiyi kimi, Osmanlı dairələri noyabr ayının əvvəllərindən etibarən Araz vadisinin türk-müsəlman əhalisi ilə bərabər idarəetmə və hərbi təşkilatlar yaratmağa başlayaraq bütün işləri yerli şəxslərin nəzarətinə buraxmışlar.[2]

Xalqdan dəstək alan yerli idarə rəhbərləri də fəaliyyətlərini davam etdirmişdilər. İndi bölgədə xalqın dəstəyi ilə işləyən bu rəhbərlər ola-ola, Qars konfranslarında iştirak edən şəxslərin təmsil gücünü fikirləşmək lazımdırmı? Görünür, Qars konfranslarında iştirak edənlər nümayəndə kimi deyil, dəvətnaməyə əsasən iştirak etmişdilər. Bölgədə hər hansı bir cəmiyyətin Qarsa nümayəndə göndərməsi haqqında heç bir sənəd, qeyd yoxdur. Araz-Türk hökumətinin Qars Milli Şura hökuməti ilə birləşməsi məsələsinə gəlincə, biz əlimizdəki sənədlər və həqiqətlərə əsasən belə bir iddianı qəbul etmirik. Araz-Türk hökuməti Qars Milli Şurası ilə birləşmiş olsaydı, o zaman Qarsdan Araz vadisinə gələn Cahangiroğlu İbrahim bəyi hökumət rəisi kimi qarşılayardılar, halbuki Araz hökuməti bunu eləmədi. İbrahim bəyi əvvəlki kimi hərbi nazir olaraq qarşıladı və ona bu vəziyyəti bildirdi.[3] İbrahim bəy bölgədən

[1] Əliyev. Qanlı günlərimiz. s. 84.

[2] ATASE A 4/8314, kls. 251, d. 1-4, f. 35-3.

[3] Cahangiroğlu. Xatirələr. s. 4.

qayıtdıqdan sonra Araz-Türk hökumətinin bir üzvü kimi fəaliyyətini davam etdirdi. Əmir bəyi hökumət rəisi kimi tanıdı və bir nazir kimi hərəkət etdi. İbrahim bəyin xatirələrində bununla əlaqədar dediyi sözlər çox əhəmiyyətlidir: Hökumət rəisi Əmir bəy Vəzirov həzrətləri məndən izahat istədi, Hökumət rəisi Əmir bəyə təşrif gətirdilər, işə başladı.[1] Şayət, orada bir birləşmə məsələsi olsa idi bu cür davranış və ifadələr olmamalı idi. Qars Milli Şura hökuməti qurulduqdan sonra bölgəyə gələn bəy, rəis kimi qarşılanmalı və Araz vadisindəki bütün işlər onun əmri ilə olmalı idi.[2] Yuxarıda qeyd etdiyimiz kimi Qars Milli Şura hökumətinin Araz vadisinə hər hansı bir təsiri olmur. Araz-Türk hökuməti öz fəaliyyətini davam etdirdi. Bu dövr haqqında yazdıqları ilə günümüzə məlumat çatdıran Xəlil, İbrahim və Mirzə Bağır bəylərin yazılarında da, müxtəlif arxiv sənədlərində birləşmə məsələsi haqqında ən kiçik bir işıq ucu yoxdur. Yalnız gerçək olan varsa, o da erməni hücumları nəticəsində ölkə torpaqlarını qoruya bilməyən Araz-Türk hökumətinin xalq arasında nüfuzunun düşməsi və dağılmasıdır. Onun yerində isə başqa bir hökumət qurulmuşdu. Bu həqiqətə arxiv sənədlərində, müxtəlif qəzet xəbərlərində və tədqiqat əsərlərində rast gəlmək mümkündür.[3]

Hadisə beləcə açıq-aydın bəlli olduğu halda, birləşmə məsələsinin nədən ortaya atıldığı ağıla gəlir. Sualın cavabını hər halda II Qars konfransının müəyyən etdiyi sərhəd məsələsində axtarmaq lazımdır. Hökumətin rəsmi olaraq elan etdiyi sərhədi görən bəzi tədqiqatçılar bu fikri təsdiq edə bilərlər. Yuxarıda qeyd edildiyi kimi, Qars Milli Şurasının sərhədləri Araz-Türk hökumətini də əhatə edirdi. Ancaq Hacıyevin də göstərdiyi kimi, Qars Müsəlman Şurası hökumətinin sərhədlərinin Naxçıvan və İqdır bölgələrini əhatə etməsi sadəcə görünüşdə belə idi. Həqiqətdə isə Araz-Türk hökumətinin müstəqil bir quruluşu var idi.[4] 30 noyabrda işə başlayan Qars konfransı bunu Araz vadisindən iştirak edən bir çox nümayəndələrin təsiri ilə və daha mühümü o dövrdə heç bir köklü dövlətə bağlı olmayan və çoxlarının sahib olmaq istədiyi bölgəni öz sərhədləri daxilinə alaraq, özünü xarici aləmə güclü göstərmək, həm də oradakı insanları qorumaq məqsədilə etmişdir. Mərkəzi Qars olan Cənubi-Qərbi Qafqaz hökuməti bu yolla getdi. Naxçıvan, İqdır, Uluxanlı, Qəmərli və Ordubad bölgələrini tamamilə öz sərhədləri daxilində

[1] Cahangiroğlu. Xatirələr. s. 14-19.
[2] ATASE A ½, kls. 65, d. 254-101, f. 6-5.
[3] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d.70, l. 3; Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d.42, l. 3-4; M.B.Naxçıvan-Şərur məsələsi II; M.B.Naxçıvan-Şərur məsələsi III, çş, 1990, № 2, 63; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 53.
[4] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 52.



göstərdi və bunu xarici aləmə elan etdi.[1] Bundan əlavə, Qars, Batumi və Naxçıvanda Milli Şura şöbəsinin açılması qərara alınmışdı.[2] Əslində, bu dövrdə Cənubi-Qərbi Qafqaz hökumətinin Naxçıvan və İqdır bölgələrini həqiqətən öz sərhədləri daxilinə alması, bu regionda hökumət qurulması mümkün deyildi. Çünki 10 dekabrda başlayan erməni hücumları nəticəsində İqdır, Uluxanlı və Qəmərli tamamilə ermənilərin nəzarəti altına keçmiş, regionun Qars ilə əlaqəsi kəsilmişdir.[3] Naxçıvanda da Milli Şura hökuməti var idi.[4] Qarsdan Naxçıvana getmək üçün Türkiyə və İran sərhədlərindən keçmək lazım gəlirdi. Belə bir vəziyyətdə Cənubi-Qərbi Qafqaz hökumətinin sərhədlərinin Batumidən Ordubada qədər uzanması fikri həqiqətə uyğun olmayıb, bu ancaq özünü böyük göstərmək, soydaşlarına sahib çıxmaq hissindən faydalanmaq məqsədi daşıyırdı.

[1] ATASE A 1/1, kls. 23, D. 151, F. 38; Erdoğan. Türk ellərində xatirələrim. s. 194, 195, 202, 258-260; Qırzıoğlu. Milli mübarizədə Qars, s. 26,27; Dayi. Elviyeyi-Selasedə milli təşkilatlanma. s. 105-106; Kökdəmir. Qafqaz hökuməti. s. 401; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 29,30.
[2] Qırzıoğlu. Cənubi-Qərbi Qafqaz Cümhuriyyəti. s. 963, 964.
[3] Naxçıvandan Qarsa İbrahim bəy Şahtaxtı-Maku-Bəyazid-Kağızman yolu ilə getmişdi (Cahangiroğlu. Xatirələr. s. 25-32).
[4] Əliyev. Qanlı günlərimiz. s. 105.

## NAXÇIVAN HÖKUMƏTLƏRİ

Erməni hücumları nəticəsində Araz-Türk hökuməti zəifləyib dağılmağa başlayır, Naxçıvan şəhərində isə yerli hökumət[1] günü-gündən güclənirdi. Araz-Türk hökumətinin Naxçıvandan yardım istəməsi və bölgəyə Kalbalı xanın komandirliyi ilə qüvvə göndərilməsi yerli[2] hökumətin gücünü artırdı. Xüsusilə Naxçıvanda hərbi qüvvələri əllərinə alan xanların bölgədə nüfuzu hiss edilməyə başladı, belə ki, inkişaf edən hadisələr nəticəsində Araz-Türk hökuməti nüfuzunu itirib dağılan kimi Naxçıvandakı yerli və nisbətən ona bağlı fəaliyyət göstərən xanlar vəziyyətə nəzarəti ələ keçirdi.

Naxçıvan yerli hökuməti nüfuz boşluğunu doldurmağa çalışırdı, bu əsnada isə bölgədə çoxlu sıxıntılar, narahatçılıqlar var idi. Bu sıxıntının ən ciddisi, şübhəsiz, düşmən işğalına məruz qalmış vətən torpaqlarını qorumaq idi. Yerli hökumət, Araz-Türk hökuməti öz nüfuzunu itirməzdən əvvəl bu məsələnin həlli üçün hərəkətə keçmiş, İrandan yardım istəmişdi. Məsələ İran şahına bildirilmiş və Naxçıvana lazımi yardım göstərilməsi qərara alınmışdı.[3] Əvvəlcə hərbi yardım göstərmək nəzərdə tutulmuşsa və bir sıra tədbirlər görülmüşsə də sonradan bu fikrə əhəmiyyət verilməmişdi. Naxçıvana və bilavasitə İrəvana iki erməni və iki müsəlmandan ibarət bir heyət göndərilmişdi.[4] 23 dekabrda Naxçıvana gələn heyətin məqsədi türklər ilə ermənilər arasında sülhü təmin etmək və erməni hücumunu dayandırmaq idi.[5] Gecə Naxçıvanda qalan

[1] Yuxarıda qeyd etdiyimiz kimi rəhbər dedikdə Araz-Türk hökuməti nəzərdə tutulur.

[2] Bununla bağlı, doğrudan da, bir məlumat yoxdur. Araz-Türk hökumətinin süqutundan sonra xanların iqtidarı – Naxçıvan hökuməti yaradılmışdır (Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d.42, l. 3-4; Azərb. Cüm. MDEYTA, f. 894, op.10, d.70, l. 3; M.B. Naxçıvan-Şərur məsələsi III; «İzvestiya», 1990, № 2, s.63; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 53. Başqa bir fikrə görə Araz-Türk hökuməti yerinə Milli Şura hökuməti qurulmuşdu (M.B.Naxçıvan-Şərur məsələsi II). Bu hökumətlər Naxçıvanda iqtidara gəlmişdir. Hadisələri hər gün qələmə alan Əliyevin əsərlərində buna aid aydın məlumatlar var. Əliyevə görə sıra ilə Yerli hökumət (Məhəlli hökumət) Milli Şura hökuməti və xanların nəzarəti altında Naxçıvan hökuməti iqtidara gəlmişdi (Əliyev. Qanlı günlərimiz. s. 104-108).

[3] İran hərbi qüvvələrinin xərclərini naxçıvanlılar ödəməlidirlər (Əliyev. Qanlı günlərimiz. s. 93).

[4] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-3; Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3-4. MDEYTA, f.894, op. 10, d. 70, l. 3; Univar. Bolşeviklərlə 8 ay, s. 16; Hacıyev. Qars və Araz-Türk respublikaları. s 53; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66.

[5] İran hökuməti göndərdiyi məlumatda erməni hökumətinə bunları bildirməsini tələb etmişdir: ermənilər Arazın şimalındakı müsəlmanlara qarşı hərəkətlərini davam etdirərlərsə, İran hökuməti sərhədlərində olan əhalisini qorumağa məcbur olacaqdır və



İran heyəti səhərisi gün tezdən səlahiyyətlilərlə görüşdü və saat 11 radələrində İrəvana yola düşdü. Naxçıvandan seçilən Hacı Mir Bağır ağa, Heydərqulu bəy və Cəfərqulu xan da İran heyəti ilə bərabər getdi. Naxçıvan heyətinin məqsədi ermənilərlə müsəlmanlar arasında müvvəqqəti atəşkəs müqaviləsi bağlamaq və İrəvana gedəcək İran heyətinin fəaliyyətinin nəticəsini gözləmək idi.[1] Naxçıvan heyəti Dəmirçi, Quşçu kəndində olan erməni komandiri Doluxanova müvəqqəti atəşkəs təklif etdi, qarşı tərəfdən müsbət cavab gözləyən heyət bir anda donub qaldı. Çünki Doluxanov Naxçıvan heyətini həbs etdirdi. Noraşen və Yengicəyə hücum əmri verdi.[2] Ancaq bu dəfə ermənilərin ümidləri boşa çıxacaqdı. Çünki qarşılarında qısa zamanda mütəşəkkil təşkil olunmuş, Naxçıvandan Kalbalı xanın rəhbərliyi altında yardıma gələn əsgərlərlə müstəqilliklərini qorumağa and içmiş qüvvə dururdu.[3] Kəlbalı xan və Məşhədi Əli Əsgər ağanın komandirliyi altında türk qüvvələri ermənilərin gözləmədikləri bir müqavimət göstərdilər, birinci gün onları Maxta və Dəmirçi kəndlərindən çıxardılar. Əsl döyüş səhərisi gün Dəhnə boğazı (Qurd keçidi) ətrafında oldu. Bacarıqlı, ağıllı komandirlərin rəhbərliyi altındakı qüvvələr erməni qüvvələrinə ağır zərbə endirmişdilər. Dəhnə boğazında məğlub olub oranı tərk edən erməni qüvvələrini Arazdəyənə qədər qovalayaraq xeyli qənimət ələ keçirmişdilər.[4]

bu hadisələrlə əlaqədar İranda müsəlmanlarla ermənilər arasında münaqişə çıxsa, İran hökuməti məsuliyyət daşımayacaq.

[1] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-3, 21-4; Əliyev. Qanlı günlərimiz. s. 95, 96; Univar. Bolşeviklərlə 8 ay, s. 16; Xəlil bəy və Veysəl bəy İran heyətinin İrəvana getmə tarixini 25 dekabr 1918-ci il olaraq göstərirlər.

[2] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-4; Univar. Bolşeviklərlə 8 ay, s. 16. Əliyevə görə yerli türk qüvvələri ermənilərə hücum etmişdir (Əliyev. Qanlı günlərimiz. s. 96). Biz bu hadisələri daha yaxından izləyən Xəlil bəyin ifadələrini daha düzgün sayırıq. Hovanisyana görə erməni-gürcü münaqişəsi ingilislərin təkidi ilə dayandırıldıqdan sonra müdafiə naziri Haqverdiyan Dəvəlidəki erməni qüvvələrinə hücuma hazırlaşmağı əmr etmişdir. Bundan əvvəl də Şərur və Naxçıvan qüvvələri sülh bağlanmasını təklif etmişdilər (Hovanisyan. Ermənistan respublikası. s. 230). Hovanisyan bu sahədə səhv etmişdir. Onun dediyi kimi erməni qüvvələri Qurd keçidinin (Dəhnə boğazı) ətrafında qalmayıb, Şərura girmiş və bölgənin bir hissəsini işğal etmişdilər. Naxçıvan əhalisi yurdlarını qorumaq üçün hazırlaşarkən İran və yerli türk nümayəndələri İrəvana yola düşdülər. Erməni komandiri Doluxanov atəşkəs təklifini qəbul etmədi. Qüvvələrə hücum əmri verdi. Həmin döyüşdə türklər qələbə qazanmış, Dəvəliyə qədər erməniləri çəkilməyə məcbur etmişlər. Ermənilərin Dəvəli mövqeyində olduğu bölgəyə başqa bir müsəlman heyəti getməmişdir.

[3] İngilis mənbəyinə görə bu döyüş əsnasında müsəlman qüvvələri 6000-10000 arasında idi (Azərb. Cüm. MDEYTA, f.9 70, op.1, d.42, l. 3-4; «İzvestiya», 1990, № 2, s. 63. Hovanisyan. Ermənistan respublikası. s. 230).

[4] ATASE A ½, kls. 65, d. 254-101, f. 2, № 24; Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3-4; Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 3; Nağdəlizadə. Naxçıvan

Türk qüvvələri Arazdəyəndə, ermənilər isə Dəvəlidə yerləşdilər.[1] Ancaq məğlubiyyəti heç cür qəbul etməyən ermənilər polkovnik Doluxanovu geri çağırdılar və yenidən hərbi hazırlığa başladılar. Onlar Vedinin kəndlərindən intiqamlarını almaq istəyirdilər. Qaralar, Qabqıran, Şirazlı, Reyhanlı, Əfşar kəndləri ətrafında döyüşlər başladı. Bu dəfə də ermənilər qəhrəman vedililər tərəfindən məğlub edilərək İyova, Dəvəliyə geri çəkildilər.[2]

Erməni qüvvələri dalbadal məğlubiyyətə uğrayarkən zəfərlərə görə Naxçıvanda xoş saatlar yaşanırdı. Dəhnə döyüşlərində mühüm rol oynayan və xalq tərəfindən qəhrəman elan edilən Kəlbalı xan[3] əmri altında olan qüvvələrlə birlikdə 28 dekabrda Naxçıvana gəldi. Qəhrəmanlıq nəğmələri oxuya-oxuya şəhərə girən əsgərləri xalq sevinclə qarşıladı, qazandıqları qələbələr haqqında söhbət etdilər. Həmin gün yerli hökumət rəisi Mehdi Bağırov və komandir Kərim xan Şərura getdilər. Səhərisi gün Naxçıvan şəhər klubunda əsgərlərin şərəfinə bir ədəbiyyat gecəsi keçirildi və 300-ə yaxın varlı adam buraya dəvət edili. Ancaq istənilən səviyyədə iştirak edən olmadı. 30 dekabrda Naxçıvanda Şərurdan gələn əsgərlərin qeyri-qanuni hərəkətləri baş verdi. Onlar xainlərə aid sözlər deyirdilər. Özləri kimi xain hesab edirdilərsə onu da tələb edirdilər.[4]

Qiyama qalxan əsgərləri sakitləşdirməyə çalışırdılar, bu vaxt Naxçıvanda Andranikin səs-sədası eşidilməyə başladı. Andranikdən keçmiş Naxçıvan Milli Komitəsi sədri Mehdiqulu xan Diyarbəkirinin adına bir məktub gəldi.[5] Andranik, ermənilərlə Azərbaycan türkləri arasında sülh bağlanmasına əsasən Naxçıvandan köçmüş ermənilərin

ətrafında; M.B.Naxçıvan-Şərur məsələsi II; «İzvestiya», 1989, № 4, s. 118; İzvesti, 1990, № 2, s. 63; Əliyev. Qanlı günlərimiz. s. 96, 97; Univar. Bolşeviklərlə 8 ay. S. 16; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 53; Əliyev. Araz-Türk respublikası.

[1] Nağdəlizadə yazırdı ki, türk qüvvələri Arazdəyənə gələn zaman ingilislər döyüşlərə müdaxilə etdilər. Daşnaklar ingilislərə şikayət etmişdilər ki, Naxçıvan qüvvələri içində Osmanlı əsgərləri var. Buna görə də onlar məğlub olmuşlar.

[2] İzvesti, 1989, №4, s. 118.

[3] M.B.Naxçıvan-Şərur məsələsi II.

[4] Əliyev. Qanlı günlərimiz. s. 98-99.

[5] Bu dövrdə ingilis komandanlığının təsiri ilə Qarabağdan Gorusa gedən Andranik və dəstəsi dəhşətli sıxıntı içərisində idilər. Yaxınlarındakı mühacirlər aclıq çəkirdilər. Buna görə də Andranik bunların bir hissəsini Naxçıvanda yerləşdirmək istəyirdi. İngilislər də bu fikirdə idilər. Zəngəzurdakı mühacirlərin yerlərinə göndərilməsi ilə əlaqədar Vilyam D. Hibbon Naxçıvana gəldi. O müsbət nəticə əldə edə bilmədi (Hovanisyan. Ermənistan respublikası. s. 189, 190; Mədətov. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi. s. 45).



qeydsiz-şərtsiz evlərinə qaytarılmalarını təklif edirdi.[1] Mehdiqulu xan da yazdığı məktubda bildirirdi ki, sülh danışıqları aparmaq üçün İran və Naxçıvan heyətləri İrəvana gediblər, onlar qayıdana qədər heç bir şey etməyəcəklər.[2] Naxçıvanlılar sülh təmin olunmadan ermənilərlə bir yerdə yaşamaq istəmirdilər.

1 yanvar 1918-ci ildə bir tərəfdən Arazdəyəndə türk və erməni qüvvələri arasında münaqişə xəbəri gəldi, digər tərəfdən isə Naxçıvanda azadlıq mübarizəsinin bayraqdarlarından olan Xəlil bəyin vida məktubu oxundu.[3] Müsəlman ordusu komandiri Nuri paşa tərəfindən 3 noyabrda yazılan, 20 dekabrda Naxçıvana gələn əmrə əsasən Xəlil bəy Naxçıvandan gedirdi. Ayrılıq xəbəri Naxçıvanda gərginlik yaratdı. Həmin dəqiqə yerli hökumətin yığıncağı keçirildi. Xəlil bəyin buraxılması və maaşların hökumət tərəfindən ödənilməsi qərara alındı. Qərarı bildirmək və Xəlil bəyi Türkiyəyə göndərmək üçün Bəhram xan Naxçıvanlı, Hacı Hüseyn Qurbanov, Mirzə Cabbar Bəktaşi və Mehdiqulu xan Diyarbəkiridən ibarət heyət təşkil olundu. Ancaq Xəlil bəy aldığı əmri yerinə yetirməli idi. O, bu heyəti inandırdı, onların razılığı aldıqdan sonra xəstə, kiçik leytenant Xəlil İbrahim əfəndini Naxçıvanda qoydu və digər yoldaşları ilə bərabər 5 yanvar 1919-cu ildə Naxçıvandan çıxdı.[4] Beləcə 1918-ci ilin mayından başlayan Xəlil bəyli günlər sona çatdı.

Bildiyimiz kimi Şərura gedən hökumət rəisi Hacı Mehdi Bağırov 2 yanvar 1919-cu ildə Naxçıvan şəhərinə qayıtdı və həmin vaxt ərafdan çağırılmış nümayəndələrlə bərabər ümumi bir yığıncaq keçirdi. Ordubad yerli hökumət rəisi Böyük xan Naxçıvanskinin tələbləri yığıncağın əsas məsələsi idi. Böyük xan Ordubaddakı hərbi hissələrin dağıldığını bildirir, Naxçıvan qapısı mövqeyini daşıyan bölgədə yenidən hərbi hissə yaratmaq üçün zabit və əsgər göndərilməsini tələb edirdi.[5] Naxçıvan hökuməti bir yandan belə təklifləri yerinə yetirməyə çalışır, digər tərəfdən gücünü xalqa bildirmək, təşkilatını genişləndirmək üçün bir sıra fəaliyyətlər həyata keçirirdi. Məqsəd yeni hökumət rəisi seçmək və parlament təşkil etmək idi. Bu məqsədlə hökumət 4 yanvar 1919-cu ildə qəbul et-

[1] Andranik belə bir təklif edəndə Ermənistandan çıxarılmış müsəlmanları yaddan çıxarmışdır.

[2] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-4; Əliyev. Qanlı günlərimiz. s. 99, 100.

[3] Əliyev. Qanlı günlərimiz. S. 100.

[4] ATASE A ½, kls. 65, d. 254-101, f. 21-4; Əliyev. Qanlı günlərimiz. s. 100. Xəlil bəyin Türkiyəli günləri uzun sürmədi və o, 17-18 iyulda gecə Bəyaziddən çıxaraq (Qarabəkir. İstiqlal hərbimiz. s. 73) 12-20 iyul gecəsi Naxçıvanın Yengicə nahiyəsinə gəldi. (ATASE A 5. 2797, kls. 814, d.509, f. 128-1; «Cümhuriyyət», 20 may 1933, № 3244).

[5] Əliyev. Qanlı günlərimiz. s. 101.

diyi qərara əsasən bir məhəllədən savadlı, təcrübəli 5 nəfərin seçilməsini əmr etdi. Seçkilər başlandı. Ancaq bəzi yerlərdə hökumətin əmrinə zidd olaraq savadsızlar seçilirdi.

Seçkilər davam edirdi. 12 yanvar 1919-cu ildə axşam İrəvana gedən heyət geri qayıtdı. Ancaq onların yanında 2-si Ermənistan hökumətindən, 2-si Andranikin dəstəsindən olan 4 nümayəndədən ibarət olan bir heyət də Naxçıvana gəlmişdi. Səhərisi gün şəhərin tanınmış şəxsləri və məhəllə vəkilləri yığıncağa çağırıldı, hökumət rəisi Hacı Mehdi Bağırovun sədrliyi ilə bir yığıncaq keçirildi. Ancaq nə İrəvandan qayıdan İran və Naxçıvan heyətlərindən, nə də erməni nümayəndələrindən bir məlumat əldə olunmadı. Belə vəziyyətdə müxtəlif dedi-qodular yayılmağa başladı. 14 yanvarda erməni nümayəndələri təkliflərini irəli sürdülər: 1) Dəhnə boğazı hər iki tərəf üçün sərhəd olsun, bunun qərbində qalan bölgələr ermənilərin, şərqi müsəlmanların nəzarəti altında qalsın. 2) Erməni qatarlarının son dayanacağı Dəvəli, müsəlman qatarlarının son dayanacağı Dəhnə olsun. İki tərəfin qatarları bir-birinin sərhədlərini keçməsin. Ancaq ticarət üçün gediş-gəliş kəsilməsin. 3) Müsəlmanlar İrəvan ermənilərinə pudu altı manata 12.000 pud buğda satsınlar. Hökumətin idarə heyəti və bilavasitə rəis Hacı Mehdi Bağırov tərəfindən ermənilərin təklifi qəbul edildi və müqavilə imzalandı.[1]

Hökumətin bundan sonrakı gündəliyi İran heyəti və ingilis nümayəndəsi olduğunu söyləyən şəxslə əlaqədar oldu. İran heyətinin sədri, əvvəlcə Naxçıvan şəhərində əvvəlki erməni-müsəlman münasibətlərinə dair suallar verirdi.[2] Naxçıvanda erməni mühacirləri məsələni həll etmək üçün gələn general Tomsonun rabitə zabiti Vilyam D.Hibbona[3] hökumət rəisi Hacı Mehdi Bağırov və digər səlahiyyətlilər tərəfindən böyük hörmət göstərilir, Naxçıvan müsəlmanlarının vəziyyəti ona bildirilməyə cəhd göstərilirdi.[4] Ancaq Hibbon məqsədini bildirdikdə vəziyyət

[1] Əliyev. Qanlı günlərimiz. s. 102-104. Hovanisyana görə İrana gedən nümayəndələrlə aparılan danışıqlar nəticəsində Kaçaznuni kabinəsi 10 gün cəbhədə dayanmağı əmr etdi. Bu müddət ərzində türk elçiləri xalqını sakitləşdirəcək və həm də erməni və müsəlmanların bütün hüquqlarını ordu və hökumət qəbul etdirməyə çalışacaqlar. Yuxarıda qeyd etdiyimiz kimi, Naxçıvana gələn Ermənistan hökuməti nümayəndələrinin belə bir təklifi olmamışdır.

[2] İran heyəti Naxçıvandan getdiyi zaman türk heyəti də onlarla bərabər getmişdir. Bir müddətdən sonra İrandan telefonla bildirildi ki, Naxçıvan heyəti vəliəhd tərəfindən hörmətlə qəbul edilmişdir. İran vəliəhdi türklərlə ermənilər arasında münaqişənin bitməsindən xeyli məmnundur (Əliyev. Qanlı günlərimiz. s. 104-108).

[3] Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi. s.45; Hacıyev. Qars və Araz-Türk respublikaları. s.52.

[4] Səlahiyyətlilərin bu ehtiramına baxmayaraq əhali V.D.Hibbondan rəsmi sənədi olmadığına görə şübhələnirdi (Əliyev. Qanlı günlərimiz. s. 104).



dəyişdi. Hörmət yerini ciddilik aldı. Çünki onlar bu qarışıq vəziyyətdə yurdlarına mühacir qəbul etmək istəmirdilər.[1] Əvvəlki acınacaqlı təcrübələr onları buna sövq edirdi.

4 yanvar 1919-cu ildə hökumətin əmri ilə başlanan seçkilər sona çatmış, nümayəndələr bəlli olmuşdu. Naxçıvan yerli hökuməti, parlament təşkil etmək üçün 17 yanvar 1919-cu ildə onların hökumət binasına getmələrini xahiş etmişdi. Həmin gün Ordubad, Şərur və Naxçıvan nümayəndələri yığışdılar. Ümumi bir məclis təşkil olunması ilə əlaqədar böyük bir müzakirə başlandı. Keçmiş Araz-Türk hökuməti rəisi Əmir bəy, Məşhədi Abbas Əli Hacı Kərimoğlu İrəvani və Xəlil ağa Ağalarov tərəfindən danışıqlar aparıldı. Əmir bəy çıxışında təcili olaraq ümumi bir məclis yaradılmasını məqsədəuyğun saymadı. Müzakirə zamanı parlament sözü ləğv edildi, Milli Şura yaradıldı[2]. Əmir bəyin sədr olduğu Şuranın digər üzvləri bunlardır: Nehrəmdən Kərbəlayi Muxtar Hacı, Cəhridən Məşhədi Sadıq və Əbdül Əzim Rüstəmov, Naxçıvandan Hacı Mehdi Bağırov, Axund Əli Həsənzadə, Xəlil ağa Ağalarov, Mirzə Abbas Qədimov və Cəfərqulu xan Naxçıvanski, Əlincəçay nahiyəsindən Məsuməli bəy Bənəniyarlı və Qənbər Əli bəy Bənəniyarlı[3].

Milli Şuranın təşkilinin ardınca üzv və işçilərin maaş məsələsi ilə əlaqədar bir sıra işlər görüldü. Ancaq yerli hərbi təşkilat bu işə əks münasibət göstərirdi. Məsələnin həlli üçün yığıncaq keçirilməsi qərara alındı. Şura daxili məsələləri həll etməyə çalışırdı, kənardan gələn məsələlər isə ürəkaçıcı deyildi. Naxçıvan sərhədindəki adamlar imdad istəyirdilər. Böyük Vedi və Zəngəzur ətrafındakı əhalini erməni hücumları ağır vəziyyətə salmışdı. Müsəlman əhali soyqırımı ilə üz-üzə idi.[4] 18 yanvar 1919-cu ildə kapitan F.E.Landtonun sədrliyi ilə bir ingilis heyəti Naxçıvana yola düşdü.[5] İrəvandakı Naxçıvan nümayəndəsi Mirzə Cabbar Məhəmmədov vəziyyəti dərhal hökumətə bildirdi. Ertəsi gün səhər saat 9-da Naxçıvana gələn heyəti baş komandan Məhəmməd Əli xan və bir çox süvari əsgər qarşıladı. İngilis heyəti Naxçıvana yerləşdikdən sonra Milli Şura üzvləri ilə bərabər bir sıra məsələlərdə razılaşdılar. Qəbul edi-

[1] Hovanisyan. Ermənistan respublikası. s. 190.

[2] Milli Şuranın quruluşu haqqında Əliyevin əsəri istisna olmaqla digər Azərbaycan mənbələrində məlumat yoxdur. Bu təşkilat erməni qüvvələri Naxçıvandan çıxarılmamışdan əvvəl yaradılmışdır (Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l 3-4; M.B.Naxçıvan-Şərur məsələsi II; İzvesti, 1990, № 2, s. 63; Tağıyeva, Nəsibzadə. Azərbaycan-İran münasibətləri. s. 66. Tarix səhvdir. Milli Şura 17 yanvarda ermənilər Naxçıvandan çıxarıldıqdan sonra yaradılmışdır).

[3] Əliyev. Qanlı günlərimiz. s. 104, 105. Əliyev nədənsə Milli Şuraya Şərur və Ordubaddan seçilən üzvləri göstərməmişdir.

[4] ATASE A ½, kls. 65, d. 254-101, f. 22-2, 23-2.

[5] Hovanisyan. Ermənistan respublikası. s. 230.

lən qərarlar bunları əhatə edirdi: sərhədin müəyyən edilməsi, dəmiryolunun işə düşməsi, teleqraf sisteminin işləməsi və Amerikanın yardım cəmiyyətlərinə buğdu satılması.[1] Sərhədlər müəyyənləşdikdə müsəlmanların tabeliyində olan bölgələr yenə onların nəzarəti altında saxlanılırdı. Milli Şura buna bir söz deməd. Ancaq onlar ermənilərin istila siyasətinə protesto etdilər. Naxçıvanın özünü müdafiə etmək üçün hər an hazır olduğunu bildirdilər.[2] Şura sədri Əmir bəy də açıq-aydın özlərini Azərbaycanın bir parçası hesab etdiklərini deyirdi.[3]

Naxçıvan Şura hökuməti qeyd etdiyimiz ingilis tələblərinə ətraflı cavab verməmiş qarışıqlıqlar meydana çıxdı. İlk əvvəl Kərim xan vəzifəsindən istefa etdi. Kərim xanın istefası əsgərlər arasında həyəcan yaratdı. Bir sıra narahatçılıqlar doğurdu. 22 yanvar 1919-cu ildə isə belə bir şaiyə yarandı ki, Şərur əhalisi Naxçıvan əsgərini istəmir və onlardan bölgəni tərk etmələrini tələb edir. Bu, Naxçıvanda narahatçılıq yaratdı. Az sonra Milli Şura sədri Əmir bəy və Şərur bölgəsinin nüfuzlu şəxslərindən Məşhədi Ələ Əsgər Həmzəzadə əsgərlər tərəfindən həbs olundular.[4] Xalq həyəcan içində idi. Milli Şuranın ləğv olunub olunmadığı bəlli deyildi. İstefa ərizəsini geri götürən Kərim xan və Kalbalı xan bütün hökuməti nəzarət altına almışdı. Onlar Şura üzvlərini 24 yanvarda yığıncağa çağırdılar. Bu vaxt həbsdən çıxan Məşhədi Əli Əsgər ağa və bir çox şərurlular Naxçıvana gəldilər. Əmir bəy həbsdən azad etdirildi. Günahkarların müəyyən edilməsinə çalışdılar. Yığıncaq zamanı Şura üzvlərinin hamısı bu narahatçılığın Hacı Mehdi Bağırovun hiyləgərliyi nəticəsində baş verdiyini bildirdilər və o, vəzifədən azad edildi.[5]

Naxçıvandakı qatma-qarışıqlıqlar və Əmir bəyin həbs olunması Cəfərqulu xan, Kalbalı xan və Kərim xan üçün əlverişli idi. Əmir bəyin nüfuzu aşağı düşmüş, onun yerinə isə ermənilərlə döyüşdə məşhurlaşan, qəhrəman elan edilən Kalbalı xan öz varlığını yaxşı hiss etdirməyə başlamışdı. Kalbalı xanın qüvvətlənməsi, Milli Şuranın zərbə alması, bütün bunlar hökumətin Kalbalı xanın atası Cəfərqulu xanın və qohumları Kərim xanın idarəsi altına keçmələrinə imkan yaratmışdı.[6]

Hökumət rəisi Cəfərqulu xan, müavini Abbasqulu bəy Tahirov,

[1] Əliyev. Qanlı günlərimiz. s. 105-107; Mədətov. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi. s. 45.
[2] Hovanisyan. Ermənistan respublikası. s. 230.
[3] Rəhmanzadə. Əsrə bərabər gecə. s. 132.
[4] Əliyevin yazdığına görə qarışıqlıqlar davam edərkən 4 nəfərdən ibarət türk əsgər qrupu bəlli olmayan səbəbdən Naxçıvana gəlmişdi (Əliyev. Qanlı günlərimiz. s. 108).
[5] Əliyev. Qanlı günlərimiz. s. 107-109.
[6] M.B.Naxçıvan-Şərur məsələsi II; Əliyev. Qanlı günlərimiz. s. 108-110.



baş komandan (hərbi nazir) Kərim xan, müavini Kalbalı xan,[1] xarici işlər naziri Bəhram xan idi.[2] Hökumət[3] ilk iclasını 25 yanvarda Cəfərqulu xanın sədrliyi ilə keçirdi. Milli Şura ləğv edildi. Hacı Mehdi Bağırovla əlaqədar istintaq aparıldı. Səhərisi gün Şərur və Naxçıvan nümayəndələrinin hökumət binasında keçirdikləri müştərək iclasında bu qərarlar qəbul edildi: 1.Amerika komissiyasına, Şərurdan on min pud buğda, pudu əlli manata satılması; 2. Mühacirlərə yardım edilməsi ilə əlaqədar, Şərurun mədaxil və məxariclərinə nəzarət etmək məqsədilə ikisi Şərurdan, ikisi də Naxçıvandan olmaqla 4 müfəttişin müəyyənləşdirilməsi.

Hökumət bu qərarları qəbul etdiyi bir vaxtda tərkibində 13 erməni olan bir Amerika komissiyası Naxçıvana gəlib Bəhram xanın evində qonaq oldu. Məqsədi ərzaq almaq olan komissiya Naxçıvan üçün nəzərdə tutduğu fəaliyyətləri bitirmişdi. 28 yanvarda açıqlanan layihəyə görə 1. Şəhərdə 5 yataqlı bir xəstəxananın açılması, 2. 150 nəfərlik uşaq evinin açılması, 3. Bu təşkilat üçün 50.000 manat pul və 4.000 pud buğdanın ayrılması.[4]

Amerika komissiyası qısa bir zamanda planları gerçəkləşdirməyə başladı. Naxçıvanda 200 nəfərlik uşaq evi açıldı. 50 nəfərlik dispanser açmağı planlaşdıran Amerika heyəti üzvləri, Naxçıvanda fabriklər təşkilini düşündüklərini də bildirirdi.[5] Amerika yavaş-yavaş bölgədə yerləşmək istəyirdi. Daha sonralar görülən işlər bunu isbat edəcəkdi.

Xanlar iqtidarının fəaliyyətlərindən biri də xarici işlər naziri Bəhram xanı Tiflisə göndərmək olmuşdur. Naxçıvanda müəyyənləşəcək sərhəd məsələsi ilə əlaqədar Bəhram xan Tiflisdəki ingilis səlahiyyətli dairələri ilə görüşəcək,[6] oradan da Bakıya gələcəkdi. Azərbaycan hökumətinə İrəvan vilayətindəki vəziyyət haqqında[7] məlumat verəcəkdi.[1]

[1] Əliyev. Qanlı günlərimiz. s. 109; Hüeynzadə. İbrət dərsləri.
[2] Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3-4; M.B.Naxçıvan-Şərur məsələsi III; Hüseynzadə. İbrət dərsləri; İzvesti, 1990, № 2, s. 63. Hökumətin digər üzvləri haqqında məlumat əldə edə bilmədik. Ancaq Amerika-Rusiya missiyasına aid Tiflis bölməsi sədri Benjamin Burqer Moçenin 13 aprel tarixli məlumatında dövrü bəlli olmayan Naxçıvan hökumət üzvlərinin siyası vardır. Bu siyahıda qeyd etdiyimiz 2 nəfərin də adı var. Bu məlumata əsasən üzvlər bunlardar: 1. Sədr: Qənbər Əli Bənəniyari (sosial-demokrat bolşevik). 2. Birinci müavin: Mehdi Bağırov (bolşevik). 3. Hərbi nazir: Kəlbalı xan. 4. Daxili işlər naziri: Hacıyev (təhlükəli). 5. Xarici işlər naziri Bəhram xan (USA № Paris Peace Conferance 184. 021 (10).
[3] Bəhram xan bu yeni hökuməti Naxçıvan türk hökuməti adlandırmışdır (M.B.Naxçıvan-Şərur məsələsi II).
[4] Əliyev. Qanlı günlərimiz. s. 109-110.
[5] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1.
[6] M.B.Naxçıvan-Şərur məsələsi III.
[7] Naxçıvan, Şərur, Ordubad, Vedi müsəlmanlarının vəziyyəti nəzərdə tutulmuşdur.

Tiflisdə işlərini bitirən Bəhram xan Hüseyn Cavidlə bərabər Bakıya getdi,[2] F.X.Xoyski və Tomsonla görüşdü.[3] Ancaq o, Tiflisdə ikən Naxçıvan əhalisi üçün çox zərəri olan bir fəaliyyətə girmişdi ki, bu haqda danışmıq faydalı olar.

Daha əvvəl qeyd etdiyimiz kimi, ağır vəziyyətdə olan Araz-Türk hökuməti yardım almaq ümidi ilə Paşa Bayramovu göndərmişdi. Paşa Bayramovun sonsuz əməyi nəticəsində İrəvan Vilayəti Müsəlmanları Yardımlaşma Cəmiyyəti qurulmuşdu. Nəticədə Azərbaycan hökumətinin və cəmiyyətin Naxçıvana yardım olaraq göndərdiyi pulları alan Paşa Bayramov və Yusif bəy Kadıyev Tiflisə gəlmişdilər. Məqsədləri buradan Naxçıvana getmək idi. Ancaq onları orada bir sürpriz gözləyirdi. Tiflisdə olan Naxçıvan Xarici İşlər Komissarı Azərbaycan Məclis üzvü Camalbəyovdan Paşa Bayramovun Azərbaycandan aldığı pullarla Tiflisə gələcəyini öyrənmişdir. Bir müddət sonra Bəhram xan Camalbəyovla bərabər Paşa Bayramovla görüşmüş və ona Araz-Türk hökumətinin dağıldığını, yerində isə Naxçıvan Türk hökumətinin qurulduğunu və özünün bu hökumətin Xarici İşlər Komissarı təyin edildiyini, bu məqsədlə gətirilən pulların ona verilməsinin məqsədəuyğun olduğunu demişdi. Digər tərəfdən Camalbəyov məclis üzvü olduğuna görə Naxçıvan ətrafındakı mühacirlərə göndərilən pulun geri alınmasını Azərbaycan hökumətinə təklif etmişdi. Bu manеələrə görə[4] Paşa Bayramov və Yusif bəy Kadıyev pulu Naxçıvana gətirmədilər, Bəhram xana və Camalbəyova da vermədilər, Bakıya gətirib hökumət xəzinəsinə verdilər. Pulun Naxçıvana gətirilməməsi, region əhalisi üçün ağır günlərin daha da pisləşməsinə səbəb oldu.[5]

Əgər bir milyondan artıq rubl gətirilsəydi, Naxçıvanda və ətrafında həm hərbi hissələrin təşkili sahəsində xeyli iş görülərdi, həm də mühacirlərin dərdlərinə dərman ola bilərdi.

[1] Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3-4.

[2] Hüseynzadəyə görə, Bəhram xan və şair Hüseyn Cavid İran yolu ilə Bakıya getmişdir (Hüseynzadə. İbrət dərsləri). Bu fikirləri təsdiq edəcək başqa bir mənbəyə rast gəlmədik.

[3] Mədətov, Bəhram xanın görüşləri nəticəsində Azərbaycan hökumətinin Naxçıvana polkovnik Ququşovun komandirliyi ilə 11 zabit göndərdiyini yazır, ancaq burada bir səhvlik var (Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi). Yanvar ayının axırlarında Tiflisə gedən Bəhram xan Bakıya ancaq fevral aymda gələ bilərdi. Azərbaycanın hərbi heyəti isə 24 yanvar 1919-cu ildə Naxçıvana doğru yola düşmüşdü. Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1, 2.

[4] Azərbaycandan Tiflisə gələn pulun bölgəyə çatdırılmasında bir sıra manеələrin olması haqda Naxçıvanda xəbər yayıldı (Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1, 3).

[5] M.B.Naxçıvan-Şərur məsələsi II.



Bəhram xan Tiflisdə bir sıra ingilis səlahiyyətliləri ilə sərhəd məsələsini müzakirə etmək istəyərkən, Naxçıvandakı ingilis nümayəndəsi F.E.Lauten də 27-ci diviziya qərargahına verdiyi bir məlumatda, Naxçıvanda hərbi bir idarə, rəhbərlik yaradılmasını təklif edirdi.

Lautenin təklifi 26 yanvarda keçirilən yığıncaqda qəbul edildi və onun özü Naxçıvana yerli podpolkovnik rütbəsi ilə hərbi vali təyin edildi.[1] Ancaq ermənilər, ingilis hərbi valiliyinə çox etibar etmədilər. Lautenin təyin olunmasından qısa bir müddət sonra ermənilər Dəvəli yaxınlığındakı Avşar kəndinə hücum edərək, yüzə qədər müsəlmanı öldürdülər. Böyük vedililərin köməyə gəlməsi nəticəsində ermənilər məğlub edilib kənddən çıxarıldı. Xəbər Naxçıvana çatan kimi Kəlbalı xan və polkovnik Lauten təcili Dəvəliyə getdilər.

Dəvəlidə erməni hucumu davam edir, müsəlman qüvvələri isə müdafiə olunurdular. Dəmir yolu ilə gələn ingilis hərbi valisi erməni zabitinə öz sərhədi olan Yuva kəndinə çəkilməsini əmr etdi. Erməni generalı Primov Lautenin təklifinə etiraz etdi və nəticədə aralarında münaqişə yarandı. Nəticədə hirslənən Lauten onu müşayət edənlərlə İrəvana yola düşdü. Kəlbalı xan dəmir yolunun mühafizə edilməsini bildirdi və özünün 3 günə qədər Naxçıvana qayıdacağını dedi.[2]

Lauten İrəvanda məqsədlərini həyata keçirmədən Şərura qayıtdı. Ardınca general Georgi T. Forester-Valker, general Verney-Esserlə bərabər Naxçıvana gəldilər.

6 fevral 1919-cu ildə Lauten Baş Noraşenə yollanan ingilis hərbi səlahiyyətli şəxsləri ilə bəzi sərhədlərin müəyyənləşdirilməsində razılıq əldə etdilər.[3] Səhərisi gün hərbi vali (general-qubernator) Lautenin müşayiəti ilə Naxçıvana gəldi. Stansiyada böyük bir təmtəraqla qarşılanan ingilis valisinin şərəfinə ziyafət verildi. Artıq Naxçıvan regionunda Lautenin sözü keçərli idi. Naxçıvan hökumətinin əmri ilə müsəlman bayrağı qüllədən endirilmiş və gizlədilmişdi.[4] Naxçıvan hökuməti yarımmüstəqil

[1] Hovanisyan. Ermənistan respublikası. c.I, s. 261. M.Baloya görə Naxçıvan müsəlmanlarını qorumaq üçün Azərbaycan hökumətinin razılığı ilə ingilislər polkovnik Lauteni hərbi vali təyin etmişdilər (M.B.Naxçıvan-Şərur məsələsi I). Tiflisdə ingilis generalı Biç ilə görüşən bir azərbaycanlı səlahiyyətli şəxs Azərbaycanın Qafqazdakı mübahisəli bölgələrlə (Naxçıvan, Zəngəzur, Qarabağ, Borçalı, Axalkələk, Axıska, İrəvan və Eçmiədzin) əlaqədar məsələnin sülh yolu ilə həll edilməsi tərəfdarı olduğunu və sülh təmin edilənə qədər bu məntəqələrə Antanta dövlətlərinin nəzarət etməsinin lazım gəldiyini bildirmişdir (Azərb. Cüm. MDEYTA, f. 970, op. 1, d. 42, l. 3-4; İzvesti, 1990, № 2, s. 61-63).

[2] Əliyev. Qanlı günlərimiz. s. 110, 111.

[3] Hovanisyan. Ermənistan respublikası. c.I, s. 232.

[4] Əliyev. Qanlı günlərimiz. s. 112.

bir vəziyyətə düşmüşdü.[1]

Naxçıvana gələn vali (general-qubernator) Lauten, Noraşendə müəyyənləşdirdikləri sərhədlə əlaqədar bir bəyannamə nəşr etdirdi. Buna əsasən, regionun sərhədi Vedinin böyük bir hissəsini içinə almış, xeyli miqdarda genişlənmişdi. Erməni sərhədi isə Qəmərlinin yanında yerləşən Yuva (Şaumyan) kəndi oldu. Sədərək və Yuva arasında ingilislərin nəzarəti altında neytral zona yaradılmış və burada vəzifələr müsəlmanlara verilmişdi.

Sədərəkdən Ordubada qədər olan bölgə Naxçıvanın nəzarəti altında olacaqdı. Ancaq buradakı hökumətə ingilis vali nəzarət edəcəkdi.[2] İngilislər bir tərəfdən Naxçıvan türkləri ilə ermənilər arasında ortaya çıxacaq böyük müharibənin qarşısını almaq üçün bu cür sərhəd müəyyənləşdirir, digər tərəfdən regionu öz nəzarəti altına alırdılar.

Naxçıvanın qabaqcılları, nüfuzlu şəxsləri bilirdilər ki, bir gün gələcək ingilis idarəetməsi sona çatacaq. Onlar indidən hansı hökumətə tabe olacaqlarını fikirləşirdilər. Naxçıvan hökumətində bununla əlaqədar bir sıra müzakirələr keçirildi.[3] Mirzə Balanın qeyd etdiyinə görə, hökumət rəisi Cəfərqulu xan və onun qohumu olan xanlar İrana tabe olmaq istəyirdilər. Qohumları olan Maku xanı kimi iqtidarlı bir xanlığa çevrilmək niyyətində idilər. Bu məqsədlə Maku xanının köməyi ilə İran vəliəhdinin yanına nümayəndələr göndərildi.[4] Digər tərəfdən əhalinin çox hissəsi Azərbaycana tabe olmaq istəyirdi, fəaliyyətə keçmək üçün bir əsas tapa bilmirdilər. Azərbaycanla heç cür əlaqə təmin edilmədi. Çünki iki bölgə arasındakı məntəqələr erməni dəstələrinin əlində idi. Azərbaycan hökuməti və Bakıda yaradılan İrəvan vilayəti Həmşəhri Yardımlaşma Cəmiyyəti də Araz vadisi müsəlmanları ilə əlaqə yaradıb, onlara yardım edə bilmədiklərindən narahat idilər. Onların göstərdiyi təşəbbüs, yuxarıda qeyd etdiyimiz kimi, Tiflisdə maneəyə rast gəlmiş, Naxçıvana göndərilən yardım yerinə çatmamışdı. Ancaq Həmşəhri Yardımlaşma Cəmiyyəti və Azərbaycan hökuməti Tiflis yolu ilə pul göndərərkən, İran yolu ilə Naxçıvana öz adamlarını (mütəxəssis) göndərmək istəyirdilər. Və beləcə, Azərbaycan hökumətinin istəyi ilə cəmiyyətin nümayəndəsi və hərbi nazirlik tərəfindən vəzifə tapşırılan polkovnik Ququşovun sədrliyi ilə 11 zabit 24 yanvarda İran yolu ilə Naxçıvana yola düşdü.[5] Məqsədləri Araz vadisindəki vəziyyəti daha yaxından

[1] USA NA Paris Peace Conferance 184. 021/10.
[2] M.B.Naxçıvan-Şərur məsələsi III; Hovanisyan. Ermənistan respublikası. c.I, s. 232.
[3] Əliyev. Qanlı günlərimiz. s. 113.
[4] M.B.Naxçıvan-Şərur məsələsi II.
[5] Kağızmandan Y.Şövqü paşaya 15.3.1919-cu il tarixli bir teleqraf göndərildiyi göstərilmişdir. Azərbaycan hökuməti polkovnik Həsən ağa Ququşovun sədrliyi ilə 12



öyrənmək və müsəlman əhalisinə yardım etmək idi. Heyət ağır, çətin bir səfərdən sonra Ordubada gəldi. Ordubad əhalisi tərəfindən böyük bir sevinclə qarşılanan heyət gəlmələrinin məqsədini bildirdi, onlara Azərbaycan haqqında məlumat verdilər. Ordubadı idarə edən Milli Şura İcraiyyə Komitəsi Ordubad xalqının Azərbaycana birləşmək arzusuna dair protokolu heyətə təqdim etdilər.[1] Azərbaycandan nümayəndələrin Ordubada gəlməsini telefonla Naxçıvan hökumətinə bildirdilər. Heyəti Naxçıvana gətirmək üçün Culfaya xüsusi bir qatar göndərildi. Ordubada gəlmələrinin 5-ci günü, nümayəndələr Culfaya, oradan da göndərilmiş qatarla Naxçıvana yola düşdülər. Azərbaycandan gələn heyəti qarşılamaq həyəcanı bütün Naxçıvanı bürümüşdü. Mirzə Nəsrullah bəyin evində ziyafət hazırlanmışdı; dükanlarını bağlayan sənətkarlar stansiyanı gəzir, uşaqlar, əsgərlər milli mahnılar oxuyurdular. Elə bil ki, Naxçıvanda Novruz bayramını qeyd edirdilər. Ancaq gözlənilən saatda Azərbaycan heyəti gəlmədi, camaat evlərinə qayıtdı. Nəhayət, 20 fevral[2] axşam saat 22 $^{00}$-da heyət Naxçıvana gəlmiş və böyük ziyafət verilmişdi. Yemək zamanı ədəbi söhbətlər aparılmışdı.

Mir Abbas bəy Azərbaycan hökuməti və İrəvan Vilayəti Həmyerlilər Yardımlaşma Cəmiyyəti haqqında məlumat verdi və Naxçıvan əhalisinə hər zaman yardıma hazır olduqlarını, bu məqsədlə Paşa Bayramov və Yusif Qaziyevin 1 milyon manat pul gətirdiyini bildirdi.[3]

Fevralın 22-də polkovnik Ququşov, Mir Abbas bəy, hökumət rəisi Cəfərqulu xan və oğlu Kəlbalı xan ingilis valisini ziyarətə getdilər. Vali onların kim olduqlarını və məqsədlərini soruşdu. Polkovnik Ququşov yerli əhalinin xahişi ilə Azərbaycan hökuməti tərəfindən göndərildiklərini və məqsədləri Naxçıvanda nizamlı bir hərbi təşkilat yaratmaq olduğunu dedi. Podpolkovnik Lauten sərt cavab verdi. Onun fikrincə hələlik Azərbaycana bağlı olmayan və kimə veriləcəyi məlum olmayan bu regionda hələ ki, ingilis valiliyi (general-qubernatorluğu) mövcuddur. Buna görə də onlar qonaqdırlar və qonaq kimi də gedəcəklər. Mir Abbas bəyin danışması gərgin havanı yumşaltdı və mövzu dəyişdi. Vali Cəfərqulu xana ermənilər üçün təkliflər verdi. Erməni mühacirlərinə

zabit və bir milyon manat pul Naxçıvana göndərmişdir (ATASE A 4, kls. 254, d. 10-6, f. 14). Naxçıvana 1 polkovnik və 11 zabit göndərilmiş və onlar pul gətirməmişlər. Pul Tiflis yolu ilə göndərilmişdi.
[1] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 54.
[2] Əliyev yazırdı ki, heyət Naxçıvana 18 fevralda gəlmişdi (Əliyev. Qanlı günlərimiz. s. 113-114).
[3] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1,2; M.B.Naxçıvan-Şərur məsələsi III; Əliyev. Qanlı günlərimiz. s. 113-114; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 54.

Naxçıvana qayıtma icazəsi və ermənilərə 1000 pud buğda verilməsi təklifini irəli sürdü. Azərbaycan nümayəndələri ilə məsləhətləşən Cəfərqulu xan valiyə dedi ki, mühacirlərin gəlməsi sülh konfransının qərarına qədər təxirə salınmalıdır və əhalinin ehtiyacını nəzərə alaraq buğdanı neft və qənd ilə dəyişdirə bilərlər. [1]

İngilis valisi ilə danışıqlar davam edərkən şəhər xəbərçiləri xalqa səhərisi gün məscidə yığışmalarını xəbər etdilər. Fevralın 23-də saat 11-də iclas keçirildi. Nümayəndələrin çıxışından sonra camaat Azərbaycanla birləşmək istədiyini böyük sevinclə bildirdi, məmur göndərilməsini tələb etdi. Bu vaxt divarlara xalqı Azərbaycanla birləşməyə çağıran elanlar yapışdırıldı. Xan iqtidarı tərəfdarları Azərbaycanla birləşməyə qarşı çıxır, elanları cırırdılar. Ancaq qarşılarına mühüm bir qüvvə çıxıb, fəaliyyətlərinə mane olurdu. Bunlar da Azərbaycana xoş niyyətlə baxan Naxçıvan əsgərləri idi.[2] Azərbaycandan gələn zabitlər qısa müddətdə əsgərlərə çox təsir göstərmişdilər. Bu da Naxçıvan hökumətini narahat edirdi.

Hökumət yanında xalqı təmsil etmək və bir növ məclis və ya məsləhət qrupu rolunu oynayan Milli Şuraya[3] seçkilər keçirilən zaman narahatçılıqlar daha da artdı. 1919-cu il fevralın 24-də saat 11-də Milli Şuranın təşkili üçün Şərur, Vedibasar, Cəhri, Əlincəçay, Nehrəm və Naxçıvan nümayəndələri Naxçıvan bələdiyyə binasına axışdılar. Cəfərqulu xanın sədrliyi ilə açılan yığıncaq çox gərgin keçirdi. Müzakirələr zamanı Kərim xanın istefa ərizəsi oxundu, ardınca Cəfərqulu xan da vəzifəsindən istefa etdiyini bildirərək salonu tərk etdi. Ardınca yığıncaqda iştirak edənlər narazı bir şəkildə dağıldılar. Bir müddətdən sonra Şura iclasının həmin gün yenidən keçirilməsi qərara alındı, nümayəndələr çağırıldı.

Salonda olan Əlincəçay, Nehrəm, Cəhri, Sələsüz və Şərur batalyon komandirləri Kalbalı xandan narazı qaldıqlarını bildirdilər və polkovnik Ququşovun üsul-idarəsi altına keçdiklərini elan etdilər.[4] Artıq Naxçıvan qarışıq bir dövrə girdi.

Keçmiş Araz-Türk hökuməti rəisi Əmir bəy və yoldaşları da hakimiyyəti ələ keçirmək üçün hazırlaşırdılar. Azərbaycandan gələn zabit-

[1] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1,2; M.B.Naxçıvan-Şərur məsələsi III; Əliyev. Qanlı günlərimiz. s. 113-114; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 54.
[2] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1; M.B.Naxçıvan-Şərur məsələsi III; Əliyev. Qanlı günlərimiz. s. 115; Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 54, 55.
[3] Hakimiyyəti ələ keçirən xanlar Milli Şuranı ləğv etdilər. İndi yeni seçkilər keçirilməsi nəzərdə tutulurdu.
[4] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1,2,3; Əliyev. Qanlı günlərimiz. s. 115-116.



lərdən bir neçəsi Kalbalı xana xəbər verdi, onu özlərinin rəisi görmək istədiklərini bildirdilər. Əks-təqdirdə onlar hadisələrə tamaşaçı olmayacaqlar.

Həmin gün (25 fevral) hakimiyyətə gələcək hökuməti müəyyənləşdirən toplantı keçirildi. Kalbalı xan Mir Abbas bəyi götürərək toplantı salonuna getdi. Çıxışlar çox gərgin oldu. Tərəflər bir-birilərini tapança və xəncərlə hədələyirdilər. Toplantıda olan Mir Abbas bəy və bəzi zabitlər nümayəndələri sakitləşdirdilər. Azərbaycan nümayəndələri öz çıxışlarında mövcud hakimiyyəti rəsmən tanıdıqlarını və onlarla işləyəcəklərini bildirdilər. Buna görə keçmiş hökumət yerində qaldı. Ayrıca bir Milli Şura (Milli komitə) yaradıldı. Toplantıda iştirak edənlər, Azərbaycan hökumətindən öz işçilərini göndərməsini xahiş etdilər. Nümayəndələrin təklifi ilə könüllü surətdə Azərbaycana birləşmək üçün xahişnamə yazıldı. Bu xahişnamə siyasi, hərbi, mülki, iqtisadi, maddi və mədəni sahələri əhatə edirdi. Hökumət, Milli Şura üzvləri və əhalinin nümayəndələri tərəfindən imzalanan xahişnamə hökumət möhürü ilə təsdiq edildikdən sonra, Azərbaycan hökumətinə təqdim etmək üçün seçilən nümayəndələrə təqdim edildi.[1]

Onlar ilhaq qərarını götürüb Azərbaycan hökumətinə çatdıracaq və bölgələri üçün bir sıra təkliflər edəcəkdilər.[2] Artıq Naxçıvanda sabitlik yaranmışdı. Yəqin ki, Azərbaycan nümayəndələrinin təsiri nəticəsində xanların gücü zəifləməyə, demokratik qüvvələrin nüfuzu artmağa başlamışdı.[3] Hökumət yanında Milli Şuranın olması bunu sübut edirdi.

Azərbaycan nüfuzunu yavaş-yavaş Naxçıvanda hiss etdirməyə başlamışdı. Azərbaycan Hərbi Nazirliyi tərəfindən göndərilmiş zabitlər xidmət bölgələrinə paylanmışdı.[4] Vedi, Şərur, Naxçıvan və Ordubadda 20 piyada rotası, bir batareya üçün topçu qrupu, 400 nəfərlik süvari rotası, pulemyotçular dəstəsi və Naxçıvanda bir təlim qrupu yaradılacaq idi. Mir Abbas bəyə görə türklər gedərkən bütün silahları - topları, pulemyotları apardıqları üçün Naxçıvan əsgərlərinin əlində kifayət qədər sursat yox idi.[5] Buna görə də polkovnik Ququşov hərbi nazirliyə silah göndərilməsi haqqında raport yazmış və Azərbaycana çatdırmaq üçün

[1] Naxçıvandan 2, Şərur, Zəngəzur və Vedibasardan bir nümayəndə təyin edilmişdi (Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1.4); Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 55, 56.
[2] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 56-59.
[3] Yenə orada, s. 37.
[4] Hacıyev. Qars və Araz-Türk respublikaları. səh. 58.
[5] Osmanlı qüvvələri bölgəni boşaldarkən bir çox hərbi hissələrin təşkilinə və silahla təminatına kömək etmişdilər. Osmanlı hərbi dairələrinin Araz vadisində top və pulemyot saxlamalarına dair sənəd yoxdur.

Mir Abbas bəyə vermişdi.[1] İşini qurtaran Mir Abbas bəy vali Lautenin köməyi ilə Tiflisə yola düşdü. Azərbaycana qayıdanda gördüyü işlər və təklifləri əhatə edən bir hesabatı hökumətə təqdim etdi.[2]

Azərbaycan hökumətinin dəstəyini aldığına inanan Naxçıvan hökuməti öz regionundakı müsəlmanların və həm də erməni nəzarətində olan yaxın bölgələrdəki soydaşlarının hüququnu qorumağa çalışırdı. Bunun üçün 26 fevral 1919-cu ildə hökumət və Şura üzvlərinin imzaları ilə Naxçıvandakı ingilis valisinə bir məktub göndərildi. Onlar keçmiş İrəvan vilayətinə bağlı bölgələrin (Naxçıvan, Şərur, Sürməli, Vedi, Qəmərli, Uluxanlı) müsəlmanlarının razılığı olmadan Ermənistana verilməsini protesto edirdilər.[3] Məktubda yazılmışdı ki, müsəlman xalqından heç bir üstünlüyü olmayan, əksinə bir çox cəhətdən geri qalan ermənilərə tabe olmaq mümkün deyildir. O, bir çox digər səbəblər də göstərmişdir. Əvvəlcə İranla birləşmək istəsələr də, indi Cənubi Qafqazın digər bölgələrindəki müsəlmanlar kimi onlar da qanları, dinləri, mədəniyyətləri bir olan Azərbaycana birləşmək istəyirdilər. Bu istiqamətdə bir addım da atılmış, 25 fevralda Sürməli və İrəvana yaxın bölgələrdən gələn nümayəndələrin iştirak etdiyi yığıncaqda Azərbaycana ilhaq qərarı qəbul edilmişdi. İndi onlar, indiki və gələcək nəsillərin səadəti üçün vali Lautendən Azərbaycana birləşmələrində kömək gözləyə bilməzdilər. Onların özlərinə məxsus siyasətləri, planları var idi.

Mart ayının əvvəllərində Naxçıvan hökuməti üçün əhəmiyyətli olan daha bir hadisə baş verdi. Erməni yolunun bağlı olması ilə əlaqədar Naxçıvan, Şərur və Ordubaddan bir çox adam Tiflisdə qalmışdı. Əksəriyyəti Osmanlı üsuli-idarəsi dövründə İstambula göndərilən gənclərdən ibarət bu adamlar vətənlərinə qayıda bilmirdilər. Məsələnin həll edilməsi üçün Cəfərqulu xan 14 mart 1919-cu ildə Gürcüstandakı Azərbaycan səfiri Yusif Cəfərova bir məktub göndərdi. Məhəmməd Yusif bəydən Tiflisdəki adamların Naxçıvana göndərilməsinə kömək etməsini xahiş edən Cəfərqulu xan, Azərbaycan hökumətinə çatdırmaq məqsədilə bir

[1] Azərb. Cüm. MDEYTA, f. 894, op. 10, d. 70, l. 1.4.

[2] Mir Abbas bəy hesabatında Naxçıvan regionu ilə əlaqədar bu təklifləri vermişdir: 1. Naxçıvanın idarəsi üçün azərbaycanlı vali təyin etmək lazımdır. 2. O, İran və Ermənistanın təsirinə qarşı çıxmalı, xanlara, nüfuzlu şəxslərə rəğbət bəsləməli, xarici təsirlərə qapılmamalı, qəti bir siyasət aparmalı, əzmli olmalı, rüşvət almamalıdır. 3. Bu xüsusiyyətlərə sahib səlahiyyətli şəxs hərbi nazir tərəfindən müəyyənləşdirilməlidir. 4. Mülki idarə və məhkəmələrin idarə edilməsi üçün qəti surətdə Azərbaycandan işçi təyin olunmalıdır. 5. Naxçıvana daha çox zabit göndərilməlidir. 6. Çox zəngin olan bu regiona pul yarım edilməlidir (Azərb. Cüm. MDEYTA, f.. 894, op. 10, d. 70, l. 1.5); Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 55, 56.

[3] Bu dövrdə Naxçıvan və Şərur üçün belə bir layihə olmamasına baxmayaraq hökumət bəzi xəbərlər almışdı.



sıra məlumatlar da verdi, giley de etdi. O, Naxçıvanda gərgin vəziyyətdə olmuş və soyuqdan ölümlə üz-üzə qalan 100.000 müsəlman mühacirə Azərbaycandan yardım göstərilmədiyinə görə şikayət edir və hər an Bakıdan maddi və mənəvi kömək gözlədiklərini bildirirdi.[1]

Məqalənin son hissəsində göstərilirdi ki, naxçıvanlılar Azərbaycana nümayəndələr göndərərək regiona vali təyin edilməsini xahiş edir, ancaq hələ ki, bir şəxs göndərilmədiyindən narahatdırlar. Onlar Azərbaycan hökumətinin səlahiyyətli dairələrinin Naxçıvana lazımi qədər əhəmiyyət vermələrini və tez bir zamanda fəaliyyətə başlamalarını arzu edirdilər.[2]

Cəfərqulu xanın və Nağdəlizadənin xahiş və şikayətləri müqabilində Azərbaycan hökuməti də imkanları daxilində bir şeylər etməyə çalışırdı.

Ancaq onun ən böyük narahatçılığı Naxçıvan ilə əlaqə saxlaya bilməməsi idi. İki tərəf arasında gediş-gəliş imkanları çox ağır şərtlər altında əldə edildi. Ermənilər tərəfindən bütün yollar bağlanmışdı. Piyada yolla İran tərəfindən əlaqə yaratmaq nisbətən mümkün idi. Ancaq bu yoldan Naxçıvana maddi yardım çatdırmaq imkansız görünürdü. Ancaq bu yoldan – Tiflis yolu ilə göndəriləcək bir yardım heyəti Ermənistandan keçməyə məcbur olduğundan ingilislərin köməyinə ehtiyac var idi. İngilis hərbi dairələri isə belə bir kömək etməyi heç fikirləşmirdilər. Bəhram xanın sədrliyi ilə Bakıya gələn Naxçıvan heyətindən region haqqında mühüm məlumat əldə edən Azərbaycan hökuməti Araz vadisinə bir heyət göndərməyi qərara almışdı.[3] Araz vadisində erməni zülmündən qaçaraq mühacir olmüş müsəlmanlara bir milyon manat yardım gətirən, onların vəziyyətini yaxından incələyən heyətin Naxçıvana təhlükəsiz gəlməsi lazım idi. Onun üçün də Azərbaycan Nazirlər Şurasının sədri Fətəli xan Xoyski 3 aprel 1919-cu ildə ingilis generalı Tomsondan kömək istədi. İngilis hərbi dəstəsinin heyəti mühafizə etməsi lazım idi. General Tomsonun cavabı mənfi oldu. O, Azərbaycan heyətinin region üçün fayda gətirməyəcəyini bildirdi və ingilis idarəetməsi altında olan bölgələrə gedəcək nümayəndələrə təhlükəsizlikləri üçün dəstə verilməsini də məqsədəuyğun saymırdı. Şübhəsizə ki, Azərbaycanın əvvəlcədən nəzərdə tutulmuş bir sıra planlarına Tomsonun bu hərəkəti mane olacaq idi. Azərbaycan hökuməti bir tərəfdən Ağdam-Füzuli-Naxçıvan arasında poçt-teleqraf xəttinin qaydaya salınması və mühafizəsi üçün fəaliyyətə başlayıb, digər tərəfdən Naxçıvan və Qarsa

[1] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 59.

[2] Nağdəlizadə. Naxçıvan fəlakətlərinin tarixçəsi.

[3] Heyətdə Teymur bəy Makinski, R. İsmayılov və doktor Qənizadə var idi (Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 62.)

çox böyük ehtiyacı olan neft göndərmək barədə düşünürdü.[1] Ancaq bütün bu işlər ingilislərin köməyi ilə mümkün idi və onlar da belə bir köməyi etmirdilər. Tomsonun mənfi cavabı onların Cənubi Qafqazda siyasətinin dəyişməsinə bir işarə idi. Onlar artıq müqavilədə göstərilmiş region torpaqlarını bölüb, özləri də aradan çıxmaq istəyirdilər. Naxçıvan-Şərur bölgələrini ermənilərə vermək istəyən ingilis dairələri, strateji nöqtələri ələ keçirmiş, hərbi güclərini artıraraq yerli hökuməti əzmək siyasəti tətbiq edirdilər.[2] Azərbaycan zabitləri buradan uzaqlaşdırılır, türk təbəələri həbs edilir, bəzi bölgələrdə əhali silahsızlaşdırılırdı.[3] Artıq Naxçıvan hökumətinin varlığı-yoxluğu bəlli deyildi. Onlar ancaq bir neçə protestolardan irəli gedə bilmirdilər. İngilis valiliyi bütün inzibati və hərbi orqanları nəzarəti altına almışdı. Naxçıvan camaatı üçün qəmli günlər yaxınlaşırdı.

[1] Hacıyev. Qars və Araz-Türk respublikaları.
[2] USA NA Paris Peace Conferance 184 021/10; Hovannisian. The Republic of Armenia. V.1, s. 215.
[3] Tamaşaçı. Naxçıvan I Ermənilər Naxçıvana necə sahib oldular? «Azərbaycan», 9 iyul, № 220; Əliyev. Qanlı günlərimiz.



## NAXÇIVAN TÜRKİYƏ VƏ AZƏRBAYCANIN NƏZARƏTİ ALTINDA AZƏRBAYCAN ÜÇÜN NAXÇIVAN MƏSƏLƏSİ

Çar Rusiyası dövründə başqa bölgələrdə olduğu kimi Qafqaz da bir çox quberniyalara (vilayətlərə) ayrılmış, Fevral inqilabı nəticəsində çar üsuli-idarəsinin dağılması Qafqazda vəziyyəti dəyişdirmiş, Ozakom yaradılmışdı. Oktyabr inqilabından sonra növbə ilə Zaqavkom, 28 noyabrda isə Zaqafkaziya komissarlığı və 22 apreldə Zaqafqaziya hökuməti quruldu. Nəhayət, Batumi konfransından əvvəl cümhuriyyət yaradan Gurcustan, Azərbaycan və Ermənistan müstəqilliklərini elan edərək müstəqil dövlətlər kimi dünyada tanındılar. Bu dövrdə ruslardan dəstək alan ermənilər əhalisinin əksəriyyəti türk olan İrəvanı (Rəvanı) mərkəz etmişdilər. Bilavasitə İrəvan quberniyasına daxil olan uezdlərə (qəza) sahib olmaq istəyirdilər. Bunun əksinə olaraq əvvəl mərkəzi Gəncə, sonra da Bakı olan Azərbaycan Cümhuriyyəti də bu sahədə işə başladı. Onlar Cənubi Qafqazda əhalisinin əksəriyyəti türk olan bölgələri öz torpaqları kimi görürdü. Bunun bir səbəbi də bölgədə yaşayan adamların dil, din, irq və hətta məzhəb cəhətdən Azərbaycan əhalisi ilə eyni olmaları idi. İkinci səbəb isə, Osmanlı ordusu çıxdıqdan sonra Ermənistan ətrafındakı türk bölgələrinin sahibsiz qalmaları idi. Türkiyə imzaladığı müqaviləyə əsasən bu bölgənin əhalisi ilə maraqlanmırdı. Orada bu adamları qoruyacaq, qayğısına qalacaq tək dövlət Azərbaycan qalmışdı. Bölgədə müstəqil hökumətlər şəklində yaşamağa çalışan hökumətlər də Naxçıvanda olduğu kimi, Azərbaycanı özününkü hesab etdiklərindən onunla birləşirdilər.[1] Buna görə də Azərbaycan vəziyyəti yaxşı bildiyindən Naxçıvan başda olmaqla müsəlmanların əksəriyyət təşkil etdikləri bölgələri öz parçası sayır və millətlərarası platformada onların hüququnu müdafiə edirdi.[2]

25 yanvar 1919-cu ildə Tiflisdə ingilis generalı Vilyam Henri Biç ilə görüşə azərbaycanlı bir səlahiyyətli şəxs ölkəsinin sərhədlərini Dağıstandan başladaraq buraya Borçalını, Tiflis vilayətinin bir hissəsini, Eçmiədzin qəzasının kürdlər yaşayan hissəsini, İrəvan, Qars vilayətlə-

[1] Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 70, v. 2-6; Parisdəki Sülh konfransında Qafqaz Azərbaycanı sülh heyətinin tələbləri (Tərcümə: Vilayət Quliyev). Azərbaycan Demokratik Cümhuriyyəti. B., 1992, ç. 177, 178.
[2] T.Köçərli. Azərbaycan Demokratik Respublikası və Azərbaycanın ərazi bütövlüyü məsələləri; «Kommunist», 30 sentyabr 1990, № 226 (21294).

rini, Axılkələk, Ərdahan və Batumi qəzalarını daxil etmişdir. General Biç dərhal etiraz edərək Ermənistana yer qalmadığını bildirdi.[1] Azərbaycan hökuməti sərhəd xətlərini bir az da geri çəkərək Paris Sülh konfransına getdi. Ancaq burada Azərbaycanın iki rəqibi var idi: Ermənistan və İran. Hər üç dövlət konfarnsda çox böyük tələblərlə iştirak edirdi. Azərbaycan Borçalı, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları və Yeni (Novo) Bəyazid, Eçmiədzin və Gümrü qəzalarının bir hissəsini tələb edir, Batumi və Qars üzərində haqları olduğunu göstərirdi.[2] Ermənistanın tələbləri daha böyük idi. Onlar Cənubi-Qafqazdan başqa Anadolunun da yarısını istəyirdilər.[3] Bu, Sovetlərin əvvəlki müqavilələrini ləğv etdiyini bildirən İranın Paris Sülh konfransında fantastik tələblər etməsinə səbəb olmuşdu. İran nümayəndəsi Əliqulu xan Bakı, Dərbənd, Şəki, Şamaxı, Gəncə, Qarabağ və İrəvanı tələb edirdi. Əliqulu xan Cənubi Qafqaz müsəlmanlarının mədəniyyət və din cəhətdən İran əhalisi ilə eyni olduğunu bildirir və naxçıvanlıların İranla birləşmək arzusunu dəlil kimi göstərirdi.[4]

Konfransda Azərbaycan və Ermənistan arasında çox ciddi mübahisələr olurdu. Xüsusilə Naxçıvan məsələsi düyün nöqtəsi idi. Azərbaycan heyəti Naxçıvan və Şərurun öz torpaqları olduğunu irəli sürür, bunu isbat etməyə çalışırdı. Erməni heyəti isə sənədlərlə konfransa gəlmiş Azərbaycanı məsum Ermənistana qarşı pis niyyətlər bəsləməkdə, Qarabağ və Naxçıvandakı müsəlmanların sayını şişirtməkdə ittiham edirdilər.[5] İran ilə anlaşılmazlıqların aradan qaldırılmısa mümkün olmurdu. Oktyabr 1919-cu ildə Azərbaycan nümayəndəsi Topçubaşov və İran xarici İşlər Naziri Əliqulu xan arasında danışıqlar anlaşılmazlıqla sona çatdı. Ancaq konfransın İranın tələblərinə xoş münasibət bəsləməsi nəticəsində İran-Azərbaycan münasibətləri düzəlmiş və İranda Azərbaycan səfirliyi və konsulluğu açılmışdı.[6]

Naxçıvan Azərbaycan üçün strateji baxımdan çox böyük əhəmiyyətə[7] malik idi. Azərbaycan Naxçıvan vasitəsilə qardaş ölkə Türkiyə ilə əlaqə yaratmaq niyyətində idi. Buna görə də Bakı-Culfa dəmiryolu

[1] Azərb. Resp. MDEYTA, f. 970, op. 1, s. 42, v. 3,4; История, философия, право. АН Азерб. ССР. Б., 1990, № 2, 61, 62.
[2] Azərbaycan sülh heyətinin tələbləri. s. 176-178.
[3] Bıyıqlıoğlu. Sərhəd siyasəti. s. 27.
[4] Firuz Kazımzadə. The Struqqle for Transcaucasia (1917-1921). New-York, 1951, s. 267; N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990, s. 27; Ş. Tağıyeva. N.Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri və Azadistan məsələsi, Azərbaycan Demokratik Cümhuriyyəti. B., 1992, s. 67.
[5] Firuz Kazımzadə. The Struqqle for Transcaucasia (1917-1921). S. 268.
[6] Ş. Tağıyeva. N.Nəsibzadə. 1918-1920-ci illərdə Azərbaycan-İran münasibətləri. s. 67-69.
[7] Culfadan Bakıya Araz çayı boyunca yaxşı bir torpaq yolu var.



xəttinin Şahtaxtı-Maku, Bəyazid və Ağrıdan[1] Ərzuruma qədər uzatmaq istəyirdi.

Digər tərəfdən də dəmiryolu[2] vasitəsilə Naxçıvanı nəzarətdə saxlamaq asanlaşacaqdı. Ermənistan üzərində üstünlük əldə ediləcək. Azərbaycanın Naxçıvanı əlində saxlaması həm siyasi, həm də hərbi cəhətdən çox əhəmiyyətli idi. Buna görə də Azərbaycanın İrəvandakı diplomatik nümayəndəsi Xan Təkinski 4 iyun 1918-ci ildə hökumətinə göndərdiyi bir teleqramda bildirirdi ki, Azərbaycana qarşı baş verəcək erməni-rus könüllülərin (Denikin Ordusu) birgə əməliyyatlarının dayandırılmasının ən münasib yolu Naxçıvanda qüvvətli olmaq və ermənilərə xəbərdarlıq etməkdir. Naxçıvanlılar Zəngəzurun ələ keçirilməsində mühüm rol oynaya bilərdilər.[3] İki tərəfdən sıxışdırılan ermənilər bölgədən çıxa bilərlər. Daha sonralar Azərbaycan və Naxçıvan qüvvələri bu istiqamətdə müştərək bir əməliyyat aparmışdılar.[4]

Azərbaycan ilə Naxçıvanın əlaqə qurması həqiqətən çox çətin idi. Aradakı Zəngəzur erməni dəstələrinin nəzarəti altında idi və daim münaqişələr baş verirdi. Bakı-Tiflis-İrəvan-Naxçıvan dəmiryolu ermənilər tərəfindən kəsilmişdi. Azərbaycanlıların Ermənistandan keçməsinə icazə verilmirdi. Azərbaycan və ya Naxçıvan nümayəndələri ya müttəfiqlərin yardımı ilə Tiflis-İrəvan dəmiryolundan, ya da İranın şimal hissəsindən istifadə edə bilirdilər.

Araz-Türk hökuməti əsasında müstəqil şəkildə yaşayan türk-müsəlman əhali 7 dekabr 1918-ci ildə Azərbaycan parlamentinin açılışına çox sevinmişdilər. Açılışa nümayəndə göndərdiyi kimi, Ordubad əhalisi təbrik teleqramı da göndərmişdi. Müsəlman əhali Azərbaycan parlamentinin bütün Qafqaz müsəlmanlarına sahib çıxacağına inanırdı. Naxçıvana erməni hücumunun başlaması, Araz vadisi əhalisinin Azərbaycanla olan əlaqələrini daha da artırırdı. Azərbaycan parlamentinə bölgədə baş verən hadisələr haqqında məlumat verildi. Vəziyyətin ciddi olduğu bildirildi. Parlament dərhal hökumətdən lazımi tədbirlərin görülməsini tələb etdi.[5] Ancaq Azərbaycan hökuməti bir çox imkansızlıq və təşkilatsızlığa görə Araz vadisinə dərhal yardım əlini uzada bilmədi.

[1] Ruslar tərəfindən Culfa-Şahtaxtı-Maku-Bəyazid və Ağrı arasında bir dəmiryolu çəkilmişdi («Təsviri-Əfkar», 11 mart 1920, № 3009).
[2] Qarabəkir. İstiqlal müharibəmiz, s. 245. Qafqaza səyahət zamanı general Harbord Azərbaycan dəmiryolu məsələsində niyyətini anlamışdı (USA NA Paris Peace Conference 184.02.102/2; Dokuments on British Foreign Policy, First Series, Vol. IV, London, 1958, s. 818).
[3] Hovanisyan. Göstərilən əsəri.
[4] ATASE A/5, kls. 814, d. 5-9, f. 128-3; ATASE A 1/1 kls. 23, s. 95161, f. 29; Qarabəkir. İstiqlal müharibəmiz. s. 346.
[5] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. B., 1994, s. 50.

Araz-Türk hökuməti isə erməni hücumları nəticəsində zəifləmişdi, köməyə ehtiyacı var idi. Buna görə də Araz-Türk hökuməti bölgənin fəal gənclərindən Paşa Bayramovu Bakıya göndərdi. Bayramov azərbaycanlı səlahiyyətli şəxslərlə görüşdü, hökumətinin xahişlərini bildirdi.[1] Bakıda yaşayan İrəvan vilayəti müsəlmanları ilə görüşdü və nəticədə İrəvan Vilayəti Müsəlmanları Həmyerlilərin Yardımlaşma Cəmiyyəti quruldu. Paşa Bayramovun fəal çalışması nəticəsində Araz vadisindəki mühacirlərə yardım göndərərkən,[2] Azərbaycan hökuməti də Araz-Türk hökumətinə hərbi hissələrini yaratmaları üçün bir milyon rubl vermişdir.[3] Ancaq əvvəl göstərdiyimiz kimi, Araz vadisi üçün çox mühüm olan bu pul müəyyən məsələlərlə əlaqədar bölgəyə çatmadı. Digər tərəfdən Azərbaycan hökumətinin razılığı ilə 24 yanvar 1919-cu ildə İrəvan Vilayəti Müsəlmanları Həmyerlilərin Yardımlaşma Cəmiyyətinin nümayəndəsi Mirabbas Mirbağırov və hökumətin səlahiyyət verdiyi polkovnik Həsən ağa Ququşovun məiyyətində 11 zabit Cəbrayıl-Şimali İran yolu ilə Naxçıvana göndərildi.[4] Məqsədləri Araz vadisi əhalisinin ehtiyaclarını təmin etmək idi. 20 fevral 1919-cu ildə Naxçıvana gələn Azərbaycan heyəti təntənə ilə qarşılandı. Azərbaycanın dəstəyi ilə həvəslənən naxçıvanlılar bölgələrində ingilis valiliyi (general-qubernatorluğu) qurulmasına baxmayaraq, Azərbaycanla birləşməyi qərara aldılar. Azərbaycan zabitləri də bölgəyə paylanaraq hərbi hissələrin yaradılması ilə əlaqədar işə başladılar.[5] Mir Abbas bəy Bakıya qayıdan kimi hökumətə bir hesabat təqdim etdi, görüləcək işlər haqqında məsləhətlər verdi. Onun fikrincə, Naxçıvana dürüst bir azərbaycanlı vali göndərilməli və bu şəxs İran və Ermənistanın Araz vadisindəki fəaliyyətinə mane olmalıdır. Eyni zamanda bir komandir təyin olunmalı, mülki idarə və məhkəmələrin idarə edilməsi üçün azərbaycanlı məmurlara vəzifə verilməlidir. Kifayət qədər zabit göndərilməlidir. İran və Ermənistanın təsirinə məruz qalan Naxçıvan, Şərur və Ordubada çoxlu pul göndərilməlidir. Bundan başqa, Azərbaycandan Culfaya çəkilməsi nəzərdə tutulan və ancaq relslərin

[1] M.B.Naxçıvan-Şərur məsələsi I; «Azərbaycan», 17 iyul 1919, № 227; M.B.Naxçıvan-Şərur məsələsi III, «Azərbaycan», 22 iyul 1919, № 231; «Azərbaycan», 2 dekabr 1918, № 72.
[2] M.B.Naxçıvan-Şərur məsələsi III.
[3] Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 70, v. 2.
[4] Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 70, v. 1-6; ATASE A 4/8316, kls. 254, s. 10-16, f. 14. M.B.Naxçıvan-Şərur məsələsi III; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 53, 54.
[5] Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 70, v. 4; Əliyev. Qanlı günlərimiz (1918-1920, Naxçıan). B.,1993, s. 115. Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 55, 56.



döşənməsi qalmış bu dəmiryolunun çəkilməsi tez başa çatmalı idi.[1]

Ermənistandakı müsəlmanlara edilən zülm və işgəncələr Naxçıvanda böyük bir kədərin yaranmasına səbəb oldu. Ermənistandan qaça bilən müsəlman mühacirləri Naxçıvana gəlməyə başladı. Mühacirlərin sayı yüz minə çatmışdı. Buna görə də Naxçıvan hökuməti rəisi Cəfərqulu xan 14 mart 1919-cu ildə Azərbaycanın Tiflisdəki nümayəndəsi Məmməd Yusif Cəfərova bir teleqram göndərdi.

Bu teleqramda Azərbaycanla birləşdikləri üçün Cəfərovu öz nümayəndələri hesab etdikləri bildirildi. Ermənistanın mane olması üzündən Tiflisdən Naxçıvana gələ bilməyənlərin ingilislər vasitəsilə göndərilməsini tələb etdi. Sonra isə Naxçıvanda olan mühacirlərə dərhal yardım göstərilməsini xahiş etdi.[2] Xarici İşlər Naziri Bəhram xan Naxçıvanskinin başçılığ ilə Bakıya göndərilən Naxçıvan heyəti Azərbaycan Nazirlər Şurası sədri Fətəli xan Xoyski və İngilis generalı Vilyam M.Tomson ilə görüşdü, xahişlərini bildirdi.[3]

Azərbaycan hökuməti bütün imkansızlıqlarına bixmayaraq, Naxçıvanla maraqlanmaq istəyirdi. Mart və aprel aylarında bir çox fikirlər və fəaliyyətlər oldu. İndiki Füzuli-Naxçıvan arasındakı poçt-teleqraf xəttinin istifadəyə verilməsi və mühafizəsi ilə əlaqədar yazışmalara başlandı. Naxçıvana neft göndərilməsi üçün təşəbbüs göstərildi. Teymur bəy Makinski, R.İsmayılov və doktor Qənizadədən ibarət bir heyətə Araz vadisindəki müsəlmanlarm vəziyyətini yaxından görmək vəzifəsi tapşırıldı.[4]

Ancaq bu zaman Cənubi Qafqazda Azərbaycanın Naxçıvan siyasətinə küləklər əsməyə başladı. Qafqazdakı ingilis qoşunlarının baş komandanı general Tomson bir sıra ərazi bölgüsü etmiş, Şərur və Naxçıvanı da Ermənistana verməyi nəzərdə tutmuşdu.[5] Azərbaycan hökuməti və bilavasitə Ermənistandakı nümayəndə Xan Təkinski çox narahat oldular. Erməni idarəçiliyi altında qalmaq Naxçıvan əhalisini məyus etmişdi və bununla Azərbaycanın Naxçıvandakı varlığı sona çatdı. Buna görə də ingilis valisi Azərbaycan zabitlərinə Naxçıvandan çıx-

[1] Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 70, v. 5,6; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 56-57.
[2] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 59.
[3] Q.Mədətov. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və MSSR-in təşkili. B., 1958, s. 47, 48; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 61.
[4] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 61, 62.
[5] USA NA Paris Peace Conferance 184.021/126; Tamaşaçı. Naxçıvan məktubları II; «Azərbaycan», 14 iyul 1919, № 224; Hovanisyan. Göstərilən əsəri. s. 237; Akaby Nassibian. Britain and the Armenian quetions 1918-1923. Nyu-York, 1984, s. 156; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 62, 63; Gothard Jaske. 28 maydan 27 aprelə qədər Milli Azərbaycan təqvimi; Qurtuluş, № 19 (may 1936), s. 546.

maları üçün ultimatum vermişdi.[1] İrəvanda erməni və ingilis təşkialtlarının Naxçıvanı işğal planlarına şahid olan Xan Təkinski hadisələr mane olmaq üçün bir çox işlər gördü. Təkinski böyüyən hadisələr haqqında gizli məlumatlarla hökumətinə məlumat verir və Naxçıvandakı müsəlmanların müqavimətlərini dəstəkləmək üçün pul istəyir. Naxçıvan və Şərur üzərində erməni təzyiqini azaltmaq üçün sərhədlərdə öz güclərini nümayiş etdirməyin lazım olduğunu bildirir. Bundan başqa o, Naxçıvanda xalqın könüllü olaraq silahlandırılıb-silahlandırılmaması haqqında məlumat istədi və müqavimətə hazır olan Naxçıvan türklərinin Azərbaycandan işarət gözlədiyini bildirdi.[2]

Həqiqətən də naxçıvanlılar Sədərək yaxınlığındakı Qurd Qapısını pulemyotla tutmuşdular və ingilislər ermənilərə yardım etməzsələr, onları yurdlarına buraxmayacaqdılar. Naxçıvanlılar Azərbaycandan yardım gözləyirdilər.[3] Ancaq Təkinskinin ümid etdiyi şəkildə Azərbaycan hökuməti hərəkətə gəlmədi. Azərbaycan hökuməti Naxçıvanın ana vətən olan Azərbaycandan ayrılması üçün protestodan başqa bir şey etməyəcəkdi.[4] Naxçıvanlıların erməni qüvvələrinə müqavimət göstərmələrindən razı qalacaqdılar.[5] Naxçıvanda erməni idarəetmə sistemi özü ilə bərabər bir çox sıxıntılar gətirmişdi. Ermənilər vəd etdiklərinin əksinə olaraq müsəlman əhaliyə qarşı çox sərt davranır, hakimiyyətləri uğrunda türk kəndlərini dağıdırdılar. Deməк olar ki, belə bir şəraitdə çarəsiz qalan Naxçıvan camaatı üzünü Azərbaycana çevirdi. İrəvanda olan Xan Təkinskidən və Azərbaycan hökumətindən yardım istənildi.[6] Erməni hücumlarını dəf edən Ordubad əhalisi Bakıya nümayəndə göndərib, görüləcək işlər haqqında sərəncam verilməsini istədi.[7]

Araz vadisi ilə daim sıx əlaqə saxlayan Xan Təkinski Naxçıvanda olan özəl kuryeri vasitəsi ilə bölgədə cərəyan edən hadisələri öyrənib həmin anda hökumətinə bildirirdi. Hökumət də Təkinskinin bu enerjili fəaliyyətini təqdir edir və fəaliyyətinin davamını gözləyirdi. İngilislər

---

[1] Tamaşaçı. Naxçıvan məktubları I. Ermənilər Naxçıvana necə sahib oldular? «Azərbaycan», 9 iyul 1919, № 220.
[2] Hovanisyan. Göstərilən əsəri, s. 237.
[3] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 69, 70; Hovanisyan. Göstərilən əsəri. s. 242.
[4] Azərbaycan hökuməti 3 may 1919-cu ildə Ermənistan hökuməti (Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 68, 69) və daha sonra da ingilis yuxarı dairələri məsələyə protesto verdi. (Раевски. Мусаватское правительство иа Версальской конференции. B., 1931, s. 67).
[5] Hovanisyan. Göstərilən əsəri. s. 242.
[6] История, философия и право. Известия АН Азерб. ССР, Б., 1989, № 4, с. 111; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 75, 76.
[7] «Azərbaycan», 6 iyul 1919, № 217.



Araz vadisindən çıxan kimi Azərbaycan hökuməti fəal bir siyasətə başladı. Tiflisdə Naxçıvanın nüfuzlu şəxslərinin tutulduğunu və Ermənistana göndərildiyini öyrənən hökumət Təkinskiyə dərhal lazımi təşəbbüslər göstərməsini tapşırdı.[1] Erməni yuxarı dairələri qarşısında türk əhalisinin hüquqlarını qorumağa çalışıldığı bir vaxtda ermənilərin Vediyə xaç yürüşü başlamışdı. Vedinin yardıma ehtiyacı var idi. Xan Təkinski hökumətindən təcili, mühüm tədbirlər görməsini xahiş etdi. Sərhədlərə əsgər toplayaraq Vedi üzərində erməni təzyiqi azaldılmalı və müsəlman əhalisinin əhval-rühiyyəsini yüksəltmək üçün bir nümayəndə göndərilməli idi. Hovanisyan göstərirdi ki, Təkinskinin xahişlərini nəzərə alaraq Azərbaycan hökuməti 200.000 hərbi sursat və 300.000 rublu İranın şimalından Naxçıvana göndərmişdi.[2] Digər tərəfdən Vedi məsələsi dövlətlərarası məsələyə keçmiş və Azərbaycan hökuməti erməni və ingilis dairələrinə protesto etmişdi.[3]

Ancaq Azərbaycan hökuməti və Təkinski protestolarla kifayətlənmədilər. Erməniləri Naxçıvandan çıxarmaq üçün planlar hazırladılar. İngilislərin çıxması onlara bu fürsəti verdi. 4 iyun 1919-cu ildə ingilislərin çıxdığını hökumətinə bildirən Təkinski Ermənistana neft göndərilməsinin dayandırılmasını və Naxçıvandakı müsəlman əhaliyə aid təşkilatlara yardım göstərilməsini təklif etdi.[4] Ancaq Azərbaycan hökuməti söz verdiyi halda əvvəlcə Araz vadisinə kömək göndərə bilmədi. Ermənilərin əməliyyatları nəticəsində Naxçıvandakı könüllü dəstələr dağılırdı. Buna görə də Təkinski hökumətdən yeni tələblər edirdi. Erməni sərhədi boyunca əsgər düzülməli və Naxçıvandakı müqavimətə dəstək olmaq məqsədilə Maku xanı ilə və kürd lideri Simko ilə əlaqəyə girmək üçün ona səlahiyyət verilməlidir.[5] Təkinskinin tələbləri və Vedi döyüşlərinin başlaması Azərbaycanın Naxçıvana yardım fəaliyyətini gücləndirdi. Hərbi sursat və pul göndərildi.[6] Ordubad əhalisinin tələbi ilə bölgəyə siyasi nümayəndə Səməd bəy Cəmillinski göndərildi.[7] Arxalarında Azərbaycanın dəstəyini görən naxçıvanlılar müntəzəm surətdə Xan Təkinski ilə əlaqə saxlayır və onun tövsiyəsi ilə Milli Şura ətrafında birləşirdilər. Artıq təşkilatları yaranmağa başlamışdı. Bakı və Tiflisdə olan

---

[1] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 71-77.
[2] Hovanisyan. Göstərilən əsər, s. 68.
[3] «Azərbaycan», 12 iyul 1919, № 222; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 78-79. Hovanisyan. Göstərilən əsər, s. 65.
[4] Hovanisyan. Göstərilən əsər, s. 248.
[5] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 64; Hovanisyan. Göstərilən əsər, s. 75.
[6] «Azərbaycan», 23 iyul 1919, № 232; Hovanisyan. Göstərilən əsəri, s. 68.
[7] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-2.

naxçıvanlıların geri göndərilməsini Azərbaycandan tələb edirdilər. Məqsədləri onlarla Naxçıvan camaatına mənəvi dayaq olmaları idi.[1] Ermənilər və müttəfiq dövlətlərin nümayəndələri Türkiyə və Azərbaycanın Araz vadisi əhalisinə etdiyi bütün yardımı çox yaxşı bilir və bunu məlumatlarında göstərirdilər.[2] Əslində bu nümayəndələr erməni təbliğatlarına uyub, rəqəmləri bir az şişirtsələr də yardım edilməsi bir həqiqət idi.[3] Naxçıvanın istiqlal qazanması və sonrakı dövrü ilə əlaqədar olaraq Azərbaycan Cümhuriyyəti liderlərindən M.Ə.Rəsulzadə yazırdı: Bakıdan çox uzaqda yerləşən Naxçıvanın Ermənistan hökumətinə qarşı mübarizəsi maddi, mənəvi və siyasi cəhətdən dəstəklənərək və oraya vali göndərməklə Azərbaycana bağlılığı təmin edilmişdir.[4]

Naxçıvan müstəqillik qazandıqdan sonra Xəlil bəy Ordubadda olan Azərbaycanın siyasi nümayəndəsi Səməd bəyi gətirib vali təyin etdi. Naxçıvan regionunu Azərbaycana ilhaq etdiyini bildirdi və Xəlil bəy də Azərbaycanın Naxçıvan regionunun ümumi komandiri oldu.[5]

Bu tarixdən sonra Azərbaycan-Naxçıvan əlaqələri daha da inkişaf etdi. Azərbaycan hökuməti Naxçıvanda görülən işləri məqsədəuyğun sayır və pul yardımı göstərirdi.[6] Azərbaycanm Naxçıvan üzərində təsiri olduğuna görə Naxçıvan və ətrafında Amerika general-qubernatorluğu qurmağa cəhd göstərən Vilyam N.Haskel planını Azərbaycan hökumətinə qəbul etdirmək üçün çalışır, hətta şantaja belə əl atırdı.[7]

Bu vaxt Araz vadisi əhalisi də Azərbaycan hökuməti rəisi Nəsib bəy Yusifbəyova göndərdikləri bir məlumatda Haskel ilə danışıqlarda onların təkliflərinin nəzərə alınmasını, bundan başqa daşnak zülmünü

[1] Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 71, 72, 83.
[2] USA NA Paris Peace Conferance 184.021/10. 184. 0202/2184, s. 21/216; USA NA Near Eastern Affairs 867.00047; Качазнуни. Дашнакцитюн, больше нечего делать. Б., 1990, с. 280; Hovanisyan. Göstərilən əsər, s. 68-69.
[3] İyul ayı ərzində Naxçıvanda başlayan döyüşlərdə türklərin iştirak etməsi Ermənistana qarşı hərəkət edən gizli bir Azərbaycan-Kamalist müqaviləsinin olması haqqında qərb mətbuatında yazılar çıxmasına səbəb olmuşdu.
[4] M.Ə. Rəsulzadə. Azərbaycan Cümhuriyyətinin təşəkkülü və indiki vəziyyəti. İst., 1339-1341, s. 88. Mirzə Bala da əsərində bunu göstərmişdir (Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı, musavat xalq firqəsi tarixi. İst., 1938, s. 166).
[5] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-2; Qarabəkir. İstiqlal müharibəmiz. S. 304; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 84, 85. Kazım Qarabəkir paşa Naxçıvanın Azərbaycanla birləşməsi məsələsində bu məlumatı verirdi: Naxçıvan regionu Türkiyəyə aiddir. Milli sərhədləri daxilinə almaq imkanı olmadığından birləşərək ona bağlanması və ya müstəqil idarə olunması üçün Xəlil bəyə göstəriş verilmişdir. Vəziyyətə görə münasib olanı xalq nümayəndələri ilə müəyyənləşdiriləcəkdir.
[6] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-3; Qarabəkir. İstiqlal müharibəmiz. s. 304.
[7] Ətraflı məlumat üçün bax II bölməyə.



müəyyənləşdirmək üçün bitərəf heyətin yaradılmasını və Naxçıvan-Azərbaycan yolunun dərhal açılmasını tələb etmişdi.[1]

Əvvəllər olduğu kimi, yenə də İrəvanda olan Azərbaycan nümayəndəsi vasitəsi ilə Azərbaycan-Naxçıvan münasibətləri davam etdirilirdi. Ə.Haqverdiyev və Əli xan Makinski bu işdə fəal rol oynayırdılar.[2] Naxçıvan valisi Səməd bəy də müntəzəm surətdə Ə.Haqverdiyev ilə əlaqə saxlayır, regionun məsələlərini, xahişlərini Azərbaycan hökumətinə bildirirdi. Səməd bəyin və bilavasitə Araz vadisi əhalisinin ən böyük sıxıntıları, dərdləri ermənilərin sakit durmaları idi. Ermənilər bir tərəfdən Vedibasar və Ordubad kimi sərhəd bölgələrinə hücum edir, digər tərəfdən Sürməli, Zəngibasar və Eçmiədzin tərəflərindəki müsəlman əhaliyə zülm edirdilər. Zülmdən canını qurtaran adamlar Naxçıvana sığınırdılar. 100 mindən artıq mühacirin vəziyyəti dözülməz idi. Naxçıvan regionunun imkanları ilə bu mühacirlərin ehtiyaclarını təmin etmək mümkün deyildi. Polkovnik Haskel Ermənistandakı müsəlmanlarla maraqlanmırdı. Buna görə də Səməd bəy vəziyyəti müxtəlif teleqramlarla Azərbaycan hökumətinə bildirdi və kömək istədi.[3] Regionda baş verən erməni zülmü ilə əlaqədar Ermənistan və Qafqazda olan müttəfiq nümayəndələrinə protesto etdi.[4] Digər tərəfdən Azərbaycanda İzmir, Zəngəzur, Naxçıvan, İrəvandakı fəlakətə duçar olanlara Müavinət Komitəsinin köməyi ilə Araz vadisi üçün yardım kampaniyasına başlayaraq, müsəlman mühacirlərin dərdlərinə dərman tapmağa çalışırdılar.[5] 1919-cu ilin axırlarından etibarən Azərbaycanın Naxçıvan valisi Səməd bəyin xanlarla, bir müddət sonra da Xəlil bəylə münasibətləri pisləşdi. Azərbaycan mənbələrinə görə Kəlbalı xanın başına yığdığı xanlar İranla birləşmək və beləcə öz idarəetmə sistemlərini yaratmaq istəyirdilər. Bu məqsədlə Azərbaycanın əleyhinə iş aparır və bir çox haqsız işlərlə məşğul olurdular.[6] Əvvəlcə, Xəlil bəy Səməd bəylə xanların arasındakı münasibətləri düzəltməyə çalışdığı halda, özünün də Səməd bəylə münasibəti pozuldu. Raportda qeyd edildiyi kimi, Səməd bəy Naxçıvanda türk təbəəsinin olmasından narahat olur və bunun əleyhinə iş aparırdı.[7] Azərbaycanın Ermənistanla müqavilə bağlamasına çalışması

[1] «Azərbaycan» qəzeti. Bu məlumatı 19 sentyabr 1919-cu il tarixli «Azərbaycan» qəzetindən almışdır («Al bayraq», 30 oktyabr 1919, № 40).
[2] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 93.
[3] Azərb. Resp. MDEYTA, f. 970, op. 1, s. 104, v. 2-3; Hacıyev. Qars və Araz-Türk respublikaları tarixindən. s. 96-97.
[4] Azərb. Resp. MDEYTA, f. 897, op. 1, s.116, v. 11-14; Azərb. Resp. MDEYTA, f. 894, op. 10, s. 94, v. 9-15.
[5] Al bayraq», 12 aprel 1920, № 83.
[6] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 99-102.
[7] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-3.

və bilavasitə Səməd bəyin də bu fikirdə olması Xəlil bəyi olduqca narahat edirdi. Münasibətlər pozulmağa başladı. İrəvandakı Azərbaycan elçisi Ə.Haqverdiyev hökumətdən Xəlil bəyin geri çağrılmasını, Səməd bəy isə təcili tədbirlər görülməsini və onun yerinə təcrübəli bir şəxsin təyin olunmasını tələb edirdi.[1] Ancaq Haqverdiyev və Cəmillinskinin təklifləri yerinə yetirilməmiş, Xəlil bəy Türkiyə mövqeyini nəzərə alaraq 1920-ci ilin mart ayının ortalarında Səməd bəy Cəmillinskini Naxçıvandan çıxartdı və yerinə azərbaycanlı Qara bəy adlı birini vali təyin etdi.[2] Azərbaycan hökuməti Xəlil bəyin bu sərt tədbirindən narazı qalmışdı.[3] Ancaq Azərbaycan ilə Naxçıvan münasibətlərində soyuqluq çox uzun çəkmədi. Belə ki, 27 aprel 1920-ci ildə Bakının XI Qızıl Ordu hissələri tərəfindən işğalı ilə Azərbaycanda sovet dövrü başladı.[4] Buna görə də Naxçıvan Azərbaycan münasibətləri müvəqqəti donduruldu.

*İbrahim Ethem Atnur. Muxtariyyat ərəfəsində Naxçıvan. NDU, «Qeyrət» nəşriyyatı, 1999, s.22-31, 34-72, 89-179, 211-267.*

[1] Hacıyev. Qars və Araz-Türk respublikaları. s. 105-107.
[2] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-3. «Cümhuriyyət», 20 may 1933, № 3244.
[3] ATASE A. 5/2793, kls. 814, s. 5-9, f. 128-3.
[4] Ətraflı məlumat üçün bax: M.Ə.Rəsulzadə. Azərbaycan cümhuriyyəti, s. 107-11; Məmməd Şərif Əfəndizadə. Azərbaycan və inqilabı. İst., 1921, s. 40-44; Kazımzadə. Zaqafqaziya. s. 276-285; N.Nəsibzadə Azərbaycan Demokratik Respublikası. Bakı, 1990, s. 38-41; Z.İbrahimov. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi. B.,1957, s. 574-576; Eray Kürçüoğlu. 1918-1920 Türkiyə-Azərbaycan münasbətləri. (Nəşr olunmamış doktorluq dissertasiyası), Ərzurum, 1994, s. 406.






*Azərbaycan nümayəndə heyətinin Paris Sülh konfransına təqdim etdiyi xəritə. İyun 1919-cu il*




*Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər)*






*Naxçıvan Araz-Türk Respublikası (noyabr1918 –mart 1919)*




*Cənub-Qərbi Qafqaz Respublikası*
*(dekabr1918-aprel 1919)*






*Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər).*
*Naxçıvan qəzası.*




*Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər).*
*Şərur-Dərələyəz qəzası.*





*Naxçıvan şəhərində Araz-Türk Respublikasının qərargahının yerləşdiyi bina*



*Fətəli xan Xoyski.*
*Nazirlər Şurasının sədri (1, 2, 3-cü kabinə)*



*Nəsib bəy Yusifbəyli.*
*Nazirlər Şurasının sədri*
*(4,5-ci kabinə)*



*Məmməd Həsən Hacınski.*
*Azərbaycan Xalq Cümhuriyyətinin*
*ilk xarici işlər naziri*



*Məmməd Yusif Cəfərov.*
*Azərbaycan Xalq Cümhuriyyətinin*
*IV hökumət kabinetində*
*xarici işlər naziri*



*Mir Hidayət bəy Seyidov*
*yoldaşı Şövkət xanım*
*Kazımbəyova ilə*





*Mirzə Nəsrullah Əmirov*



*Behbud ağa Şahtaxtinski*



*Məmməd xan Təkinski*



*Yuxarıda sağdan 1-ci Cəfərqulu xan, 2-ci Rəhim xan, aşağıda sağdan 1-ci III Kalbalı xan Naxçıvanskilər*





*Bəhram xan və Kamran xan Naxçıvanskilər*



*Əkbər xan Naxçıvanski*



*Əli Səbri Qasımov*



*Polkovnik Yusif bəy Tahirov*



***Polkovnik***
***İbrahim bəy Qədimov***



***Sağdan 4-cü Kərim xan İrəvanski***



# MÜNDƏRİCAT


İsmayıl Hacıyev. Azərbaycan Xalq Cümhuriyyəti ilə Naxçıvanın əlaqələrinə dair...... 3
Докладная записка в правительство АР о положении мусульман в г. Ордубаде и его окрестностях ....21
Ordubad şəhəri və onun ətrafındakı müsəlmanların vəziyyətinə dair Azərbaycan Respublikası hökumətinə məruzə-məktub .... 22
Донесение дипломатического представителя Азербайджана в Иране А.Х.Зиатханова в министерство иностранных дел о предприятых мерах по прекращению нападений армяи на Нахичевань и Ордубад .... 23
Azərbaycanın İrandakı diplomatik nümayəndəsi A.X.Ziyadxanovun ermənilərin Naxçıvan və Ordubada hücumlarının dayandırılması üçün görülmüş tədbirlər haqqında xarici işlər nazirliyinə raportu .... 24
Сообщение дипломатического представителя Азербайджана в Армении м.х. Текинского председателю совета министров Н.Ю. Усуббекову о вручении им ноты правительству армении по поводу вторжения армянских войск в Нахичевань .... 25
Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin erməni qoşunlarının Naxçıvana soxulması xüsusunda notanın onun tərəfindən Ermənistan hökumətinə təqdim edilməsi barəsində nazirlər şurasının sədri N.Y.Yusifbəyova məlumatı .... 26
Телеграмма дипломатического представителя Азербайджана в Армении М.Х. Текинского председателю совета министров Н.Ю. Усуббекову о намерении британского командования передать Армении Шаруро-Нахичеванский район ....27
Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Britaniya komandanlığının Şərur-Naxçıvan rayonunu Ermənistana vermək niyyəti barəsində nazirlər şurasının sədri N.Y.Yusifbəyova teleqramı .... 28
Депеша дипломатического представителя Азербайджана в Армении М.Х. Текинского министру иностранных дел М.Ю. Джафарову о бойкоте населением Нахичевани армянской администрации .... 29
Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Naxçıvan əhalisi tərəfindən erməni administrasiyasının boykot edilməsi haqqında xarici işlər naziri M.Y.Cəfərova depeşası .... 29
Телеграмма дипломатического представителя Азербайджана в армении М.Х. Текинского министру иностранных дел М.Ю. Джафарову о необходимости оказания помощи объединенному национальному совету Шаруро-Нахичевани и Ордубада для противодействия возможным враждебным акциям со стороны армении .... 30
Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Ermənistan tərəfindən gözlənilən düşmənçilik əməllərinə qarşı çıxmaq üçün Şərur-Naxçıvan və Ordubadın birləşmiş milli şurasına yardım göstərilməsi zərurəti haqqında xarici işlər naziri M.Y.Cəfərova teleqramı .... 31
Депеша дипломатического представителя Азербайджана в Армении М.Х. Текинского министру иностранных дел М.Ю. Джафарову об оккупации армянскими войсками Нахичеванского и Шаруро-Даралагезского уу .... 32
Azərbaycanın ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Naxçıvan və Şərur-Dərələyəz qəzalarının erməni qoşunları tərəfindən işğal olunması haqqında xarici işlər naziri M.Y.Cəfərova depeşası .... 33

Телеграмма дипломатического представителя Азербайджана в Армении М.Х. Текинского министру иностранных дел М.Ю.Джафарову о приказе командования британскими силами в закавказье прекратить военные действия против Азербайджанцев в Нахичеванн и Беюк Веди....................................................34
Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.X.Təkinskinin Zaqafqaziyadakı Britaniya qüvvələri komandanlığının Naxçıvan və Böyük Vedidə azərbaycanlılara qarşı hərbi hərəkətlərin dayandırılmasına dair əmri haqqında xarici işlər naziri M.Y.Cəfərova teleqramı ............................................... 35
Письмо союзного Верховного комиссара на Кавказе В. Гаскеля председателю правительства АР Н.Усуббекову об условиях создания американского генерал-губернаторства в Нахичевани.........................................................................................36
Qafqazda müttəfiqlərin ali komissarı V.Haskelin Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması şərtləri haqqında Azərbaycan Respublikası hökumətinin sədri N.Yusifbəyova məktubu ..................................................................... 39
Телеграмма полковника Гаскеля министру иностранных дел М.-Ю.Джафарову с требованием передачи американцам Нахичеванского и Шаруро-Даралагезского округов.................................................................................. 42
Polkovnik Haskelin Naxçıvan və Şərur-Dərələyəz dairələrinin amerikalılara verilməsi tələbinə dair xarici işlər naziri M.Y.Cəfərova teleqramı .................................................. 42
2-й Проект Гаскеля.................................................................................................................43
Haskelin 2-ci layihəsi.............................................................................................................. 44
Донессние дипломатического представителя АР в Грузии министру иностранных дел М.-Ю.Джафарову о беседе с полковником Гаскелем по вопросу создания «нейтральной» зоны в районе Шарура и Нахичевани .................................................. 45
Azərbaycan Respublikasının Gürcüstandakı diplomatik nümayəndəsinin Şərur rayonunda və Naxçıvanda "neytral" zonanın yaradılması məsələsinə dair polkovnik Haskellə etdiyi söhbət haqda xarici işlər naziri M.Y.Cəfərova məlumatı .................................................. 47
Телеграмма министра иностранных дел М.Ю.-Джафарова полковнику Гаскелю о согласии правительства АР с требованием США создать особое Нахичеванское генерал-губернаторство...................................49
Xarici işlər naziri M.Y.Cəfərovun polkovnik Haskelə Azərbaycan Respublikası hökumətinin ABŞ-ın tələbi ilə xüsusi Naxçıvan general-qubernatorluğunun yaradılmasına dair razılığı haqqında teleqramı..........................................................................49
Телеграмма полковника Гаскеля министру иностранных дел М.-.Джафарову.........................................................................................................................50
Polkovnik Haskelin xarici işlər naziri M.Y.Cəfərova teleqramı ....................................... 51
Письмо министру иностранных дел М.-Ю.Джафарова союзному Верховному комиссару полковнику Гаскелю .......................................................................................52
Xarici işlər naziri M.Y.Cəfərovun müttəfiqlərin ali komissarı polkovnik Haskelə məktubu ...................................................................................................... 54
Проект соглашения по вопросу управления Нахичеванским и Шаруро-Даралагезским уездами между союзным Верховным комиссором в Закавказье полковиником Гаскелем и Азербайджаиским правительством ..................56
Naxçıvan və Şərur-Dərələyəz qəzalarının idarə edilməsi məsələsi üzrə Zaqafqaziyada müttəfiqlərin ali komissarı polkovnik Haskellə Azərbaycan hökuməti arasındakı sazişin layihəsi ............................................................................ 57
Сообщение о предиологающемся образовании американского генерал-губернаторства в Нахичевани ..........................................................................58
Naxçıvanda Amerika general-qubernatorluğunun nəzərdə tutulmuş təşkili haqqında məlumat ............................................................................................................ 59
Из объявления союзного Верховного комиссара в Закавказье об образаванин амернканского генерал-губернаторства в Нахичевани...................................60
Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılması haqqında Zaqafqaziyada müttəfiqlərin ali komissarının elanından ...................................................................62
Отношение вр. И.д. Нахичеванского генерал-губернатора С.Джамиллинского представителю Азербайджана в Армении А.Ахвердову о получении полк. Дэлли полномочий представителя США в Нахичевани..........................................................64
Naxçıvanın general-qubernatoru işlərini müvəqqəti icra edən S.Cəmillinskinin polkovnik Dellinin ABŞ-ın Naxçıvandakı nümayəndəsi səlahiyyətlərini almasına dair Azərbaycanın Ermənistandakı nümayəndəsi Ə.Haqverdiyevə təliqəsi.......................................................65
Докладная записка уполномоченного президиума землячества мусульман юго-западного Азербайджана А.С.Касимова председателю совета министров Н.Ю.Усуббекову о необходимости содействия в переговорах с армянским правительством по поводу обмена незакоино арестованых видных общественных деятелей Нахичевани.......................................................................... 66
Cənub-qərbi Azərbaycanın müsəlman həmyerliləri cəmiyyəti rəyasət heyətinin müvəkkili Ə.S.Qasımovun nazirlər şurasının sədri N.Y.Yusifbəyova Naxçıvanın qeyri-qanuni həbs olunmuş görkəmli ictimai xadimlərinin dəyişdirilməsi məsələsi ilə bağlı Ermənistan hökuməti ilə danışıqlara köməklik göstərilməsi zəruriliyi haqqında məruzə məktubu ................................................................................68
Azərbaycan Respublikasının Nazirlər Şurasının cənab Sədrinə ............................... 70
Qanlı günlərimiz ........................................................................................................71
Əli Əliyev. Araz-Türk Respublikası ............................................................................ 93
Araz-Türk Respublikasının yaranması və dövlətçiliyin qorunması üçün silahlı mübarizə ................................................................................ 97
İngilislərin bölgələrlə bağlı mövqeyindəki ziddiyyətlər ........................................... 160
Naxçıvan mahalında Amerika general-qubernatorluğu məsələsi...............................173
Cənub-Qərbi Qafqaz Respublikası ilə əlaqələr və Naxçıvan məsələsi.........................209
ABŞ-ın Qafqaza marağının güclənməsi və Azərbaycan............................................232
Naxçıvan Araz Respublikası..........................................................................................264
Меры по устоиовлению власти в некоторых областьях республики.........................266
Respublikanın bəzi vilayətlərində hakimiyyətin bərqərar edilməsi üzrə tədbirlər ..... 271
Batum konfransında Naxçıvan məsələsi.........................................................................276
Naxçıvanda türk (Azərbaycan) idarəsinin yaradılması. Naxçıvan türk ordusunun gəlişinə qədər ...................................................................... 280
Andranikin fəaliyyəti və müsəlman əhaliyə edilən zülmlər........................................ 287
Yerli və inzibati təşkilatların yaradılması .................................................................... 294
Araz-Türk hökumətinin qurulmasına gedən yol ........................................................ 298
Hökumətin qurulması və fəaliyyəti ...............................................................................307
Ermənilərə qarşı aparılan mübarizələr ........................................................................ 320
Araz-Türk hökumətinin süqutu .................................................................................... 334
Araz-Türk hökumətinin Qars Müsəlman Şurası hökumətinə birləşməsi məsələsi ................................................................................................ 336
Naxçıvan hökumətləri ................................................................................................... 342
Naxçıvan Türkiyə və Azərbaycanın nəzarəti altında. Azərbaycan üçün Naxçıvan məsələsi ......................................................................... 359

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ VƏ NAXÇIVAN**

*Texniki redaktoru və dizayneri:*
**Rafael Babayev**

Yığılmağa verilmiş 14.10.2010.
Çapa imzalanmış 22.11.2010.
Formatı 70X100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 48 ç.v.
Sifariş № 979. Tiraj 1000 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.